AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# QARABAĞ:

# FOLKLOR DA BİR TARİXDİR

## I KİTAB

**(Ağdam, Füzuli, Ağcabədi, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarından toplanmış folklor örnəkləri)**

**BAKI – 2012**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**“Qarabağ folklorunun toplanması, sistemləşdirilməsi və araşdırılması” adlı layihə əsasında çap olunur.**

**LAYİHƏNİN RƏHBƏRİ:** **fil.ü.e.d. Muxtar KAZIMOĞLU (İMANOV)**

**TOPLAYICILAR:** **fil.ü.f.d. İlkin RÜSTƏMZADƏ**
**Zəfər FƏRHADOV**

**TƏRTİB EDƏNLƏR:** **fil.ü.f.d. İlkin RÜSTƏMZADƏ**
**Zəfər FƏRHADOV**

**REDAKTORU:** **fil.ü.f.d. Ləman SÜLEYMANOVA**

**NƏŞRİNƏ MƏSUL:** **fil.ü.f.d. Əziz ƏLƏKBƏRLİ**

**Qarabağ: folklor da bir tarixdir, I kitab (Ağdam, Füzuli, Ağcabədi, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarından toplanmış folklor örnəkləri)**. Bakı, “Elm və təhsil”, 2012, 464 səh.

İSBN – 9-789952-810851

M 4603000000 Qrifli nəşr
N-098-2012

© Folklor İnstitutu, 2012



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## İNSTİTUTDAN

Qarabağ folklorunun toplanması tarixi, əsasən, XIX əsrdən başlanır. Əlbəttə, bu dövrə qədərki bir çox əlyazmalarda Qarabağdan toplanmış və ya Qarabağdan toplanmasa da, bu bölgəyə aid folklor nümunələrinin mövcudluğu istisna olunmur. Amma XIX əsrdə artıq mətbuat səhifələrində Qarabağ folkloru ilə bağlı məlumatlar və nümunələr çap olunmağa başlayır. "Tiflis əxbarı"nda, eləcə də həmin əsrin ortalarında nəşr olunan bir çox digər mətbuat orqanlarında Qarabağ və onun tarixi-etnoqrafik mənzərəsi haqqında məlumatlara rast gəlirik. Bu baxımdan "Kafkaz" qəzetinin mövqeyini xüsusi qeyd etmək olar. Çünki bu qəzetdə ardıcıl olaraq folklor nümunələri, o cümlədən Qarabağ folkloruna aid örnəklər rus dilinə tərcümə edilərək çap olunmuşdur. Qarabağ folklorunun toplanıb nəşr olunduğu ən zəngin qaynaqlardan biri "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu" – QƏXTMT – SMOMPK məcmuəsidir. Bu toplunun 1881-1929-cu illərdə 46 cildi nəşr olunmuşdur. Topluda Azərbaycanın başqa bölgələri ilə yanaşı, Qarabağ bölgəsindən toplanmış folklor nümunələri də öz əksini tapmışdır.

XIX əsrdə yazılan məşhur "Qarabağnamə"lərdən təkcə tarixlə yox, həm də bölgənin mədəniyyəti və folkloru ilə bağlı təsəvvür əldə etmək mümkündür.

XX əsrin əvvəllərində Qarabağ bölgəsindən folklor nümunələri daha geniş miqyasda toplanmış və nəşr edilmişdir. Ceyhun bəy Hacıbəylinin "Qarabağın dialekti və folkoru" kitabı fransız dilində Parisdə nəşr olunmuş və sonralar Azərbaycan dilinə tərcümə edilərək Bakıda işıq üzü görmüşdür. Bölgə folklorunun toplanmasında 1923-cü ildə yaradılmış "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti"nin xüsusi rolu olmuşdur. Bu cəmiyyətin xətti ilə bölgədən xeyli folklor materialı və etnoqrafik məlumat qeydə alınmışdır. Bu dövrdə A.V.Baqrinin redaktorluğu ilə rus dilinə tərcümə edilərək litoqrafik üsulla 1930-cu ildə çap edilən "Azərbaycanın və ətraf ərazilərin folkloru" üçcildliyində Qarabağ bölgəsinin folkloruna aid zəngin nümunələr vardır. Burada başqa materiallarla yanaşı, təkcə Şuşadan top-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

lanan 20-dən çox nağıl öz əksini tapmışdır. Sovet dövründə toplanmış və nəşr olunmuş müxtəlif folklor toplularında, təbii ki, Qarabağ bölgəsinə aid folklor nümunələrinə də yer verilmişdir.

Qarabağ folklorunun toplanması və nəşr olunması işi keçən əsrin 80-ci illərinin sonunda Qarabağda baş qaldıran separatizm hərəkatından sonra daha da sürətlənmişdir. Ayrı-ayrı müəlliflərin Qarabağ folkloruna, Qarabağın müxtəlif bölgələrindən toplanmış el ədəbiyyatı nümunələrinə aid kitabları çap edilmişdir. Separatizmdən sonrakı dövrdə folklorşünas alimlərin Qarabağ folkloru ilə bağlı ilk toplama və tərtib işlərindən biri 2000-ci ildə oxuculara çatdırılmışdır. «Azərbaycan folkloru antologiyası»nın V cildi kimi buraxılan həmin kitabdakı materialları İsrafil Abbaslı, Təhmasib Fərzəliyev və Nəcəf Nazim (Quliyev) toplamışdır. Kitabın tərtibçisi İ.Abbaslının yazdığı "Ön söz"dən məlum olur ki, nümunələr 1988-1989-cu illərdə qeydə alınmışdır. Kitab iki hissəyə ayrılmış, birinci hissəyə Yuxarı Qarabağ və Ağdamdan toplanan nümunələr, ikinci hissəyə isə Cəbrayıl, Füzuli, Ağcabədi, Tərtər, Bərdə, Yevlax rayonlarından toplanan nümunələr daxil edilmişdir. İ.Abbaslı "Ön söz"də Qarabağ folklorunun toplanıb nəşr edilməsi işində son dərəcə gecikdiyimizi dərin təəssüf hissilə vurğulayır. Əlbəttə, Qarabağ folklorunu əlvanlığı və zənginliyi ilə əks etdirmək işində nəinki bir, hətta bir neçə kitab belə yetərli deyil. Bu sahədəki boşluğu müəyyən qədər doldurmaq, Qarabağı özümüzə və dünyaya daha yaxından tanıtmaq üçün Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunda «Qarabağ folklorunun toplanması, sistemləşdirilməsi və araşdırılması» üzrə xüsusi layihə hazırlanmış və institutun bir çox əməkdaşları layihənin icrasına cəlb edilmişdir. Adından göründüyü kimi, layihədə əsas məqsəd Azərbaycanın ayrılmaz bir hissəsi olan Qarabağı folklor mühiti kimi diqqət mərkəzində saxlamaq, onun qeyri-maddi mədəni irsini toplamaq, sistemləşdirmək, arxivləşdirmək, nəşr etmək, araşdırmaq və təbliğ etməkdir. Layihədə məqsəd həm də bölgənin folklor resurslarını müəyyənləşdirmək, eləcə də bu bölgənin sosial-mənəvi həyatında folklorun iştirakının aktivlik dərəcəsi haqqında müəyyən təsəvvür əldə etməkdir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Azərbaycanda mövcud olan folklor mühitlərini vahid folklor arealının tərkib hissələri kimi sahə tədqiqatlarına cəlb etmək olduqca vacib məsələdir. Bu məsələ ilə bağlı layihədə aşağıdakı vəzifələr nəzərdə tutulmuşdur:

1. Qarabağ bölgəsinə və bu bölgədən olan məcburi köçkünlərin kompakt yaşadığı yerlərə folklor ezamiyyələrinin təşkil edilməsi və toplama işlərinin aparılması;

2. toplama materiallarının sistemləşdirilməsi və arxivləşdirilməşi;

3. toplanmış materialın dəyərləndirilməsi ilə bağlı seminar, konfrans və simpoziumların keçirilməsi;

4. toplanmış materiallarla bağlı tədqiqat mövzularının müəyyənləşdirilməsi və elmi araşdırmaların aparılması;

5. toplanmış nümunələrdən ibarət topluların nəşrə hazırlanması;

6. mərasimləri, xalq oyun və tamaşalarını, musiqi folklorunu əks etdirən videomaterialların hazırlanması və s.

Folklor söyləyiciləri ilə birbaşa və canlı təmasın yaradılması, fasiləsiz ünsiyyətin təmin edilməsi layihədə nəzərdə tutulan işlərin həyata keçirilməsində ən mühüm şərtlərdən biridir. Çünki toplayıcı ilə söyləyici arasında ünsiyyət yaradıldıqdan, bu ünsiyyət fasiləsiz xarakter aldıqdan sonra folklor nümunələri kitablara statik mətn kimi deyil, insanların duyğularını tərpədən, yaddaşını hərəkətə gətirən dinamik mətn kimi daxil olur. Nəzərdə tutulmuşdur ki, söyləyicilərdən necə var, o şəkildə toplanmış, dil və üslub, o cümlədən dialekt və şivə xüsusiyyətləri qorunub saxlanmış mətnlər əsasında hər biri təxminən beş yüz səhifəyə yaxın Qarabağ folklor topluları çap edilsin.

Topluları bir ad – "Qarabağ: folklor da bir tarixdir" adı altında nəşr etmək fikrindəyik. Düşünürük ki, bu ad mənəviyyatımızın güzgüsü və sözün geniş mənasında ən etibarlı tarixi olan folklora diqqəti artıra biləcək bir addır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## TƏRTİBÇİLƏRDƏN

Dağlıq Qarabağ və ona yaxın ərazilərin işğalından sonra yüz minlərlə insan öz doğma torpaqlarından didərgin düşmüş və Azərbaycanın müxtəlif bölgələrinə səpələnmişdir. Bu da öz növbəsində köçkün həyatı yaşayan Qarabağ sakinlərinin yaddaşındakı şifahi yaradıcılıq nümunələrinin, bölgədəki tarixi-coğrafi məkanlarla, övliyalarla, müqəddəs ocaqlarla bağlı mətnlərin, o cümlədən nağılların, bayatıların və s. toplanmasını zərurətə çevirmişdir. Çünki söyləyicilik ənənəsinin zəifləməsi folklor nümunələrinin yaşlı nəsildən gənc nəslə ötürülməsi prosesinin xeyli zəifləməsinə səbəb olmuşdur. Bunun nəticəsidir ki, bu gün özünü qarabağlı sayan, lakin oradakı tarixi-coğrafi məkanlar, müqəddəs ocaqlar, ümumiyyətlə, Qarabağ folkloru haqqında əsaslı təsəvvürü olmayan yeni bir nəsil formalaşmaqdadır. Qarabağ sakinlərinin yaddaşındakı folklor nümunələrini toplamaqla biz nəinki həmin nümunələri məhv olmaqdan xilas edirik, həm də gənc nəslin doğma tarixi-coğrafi məkanı, həmin məkanın folklorunu, etnoqrafiyasını daha yaxından tanımasına kömək etmiş oluruq. Belə ki, Qarabağdan toplanmış istənilən folklor mətni özündə bu bölgənin etnoqrafiyası, dili, tarixi, məişəti, coğrafiyası haqqında informasiya daşıyır. Qarabağın qədim türk yurdu olduğunu və onun hər bir daşında, torpağında türkün izi olduğunu folklor nümunələri bir daha əsaslı şəkildə göstərmiş olur.

AMEA Folklor İnstitutunun xətti ilə ilk Qarabağ toplusu 2000-ci ildə dərc olunmuşdur (Azərbaycan folkloru antologiyası, V kitab. Qarabağ folkloru. Bakı: "Nurlan" nəşriyyatı). Həmin kitaba daxil edilmiş folklor nümunələrinin toplandığı 1988-1989-cu illər Ermənistanın Azərbaycana qarşı təcavüzünün, ərazi iddialarının yenicə baş qaldırdığı dövr idi. Qərbi Azərbaycandan Ağdama ilk qaçqın dəstəsinin gəlməsi, ermənilərin separatçı mitinqlərinin geniş vüsət alması insanların içində bir narahatçılıq, bir çaşqınlıq yaratsa da, qarabağlı soydaşlarımız gələcəkdə onları gözləyəcək təhlükələrdən xəbərsiz bir həyat sürürdülər. Bu kitaba daxil edilmiş folklor nümunələri həmin insanların öz doğma yurd-yuvalarından, isti ocaqlarından didərgin düşdükləri, Azərbaycanın dörd bir tərəfi-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nə səpələndikləri, qaçqınlıq həyatı yaşamağa məhkum olduqları bir dövrdə qeydə alınmışdır. Topluya daxil edilmiş folklor nümunələrinin qeydə alındığı coğrafiyaya diqqət yetirəndə bunu aydın şəkildə görmək mümkündür. Folklor nümunələrini biz Ağdam sakinindən Ağdamda deyil, Ağdaşda, Füzuli sakinindən Bakıda, Cəbrayıl sakinindən İmişlidə və s. qeydə almışıq. Buna baxmayaraq, hər bir folklor mətni öz mühitinin məhsuludur. Harada qeydə alınır alınsın, nümunələrin hər biri özündə Qarabağın toponomikasını, etnoqrafik cizgilərini əks etdirir.

Qarabağı digər regionlardan fərqləndirən cəhətlərdən biri də bu bölgənin folklorunun toplanılmasının xüsusi diqqət və hazırlıq tələb etməsidir. Çünki qaçqınlıq həyatı bu insanları xeyli kövrəltmiş, onları daha da həssas etmişdir. Toplama zamanı bu insanların içindəki yaranı qopartmamağa, o acılı günləri onlara xatırlatmamağa nə qədər diqqət göstərsək də, çox vaxt buna nail olmaq mümkün olmurdu. Hər dəfə görürdük ki, doğulduqları, böyüyüb boya-başa çatdıqları yerləri yada saldıqca bu insanların gözləri dolur, qəhərdən boğula-boğula danışırlar.

Toplama zamanı təmasda olduğumuz söyləyicilərin böyük əksəriyyəti 60-90 yaş aralarında olmuşdur. Əslində söyləyicilərin hamısının yaşlı nəslin nümayəndəsi olmasının səbəbkarı biz deyildik. Çünki söyləyiciləri biz seçmirdik, tanıdığımız, soraqlaşdığımız adamlar həmin şəxslərin ünvanını nişan verirdilər. Bu da onu göstərir ki, həmin insanlar zəngin repertuarı, gözəl söhbətləri ilə ətrafda tanınırlar. Əslən Ağdam rayonundan olan, amma sonradan məcburi köçkün kimi Ağdaş rayonunun Qumlaq kəndində məskunlaşmış Əli Rəmdar oğlu Seyidov məhz belə söyləyicilərdəndir. O, Qumlaq kənd camaatı arasında öz baməzə söhbətləri ilə ad çıxarmış, tanınmışdır. Kənd sakinlərindən maraqlı söhbət edən, yaxşı lətifə, nağıl, rəvayət bilən bir insan tanıyıb-tanımadıqlarını xəbər alanda bizə Əli kişinin ünvanını göstərmələri də bir daha bunu təsdiq edir. Onunla tanış olandan sonra gördük ki, kənd sakinlərinin nişan verdiyi Əli kişi, həqiqətən də, öz maraqlı əhvalatları, gülməli hekayətləri ilə dinləyicini ələ almağı bacaran bir şəxsdir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Uzunmüddətli toplama prosesində klassik anlamda başa düşdüyümüz professional söyləyicilərə, yəni "çörəyi məhz söyləyicilikdən çıxan" informatorlara rast gəlmədik. Amma məlum oldu ki, 1970-ci illərin sonu, 80-cı illərin əvvəllərinədək bu ənənə qismən də olsa davam edirmiş. Söyləyicilərin xatırladıqlarına görə, bu və ya digər bir aşıq, professinoal nağıl söyləyicisi müəyyən bir kənddə tanıdığı, yaxın əlaqələrə malik olduğu bir şəxsin evinə düşər, bir neçə gün orada çal-çağır edər, müəyyən dastan və nağıllar söyləyər, bunun müqabilində isə kənd camaatı onun haqqını, zəhmətini pul və digər vasitələrlə ödəyərmiş. Professional söyləyicilərə bu gün rast gəlməsək də, yaxşı yaddaşa, gözəl təhkiyə manerasına, zəngin repertuara malik, ünsiyyətcil, həm də bildiyi folklor nümunələrini böyük həvəslə söyləyən söyləyiciləri tapmaq mümkündür. Bunlar, adətən, uşaqlıqdan böyüklərin məclisində oturmağa, "köhnə söhbətləri" dinləməyə marağı olan, eyni zamanda eşitdikləri nümunələri sonrakı nəslə ötürməkdə də fəal olan söyləyicilərdir. Buna misal olaraq, Ağdam rayon sakini Əli Rəmdar oğlu Seyidovun və Cəbrayıl rayon sakini Gözəl Behbud qızı Təhməzovanın (2012-ci ildə vəfat edib) adını çəkmək olar. Topluya daxil edilmiş folklor nümunələrinin, demək olar ki, üçdə biri məhz bu iki söyləyicinin repertuarına məxsusdur. Belə söyləyicilərin bu gün də yaşaması əslində bizi hərəkətə gətirməli, onların hafizəsindəki folklor nümunələrini toplayıb xalqa, gələcək nəslə çatdırmalıyıq. Unutmaq olmaz ki, bu gün aktiv şəkildə ifa olunan hər hansı bir folklor nümunəsi sabah öz auditoriyasını itirərək dövriyyədən çıxa bilər (məsələn, dastanlar, xalq tamaşaları kimi). Bu isə bizim nəzarət edə və yönəldə bilməyəcəyimiz bir prosses olduğundan yalnız vaxtında toplama işlərini həyata keçirməklə təsəlli tapa bilərik.

Bəzən söhbətləşməyə meyil etməyən, bildiklərini bölüşməkdə maraqlı olmayan, hətta toplayıcıdan nəsə uman, bir sözlə, ən müxtəlif səbəblərdən "xəsislik" edən söyləyicilərə də rast gəlirsən. Bəzən camaat arasında "ən yaxşı o bilir", "daha çox o, belə şeylər danışır" kimi nişan verilən şəxslər – söyləyicilər isə toplayıcılarla ünsiyyətə başlayan kimi özlərini itirir, həyəcanlanır, nəticədə, özləri demişkən,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

“bütün bildiklərini yaddan çıxardırlar”. Bu hallarda onlar özləri etiraf edirlər ki, bəzən bütün günü “boyatı çağırırlar”, lakin yad bir şəxsi (toplayıcını) görən kimi hər şeyi unudurlar. Aydın olur ki, bu tip söyləyicilərin ünsiyyət yaratmaq, bildiklərini yad bir adamla (toplayıcı ilə) bölüşmək qabiliyyəti zəifdir. Bu cür faktlar həm də bir daha onu təsdiq edir ki, bir söyləyici ilə bir dəfə ünsiyyətdə, təmasda olmaq yekun bir qənaətə gəlmək imkanı vermir. Əslində toplayıcılıq elə bir prosesdir ki, o, hər bir potensial söyləyici ilə mütəmadi təmasda olmağı tələb edir. Məhz bu zaman söyləyici ilə toplayıcı arasındakı təmas daha səmimi və inandırıcı olur, söyləyici toplayıcıya artıq yad bir adam kimi deyil, doğma şəxs kimi baxır. Söyləyicinin toplayıcıya inamı artdıqca daha səmimi bir mühit yaranır ki, bu da çox vaxt toplayıcıya öz istədiklərini almaq imkanı verir. Digər bir tərəfdən, söyləyici ilə mütəmadi söhbət sanki onun (söyləyicinin) yaddaşını təzələyir, ilk vaxtlar çox şeyi xatırlamayan söyləyici getdikcə daha çox şeyləri xatırlamaqla yanaşı, söhbətləşməyə də həvəsli olur. Təcrübə göstərir ki, söyləyicidən birbaşa atalar sözü və məsəl deməyi xahiş edəndə çox vaxt müsbət bir nəticə hasil olmur. Amma uzunmüddətli təmas nəticəsində bir söyləyicidən onlarla atalar sözü və məsəl, bayatı qeydə almaq mümkündür.

Söyləyicilərin yaşı ilə yanaşı, onların yaşam tərzi, keçmiş və hazırkı durumu, məşğul olduqları sahələr, təhsilləri, söylədiyi mətnlərin mənbəyi və s. bu kimi faktlar da diqqət yetirdiyimiz məqamlardan olmuşdur, çünki bunların hamısı bu və ya digər dərəcədə yaddaşda formalaşan və sonradan söylənilən folklor mətninin hansı məzmunda və hansı formada gerçəkləşməsinə birbaşa təsir göstərir. Toplama zamanı bir daha aydın olmuşdur ki, hər bir söyləyicinin özünəməxsus söyləyicilik psixologiyası və repertuarı olur. Məsələn, uzun müddət sürücü işləyən bir söyləyicinin repertuarı ilə daim çölçülük edən söyləyicinin repertuarı fərqlidir. Toplama zamanı qadın və kişi söyləyicilərin hər birinin sanki ayrı-ayrı janrlar üzrə püxtələşdiyi, onların fərqli leksikon və ifa manerasının olduğu bir daha təsdiqlənir. Nümunə üçün deyə bilərik ki, qadınlar daha çox bayatı söyləməyə meyilli olduğu halda, kişilər lətifə söyləməyə maraq gös-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tərirlər. Amma hər iki cinsin nümayəndələrinin repertuarında peyğəmbər və övliyalarla, eləcə də ocaq və pirlərlə bağlı mətnlər geniş yer tutur. Bütövlükdə klassik söyləyicilik ənənəsi itməkdədir. Yaşlı söyləyicilərin söylədiklərinə əsaslanaraq, deyə bilərik ki, təxminən, 40-50 il bundan qabaq bir kənddə 4-5, bəlkə də, daha çox potensial söyləyici olarmış. Amma biz toplama prosesində bir kənddə yaxşı bir söyləyici tapanda sevinirdik. Bəzən elə kənd olurdu ki, ordan, necə deyərlər, əliboş qayıdırdıq. Camaatın dediklərindən belə məlum olurdu ki, sinəsi dolu adamlar çox olub, amma artıq dünyalarını dəyişiblər.

Söyləyicilər hansı şəraitdə yaşamalarından asılı olmayaraq, bizi həmişə xoş üzlə qarşılamışlar. İşin gərəkliliyini başa düşən söyləyicilər isə bizə əllərindən gələn köməyi etmişlər. Olub ki, söyləyicilərin evində gecələmişik. Bizə göstərdikləri hər cür köməyə, səmimi, mehriban münasibətə görə onların hamısına öz təşəkkürümüzü bildiririk.

Kitabda əksini tapan mətnlər ədəbi dil baxımından heç bir redaktəyə məruz qalmayan mətnlərdir. Onlara məzmun və forma dəyişikliyinə səbəb ola biləcək hansısa əlavələr edilməmişdir. Söyləyicilərlə zamandan və şəraitdən asılı olaraq, müxtəlif yerlərdə (evdə, həyətdə, iş başında və s.) söhbət aparılmışdır. Əksər hallarda söyləyicilərlə fərdi söhbət edilsə də, bəzən toplama prosesi bir neçə söyləyicinin birlikdə iştirakı ilə baş tutmuşdur. Nümunələrin diktofon vasitəsilə qeydə alınmasına çalışmış və çox vaxt buna nail olmuşuq. Lakin toplama zamanı bəzən diktofondan və digər texniki vasitələrdən istifadə etmək mümkün olmamışdır. Bunun iki əsas səbəbi olmuşdur: ya söyləyici ilə görüş təsadüfən baş tutmuş, toplayıcılar hazırlıqsız olmuşlar, ya da söyləyici, mətni diktofon və kameraya danışmaqdan imtina etmiş, nəticədə isə mətn əlyazma şəklində qeydə alınmışdır. Folklor nümunələri diktofon vasitəsilə yazıya alındıqdan sonra həmin nümunələrin kasetdən üzü köçürülmüşdür. Təbii ki, yazıya köçürmə prosesində şifahi nitq elementlərini (söyləyicinin fərdi nitq xüsusiyyətlərini, yamsılamaları, jestləri, mimikaları) olduğu kimi saxlamaq mümkün olmur. Bəzən dəfələrlə dinlənilsə də, hansısa bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sözün, şəkilçinin və səsin hansı məxrəcdə və nə cür söylənildiyi tam aydınlaşmır. Bütün bunlara baxmayaraq, yazıya köçürülən zaman mətnlərin dialekt və şivə əlamətləri, şifahi nitqin fonetik və sintaktik xüsusiyyətləri, eləcə də söyləyicinin fərdi nitq xüsusiyyətləri mümkün qədər saxlanılmışdır. Əgər hansısa bir məqamda söyləyicinin işlətdiyi söz və ifadə tam anlaşılmamışdırsa, yaxud yazıda öz əksini tapmamışdırsa (mətn qeydə alınarkən qəflətən söyləyicinin nitqi ilə eyni zamanda yad bir səsin də diktofonun yaddaşına düşməsi, texniki nasazlıq, söyləyicinin sözü unutması və s. səbəblərdən) belə hallarda məzmunun daha yaxşı anlaşılması üçün mətndə kontekstə müvafiq söz və ifadələr bərpa edilmişdir. Qeyd edək ki, belə hallar azlıq təşkil edir və həmin sözün (və ya sözlərin) mətnə tərtibçilər tərəfindən əlavə olunduğunu bildirmək üçün onlar çarpaz mötərizə içərisində verilmişdir.

Yalnız bir neçə mətn ədəbi dildə verilmişdir. Həmin mətnlərin bir qismi Çimnaz Abbasovadan qeydə alınmışdır. Laçın rayonunda yaşadığı vaxt eşitdiyi və hafizəsində saxladığı mətnləri sonradan o, özü yazıya köçürmüşdür. Biz də həmin mətnləri dil və üslubuna toxunmadan topluya daxil etmişik. Aşıq Qurbani və Mazan nənə pirləri haqqında məlumatlar da ədəbi dildə təqdim olunmuşdur.

Onu da qeyd edək ki, bəzən mətndə işlənmiş dialekt sözlərinin leksik baxımdan birbaşa hansı mənanı ifadə etdiyini aydınlaşdırmaq, izah etmək çətin olur. Belə hallarla qarşılaşmamaq üçün yaxşı olardı ki, dialekt sözlərinin mənası birbaşa söyləyicinin özündən soruşulub dəqiqləşdirilsin. Amma təəssüflər olsun ki, biz özümüz də bəzən buna əməl etməmişik. Belə hallarda həmin sözlərin mənasını işləndiyi kontekstdən çıxış edərək izah etməyə çalışmışıq.

Topluda bəzi süjetlər bir neçə variantda təqdim olunur. Ümumi başlıq altında verilsə də, həmin variantlar I mətn, II mətn yazılmaqla bir-birindən fərqləndirilmişdir.

Klassik folklorun müasirləşməsi, başqa məzmun və funksiya qazanması prosesi öz şərtlərini diqtə edən texniki inkişafın və bu inkişafa uyğun formalaşan auditoriyanın birbaşa təsiri altında baş verir. Klassik lətifələr, atalar sözü, tapmacalar, inamlar və s. bir çox



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

hallarda əvvəlki mövzu, məzmun və funksiyasını saxlaya bilmir və özünə yeni məzmun, yeni funksiya qazanır. Bu ən müxtəlif formalarda, mühitin, auditoriyanın, obrazların, mövzuların və s. dəyişilməsi şəklində baş verir, özü də, qeyd etdiyimiz kimi, bu proseslər bizim istəyimiz xaricində gedir. Bu dəyişilmələr heç də hər zaman uğurlu olmur, yeni yaranan bəzi folklor nümunələri sanki kollektivin yox, fərdin yaradıcılıq məhsulu kimi meydana çıxır. Nəticədə biz "yeni folklorun" yaranışını əyani şəkildə izləyə bilsək də, onun sonrakı taleyi haqqında fikir bildirməkdə çətinlik çəkirik. Amma bir fakt tamamilə aşkardır ki, klassik folklor müasirləşdikcə, auditoriyanın tələbinə uyğunlaşdıqca yeni dəyər qazanır, bütövlükdə isə köhnə ənənə əsasında yeni yaradıcılıq nümunələri meydana çıxır.

Toplanan mətnlər janr baxımından çox zəngindir. Nağıl, dini şəxslər və ocaqlarla bağlı rəvayətlər, lətifələr, atalar sözləri, bayatılar digər janrlara nisbətən çoxluq təşkil edir. Lakin bayatı bölgədə daha çox yayılan folklor janrı olduğundan nümunələr arasında xüsusi yer tutur. Görüşdüyümüz qadın söyləyicilərin, demək olar ki, hamısı bayatı söyləmişdir. Ümumiyyətlə, bölgədə bayatı bilməyən adama rast gəlmək çətindir. Təsadüfi deyil ki, hələ XVIII əsrdə Molla Vəli Vidadi şair dostu Molla Pənah Vaqiflə məşhur deyişməsində bu faktı poetik bir dillə belə ifadə etmişdir:

Külli-Qarabağın abi həyatı
Nərmü-nazik bayatıdır, bayatı.
Oxunur məclisdə xoş kəlimatı,
Ox kimi bağrını dələr, ağlarsan.

Adətən, bayatı daha çox ağır dərdli söyləyicilər tərəfindən söylənilir. Hətta bəzi dərdli söyləyicilər təkbaşına qalanda "gününü öz-özünə bayatı söyləməklə keçirir". Doğrudan da, bu qəbildən olan söyləyicilərin "çağırdıqları bayatılar" adamın "bağrını ox kimi dəlir". Onların dərdlərini hər dəfə yenidən tərpətdiyi üçün adam məyusluq hissi keçirir. İndiki vəziyyətdə isə bölgənin hər bir sakini "dərdin, qəmin, hicranın" ən ağırını daşıyır. Daha bayatı janr kimi hansısa bir fərdin yox, bütövlükdə bölgə sakinlərinin dərd-qəmlərinin poetik ifadə vasitəsinə çevrilib. Bu bayatılarda həm də "yeni"



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bir mövzudan – qaçqınlıq, köçkünlük, vətən həsrəti və sairdən söhbət gedir. Sanki bu janr yeni bir mərhələ yaşayır: bir tərəfdən ənənəvi bayatıların mövzuca dəyişməsini müşahidə ediriksə, digər tərəfdən formalaşma prosesi yaşayan nümunələrin şahidi oluruq. Məşhur bayatıların başqa bir variantda formalaşması göz qabağındadır:

Kitabın Gülüstandı,
Aç, oxu, gülüstandı.
Bülbülün göz yaşından
Bağçada gül islandı.

Bu bayatının yeni qeydə alınmış variantı isə belədir:

Kitabın Gülüstandı,
Aç, oxu, gülüstandı.
Qaşqının göz yaşından
Bağçada gül islandı.

Yaxud bu mövzuda olan digər nümunələrə diqqət yetirək:

Sumaxda yaxşı su var,
İçməyə yaxşı su var.
Dərtdən, qəmdən, hicrannan
Qaşqında yaxşısı var.

Gün getdi, sarı qaldı,
Getdikcə sarı qaldı.
Girov yoluna baxmaxdan,
Gözümdə sarı qaldı.

Başıma baş bağlaram,
Yuyaram, yaş bağlaram.
Gözlərəm, vətən qayıtmasa,
Bağrıma daş bağlaram.

Topluda bu cür nümunələr kifayət qədərdir.

Kitabda Cəbrayıl və ona yaxın rayonlarda məşhur bir övliya kimi tanınan məşhur Hacı Qaraman (Əhməd) Çələbi və onun nəslindən olan digər məşhur çələbilər haqqında ilk dəfə çap olunan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çoxlu rəvayətlər vardır. Kökcə Türkiyənin Qaraman bölgəsindən olduğu bildirilən çələbilər nəslinin yaxın keçmişimizdəki ictimai fəaliyyəti, demək olar ki, araşdırılmamışdır. 1937-ci il repressiyasında bölgə əhalisi arasında böyük nüfuz sahibi olan bu nəslin nümayəndələrinin bir hissəsi qətlə yetirilmiş, bir hissəsi isə sürgün edilmişdir. Bu ocaqdan çıxan çoxsaylı ziyalıların fəaliyyəti, əsasən, dini və dünyəvi maarifçilk istiqamətində olmuşdur. İnanırıq ki, çələbilərlə bağlı toplama işləri və araşdırmalar maraqlı nəticələrə gətirib çıxaracaqdır.

Son olaraq onu qeyd edək ki, topluya indiyə qədər heç bir kitabda rast gəlinməyən onlarla yeni süjet daxil edilmişdir. Hacı Qaraman, Seyid Həsən ağa, Füqəra Seyid, Hacı Qasım Çələbi, Alı Çələbi, Dağyunusun xəzinəsi və s. barədə süjetlər dediyimizə misal ola bilər. İnanırıq ki, "yeni" folklor nümunələri ilə zəngin olması və mətnlərin təbiiliyinin saxlanması baxımından bu kitab folklorşünaslar üçün, ümumiyyətlə, Azərbaycan folkloru ilə maraqlanan hər bir kəs üçün qiymətli mənbə olacaqdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# I. MİFLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR

## 1. İNSANIN YARANMASI

### I mətn

Cəbrayıl, Əzrayıl, Mikayıl üş qardaş oluf. Allah-tala bılara deyif ki, gedin bir az palçıx gətirin. Gediflər, Cəbrayıl götürəndə palçıx getmiyif, Mikayıl götürəndə getmiyif, Əzrayıl götürəndə gedif. Allah-tala bı palçıxdan adam qayırıf. Bı çox kobud oluf. Bını bir az yonuflar. O yerə tökülən yonqardan da mal qayırıflar. Mal canın yonqarıdı.

### II mətn

Bizim əjdadımız Adam atadı. Onu torpaxdan qayırıflar. Özü də ki, çox köntöy qayırmışdar. Görüflər ki, çox yoğundu, başdıyıflar bunu yonmağa. Yonduxca bunun yonqarın əənə atmıyıflar. Bir yerə topluyuflar. Bu yonqardan mal düzəldiflər. Adam atanın da yetmiş iki uşağı oluf.

### III mətn

Allah-tala hər şeydən qabax şeytanı yaradıf. Şeytan Allaha neçə il qullux eliyif. Şeytannan sohra Adəm atanı yaradıf. Adəm ata, rəvayətin dediyinə görə, Hindisdanda yaranıf, yerdən, torpaxdan, palçıxdan. Bu yaranannan sohra arvadı-zadı olmuyuf. Allah-tala şeytana əmr eliyir ki, Adəm ataya səjdə elə, baş əy. Şeytan deyir ki, mən onnan qabax dünyaya gəlmişəm. Mən Adəm ataya səjdə eləmərəm. O pirdən ki, arxası qatda çıxıllar ha, – arxaa pirə çevirmək ədəbsizdihdi, – onu, deyir, heylə qayırıflar ki, şeytan Adəm ataya baş əysin. Genə baş əymiyif, elə düzqulusuna çıxıf*. Şeytan Allah-talaya şikayət eliyir ki, mən saa Adəm atadan qabax neçə il qullux eləmişəm, mənim hakqımı ver. Allah-tala buna deyir ki, kim sənin sözunnan gedirsə, kim sənin buyruğaa baxırsa, sənin hakqaa onu verirəm. Sohradan Allah Adəm atanın qabırğasınnan Həvva nənəni yaradıf.

---

* düzqulusuna çıxmaq– arxası pirə tərəf çıxmaq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 2. MİZAN-TƏRƏZİ

Ayın üzündəki mizan-tərəzidi o dünya üçün. Guya yaxşılığnan pisi çəkir.

## 3. GÜN VƏ AY

### I mətn

Günəş qız, Ay oğlandı. Günəş deyif ki, ana, məni elə gözəl yarat ki, millət maa baxa bilməsin. Anası da deyif:

– A bala, saa göz dəyər axı.

Deyif:

– Onda nənə, maa baxanın gözünə iynələrimi sancajam ki, maa baxa bilməsin.

Tüfəngin ayaxdadı,
Çəkmisən, ayaxdadı.
Ay dedi: – Gün boğazdı,
Gün dedi: – Ay axdadı.

### II mətn

Bir gün Aynan Gün bir-biriynən dalaşıflar. O deyif ki, mən sənnən gözələm. Bı deyif ki, yox, mən sənnən gözələm. Gün də saj küllüyürmüş. Axı Ay Günnən gözəldi. Özü də bajı-qardaşdılar. Bajısının bına xayınnığı tutuf, əlini vırıf xamıra, çəkif bının üzünə, onnan da üzündə ləkə qalıf.

### III mətn

Deyir, Ayın anası xəmir küllüyürmüş, çörəh salırmış. Anası bını buyurur, bı getmir. Onda anası əli küllü bının üzünə vırır. Elə o vaxdan Ayın üzü ləkəli qalır.

Aynan Gün bir-birini sevirdi. Hamma olar heş vaxt bir-birini görə bilmillər. Vaxt gəlir ki, olar bir-birini tutalar, bir-biriynən görüşələr, Gün tutulur. Onda da başdıyıllar dəmir qabları döyməyə. Onda açılır.

Bildir gün tutulanda mən öz gözümnən gördüm. Mis qablara, o biri qablara döydülər, onnan sohra açıldı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 4. ŞEYTAN

Şeytan Allaha qırx il qullux eliyif. Axırda Allah nə qədər eliyif bı yola gəlmiyif. Deyif:

– Get, səni deyən sənin olsun, məni deyən mənim olsun.

## 5. ALLAH BƏRƏKƏT PAYLAYIR

Deyillər ki, Allahın yeddi bərəkəti var. Onun birini kəndə verif, altısını şəhərə. Ona görə kənd əkib biçir, şəhər də kəndə baxır, kəndin əlinə baxır, tərəziyə baxır. Deyif ki, elə qoy buna verim ki, tərəziyə baxır. Qoy aldığının bərəkəti olsun.

## 6. KARVANQIRAN ULDUZU

İki ildız var. Biri dan ildızıdı, dan ağaranda, səhər ertə çıxır. Biri axşam tərəfi torannıyanda çıxır. Ona da karvanqıran deyillər. Karvanqıran ona görə deyillər ki, irəli bı texnika-zad azmış da, elə bilginən ki, uzax yol gedən, səyahət eliyən, alverə gedən dəvəynən gedirmiş, atnan gedirmiş, dəvə karvanıynan. Karvanqıran doğur, elə bilillər ki, dan ildızıdı. Duruf düşüllər yola. Kəntdən bir xeyləh aralaşannan sohra qar-çooğun başdıyır. Bılar isdiyir ki, ojax-zad qalasınnar. Biz çərən* deyirih, çaylaxda-zadda bitir. Bı çərənnən yığıf isdiyillər ki, bınnan ojax qalıyalar. Nə qədər eliyillər, yanmır. Yağıf isdanıf axı. Özü də çətin yanan şeydi. Kəsəsi, karvan, elə bil ki, qırılır, çavğına düşür. Ona görə də onun adı Karvanqırandı. Dan ildızı hesab edif əvdən çıxıflar, yolda da düşüflər çavğına, qırılıflar. Belə eşitmişəm.

## 7. ÜLKƏR ULDUZU

Ülkər ildızı dörd öküzdü, bir cütcüdü, bir cərgəfçidi. Altı ildızdı. Ona heylə deyillər. Ona Ülkər deyillər.

---

* çərən – qarağan bitkisinin bir növü



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yaz qəhət gəlif. Allah nəhlət eləmiş gavırda ot varmış. Bir müsurman çobanın da otu qutarmışmış. Çoban gedif ot isdiyif. Deyif:

– Qızıı ver maa, saa ot verim?

Deyif:

– Yaxşı.

Axşam gəlif bını qızına deyif. Qızı da bına qəmgin oluf. Götürüf çobanın çomağını atıf əynə. Axşam duruf çölə çıxıf, görüf ki, Ülkər ildızı çıxıf. Deyif:

Aşıx, yaza nə qaldı?
Sındı saza nə qaldı?
Ülkər yana sallandı,
Görün yaza nə qaldı?

İndi obaşdan qız duruf görüf dan ulduzu doğuf. Deyif:

Mən aşığam, ay haray!
Ülkər batdı, ay haray!
Dan ildızı baş verdi,
Ayrılıxdı, ay haray.

Qız axşam bı sadanı çəkir, obaşdan da bı sadanı çəkir. Qız gedif yatır. Obaşdan duruf görüflər ki, ot qalxıf ağılın* başına. Çoban da axtarıf, ağacı düşmüşmüş otun içinə, tapmıyıf. Allah-tala bir bar töküf, bir ot töküf, qızın o iki nalasıynan. Allaha üz tutuf dayna, Allahı çağırıf. O qız gavıra qismət olmuyuf. Qoyun gedif otduyuf, qız da qalıf dədəsinin əvində.

## 8. QADINLARIN ŞİKAYƏTİ

Mərziyə addı bir arvat varmış. Bütün arvatdarın əvəzinnən o danışırmış. Bı, peyqumbər Allahnan kəlmələşməyə gedəndə peyqumbərə şikayət eliyir ki, denən ya Allah-tala, bı heyvanın balası olur, əlbəhəl durur ayax üsdə. Niyə bizə korrux verirsən? Niyə bizimki də əlbəhəl durmur, yerimir, gəlmir, getmir? Biz bir əlimizdə saxlıyırıx, dalımıza şəlliyirih. Bizimkini də heylə elə.

---

* ağıl – qoyunun yayda saxlandığı yer



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Peyqumbər gedir bıların dediyini Allaha çatdırır. Allah-tala deyir ki, get onnara deynən ki, heyvan yaşıyır beş il, üç il, bir il. Əgər siz də həylə yaşamax isdiyirsizsə, sizinkini də həylə eliyəh. Siz axı yaşıyırsız yüz il, əlli il, altmış il.

O da gəlir, canım qurban olan, xəbərin gətirir. Bir də gedəndə deyillər:

– Yox, biz onu isdəmirih, elə qoy cəfamızı çəkəh, uşağa da muğayat olax, çox yaşıyax.

Həə. İndi, bala, dünya yiyəsiz dəyil ha!

## 9. ÇÖRƏYİN ƏRŞƏ ÇƏKİLMƏSİ

### I mətn

Yataxdıymışdar* guya. Gəlin yuxa bişirirmiş. Bının uşağı özünü batırır. Bının əlinə bir şey keşmir, götürür yuxaynan uşağın yanını silir. Allah-talanın bına ajığı tutur. Çörəyi, unu, urzanı yoxa çəkir. Bir azdan ajınnan itdər uluyur. Allah-talanın itdərə yazığı gəlir. Təzədən urza göndərir, amma itdərin ulaşmağına göndərir urzanı. Urzanı itə görə verir. Onun üçün deyillər ki, çörəh itin üzünədi. Həmişə dədəm deyirdi ki, a bala, yedız, yaxşı elədız, di aparın itin də payını verin. Bu urzanı bizə itə görə veriflər.

İndi adətdi, təndirdə çörəyi bişirəndə çörəyin birini çıxarıllar, təndirin yanında vedrədə su olur, salıf ora soyudullar, verillər itə. Yoxsa o it yatmaz, ayax üsdə duruf zingildiyər.

### II mətn

Bınnan irəli taxılın dibinnən başına kimi sünbül olurmuş. O, soralar heylə oluf, azalıf, ancax yuxarısında qalıf. İndi bu çörəyi bizə Allah itə görə verif.

Deyir, bir gün bir uşax özünü batırır. Anası ora-bura baxır, əlinə bir şey keşmir. Əl atır yaxınnıxdakı sümbüldən qırır, uşağı sümbüllə təmizdiyir. Bu da qurban olduğuma ağır gəlir. Başdıyır

---

* yatax – qoyun, mal-qara saxlanılan yer.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

taxılı, sümbülü yox eləməyə. Sümbülün buğdası yox ola-ola qalxır yuxarı. Yox olmağa az qalmış itdər başdıyır ulamağa ki, bəs biz də aj qalajeyih, öləjeyih axı. Onda Allah-talanın itdərə yazığı gəlir. Deyir, orda saxlıyır, taa təmiz yox eləmir. O da itin payıdı. Onnan deyillər ki, o sümbülün başında buğdası olur ha, o, itin payıdı. Biz də ona şərih çıxmışıx. Allah itdərə görə onu təmiz yox eləmiyif.

## 10. NƏHƏNG İNSANLAR HAQQINDA

Rustam Zal böyüh pəhlivan oluf. O vaxdı da adamlar çox yekə imiş. Deyir, bir gün Rustam Zal səhrada gəzdiyi yerdə bizim kimi balaja adamlardan birin tapır. Qavalıyır tutur, qoyur çəhmənin boğazına. Gəlir evə. Evdə yeməh yediyi yerdə yadına düşür ki, çəhmənin boğazına nəsə qoyuf. Çıxardır anasına deyir ki, ay ana, buna bax ey, sən Allah. Belə insannar var. Bunnan nə olajax? Arvad deyir ki, bala, dünyanı olar yeyəjəh. Deyir:

– Bu nədi, özü də dünyanı yeyə?

Deyir:

– Olar dünyanı elimnən yeyəjəh.

Nəysə, bunu saxlıyıllar, evdə əhilləşdirillər. Bir gün Rustam Zal səfərə gedəndə deyir:

– Ay ana, deyirsən ki, bular dünyanı elimnən yeyəjəh. Əgər heylə bir şey varsa, bu getsin mənim atımı aşsın, yəhərrəsin, yüyənnəsin.

Bunu başa salır. Bu gedir arpanı tökür, at başın əyəndə noxdanı vurur başına. Gətirir atı alçax yerdən qoyur, özü də qəlbi yerdə durur. Yəhəri qoyur atın belinə, gətirir Rustam Zalın qarşısına.

Deyir:

– Ana, düz deyirsən, dünyanı balaja insannar yeyəjəh.

## 11. KİŞİLƏRİN SANCISI

Keşmişdə belə bir şərait varmış ki, hamilə qadın doğuş vaxdı ağrı çəkəndə onun əri də ağrı çəkərmiş. Onda kişi bilirmiş ki, hə, həqiqətən bının özünnəndi də.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir gün bəyin arvadı ağrı çəkəndə bəyin özü ağrı çəkmir. Bəyin də Qara qul adında bir qulu varmış. Bəy deyir ki, ay xanım, axı mən heç ağrı çəkmirəm. Sən ağrı çəkirsən, sancı verirsən axı. Deyir:

– Bəy sağ olsun, o küncdə eşələnən Qara qulu görürsənmi nə sancı çəkir? Uşağ onnandı.

Onnan sohra Allah-tala bını yığışdırıf ki, faş olmasın da. Yəni uşax başqa kişidən olanda bını kişi özü bilməsin.

## 12. İNSANLAR NECƏ GÖZÜQIPIQ OLDU?

Bax, bu gözü qıpıx adamlar var ha, gözünü belə-belə qıpır. Deyilənnərə görə, rəvayətə görə, onnar güllə atıf maralı yaralıyıflar. Maralın sahibi gəlif sağanda baxıf ki, maralın südü qannıdı. Onnan sora həmən sağan adam deyif ki, sənə güllə atan görüm, gündüz qürrabı olsun, səni görüb ata bilməsin. Onnarın gözü gejə bizim kimi olur. Biz tərəfdə var. Belə açıx olur. Amma gündüz bax belə olur, bax belə-belə (söyləyici tez-tez gözünü qırpır – top.).

## 13. HARAMLIQ NECƏ YARANDI?

Əvvəllər insannar Allahdan yağış isdirmişdər, yağırmış, quraxlıx isdirmişdər, quraxlıx olurmuş. İnsannar helə pak imişdər. Padşah deef:

– Nağarax ki, haramlıx olsun, maa buların qarğışı keşməsin? Mən bulara zülm eliyəndə maa qarğış eliyəjəhdilər.

Deef:

– Sən gətir hərədən bir yumurta yığ.

Hərədən bir yumurta yığır, ləyən dolur. Camaatı çağırır ki, gəlin yumurtanı götürün. Bir belə yumurtadı da, nə bilillər kiminkidi. Hamı öz malını tanıya bilmiyifdi. Kim harda nə oluf onu alıf. O vaxtdan qarışıxlıx yaranıf.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### 14. PƏRVANƏYƏ DÖNƏN ÇOBAN

Bir çobanın bir nişannısı varmış. Bı çobanın düşmənnəri – çoban da gec gəlif dayna, – odu qalıyıflar, bının nişannısını atıflar oda. Görüflər çoban gəlir, tez atıflar oda. Çoban gəlif oluf pərvana, ordan dolanıf, bırdan dolanıf... Tay çobanın əlinnən nə gələjeydi? İsdiyif ki, oddan çıxarda, çıxara bilmiyif. Çoban dönüf oluf pərvana. Onüçün* odun başına hərrənir. Nişannısını ona vermirmişdər. Qız da deyirmiş ki, ancax çobana gedəjəm. Ona görə də onu atmışdar oda.

### 15. QANLIGÖL ƏFSANƏSİ

Bir kişi oluf. Allah kəssin heylə kişini. Yağış yağırmış. Deyif ki, bı yağış kəssin, mən bı cütü əkim, qurban kəsəjəm. Allah yağışı kəsif. Bı, köynəyin çıxardıf bitdiyif, biti öldürüf, deyif:

– Bı da sənin qurbanın.

Bir yağış yağıf ki, o öküzü də, cərgəfçini də, kişini də aparıf töküf gölə, öldürüf. Adı qalıf Qannıgöl. Qannıgöl də Batabatdan bəri tərəfdədi, Keçəl dağın arxasındadı. Yaylağa gedəndə həmişə orda gedif tikilirdik.

### 16. İSAQ-MUSAQ QUŞU

İki qardaşmışdar. Birinin adı İsa, birinin adı Musa. At otarırmışdar. At itif. Axtarıflar, axtarıflar, tapmıyıflar. Hava işıxlananadək axtarıflar, tapmıyıflar. Deyiflər ağamız gəlif bizi öldürəjəh. Allah, ya bizi daş elə, ya quş elə. Allah, bizi ölümə vermə! İkisi də oluf quş. Elə o qalan, bu qalan. Səhərə kimi o deyir:

– İsa, tapdın?

Deyir:

– Yox, tapmadım.

– Musa, tapdın?

– Yox, tapmadım.

İsax-Musax quşu o vaxtdan durur.

---

* onuçün – onun üçün



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 17. ÜÇ QARDAŞ*

Olar üş qardaş oluflar. İmamlarımızdan oluflar. Nətəri olufsa, bıları bir gün gavır qavıf. Gedif çıxıflar dağın başına. Qavanda bılar baxıf görüf kü, taa əlaş yoxdu, gavır bıları tutajax. Onda üzdərini tutuflar Allaha, deyiflər:

– Allah, ya bizi quşda, ya bizi daşda.

Duaları qəbul oluf, Allah buların ikisini daş eliyif. Axırıncı daş olunca gavır buna yetirif. Elə bil ki, hər yanı daş oluf, bir başı, boynu qalıf. Gavır onun başını vırıf. Onnan da heylə qalıfdı. İkisi başdıdı, birinin başı yoxdu. Elə heylə də daş oluflar.

İndi biz ora and içirih. Bir şey olanda deyirih: "O üş qardaş hakqı".

## 18. KƏMƏND QAYASI

Əli gavırı qıra-qıra aparıf. Dilinə and gəlmişmiş ki, dizimə qan çıxmıyınca əl götürmüyəjəm. Qıra-qıra, azca qalmışmış, diriyif o gədiyə. Belinnən qurşağını açıf qayaya kəmənd atıf. Qayanı əyif ki, orda gavırın toxumunu kəssin. Orda Allah-tala Həzrəti Cəbrayıla deyif ki, ya Həzrəti Cəbrayıl, Əliyə denən, o da mənim millətimdi, kəməndini çəhsin. Dağ da, deyir, indi həylə əyridi. Adı da qalıf Kəmənd qayası. Onu mən həylə eşitmişəm.

## 19. KƏKLİYİN AYAĞI NİYƏ QIRMIZIDIR?

### I mətn

Peyğəmbərlərdən hansınısa gavır qavırmış. O da gedif girif qavağa, koğuşa. Gedif kəhlih də duruf qavağın qabağında, deyif: "Qaq-qaq-qabax". Gəlif görüflər peyğəmbər qabaxdadı. Onu çıxardıflar, öldürüflər. Gedif dimdiyini də, ayağını da basıf onun qanına. O da onnan qalıf. Onçün deyillər:

---

* Üç qardaş – Arazın o tayında yerləşir. Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi ilə üzbəüzdür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kəhliyin qan ayağı,
Qan əli, qan ayağı.
Aşıx bir şey görüfdü,
Üç başı, on ayağı.

**II mətn**

Niyə göyərçinnərin ayağı qırmızıdı? O qurban olduğumun qanıdı da. Davadan oluf. Onda onun ayağı batıf o qurban olduğumun qanına. Göyərçinnər məlayikədi da.

## 20. DOVŞAN HARIN-QARININ PİŞİYİDİ

Bir gün peyğəmbər bir adama qonax gəlir. Bu adamın çoxlu var-döyləti, qoyunu-malı varıydı. Bu adam duruf peyğəmbərə bir şey kəsməh isdədi. Amma xəsisdiyinnən bilmədi nə kəssin. Axırda tutdu pişiyi kəsdi. Amma bu adam bilmirdi ki, bunun qonağı peyğəmbərdi. Peyğəmbər pişiyin ətini yedi, sümüyü yığdı bir yerə. Sora ev yiyəsinnən pişiyin başını, dərisini, ayaxlarını isdədi. Pişiyin başını tüpürcəyinnən dərisinə yapışdırdı. Sora ona nəfəs verdi. Əliynən də başınnan ayağına kimi sığal çəhdi. Pişih dirildi, tükü də o vaxdan arxaya sığallı qaldı. Peyğəmbər də o kişiyə qarğış elədi.

İndi çöllərdə olan maral-ceyran o kişinin qoyunnarıdı, dooşan onun pişiyidi.

## 21. HAL HAQQINDA

**I mətn**

Hana toxuyurmuş arvad. Elə oluf bir işin dalınca gedif, gəlif görər hana qarışıf, ağın yerinə sarı toxunuf, sarının yerinə ağ toxunuf. Məhətdəl qalır. Evdə uşax yoxdu, bı nətər olan şeydi belə? Bı hana niyə qarışıf? Pusur bir gün, görür bir nazənin sənəm gəldi oturdu, başdadı bının hanasını dolaşdırmağa. Arxadan iynəni sancar bının üsdünə. Bı ha eliyir, qalxa bilmir yerinnən. Bını işdədir. Çox işdək olullar. Bını ohqədər işdədir. Bir gün bazara gedəndə qırmızı muncuğ alır, bağlıyır boynuna. Suya gedəndə bir qız uşağını çağırıf deef ki, bı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

muncuğu saa verirəm, bı iynələri çək üsdümnən. Muncuğu qıza verir, qız da iynələri çəkir bının üsdünnən. Gedir bajadan əyilir, deyir:

– Ağız, neçə aydı sənə qulluğ eliyirəm, sən də mana çörəh verirsən, çörəyini halal eylə, mən də əziyyətimi səə halal eliyim. Mən gedirəm, amma iki işi mənnən soruşmadın. Biri odu ki, sənin evində xamır qatıram. Mən kündəliyirəm, sən bişirirsən, qutarmır. Bunu soruşmadın ki, sən nağarırsan ki, xamır axşamacan kündələnir. Ona bərəkət verirəm. Əlindəki ərsini* bircə dəfə dala belə çöyürəndə onda kəsiləjəhdi. – Günahdı da arxaya çöyürməh. – Bir də vərəm naxoşduğunu soruşmadın. Nə qədər deyif o nədi? Demiyif.

**II mətn**

Mənim özümün babam çox sərrast oluf. O vaxt Qoradizə dəvəynən nöyüt almağa gəlirmişdər. Beş-altı adam oluf. Yükləniflər gəliflər. Uzun dərə deyillər, Qoradizə çatan yolda, gəlif oturuf orda. Bu təh qalıf, gəlif çatmıyıf olara. Gejə düşüf. Belə baxıf, baxıf, görüf yekə bir qadın gəlir. Deyif ki, ay Mehdi, burda niyə oturmusan? Deyif ki, bəs gedirəm Qoradizə nöyüt gətirməyə. Deyif:

– Sənin yoldaşdarın o tərəfdədi, sən niyə burda tək oturmusan? Tək oturmax olmaz. Dur gedəh.

Bu əl çəkmiyif onnan. Deyif:

– Axı bu yüklər yiyəsizdi.

Deyif:

– Mən adam gətirif qoyaram.

Gətirif bir cavan adam qoyuf yanında, babamı götürüf gedif. Görür toy-nağara, dəm-dəsgah. Cindi-haldı, itdi-pişikdi – hamı qarışıf bir-birinə. Deer dedi ki, vay dədə, vay, düşdüm yığıncağa. Mənim hadisəm pisdi. Gətirif buna çörəh qoyuflar. Gəlin oynadıxca bu çörəyi eşir, tökür də yerə. Yemiyifdi. Gəlin görüf boşqab boşdu, deyif:

– Hə, yeyif.

Oynuyanda görüf bunun ayləsinin paltarı onun əynindədi. Deyif:

– Buy, mən aldığım paltardı.

---

* ərsin – xamır kəsmək üçün alət



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əlini batırıf yağa, gəlin gedəndə vuruf bunun üsdünə. Deef:

– Bunu biləjəm.

Hə, Qoradizə gedif, qayıdıflar. Gənə də mənim babam həmin yerdə axşamlıyıf. Gələndə gənə də həmən qadın onu tapıf. Deef:

– Olmaz olajax səə, gedəjəyin.

Gənə də aparıf dəm-dəsgahın içinə, yığıncağa. Xoruz banı gətirifdi ora. Yühlüyəndə babam deyif bu mənnən əl çəhmir, əl çəhmir, çəkif qıyığı yaxasınnan, vurur bunun üsdünə. Vuranda bu çığırıf deyir:

– Çəh, Mehdi, çəh.

Deyif:

– Yox, çəkmirəm.

Bunu götürüf özüynən aparıfdı kəndə. Arvadı görüf bir dənə kadındı, kişiynən gəlir.

– A kişi, bu nədi?

Deyif:

– Dinmə. Dinmə, hadisədi.

Bunnan yaşıyıf. Bir oğlu olufdu. Sohra deyif ki, mən gedirəm suya. Yoldaşına denən ki, mənim süpürgəmi çəhməsin uşağın altına. Çəhsə, mənim uşağım ölsə, mən durmuyajam burda. Deyif ki, ola bilməz heylə. Bu (halı tutan şəxsin yoldaşı – top.) güdüfdü da, eşidifdi. Bu gedəndə süpürgəni çəkif. Uşağ öləndə bunun döşü tullanır, gəlir düşür qabağa. Kürəyinə atırmış döşdərini. Deyif:

– Hə, uşağ öldü.

Tez gəlif görür ki, uşağ beşihdə ölüfdü. Deyif:

– Götür də uşağıı, mən gedirəm.

Deyif:

– Ola bilməz. Axı sən mənim uruğumun, turuğumun kökün kəsərsən. Ola bilməz axı.

And verif, Qurana da and içif, deyif heş nəyin lazım döyül. Deyif:

– Bu evdən bir dənə qapının zibili lazımdı maa.

Olar, deyir, havax dururmuşdar, görürmüşdər ki, qapı gülçiçəhdi. Süpürüf götürüf gedirmiş.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## III mətn

Zahı doğur, yiyəsiz qalır da. Onda hal gəlif onun için-içalatın çəkif aparır. Yuyur axar suda, aparıf bişirif yeyir. Onnan da qadın ölür. Ona görə də deyillər ki, doğan qadını yiyəsiz qoymazdar. Zahıya yaxın düşməməsi üçün üsdünə qıyıx, iynə, kadının başının altına çəngəl-bıçax qoyullar. Qorxur onnardan. Kişi oldu, qadın oldu, gərəh həmişə üsdündə qıyıx, sancağ olsun. Bir də ki, o, işdənmiyən paltarları, təzə paltarları aparır.

## IV mətn

Mən saa olacağı deyim da. Mənim qardaşım arvadı var idi, adı Tamara idi. Biz evdə olmarıx. Bunun iki uşağı oldu, öldü, oldu, öldü. Qardaşımı çağırar ki, Bayram, mən xəsdələnmişəm, tez mənim bibimi çağır, gəlsin. Anası yoxuydu, bibisi saxlamışdı. Bayram da məhlədə nəysə işdiyirmiş. Lapatkanı gətirər qapının ağzına qoyar, çıxar gedər bibisinin dalınca. Deməh, bunun uşağı olduxca hal öldürərmiş. Bayram gələnəcən hal bunun gözünə görükər. Qapının ağzında durar. And içirdi, döşdəri belə. Deyir:

– Aaz, bını da öldürəjeydim, səni də, qurban olasan lapatkanın ağzındakına.

Deməh, lapatkanı vuruf yerə, kərtənkələ oluf palçıxda, gəlif. – Uşaxların paltarına kərtənkələ tikillər quruduf. – Deyir:

– Səni qurban olasan lapatkanın ağzındakına.

Belə çörühdüm, gördüm lapatkanın ağzında yaşıl kərtənkələ palçığa yapışıf.

## V mətn

O halı tutdular, gətdilər, bala. Gedirmiş odun gətirirmiş. Gündə meşədən odun gətirif təndiri odduyuf çörəh bişirirmiş. Nəysə, deyir, bunun bir uşağı olur. O uşağın gündə üzünü örtüf gedirmiş meşəyə. Bir gün də arvada deyif ki, daa onun üzünü aşma. – Halı arvadın əri tutmuşdu. İynəni sancmışdı. Bir ilmi, iki ilmi onnarda qulluğ eliyif. – Bir gün, deyir, uşağı boğuf öldürüf, arvada demiyif ey, üzünü örtüf, çıxıf gedir. Gedənnən sora arvat deyif ki, bala, bu uşağa noldu, heş tərpənmədi. Gedif görür uşax ölüf. O gedən gedif, qayıdıf gəlmiyif.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**VI mətn**

Keşmişdə bizim Mehdilidə* bir gəlin varmış. Gəlinin bir uşağı da varmış. Keşmişdə ev bir olarmış. Qaynənəsi gəlinin yanında yatmışmış. Gəlin gözünü yumanda görüf bir ağ paltar, uzun bir dənə qadın durufdu. Qaynənəsini durğuzuf, deyif:

– Xala, dur ayağa, belə bir şey var.

Arvad çox yaşıyan arvadıymış dayna, bilirmiş. İynə verif, sancax verif, deyif:

– Bala, sənin yanaa gələndə bu sancağı sancarsan onun paltarına. Görəh nə olajax.

Gəlin elə gözünü yumanda gəlirmiş, gözünü açanda yox olurmuş. Axırı ki, gələndə gəlin sancağı sancır bunun üsdünə. Deyif:

– Xala, tutdum, gəl.

Qaynənə duruf görüf ki, bir dənə qarıdı. Uzun paltarda, döşü uzun, boyu uzun, ağsifət bir dənə arvatdı. Deyif:

– Sən kimsən, niyə mənim gəlnimi qorxuzursan?

Deyif:

– Mən bütün qadınnarın, təzə uşağı olan qadınnarın yanında oluram.

Deyir:

– Sən kimsən?

Deyir:

– Mən hal nənəyəm.

Tutuflar bunu, saxlıyıflar. Səhər hay düşür ki, filankəs bir dənə hal tutuf. Gəliflər, baxıllar. Deyif ki, mən siznən yaşıyaram, ancax bu şərtnən, heş vaxt mənim üsdümü iynəsiz, sancaxsız qoymuyun. Deməh, bularda on bir ay qalıf.

Günnərin birində bu, gəlinnən girir əvə paltarını dəyişməyə. Paltarını soyunuf yerə atanda gəlin görüf ki, hal nənə yox oldu. Qaynənəsini çağırıf:

– Xala, bəs hal nənə yox oldu.

Deyir:

---

* Mehdili – Cəbrayıl rayonunda kənd



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Niyə?

Deyir:

– Paltarını soyundu çimməyə.

Məlum oluf ki, bunun üsdündə iynə, sancax yoxuymuş. Ona görə də yoxa çıxıf.

Sohra qaynənə xəmiri yoğuruf çörəh bişirirmiş. Kündəni qabaxlar hal kündəliyirmiş, qaynənə çörəh bişirirmiş. Bir dəfə çörəh bişirəndə xəmiri, kündəni hal yayıf, kündə qutarmır. Deyif:

– A başaa daş, kündə qutarmır, mən neyniyim? Bu kündələr qutarmır.

Deyif:

– Kündənin axırını teşdə qoy.

İndi ləyən deyirih, onda tuj deyirdih. Mis tujuydu, mis teşt idi. Kündənin axırını teşdə qoyuf, yayanda qutarıf.

**VII mətn**

İrəhmətdih nənəm nağıl eliyirdi ki, Yarəhməddidə bir kişi gedif onunnan əvlənmişmiş. Bı əvlənmişmiş, özü də iki uşağı olmuşmuş. Deyirmiş ki, yamaca gedirəm odun yığmağa, gəlillər tökülüşüllər, beş dayqada atın yükünü hazır eliyillər. Deyirmiş ki, bəs olardan da iki uşağım var, əvlənmişəm.

**VIII mətn**

Halı mənim babam tutuf. Biz də nənəmnən eşitmişdih. Nə bilirdih? Suya yolluyurmuş, ota yolluyurmuş. İynəynən tutmuşdu. Sora elə bil babama deyif ki, saa avcılığı* verirəm, səni ant verirəm Allaha, məni burax. – Avcı nəzəri olan adamı avanda açılır, çəkilir. Atam öləndə verdi maa. – Sora babam buraxıf bunu. Şahmar babam tutmuşmuş. Allah nəhlət eləmiş sora bir qarğış eliyif bizə. Deyif ki, yeddi arxa dönəninin başı ağrıdan qutarmasın. Suya gedəndə orda iynəsin çəkiflər, qayb oluf. Saçı uzun olur, özü də uzun olur. Döşdəri yekə olur. Allah nəhlət eləsin oların nəslinə.

---

* avcılıq – xəstəliyin ovmaq üsulu ilə müalicəsi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### IX mətn

Bırda bir ağsakqal var idi. Nağıl eliyirdi ki, həmişə gedif görürdüm ki, at tərriyif. Qapını möhkəm bağlıyıf gedirdim, gənə də gəlif görürdüm ki, at qan-tərin içindədi. Getdim, deyir, nəysə, gördüm ki, atın yalını hörüflər. O adam bı rəvayəti, bı söhbəti eliyəndə babam dedi ki, mənim babamın babası belə bir işə düşüfdü. Onun da atını belə eliyəndə o gətirif atın yəhərinə qır çəkif, gedif axurda gizdənif. Görüf kü, qapını aşdılar, at özü-özünə getdi. Gedəndə tutdu, iynəni sancanda bir adam göründü. Hal oluf. Hal arvadı deyillər. O adamın döşdəri yekə imiş, dalına atarmış. Onun, deyir, uşağı oldu, halın. Hamilə imiş, yürüyə qoyuflar. Bı uşağı yürüyə qoyanda dedi ki, yürüyün altını süpürməh olmaz, o uşağ o sahatı ölər. Hal deyif bunu.

Nəysə, deyir, vaxt gəldi, zaman gəldi, mənim babama dedi ki, müqavilənin vaxdı qutarır. Məni burax, orda uşağım qalıf, çıxım gedim. Babam deyir, iynəni çəhdim, getdi küllühdə durdu. Küllühdə duranda dedi ki, iki şeyi soruşmadın. Biri, sarımsax nəyə dərmandı, biri də bı dünyanın axırı nə olajax.

### X mətn

Olar çox gözəl olullar, olar mələh donunda olullar. Yeddi ciltdə olullar. Neçə cildə desən o fasona girillər. Yarməmmədin dədəsi onların birini tutuf. Görüf ki, dabanı daldan uzundu, Allah xalasının goruna nəhlət eləsin. Bilif ki, bu olardandı. Tutuf ki, gedif ziyannıx eləməsin. Deyif ki, sən nə ciltdəsən, onu maa deginən. Deyif:

– Daa gördün də məni nə ciltdəyəm. Mən halam, məni apar saxlaginən. Nə desən, eliyəjəm.

Gətirif başdıyıflar işdətməyə, eşşəh yerinə, at yerinə. Bir gün işdən başını qaldırır, buna deyir ki, sənin urzan gödəhdi. Deyif:

– Elə mən də nə çox çörəh isdiyirəm, nə az çörəh. Elə bu qədər, ortabab isdiyirəm.

Deyif:

– İsdiyirsən deyim, Allah-taladan sənin çörəyin bir az da çox olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyif:

– Yox, isdəmirəm.

Deyif:

– Yeddi arxadönənəə dəymiyəjəm. Yeddi arxadönənin yatanda, qutaranda, uşağı olanda ona dəymiyəjəm. Boşda, çıxım gedim.

Boşduyuf. İndi biz gedif onun yeddi arxa dönəninnən əysi gətiririh. Allah nəhlət eləmişdərin yeddi dənə ciltdəri olur. Olar o fason olur.

**XI mətn**

Babamın yaxşı atdarı oluf. Bir gün görür kü, bu atdarın biri həmişə qan-tərin içində olur. Səhər tezdən tavlıya gedəndə görür kü, bı elə həmişə qan-tərin içindədi. Elə bil kimsə bını minif çapır. Babam fikirrəşir ki, bına nə ola bilər, axı bı həmişə bağlı olur. Qalıf fikir içində. Deyif səhər-axşam bı atı güdəjəm. Səhər-axşam gedir uzanır ot tayasının içində, başdıyır güdməyə. Görür bir dənə qəlbi, hündür bir arvatdı. Uzun da saşdarı var. Sən də mənim balam, uzun da döşdəri var. Birini bı çiyninə atıf, birini də bı çiyninə. Atın yalmanınnan tutuf minir. Atı şallaxlıyır, minir, çıxır gedir. Babam gəlir evə danışır ki, mən neyniyə bilərəm ki, bını, bı halı tutum. Nənəmin ağlına gəlir ki, qara qırdan, sakqızdan sığasın bı atın belinə. Babam belə də eliyir. Arvad atı minif gətirif yerinə bağlıyannan sohra babam səhər-axşam qırı əridir, gətirir sığıyır atın belinə. Sığıyannan sohra gejə babam gəlir evə, tay getmir. Səhər duruf gedif, görür kü, atı minif elə qalıf atın belində. Tay düşüf gedə bilmir. Qopmur ku, düşə gedə. Babam iynəni sancır yaxasına, deyir:

– Ay Allahın lənətinə gəlmiş, qutar, düş.

Hə, bını dartır düşürür atdan. Düşürənnən sohra gətirir evə. Gətirir evə. Babamı da Allah soxsun yerə, nejə ki soxuf, babam bını başdıyır işdətməyə. Çoxlu, xeylax vaxt işdədir. Bir müddətdən sohra bı başdıyır yalvarmağa. Elə bil deyir ki, bəs döşümdə uşağım qalıf, məni burax, nolar! Babam deyir ki, gəl and iş ki, sənin yeddi arxa dönənaa dəymiyəjəm. Özün də maa bir şeyin bərəkətini ver, get. O vaxkı adamnarın hamısı avammış da, bala. Bı gəlir and içir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

And içənnən sohra deyir ki, sənin yeddi arxa dönənaa dəymiyəjəm, saa da nəyin bərəkətini verim? Zibilin bərəkətini verim saa? Deyir, hə, ver. Onnan bəri zibil nə qədər olar? Süpür ki, qutarsın. İndi bir şey olanda babamı söyüllər. Elə hey zibil süpürrüh, heş qutarmır.

### XII mətn

Cin başqa şeydi, hal başqa şeydi. Cin gözə görünmür heş. Cin şeytan deməhdi. Girir damlara, məsələn, deyir ki, dur bırda bı dəyqə bı arvadnan dalaş. Amma hal gözə görükür. Bəzi adamların gözünə görükür. Oların saşdarı uzun olur, paltarrarı da olur. Paltarı belədi dayna oların. Elə bil mənim boxçamda təzə paltarım yoxdu? Gedir onu geyir, gedir. Mən də heç onu görmürəm. Məsələn, gedir səninkin də geyir, gedir. Heş sən də onu görmürsən. Bir vaxt paltarı geyəndə baxırsan ki, vay, bının bıralarında ləkə var. Bı nədi? Heylə geyir, gəzir, gətirir asır yerinnən. Paltar tikif geymir ha. Sənin, mənim paltarımı götürüf aparır geyir. Hal cinsidi, deyillər. Çağırırsan, gəlmir, buyurursan, getmir. Camaatın arasında belə deyillər tez-tez, Allah lənət eləsin ona. Uşaxlı arvadın yanında hərrənəndi. Gərəh təzə qutaran arvadı yəəsiz qoymuyasan. Arvadı öldürür, ciyərini aparır yeyir. Hamma arvadın uşağını da dəyişdirə bilir. Uşağı götürür aparır, öz uşağını onun yerinə qoyur. O ana da o uşağa ha qulluğ eləsin, o uşax yekəlmir, əmələ gəlmir, ölür.

## 22. CİN HAQQINDA

### I mətn

Bizim kəntdə Əliş kişi vardı. O, naxırçıydı. Onun malı gejəynən ayrılar. Yerinnən narahat durufdu. Mal ayrılar mallardan. Abdal-Gülablı çaylağı deyirdilər, bu gedər ora. Görər çaylaxda qəşəh çalan, oxuyan, geyimli-gejimli qızdar var. Deyər:

– Əliş, gəl, Əliş, gəl.

Özüm-özümə dedim:

– Ə, bular məni hardan tanıdı?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir, elə beş addım qalmış dedilər: "Ə, qoymuyun gəldi, üsdündə sancax var". Deyir, "pismillah" deyənnən sora nə çalan, nə oynuyan. Bir çaylaxdı, daşdan savayı heş nə yoxdu.

### II mətn

Cəfər Cinni şeytannarın başçısı oluf, ən böyühləri oluf. Şeytannar nə iş görüfsə, onun əmriynən görüf. Kimi gedif tutmalısan, kimi dəli etməlisən, kim suya düşməlidi ancax Cəfər Cinnin əliynən oluf. Cəfər Cinnini başqa bir qəbilə məhv eliyif. Məhv eliyənnən sora şeytannar qalır özbaşına. İki yüz neçə yaşında öldürüflər. Alçax, balaca cin oluf, amma hökmdar oluf, bütün cinnərin başçısı oluf. İnsannara onnan sora cinnər həddinnən artıx çox işgəncə verif. Məsələn, o əgər əmr verməsə, bir cinin belə ixtiyarı yoxuymuş ki, insana, bir bəni-adama yaxın dura. O məhv olannan sora qalıflar başdı-başına. Birini dəli eliyif, birini suya salıf, çox insannara işgəncə veriflər. Hansı peyğəmbərdisə, onu deyə bilmərəm, cinnəri tilsimə salıf.

### III mətn

Kişi görüf mələh hərrənif, fikir verif da. Deyif: "Filan padşahın toyudu, gedirəm ora. Mən pişik cildində gedəjəm ora". O biri qayıdır ki, Məhbub, tez gəl. Uje bu bilif da bu cindi. Gedif görür həmən qara pişik hərrənir. Deyir:

– Ay camaat, bu pişiyə baxın. Bu pişiyin adı Məhbubdu. Özü bir qadındı, Cəfər Cinninin dəsdəsinnəndi, adı Məhbubdu.

Bunu eşidən kimi pişih aradan çıxır. Gəlif deyir:

– Sirrimiz açıldı, biz bu məmləkətdən çıxmalıyıx.

Kişiyə deyir ki, nə iş görürsüzsə, biz onu bilirih, görürüh. Oğurruğunuzu da, əyriliyinizi də, yalanınızı da, hər şeyi bilirik, varınızı da, döylətinizi də. Niyə biz sizin sirrinizi aşmırıx, amma sən mənim pişih donuna girməyimi bütün xalqa çatdırdın? Çıxıf gedillər.

### IV mətn

Bizim Fizulinin özündə, hal-hazırda gözümün şahidiyəm, var. Biz Cinni Qovu deerdik. Füzuliyə girən yerdə məhtəf vardı, o məh-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

təbin altında Cinni Qovu deerlərdi, elə cinnər yığıncağı idi. Orda sabahları bir seyit gəlif dedi ki, filankəsin evində ocax yanır. Maskıvadan, Bakıdan, bütün dünyadan hamı töküldü gəldi. Nəhqədər eylədi, mümkün olmadı. Evdə hər şey yanırdı. Quran qoyuflar qapının başına, qabul eləmiyif Quranı da. Sora deeflər ki, bəs arvad su atıf cinnərin balasını yandırıf. Deer ki, baxırdım, qapının ağzınnan yana-yana gəlif girirdi şifanerin içinə, işdənmiyən paltarı, palazı ütürdü. Nəhqədər elədilər, mümkün olmadı. Onnan sora köşdü ordan.

**V mətn**

Bir gün Əhmədavarda işdiyirdim. İşdiyən vaxdı keşmişdən söhbət aşdı Şırannı İrza kişi. Nəysə, bularda işdiyirdim. İrza kişi deyir, ə, bir dəfə mənim başıma bir oyun gəldi. Dedim:

– Nədi?

Dedi ki, bəs araba işdədən vaxdıydı. Üzümü taxçalara yığmışam, gedirəm Qalaya. Qalaya gedəndə Qarağac qəbirsdannığının yanında bir eniş var, ordan çıxanda dəyirmana sarı öküzü nə qədər vurdum, yerimədi. Bir də baxdım gördüm ki, boyunduruğun üsdündə bir dənə qırmızı şey oturufdu, öküzün qabağını kəsif, qoymur. Nəysə, arabanı saxladım, düşdüm, deyir, yerə. Gördüm ki, arabanın yanında bir dənə qız uşağı, yeddi-səkkiz yaşında, qırmızı geyimli. Bına yaxınnaşdım, dedim ki, a qızım, kimsən, nəçisən? Gejənin bu vaxdı burda nə gəzirsən? Deer çiynini atdı, dedi ki, "iiih". Dedim ki, aaz, mənim qızım olarsanmı? Gəl gedəh səni saxlıyım. Anan-atan varmı, yoxmu? Nəysə, bir də belə eliyəndə bu dedi:

– İiih.

Şallaxnan vurdum, getdi, deyir. Ququmça yolunda körpünün altına düşdü zığıldaya-zığıldaya. Çıxdım getdim, deyir, Xocalıya. Qaçaxlar arabaan qabağını kəsdi:

– Ə, kimsən, nəçisən? Arabanı saxlaginən.

Dedim ki, ə, Qalaya gedirəm, bəs üzüm aparıram. Biri o yannan qayıtdı:

– Ə, o, kimdi, nəçidi?

Dedim:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, İrza kişiyəm ey.

Dedim:

– Ə, sən kimsən?

Dedi:

– Abdal Qasımam.

Dedi ki, İrza kişi, uşaxlara verməyə bir şeyin var? Dedim ki, niyə yoxdu. Dedi ki, ə, olara bircə vərən* üzüm ver. Bircə vərən üzüm verdim. Çıxdım getdim, deyir. İki gün Qalada qaldım, deyir. Üzümü də satdım. Qayıdıf gələndə böyürtgən kolunnan cəvərəni** götürdüm qoydum arabaya, gəldim. Genə həmənki yerdə gördüm öküzün qabağı kəsildi. Allah tərəfinnən ağlıma nə zad gəldisə, bunu tutdum, əllərini bağladım, ayağını da bağladım. Oturacağın arxa tərəfinə qoydum. Özüm də, deyir, gəldim evə. Nəysə, tutdum, "iiih" elədi. Dedim:

– Mənim qızım olassan, səni saxlıyajam.

Axşam çaydan-çörəhdən hazırradı. Oturdux, deyir, çörəyi aldım, "pismillah" dedim. Baxdım, qız yoxdu.

– Ə, qız hara getdi? Ə, Bəbir, hardadı?

Çıxıf gedif, yoxdu. Heş demə bu cin balası imiş.

### VI mətn

Bırda bir ermənisdannı, Vedibasardan olan bir nəfər adam var idi. O söhbət eliyirdi ki, dağda olanda bir gün getməli oldum dəyirmana. Deyir, dərə var idi, üçüncü dərədə dəyirman yerrəşirdi. Birincini aşdım, ikincini aşdım, üçüncü dərəni yenəndə gördüm ki, burdan toy səsi gəlir. Yavaş-yavaş getdim gördüm kü, bizim kəntdə olan adamların hamısı bırdadı. Əli bırdadı, Vəli də bırdadı, Məhəmmədəli də bırdadı, hamısı bırdadı. Mən, deyir, heş bi şey hiss eləmədim. Deyir, çoxlu da qazannar asılıfdı. Gəldim mən də oturdum. Oturdum, gördüm kü, o yeməhlərdən pis iy gəlir. Deyir, nəysə, ağlıma birdən gəldi, dedim:

---

* vərən – sıra, cərgə
** cəvərən – söyüd çubuqlarından düzəldilmiş səbət



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Pismillah.

Deyir, gördüm ə, elə oturmuşam, nə qazan var, nə daş var, nə də bir şey var. Amma faktiki qazanın altında yanan odunnar tüsdülüyür. Olar, sən demə, cinnər imiş, toy eliyirmiş. Amma bizim kənt camaatının libasında, sifətində görünürmüş.

**VII mətn**

Bir kişi olur. Kişi gedir dəyirmana. Yolnan gəldiyi yerdə görür ki, bir yerdə yaman toy çalınır. Kişini məcbur aparıflar bu toya. Baxıf görüf ki, bu toyda oynuyan arvadın ikisinin paltarı bunun arvadının paltarıdı. Bunun qabağına yağlı yeməh qoyullar. Yeməyi götürüf basır arvadın birinin paltarına. Çörəyi qabağına qoyanda "pismillah" deyif. Çörəyi kəsəndə bir də baxıf görür ki, qabağında heş nə yoxdu. İki-üş dənə at p..u var. Gəlir evə. Arvadına deer:

– O paltarını bir gətir bura.

Arvadı deer:

– A kişi, dəli olmusan, nəsən?

Deef:

– Yox ey, paltarı gətir bura. Bəs belə bir işə düşmüşəm.

Kişi baxıf görüf ki, guya elə həmən əli paltardadı.

**VIII mətn**

Hal başqadı, cin başqa. Cin yığnaxdı. Adamı yığnağa salıllar. Şəxsən mənim özümü yığnağa salıflar, amma mən qorxmamışam. Mən Molla Həsənnidə əv hörürdüm. Ordan əyənnən bəri, özü də şənbə axşamıdı, gəlirdim. İşi qutarmışdım. Özü də təhcə gəlirdim. Gəldim bı Sirihdə, Çaxmaxlının dərəsindən addıyırdım belə, ordan yavaş-yavaş dərəyə enəndə, dərin dərəydi, şəlliydi. Dərə aşağı su da gedirdi. Nəysə, mən aşağı endihcə gördüm bir səs gəlir. Özü də mən aşağı endihcə səs də çoxalırdı. Amma şənbə günü olduğunnan elə bildim onnar harsınnardı, bazardan gəlillər. Hələ bir az gündüzdü, gün var. Nəysə, aşağı endim. Lap suya sarı yaxınnaşanda, ə, dərə tay oldu bazar. Canın hakqı, dərədə tay səs-küyün əlinnən yer olmadı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Amma genə hiss eləmədim. Ağlıma heş-zad gəlmədi. Nəysə, suyu addadım. Sumkam varıdı. İçində çəkiş-zad olan qara sumkam vardı, qoydum yerə. Orda alınça* varıydı. Yazıydı, dedim bu alınçadan bir ovuc, iki ovuc qoparım qoyum cibimə, dümyə eliyə-eliyə gedim. Nəysə, sumkanı qoydum yerə, döndüm alınçaya sarı. Alınça qayanın divindədi. Su da gedir qayaya dəyir, qayıdır belə. Deməh, mən alınçanın divinə çatanda gördüm ki, şəl belə yarıldı. Dedim bəs canavardı. Sənin canın hakqı, genə hiss eləmirəm. Ağlıma heş-zad gəlmir. Tez su tərəfi, alt tərəfi kəsdim ki, canavar olsa, çıxsın döşə, görüm. Nəysə, şarıltı gəldi, kəsildi. Axı bu alt tərəfi mən kəsmişəm, amma yuxarı heş nə çıxmadı. Uje bir balaca şübhələndim. Şübhələnənnən sora tez qayıtdım, balta-çəkiş varıydı, bını çıxartdım aldım əlimə. Tam özümdəyəm. Amma səs götürüf dünyanı ağzına. Dəyirman arxı varıydı, o tərəfə çıxanda birdən ağlıma gəldi, tez dedim, lənət saa, şeytan, pismillah, pismillah. Elə bını demişdim ki, səs də bınıynan kəsildi, küy də. Gəldim bını irəhmətdih Suqra Çələbiyə nağıl elədim. Suqra dedi ki, çox fərəsətdi tərpənmisən ki, qorxmamısan. Əgər sən olardan qorxsaydın bir yeməh yedirəjeydilər, elə onnan da gedəjeydin. Tay sənin sağalmağın yoxuydu. Qorxmamağınnan yaxşı eləmisən. Hamma hal yığnağ olmur.

## 23. QARAÇUXA

### I mətn

Deməh, burda Əsgər addı bir oğru oluf. Bular çox çalıf-çapıf hər yerdən gətirərmişdər, apararmışdar. Neçə dəfə gediflər at oğurruğuna. Gediflər ki, Hajı Əziz atın içindədi, yapıncısı da çiynində. Hansı ki, bu olmuyuf. Deməh, bunun qaraçuxası oluf. Bu möcüzəynən bular heş vaxt bu atın birini də apara bilmillər. Hansı ki, Hajı Mirəziz burda olmuyuf ey. Zəvvar oluf, Məkkəyə, Mədinəyə adam aparırmış. Ancax bular gedirmiş ki, – atdar dağlarda dəsdə-dəsdə oluf da – gedillər ki, çuxa bunun çiynindədi, əyləşif. Bu yaxın vaxdın söhbətidi ey.

---

* alınça – alça



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## II mətn

Qaraçuxa, elə bilginən ki, gözə görünmür. Bizim kəntdə Keçəl Həsən oluf, varrı oluf. Sovet gələndə qaçıf. Yuxusunda görüf kü, qaraçuxası deyir ki, azarramışam. Durur deyir ki, filan axsax qoyunu-qoçu qurban kəsin. Qaraçuxa da bına deyir ki, axsax qoçu qurban kəsdin, mən getdim tay. Onnan da oların tifağı dağıldı. Qaraçuxa insanın sağlamlığıdı.

## III mətn

Bizdə bir Əhmət kişi varıydı. Deyirdi ki, uşağ olanda yaylağa getmişdih. Gejə yuxuda gördüm kü, damımızın üsdündə bir adam yatıf. Oyatdım nənəmi, dedim ki, nənə, o kimdi orda yatıf? Nənəm dedi ki, hanı bala, hanı bala? Demə, mənnən başqa bını heş kim görmüyüf. Dədəm dedi ki, bala, o, adam dəyil, qaraçuxamızdı, yatıf. Sən uşaxsan, paksan deyənə sənin gözaa görükür. Həmən il bizi sürdülər, sovet sürdü. Allah heş kafarın* da qaraçuxasını yatırmasın.

## 24. TAXTIM TAXT OLUNCA, BAXTIM BAXT OLSUN

Qaraçuxasız adam olmaz. Qaraçuxa sənin çuxandı. Qaraçuxasız adam yoxdu. Yatırsan, birdən görürsən ki, yatdığın yerdə səni çağırıllar:

– Filankəs, filankəs.

O, sənin qaraçuxandı. Sən gərəh qorxmuyasan. Çıxırsan, görürsən yoxdu. Qaraçuxan həməşə sənə dayaxdı, həməşə səni qoruyur. Qaraçuxa odur. Qaraçuxasız adam olmaz.

Biri əvlənif, aldığı qız çox çirkin oluf. Qız deyif ki, ay Allah, mənim yoldaşım gözəl, göyçəh bir oğlandı. Vallah, mən ayrılajam ee bınnan. Məni bı onsuz da saxlamıyajax. Bı, yoldaşı yatannan sora duruf gedif. Görür bir gözəl-göyçəh qız gəlir qabağına. Deyif:

---

* kafarın – kafirin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bəxtəvər başaa sənin. Bına bax ee, Allahın altında bının yarısınatan gözəl oleydim.

Bir də baxmır, gedir arxın qırağına. Deyir:

– Sənin baxdın mənəm, sən yoldaşının gözünə bı donda görükürsən, mən donda görükürsən. Sənin baxdınam mən.

İndi onu deyillər ki, taxdım taxd olunca, baxdım baxd olsun. İndi sənin yoldaşını heş kim bəyənməsin ha, amma sənin gözündə elə bilirsən, birliyantdı. Hər küşdənin özünün baxdı var, taleyi var. Qaraçuxasız adam olmaz. Qaraçuxa həməşə adama dayax durur.

## 25. XIDIR NƏBİ

### I mətn

Xıdır peyğəmbər gəzəntidi. Dünyanı gəzir. Ona görə deyillər ki,

Hər gejəni qədir bil,
Hər gəzəni Xıdır bil.

Xıdır peyğəmbər dünyanı gəzməlidi. Elə adam var ki, Xıdır onun gözünə görükür. Deyir mən Xıdır peyğəmbərəm. O adamın malı, pulu, evi çox olar, Xıdırı görənin.

### II mətn

Əgər bir dilənçini qapıdan boş qaytarsan, böyüh günahdı o. Mən bulara da dedim. Dedim: "Aaz, Xıdır Nəbidi, qapıya sail gələjəh". Mən özüm görmüşəm onu. Yalançı Allahın düşmanıdı. Qonşum dedi ki, seyvanı silmişdim, paxlanı qaynatmışdım, dənə paxlanı. Gördüm, deyir, qırçınnı, tumannı, əlində ağac bir qız uşağı gəlir. Nəlbəkiyə paxladan qoydum, bu bir-bir yedi. Çöndüm içəri nəzir gətirəm, belə baxdım ki, qız yoxdu.

### III mətn

Xıdır bir həfdəyə girir, çıxır. Yelnən girsə, yelnən çıxır, qarnan girsə, qarnan çıxır, günnən girsə, günnən çıxır.

Xıdır girdi, qış girdi,
Xıdır çıxdı, qış çıxdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### IV mətn

Fevralın beşi təkə, tülkü düzəldib boğuşdururdular. Qapı-qapı pay yığırdılar. Qışın yarı olması münasibəti ilə keçirirdilər. Çilədə bütün cahıllar yığılır bir evə. İki tülkü bir kosa düzəldilirdi. Un, qənd, çay yığılır. Ev sahibi də kömbə bişirirdi. Səhərə qədər qalardıx orda, çalıb-oxuyardıx.

Xıdıra Xıdır deyəllər,
Xıdıra çörəh verəllər.
Mən Xıdırın nəyiyəm?
Ayağının nalıyam,
Atının torbasıyam.
Xanım, ayağa dursana,
Yükün dalını açsana.
Qara toyuğun qanadı,
Kim vurdu, kim sanadı?
Məhlənizə gələndə,
İtdər bizi daladı.

Xıdır Nəbi vaxdı bu heyvannar ki var, şirdi, pələngdi, çakqaldı, onların cütdəşməh vaxdı olur.

## 26. OVÇU PİRİM

### I mətn

Ovçu Pirim gəlif ki, qazan qaynıyır. Arvada deyifdi bu nədi belə? Deyif ki, əliy ətidi. Ceyran düzdə olur, əliy meşədə. Tüfəngi qaytarar ortasınnan bir güllə. Qazan, əv dağılıf, tüsdü basıf. Arvat deyir ki, kişi dəli oluf, gəlin. Görüflər ki, bu, dəliliy əlamətidi. Bunu tutuf bağlıyıflar. Deyir:

– Bağladız qutardız?

Deyif:

– Hə, bağladıx qutardıx.

Deyif:

– Mən dəli-zad olmamışam. Bu əliy ovunu elə görmüşəm ki, qazannan da çıxıf qaçar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## II mətn

Ovçu Pirim ova gedir. Ov tapbır. Görür kü, bir qayanın kəməndində bir dənə pələng var. Bu pələngə atır, gülləynən vurur. Deyir, indi gedim bu pələngin dərisini soyum, gətirim. Gedif görür ki, pələngin dərisinin içindəki oğludu: pələngi vuruf, dərisinə bürünüf qış günü qayanın kahasında yatıf. Ovçu Pirim baxıf görüf ki, öz oğlunu vuruf. Bax, belə eşitmişəm.

## III mətn

Ovçu Pirimə də Süleyman peyğəmbər duvanı örgədifdi. O duvalar oxunsa, sən bütün quşdarın, heyvannarın dilini bilərsən. Murov dağında bir dənə qoş durufdu. Ovçu Pirim isdiyir bunu vura. Qoç Ovçu Pirimə deyir ki, ha çalışsan da, məni vura bilmiyəssən. Bu qoçun dalınca bir həfdə çıxıf dağa, amma vura bilmiyif. Axırda deyif:

– Kaş bu dili mən örgənmiyərdim.

Sora bir gün də Ovçu Pirim oturmuşmuş gənə. Görüf ki, toyuxnan pişih oynuyur. Toyux pişiyə deyir ki, iki günnən sora yiyəmizin inəyi öləjəh. Dilini bilirmiş da heyvannarın. Səhər ertə aparır inəyi satır. Heç üsdünnən iki gün keşmir, inəh ölür.

Sora bir gün də görür xoruznan pişih ayna-bayna hərrənə-hərrənə deyir ki, yiyəmizin dəvəsi öləjəh. Aparır bunu da satır. Aradan bir xeyli keçənnən sora görür xoruznan pişih deyir:

– Yiyəmiz öləjəh.

Gedir yalvarır peyğəmbərə, əl açır:

– Yazığam, hələ cavanam, məni bağışdaginən.

Deyir:

– Sənin həyatinə göydən bəla gəlmişdi, Allah inəyə vermişdi. İnəyi aparıf satdın bir yazığa, ayna aparan kimi öldü. Allaha yalvardım ki, bu, cavandı, bəlanı ver dəvəsinə. Dəvə də öldü. İndi bəla səninkidi. Sənə heş cürə əncam yoxdu. Sən ölməlisən.

*Söyləyici bu mətni atasından eşidib.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### IV mətn

Avçı Pirim bir gün ava çıxmışmış. Kürkünü çıxarıf bir az irəli yeriyif. Yeriyəndə, gədəsi də dalınca hamar-hamar gedirmiş. Gedif görüf dədəsinin kürkü burdadı. Girif bının arasına. [Avçı Pirim] qanrılıf geri baxanda görüf ki, kürk tərpənir. Deyif:

– Yəqin bının arasına bir şey gəlif girif.

Tüfəngi çəvirif. Çəvirəndə gədə kürkü atıf əənə, çığırıf. Çığıranda görüf ki, oğludu. Qayıdıf gəlif gədəni alıf qucağına. Əənəbəənə, gədə canın tapşırıf. Gedif girif ayının mağarasına. Utanıf, əvə gətirə bilmiyif. Qalıf çöldə. Ayı gəlif qapını kəsəndə deyif:

Dağdağan ha, dağdağan,
Dağda bitər dağdağan.
Avçı Pirim öz balasın vırıf,
Göl-göl oluf dağda qan.

Ayıya yalvarıf ki, səni yaradanı səvərsən, mənə dəymə. Həylə ayını aralıyıf əənə. Səhər də oğlunun cəsədini götürüf gəlif.

## PEYĞƏMBƏRLƏR VƏ DİNİ ŞƏXSİYYƏTLƏR HAQQINDA

### 27. MƏHƏMMƏD PEYĞƏMBƏRİN HƏCC ZİYARƏTİ

İmamlarnan bu (Məhəmməd peyğəmbər – top.) gedirmiş ticarətə-zada, ora-bura, alverə. Hamıdan da sora gedirmiş, bazarın qapısı buna açıx imiş. Gedəndə görüflərmiş ki, bu satıf buların qabağına gəlir. Hara da getsə, onun üsdünə kölgə düşürmüş, bulud onun üsdüynən gedirmiş. Deyiflər:

– Bunu izdiyəyin, bu havaxt gedir onnan gedəjeyih.

Nə qədər gediflər, bunun izi qalmıyıf yerdə, izin tapmıyıflar. Məkkeyi-Mədinənin qapısına da yazılmışdı ki, Məhəmməd adında bir şəxs gələjəh, onda bu bulax qaynıyajax. Bulağın yeri var imiş, suyu yox. Günnərin bir günü oranın şahı görür ki, damcı-damcı su axır. Vəzirrərini çıxardıf bazara ki, Məhəmməd adında kim gəlsə, onu gətirin mənim hüzuruma. Gəlif axtarıflar: – Məhəmməd, Məhəmməd.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyif:

– Məhəmməd mənəm.

Deyif ki, səni şah hüzuruna çağırır.

Deyif:

– Görən, şah məni neynir?

Bunun balaca bir qapısı var imiş. Dəvəni də götürüf çəkə-çəkə gedif. Dəvəni çəkəndə dəvəli-zaddı keçif. Bu qapıdan girən kimi bulağ elə şəfa verif ki! Buraan şahı qonaxlığ eliyir, hal-xoş, deyir:

– Səə nə qədər qızıl isdiyirsən verim?

Deyir:

– Məə heş nə lazım döyül.

## 28. MƏHƏMMƏD PEYĞƏMBƏRİN DOĞULUŞU

Yazılmışdı kitaba ki, Məhəmməd adında bir şəxs gələjəh, dünyanın yiyəsi o olajax. Oğlan uşağı doğulan kimi hadıxlara* pul verif öldürürmüşdər, qalırmış qız uşağı. Günnərin bir günü bir qojanı Fironun getdiyi yolda bir ağajdan asıflar ki, bir belə hadıxlar uşaxları qırır, analar ağlar qalır. Səbətə qoyuf asdıxları qoja deyifdi:

– Şah sağ olsun, ayağıı saxla, söz deyim. Mən dünya görmüş adamam, daa yeriyə bilmirəm, məni səbətə qoyuf gətirif yolun ağzınnan asıflar ki, sənnən danışım. Sən şahsan, sən savab eləməhdənsə, günah qazanırsan. Bir belə oğlan uşağı qırdırırsan, analar ağlıyır, belə olmaz. Biz dünyanı tutuf durmuyajağıx. Bax, mən qojayam, ölüm axdarıram. Hamı öləjəhdi, yerində də qalan ayrısı olajax. Gəl sən bu daşı ətəyinnən tök, günah qazanma.

Bunun sözünü eşidif elan vurdurur, daa uşax qırılmıyajax, mamalar arxayın olsun. Bu olannan sora bu Məhəmməd dünyaya gəlif. Yazılmışdı ki, Məhəmməd adında bir şəxs gələjəh, dünyanın yiyəsi o olajax. Onnan sora nənəsi də ölür, dədəsi də, qalır yetim. Bunu maması saxlıyır. Döşü quru arvad var imiş, bir döşüün südü kəsilmişmiş, biri qalmışmış. Aparıf ona ki, səə nə qədər desən, pul verəjeyih, bu, yetimdi, bunu saxla. O süd gələn döşünü verir, nağayrır, almır. O

* hadıx - mamaça



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qurumuş döşünü verən təki gördü bunu aldı, çağa da, qırxlıx çağa, qurthaqurt bunu əmdi. Əmənnən sora deer, Allah bunun urzasını verdi. Böyüyür, on dörd yaşına çatır.

Camaatı qıran Firon ölür. Onun Xədicə addı arvadı varıydı, yaşdı. Deyir pərdə enərmiş, pərdəən dalınnan danışarmışdar, bir-birinin üzünü görməzmişdər. Pərdəən dalınnan deyif ki, mən imam övladı deyiləm, həm də yaşım sənnən tutmaz. [Məhəmməd peyğəmbər] deyir: "Qəbulumdu". Fironun arvadı Xədicə xanımın kəbinini özünə kəsdirir. Onnan da təh bircə dənə Fatmeyi-Zəhra olur.

## 29. GAVURUN PEŞMANÇILIĞI

Məhəmməd əleyhsalam hər gün məscidə gedəndə bir gavurun, buna inanmıyan qadının qapısınnan keçirmiş. Hər keçəndə o qadın vedrədə nə qədər çirhli su var, bu kişinin üsdünə atırmış. Ha bir dəfə atıfdı, kişi heş nə demiyif, ha iki dəfə zibil atıfdı kişinin dalıynan, kişi heş nə demiyifdi. Axır bir gün qadın xəsdələnir. Qurban olduğum deyir:

– Buna gedif dəyəjəm ey, bunun halını, əhvalını xəbər alajam.

Gedir qapını açır, görür hə, arvad zıq-zıq zıkqıldıyır.

– Ay xala, saa nolufdu?

– Bəs belə, azarramışam.

Bu arvad elədiyi əməldən ohqədər peşman oluf ki… Deyif:

– Ay haray, gündə bunun üsdünə çirhli su atırdım.

## 30. İÇKİNİN HARAM BUYRULMASI

Məhəmmət peyğəmbər görüf müsəlmannar içir, deyif:

– Nuş olsun.

Görüf xaşpərəst də o yanda içir, deyif:

– Nuş olsun.

Qayıdıf gələndə görür xaşpərəst yeyif-içif, yatıf, müsəlmannar bir-birini doğruyuf. Deyir:

– Haram olsun içgi sizə.

Həmən haramdı ki, gedir. Həmən haramlıxdı buyruluf olara.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 31. PEYĞƏMBƏRİN QARĞIŞI VƏ ALQIŞI

Bir gün nətəri olursa, peyqumbərin papağını küləy alır aparır. Düşür dalına. Görür kü, qabaxda bir qız gedir. Deyir:

– Ay qız, o papağı tut.

Qız deyir ki, əşi, bekar-zad dəyiləm ha. Özün get tut papağıı. Qız bının papağını tutmur. Onda peyqumbər bına qarğış eliyir. Qarğış eliyir, deyir ki, qız, cehizin bitməsin. İndi, doğrudan da, heylədi. Qız dədəsi evinnən nə qədər şey aparırsa, nə qədər cer-cehiz aparırsa, genə gözü doymur. Elə deyir ki, kaş anam onu da maa vereydi, bını da maa vereydi. Gözü doymur da. O, peyqumbərin qarğışıdı, onu heylə tutuf. İndi qızın cehizi bitmir.

Sora peyqumbər görür kü, qabaxda bir qoyun sürüsü gedir. Deyir:

– Qoyun, papağın qabağını kəs, papağı tut.

Qoyun da kəsmir, öz yolunnan otduya-otduya gedir. Onda peyqumbər qoyuna qarğış eliyir. Deyir:

– Qoyun, qarnın doymasın.

Görürsən ki, qoyunu bütün günü otarırsan, genə başını otdan qaldırmır. Nə qədər yaxşı otarsan da genə əl çəkmir otdan. Peyqumbərin qarğışı tutuf onu, onunçün.

Sora da peyqumbər böyürtgən koluna deyir ki, böyürtgən, papağı tut. Böyürtgən şahın-şəvəlin atır, papağı tutur. Onda peyqumbər də ona alqış eliyir ki, səni görüm həmişə yarpaxların yaşıl qalsın, heş qurumuyasan. İndi görürsən ki, böyürtgən həmişə yaşıl qalır, qurumur. Peyqumbər alqış eliyif axı ona. Özü də uzanır, ujun atır yerə, təzdən ujunnan bitir. Peyqumbərin papağını o saxlıyır axı. O birilərinə də heylə qarğış eliyif, heylə oluf.

## 32. MƏHƏMMƏD PEYĞƏMBƏRİN ÖLÜMÜ

### I mətn

Deyir, Məhəmməd peyğəmbər xurma bağını suvarırmış. Bağı suvardığı yerdə Azreyil gəlif.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məhəmməd peyğəmbərin Fatimeyi-Zəhra adında bircə dənə qızı vardı, oğlu-zadı yoxdu. Deyifdi ki, Fatimeyi-Zəhranı verəjəm Abutalıbın oğlu Əliyə, onnan mənimki tutur. Mənim bir dənə qızım var, onun da bir dənə oğlu.

Bu Məhəmməd peyğəmbərin çiynində Məhəmmədi-rəsulallah yazılmışdı. Hər kəs ona gözüynən baxsa, cənnətə gedirmiş. Bir də onun paltarınnan bir qırıx kimin üsdündə olsa, o da cənnətə gedirmiş.

İclas imiş, iclasda bunun paltarınnan qırıx-qırıx kəsif götürüllər. Deyiflər gərəh onun çiynindəki Məhəmmədi-rəsulallaha baxax. Xayiş eliyif ki, daa məə belə əziyət vermiyin. Bunnan xilas oluf.

Günnərin bir günü xurma bağını suvardığı yerdə qızı gəlir ki, baba, səni ərəb çağırır. Daa özü bilir ki, kim çağırır. Deyir ki, qoy suyun qulağını çöyrüm, gəlirəm. Ölənədəh işdəməh onnan qalıf. Gedif Azreyil buna maslahat eliyif ki, dünyada qalmağ isdiyirsənsə, nəkqədər deyirsən Allahımdan icazə alım, ömür versin saa, bir o qədər də yaşa. Deyifdi ki, yox. Sırağagün məni çox pis hala salıf camaat. Bir az da qalsam, bihörmət olajam. Gedəri qonağın getməyi yaxşıdı. Gedəh. Bir dənə alma olur, onu iysiləyir. Alma düşür diyirrənir qapının ağzına. Nəvələri yüyrüşüf:

– A baba, a baba.

Uçuf göyə.

*Söyləyicinin babası molla olub, rəvayəti də ondan eşidib.*

### II mətn

Məhəmməd peyğəmbər deyif ki, saad üşdə mən öləjəm. Saad üşdə camaat yığılıf gəlifdi ki, bunnan vidalaşa. Gəlif görüflər ki, Məhəmməd peyğəmbər bağ suluyur. Deyiflər: “Ya peyğəmbər, səndə yalan olmaz axı”. Deyif ki, mən belə eləməsəm, mənim bəndələrim mənnən sora işdəməz.

## 33. YAZIYA OFSANAT

Peyğəmbər əleyhsalam moizə eliyir insannara. Bu zaman bir kişi əlində dəhrə gedir çırpı gətirməyə. Peyğəmbər əleyhsalam



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sözün kəsdi, dedi ki, bu kişi gedif çırpı gətdiyi yerdə dünyasın dəyişəjəhdi. Gedif onu gətirif dəfn edərsiz. Kişi ötdü, çıxdı getdi. Peyğəmbər əleyhsalamdan da bular heş vaxt yalan görmüyüfdü. Bu söhbətinə davam elədi. Yarım saatdan sora bu, arxasında şələ gəlif burdan keçəndə insannar hamısı peyğəmbərin üzünə baxdılar ki, sənnən biz yalan görməmişih. Bəs bu kişi öləsi idi, niyə ölmədi. Deyir, əlin qaldırdı, kişini saxlatdırdı. Dedi:

– Şələni aç.

Şələni açdılar ki, bir ilan çırpı şələsinin arasında uzanıf. Dedi ki, bax, bu ilan səni vurası idi. Bunu maa Cəbrayıl xəbər verif. Nə iş görmüsən sən, neynəmisən bu savah ertə?

Dedi:

– Vallah, bu savah ertə bizim beş dənə balaja kökəmiz vardı. Tezdənnən dilənçi gəlif, öz payımı ona vermişəm.

Dedi:

– Hə.

O yaxşılığın qarşılığında Allah-tala onu o təhlükədən sovuşdurdu.

## 34. DÜNYA DAŞQINI

### I mətn

Peyqumbər bilirmiş ki, dünyanı su alajax. Gəmi düzəldif ki, hər şeydən bir nəsil götürsün. Xamırrıyıf, müşəmməliyif. Bir qarının bir inəyi varmış. Peyqumbərə qonşu imiş. Gündə peyqumbərə bir isdəkan süt verirmiş. Bir gün peyqumbər qarıya deyir ki, qarı nənə, bəs dünyanı su alajax. Onda gələrsən, səni götürərəm gəmiyə. İnəya da dəymə. Gələjeyih, inəyi də salamat tapajeyih.

Qarı nənə gedif gəmiyə yetmiyif. Gəmi qalxıf, İrəvannan bəri Haçadağ var, ora. Qarı qayıdıf gəlif daxmasına. Tufan olanda peyqumbər ilanı götürməmişdi ki, toxumu kəsilsin. İlan da xəlvətcə dolaşdı gəminin altına, qalxdı getdi. Siçan gəminin müşəmməsini yedi, dəldi. Gəmiyə su çıxanda bilmədilər nağarsınnar. İlan dedi ki,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mən onu kəsərəm. Gördülər ki, ilan bulardan beyxəbər minif. İlan çıxdı gəldi, o siçan dələn yerə quyruğunu tıxadı, başını qoydu yatdı.

Su çoxaldı, yer üzündə camaat hamısı qırıldı. Getdilər bular durdular dağın başında. Ay gəldi, gün gəldi. Bir gün peyqumbər qəjiri* yolladı ki, get bir xəbər gəti. Qəjir gəldi leşdən yedi, yedi, qalxa bilmədi. Gözdədi, qəjir gəlmədi. Ayrı bir quşu göndərdi. Quş xəbər apardı ki, dünya ala-babat quruyuf. Qəjir də leşdən yeyif qalxa bilmir. Gəmidə olannar yendi gəldi. Peyqumbər qəjirə qarğış elədi ki, sənin yeməyin həmişə leş olsun. İndi qəjir qanadına baxır, görür ki, bir gilə qan var, o qan hara əyilsə, o gün axşama kimi ora gedif gərəy o leşi tapa. İndi qəjirin peyqumbərin qarğışınnan sora yediyi ancax mındar leşdi.

Peyqumbər gəldi gördü ki, qarının daxmasının dörd bir tərəfi su görmüyüf. İnəyi gedif örüşə, axşam-axşam gələndə görür ki, inəyi suya bılanmış gəlif. Ancax qarının gözünə su görünmüyüf. Tufan bir ay çəkif. Ona görə deyillər ki:

Dağlar özələndi,
Qar yağdı, təzələndi.
Nuh peyqumbər gəldi,
Dünya təzələndi.

**II mətn**

Deyilənə görə, Nuhun gəmisi, deməh, gedif Ələngəz dağının hansısa bir yerində ilişif qalıf. Qalannan sohra su quruyuf, quruyannan sohra qıraxdan baxanda görüflər ki, əəndən bir tüsdü gəlir. Gedif görüflər ki, bir qoja arvatdı, bir inəhdi, ojax qalıyıf, bir də bilmirəm, yanında nədi, oturuflar ojağın yanında. Bını kitabdan oxumamışam. Kürər sözü**, ağızdan-ağıza eşitmişəm. Dedihlərimin hamısını eşitmişəm.

---

* qəjir – ət yeyən quş
** kürər sözü – "Türkün məsəli" sözünün qarşılığı olaraq işlənir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### III mətn

Nuh peyğəmbər vəhşi heyvannarın idarəsi ilə məşğul olurmuş. Ona bir səda gəlir ki, elə bir leysan olajax ki, onnarın yaşadığı ərazinin hamısını su altına alajax. Bı gəlir o barədə öz qohum-əqrabasına məlumat verir. Deyir ki, biz səfərə hazırraşmalıyıx, dünyanın üzünü su alajax. Ona görə gəmi düzəltməliyih. Tufan olanda bı gəmiyə minif gedərih. Onun sözünə baxan adamlar yığışıllar onun gəmisinə. Onun da içərisində, həmin o gəmidə yüz iyirmi vəşi heyvanın növü olur. Axı hər bir heyvan boğulanda, dara düşəndə öz dilində danışır.

Nuhun gəmisi gəlir, indiki Naxçıvan olan yerdə, orda bir adada qayaya dəyir, dağılır. Onda da Nuhun özü olmaxnan bərabər, ona sadiq olannar, Allaha inanan adamlar o qayaya yaxın olullar. Qayaya çıxmaxnan xilas olullar. İnanmıyannar, o heyvannar orda qərq olur. O Nuhun çıxdığı yerə indi Naxçıvan deyillər. Oranın adı vaxdiynən Nuh çıxan yer oluf.

### IV mətn

Dəryada oynadı Nuhun gəmisi,
Biçildi, qalmadı onun zəmisi.

Nuh gəmini düzəldif, hala gələndə hər şeydən birini götürüf, canım qurban olduğum. Elə bil ki, hər heyvannan birini, bir musurman kişi, bir arvat, bir erməni, harsın, bir rus, bir rus arvadı, belə-belə yığıfdı lap gəmi dolanacan. Taa ilanacan yığıf. Gəlifdi suyun ortasında gəmi getdiyi yerdə, o yekə mişovul deyillər ha, o, gəminin altınnan kəsifdi. Kəsəndə su dolufdu gəminin içinə. Axı su batırır, ağırraşdırır. Camaat ağlıyıf, qışqırıf. Canım qurban olduğum Nuhun özü gəlif, barmağını qoyuf o siçovul deşən yerə. Su gəlmiyif tay. Onnan sora sürüf gedif, çıxıf qırağa, harda məskən salajıymışsa ora.

## 35. NUH PEYĞƏMBƏRLƏ İLAN

Bir gün Nuh peyğəmbər, deyillər, yolnan gedirmiş. Özü də susamışmış. Səhrada da su hardadı? Özü də bı qurban olduğum



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

özünnən bir dərman aparırmış ki, bı dərmanı adamlara verəjeymiş, adamlar ölmiyəjeymiş. Nuh səhrada bir bulağa ras gəlir. Fikirrəşir ki, qurban olduğum, lap yaxşı oldu. Susuzdan ölürdüm. Bir az burdan su içim. Gəlir bulağa yaxınnaşır, elə əyilir ki, su işsin, bir ilan fışıltıynan bının qabağına çıxır. Nə qədər eliyir canım qurban olan, ilan imkan vermir ki, bı su işsin. Axırda ilan bına deyir ki, nə verərsən ki, səni qoyum su işməyə. Nuh peyğəmbər də deyir ki, bəs mənim heş nəyim yoxdu, bir dərmannan başqa.

Deyir:

– O nə dərmandı helə?

Deyir ki, bəs belə-belə, bı dərmanı aparıram insannara, insannar bı dərmanı içənnən sohra ölmiyəjəh, qabıxlarını dəyişif cavannaşajaxlar.

Deyir:

– O dərmanı ver mənə, səni qoyum su içəsən.

Nuh qurban olduğum verməh isdəmir, amma naəlaj qalıf verir. Verənnən sohra da deyir:

– Ay lənətə gəlmiş, bı dərmanı da saa verdim, saa baş ağrısı da verdim. Başın ağrısız olmasın.

Suyu içir gedir. Odu-bıdı, ilanı öldürməsən, ölmür. O dərmanı uduf, elə həməşə qabığını dəyişir, cavan qalır. Amma həməşə də onun başı ağrıyır.

## 36. DAVUD PEYĞƏMBƏR

Davıd peyğəmbərin on iki oğlu varmış. Bir gün gəlir çox oğlu olan arvadının yanına, deyir:

– Ay arvad, Allah-talanın bizdə bir amanatı var, onu verək, vermiyəh?

Deyif:

– Əşi, nə danışırsan, Allahın amanatını verməməhmi olar?

Davıd peyğəmbər oğlannarına deyir ki, durun gedəh filan düzdə namaz qılax. Gedillər. Az gedillər, çox gedillər, var gedillər, yox gedillər. Kişi qabaxda, oğlannarı dalda namaz qılıllar. Bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

rükət, iki rükət namaz qılıf başdarını yerə qoyullar, ikisində elə, üçüncü belə... Başdarı qalıf yerdə. Kişidən başqa hamısı ölür. Kişi qayıtdı getdi evə. Dedi:

– Arvad, Allahın amanatını verdim, gəldim.

Arvad dedi:

– Əşi, bəlkə ağladın?

Dedi:

– Yox, mən ağlamadım, ciyar ağladı. Gözümnən yaş giləsi düşdü öz-özünə.

Allah onnarın yerinə Süyleyman peyğəmbəri verdi Davıd peyğəmbərə. O da onnarın ömrünü yaşadı.

## 37. SÜLEYMAN PEYĞƏMBƏRLƏ RÜSTƏM ZAL

Bir rəvayətnən deyillər ki, Süleyman peyğəmbər Rustam Zalın dövründə oluf. Yer kürəsinə Rustam Zal kimi pəhlivan gəlmiyif. Deyir ki, Rustam Zal yeriyəndə topuğuna kimi batırmış torpağa. Üz tutur bir gün Rustam Zal Allahın dərgahına ki, ya Xudavəndi-aləm, mən o vaxdı torpağın günahını verə bilmiyəjəm. Sən mənim quvvamnan bir az al.

Özü də bı Süleyman peyğəmbər incilas* eliyəndə bı Rustam Zal həmişə bının ağzın əyərmiş. "Axı bı, dünyanın prezidentidi", – deyif lağ eliyərmiş. Nəysə, Süleyman peyğəmbər üz tutur Allahın dərgahına ki, ya Xudavəndi-aləm, bı Rustamı yaradırdınsa, məni niyə yaradırdın? Məni yaradırdınsa, Rustamı niyə yaradırdın? Bı Rustam qoymur mən işimi aparım, qoymur işimi görüm. Səda gəlir ki, ya Süleyman, narahat olma.

Allah-tala əmr eliyir Həzrəti Cəbrayıla. Deməh, incilasdan bılar dağılanda meşənin arasınnan keçirmiş Rustam Zal. Həzrət Cəbrayıl gəlir bırda Rustamın qabağını kəsir, özü də Süleyman donunda. Deyir:

---

* incilas – iclas



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, nədi, niyə məni qoymursan camahatnan incilas eliyəm, sözümü deyəm camahata, tapşırığımı verəm?

Deyir:

– Ə, nə kişilənirsən? Bu saat qırram boynuu, – Rustam deyir.

Deyir:

– Mənim?

Deyir:

– Hə.

Deyir:

– Onda tutaşajeyih.

Nəysə, bılar tutaşıllar. Həzrət Cəbrayıl götürür Rustamın arxasını yerə qoyur. Bı Süleyman dəyil ha, Həzrəti Cəbrayıldı, girif Süleyman peyğəmbərin donuna. Deyir ki, bir də mənim incilasımda başqa söz danışma. Mən Süleymanam, saa qoşulmuram.

## 38. SÜLEYMAN PEYĞƏMBƏRİN ÖLÜMÜ

### I mətn

Mən eşitmişəm ki, Süleyman peyğəmbər iki yüz səhsən yeddi il yaşıyıf. Guya bir gün Süleyman peyğəmbər harasa gedirmiş. Ordan keçəndə gərəh bir əmanət verəymiş. Onun getdiyi yeri dəqiq bilmirəm. Üzüyünü verif orda bir qadına. Gedif, geri qayıdanda deyif ki, ay qarı, mənim üzüyümü qaytar ver. Deyif:

– Gəl, tapa bilirsənsə, götür apar.

Deyir ki, sən ver, tapajam, üsdünə adım yazılıf. Gedir orda bir neçə Süleyman adı yazılmış üzühlər görür. Gəlir deyir ki, ay qarı nənə, axı burda Süleyman adı yazılmış üzühlər çoxdu. Deyif:

– Ay bala, bu dünyaya sənin kimi o qədər Süleymannar gəlif gedif.

Deyillər Süleyman peyğəmbərə Allah peyğəmbərrih verdi. Lakin dünya malını peyğəmbərrihdən üsdün tutuf, daim şahlıx arxasınca getdiyinə görə ona peyğəmbərrih qismət olmadı. İndiki dilnən desəh... Guya o peyğəmbərriyin dalına düşmüyüf, şahlığı üsdün tutuf. Cənabi Cəbrayılı da Allah-tala göndərif ki, bı, şahlıxdan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

əl çəkmiyəjəh. Bının bir belə üsdün yaşamağınnan, qarışqadan, nə bilim nədən bac-xərac almağınnan, daim Allahın töhmətində qalmağınnansa, ölməyi məsləhətdi.

Deyir, iki yüz səhsən yeddi il ömür sürən Süleyman hər şeyin dilini bildi, hər gün ünsiyyətdə olduğu qadının dilini bilmədi.

**II mətn**

O Süleyman peyğəmbərin, deyir, barmağında üzüyü varmış. O Süleyman peyğəmbərin canını ala bilmirmişdər. Bir günnəri bulağın başında gözəl bir məleykə qız bına sataşıf. Qız bına deyif ki, o üzüyü çıxardıf mana verərsən? Deyif:

– Hə, niyə vermirəm.

Gətirif üzüyü çıxardanda Əzrayıl boynunu kəsir. Süleyman da bına – Əzrayıla deyif ki, canımı alırsan, gəl gedəh odey, o ağacın altında alginən. Süleyman peyğəmbər deyif bını. Deyif:

– O nədən ötəridi?

Deyifdi ki, onnan ötəridi ki, bırdan ora getməh də, işıxlı dünyaya baxmax da şahaddıxdı*. Onun üçün onnan qalıf ki, Süleymana qalmıyan dünya kimə qalajax.

## 39. İBRAHİMXƏLİL PEYĞƏMBƏR

İbrahimxəlil peyğəmbəri çox incidiflər. Hara qoyuflarsa, Allah-tala bının ölümünə, yanmağına icazə vermiyif. Yığıflar, yığıflar, yığıflar tayanı, bını qaldırıf qoyuflar başına, odu vuruflar. Bını məleykələr alıf şahpərinə, çəkif yuxarı. Yalav** olanda qaranquş gətirif bı yalavın üsdünə su atıf, bının yalavına. Deyiflər:

– Niyə həylə eliyirsən, sənin o suyun ona nağayrajax?

Deyif:

– Mən dosduğumu bildirirəm. Peyğəmbəri yandırıllar, mən də üsdünə su atıram.

---

* şahaddıxdı – qənimətdi
** yalav – alov



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sohra kərtənkələ də gəlif. Allah lənət eləsin, ojağı üfürüf ki, yansın. Deyiflər:

– Niyə həylə eliyirsən?

Deyif:

– Mən düşmənçiliyimi bildirirəm.

Ojağ yanıf keçif. Gedif görüflər ki, İbrahimxəlil peyğəmbər külün içində gəzir. Bı nə yanıf, nə də ölüf. İbrahimxəlil peyğəmbər də onüçün qaranquşa damda yua verif ki, daldada yua qursun, balaları qırılmasın. Deyir:

Vırdım getdim suya mən,
Sudan aldım dua mən.
Qaranquşcan olmadım,
Damda çatam yua mən.

Kərtənkəliyə də lənət oxuyuf. Ona görə də kərtənkələ heylə pis oluf. Daşdarda gəzir kərtənkələ. Nəyə gərəhdi?

## 40. İSMAYIL PEYĞƏMBƏR

İbrahimxəlil peyğəmbərə peyğəmbərrih verilif, əmisi qızı Saranın üjünnən verilif. Gediflər ki, dünyanı inam üçün bir az çəvirələr dayna, peyğəmbərə çəvirələr, salavata çəvirələr. Saranı bir yeşik qayırıf, qoyuf yeşiyin içinə, alıf atın qucağına, baş götürüf gedif. Üç adam gəlif qabağına. Bına deyiflər ki, o qucağındakı nədi? Deyif əmim qızıdı, gedirik. Qoyuf yerə, bılara göstərmək üçün. Yeşiyin içinnən bir gözəl qız çıxıf. Əmisi qızıdı, dayna, yeşiyin içinə qoymuşdu. Bılar irəli duruf ki, bını bının əlinnən alalar. Biri irəli duruf, qolun uzadıf ki, sala Saranın boynuna, qolu gəlmiyif, havadan asılı qalıf, quruyuf. O biri yüyürüf ki, mən gedirəm. Onun da qolu qalıf belə. O birisi də daş kimi donuf, heç qolun da uzada bilmiyif. Bı da – İbrahimxəlil peyğəmbər Saranın sözünnən çıxsa, bınnan peyğəmbərrih alınırmış. Gərək Sara nə desə, onu deyeymiş.

Az gediflər, gediflər, bir məkanda məkan salıflar. Məkan salanda altmış il burda yaşıyıflar, inama adam gətiriflər, adam dön-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dəriflər. Amma Saranın uşağı olmuyuf. Bıların da bir ayaxçısı* varmış, Həcər adında. Deyir ki, Sara, əmi qızı, isdiyirəm ki, sənə bir söz deyəm, amma qorxuram ki, sözümü yerə salasan. Deyir:

– Yox, əmi oğlu, de, qorxma, nə olar, olar, salmaram sözuu yerə.

Deyir:

– İndi bizim bu dünyada züryətimiz olmadı. Gəlsənə, sən Həcəri, ayıb olmasın, mənə kəbin eliyəsən, görəh bının uşağı olur, olmur.

Deyir:

– Əmi oğlu, o, elə mənim də könlümdən keçirdi, amma qorxurdum sənə deməyə. Mən razıyam, gəti Həcərin kəbinini kəsək sənə.

Yığışıllar qohum-qardaş, ağsakqallar, Həcərin kəbinini kəsillər İbrahimxəlil peyğəmbərə. Bılar üçü də başdıyıllar bir yerdə yaşamağa. Həcər gəlir bir müddətdən sora boylu olur. Həcər boylu olannan sora, ayıb olmasın, Sara da boylu olur. Həcərin uşağı olmağ vaxtı gəlir yetişir. Sara İbrahimxəlil peyğəmbərə deyir ki, bını apararsan, gün günorta olanda orda qoyarsan, dəvədən özün də düşməzsən, axşama gələrsən bıra. Bı da axı bının sözünnən çıxmaz. Aparır, aparır, gün günortaya qalxır. Bı vaxt Həcəri qoyur yolun qırağında bir kolluxda, bir biyabannıxda, gəlir evə. Bırda canım qurban olan İsmayıl olur Həcərdən. Həcər həmlin qoyur yerə, İsmayıl olur. Göbəyin-zadın kəsir, ancax bırda su tapmır. Uşağı qoyur bırda, başına bir yaylıx atır, deyir ki, çavıyım, görüm, bu kolların dibinnən su taparam əllərimi yuyum. Bir az ənə-bənə çavıyır, sora geri – uşağa baxır. Geri baxır, görür ki, yaylığ atdığı yerə çoxlu qarğa, quş tökülüf. Yaylığı uşağın üzünə atmışımış. Deyir:

– Ay boynum sınsın, uşağı qarğa, quş yedi.

Qayıdır özün salır uşağın üsdünə. Görür ki, o uşağ ayağın uzadıf çəkir bələyin üstünnən. Qayıdıf görür ki, İsmayıl ayağın uzadıf çəkdiyi yerdən su çıxır, dabannarının yerinnən. Belə-belə eliyir, suyun qabağın kəsir. Gərəh kəsmiyeydi, arx eliyeydi, gedeydi. Qabağın kəsir, görür ki, buz kimi su çıxır. Əlin yuyur, üzün

---

* ayaxçı – qulluqçu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yuyur, İsmayılı alır qucağına, oturur yolun qırağında kolun dibində. Görür bir karvan gəlir, dəvə karvanı, üsdündə tulum, dəri, nə bilim nə. Evlərinə su gətirillər. Gəlillər, görüllər, vallah bir zənəndi, qucağında bir zılqa*, oturuf yolun qırağında. İki nurani ağsakqal kişi dəvəni xıxırdır**, deyir:

– A bacı, icazə verərsən, bu sudan içəh?

Deyir:

– Niyə vermirəm, verərəm.

Yığıllar, yüklüyüllər, bunnar gedənnən sora iki nurani kişi karvannan yorğan alır gəlir, verir Həcərə, özdəri də qalır bının yanında. Yoldaşlarına da deyillər ki, aparın bizim suyumuzu verin külfətimizə, əvlərimizi də səhər yüklüyün dəvələrə, gətirin düşürün bıra, bı zənənin yanına.

İkisinin də əvlərin yüklüyüllər, gətirillər düşürüllər bıra. Əv deyəndə daşdan dəyildi, torpaxdan dəyildi, palazdan, ayınnan-oyunnan idi. Gətirillər, düşürüllər, birin Həcərə tikillər, ikisin də özdərinə. Həcərin də əvin ortadan tikillər.

Bılar gəlir, gəlir, gəlir, böyük bir oba olur. Bılar bı İsmayılın suyunun üsdə bir məhlə olullar. Bir gün canım qurban olan İbrahimxəlil peyğəmbər deyir ki, Sara, icazə ver, gedim İsmayılı görüm.

Deyir:

– Get, gör, amma axşama qayıt, orda qalma, dəvədən düşmə.

Gedir çıxır bir qapıya. Bir gəlin xeylağı çıxır. Belə baxır, deyir:

– Bıra İsmayılın qapısıdı?

Deyir:

– Hə.

Deyir:

– İsmayıl evdədimi?

Deyir:

– Yox, ova gedif.

---

* zılqa – çağa

** xıxırtmaq – yerə çökürtmək, yerə oturtmaq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dəvənin boynun vırır qayıdır geri. Geri qayıdanda bir kağız yazır verir gəlinə, deyir bını gələndə ver İsmayıla.

İsmayıl gələndə gəlin bu kağızı verir İsmayıla. İsmayıl oxuyur, deyir:

– Aaz, bıra gələn kimiydi?

Deyir:

– Nə bilim, bir dəvəli ərəbiydi.

Deyir:

– Aaz, sənin boynun qırılsın, o mənim atamıydı, nə dəvəli ərəb?

İbrahimxəlil peyğəmbər də kağıza yazmışımış ki, oğul, əvinin içi də pisdi, çölü də. Yanı bı gəlini niyə almısan, pisdi, qonağa hörmət eləmir. Əvinin içi də pisdi, çölü də pisdi. İndi İsmayıl başdıyır gəlini qavmağa. Bı qoja babalar, ağsakqallar, anası deyir qavma, niyə qavırsan? Deyir:

– Yox, atam deyif ki, əvinin içi də pisdi, çölü də.

Qavır, yenidən evlənir. İbrahimxəlil peyğəmbər də gedir bir il qalır, iki il qalır, genə deyir:

– Sara, icazə ver, gedim İsmayılı görüm.

Gəlin görür kü, bir dəvəli gəldi qapıya. Deyir:

– Bala, bu qapı kimindi?

Deyir:

– İsmayılın.

Deyir:

– İsmayıl hanı?

Deyir:

– Nənəsiynən toy yerinə gedif.

Genə İsmayılı görmür. Gəlir bı gəlin, dəvənin dizinə vırır xıxırdır, bının üsdünə gölgəlik eliyir, məcməyidə çörək gətirir, su qoyur. Gəlin bıların hamısın habelə əlində tutub, axı bının dəvədən düşməyə ixtiyarı yoxdu. Elə gəlinin əlinnən dəvənin üsdündə bir loxma kəsir, deyir:

– Allah saa şükür, oğul çörəyi də yedik.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bını gəlin eşidir. Bir az da su içir. Durur, vırır dəvənin boynuna, gedir. Genə gedəndə bir kağız yazır verir gəlinə ki, bını verərsən İsmayıla. Kağıza da yazır ki, oğul, əvinin içi də yaxşıdı, çölü də yaxşıdı.

Saranın yetmiş ildi uşağı olmurmuş. Yetmiş yaşında bir oğlan uşağı olur. On bir dəvə qurbanı kəsilir. Gəlir bir gün İbrahimxəlil peyğəmbər deyir ki, Sara, icazə ver, gedim İsmayılı gətirim. Deyir:

– Get, axşama götü gəti.

Gedir o qocalardan da icazə alır, İsmayılı götürür, gətirir, nənəsiynən, gəliniynən, oğluynan. Bir ayrı əv tikir, qoyur içinə. Deyir ki, mən demişəm, Allah, mənim bir oğlum olsun, Ərəfa dağında qurban kəsəjəm. İndi mən İsmayılı aparıf orda qurban kəsməliyəm. İsmayıl da gözəl, telli oğlandı, cavan. Deyir:

– Oğul, mən səni Ərəfa dağına qurban demişəm, gedirsən?

Deyir:

– Ata, niyə getmirəm, mən sənin sözünnən niyə çıxıram?

Getdiyi yerdə, kor şeytan, Allah lənət eləsin, onda kor dəyilmiş, çıxır bının qabağına. Deyir ki, İsmayıl, atan aparır səni kəsməyə, hara gedirsən? Getmə onnan deyəndə, İsmayıl götürür bir daş atır, şeytanın gözün çıxardır. İndi onnan deyillər, Allah sənə lənət eləsin kor şeytan. Korluğu onnan qalıf şeytanın. İsmayılı yıxanda, İsmayıl deyir ki, əlimi-ayağımı bərk bağla, sənə zəhmət olmasın, ata. Xəncəri çəkir İsmayılın boğazına, nə qədir eliyir, xəncər kəsmir. Vırır yerə xəncəri, xəncər çingildiyir. Deyir:

– Niyə kəsmirsən?

Xəncər deyir:

– İsmayılın nənəsinin gözü yoldadı. Xəlil deyir kəs, – Allahın birinci adı Cəlildi, – Cəlil deyir kəsmə İsmayılın başın, arvadıynan nənəsi yol gözdüyür.

Götürür xəncəri, dalındakı qara daşa çalır ki, xəncəri sındıra. Qara daş bölünür, onun içinnən bir qaragöz ağ qoç çıxır, gəlir uzanır İsmayılın yerinə. İsmayıl qurbanı da onnan qalır. Bırda bı qoçu kəsillər, atasıynan bişirillər, yeyillər, qalanın İsmayıl yığır dərəyə. Arvadıynan, nənəsi yol gözdüyürdü axı. Görüllər İsmayıl teli atıla-atıla belində bir cəmdək gəlir. İsmayıl qurbanı da onnan qalıf.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 41. YUSİF PEYĞƏMBƏR

Yusuf peyğəmbər yuxu yozurmuş. İndi də gejə bir yuxu görəndə oyanıf deyillər ki, Yusuf peyğəmbər xeyrə yozsun.

Yusuf peyğəmbəri bir arvad tutduruf salmışmış qazamata. Bunun qazamatdakı yoldaşdarınnan biri bir gün yuxu görür. Oyanıf deyir ki, Yusuf, bu gejə başımda bir teşt xamır aparırdım. Gördüm ki, qarğa-quzğun töküldü xamırı yedi. Bu yuxunu yoz görüm, bu nə deməhdi. Yusuf da deyir ki, işıxlaşanda səni şakqa vırıf asajaxlar göydən, qarğa-quzğun ətini yeyəjəh. Bu da gerçəh oluf. Üş-dörd adam həylə deyif. Onnan sora görüflər ki, bu nə yozur düz çıxır.

## 42. TÜK GƏTİRƏN ADAM

Biri tük gətirir başdan-ayağa, hər yanı olur tük. Gedir qurban olduğum Musa peyğəmbərnən dilləşir, Allah-taladan şəfa isdiyir.

Deyir:

– Get denən ki, dünyada nə mındar şey var yesin.

Dünyada mındar şey yoxdu. Gedir, uzax olsun, tısbağanı da yeyir, nə var yeyir, bının tükü tökülmür. Bı gedirmiş Musa peyğəmbərnən dilləşməyə ki, saa qurban olum, Allah-talaya dinən, bəs nətər oldu, dünyada nə mındar şey var yedim, tüküm tökülmədi? Bı gəlir görür ki, irəlidə gözəl-göyçəh bir gəlin təndir çörəyini bişirif töküf bəridən ayna. Bına təklif eliyir. Bı gətirir bına bir belə çörəh verir. Bı bir belə çörəyi yeyəndə, – bı Allaha agahdı axı, – görür kü, başdan-ayağa tükü töküldü. Bu olur anadangəlmə. Bı gedir deyir:

– Nətər oldu ki, dünyada nə mındar şey ki var, yedim, tüküm tökülmədi, bir gözəl-göyçəh gəlin maa bir belə çörəh verdi, yedim, tüküm töküldü?

Deyir:

– Əlindəki çörəyi sıx görüm.

Sıxan kimi bınnan başdıyır zina tökülməyə. Ona göra kı, bütün Məhəmməd ümməti həmişə gərəh təmizdiyi qana, hər şeyin salavatın verə. O əlindəki çörəyi sıxanda zina tökülür, mındardı, yanı qadın mındar-mındar xəmiri qatırmış, qüsullanmamış, qüsulun



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

verməmiş. Bizim şəriyətimiz var axı. Hər şeyə gərəh salavat verəsən. Bilmirsənsə, üzuu tut qıvlıya tərəf, suyu başınnan tök, denən: "Allah, bildiyim bıdı". O saa bəsdi.

## 43. MUSANIN ALLAHLIQ İSTƏYİ

Bir gün Musa gedir Allahın yanına. Deyir:

– Ya Allah, allahlığı üş gün ver maa.

Deyir:

– Ya Musa, neyniyəssən?

Deyir ki, adamımı bir-birinnən seçim.

Ona görə də deyirih ki, Allah günün ixdiyarını heş kəsə vermiyif. İxdiyarı ancax öz əlindədi. Özü yazısını yazır, özü öldürəndə öldürür. Musuya vermiyifdi. Musuya deyif ki, ya Musa, saa versəm dünyanı talan eliyərsən. Dünyanı pəsdü-parağ eliyərsən. Bir dəyqənin dəyqəsin, bir saniyənin saniyəsin saa verə bilmərəm. Eşitdiyim, bildiyim, vermiyif Musa peyqumbərə.

## 44. ALLAHDAN KÜSƏN ÇOBAN

Musa Tura gedəndə çoban deyir ki, ya Musa, Tura gedirsən?

Deyir:

– Hə.

Deyir:

– Mənim Allahıma deynən ki, mən onnan küsmüşəm.

Musa deyir ki, əşi, əstafır elə, sən kimsən Allahdan küsəsən. Deyir ki, sənin nə işəə qalıf, deyərsən.

Allah-talaynan danışannan sora deyir ki, Xudavəndi-aləm, özünə agahdı da, çoban belə-belə dedi. Allah-tala deyir ki, ya Musa, get ona deynən ki, mən də onnan küsdüm. Gəlif deyir ki, Allah-tala deyir ki, mən də onnan küsdüm.

Vaxt olur, ikinci dəfə gedəndə Musa peyğəmbərə deyir ki, mənim Allahıma deynən barışdım onnan. Gedir Allahnan görüşür. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Xudavəndi-aləm, çoban deyir ki, onnan barışdım.

Deyir:

– Mən də onnan barışdım.

Qayıdır gəlir çobana deyir ki, sən kimsən Allahdan küsəsən, Allahnan barışasan. Bunu maa agah eylə. Deyir ki, mən Allahdan ona görə küsmüşdüm kü, o gözəllihdə cənnəti yaratmışdı, cəhənnəmi niyə yaradıf. Ona görə küsmüşdüm onnan. Sən gedənnən sora bir dəsdə quldur gəldi, məni döydü, qoyunumun da yaxşıların seşdi apardı, qalmışam indi bu axsağ-uxsağın yanında. Mən də ona görə onnan barışdım ki, cəhənnəmi də yaradıf onnardan ötrü.

## 45. HƏR KƏSİN ÖZ ŞƏXSİYYƏTİ VAR

Bir dəfə Musa peyğəmbər Tura gedəndə Allah-tala deyir:

– Ya Musa, gələn dəfə bura gələndə özünnən alçax nəyi bilirsən onu gətirərsən bura.

Gələn dəfə gedəndə nə qədər fikirrəşir ki, mən nə aparım Allah-talanın yanına. Heş bir şey tapa bilmir. Yolun qırağında çox pis vəziyyətdə heyvan varmış. Deyir ki, elə bunu aparım da. İpi çıxardır ki, bağlıya bunun boğazına, sürüyə-sürüyə apara. Birdən ağlına gəlir ki, bunu da Allah yaradıf, mən bunu nətər özümnən aşağı hesab eliyim. Açır buraxır. Deyir:

– Yox ey, boş gedəjəm.

Gedir. Bütün hak-hesabdan sora deyir ki, ya Musa, mən saa nə demişdim. Deyir:

– Xudavəndi-aləm, and olsun vəhdaniyətinə ki, nə qədər fikirrəşdim, özümnən aşağı bir şey tapa bilmədim. Birin gətirməh isdiyirdim, onu da rəva bilmədim.

Deyir:

– Ya Musa, and olsun vəhdaniyyətimə, əgər sən onu ipə bağlıyıf bura gətirsəydin, səni peyğəmbərlihdən azad eliyəjeydim. Hər kəsin öz şəxsiyyəti var.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 46. HƏREYLAN

Orda (Hacı Hüseynli kəndinin yaxınlığındakı qəbirstanlıqda – top.) canım qurban olan Əli gavırnan dava eliyirmiş. Orda Əli oları qırıf qutarıf. Sohra ilanı yolluyuf ki, get gör orda qalanı var, yoxsa qırılıf, qaçıf gedif? Gavırların da qalanı deyiflər ki, durun baxın, görün Əli gəlir, gəlmir? Baxan gəlif, geri qayıdıf deyif ki, Əli gəlmir. Gələn hələ ilandı. Onun adı Hələ ilandı. İndi camaat Hərey-lan* deyir, amma həylə deyil. Eşitdiyim varianta görə belə oluf.

## 47. ƏLİNİN ANDI

Deyir, Həzrət Əli and içif ki, deməh, qan Düldülün üzəngisinə çıxıncan qılış vırajam, yəni bı camaatın gözünü qırım ki, dönsünnər müsəlmana. Deyir, camaatı çəkif qılınca. Allah-talıya ağahdı dayna. Görüf kü, ə, bı hirsdənif, qoymur camaat qala. Canım qurban olan görüf kü, bı andınnan dönmür. Hököm eliyif, bir gürşad sel düşüf. Sel qalxıf, bı qanı da qaldırıf Düldülün üzəngisinə. Onnan sohra o qılıncı qoyuf yerə.

## 48. YERİN-GÖYÜN AĞIRLIĞI

### I mətn

Bir gün canım qurban olan dünyanın ağırrığını yığır bir dağa-rın içinə. Yolun qırağında da bir qoca qadınmı, kişimi oturuf. Görüf ki, canım qurban olan Əli Düldülün üsdündə gəlir. Deyir:

– Ay Əli, bı dağarı qaldır kürəyimə.

Bı da Zülfüqarı Düldülün üsdünnən ilişdirir dağara. Qaldır-mağ isdiyəndə dağar qalxmır. Bir də eliyir, görür dağar genə qalx-mır. Düldüldən düşür. Dağarı götürür, dağar qalxmır. Qışqırır, diz-dərinətən batır yerə, dağarı qaldırır. Dağar dəyil ey, yerin-göyün ağırrığıdı, amma dağar şəklindədi. Orda canım qurban olanın göz-dərinə qan damır. Ona görə də ona qırmızı göz Əli deyillər. Gö-rüllər ki, dizdərinətən batdı torpağa, amma dağarı qaldırdı.

---

* Həreylan – Xələfli kəndinin xalq arasındakı adıdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**II mətn**

Deyir, bı Urusdamı-Zal öz quvvasına çox güvənirmiş. Camaatı da incidirmiş dayna kefinə düşəndə. Bını bı qurban olduğum Həzrət Əli eşidir. Gəlir əlində bir dağarcıx, özü də qoja qarı şiklində oturur bir yolun qırağında. Bilir ki, Urusdam bir azdan burdan gəlif keçəjəh. Görür bıdı, Urusdamı-Zal atın belində gəlir. Gəlif bının yanınnan keçəndə deyir:

– Bala, bala, bı torbanı qaldır mənim kürəyimə, güjüm çatmadı. Qoy bını kürəyimə.

Urusdam elə atın belinnən ağacı ilişdirir bının dağarcığına ki, bını qaldırsın. Qaldırmağ isdiyəndə qalxmır. Qalır məhətdəl. Atdan düşür, iki əlli yapışır dağarcıxdan. Nə qədər eliyir, tərpədə bilmir. Onda qurban olduğum özü yavaşca torbanı götürür, atır dalına, düzəlir yoluna. Urusdamı-Zal qalır məhətdəl ki, bı nətər oldu? Bı qaldıra bilmədi balaca bir torbanı, amma bı qarı qaldırdı onu. Qalır məhətdəl ki, o qarı kimdi, o torbadakı nədi? Ta bilmir ki, o canım qurban olan Əlidi. O torbadakı da yerin-göyün ağırrığıdı. Yəni Urusdama demək isdiyir ki, özüü hamıdan güjdü bilmə. Urusdam da bını başa düşür dayna, tay özünü yaxşı aparır.

## 49. HƏZRƏT ƏLİYNƏN GAVUR

Bı Həzrət Əliynən gavır gəlif qabax-qarşı, eşitdiyimə görə, bildiyimə görə. Gavır mına deyif:

– Sən vır.

Canım qurban olan Allah nəhlət eləmişə deyif ki, yox, birinci sən vır. Qabaxca gavır vırıf bının başına. Axı onun vırdığı zərbənin hamısı bının başına dəyməli dəyil, onun qabağına əl atan var axı. Dəyif başına, dizinətən batıf torpağa. Sohra tez sıçrıyıf duruf qıraxda. Onda onun gözdərinə qan damıf. Sohra gavır deyif ki, sən vır. Bı qılıncı çəkif vırıf gavırın başınnan, gedif çıxıf gavırın aşağısınnan. Gavır deyif:

– Sən maa nağardın?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hələ bı heş nə hiss eləmiyif. Bölüf bını, bı hələ silkələnmiyif deyənə heş nə hiss eləmir.

Deyif:

– Haran ağrıdı?

Gavır deyif:

– Alnım ağrıdı, dilimin uju ağrıdı, dizimin gözü ağrıdı.

Deyif:

– Dilin la ilahə illallaha dönmüyüf, alnın qıvlıya, möhürə yenmiyif, dizin namaza yenmiyif, onüçün ağrıdı. İndi silkələn, gör saa nağarmışam.

Silkələnəndə yarısı ənə düşüf, yarısı bənə.

## 50. QILINC KƏSMƏZ ƏLİ

Bı canım qurbana (Həzrət Əliyə – top.) mavıyalar* nə qədər eliyirmişdər, bına qılınc batmırmış. Bınnan, elə bilginən ki, siyasatnan soruşuflar ki, səni nə vaxt qılış kəsər? Deyir ki, məni qılış namaz üsdə kəsər. Namaz üsdə bədən boşdu, onda kəsər. Bına namaz üsdə qılış vırıllar. Vıranda qılış kəsmir bını. Deyir:

– Allah sizə lənət eləsin. Mənim xirtdəyimin altınnan babam öpüfdü, ora qılış batmaz. Boynumun dalınnan kəsin. Xirtdəyimnən kəsə bilmiyəssiz.

## 51. HƏZRƏT ƏLİNİN ÖLÜMÜ

Bir də deyillər, o canım qurban olduğum Əli bilirmiş dünyasını nə vaxt dəyişəjəh. Oğlannarına vəsiyət eliyir ki, mən öləndə maa yaxın gəlmiyin. Məni qiblə tərəfdən bir ağ dəvəli gəlif aparajaxdı. Birdən bilməssiniz qabağına-zadına çıxarsız ha. Qabağına-zadına çıxmıyın. Ata-baladılar, nətər çıxmasınnar qabağına?

Dünyasını dəyişəndə görüllər ki, bir ağ dəvə gəldi, elə bil ki, üsdündə də cinaza. Qabağını kəsdilər. Gördülər ki, öz atalarıdı, cinaza dəvənin üsdündədi, dəvənin boyın çəkən də öz atalarıdı, Əlidi.

---

* Mavıyalar – Müaviyənin adamları



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Həzrət Əli deyif ki, mən öləndə qırx dənə qəbr qazın. Məni bilməsinnər ki, hansı qəbrdə basdırmısız. Mavıya bilməsin ki, hansındayam. Qırxını qazdılar, birində basdırdılar. Qalannarının da üsdünü torpaxladılar. Bilmiyiflər ki, hansındadı.

## 52. AĞ DİVİN BARMAĞINI ÇATAN ƏLİ

Hanı duruf Diri dağı yeyliyən?
Qurbani kimi hax tərəfdən söylüyən.
Ərəsdun, Əflatun, Loğman bəs hanı?
Ağ devin barmağın çatan bəs hanı?

Ağ devin barmağını çatan* Əlidi. Peyğəmbərin əmisi oğludu. Əli qırx il dünyada gəzənnən sohra oluf anadan.

Peyğəmbər bir gün Nil dəryasındaymış. Orda səhər namazını qılıf çiyinnərinə salam verəndə görüf ki, bir göyçəh oğlan uşağı qarqudan at minif gəlir. Deyif: "Allah, sən özün bu uşağı saxla".

Deyif ki, baba, uşax sənsən, mən dəyiləm. Ordan yayınıf gəlif peyğəmbərin yolunu kəsif, qurşağını alıf buraxıf. Şir şəklində oluf. Sohra genə gəlif kəsif yolunu, çəliyini alıf buraxıf. Sohra genə gəlif kəsif yolunu, əmmaməsini alıf buraxıf. Peyğəmbər gələndə görüf ki, bu şir genə oturuf. Deyif: "Mənim ayağıma tikan batıf, bunu çıxart". Çıxardanda deyif ki, baba, ala qurşağıı da verim, çəliyi də, əmmaməni də.

Gəlif görür ki, bı ağ dev gündə yeddi adamı vırır şişə, yeyir. Gəlir uşax şəklində bına bir gilənar dənəsi atıf. – "Ala bını sındır görüm". Dev bını sındıranda sındıra bilmiyif. Əlləri yapışıf bir-birinə. Sohra da gəlif uşax şəklində bının yatdığı yerdə ayaxlarını çatıf, əllərini çatıf. Ağ dev qalıf yerdə zırıldıya-zırıldıya.

İndi, bala, Əliyə Allah da deməh olmaz, Allahdan alçax da deməh olmaz.

---

* çatan – bağlayan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 53. GÜNÜ GÜNORTADAN QAYTARAN

### I mətn

Süleyman peyğəmbərin ağ atı oluf. Bı at da Allah tərəfinnən gəlifmiş. Onu da çox isdiyirmiş. Bir vaxt başını qaldıranda görür ki, namazın vaxdınnan keçif. Allaha dua eliyir ki, ey Allah, o atı sən göndərdin, – ağ atıymış, – mənim də başım qarışdı namazın vaxdı keşdi. Günü günortadan qaytar. Günü günortadan bir Süleyman peyğəmbər qaytarıf, bir də Cənabi Əmir qaytarıf. Onnan sora Allah-tala əmr eliyif, gün qayıdıf. Süleyman peyğəmbərə görə qayıdıf.

Əli də görür bir adam yaman bikef gedir. Deyir:

– Ə, noluf?

Deyir:

– Ə, mənim boynumu şah sabah vırdırajax. Mənim bı qədər borcum var, borcu da düzəldə bilməmişəm. Bu gün də gün keçif, sabah mənim boynumu vırdırajax.

Əli hökm eliyir, Allaha deyir:

– Ey Allah-tala, günü günortadan qaytar.

Əli bı kişiyə pul verir. Kişi də aparır borcunu qaytarır. Onüçün deyir, günü günortadan qaytaran, sayılı, dilənçini borcdan qurtaran. Əli bı kişinin pulunu qaytarır, günü də günortadan qaytarır.

### II mətn

Deyir o günü günortadan qaytaran, sayılı borcdan qutaran Allah dadaa yetsin. Bı sayılı borcdan bıdı ki, Allah lənət eləmişə sayıl boşduymuş. Bı dördüncü imam İmam Zeynalabdın yolun qırağında otumuşmuş. On iki imamımız var da. Dördüncü imamımız İmam Zeynalabdındı. İmam Zeynalabdın zəlil imiş də. Yolun qırağında oturmuşmuş. Oturanda görüf ki, – axı bı ceyran ağlıyan olur, – Allah lənət eləmiş sayıl ceyranı götürüf gedir, ceyranın üş balası qalır. İmam Zeynalabdın görür kü, bı ceyran elə ağlıyır, elə ağlıyır. Qayıdır bı sayıla deyir:

– Sayıl, o ceyranı buraxginən, onun balaları ağlıyır.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yox, buraxmaram. Aparıram verəm Allah lənət eləmişə, mənim borcumu üzsün.

Deyir:

– Saa deyirəm, onu aş, burax. Niyə buraxmırsan?

Deyir:

– Buraxmaram, səndə nə var ki, maa nə verərsən?

İmam Zeynalabdın müsdəriymiş* da, yolun qırağında otumuşmuş. Bı da tanımır axı. İmam Zeynalabdın bına deyir:

– Sayıl, ətəyii aç.

Ətəyini açır. Ətəyini açanda belə yeri süpürür tökür bının ətəyinə, olur ləli-cəvahir. Sohra deyir ki, di ceyranı aş, burax da. Açır, buraxır. Onunçün deyir ki, borcdunu borcdan qurtaran. O ceyranın balaların qoymur yetim qala. Onu İmam Zeynalabdın buraxır.

Günü günortadan qaytaran da belədi da. O canım qurban olduğum Əli deyir, gün əyilənəcən dava elijəm. Allah günü accana belə əyir. Gün günortadan qayıtmır ha, bir acca əyilir. O da bı deməhdi.

Bını axunda sual veriflər, bilmiyif. Onu hər adam bilmir axı.

## 54. İNADKAR GAVUR

Əli gavırı qavırmış. Gedif qabağı çıxıf Araza. Araza çıxanda Araz bının gözünə bir arxcan görüküf. Hopbanıf düşüf o taya. Əli Düldülə nətər təkin vurufsa**, Düldül onnan da uzağa düşüf, gavırın qabağına düşüf. Orda görüf ki, gavır təzdən o taya hopbuluf. Əli də Düldülü hopbulduf bının dalınca. Gavır isdiyif qaça. Qaçanda deyif ki, qaşma, səni öldürəjəm, dayan. Əli gavıracan gəlif. Əlini vırıf kürəyinə, deyif:

– Dur, gavırım, dur. Dünya durduxca dur, mən gəlincə dur. Səndə bı höjəti gördüm, tay səni öldürmürəm.

Həmən gavırın gözünün əti tökülmüşmüş sinəsinə, qaldırıf atırmış başına. Deyirmiş ki, ölüm nə gözəl şeymiş. Əli havaxt gələr ki, mən ölüm.

---

* müstəriymiş – şikəst imiş

** təkin vurmaq – ayaqla atı mahmızlamaq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 55. HƏZRƏT ƏLİNİN EVLƏNMƏSİ

Bir gün Məhəmməd peyğəmbər Əliyə deyif ki, Əli, bala, niyə evlənmirsən? Deyif:

– Obada bir xallı qız var, onu alajam.

Gedif əvə, görüf kü, elə xallı bının qızıdı. Deyif ki, bını bir də yoxlıyajam. Duruf bir qaba bir az xurma, kişmiş qoyuf, göndərif qıznan Əliyə. Qız qayıdanda soruşur ku, bala, Əli saa nə dedi? Deyif:

– Dədə, heş nə demədi. Amma qabı alanda əlimi tutduğum yerdən aldı, barmağımı da qabın üsdə qoyuf sıxdı.

Deyif:

– Hə, elə bı qızı deyif, bı qız bınındı.

## 56. CAN QƏNBƏR

Əlinin Qənbər addı nökəri oluf. O başqa bir vilayətdə yaşıyırmış. Yaşadığı yerin padşahının qızın isdiyirmiş, çox qüvvəli də oğlanmış. Amma bu vilayətin padşahının Əli Əleyhsalamnan arası yoxuymuş. Bir günnəri eşidir ki, bu qüvvəli oğlan bu padşahın qızını isdiyir. Bu oğlanı çağırır yanına. Onun ayrı adı olur, yadımnan çıxıf. Sora Əli Əleyhsalam Qənbər qoyur onun adını. Deyir ki, mən eşitmişəm sən çox qüvvəli oğlansan, mənim də qızımı isdiyirsən. Qızımı onda saa verərəm ki, mənim bir düşmanım var, onu öldürəsən. Bu oğlan deyir ki, o mənim əlimdə çox asan işdi.

Elə bil ki, o olduğu yernən Əli Əleyhsalamın yaşadığı yerin arası dörd yüz kilometr oluf. O dörd yüz kilometri piyada gəlir. Əli Əleyhsalam şəhərin kənarında xurma bağında işdədiyi yerdə onnan görüşür. Deyir ki, ağsakqal, bu şəhərdə yaşıyırsan? Deyir:

– Hə.

Deyir:

– Burda deyillər Əli addı pəhlivan var, onu tanıyarsan bəlkə.

Deyir:

– Tanıyıram. Neynirsən ki, onu?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir ki, mən onnan bir sınaşmax isdiyirəm. Deyillər o çox qüvvəli adamdı. Deyir:

– Bala, mən qoja kişiyəm, mənnən bir sınaşax. Əgər maa güjün çatarsa, onda bilərsən ki, ona da güjün çatar.

Oğlanın əlində nizə varmış. [Əli Əleyhsalam] deyir:

– Bu nizəni ver mənim qoltuğuma. Əgər onu çəkif mənim qoltuğumun altınnan çıxarda bilsən, bil ki, onun da qoltuğunnan çıxarda bilərsən.

Nəysə, Əli Əleyhsalam qoltuğunun altında nizəni sıxır. Bu nə qədər dartırsa, çıxarda bilmir. Deyir ki, indi sən al qoltuğuna nizəni. Bu nizəni qoltuğuna alanda bunu nizənin başında hərriyir, qoyur yerə. Bu oğlan başdıyır ağlamağa. Deyir ki, niyə ağlıyırsan, ay bala? Deyir:

– Vallah, mən bir qız sevirəm. Əliyə güjüm çatsa, o qızı ala-jeydim. Saa güjüm çatmırsa, demək, ona da güjüm çatmaz.

Əli Əleyhsalam uzanır yerə, qılıncın verir onun əlinə. Deyir ki, Əli mənəm. Bu qılış, bu da sən. Mənim başımı kəs apar, sən əhdinə çat. Deyir:

– Doğrudan Əlisən? Saa qurban olum, sənin kimi kişiyə adam əl qaldıra bilərmi?

Yıxılır onu ayağına. Deyir ki, mən ölənə qədər sənə qullux eliyəjəm.

Ömrü boyu Əli Əleyhsalama xidmət eliyir. Qəmbər deyəndə deyirmiş ki, can Qəmbər, ya Əli. Kaş min canım oleydi, sən hər Qənbər deyəndə birin saa qurban verəydim.

## 57. KİM QÜVVƏTLİ PADŞAHDI?

Bir padşah oluf. Adı yadımnan çıxıfdı. Padşah deyir ki, mənim yanıma bir nəfər adam göndərin. Əgər o mən dediyimi yerinə yetirməsə, boynun vurdurajam. Sual verəjəm ona, maa cavaf verə.

Neçə adam göndərillər, bular məğlub olullar. Axırda bir nəfər deyir ki, məni aparın onun yanına. Padşah buna deyif ki, de görüm



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Rustam Zal qüvvəli padşahdı, yoxsa mən? Deyir ki, sən qüvvəli padşahsan. Rustam Zal pəhlivan oluf, amma padşah olmuyuf. Deyir:

– Keykavus böyüh padşah oluf, yoxsa mən?

Deyir ki, sən böyüh padşah olmusan. Ona atasınnan qalıf, amma sən özün qazanmısan. Əli Əleyhsalam haqqında sual verif ki, Əli Əleyhsalam qüvvəli şəxsiyyət oluf, yoxsa mən. Deyəndə, deyif ki, kəs səsini, axmax, sən onun köpəyi də ola bilməzsən. Padşah deyif ki, hirsdənmə, ağsakqal. And olsun Allaha, əgər desəydin Əli Əleyhsalamdan sən qüvvəli padşah olmusan, sənin boynu vurardım. Düz deyirsən, Əli Əleyhsalam mənnən qüvvəli padşah oluf.

## 58. HƏZRƏT ƏLİNİN ÜMBÜLVƏNİNLƏ EVLƏNMƏSİ

Əli Əleyhsalam peyqumbərin həm əmisi oğlu idi, həm yeznəsi. Peyqumbərin qızı dünyasın dəyişənnən sora – Əli Əleyhsalamın Abbas adlı əmisi varmış, – deyir:

– Ay əmi, bir adam tap, gəlsin bizim bu uşaxlara analıx eləsin, saxlasın.

Deyir, bir günnəri Abbas səfərdən gələndə – yolun üsdündə bir bulax varmış, – görür ki, bulağın üsdündə bir cüssəli qız var, boylu-buxunnu. Bu, dəvəni saxlıyır, yüyürür ki, ordan su içə. Aralıdan gələndə qız əlini salır bulağı qarışdırır. Gəlir durur, deyir:

– Ay qızım, sən mərifətsizdih elədin, mən susunnan yanırdım. Su içəjeydim ordan, bulağı bulandırdın. Qava bir az su tök, ver maa.

Bir qavı suynan doldurur, içinə də bir çöp atır, verir. Kişi suyu içir, deyir:

– Sən nə mərifətsiz qızsan. Əvvəl mən gəldim, bulağı bulandırdın. İkinci də suyun içinə çöp atıf verirsən maa.

Deyir:

– Ağsakqal, heylə döyül. Su çox soyuğ idi, sən də tərli idin. Mən isdəmədim ki, sən o sudan tərri-tərri içəsən. Xəsdələnə bilərdin.

Gəlir deyir:

– Əmioğlu, bir qız tapmışam. Əgər onu ala bilsən, yaman olar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nəysə, elçi gedillər, onun həəsin alıllar. Qız deyir ki, əvvəl mənim adımı dəyişin. Qızın adı da Fatimə imiş. Peyqumbərin qızının da adı Fatimə imiş. Deyif ki, mən o ada layax deyiləm, mənim adımı dəyişin. İkinci, o qapıdan ki peyqumbərin qızı işdiyif, oranı bağlıyın, maa ayrı qapı açın. Üçüncü də, gərəh elə ola, o uşaxlar maa ana demiyə.

Adın dəyişif Ümbülvənin qoyullar. Ümbülvənin uşaxların anası deməkdi. Əli Əleyhsalamın həmin qızdan üç evladı olur, biri də Əbülfəzil Abbas olur.

## 59. YESƏN QİSMƏTİNDİ, YEMƏSƏN YOX

Bir gün Həzrət Əliynən Salmanı-Farsı oturuf axşam çörəyi yeyirmişdər. Ortalıxda bir xurma varıymış. Salman bunu götürür əlinə, deyir:

– Ya Əli, bı mənim qismətimdi, yoxsa yox?

Həzrət Əli də qayıdıf deyir ki, ya Salman, yesən qismətindi, yeməsən yox. Salman qayıdıf buna deyir ki, burda nə var ki, bunu yeyə bilmiyəm. Elə bu mənim qismətimdi. Xurmanı ağzına atmax isdiyəndə yel əsir, şamı keçirir. Salman çaşır, xurmanı ağzına düz ata bilmir. Xurma düşür yerə. Salman başdıyır xurmanı axdarmağa. Axdaranda, Əli də Əlidi da, bilir ki, xurma hara düşüf. Əl atır, xurmanı götürüf qoyur ağzına. Deyir:

– Ya Salman, saa demədim ki, yesən qismətindi, yeməsən yox.

## 60. QOCAYA EHTİRAM

Cənab Əli səhər namazına gejihmişdi. Peyğəmbər buna sual eliyif ki, səhər namazına niyə gejihmisən? Namaza gejihməy olmaz. Deyir:

– Ya peyğəmbər, səhər yola çıxanda yəhudi millətinnən bir pirani qoca elə qocalmışdı ki, bərk yeriyə bilmirdi. Mən ona nə bərk yeri deyə bildim, nə də qabağına keçə bildim. Ona görə gejihmişəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 61. İNŞALLAHSIZ İŞ OLMAZ

Hər bir işin başı var. Başdıyanda gərəh "inşallah" deyəsən. İnşallahsız iş olmaz. Nejə ki, surfanın başı, axırı olur. Başı bismillah olur, ayağı da əlhəmdullah olur. Gərəh surfanı yığışdıranda bir əlhəmdullah deyəsən.

Quşdar hamısı deyir: "İnşallah, səhər, Allah qoysa, uçajayıx". Toyux da o tərəfdən qayıdır deyir ki, Allah qoysa da uçajam, qoymasa da uçajam. Səhər açılır, quşdar uçur, toyux uça bilmir. Cəzalandırdı da Allah onu. Onun o sözü Allaha xoş getmədi.

Genə biri gəlir bir gün peyğəmbərin yanına, deyir:

– Ya peyğəmbər, mənim bir sualım var, ona cavab ver.

Deyir:

– Buyur.

Orda ona bir sual verir, bilmirəm day onu. Peyğəmbər baxır ki, bu sualın cavabı ona agah dəyil, bını bilmir. Bına deyir ki, get, sabah gələrsən, sənin sualaa cavab deyərəm. Fikirrəşir ki, bı gejə bına agah olajax. Day inşallah-zad demir ha. Səhər açılır, kişi genə gəlir. Gəlir sualına cavab isdiyir. Peyğəmbər baxır ki, bı sualın cavabı bına agah olmadı. Bı səfər də deyir ki, get, sabah gəl, deyərəm. Genə inşallah demir. On beş gün keçir. Axırda üzünü tutur Allaha ki, ya Allah, axı mən bı adamın yanında biabır oldum, mən neyniyim? Bı sualın cavabı maa agah olmadı. Onda bına səda gəlir ki, ya peyğəmbər, sən axı demirsən "get, inşallah, sabah gəl, deyərəm". Orda da peyğəmbər səyfini başa düşür.

# PİRLƏR VƏ OCAQLAR HAQQINDA

## 62. HACI QARAMAN

### I mətn

Bınnan irəli Cəbrayılın mərkəzindəki xəsdəxana Şahvəlidə yerrəşirmiş. Mən orda yatanda mənimnən bir palatada Əli addı bir yoldaşım da yatırdı. O Əli nağıl elədi ki, bir dəfə Hajı Qaramana getmişdih. Nəysə, ziyarət elədih, qurban kəsdih, Allah vermişdən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bişirif yeyəndə orda bir adam da varıydı. Onu da qonax çağırdıx ki, gəlsin biznən çörəh yisin. Gəldi biznən bir yerdə çörəh yidi. Bizə dedi ki, mən Ağdamnan bıra gəlmişəm. Özüm də ki, kankanam. Bir gün raykom gəldi bizə dedi ki, batan kəhrizdərin girif hər birini açın, təmizdiyin. Maa da bir kəhriz düşdü. Bilirdih ki, bu kəhrizdər çoxdankı kəhrizdi, özü də içi ilannarnan doludu. Nə qədər dedim girmiyim, raykom dedi:

– Yox ey, girif təmizdiyəssən.

Dedim, ya adını eşitdiyim Hajı Qaraman, kəhriz teyxa ilançiyandı, mən neyniyim? Deyir, yatanda yuxumda gördüm ki, bir nurani ağsakqal kişi maa deyir ki, dur kəhrizin gözü açılıf. Dedim yəqin məni xiyal basır. Təzədən yatdım. Bir də gördüm ki, genə həmən kişi deyir. Deyir ki, dur ayağa kəhrizin gözü açılıf. Durdum o başdannan heş kim oyanmamış qaşdım kəhrizə. Gördüm ki, kəhrizin gözü üş-dörd yerdən açılıf. Qışqıra-qışqıra qaşdım kəndə ki, bəs kəhrizin gözü açılıf. Onda da dua eləmişdim ki, ya Hajı Qaraman, gedif səndə üzüquyulu qalajam. Ona görə indi üş gündü burdayam, üzüquyulu ziyarət eləmişəm.

**II mətn**

Hajı Qaraman maralı minif şallağı da alıf əlinə gedirmiş. Bına deyillər ki, bəs bırda, Araz qırağında bir ojax var. Onnan da görüş, adı da Şıx Hümmətalıdı. Bizdəki o seyid qızı Nübarın babasıydı Şıx Hümmətalı. Bı Hajı Qaraman Şıx Hümmətalıya tərəf gedəndə görüf ki, Şıx Hümmətalı divarı cannı heyvan kimi minif mına tərəf gəlir, əlində də çubuğ əvəzinə ilan. Bını görən Hajı Qaraman deyir:

– Sən mənnən güjdü ojaxsan, mənim mindiyim ayaxları üsdə yeriyir, sənin mindiyin ayaxsızdı.

Sohra olar yarışıllar. Şıx Hümmətalı Arazın üsdündə ojax yandırır. Amma Hajı Qaraman Arazın üsdündə ojax yandıra bilmir. Onnan deyillər ki, yanmadı Qaraman ojağı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### III mətn

Şah İsmayıl Xətayi Şirvana hücum eliyəndə, bax, bizdə evdə deyərdilər ki, Aşağı Təhlədə Şah İsmayılnan Hajı Qaraman baba görüşüfdü. Deyərdilər ki, Aşağı Təhlə yerrəşir Cəllabad rayonunda. Başqa yerrərdə də var. Amma olar indiki Cəllabatda görüşüflər. Çələbilər danışardılar ki, Hajı Qaraman Şah İsmayılın yanına gedəndə hardasa bir on saatdıx yol qalanda atdan düşüfdü. Deyiflər ki, Hajı Qaraman, atdan niyə düşürsən? Hələ yolumuz çox var. Deyir:

– Şah məni qarşılamağa gəlir. O, şahdı, məni qarşılamağa gəlirsə, mən piyada getməliyəm.

Bir az gedənnən sora Hajı Qaraman təzdən ata minir. Deyiflər ki, niyə mindin ata? Deyif ki, Şah da düşdü. Şah da dedi ki, Hajı Qaraman gəlir məni qarşılamağa, piyada gəlir. Gərəh mən də piyada gedəm. Ona görə mindim ki, Şah da minsin ata. Şah İsmayılın adamları da görüşəndə deyiflər ki, hə, belə-belə oldu. Onda Şah İsmayıla çox təsir eləmək isdiyif ki, Şirvana hücum eləməsin. Alınmıyıf. Çox mübahisə eliyiflər. Olmuyuf. Onda Hajı Qaraman deyif ki, sən Şirvanı alassan, amma gərəh müharibə eləmiyeydin.

### IV mətn

Deyillər ki, Çaldıran döyüşündə Şah İsmayıl məğlub olanda buna ox atıflar. Bir nəfər sinəsini verir oxa. Sinəsini oxa verəndə Şah İsmayıl bilif ki, bı Hajı Qaramanın qardaşı Mehdi Çələbinin oğludu. Onda deyif ki, bını təcili çatdırın çələbilərə. Çələbilər də Şahın Şirvana hücumu vaxdı indiki Çələbilərə köşmüşdər. Həmən yaralı da gəlir Naxçıvanın Badamlı kəndində ölür. Deyərdilər ki, otuzuncu illərə kimi həmən qəbri gedif ziyarət eliyirmişdər.

### V mətn

Maral olufdu. Maral sağına gəlifdi. Yetər nənə bir dəfə "hureey" deyəndə maral sağına gəlifdi.

Sora Qarağaşda iki kişi olufdu, iki ovçu. Birinin adı Nəsrəddin kişi olufdu, o birsiin adı yadımnan çıxıfdı. O kişi məşhur atıcı idi, çox güjdü ovçuydu. Onun adı dillərdə deyilərdi. Bir dəfə atnan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gəlirdih. Bir yerdə bu kişiynən qabaxlaşdıx. Bılar da yaylaxdan gəlirdilər. Onda o kişinin əlləri əsirdi. Nəysə, söhbət düşdü. Maa dedi ki, cibində dəsmalın var? Dedim:

– Hə, var.

Dedi:

– Ona bir az torpax yığ, bağla. Bir əlli metr aralıdan at göyə.

Torpağı yığdım, möhkəm bühdüm dəsmala. Bir əlli-altmış metr-dən atdım göyə. Göyə atmağnan kişinin vırmağı bir oldu. Dedim:

– Sən bını nətər nişan alırsan?

Dedi ki, mən nişan almıram, atıram. Sohra elə bu mametdə başımızın üsdünnən bir quş getdi. Dedim:

– Onu vurasan, bəlkə?

Qayıtdı dedi ki, tay mən ov eləmirəm, toba demişəm nə vaxdı. Bir cannı da vurmuram. Dedim:

– Niyə?

Dedi:

– Toba demişəm ki, bir də ovçulux eləmiyəjəm.

Genə soruşdum:

– Niyə?

Dedi:

– Meşədə Hajı Qaraman dövrünnən qalma axırıncı maralı uzun müddət axdardım. Bilirdim ki, var. Vırmışdım birini. Bilirdim ki, biri də var, biri qalıfdı. Axırıncı maralı, deyir, gördüm. Maral qaşmadı, deyir. Tüfəngi qaldırdım maralı vuram, maral maa nətər baxdısa, başdadı əllərim əsməyə. O günnən əllərim əsir. Atmağı bajarmadım. O günnən and işdim ki, ovçuluğ eləmiyəjəm. O maralın başına sohralar nə gəldi, tay onu bilmirəm.

Qapıya gələn maralı mən özüm də uşax vaxdı görmüşəm. Qışda çöldə-bayırda ot tapılmıyanda maral gəlif həyətdərdə ot yeyirdi. Camaat heş vaxt ona toxunmurdu.

### VI mətn

Hajı Qaramanın namazın qılan Molla Salahım baba olufdu. Sual verifdi mürüddərinə, kim ikindi namazını ömrü boyu vaxdında



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qılıfsa, mənim namazımı o qılsın. Mürüddəri yığıf başına. Heş kim dillənmiyif. Hamı deyif ki, bir az gej qılmışam, bir az tez qılmışam, nə bilim nətəri? Axı ikindi namazının qılmax vaxdı çoxdu. Günorta namazınnan axşam namazınacan onun vaxdı var. Dört-beş saat ərzində onu qıla bilərsən. Amma onun dəqiq vaxdı da var. Hardasa saat üş-dörd arasında onun dəqiq vaxdı var. Bı dəqiq vaxdı soruşur. Onda Molla Salahım babanın on altı yaşı varmış. Deyif:

– Beş yaşımnan namaz qılıram. Hələ bir dəfə də vaxdını ötürməmişəm, – Hajı Qaramana deyif. Deyir:

– Mən öləndə mənim namazımı sən qılarsan.

Hajı Qaraman rəhmətə gedəndə onun namazını həmən o on beş-on altı yaşdı uşax qılıf, Molla Salahım baba qılıf. O da bektaşilərdəndi. Onun nəslinnən Hajı Murad, Qatırçı Murad addı birisi oluf. Həmən o Qatırçı Murad bı Qatırçı Muraddı.

Hajı Qaramanın vaxdında İrannan bir dəsdə atdı gəlif. Bının bir dəyirmanı oluf. O dəyirmanın yeri də bilinirdi. O irannı adamlardan ikisi-üçü onun dəyirmanına gəlif girif. Sohra orda tikinti aparanda o dəyirman yerin altınnan çıxdı. Çox böyüh dəyirman daşdarıydı. O irannılar qırx atdı oluflar. Gəlif bına deyiflər ki, bizim atdarımızı arpa-buğdaynan təmin elə, özümüzü də çörəhnən. Deyif:

– Yaxşı, arxayın olun.

Hajı Qaraman da çinarın dibində bir atın norması qədər arpanı gətirif verif bılara, deyif:

– Tökün atdarınıza.

Bılar baxıf deyif ki, a kişi, bırda bir atın arpası var axı? Deyif:

– Sənin nə işaa qalıf, qutarsa, gəlif mənnən isdiyərsən.

Bını atın qabağına qoyanda baxıf görüf ki, at yedihcə heş qutarmır, elə genə var. Gedif bını böyüklərinə deyif:

– A kişi, bı bir möcüzəli adamdı.

Bıların da fikri varmış ki, yeyif-içələr, özü də haqqını-zadını vermiyif çıxıf gedələr. Yad adamlardı dayna. Bılar bının möcüzəsin görüf üzr isdiyiflər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### VII mətn

Seyid qızı Nübarın atası hörgü hörürmüş. Hajı Qaramanın da qapısında həmişə gəlif maral sağılarmış. Marallar gələrmiş Hajı Qaramanın ojağında durarmış, onnarı sağarmışdar.

Bir gün Hajı Qaraman eşidir ki, filan yerdə belə bir güjdü seyid var. Durur maralın birini minir, gəlir o seyidin qəbuluna. Seyid görür kü, vallah, Hajı Qaraman gəlir, özü də maralı minif gəlir. Əlaşsız qalır, hörgünü minir, yerdən əl atır ilanı götürür. Vırır qamçı kimi hörgüyə, gedir marala sarı, Hajı Qaramanın qabağına. Hajı Qaraman onda deyir ki, yox, sən mənnən güjdü ojaxsan. Onu orda qəbul edir ojax kimi. Deyif sənin mindiyin cansızdı, mənim mindiyim cannıdı.

### VIII mətn

Neçə yüz il bınnan qabağın söhbətdi. Eşitdiyimizə görə Hajı Qaramangil bizim Cəbrayıl rayonunda Əhmədli deyilən kəndə gəlib çıxıb. Bir nəfərə deyif ki, Allah qonağı isdiyirsiz?

Deyif:

– Allaha da qurban olım, qonağa da. Buyurun.

Qonax saxlıyıf. Gejə çörəh yeyiflər, rahat olannan sora deyif ki, ayıb olmasın, o evin küncündəki yatan nədi? Xəstədi nədi?

Deyif:

– Allahdan gizdin olmıyan, bəndədən nə gizdin ola bilər. Mənim qızımdı, anadangəlmə ətdi, dura bilmir.

Elə beləcə, nə isə, bı qız durmır, yeriyəmmir, heş bir söz demir. Nə isə, yatıllar. Duruf, o başdannan namazı deyirih dəə, namazı qılanda Allaha dua eliyif qız hakqında, sora çıxıf gedif. Kəntdən çıxanda səhər açılıf. Qızın atası-anası görüf ki, qız duruf qapını, evi süpürür. Bılar qalıf belə ki, bı qıza nəəlib ki? Axı bı qız neçə ildi xəsdədi, bı qalxan dəyildi, bı nə isə qonaxdandı. Qonağı axtarıf tapıllar. Deyillər kin, kimsən, nəçisən, sən neylədin ki bı qız belə oldı? Orda o özün təqdim eder ki, mən Hajı Qaramanam.

Deyiflər:

– Bəs sənə nə lazımdı dünya malınnan, verək.

Deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Maa dünya malınnan heş-zad lazım dəyil. Elə o qızın özü rahat olsın.

O qızı orda veriflər Hajı Qaramana. Həmin qızın adı Yetər imiş. Onu götürüf gəlib indiki kəndində məskən salıf. İndi ora Çələbilər kəndi deyilir. Orda məskən salıf, özüyçün ev tikif. Keçmişdə dam deyirdilər, dörd dənə dirəydən olırdı. Dirəyin biri olmır. Yatıllar. Tezdən duruf görillər ki, Allah-taladan topılqadan bir dənə dirək bitib, çatıb həmən pərdilərə. Topılqa da nazik çubux kimi bir şeydi. İntahası bı Allah tərəfinnəndi də. Bı qalxıf dirəy olıfdı. Orda yaşıyıf. Vəşi marallar həmişə bunun qapısına gələrmiş sağına. Gündüzdər balası yanında yamacda gəzərmiş, axşamlar gələrmiş özdəri, Hacı Qaramanın qapısında Yetər nənə südün sağarmış. Sağannan sora verərmiş balası əmişərmiş, gedərmiş yamaca.

Bir müddətdən sora İranda hay düşüf ki, Qarabağda belə bir kişi var. Onu mürtədləməh lazımdı. Qırx atdı gəlir. Deyillər ki, bizim atdara arpa verin. Keçmişdə dağar qoyun dərisinnən olurmuş, bir dağar iki vedrə arpa tutur. Gətirib deyir ki, bala, tökün atızın torbasına.

– Əşi, nə danışırsan, biz qırx atdı, bına arpa lazımdı.

Deyif:

– Tök, gətirəcəm. Qırx atın torbasın o dağarnan doldırıblar.

Bir nəfər Allah adamı imiş dənə bı. Görüf ki, küləynən bir nəfər arxadan dağara arpanı kürüyür. Deyif:

– Ə, bı toxınmalı adam dəyil, yüz atıız ola, yenə dağar qutaran dəyil.

Bırda qonağ qalıllar. Qalanda görüflər ki, marallar sağına gəldi. Sağılannan sora hamısı gedir, erkəyinin biri qalır. Deyillər bı nə üçün qaldı bırda? Deyif:

– Bə qonax üçündü.

– Hə, onda olar.

Dinməz qayıdıflar geri, tay o kişiyə toxunmuyuflar.

### IX mətn

Bir də Hajı Qaraman haqqında belə bi şey deyillər ki, Qarabağdan Məkkiyə, Mədinəyə gediflər. O vədə altı aylıx yol imiş piyada,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

atnan, dəvəynən. Gedənnərdən bir nəfərin pulu qutarıfmış, itibmi, batıbmı, bilmirəm. Gələ bilmeyif, qalıf orda. Ordakı ziyarətçilərə yalvarıf ki, mana köməh eliyin. Bax, mən qaldım bırda, arvad-uşağ qırılajağ. Deyiflər:

– Qarabağdan bi dənə kişi hər gün gəlif namazı bırda qılıb gedir. Bəlkə o saa köməh olar.

Deyif:

– Onda o gələndə maa deyin.

Hajı Qaraman cümə namazı qılanda bına gösdəriflər ki, bax, Hajı Qaraman bıdı. Gəlif kişi ona yalvarıf ki, məni də özüynən apar. Deyif ki, namaza durax, namazdan sora gedərih. Namazı qılıf qutarıflar. Hajı Qaramanın bir dənə qara atı varmış. Deyif:

– Min tərkimə, gözuu yum. Nə vaxt desəm gözuu aç, onda açarsan.

İndi bı tay keşmiş söhbətdi dana. Deyif ki, gözü aç. Kişi gözün açıb, görüb ki, öz qapısıdı. Səvindiyinnən qaçıb içəri ki, ayləsinə desin ki, qonağ gəlif. Geri qayıdıf görif ki, atdı yoxdı. Bir başına döyüf ki, mən nağardım, bəs niyə bını bıraxdım, maa bı qadana hörmət eliyif. Bilmədim bı kim olıb axı. Gəlir kişi arvada söz deer ki, mana çörəy hazırra, mən getdim o kişini axtarmağa. Badyasın doldırır çörəynən. Düşür bı Qarabağ mahalın gəzməyə. Gedir Hacı Qaramanın kəndinə. Misirxan yatağı deyillər, görüf ki, bırda at atdarın içində otdıyır. Oturur atın yanında. Axşam at əvə gedəndə atnan gedir əvə. Gedir görür kişi evdədi. Deer:

– Saa qurban olım, axı sən maa köməh elədin. Sən kimsən, nəçisən? Bəs mən saa bir hörmət eliyə bilmədim, heş danışa bilmədih. Bəs qaşdın, mən də qaldım belə.

Hə, o özün təqdim eler ki, bəs mən Hacı Qaramanam.

Deməh, Hacı Qaraman inanılmış ojağdı. Dəli adamlar, məsələn, zincirnən bağlanan adamlar gedib gejə orda yatanda sabah öz ağlıynan qayıdıf gələrdi əvə. Qasım Çələbi, Məhəmmədəli Çələbi onun övlatdarıdı. Nəvələri də var: Əliynən Nağıdı, Tağıdı, Arifdi. Obşim, Allaha şükür, davamçıları var. Camaat hal-hazırda inanır, inanılmış adamlardı olar. Nə dersə, o da olır. Həmən nəsil hələ də durur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## X mətn

Hajı Qaraman baba cavan, oxumuş, savatdı bir alim oluf. Özü də Türkiyədə oluflar. Çələbilər qışdağı deyillər Türkiyədə, orda bir məhlə imişdər. Mən də nətər eşitmişəm onu danışıram. Hajı Qaraman babanın atası buları oxuduf, savatdı oluf. Bular üç qardaş oluf. Bir nəfər gedif bu yerin yekəsinə deyifdi ki, xəbəriz yoxdu. Çələbilərdən üş nəfər yaxşı savatdı, oxuyan tələbə gəlif çıxıf, sənin yerini alajaxdı. Vaxtlı buları birtəri elə, hara yola salırsan yola sal.

Bu yerin yekəsi gəlir Hajı Qaraman babanın atasına deyir ki, olarmı bir həftəyə burdan çıxasınız siz?

Deyir:

– Nəyə görə?

Deyif:

– Deyirəm, – deyif gedir. Aradan bir həftə keçir. Gənə gəlif görür ki, köşmüyüflər. Deyif:

– Ay ağsakqal, mən sənə demişəm köç, niyə köşməmisən?

Deyif ki, mənim günahım nədi, sübut elə, ona görə köçüm.

Deyifdi:

– Deyirəm.

Bir də buna gedif deyillər ki, buları köçürmədin, axırı gəlif yerini alajax. Bular çox savatdı alimdilər. Bu da gəlif deyif:

– Səə üşcə gün vaxt verirəm. Üş günə kimi çıxdın, çıxdın. Çıxmadınsa, səni burda odduyajeyih, bütün məhlənizi odduyajeyih.

Üzümüzdən uzax olsun, Hajı Qaraman babanın atası deyifdi ki, ay it, niyə hürürsən, burdan aralaş, çəkil get. Bu kişi minir ata, uzağ olsun üzümüzdən, hürə-hürə gedir çıxır əvinə. Ayləsi, uşağı gəlif görür ki, Allah uzağ eləsin, bu, it kimi hürür. Bunu gətirif salıllar əvə.

– Kişi, saa noluf?

Kişi hessad demiyif. Arvad deyif:

– Ay kişi, sənin nəysə bir günahın var. De görüm, nəyşə belə olmusan?

Bir həftə keçif. Keçənnən sora deyif ki, filan yerdə Çələbilər qışdağı var. Şeytan allatdı, Allah nəhlət eləsin şeytana, mən getdim bulara dedim köç. Bir həfətəyə köçmədi. Bir də getdim, gənə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qəzəbləndim, dedim niyə köçməmisiz. Qəzəbləndi, maa dedi ki, ay it, niyə hürürsən, burdan rədd ol.

Gözdüyüllər, axşam düşür, kişini mindirillər ata, götürüf gətirillər Hajı Qaraman babanın atasının yanına. Deyif ki, bəs qanmıyıf, başa düşmüyüf, sən Allah, bunu bağışda. Bu, bir elin ağsakqalıdı. Deyir ki, gülləni vurursan bir adama, o nətər olur? O, payını alıf. Onun payı elə odu, onuynan da məhv olajax. Çarə yoxdu ona. Onnan sorasına, bu ki sizə ağır gəlir, onu aparın qoyun padvala, qırxı tamam olunca elə heylə olajax. Qırxı tamam olanda bircə belə küldən götür, at başına, onuynan məhv olajax.

Aparıf qırx gün saxlıyıflar, qırxıncı gün bu kişi pisəlir. Gətirif bir belə külü atıflar üsdünə, onnan məhv oluf gedif.

Onda Hajı Qaraman babanın atası üç oğlunu da çağırıf deyif ki, siz burda qala bilməzsiniz, siz korranajaxsınız. O deyəjəh mənim yerim olajax, bu deyəjəh mənim yerim olajax, elə yaxşısı budu ki, başı götü, aralaş burdan. Oğlannarının hərəsinə bir çəlik verir. Türkiyədən çıxanda deyif ki, bunu atırsınız, çəlik harda gedif dursa, orda məskən qurursunuz. Hajı Qaraman babanın çəliyi gəlif bizim qışdağımızda* duruf. O biri oğlunun çəliyi gedif Lənbərənə, üçüncü oğlunun çəliyi Füzuli rayonunun Abduraxmanlı kəndinə düşüf.

Hajı Qaraman baba gəlif görüf çəlik sancılıf ora. Orda oturuf axşam namazın qılıf. Qıraxdan uşax-böyüh baxıf, gedif yerin ağsakqalına deyir ki, ay baba, bir kişidi, əyilir qalxır, əyilir qalxır. Get gör o niyə heylə eliyir? Gəlir Hajı Qaraman babanın yanına. Namazı qılıf qutarır. Deyif ki, sən hardan gəlmisən, nəsən, nəçisən? Deyif ki, uzax yerdən gəlmişəm. Deyif ki, uzax yerdən gəlmisən, gedəh evə. Deyif ki, yox, mən elə burda qalasıyam.

Deyif:

– Əşi, uşax deyilsən, çöldə qalmıyajaxsan?

Bunun da, ayıb olmasın, bir qızı varmış. Üç ildi o həkim, o təbib qalmıyıf, hamısının yanına aparıflar. Bu qız elə quruyuf yerdə yatan imiş. Bu kişi də deyif ki, Allah, mən saa üzümü tuturam,

---

* Cəbrayıl rayonunda Gəyən düzü deyilən yerdə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

həkim olsun, molla olsun, oxucu olsun, adicə adam olsun, onun əlinnən bu qıza səbəb düşsün, almasa da, güjnən də olsa, verəjəm qızı. Namaz qılannan sora durur kişini də götürür gəlir. Gəlir görür dam yeridi, damın içində bir qız uşağıdı yerdə yatıf. Deyif:

– Əmi, niyə bu yerdədi?

Deyif:

– Bala, bəs üç ildi heylədi.

Deyif:

– Bir istəkana bir azca su tök, ver maa.

Üç ildi əlnən götürülən qız suyu içən kimi sıçrıyır qalxır ayağa. Durur ayağa, yemək-zad rahlıyıllar, yeyillər, içillər, yatıllar. Səhər tezdən duruf gedir. Yola düşəndə kişi deyif ki, hara gedirsən?

Deyif:

– Nədi?

Deyif:

– Getmiyəssən.

Deyif:

– Yox, mən yolumnan qalmıyajam. Mən gedəjəm, mənim özümün işim var.

Deyir:

– Mən əhd eləmişəm, gedirsənsə, bu qızı da aparassan.

Yetər nənə yekə qız imiş. [Kişi] əl çəkmiyif. Hajı Qaraman deyif:

– A kişi, başa dönüm. Mənim əvim yox, eşiyim yox, mən gəlmə gəlmişəm. Mənim nəyim var ki, nə toy eliyim?

Deyir:

– İşin deyil.

Eşitmiş olarsız, olmazsız, Hajı Qaraman babanın yanına çay yatağı deyillər, Şəhvəllinin yanı. Ora qədər bu kişi deyir ki, bu yeri bu qıza mehr verirəm, qızı da verirəm saa. Get ək, bejər, dolan. Yox dedikcə kişi deyif təəri yoxdu, qız sənindi. Qızı verir ona.

Gəlillər Hajı Qaraman babanın özünün qışdağında həmən o çəlik sancılan yerdə bir dam tikdirir. Axşam ojağı qalıyıflar, yeyiflər, içiflər. Səhər duranda Yetər nənə deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Hajı Qaraman, görürsən, burda bir möcüzə var. – Ojağın yerinə baxıf görüf ki, bu boyda ağaş bitif. – Axı, axşam biz burda ojax qalamışıx. Ağaş görürsən hara qalxıf. Bitif qalxıf yuxarı.

Deyifdi ki, onda orda ojağı qalama.

Onu mən gözümnən gördüm. Ağaj o qədər böyüyüf ki, içərisinnən çıxıf. O ağaj köhnəlif, qurt yeyif yıxılıf böyrü üsdə. Topulqa ağajı deyirmişdər bunnan irəli.

## XI mətn

Bir oğlan xəstədi. O qədər yer gəzdiriflər, buna imkan olmuyuf. Buna deyillər ki, bala, filan yerdə Hajı Qaraman baba var. Gedərsən onun yanına, onnan sana çara olar. Bu da soraxlıya-soraxlıya gəlir Hajı Qaraman babagilə. Amma həkim deyifdi ki, sənin dərdinə bir şey xeyir eliyəjəh. Ömründə dilinə nə dəymiyifsə, o dəyəndə sənə xeyir eliyəjəh.

Bu da gəlir. Hajı Qaraman baba qızına deyif ki, bu uzax yerdən gəlif, buna çay-çörək gətir. Çay gətirif, çörək gətirif. Bişmiş hazırranınca qatığı qoyuf:

– Bala, uzax yerdən gəlmisən, ye.

Bu, qatıxdan bircə dəfə ağzına qoyanda görüf elə bil yunqullaşıf. Bunu ta aşmır. Deyir: "Beyjə qalajam, görüm bu nə olan şeydi?"

Gejə burda yatır. Səhər açılanda görür ki, Yetər nənə nəysə ojağı qaladı, orda qabda məlhəm kimi bir şey hazırradı, getdi. Durdu bunun dalınca çıxdı ki, görə bu noolan şeydi. Gördü bir bölük maral gəldi Hajı Qaraman babanın ojağına. Avçı vırıf, yaralanıf. Deyir, arvad nə birini çağırdı, nə bir şey elədi. O yaralı gəldi durdu arvadın yanında, məlhəmi qoydu, sarıdı. Bu yaralıların hamısını sarıdı, qalan maralların da hamısını sağdı, südün götdü, dedi:

– Ay Allahın heyvanı, ta gedə bilərsən.

Üzdən qırax, it qavıf, çıxıf gediflər. Ətraf da maralın buynuzdarıdı, tökülüf yerə-yurda, buların qapısına. Gəlif evə deyif ki, hə, bu qatıx onun qatığıdı.

Deyif:

– Hajı Qaraman baba, bu qatığ nə qatığı idi?

Deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bala, həmən maralın qatığıdı.

Deyir:

– Hə, onu yeyənnən görürəm ki, yaxşılaşmışam.

İndi Hajı Qaraman bizim and yerimizdi. Maral buynuz tökdüyü Hajı Qaraman babanın canı üçün. Bizim and yerimiz heylə olufdu.

### XII mətn

İran şahı deyif ki, Hajı Qaraman, mənnən qabax-qənşər gəl, görəh kim güjdüdü. Bu İran şahı bir tifar minir, əlinə də qamçı yerinə bir ilanı alır, deyir:

– İndi çıx döşümə, görüm sən neyniyəjəhsən.

Bu da oluf Arazın qırağında. Deyif:

– Gəl, durmuşam.

Deyir ki, sənin nəcabətin ağırdı. Qabaxca sən möcuza gösdər. Deyifdi ki, bala, get Arazın üsdündə ojax qala.

Deyif:

– Ə, uşax işi görmə. Suyun üsdündə ojax yanar?

Bu gedif ojağı qalıyıf, yanmıyıf. Deyif:

– Ay Qaraman baba, yanmır axı.

Deyif:

– Deynən inşallah, yanar Qaraman babamın ojağı.

Orda ojax yalovlanıf suyun üzündə. Onda deyif ki, Hajı Qaraman baba, mənim sənə sözüm yoxdu.

### XIII mətn

İlan sümüyü uduf, gəlif Hajı Qaraman babanın qarşısında ağzı açıx duruf. Hajı Qaraman babaya minnət eliyir ki, məni qutar bunnan. Hajı Qaraman baba bir qadına deyifdi ki, irəli dur, qorxma. Get onun ağzınnan sümüyü çıxart, onnan sora sən olajaxsan tanınmış adam.

Deyif:

– Qorxuram.

Əl çəkmiyif. Duruf yanında. İlanın ağzınnan sümüyü çıxardıf, onnan sora həmən qadın oluf məşhur bir adam. Kimə əlin çəkirmiş, onnan o yaxşı olurdu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir də yığışıflar oturuflar evdə. Bunun ayləsi görüf ki, kişini çağırıflar çölə. Duruf çölə çıxanda görüfdü ki, ilannarın yekəsi qoşunuyan gəlif duruf qapıda. Deyif ki, biz gedirih İrandakı ilannarnan müharibə eliyirih. Bizə bir dua oxu, biz gedəh. İlana dua oxuyufdu, gedif. Bunu da qadın arxadan eşidir, görür. Ta çəvrilmiyif, gedif. Aradan bir həftə keçənnən sora gənə görüf ki, kişini çağırıllar. Kişi çıxıf qapıya, deyifdi ki, nətər getdız, nətər gəldiz? Deyiflər elə getdih, elə gəldih bircəciyimizin irtməyi qırıldı. Qalanımıza hessad olmadı. Sənin o duanın hesabına yaxşı gedif gəldih.

**XIV mətn**

Biz imam övladıyıx. Ona görə də babalarımız qıraxdan qız alıf qırağa qız vermiyiflər. Qudurana Hajı Qaramanın qanınnan verillər, yaxşı olur. Hajı Qaraman baba deyif ki, kim mənim yolumu düz apara, ayrı bir iş görmüyə, ayrı şey yeyib-işmiyə, Allahın köməkliyinnən onun qanı quduzdar dərmanıdı, tüpürcəyi yaralar məlhəmidi.

**XV mətn**

Özü də dünyasını dəyişəndə daşdan qalax elətdirifdi. Orda gedif ibadət eliyirmiş, namaz qılırmış. İndinin bu saatında quyu vurursan su çıxmır. Həmən qalağın qırağında namaz qılanda deyiflər:

– Hajı Qaraman baba, burda bir nişangah qoy.

Deyif:

– Neyniyə bilərəm.

Ələmdarrar deyillər, Hajı Qaraman babanın qalağı ordadı. Onun ikisinin arasında bir təpənin yanınnan su çıxıf. Onu Yetər nənəyə ehsan olaraq yaradıf. Deyif:

– Baxın, bu suyu da qoyuram bura, Hajı Qaraman babanın ziyaratına gələn gəlsin arxayın o sudan işsin.

Orda çətinlihnən su çıxır.

Bir də deyif ki, Yetər nənəni elə yerdə basdırarsınız ki, mənim üsdümə gələn onun torpağınnan tutyə götürsün.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### XVI mətn

Mir Cəfər Bağırovun vaxdında yığılıllar, deyillər bu nə ojaxdı? Gedin onu dağıdın. Kimi göndəriflərsə, getmiyif. Biri deyif:

– Allah ölümü deyil ha. Atı ver, mən gedim dağıdım.

Deyiflər:

– Ə, otur yerində.

Deyif:

– Nolajax? Üsdümüzü kəsillər da, gedəh.

Gəlir Ələmdarların yanınnan keçəndə at onu salır yerə. Boynu da qırılır, beli də qırılır, elə oradaja məhv olur. Deyillər uçurdunmu Hajı Qaramanın qalağın?

### XVII mətn

Təhlədən, Muğannan gələnnər deyillər:

– O Hajı Qaraman babanı sınamısız? Deyirsiniz ki, gedən hər sürü birin orda qurban kəsif getməlidi. İndi o sürüdə hansı ora qurbandısa, özü getsin, orda kəsəh onu.

Qoyun məliyə-məliyə gedif durexcurmuş qalağın qabağında, onu gətirif burda kəsirmişdər.

## 63. HACI QASIM ÇƏLƏBİ

### I mətn

Deyir bı sirihlilər Hajı Qasım Çələbini qəbul eləmirmişdər. Deyirmişdər fırıldaxçıdı, nətəridi. Deyir, bir gün bılar Hajı Qasım Çələbini sınamağ üçün meşədə bının qabağını kəsillər. Görüllər ki, gəlir. Sirihlilər bına deyir ki, ya bir möcüzə gösdər, ya da səni öldürəjeyih. Kəhlihlər də dağlarda oxuyurmuşdar dayna. Tay Hajı Qasım Çələbi də görür kü, vəziyət çətindi. Deyir ki, ay Allahın heyvanı, görmürsən ki, məni nə hala salıflar? Gəl köməh elə. Kəhliyin biri gəlir qonur bir çiynınə, biri də o biri çiyninə. Onda sirihlilər bınnan əl çəkir. Hajı Qasım Çələbi də deyir ki, sirihli də deməh olar, pülühlü də deməh olar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## II mətn

Bir gün Hajı Qasım Çələbiyə deyillər ki, Çələbi baba, dooşanı yeyəh, yemiyəh?

Deyif:

– Mən heş kimin nəfsinə şuğuluzum* ola bilmərəm. Qulağı eşşəh qulağı, ayağı it ayağı, kimin nəfsi düşür yesin. Bəlkə bir adamın nəfsi düşəjəh ona.

Özü də nənəsi dooşan əti yeyən uşağın dodağı para olar, dooşan dodağ olar. Bikirrəşməmiş** uşax yeyə, uşağın dodağı çatal olar. Uşax bikirrəşənnən sora yesə, heş nə olmaz. Uşax bir altı aylığ, yeddi aylığ olsa, onda yisə, heş nə olmaz.

## III mətn

Bıların mədrəsələri oluf Çələbilər kəndində. Mədrəsənin yatıf-duracağı oluf. Mədrəsəni qutaran adam imtahan verirmiş. İmtahannan kəsilən adam ikinci il orda imtahan verə bilməzmiş, üzgörənnih olar, yazığımız gələr deyənə. Gedif Qumda, Bağdatda, Nəcəfdə, Türkiyədə imtahan verməliymiş. Bir nəfər imtahan verir, kəsilir. Bını yolluyullar Türkiyəyə. Gedər orda bir il oxuyar, imtahan verər. Bəri gəlməh isdiyəndə Birinci Dünya Müharibəsi başdıyar. Gələ bilməz, ara kəsilər. Gözdüyər, müharibə qutarar. İsdiyər gəlsin, Azərbaycanda Sovet hakimiyyəti qurular. Bir üş-dörd il gözdüyər ki, bırda Sovet hökuməti dağılajax, gələjəh bıra. Sovet hökuməti də dağılmaz. Üç il Türkiyəni gəzər. Ordakı çələbiləri tapar. Başdıyar onların yanında yaşamağa. Adanada yaşıyar. Sovet hökuməti dağılan vaxdı onun oğlu gəlir bıra. Bırda onu bir az həbsdə saxladılar. Sora icazə verdilər ki, getsin Hajı Qaramanı ziyarət eləsin.

## IV mətn

Çələbilərin Sovet hakimiyyətinə münasibəti belə oluf ki, bilirsən, elə münasibətdər var ki, oları deyə bilmirih. Deyəndə də çətinnih çəkirih, demiyəndə də çətinnih çəkirih. Müsavatçılar həmi-

---

* şuğulzum – səbəb, bais
** bikirrəşməmiş – bərkiməmiş



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

şə Hajı Qasım Çələbinin yanına gəlirmiş. Xan Xoyski, Nəsib bəy Yusifbəylinin özü dəfələrnən Hajı Qasım Çələbinin yanında olufdu. Həmən Nəsib bəy Yusifbəylinin özü Ağdaş çələbilərinnən olufdu. İki dəfə Məhəmməd Əmin özü olufdu çələbilərin yanında. Ermənilərnən danışığa gediflər. Mənim atam Nəsib bəy Yusifbəylinin yanında dəfələrnən ermənilərnən danışığa gediflər. Üç ay danışıxlar heç bir nəticə vermiyif.

1923-cü ildə Hajı Qasım Çələbi Sovet hökumətinnən qaçıf o taya köçən adamları yığıfdı Araz Maşannı* kəndinə. Nə qədər ki, Hajı Qasım Çələbi sağ olufdu, bulara toxunmuyuflar. O taya keçən adamları çağırıf bəri taya, Araz Maşannıda yığıf başına. O, həmin adamların qabağında çıxış eliyif. Sərhəd kəntdərinin hamısı boşalmışmış, hamı getmişmiş. Deyif ki, ay camaat, sizin kəntdər boşalıfdı, bu qəzada adam qalmıyıfdı. Bu boş kəntdəri Sovet hökuməti boş qoymujaxdı, əhaliynən doldurajaxdı. Erməniləri yerrəşdirəjəhlər bıra, bu torpaxlar erməni torpağı olajaxdı. Deyif mən sizi ona görə qaytarmışam ki, qoy bura bizim torpaxlar kimi yaşasın. Amma əlli il, yüz il bunnan sora burdan çıxsaz, genə Azərbaycan torpağı olajaxdı. Deyir, mən sizi qaytarmamışam ki, siz burda kef çəkəssiz, bu hökumət sizə yaxşı baxajax, yaxşı şərayit yaradajax. Yox, bular olmuyajaxdı. Mən bilirəm ki, siz Kərbəla müsibəti çəkəssiz burda. Kərbəla müsibəti bunun yanında muşduluğ olajaxdı. Kim Kərbəla müsibətini torpax xatirinə qəbul eliyirsə, qalsın burda, yaşasın. Nə qədər ki mən sağam, sizə toxunmuyajaxlar. Mənnən sora Kərbəla müsibəti başıza gələjəh. Kim maa söyəjəhsə, – ona görə Arazın qırağına toplamışam ki, haman Arazdı, uşaxlar da kömək eliyəjəh, addıyasız o tərəfə, – indidən getsinnər. Deyillər, bir-iki adamnan başqa hamı qalıf.

Sora oğlannarını durğuzuf ayağa. Yasinə deyif ki, Yasin, sənin yerin-yurdun bilinmiyəjəh. Alı Çələbiyə də deyif ki, səni də gülləliyəjəhlər. Mənim anama kimi deyif ki, axırız nətər olajax. Sora

---

* Araz Maşanlı – Cəbrayıl rayonunun Arazqırağı kəndlərindən biridir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

müsibət vaxdı "Çələbi, bizi bırda niyə saxladın" deyənnər də olufdu. Elə dediyi kimi də oluf. O ölənnən bir az sora çələbilərin qırdıxlarını qırdılar, qalannarını da sürgün elədilər Sibirə, Qazağısdana. Oğlannarının da ki, axırı heylə oldu. Yasin Çələbini sürgün elədilər, Alı Çələbini də güllələdilər. Oğlannarınnan, deyillər ki, Alı Çələbi çox sərt adam olufdu. Adamın günahını düz gözüün içinə deyirmiş.

Bular musiqinin əleyhinə getmiyiflər, qəbul eliyiflər musiqini. Amma Hajı Qasım Çələbi də, böyüh Alı Çələbi də musiqidə rəqs etməyi, zikr olunmağı, rəqs eliyif coşmağı qadağan eliyiflər. Zikri Hajı Qasım Çələbidən sora qəti qadağan eliyiflər.

**V mətn**

Gəlif yaylax yoluun üsdündə bir evdə qalıf, Əhməd addı bir kişinin evində. Bular bunu qonax eliyiflər. Gejə görür ki, pərdənin arxasında nəsə narahatçılıx var. Bular da isdiyirmiş qonağa yaxşı olsun, o, nəsə hiss eləməsin. Deyif ki, orda kimdi zarıyan, niyə zarıyır o? Deyir, bular da boyunnarına almıyıflar ki, xəsdəmiz var. Demə, bu evdə də xəsdə, şikəst bir qız uşağı varimiş. Adı da Yetər imiş. O vaxdan bəri ona Yetər nənə deyirih. Gejənin bir vaxdı qız anasını çağırıb. Anası deyif ki, bala, nədi, nolufdu?

Deyif:

– Ana, dur çırağı yandır.

Deyif:

– A bala, çırağı niyə yandırım ki? Onsuz da sənin üçün nə fərqi var, sənin gözün görmür axı?

Deyif:

– Yox, ana, dur çırağı yandır, ayağ üsdəyəm, durmuşam.

Anası duruf çırağı yandırıf. Baxıf ki, qız duruf ayağ üsdə, gözdəri də baxır. Tamam-kamam sağlam. Deyif:

– Bala, saa noldu, sən belə oldun?

Deyif:

– Ana, bı sifətdə bir kişi qolumnan tutdu, dedi dur ayağa.

Qız belə deyəndə anası bilir ki, bu, qonaxdı. Səhər açılanda deyiflər ki, qonax, sən kimsən? Deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Əşi, bir yolçuyam da, gedirəm yolumnan. Axdardığım yeri hələ tapmamışam, gedəjəm.

Deyiflər ki, yox ey, de görəh, sən kimsən? Deyif ki, mənim çəliyim var da, o dayanana kimi mən gedəjəm. Deyif:

– Sən bu qızı nətər sağaltdın?

Deyir:

– Yox, mən sağaltmadım, mənnih deyil, Allah sağaltdı, Allahlıxdı.

Kişi deyif ki, mən bu qızı, bu mülkü, bu torpağın hamısını verirəm saa. Çəliyin harda dayanar, dayanar. Verirəm saa. Bu torpaxlar da sənin olsun. O torpaxların aşağısı Arazdı, yuxarısı da Həkəri çayınnan o tərəfə gedir. Hamısı sənindi. Onun oğlannarı çox oluf. Çoxlu kəntdər də onun oğlannarının adınadı. Cəbrayıl oluf, onun oğlannarının içərisində Soltan oluf. Orda yerrəşifdi, orda qalıfdı. Bu mülkün yuxarı tərəfində Dövlətyarlı camaatı var. İndi də Füzulidə yaşıyıllar Dövlətyarlı camaatı. Kənt də var bu adda. Bu Dövlətyarlı camaatı da həmən vaxt yaylaxda imiş. Eşidiflər ki, bəs kəndi bir nəfər zəbt eliyifdi. Yaylaxda eşidiflər bunu. Bir nəfər deyir ki, mən gedif oları ordan çıxardaram. Gəlif bu adam buna yaxınnaşan kimi yumşalıf. Qayıdıf gedif yaylağa. Deyiflər noldu? Deyif:

– Vallah, getdim, elə o kişini orda görən kimi ajığım yatdı. And işmişdim ki, onu salajam ayağımın altına. Elə surət gösdərdi ki maa, elə oldum ki, elə bil siz göndərən adam dəyiləm, – deyəndə deyillər ki, ə, yox, sən onnan nəsə almısan, mümkün olan şey dəyil. Bu səfər üş-dört nəfər yolluyuflar. O üş-dört nəfər də qayıdıf eyni şeyi deyif. Sohra kənd qayıdanda bunun nuruna heyran qalıflar. Buna deyiflər ki, bu mülk, bu torpax sənə qurbandı. Deyillər ki, o torpağın hakqını verif. Həm də deyillər ki, Dövlətyarlılar bunnan pul götürmüyüflər. Sora da buna deyiflər ki, biz sənnən bir yerdə yaşıya bilmərih.

Deyif:

– Niyə?

Deyiflər ki, biz bu var-döyləti oğurruxnan, quldurruxnan əldə eləmişih. Torpağı qoyuf buna, köçüflər. Köçüflər Köndələn çayın yanına. İndi də deyillər ki, Dövlətyarlıların nəsli ordan gəlmədi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**VI mətn**

Hajı Qasım Çələbi, canım qurban olan, əlində çəliyi gəzirmiş. Gedif qabaxca Bilgə dağının qabağında çəliyi atıf. Deyif ki, yox, bırda adamlar çoxdu, bırda qala bilmərəm. Arvadına deyif ki, bırda qala bilmərih. Bırdan gediflər başqa bir dağın ətəyində məskən salırlar. Özü də kasıbımışdar. Bir Hajı Qasım Çələbi oluf, bir də arvadı. Hajı Qasım Çələbi oturuf, arvad oturuf yavan çörəh yeyiflər. Kişi bir gün çıxıf dağın ətəyinə, deyif ki, ay Allahın heyvannarı, tökülün gəlin. Tay Gülpəri çörəyi yavan yeyə bilmir. Bir də görüllər ki, marallar tökülüf gəlir, əmcəhləri nə boyda. Bılar bı maralları sağırmışdar, balasını bir tərəfə ötürürmüşdər, nənələrini də bir tərəfə. Hə, bala, bıların möcüzələri belə oluf.

**VII mətn**

İki oğlan gedirmiş Hajı Qasım Çələbigilə. Oğlannardan biri qayıdır ki, ə, nə Çələbi, Çələbi salmısan ee. Çələbi bir möcüzə gösdərmiyənnən sohra nə Çələbidi bı. Gediflər, yolda gedənnərdən biri də bir beş maat pul verif ki bılara, bını da Çələbiyə verərsiz. Bı kişinin biri bir layaxsız söz deyif yolda. Gedif elə qapıya düşəndə Çələbi deyif ki, hə, o yolda verilən pulu verin Gülpəriyə, getsin qənd alsın, gətsin çay içəh, qəndimiz yoxdu, o layaxsız sözü də özaa götü, bizə demə. Kişi xeylağıdı dayna, ağzı qızışıf, nəysə deyif. Ağzı partavımış*. Bınnan sohra deyif ki o kişi, Çələbi baba, bir möcüzə gösdər dayna, heş sən möcüzə gösdərmirsən?

Deyif:

– Gösdərərəm, ancax sən yeyə bilməzsən.

Deyif:

– Yeyə bilmərəm, bilmərəm dayna, səən nəya lazımdı?

Deyif:

– Gedərsən, gəldiyin yolun kənarında bir cıqqılı qaramux kolu var. O qaramux kolun dibində bir yasdı daş var. O daşı qaldırarsan, onun altındakını götürüf gətirif yeyərsən.

---

* ağzı partav – söyüşkən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gedif daşı qaldırıf. Daşı qaldıranda görüf kü, bir küpə qıp-qırmızı qızıldı. Deyirsən, Xudaya, Xudavənd-aləm, bax, belə dayna, onnux, beşdih qızıldı dayna. Küpəni görəndə səvinif. Daşı qaldırıf əynə. Küpəyə əlin uzadanda bının hamısı ilan oluf başını qaldırıf bına sarı. Çəkilif geri. Gəlif deyif ki, Çələbi, başaa dönüm, gördüm sifdə qızıldı, sohra hamısı qırmızı ilan oldu. Deyif:

– Yedin?

Deyif:

– Yox.

Deyif:

– O malyeməzin malıdı. Yığıf saxlıyıf, axırda da ölüf. O, onun malıdı, ilannar da onun nəfsidi, yatıf qızılın ağzında.

## VIII mətn

Bı Nuru paşa yatar, yuxuda görər ki, bir nəfər adam bının yuxusuna girdi, bına dedi ki, sən topları yoxla, topların lüləsini qumnan dolduruflar. Özü də deyər ki, bını xəlvət yoxla. İkinci səfər yuxusuna girər, genə fikir verməz. Üçüncü səfər olanda durar yoxluyar, görər elə, doğrudan da, qumnan dolduruflar. Məlum oluf ku, bını Andranikin adamları türk əsgəri paltarında eliyiflər. Yuxuda gördüyü kişinin sifəti bının yadında qalar. Yuxuda buna deyər, sən kimsən? Deyər, mən Hajı Qasım Çələbiyəm. Soraxlıyır. Soralar bına deyəllər ki, Hajı Qasım Çələbi ancax Azərbaycandadı. Azərbaycana gələndə soraxlıyar, Hajı Qasım Çələbinin yerini örgənər. Gələr Hajı Qasım Çələbiynən görüşsün. Hajı Qasım Çələbiyə də agah olur ku, Nuru paşa gəlir bınnan görüşməyə. Yusifbəyli kəndində bılar qarşılaşıflar. Orda böyüh bir daşın üsdə oturallar, üş saat yarım söhbət eliyəllər. Camaat yığışar buların başına. Yusifbəyli kəndi də Qubadlıda, Həkəri yaxınnığında olan kəntdərdən biridi. Həmən daşı sora camaat yonub on səkkizinci ildə, abidə düzəltmişdər. Yolun qırağına qoymuşdar. Üsdünə də yazmışdılar ki, Hajı Qasım Çələbiynən Nuru paşa burda üş saat söhbət eliyiflər. Camaat o daşı ziyarət eliyirdi. Aşağı gələnnər də, yuxarı gedənnər də.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## IX mətn

Bir gün Hajı Qasım Çələbinin çoxlu qonağı olur. Arvadı bına deyir ki, kişi, adam çoxdu, kartof da azdı yeməyə vırmağa. Qayıdıf bına deyir ki, narhat olma sən, bı dəyqə çatır, yoldadı. Beş dəyqə keşmir ki, bir nəfər atın belində iki çual kartof gətirif qapıda düşürür.

## X mətn

Qaçax Azad addı biri oluf. Əsli Saatdı, Sabirabad tərəfdən oluf. Biz tərəflərə də gəlirmiş. Ermənilərə qarşı da çox vuruşuf. Sohra da Sabirabatda Sovet hökumətinə qarşı qaçaxçılığ eliyif uzun müddət. Bı gəlir Gəyən düzü tərəfdə bir yer var, biz ora Böyüh Qaş, bir də Kiçih Qaş deyirdih. O iki yerin arasında bı Hajı Qasım Çələbinin qabağını kəsər. Bını nağıl eliyən kişi Soltannıdandı. İndi də durur. Yüzdən çox yaşı var. And içirdi ki, gözümnən gördüm. Deyir mənim onda on dört-on beş yaşım olardı. Dədəm də qoşuldu Hajı Qasım Çələbiyə, başdadılar söhbət eliyə-eliyə kəndə tərəf yol getməyə. Yannarında dört-beş nəfər başqa adamlar da varıydı. O Qaçax Azad orda bizim qabağımızı kəsdi. Qəfildən peyda oldu. Deyir, dedi ki, Hajı Qasım Çələbi, ya bir möcüzə gösdərəssən, ya da səni öldürəjəm. Bir az keşdi, dedi ki, Hajı Qasım Çələbi, dəyəsən, sənin canın saa şirin dəyil. And işdi ki, yanındakıları vırajam. Deyir, həylə deyənnən sohra Hajı Qasım Çələbi dedi ki, yaxşı, tay mənim ixtiyarım yoxdu, Allah özü bir iş işdəsin ki, sən razı qal. Əl çəh bizdən. Elə bını deməhnən bir cüt kəhlih gəldi, biri sağ çiyninə qondu, biri də sol çiyninə qondu, başdadılar oxumağa. Kəhlih də elə quşdu ku, əhilləşmir. Tutuf aparıf saxlasan, uzax başı bir ay saxlıyassan, əldən çıxan kimi qaçajax. Deyir dedi ki, əşi, əviiz bı dərənin ağzındadı, gəlif orda bı kəhlihlərə dən vermisən, indi səni tanıyıf gəlif çiynaa qondu.

Deyir:

– A kişi, gəl əl çəh bizdən.

Deyir:

– Yox ey, sən maa möcüzə gösdər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Orda o, üş möcüzə gösdərif. Biri yadımnan çıxıf. Üçüncüsü odur ki, yerdən ojax daşı boyda bir daşı götürüf, – o kişi and içirdi ki, bı mənim gözümün qabağında oluf, on beş yaşım olardı, – atdı göyə, dedi:

– Ey daş, Allahın hökmüynən qal göydə.

Deyir atdı belə. Hardasa deyir beş metirrihdə daş qaldı. Ojax daşıycan daş idi deyir. Daş qaldı göydə. Dedi ki, Azad, əl çəkirsən mənnən. Deyir düşdü bının ayağına:

– Məni bağışda, inandım, inandım.

Deyir, Qaşın döngəsi var, ora kimi gəldih. Ordan ora üş yüz metr var. Amma daş atdığı yer Qaşın burnunnan görükür. Deyir, qaçax Azad baxdı göyə, gördü ki, daş hələ göydədi. Deyir dedi ki, Çələbi, o daş elə qalajax göydə. Deyir, deməhnən daş düşdü yerə. Deyir, Çələbi də dedi ki, ay Allah evi yıxsın, o daş qalmalı idi orda. Sən heylə deməsəydin, o daş qalajeydi orda. Məkkəyə bərabər ikinci ziyarətgah yaranajeydi burda. Sən ona mane oldun. Deyir, dedim ki, bağışda Çələbi, daşı gedim gətirim, at göyə. Deyir, Çələbi də dedi ki, yox, tay qutardı.

## XI mətn

Ağəli kəndinnən oluflar olar. Ağəli kəndinə İrannan bir seyid gəlif. Zəngilanın Ağəli kəndi var orda. Seyid orda bir qız alıf, yurd salıf. Ağəli kəndinin camaatı Hajı Qaramana gəlif-gedirdi. Bı seyidin qohumları deyif ki, tay biz Hajı Qaramana, Hajı Qasım Çələbinin yanına getmiyəjeyih. Kəndimizdə seyid var.

Bı camaat iki yerə bölünüfdü, mübahisə olufdu. Deyiflər ki, sizin bı seyid bir möcüzə gösdərsin, ora getmiyəh. Seyid deyif ki, nə möcüzə bazarıdı. Möcüzə nədi, zad nədi? Deyiflər ki, amma o möcüzə gösdərir da. Hər şey eliyir. Bı seyid inammıyıf. Bılar şərtdəşiflər. Deyif:

– Biz gedəjeyih, bizə əvvəlcə süddü aş verəjəhlər, sütdü şoraba, sohra da çolpa-plov bişirəjəhlər. Çolpanın plovunu yeyəjeyih. Sohra da bizə tağı üsdündə qarpız-yemiş gətirəjəhlər. Özü də bir-birimizdən aralı oturmuyajeyih orda.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bını seyidnən seyidin adamları deyir. Gəlif oturullar. Çörəh sırfıya gələndə birinci bulara sütdü aş veriflər. Sohra plov yeyiflər. Sohra Hajı Qasım Çələbi deyif ki, Gülpəri – Gülpəri nənəmizin adıdı, – get qonaxlara qarpız-yemiş gəti, özü də tağı üsdündə olsun. Gülpəri nənəmiz deyərdi ki, belə deyəndə dəhşətə gəldim. Deyif:

– Qarpız-yemiş anbarda küş tərəfdədi.

Deyərdi ki, getdim anbara, gördüm qarpız-yemişi, elə bil ki, indicə tağlı-tağlı gətirif yığmısan bıra. Yer də dizdən qarmış. Gətirifdi, gətirənnən sohra bılar deyif bəs belə. Bizi bağışda, sənin yanaa bı niyyətnən gəlmişih.

**XII mətn**

Hajı Qasım Çələbinin atası rəhmətə gedəndə beş-altı yaşı olufdu. Rəhmətə gedəndə ən yaxşı mürütdərini yığıf başına. Bir otuz-qırx mürüdünü yığıf. Deyif ki, mənim ömrümə az qalıf. Mən bir həfdəyə gedəjəm. İçizdən kim Hajı Qasım Çələbiyə qəyyumluğu boynuna götürər? Heş kim boynuna götürmüyüf. Oların hansına deyifsə, deyif yox, biz bajarmarıx. Filan kəntdən Camal kişiyə deyif ki, Camal, tay sən qalmısan, qəyyumluğ eliyəssən. On altı yaşına çatanda deyərsən ki, bütün bu işdərin başında o durajax. Mənim yerimdə odu. Sizə rəhbərriyi ona tapşırıram. On altı yaşına kimi mürütdərə də rəhbərriyi sən eliyəssən.

Gələr bının on altı yaşı tamam olar, amma Camal bına hələ heş nə deməz. Bir günnəri Musdafa addı bir kişi Hajı Qasım Çələbini mürütdəriynən bir yerdə dam evinə qonax çağırar. Hajı Qasım Çələbi içəri girəndə gedər oturar birbaş səbətin üsdündə. Bı səbət də yerdən iki-üş metr yuxarıda düzəldilirdi. Taxd kimi bir şey olurdu. Bı oturar. Oturanda camaat deyər ki, bəs düş aşağıda camaatın içində otur. Deyər:

– Yox, mən burda oturmuşam, bıra yaxşıdı.

Deyər:

– A bala, bu camaat sənin başaa yığışıfdı. Uşaxlığ eləmə. Sən Alı Çələbinin oğlusan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

O tərəfdən camaat deyər ki, gör Alı Çələbinin yerində kim qalıf, başdan xarab bir uşax qalıf. Bu qayıdar deyər ki, mən çıxıf oturmuşam burda, yağış yağajax, sel olajax, damı da su basajax. Özümü yağışdan qorumağ üçün burda oturmuşam. Genə camaatın bəziləri deyər ki, ə, bının başı xarabdı ey. Yağış nə axtarır? Göydən od tökülür. Deyəllər ki, a Qasım, axı yağış yağmır. Deyər ki, hələ bir damın qapısını açın, görün yağış yağır, yoxsa yox. Qapını aşdıxlarıynan sel dolar içəri. Bir yağış dolar, bir sel dolar içəri ki, hamı isdanar. Bir dənə bı qalar. Həmən səbəti saxlıyırdılar. Belə möcüzələri olufdu.

## 64. ALI ÇƏLƏBİ

### I mətn

Alı Çələbi türmədə yatanda türmənin ağzını qıfıllıyıflar, qıfıl açılıf düşüf yerə. Neçə dənə qıfıl dəyişiflər, hamısı açılıf düşüf yerə. Alı Çələbi türmədə Molla Qüdrətnən, bir də mənim atamnan bir yerdə oluflar. Türmədən çıxırmışdar çölə, gedif yamacda gəzirmişdər. Heş bir gözətçi oları saxlamırmış. Elə bil ki, görmürmüşdər. Bılar gəldihcə qapılar öz-özünə açılırmış. Deyir, türmənin rəisinə çatdırıflar. Deyiflər ki, bəs üş dusdax, başda da filankəs olmaxnan qapıları bağlanmır. Türmənin rəisi çağırır yanına, bunnan söhbət edir. Deyif ki, o qıfılın orda dayanmamağı mənnih dəyil, qapıların açılmağı mənnih dəyil. O, Allahın hökmüdü. İnanmırsan, düş mənnən gedəh. Yoxluyuflar. Deyif ki, sən isdəsən axı bağlı qalar. Deyif:

– Yox, ona mənim güjüm çatmaz.

Şuşa türməsində oluf. Belə şeylər çox oluf.

### II mətn

Qonşu oluflar iki gəlin. Biri gəlir çələbilərin yanına uşax niyyətiynən. Gələndə qonşusu da təzə tuman almışmış. Deyif:

– Qonşu, o təzə tumanı ver, geyinim gedim.

Bı verif. O biri gəlin, sən demə, beş ildi getmişmiş, uşağı olmurmuş. Nəysə, gəlif çıxanda bına deyif ki, bı tuman sahibinin iki uşağı olajax: bir oğlu olajax, bir qızı. Tuman sahibi də qonşu-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sudu axı. Bı gəlinin yanında olannar deyif ki, bı nə deməkdi? Tuman kimindi ki? Deyif:

– Tuman qonşunundu, qonşudan alıf geymişəm. Bı tuman verən gəlindi, dörd-beş ildi getmişmiş ərə, uşağı olmadığı üçün əri qavmışmış.

Kəndə qayıdanda görüf kü, əri gəlif bını aparıf. Sohra uşağı da olufdu. Alı Çələbinin yanındakı mürütdər sual verif ki, o nəydi dedin, niyə helə dedin?

Deyif:

– O gəlin qonşunun tumanını geyif gəlmişdi. O qədər həvəsnən vermişdi ki o tumanı ona, uşax da tuman sahibinin payına düşdü. Gələn gəlin camaata qoşulub gəlmişdi, bəxtəbəxt gəlmişdi. O amma həvəsnən tumanını vermişdi.

**III mətn**

Bu nəslin məşhur nümayəndələrinnən biri də böyüh Alı Çələbidi. Sünnü-şiyə ayrılığına qarşı ən kəsgin adam oluf. O vaxt bir dəfə şiyə mollalarınnan sünnü mollaları birləşif bını məhkəməyə veriflər. Qazı məhkəməsi hardasa Çimən yaylağında olufdu, mənim eşitdiyimə görə. Qazıya deyiflər bının məqsədi bilinmir. Hansı dinə xidmət elədiyi bilinmir. Quranı gətirif deyif:

– İkinci bir Quran gətirin maa ki, ya sünnünün olsun, ya şiyənin. Desinnər ki, bı sünnünün Quranıdı, bu da şiyə Quranıdı.

Deyillər:

– Yox, Quran birdi.

Deyif:

– Allah birdi, peyğəmbər birdi, Quran birdi. Bəs bu sünnü-şiyə haradan çıxdı?

**IV mətn**

Öz nəsillərinnən də müritdəri oluf, kənardan gələnnərdən də oluf. Yaxşı müritdəri olufdu, amma sora yolunu azan müritdəri də olufdu. Eləsi də var ki, qürrələnifdi. Belələrinnən də xoşdarı gəlmiyifdi. Şıx Alı addı bir müritdəri oluf. Hajı Qasım Çələbinin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

müridi oluf o Şıx Alı. Bir gün gəlif deyif ki, ustad, bu gejə sənnən yuxarıda uçurdum. Sabah gəlif deyif ki, ustad, axı mən uça bilmirəm. Deyif:

– Sən çətin uçarsan. Sənin qanatdarı yolmuşam, tay hara uçursan. Sən gərəh qürrələnmiyeydin. Mənnən yuxarıda uşsan da, onu maa deməməliydin.

İndi də bəzən deyillər: "Şıx Alı evinin iti kimi uluyursan elə". Olar Allahın yanında eşidilənnərdən oluflar.

Bizdə bir keşmiş milislərdən, partiya işçilərinnən varıydı. Adı da Əli Mamedovuydu. Soralar özü maa danışırdı. Deyirdi mən Allaha heş vaxt inanmırdım. Kamsamoluydux dayna. Alı Çələbini mən həbs elədim. Alı Çələbi Hajı Qasım Çələbinin oğluydu. Hajı Qasım Çələbinin də atasının adı Alı Çələbiydi. Atasının adını oğluna qoymuşdu. Birinci dəfə mən onu həbs eliyəndə maşın xoda getmədi. Birdən ağlıma gəldi ki, dusdaxların içində Alı Çələbi də var. Deyir, dedim ki, Alı Çələbi, elə elə ki, maşın xoda düşsün. Təzə maşınıydı. Dedi:

– Əşi, mənim nə işimə qalıf. Urusun qayırdığı dəmirdi, mənnən onun nə əlaqəsi.

Dedim:

– Yox, Alı Çələbi, sənnihdi.

Bir az baxdı, baxdı, dedi:

– Allahın hökmüynən işə düş.

Maşın işə düşdü, getdih. Xannıx kəndində mən onu həbs eliyəndə axırıncı həbsi idi. Bunu Heydərqul addı bir nəfərin evinə çağırdım. Gəldi. Dedim, səni söhbətə çağırmışam.

Dedi:

– Yox, sən məni söhbətə çağırmamısan, sən məni axırıncı səfər çağırmısan. Həbs eliyəssən. Uzağı bir-iki günnən sora mən güllələnəjəm.

Deyir, belə deyəndə dəhşətə gəldim. Deyir, dedim ki, Alı Çələbi, üçüncü, dördüncü dəfədi ki, səni həbs eliyirih. Birində bu qədər yatmısan, birində on gün yatmısan. Axırıncı səfər oları tutanda olar üş gün sorğu-sualsız yatdılar: mənim atam Əhməd Çələbi,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

onun atası Alı Çələbi, bir də Mərcannıdan Molla Mirzağa. Buları hər gün çağırıf bircə sual veriflər. Sergey Mironoviç Kirovu öldürənnərin adın deməlisiz. Kirovu öldürənnən sora tutmuşdar buları.

Deyir, bir gün bınnan söhbət eliyəndə bına dedim ki, Alı Çələbi, mən Allaha inanmıram. Sən elə eliyə bilərsən ki, mən Allaha inanım? Deyir, maa dedi ki, mən neynim ki, sən Allaha inanmırsan. Mən neyniyə bilərəm sən Allaha inanasan? Əl çəkmədim ki, maa gösdər, inandır ki, o dünya var, cənnət var, cəhənnəm var. Deyir, birdən maa dedi ki, dön abışqadan çölə bax, gör nəyi görürsən? Deyir, dedim ki, mən abışqadan çölə baxanda orda bir çinar ağacı var, onu görürəm. Dedi, gəl indi bax, gör nəyi görürsən? Deyir, gəldim baxdım, gördüm gül-çiçəh, çəmənnih, həmişə gördüyüm şeylər yox, tamam başqa şeylər görükür gözümə. Bıları Əli Mamedov danışırdı ha. Savatdı adamıydı özü də. Deyir maa dedi ki, o gördüyün cənnətiydi, saa cənnəti gösdərdim. Sora deyir maa dedi ki, yaxşı bax, gör indi nə görürsən? Gördüyümnən, deyir, dəhşətə gəldim. Cəhənnəmə düşənnərin nə əzab çəkdihlərini gördüm. Onnan sora mən Allaha inandım. Bına dedim, səni mən həbs eliyə bilmərəm. Deyir, maa dedi ki, məni həbs eləməsən, sənin özüü də tutajaxlar, ayləə incidəjəhlər. Gəl düş yanıma, gedəh.

## 65. YƏHYA ÇƏLƏBİ

Yəhya Çələbi deyif ki, uşaxlar, atı maa gətirin, bir hadisə var.

Deyir:

– Ə, nədi, nolufdu?

Deyir:

– Görmürsən, çayın o tayında nəsə bir səs-küy var.

Atı gətirillər, minir gedir. Gedir görür ki, qardaş isdiyir bajının başını kəssin. Bu nə olan şeydi? Ay nədi, ay nədi? Deyif ki, bəs, ayıb olmasın, utanmazdıx eliyirəm, bu bajını üş gündü toy eliyif veriflər bu evə. Bu da paltarın, ayıb olmasın, yuyuf sərif məfdilə. Səhər duruf görüflər paltarın biri yoxdu. Deyiflər tumanı neynəmisən ver bura. Səni bu saat öldürəjeyih. Qardaşdarı gəlif tökülüflər, deyiflər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tumanı ver. Yəhya Çələbi deyif ki, siz dayanın, mən deyəjəm, paltarın yerini deyəjəm. Burda oturuf, deyif:

– Get, o dey, o ala inəyi kəs.

Ala inəyi kəsir, ayıb olmasın, paltar içinnən çıxır, inəyin qarnınnan çıxır. İnəyin qarnınnan çıxanda gəlillər bu kişinin əlinə-ayağına düşüllər.

## 66. YASİN ÇƏLƏBİ

Hajı Qaramanın şeirləri çox oluf deyillər. Hajı Qasım Çələbinin də bayatıları, şeirləri çox oluf. Sohradan mən örgəndim ki, Yasin Çələbi türmədə olanda dört kitab yolluyuf. Onun ikisi şeirlər divanı oluf, ikisi də islam tarixinə aid oluf. Özbəkisdanda türmədə yatanda yolluyuf. O elə türmədə ölüfdü. Onun uşağının sorağını biz hardasa yetmiş beş, yetmiş altıda aldıx. Zərgər Məhəmməd olufdu Bakıda. Güjdü, tanınmış adam olufdu. O İçərişəhərdə olufdu. Maa dedilər ki, olarda Yasin Çələbinin əlyazmaları var. Heş sohra da onu əldə edə bilmədim.

## 67. MİR SƏDİ AĞA

### I mətn

Şəxsən mənim öz qonşumun oğlu qoz ağacınnan yıxılıf ağır zərbə alıf, dili tutulmuşdu. Onun atası cibinə üş maat pul qoyur, bir balaca kisə də qoz yığır Mir Sədi ağanın yanına getməh üçün. Yolda kişi fikirrəşir ki, mənim nəzirim azdı. Utanıf o nəzirnən Mir Sədi ağanın yanına getməyə. Bu fikirnən o cibindəki pulu da, bir kisə cəvizi də qoyur yolda bir daşın altına. Elə pulsuz gedir Mir Sədi ağanın ocağına. Kişi həyətə girən kimi Mir Sədi ağa bunu yanına çağırır. Deyir ki, nəzirin çoxu, azı olmaz, nəyə görə sən fikrii dəyişib o nəziri daşın altda gizdəmisən? Kişi yerində mat qalır bunun bu sözünə ki, bu hardan bildi ki, bu nəziri daşın altda gizdiyif. Kişini qəbul eliyir, ona tapşırır ki, bir də belə eləmə. Orda kişinin oğluna dua yazır. Duanı götürüf evə gəlir. Görür ki, oğlu oturuf ayleynən, uşaxnan danışır, oluf həmənki adam. Bunu öz gözümnən görmüşəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**II mətn**

Xannıx[*] kəndində iki qardaş varmış. Böyüh qardaş Mir Sədi ağanın ojağını ziyarət eliyir, bir seyid kimi, bir ojax kimi onu tanıyır, ona itaat eliyir. Kiçih qardaş isə dinsiz olur. Bu, Allaha, peyğəmbərə inanmır, olara itaat eləmir. May ayının ortalarında Qubatdının Bərgüşad çayı həddən artıx aşıf daşır, yernən-göynən belə. Həmin o Xannıxdakı böyüh qardaş Mir Sədi ağaya bir qoyun nəzir demişmiş. Qardaşını çağırır, ona deyir ki, gəl mənə köməh elə. Bir qoyunu Mir Sədi ağanın ojağına aparıram. Çayı keşməh də çox dəhşətdi, mümkün dəyil. Balaca qardaş bir təhər yola gəlir. Qoyunu götürüf Mirrər[**] kəndinin qabağına, çayın qırağına gedillər. Həmin gün Mir Sədi ağa bilir ki, o iki qardaş olara gəlməlidi. Mir Sədi ağa çayın o tərəfinnən əl eliyir ki, özüzü vırın çaya, keçin bəri, qorxmuyun. İki qardaş qoyunun hərəsi bir buynuzunnan tutuf özdərini çaya vırıllar. Sərbəst çayı keçif o tərəfə çıxıllar. Kiçih qardaş bu boyda çayda heş qüvvə hiss eləmir. Elə bil ki, bir arxı keçif getdilər.

Kiçih qardaş böyüh qardaşına deyir ki, mən inandım, amma az inandım. Mir Sədi ağanın qapısına gedəjeyih, amma bir şərtim var. Biz həyətə girən kimi Mir Sədi ağa əyər bilsə ürəyimnən nə keçir, onda ona inanajam, inam gətirəjəm ki, ojaxdı, seyitdi. Biz orda olarkən Mir Sədi toyuxların içərisinnən qara toyuğun birini tutuf kəsif mənə yedirtsə, onda bilərəm ki, Mir Sədi ağa möcüzəlidi. İki qardaş Mir Sədi ağanın həyətinə girən kimi Mir Sədi ağa arvadı Saranı çağırır yanına, tapşırır ki, həyətdə gəzən qara toyuğun birini tutun, kəsif bişirin, verin o cavan oğlana. Onun ürəyi onu isdiyir. Bını deyəndə cavan oğlan – balaca qardaş ta birdəfəlih inanır, iman gətirir.

## 68. MİR MƏHƏMMƏD AĞA

Mir Sədi ağanın oğlu Mir Məhəmməd ağa vəfat edərkən gözümüznən görmüşüh bunu hamımız, onun yas yerinə hər yerdən,

---

[*] Xanlıx – Qubadlı rayonunda kənd
[**] Mirlər – Qubadlı rayonunda kənd



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

eləcə də Gürcüsdannan şeyxlər, mollalar, seyitdər – hamısı gəlmişdi. Mir Məhəmməd ağanın tabutunu götürəndə onun tabutunun üsdündə o qədər qaranquş gedirdi ki, gəl görəsən. Tabutu qəbirsdannıxda yerə qoyanda mollalar, şeyxlər, seyitdər buyurdular ki, hamı qəbirsdannan çəkilsin qırağa. Elə ki camaat qırağa çəkildi, qaranquşdar tökülüf tabutun üsdə nə isə oxudular. Qutarannan sora üş dəfə fırrandılar tabutun üsdünə, qalxdılar, yendilər. Üçüncü dəfədən sora uçuf getdilər. Sora buyurdular ki, tabutu götürün. Bunu biz öz gözümüznən görmüşüh.

## 69. MİR HƏMZƏ NİGARİ

Mir Həmzə Nigari özü çələbilər məktəbində* dərs alıfdı. İki il təhsilini çələbilərdə alıf. Soralar məktəbi Türkiyədə qutarıf, gəlif Qarabağa. Çələbilər məktəbində də işdiyif. Təriqət başçısı oluf. Nəqşibəndi oluf. O vaxdın mollalarına, qazılarına çoxlu həcvlər yazıfdı. Ona görə də İbrahim xan bına qiyabi ölüm hökmü çıxarıf. Ona görə də gizdi yaşamağa məcbur olufdu.

Bir dəfə Qubatdıda onu bir kəntdə gülləyə basıflar. Onun Şirvanda, Qazax bölgəsində böyüh hörməti olufdu. Nə hörmətnən yanaşıflarsa ona Şirvanda yanaşıflar. Şıx İsmayıl Sıracəddinnən dərs alıf Kürdəmirdə, Ağdaşda da dərs alıfdı. Soradan bına ölüm hökmü verilib, yazığa. Məhəmmət Çələbi əfəndi bının usdatdarınnandı, məllimlərinnəndi. Gedif İbrahim xanın yanına, deyif: "Niyə belə? Bı da Fatmanın, Əlinin törəmələrinnəndi. Təriqət başçısıdı". İbrahim xan bına deyir: "Birincisi, maa həcv yazıfdı. İkincisi, zikrin o qəbul edilməz formalarını yayıfdı". Bı deyif ki, onun mən də əleyhinəyəm. O, mənim boynuma. Ona bizim zonada icazə verilmiyif. O, Qazaxda, Borçalıda geniş yayılıfdı.

Nəysə, bını – Mir Həmzə Nigarini Səfər bəy addı birisi bir dəfə az qalıf ki, gülləynən öldürsün. Bilmiyifdi, şıkqıltı gəlif. İsdiyif

---

* Çələbilər məktəbi – Cəbrayıl rayonunun Çələbilər kəndində olub. Sovet dövründə dağıdılıb.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

atsın, bının tazısı imkan vermiyif güllə atsın. Tazı tüfəngi bının əlinnən salıf. Deyif nəysə burda bir şey var. Gedif görüf Mir Həmzədi. Bir qalın kolluğa girif. Deyif:

– Burda niyə gizdənmisən?

Deyif:

– Bəs məni bı Mirrərin, Dəmirçilərin mollaları gülləyə basıflar deyənə gəlif burda gizdənmişəm.

Aparıf evinə qonax. Bir ay bını evində qonax saxlıyıf. Sora bını aparıf Dərələyəz tərəfə yaylağa. Yayı yaylaxda qalıf. Ta yaylaxdan qayıtmağa on beş gün qalmış bını özlərinnən aparıflar Vediyə. Çələbilərin o Abbasqulu bəygilnən çox qədim, böyüh yaxınnığı, dosduğu oluf. Bılar Abbasqulu bəyin babası, atasıgildə qonax qalıflar. Onu sonra aparıf Arazdan keçiriflər o taya.

## 70. SEYİD HƏSƏN AĞA

### I mətn

Vaxt oldu [atam] rəhmətə gedəndə dedi mənnən nə isdiyirsən? Dedim, sənnən bir şey isdiyəcəm. Versən, saa nə qədər qullux eləmişəm, halal eliyəcəm. Verməsən, halalıx vermiyəcəm. Kişinin ürəyi getdi. Nə vaxtdan sonra ayıldı. Özüm də peşman oldum ki, bu, can verir... [Atam] dedi ki, Allah-taladan dilək dilədim ki, maa bir az möhlət ver. Dedi, mənim bu xəsdəliynən dünyamı dəyişməyim hamısı anaan qarğışıdı. – Qoyub gedib başqa arvad almışdı səkgiz uşaxdan sora. Onun da istoriyası çoxdu. – Dedi ki, nə isdiyirsən mənnən. Qızıl filan yerdə, xrustallar, filan şeylər. – Gətirirdilər, hər şey gətirirdilər. – Qızılı get gətir.

Gətirdim. Dedi:

– Nə götürüsən, götür.

Dedim:

– Mənə lazım deyil.

Dedi:

– Yüz əlli dənə də gəvə krışadadı.

Dedim:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mənə buların heç birisi lazım dəyil.

Dedi:

– Bəs nə isdiyirsən mənnən?

Dedim ki, Hacı Mirməhəmməd ağa deyib ki, Seyid Həsən, Allah-tala sənin başınnan tökəcək var-döyləti. Onnan kiçih qardaşına deyibdi ki, sənin çoxlu arvadın olacax, elə ha işdiyəssən, ruzu-bərəkət olmuyacax. Üçüncü oğlunu da götürüb... – O da dörd yaşında imiş. Anam nağıl eliyirdi mana. – Deyibdi ki, sən cavan ikən şikəst olessən, həmi də övlad üzünə həsrət qalessən. Bir də ki, bir yerdə sığa eləmişdi babam, uşağı alıb gətirib verib bu arvada, bizim elə bil ki, qocamıza verib saxlamağa. O da iməkliyirmiş. Ona da deyibdi ki, buna seyiddih çatmır. Bu ancax öz dərmanının hesabına dolanacax. O gəldi həkim oldu. Müharibəyə getdi 41-45-də, müharibədən gəldi, yaralanmışdı. Gəldi həkim oldu.

Babam hər gün on yeddi-on səkgiz nəfər yetimnən çörək yeyirmiş, dilənçilərnən. Süfrəni aşdırırmış, yeyirmiş. Arvadı da irannı qızıdı, Suceyli kəndinnəndi. Mənim qocam* Suceyli kəndinnəndi. O vaxdı Zəngilan bazarmış, qardaşı burada dərzi işdiyirmiş, onun yanına gəlib-gedirmiş, onda görüb bəyənib.

Dedim:

– Ağan o ruzunu ki saa verib ey, o ruzu lazımdı maa.

Dedi:

– Saxlıya bilərsən?

Dedim:

– Saxlıyaram.

Dedi:

– Axı eşitmişəm ki, Rusiyetə-zada gedirsən, ora-bura gedirsən.

Dedim:

– Mən gedirəm, amma elmi işimlə əlaqədar, müdafiyə məsələsi var, Rus tarixiynən tanışlıx var. Gedirəm oların adət-ənənələrin örgənməyə.

Dedi:

---

* qoca – nənə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Onda bəri otur.

Oturdum, dua oxudu, tüpürdü ağzıma. Dedi ki, saa bircə nəsiyətim var. Dedi:

– Tamaha tit de.

Dedim:

– Nətər?

Dedi ki, məsələn birinin əlacı kəsilib, oğlu xəsdədi, bir çətinliyə düşüb saa bir inək nəzir deyib, gəvə nəzir deyib. Tez qapıb qoyma dala. Beş nəfər ağsakqal çağır gəlsin. Qiymətləndirin onu. Soruşmalısan ki, ayldə neçə nəfərsən? Məsələn, beş nəfər aylənin üzvü varsa, deməlisən ki, bir də mən qoşuluram. Nəzirin pulu, qiyməti, dəyəri nə qədərdisə, onu altı yerə bölməlisən, bir pay saa düşür. Daa tamahın güj gəlməsin ki, maa nəzir verib, hamısın özün üçün qapasan. Bunu elə, onda sənin xətir-hörmətin artıx olar.

Dedi ola bilər ki, seyidin evinə dəlisi də gəlsin, ağıllısı da gəlsin, fırıldaxçısı da gəlsin, oğrusu da gəlsin. Hər cür insan gələ bilər. Sana daxlı yoxdu. Nə əqidənin yiyəsidisə, onun Allah-tala özü cəzasın verəcəh. Sən nəfəsi sal, əli çək, denən Allah-tala, mənim əlimnən bunun şəfasın versin. Qalanı sənnih dəyil.

Dedi bir də çörəyi düşmanı ol. Çörək kəsmiyəni heş bir şey kəsə bilməz. Bir də heç vaxt özü öymə, özünnən aşağıdakı adamlara xor baxma. Nə bilirsən sənin gələcək taleyin nətər gətirə bilər, xor baxdığın insan qalxa bilər də. Heç kəs buna qarantıya vermir. Varrını bir də görürsən təpəsi üsdə buraxır aşağıya, var-döylət əlinnən çıxır. Var yığmax asandı, yemək çətindi.

Ağzıma tüpürdü, dedi:

– Get, bütün qohum-əqrəbənin də hamısının gözü səndə oleceg. Əgər sən buları eləsən, kasıb olsan da, qohum-əqrəba hamısı deyəcək ki, varrısı sənsən. El içində də hörmətin arteceg. Ha vaxt sən qəlbinnən keçirsən ki, bu şey maa lazımdı, hama gücün çatmır da, bircə dəfə sıdqı ürəknən, Allahın qarşısında qəlbı dolandırsan, o saa çatacax.

O da var məndə. Bax, birdən görürsən ki, qəpiyə güllə atıram, amma birdən gözləmədiyin yerdə Allah-tala yetirir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### II mətn

Özü maa nağıl eliyib. İranın Üşdibin kəndinnən gələndə bunu Andranikin dəstəsi tutur. Kəndin aşağısı cəvizdih idi, qoz bağı idi, Arazın qırağında. Bunu gətirib sarıyıllar ağaca. Naqanı çıxardır atır, heş birisi dəymir, açılmır. Axırıncı güllə gəlir burasınnan keçir (başının yan tərəfini göstərir – top.). O patronu saxlıyırdı özü. Orda Şeşgirtdən bir daşnak olur, o, tanıyırmış ağanı. Deyir bu, belə bir adamdı. Onnan sonra açıb buraxıllar, papağını da qoyullar başına. Ordan çıxır gəlir.

### III mətn

Öyrəli Fizulidən üç bacı gəlib. Dedi ki, bir əhvalat nağıl eliyəcəm saa. Dedim ki, de görüm Seyid Həsən ağa haqqında nə əhvalat bilirsən. Böyük bacı dedi ki, Seyid Həsən ağanı mən görmüşəm. Seyid Həsən ağaynan mənim atam möhkəm dosduydu-lar. Atam dəllək idi, adı da Kərim idi. Deyir, Kərim kişigil eşidirdi ağa gəlib Qədir kişigildə oturub söhbət eliyir, gəlirdi ora. Çoxlu adam yığışıb. Kərimnən də möhkəm dost idi. Deyir birdən söhbətin arasında Seyid Həsən ağa dedi:

– Kərim kişi, necəsən, bu saat sənin bacı ayaxyalın, başıaçıx gətirim bura?

Dedi ki, əşi, yer get işinin dalınca. Bir az zarafatlaşdılar, dedi:

– Bir onnux qızıldan mərc gəlirik.

Bular qoydular onnuğu stolun üsdünə. Ağada da qızıl çox idi.

Dedi ki, bibim birdən qalxdı ayağa, uzun da hörükləri var, hələ ərə getmiyib, ayaxyalın gəldi Qədir kişigilə. Qapıdan belə yapışdı, dedi:

– Seyid Həsən ağa, gəlmişəm.

Kərim kişi pərt oldu. Pərt olanda ağam kürəyinə vurdu, dedi:

– Kərim kişi, mən sənnən duz-çörək kəsmişəm, amma bu camaata demək isdiyirəm ki, bilin ki, mən Seyid Həsən ağayam.

O, bu, mənim bibim ərə getmədi. Elçi gəlirdi, sabah toy olasıdı, iş pozulurdu.

Elə oldu ki, mən dokquzuncu sinifdə getdim Füzulidə rus məktəbində oxudum. O qadın mənə oğul deyirdi. Dedim, axı nə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

hesabadı belə. Yaşdaşmışdı, uzun hörükləri də vardı. Dedi ki, bu əhvalatdan sora mən ərə gedə bilmirəm.

Bir gün kanikula gələndə bunu ağaya danışdım. Güldü. Dedi:

– İndi bilirsən ki, mən kiməm?

Dedim:

– Bilirəm.

Dedi:

– Gedib o qadına deyərsən ki, Seyid Həsən ağa saa icazə verir.

Onnan sora bir kişiyə ərə getdi.

**IV mətn**

Allahverdi vardı, kolxoz sədri idi. Həmməşə taxıl vaxdı, üzüm vaxdı ağanı aparırdılar. Məsələn, dolu gəlirdi, üzümü döyürdü, taxılı döyürdü. Ağanı aparırdılar, minirdi qatıra, bir əlində də duz səpirdi sahənin qırağına, oranı qətirnən dolanırdı. Həmin sahəni dolu vurmazdı. Özü də həmin sahə bol məhsul verərdi. Birinci biçimdə həmmişə ağanın payını aparardılar. İndi heylə kişilər yoxdu, ay bala.

**V mətn**

1942-ci ildə orduya aparırmışdar hamını. Mincivandan da bütün camaatı yığıblar. Deyiblər:

– Ağa, cəddə qurban olum, sən də camaatın üstündə get.

Ağa deyib:

– Bir belə kişini yığdınız apardınız. Birinci, mənim orda o şəraitim yoxdu ki, mən gedəm orda vaxtı-vaxtında ibadətimi eliyəm, yiməyimi qoruyam. Göndərirsiz gedirəm, mən bir söz demirəm. Ancax yerdə qalan qız-gəlinnərin, arvatdarın da üstündə heç olmasa bir dayax olmalıdı. Özü də ağa bir yerdə oturmazdı. Burdan vurardı, ordan çıxardı həmişə. Deyir:

– Da hökumətin buyruğudu, getməlisən.

Gəlir, obşim, dinməzcə veş-meşoğun qoyur, oturur qatarda. İki lokomotiv qoşullar. O vaxtı indiki kimi teplavozlar deyildi, kömürnən işləyən lokomotivlər idi. Birin qoşullar, tərpənmir. Gətirillər ikincisini qoşullar. Kömürdən doldurullar, pakqapak qaynıyır,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qatar hərəkətə gəlmir. Orda deyillər ki, nə əməldi, nədi? Gəlillər ağanın yanına ki, ağa, bu kəramət sənnikdi. Deyir:

– Axı mən sizə dedim.

Nəysə, dörd saatacan qatar orda dayanır. Bütün hamı yığışıb gözdüyüllər. Sora xəbər gedir çıxır düz Mircəfər Bağırova qədər ki, burda belə bir qeyri-adi hadisə bizim başımıza gəlib, qatarı göndərə bilmirik. Mircəfər Bağırov deyir ki, əgər o cəddinə arxayındısa, qoyun düşsün. Düşənnən sora qatar hərəkətə gəlir, gedir. Qatar gedənnən sora Mircəfər Bağırov bu barədə hətta bir dəfə söz arası Stalinə deyir. Stalin də deyir ki, əgər biz Stallinqradda qalib gəlsək, – həmin o dəsdə gedirmiş Stalinqrad uğrunda vuruşa, – mən özüm o ağanın ənamını göndərəcəm. Stalinqrad uğrunda müharibədə bizimkilər dönüş yaratdı ha, o dönüşdən sonra nə qədər Stalin sağ idi, onun adınnan gəlirdi. Stalin ölənnən sora da gürcülərin adınnan gələrdi. Demək, hər il generalski forma göndərirmişdilər aşırma kəmərlə birlikdə. Stalin ölənnən sora gürcülər neçə illərdi göndərdi onu. Bir də xəncər göndəriblər Stalinqrad uğrunda vuruşda qalib gəldiklərinə görə. O xəncər də ikinci oğlu Hacı ağadadı.

### VI mətn

Bu ocağın ən vacib kəraməti odur ki, ağız əyriliyi olan, ruhi xəstəliyə düçar olmuş insanları sağaldır. Özüm dəfələrlə görmüşəm ki, bu cür insanlar gəlib, sağalıblar. Mən özüm qonşuluqda qalıram. Bir gün gecə səs-küyə durdum. Bir qadın ruhi xəstə imiş, gətiriblər bu ocağa, iki gün də burda qalıb. Gecə birdən durur qaçır: “Ay amandı, qızımı öldürüllər, qaçıram”. Ağagil də qapıda durublar saxlamaq üçün. Mən də səs-küyə gəldim, gördüm arvad bularn əlinnən çıxıb gedir. Mən belə şeyi bilməzdim. Hərbidə olmuşam. Tutdum belə əlinnən (əlini arxaya qatlayan kimi göstərir – top.), bərk sıxıram, az qala biləyini sındıram, baxıb görürəm arvadın vecinə döylü, dartıb aparır məni. Dedim:

– Ağa (Seyid Həsən ağanın oğlu Seyid Əlini nəzərdə tutur – top.), bu neynir belə?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi ki, bu halda insanlar həm gücdü olurlar, həm də qıçı sınsa, qolu sınsa belə, hiss eləmirlər. Təzədən tutub gətirmişik bura gücbəlaynan. O cür xəsdələri ağa burda gözümün qabağında sağaldıb.

Oturdur, nəfəs salır, əlin çəkir. Adamlar tərliyirlər, burda yatırlar. Onların çayına dua oxuyur, nəfəs salır, qəndə dua oxuyur salır stəkana, çaynan içir. Bir neçə gün qalıb burda sağalır.

Qazaxdan bir uşax gətirmişdilər, on iki il idi ağzı əyilmişdi. Təsəvvür elə, siniri elə qartımışdı ki, onu sağaltmax mümkün olan şey döyüldü da. Onu ağa burda on iki gün müalicə elədi. On iki gün əl çəkdi, nəfəs saldı, əl çəkdi, nəfəs saldı.

Seyid Həsən ağa xəsdələri ağa kimi müalicə eləmirdi. Söhbət eliyirdi, qəfildən ağzı əyilən tərəfə tərs şapalax vururdu, deyirdi: "Get, kopoğlu. Get, ağzı bağla, üş günnən sonra gələrsən". Üş günnən sora gəlirdi, görürdük ki, sağalıb. Ancax ağa bir az müasir seyitdi, əlin çəkir. Bu, artıx Allahnan onun arasında olan kəramətdi.

**VII mətn**

Seyid Həsən ağa həm də dövrün ictimai-siyasi xadimi olub. Rusdar Azərbaycanı komendant üsulu-idarəsiynən idarə eliyirdilər. Hər bölgəyə komendant təyin edirdilər. Komendatlar da əhalini idarə eləmək üçün yerlərdə yüzbaşı seçirdilər. Bundan əlavə bir də ağsakqal seçirdilər ki, bu yüzbaşılara təsir eliyə bilsin.

Bizdə – Zəngilanda Əbdülsəməd bəy Zəngilani deyilən bir mükəmməl şəxs olub. Hətta Seyid Həsən ağanın atası Hacı Mirməhəmməd ağanın Zəngilana gəlişi də onun məktubu əsasında olub. İraqda dini mərkəz var, ora yazdığı məktubu əsasında Ordubadda missiyasını başa çatdırmış Hacı Mirməhəmməd ağa Zəngilana gəlir. Hacı Mirməhəmməd ağa dünyasını dəyişənnən sora Seyid Həsən ağa Əbdülsəməd bəylə o bölgədə hökumətin ictimai-siyasi işlərinə baxır.

1917-ci ilin payızında ermənilər Zəngilana hücum eliyiblər, camaatı töküblər Arazın qırağına. Seyid Həsən ağa üş-dörd nəfər atdıynan Naxçıvana gedib, Naxçıvanda türklərin Qarabəkir paşa deyilən bir paşası var imiş, onnan görüşüb və Əbdülsəməd bəyin məktubunu çatdırır ona, salamlarını çatdırır. Üş-dörd gün də Naxçıvanda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qalırlar. Sora Hafiz Paşanın başçılığı altında bir bölük götürüb gəlir Zəngilana. Araz qırağında Zəngilan camaatından hazırlanmış dəsdələrə qoşulullar, 1918-ci ilin mart-aprel ayında birgə əks hücuma keçirlər ermənilərə qarşı. Topxıncır meşəsi deyilən yer var, orda böyük döyüş olur. Sora Leşkər meşəsi deyilən yerdə döyüş olur və ermənilər xeyli itki verib Zəngilandan çəkilirlər.

Seyid Həsən ağanın dəstə başında ermənilərə qarşı vuruşduğunu deyə bilmərəm, amma hökumət nümayəndəsi olaraq bu işi təşkil edib, gedib Naxçıvana, orda türk qoşunnarından bir bölük alaraq gətirə bilib, Zəngilanın müdafiyəsini təşkil edə bilib.

### VIII mətn

El camaatı hamı onnan razılaşıb, məsləhətə gəlib. Evlənənnər, qan davası olannar, bir-birindən küsülü olannar – hamı Seyid Həsən ağanın yanına gəlib. Bu günün özündə də deyillər ki, Seyid Həsən ağa elə bir nər kişi idi ki, ayağını yerə vursaydı, yer paralanardı.

Daim gəzərti olub, Zəngilan, Qubadlı, Cəbrayıl, Kəlbəcərə qədər gedib çıxıb. Nəcəfqulu kişi vardı, rəhmətə getdi. Adi, sadə bir dəmiryolçu idi. Deyirdi, bizim kəntdə varrı, imkannı adamlar çox idi, amma ağa gələndə bizim ocaxda otururdu. Deyirdi ki, Allahtala qonağın ruzusunu yetirir, mənim ruzumu qoy Nəcəfqulu kişinin ocağına yetirsin. Hətta doxsan üçüncü ildə el köçəndə hamı çıxıb kəntdən, Nəcəfqulu kişi çıxmayıb. Oğlu gəlib deyib:

– Qağa, budey, bütün kənd çıxdı.

Deyib:

– Bala, məndə elə bir şey var ki, onun sahibi məni heş vaxt darda qoymaz.

Deyib:

– Axı nədi o?

Civinnən çıxardıb deyib:

– Seyid Həsən ağa axırıncı dəfə bizdən gedəndə deyib Nəcəfqulu kişi, ölüm-itim dünyasıdı, gedirəm, birdən görüşəmmərik. Pencəyin astarını cırıb, üstünə yazıb.

Bu gün də onu oğlu saxlayır. Dedim:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay qağa, başa dönüm, bunun ermәniyә dәxli yoxdu ey, topnan, tüfәynәn gәlir. Dur gedәk.

Birtәri dilә tutub atasın çıxarıb, Arazı addıyıb gәliblәr.

Ağanın bir әli alıb, bir әli verib. Biri on maat nәzir gәtirәndә onun bir maatını götürürdü, dokquz maatını paylıyırdı.

Şaban kişi danışırdı. Deyir, bir dәfә biri pul isdәdi. Ağa әl atdı cibinә, pulu qalmamışdı. Dedi:

– Ә, bu nә yaman adamdı.

Әl atdı sapoğun içinә, dedi:

– Ә, iki maat burda gizdi pulum var.

Çıxartdı oları da verdi ona. Bu qәdәr sәxavәtdi kişi olub. Danışıllar ki, bir dәfә Mincevana gәlib üzünü qırxdırmağa. Kimsә niyyәt elәmişdi ki, ağa, gәlim evdә üzünü qırxım. Deyib:

– Yox, sәn gәlmә, mәn gәlәcәm ora.

Gәlib onun dәllәkxanasına üzünü qırxdırmağa. Üzünü qırxanda o gәlib ağa, cәddә qurban olum, nә yaxşı burda üzü qırxdırırsan. Obşim beş maat ona, üş maat buna, iki maat buna, bir maat buna. Duranda deyiblәr:

– Ağa, maşallah, üzü qәşәh qırxıblar.

Deyib:

– Әlbәtdә, yaxşı olacax. Qırx maata qırxılan üz әlbәtdә yaxşı olacax.

Orda oturduğu yerdә qırx maat paylamışmış camaata. Helә könlü tox olub, gözü tox olub. Ağa heş vaxt evә pul gәtirmәzdi. Heyvan nәzir deyәndә dә deyirdi kәs burda, yarı şakqasın payla, kim başına yığılırdı, yarı şakqasın da kabab çәkdirib onnara verirdi.

**IX mәtn**

Seyid Hәsәn ağa son bir ili xәstә yatıb. Zәngilan rayonunda da üzümçülük geniş yayılmışdı. Hәmin ili Zәngilan od tutub yanırdı, çox qızmar yaymış. Üzüm dә yağış yağmasa, yerdәn nәm götürmәsә, tәlәf olur, mәhsulu yetişdirә bilmir, qora bişir. İndi dә salamatdı, Hürü xanım ispalkomun sәdri idi. Hürü xanım bir neçә nәfәri götürür gәlir Seyid Hәsәn ağanın ziyarәtinә, evә. Nazir Kәri-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mov var idi, o, özü şəxsən danışıb bizə. O dedi Hürü xanım xəbər elədi ki, yığışın, gedək Seyid Həsən ağanı həm ziyarət edək, həm də deyillər naxoşduyub, baş çəkək.

Nəysə, gəlillər. Xoş-beş. Yerdə uzanmışmış da. Hürü xanım qayıdıb deyir ki, ağa, bəs yerdə uzanmısan, bizim üzümlüklər yanır, planı doldurammıyacıyıx. Ağa heş nə demir. Əbasını atırlar üstünə yayın günü, durur yerdən. Nəvəsi Səriyyə xanıma deyir ki, – qulluğunda dururdu o, – a qızım, get ordan bir istəkan su gətir. Gedir bir istəkan su gətirir. Suya dua oxuyur, deyir:

– Get, həyətdə üzüm talvarı var, üzümün dibinə tök.

Deyir ki, mənnən diləməhdi, Allah səxavətini gösdərər, inşallah. Bir kəlmə bunu deyir. Sabah durullar, görüllər ki, duman, çiskin Zəngilanın başının üstünü alıb və narın bir yağış başdıyır. O cür qızmar havadan sonra üş gün narın yağış o qədər yağıb ki, deyiblər da bəsdi.

**X mətn**

Onun ata yurdu Ordubad olub. Ordubada tez-tez gedib-gələrmiş. Bir gün Ordubatda gəlir girir çayxanaya. Ordubad camaatı da çayxor camaatdı, çayı xoşduyur. Özü də qonaxpərvər camaatdı, mülayim rəftar eliyillər. Görüllər ki, başında papax, ayağında xrom sapox, hərbi formada bir kişi girdi içəri. Bular da hörmət əlaməti olarax deyillər ki, əmioğlu, gəl otur, çay içək. Seyid Həsən ağa bulara heş nə demir. Düz basır keçir, yuxarıda çayçı oturur, çayçının yanına. Orda iki samovar pakkapak qaynıyırmış. Yekə samovarları olur ordubadlıların, qaynıyırmış. Samovarın birin lüləyin açır, qaynar samovarın altında əlin yuyur, sora da böyründəki dəsmalı götürür əlin silir, gəlir boş stolların birində əyləşir. Deyir:

– Özüün mənə əmioğlu hesab eliyən buyursun əlin yusun, gəlsin otursun çay içək.

Duran qaçır. Durub qaçıllar hamısı. Ordubadlıların özü mənə söhbət eliyiblər ki, ağa bir dəfə gəlmişdi, bizi çayxanadan qaçax saldı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## XI mətn

Muğannı kəndində böyük oğlu ilə yanaşı ikisinin də qəbri vardı. Orda kompleks hazırramışdılar, qarşısında səkkizguşəli hovuz. Bütün camaat da gəlib orda ziyarət edirdi. 1992-ci ildə mənim iş yoldaşımın anası paralij oldu. Vidadi adında iş yoldaşım vardı, anası da Dilarə. Gejə gəldi ki, bəs anam paralij olub, bilmirəm neyniyim. Dedim tərpətmə.

Vidadi, mən, bir də anası üçümüz mənim xidməti maşınım var idi, oturdux xidməti maşına – Volqaya, gəldik Muğannıya. Muğannıda ağanın qəbrinin böyründə bankədə su tökdük yerə, onun torpağınnan yoğurub götürdük, salafanda gətirdik rayona. Mənim yoldaşım həmin arvadın sağ hissəsinə, hansı ki, paralij olmuşdu, burdan bura qədər o torpaxdan yaxdı, üsdün bürütdədi qaldı.

Gecə deyə bilmərəm, çünki gecə yanında dayanammadıx, biz gəldik. O torpax yaxmaynan arvadın sinirrəri təzədən gəldi hərəkətə.

Üsdünnən neçə il keçənnən sonra 2003-cü ildə burda oturmuşdum. Ağa (Seyid Əli – top.) da evdə yox idi, harasa xəsdə üstünə aparmışdılar. Gecə də həmin o hadisəyə bənzər qarışıx yuxu görmüşdüm. İki gəlin gəldi, baldıznan gəlin. Uşağı raxit xəsdəsi idi, gəzə bilmirdi. Birdən bu yuxunu xatırladım, dedim:

– Ay gəlin, burdan gedirih gülün dibinnən torpax götürəcəyih. Uşağın ayaxlarını bağla, torpaxdan sürt, üsdünə ya corab geydir, ya bir şey, bir müddət saxla.

Rayonda olan abidə kompleksini burda yaratmışıx, ona ordan torpax yığdım verdim, apardı. Üstünnən bir ay keçənnən sora uşax sapsağlam yeriyə-yeriyə gəlidi. Deyə bilmərəm bu torpağın kəraməti oldu, ağanın kəraməti oldu, inamın kəraməti oldu, uşax da sağaldı.

## XII mətn

Xırdalanda Seyid Həsən ağaya abidə kompleksinin qoyulması belə oldu. Uzun müddət Seyid Həsən ağa ağanın (Seyid Əlinin – top.) yuxusuna girib deyir mən camaatımızı, camaat məni tapammır. Bu vaxt Leninqratda bizneslə məşğul olan Rasim adında bir adam gəlir ağanı tapır. Deyir ki, ağa, cəddə qurban olum, Seyid Hə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sən ağa heç yuxumdan çıxmır. Deyir ki, Seyid Əliyə kömək elə, məni camaatla görüşdürsün. Bu, nə hal-qəziyyədi? Mən niyyət eləmişəm, nə deyirsən, ağaya görə eliyək. O zaman ağa fikirrəşir onu ayrı cür necə görüşdürə bilər, camaat onu özünün güman yeri sayır. Onnan sora onun ordakı abidə kompleksini burda yaradır.

**XIII mətn**

Fətişin bir dosdu var idi. Nəysə, bir gün getmişmiş bulara. Görüf ki, bının bir qızı anormal kimidi. Deyif:

– Bını gəti bizim bir Seyid Həsən ağamız var, aparax onun yanına.

Bir də gördüh ki, qızı gətdilər. Qızı gətdilər, sırfa aşdıx, qabağına çörəh qoydux, qız otudu çörəyə baxdı, sora çörəyi xırda-xırda doğradı töhdü, doğradı töhdü. Qızın atası-anası, Fətiş, bir də Fətişin arvadı Məlahət bını qoydular maşına, apardılar Akarıya*. Akarada, canım qurban olan Seyid Həsən ağa deyif ki, bı qız on beş gün qalajax mənim əvimdə, hamıız gedin. Qızı qoyuf gəlmişdilər. On beş günnən sora bir də ata-anası gəldi, Fətişnən Məlahətnən getdilər. Gedif görüllər ki, qız bılara sırfa açıf, çörəh qoyuf. Genə Seyid Həsən ağa, canım qurban, deyif ki, gedin bir də on beş günnən sora gəlin. Bir də gediflər, on beş günnən sora qayıdıf gəliflər. Görüflər ki, qız narmalnı qızdı. Həmən qız getdi ərə, həyat yoldaşı oldu, uşağı oldu, xoşbaxt yaşadı. Seyid Həsən ağa deyif ki, mən bı qızın başına əlimi çəhmişəm, tikəmi vermişəm ona, yeyif, mənim həyatimdə qulluğ eliyif, maa çay qoyuf, işdiyif. Bı qız xoşbaxt olajax.

**XIV mətn**

O tərəfdən gələn adamlar (Zəngilan, Qubadlı camaatı nəzərdə tutulur – top.) söhbət eliyir ki, bir gün müharibə vaxdı Seyid Həsən ağanı götürüflər ki, əsgərriyə aparalar. Poyuza mindirəndə poyuz getmiyif. Seyid Həsən ağa deyif ki, onsuz da məni apara bilməzsiz.

---

* Akara – Zəngilan rayonunda kənd.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nəsə, duruflar, bunu düşürdüflər yerə. Düşürdənnən sora poyuz genə getmiyif. Deyif:

– Yox, mənim orda bir qaşığım qalıf, poyuzda qaşıx qalıf, onu da gətirin, onnan sora.

Qaşığı gətirənnən sora poyuz tərpənif. Poyuz gedə-gedə təzdən mindiriflər bunu poyuza. Genə də poyuz dayanıf. Deyiflər:

– Olmaz.

Deyillər, Seyid Həsən ağa ojaxda od yananda götürüf diliynən söndürərmiş onu. Bax, belə möcüzələri oluf onun. Hamma mən görməmişəm onu.

## 71. SEYİD FÜQƏRA

### I mətn

Bir ərlə-arvat nəzir eliyif, buların gəlif bir neçə ildən sora uşağı oluf. Uşax bir yaşa çatanda ana deyif ki, aparım bu boynumdakı nəziri verim, nəzir eyləmişəm. Yoldaşı deyif ki, mən gedə bilmiyəjəm, şofer var, su daşıyır Yevlağa, ona deyim, onnan getginən. Dörtyolda düş, dörtyoldan o yana maşına min, getginən. Dörtyolda qadın düşüf. Yağışdı gün imiş. Taksi gəlif saxlıyıf, içində də iki nəfər var imiş. Baxıllar ki, gəlinin barmağı, boynu hamısı qızıldı. Deyir:

– Bunu götürəh aparax, yolda soyax. Qadındı da, bizə neyniyəjəh.

Bunu bu minvalnan götürüf aparıflar. Yolun qırağında saxlıyıflar, gəlinə deyiflər düş. Gəlin düşüf. Deyiflər, barmağında nə varsa, hamısını aç, tök, yoxsa öldürəjeyih. Bu da deyif:

– A bədbaxt oğlu, bədbaxt, bular hamısı Füqəranın naziridi, aparram verəm.

Deyir:

– Mən Füqəra-zad tanımıram.

Deyilənə görə, yağış yağıf, ortada göl əmələ gəlif. Bular o üzdə duruf, gəlin bəri üzdə duruf. Gəlini məjbur edillər ki, aç. Bu göldən ilan qalxıf bulara doğru. Bular özünü zornan salıf maşına. Qaçıflar ki, bəs ilan bizi vurdu. Gəlin çıxıf yola. Yolnan düz gedif



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Füqaranın qapısına. Ziyarət eliyir, öpür əlinnən, ayağınnan. Seyid deyif ki buna, səni yolda incidirdilər ha, sənə kömək göndərmişdim, gəldi?

Deyir:

– Gəldi, baba.

Deyir:

– Məə agah oldu, o saat sənə burdan kömək göndərdim.

**II mətn**

Füqəra Seyid bir şoferə deyif ki, gəl məni apar Güllücəyə*. Ordan, nəysə, gəlifdi Güllücəyə. Körpüün altında maşın düşürüf, Yevlağa gedirmiş. Ordan da bir dənə maşına oturuf, deyif ki, məni apar kəndə.

Deyif:

– Maa bəs iyirmi beş maat pul verəssən.

Bu oturuf maşına, bir az getmiş maşın dayanıf. Nə qədər eliyif, xoddanmır. Füqəra Seyid hasa əlində düşüfdü yerə. Əlini vuruf maşına, deyif:

– Ay Allahın dəmiri, yeri get. Ə, gəl otur dalda.

Gəlif dalda oturuf. Bunu aparıf kəndə düşürüf geri qayıdır. Başına gələnnəri adamlara danışır. Deyir ki, yolda əli hasalı bir kişi vardı, buxara papax başında. Beləsinə gedəndə maa dedi məni apar. Mən də pul isdədim. Gedəndə, deyir, maşın nıx dirəndi. Mən də düşdüm maşının orasına baxdım, burasına baxdım. Kişi düşdü, dedi:

– Ay Allahın dəmiri, yeri.

Maa dedi gəl otur dalda, sür, xodda. Xoddadım, deyir, apardım onu qoydum, gəldim. Camaat deer:

– Ə, Füqəra Seyitdi.

Təzədən ordan qayıdıf geri, yalvarıf-yapışıf seyidə:

– Sənin cəddəə qurban olum, tanımamışam. Bağışdaginən məni.

Ağa onun belinə əlini çəkif deyif:

– Get, bala.

---

* Güllücə – Ağdam rayonunda kənd



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### III mətn

Güllücədə Seyid Füqəranın babasının qəbri var. Hamı ora ziyarətə gedir, qurbannar kəsir, deyilən niyyətdər qəbul olur. Hər cuma axşamı gedərsən ki, nöbədən mümkün döyül. Füqəra yeyəndə doymax bilməzdi. Elə yedihcə yeyərdi. Biri bir dəfə gəlirmiş, görür ki, gəlif nəziri yığan yoxdu. Camaat da çoxlu nəzir qoyufdu. Camaat çıxanda bu gedir ki, nəziri yığa, ilan hər tərəfdən gəlir qoymur ki, bu içəri girə, nəziri götürə. Orda gözdüyür də, gələ Füqəra özü götürə. O, nə pul sayı bilirdi, nə də pulu tanıyırdı. Elə bilirdi ki, puldu da, amma neçə maat olduğunu bilmirdi.

### IV mətn

Füqəra Seyid yegisini bilməzdi. Ölçüsünü, çəkisini bilməzdi. Deməli, qızdarı onun qabağına yeməh qoyanda təyin eliyirdilər ki, bu qədər yeməh atamıza bəs eliyər da. Yeməh qutaranda o genə əlini qaba gəzdirərdi ki, görüm genə varmı yeməh. O, dilənçi seyitdərdən deyildi. Onda deyirdilər ki, ağa, yemisən ey. Deyir:

– Hə. Onda su gətirin əlimi yuyum.

Əlini yuyurdu. Daa genə verin, doymamışam sözü olmazdı. Ağır adam idi.

Füqəra Seyid dilənçi deyildi, gəzməyə çıxan deyildi.

Qarabağda çox qüvvətdi oluf aşura. Zincir döyüllər, sinə vurullar, şaxsey-vaxsey deyillər, baş çərtillər. Niyyətdi ey o hamısı. Məsələn, prakrorun arvadı, mən tanıyıram, niyyət tutuf gəlif dilənirdi. Onun heş nəyə ehtiyacı yoxdu. Amma niyyət edir ki, mənim işim düzəlsin, gedif dilənəjəm. Yaxud birinin uşağı olmur, niyyət edir ki, uşağım olsun, aşura günü aparıf başını çərtdirəjəm.

Aşura günnəri qızdarı onu aparırdılar meçidə. Meçitdən üş yüz metr aralı saxlıyırdılar onu. Saxlıyırdılar ki, yol bağlanmasın. O qədər məsafədə genə onun, az olanda, nöbəsində 400-500 adam dururdu ki, onu ziyarət eləsin. Belinin sarığını xırda-xırda cırırdılar. Özü yox ey. Özü dururdu, əynində çuxası, çuxanın cibləri. Gətirif nəzirin verillər, üş dəfə başına döörə vurullar, ağacınnan, əlinnən, ayağınnan öpüllər. Deyillər:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ağa, vur məni.

O da ağacını qaldırırdı, belə yavaşcana ucuynan vururdu ki, get. O, pul tanımırdı. Deməli, burdan pulu tökürdülər, qaraçılar gəlirdilər, bu əlini salırdı cibinə, ordan nə çıxsa, verir ona. Bir tərəfdən pul tökülür cibinə, bir tərəfdən də özü paylıyır. Bunun belə tərəfi də oluf.

Bir gün Füqəra Seyid yolun qırağında durmuşmuş. Şofer gəlif keçir. Elə bəzəhli-düzəhli gəzən döyüldü. Seyitdər nətər gəzirsə, qalın geyimli, papaxlı, filan, çuxa-muxa. Hər şey qaydasında. Şofer baxır, tanımır bunu, keçif gedir. Keçif gedir, götürmür bunu. Bir xeylax gedənnən sora bir ayrısı gəlir. Görür Füqəra Seyitdi, duruf yolun qırağında. – İndi onun şəklini satıllar ey, razı olmuram. Şəkil satmağa din icazə vermir. Handa ki seyidin şəklini satasan. Şəklini alınca get ziyarət elə. – İkinci maşın gələndə şofer görər ki, Füqəra Seyid yolun qırağında duruf. O saat maşını saxlıyır. Tutur qolunnan:

– Seyid, başaa dönüm, qurbanın olum, gedəcəh yerin var?

İşarə eliyər ki, hə. Gətirir oturdur maşına. Deməh, hara gedirsə, bilməlidi, qaytarıf gətirif evinə qoymalıdı ey. Daa aparıf bunu harasa tulla, çıx get, mümkün döyül. Deməli, iki-üş kilometr gedir, görür ki, qabaxda maşın duruf. Tanıyır da kim olduğunu. Soruşur:

– Ə, niyə durmusan?

Deyir:

– Ə, səni, gəldiyim yerdəcə maşın dayandı. Baxıram, benzini, suyu, hər şeyi qaydasındadı. Di gəl xodduyuram, maşın yerinnən tərpənmir. Mən gəlif keçəndə bu kişi də durmuşdu hələ orda.

Dedi:

– Sənin Allah günahlarınnan keşsin, a bala. Sən nə pis iş görmüsən? Ə, düş, düş gəl kişinin ayaxlarını qujaxla, kişini ziyarət elə.

Qapını açır, kişinin ayaxlarını qujaxlıyır. Deyir:

– Füqəra Seyitdi ey, Allah sənin başaa daş salmasın. Sən nə pis iş görmüsən? Bunu qoyuf getmək olar? Onda gedər maşın?

Yalvarır:

– Bağışda məni, bilməmişəm, tanımamışam.

Deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Allah günahlarınnan keşsin, mən keşdim, aralı dur.

Heş düşmüyüf maşınnan. Çəliyi uzadıf belə, təkərinnən vuruf deyir:

– Get, get, seyid icazə verir, get.

Sora maşını xodduyuf çıxıf gedif. Belə möcüzələri çoxdu.

## 72. HƏMZƏ BULAĞI

Həmzə oluf Laçının Cijimli kəndinnən, Nigar da Bərdənin Qarağajı kəndinnən. Nigarın atasıynan Həmzənin atası dosd oluf, savatdı oluf. Həmzəni göndərif burda təhsil alsın. Burda Allah tərəfinnən bular bir-birinə aşiq oluflar. Bu oğlan da dağ vaxdı gənə bu əfəndinin yanında oluf. Bu bulağın ətrafı dərin meşədi. Hələ bulax yoxdu. Qız gəlif bura morux, qarağat yığmağa. Deməh, bu oğlannar deer ki, Laçınnan bir gedə gəlsin, Nigar kimi bir qıza vurulsun? Gərək bunun bu dərədə başını-gözünü əzəh, çıxıf getsin. Nəysə, bular bunu izdiyillər. Gedillər. Bular bu çaydan addıyanda oyza Həmzə qızın-gəlinin əlinnən tutur. Nigara gələndə ağaş qırır, əli ağaşda buynan keçirir Nigarı. Onnan sora deyillər ki, yox, bu təmiz adamdı, bu Allah adamıdı, buna toxunmağ olmaz.

Bu, burda yaşamaxda olsun. Nigar baxar ki, Allah şeyxidi. Deyir ki, olarmı sən üz döndərəsən Allaha, – bu qız-gəlin gedir o dərədən su gətirir, – elə burdan su çıxsın, sənin adına olsun. Allahın hökmüynən Həmzə Allaha qarşı üz çöndərdiyinə görə ordan bulax çıxır.

İndi mən sizə bu bulağın taleyini danışım. Bulax nətəri bulaxdı? Bulağa Azərbaycan əhalisinin hamısı gedir ziyarətə. Bulağın möcüzəsi onnan ibarətdi ki, suyu putulkaya götürərsən, beş gün qalar, bir ay qalar. On ilnən bu su qalır. Bu bulağın tarixini bilən qonaxlarım oluf, olar məə deyiflər ki, bu su zəm-zəm suyu kimidi. Məsələn, sən bunnan da götür, onnan da, bu su safdır. Ən çox Gürcüsdannan gəlillər. Nigarın qəbri Qara Pirimdədi. Həmzə isə o vaxdı Sovet hökuməti gələndə gedif Türkiyədə qalıf. Möcüzəsinə görə burdan isdiyiflər, vermiyiflər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 73. DAĞYUNUS

### I mətn

Qurt qırır Dağyanusun qoyunnarını. Onun yeddi dənə çobanı olur. Özüm gedif ziyarət eləmişəm oranı. Baxır ki, qurt qoyunu qırdı. Dağyanus addı zülümkar bir padşah olur. Bilir ki, buları öldürəjəh da. Bular qaçır. Gedif bir kahaya baxıllar ki, bu kahaya girsələr, Dağyanusun adamları buları tuta bilməz. Bular girir bura. Onunçün deyillər hörümçəyi öldürməh günahdı. Hörümçəh elə bir tor çəkir ki, kahanın ağzına... Xitmir adında it də olur. Bular qaçanda it də düşüf buların dalıncan. Rəvayətin dediyinə görə, çönüf deyillər, sən hara gəlirsən? Deyir ki, mən də qorxuram Dağyanusdan. Dağyanusun adamları axdarır buları, tapmır. Bu minvalnan bular üş yüz il yatıllar bu kahada. Üş yüz ildən sora bular ayılıllar. Deyillər:

– Axşamnan nətər yatmışıxsa, gün günorta oluf indi ayılırıx.

Elə bilillər bir gejə yatıflar. Birinə deyif ki, dur get çörəh al gətir. Gedir çörəh almağa. Pulu verəndə tükançı deyir:

– Ə, bu üş yüz il bunnan qabax dünyaya gəlmiş Dağyanusun puludu.

Qayıdıf gəlir. Deyir:

– Xudavəndi-aləm, bizim sirrimizi gizdət.

Buların yeddisi də əlini göyə tutuf yalvarır. Yeddisi də olur daş, it də olur daş. İtin qulağına adı yazılıf. Gedirsən ora ziyarət eliyirsən. Qırx pilləkəndi. Qırx pilləkəni çıxırsan yuxarı. Əgər bir niyyətin varsa, bir dənə ağ salır belə. Niyyətin tutur, göydə bulud yoxdusa da, ora bir damcı düşür, əgər niyyətin hasil olsa. Nəzirrər qoymuşdular, dört manat, bir üşdüh, bir təklih qoymuşdular ora. Dedilər ki, əl atıf bunu götürsən dağda gurultu əmələ gələr. Onu da mən eşitdim. Əlimi atdım pulu götürəndə nətər gurultu qopdusa, ətim ürpəşdi, pulu qoydum yerinə.

### II mətn

Dağyunusa mən getmişəm, Əshabi-kafa, ojağa. Dağyunus əzazil bir adam oluf. Deməh, bılar nətər olufsa, üş nəfər adam qaçır



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dağyunusun əlinnən Əshabi-kafa. İlan dağının qabağındadı. Bı adamlar qaçanda bir çoban görür kü, üş dənə adam qaçır. Çoban da qoyunu buraxır, qoşulur bı adamlara. Oluflar dört. Çobanın iti varmış, it də qoşuluf bılara. Deyiflər ki, bı it bizim yerimizi bildirəjəh. Çoban vırıf iti öldürüf. Bı iti aparıf Əshabi-kafın qabağında böyüh bir qəbirsdannıx var, orda dəfn eliyiflər. O adamlar Dağyunusdan qaçıflar. O adamların dördü də dağ yarılıf, giriflər içinə. Sohra o dörd adam, – qəlbidə bir kaha var, – dağnan hərrəniflər, qayba çəkiliflər. Bir rəvayətin dediyinə görə, adamlar orda dört yüz il qalıflar. Dört yüz ildən sohra bı adamlar dirilif, can verif, dirilif. Elə biliflər ki, yatıflar, indi oyanıllar. Adamlardan birinə, yoldaşdarınnan birinə Dağyunusun pulunnan verillər ki, get şəhərdən çörəh al. Dördümüz də gedərih, bilələr, bizi tutallar.

Nəysə, gedir bulardan biri şəhərə, çörəh alır. Çıxardır civinnən pul verir. Pulu verəndə buna gülüşüllər. Deyir:

– Nəyə gülürsüz?

Deyir:

– Ə, bu Dağyunusun puludu e!

Deyir:

– Ə, nə danışırsan? Mən axşam yatmışam, səhər də duruf gəlmişəm ki, çörəh alam.

Deyir:

– Yox, bu Dağyunusun puludu.

Deyir:

– Bəs onda nə vaxt, nejə oluf bu?

Deyif:

– Bu Dağyunus neçə yüz il bınnan qabax gedif, bı da onun puludu.

Deyif:

– Mənim yoldaşdarım var, filan yerdədi.

Nəysə, camaat bının yanına gəlir ki, görələr bı yalan deyir, yoxsa gerçəh deyir. Bı deyir ki, bilirsiz nə var? Sizi mənim yoldaşdarım görsələr, qorxajaxlar. Siz oturun bırda, mən gedim yoldaşdarıma deyim ki, bəs biz neçə ildi yatmışıx, dört yüz il bınnan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qabax. Bu gəlir yoldaşdarına deyir ki, əviiz tikilsin, nə danışırsıız? Axşam yatmışıx, səhər durmuşux nədi? Biz dört yüz ildi burdayıx. Yoldaşdarıynan birlikdə üz tutullar Allahın dərgahına, deyillər ki, Allah, heş bizi pis, naməhrəm insannara gösdərmə. Rəvayətin dediyinə görə, olar orda qeybə çəkiliflər.

## 74. QARA PİRİM

Şah oğlu Şah Abbas gəlir şah bulağına. Deyif, gedin orda Qara Pirim deyilən ölüya var. Əgər helədisə, onnan işiiz yoxdu, yox, əgər yalandısa, onu qaratikanda yandırajam. Qara Pirimə ayan olur da. Bir şələ qaratikanı vurur yavaya, düşür yola. Bu dört-beş kilometr gedənnən sora atdılarnan rastdaşır. Bunnan soruşullar:

– Dayı, hara gedirsən?

Deyir:

– Kannan gəlif məkana gedirəm.

Deyir:

– Orda bir kişi var, belə adda, tanıyırsan?

Deyir:

– Tanı, mənəm, bil, mənəm.

Bular başa düşmür bu nə deməhdi. Bular yola düşüf gedillər. Şah Abbasa deyiflər ki, sizi gözdüyən var. Deyif:

– Gəlsin.

Deyif:

– Sən kimsən?

Deyir:

– Qara Pirim deyilən kişi mənəm, gəlmişəm.

– Mən sənin dalınca atdı göndərdim.

Deyir:

– Hə, qabağımnan keşdi getdi.

Şah Abbas deyir:

– Eşitmişəm sən bilənsən da, ölüyasan, qüdrət sahibisən.

Gətirir bir dənə inək, qırmızı inək. İnək də boğaz imiş. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Deyə bilərsənmi bu inəyin balası nə rəngdədi, erkəhdi, dişidi, nətərdi?

Deyir:

– Qabaxca sən de, şıx oğlusan da, sora mən deyərəm.

Şah Abbas deyir ki, inəyin balası erkəhdi, özü də başında təpəli var. Qara Pirim gülüf. Deyir:

– Düzdü, erkəhliyinə erkəhdi, rəngi də qırmızı, amma təpəl döylü. Quyruğuun ucudu, gəlif duruf alnında, səə elə gəlir.

Şah Abbas buna qəzəflənif. İnəyin başını kəsif qarnın yarıllar ki, həqiqətən də, balanın quyruğu ağdı, amma təpəl döylü. Yəni heylə güjdü ölüya oluf.

## 75. SEYİD YƏHYA

### I mətn

Quduz it dalıyanı onun yanına aparırdılar. Uşağa deyir ki, iynəni gətirin. Gətirillər iynəni. Barmağına sancırdı iynəni, qan çıxırdı. O qanı quduz it dalıyan insana çəkirdi.

Deyirdi:

– Get, heş-zad olmaz.

O, bizim kətçi oluf, özü də qüvvətdi seyid oluf. Sovet hökuməti gələndə bu köçüf gəlif Bərdəyə. Qorxuf da, yerini dəyişif ki, tanıyan olmasın. Bunnan əlaqədar olarax Bərdədə yaşıyıf. Amma kəndə gəlirdi da. Qohumları hamısı kəntdə idi.

Şəxsən onun bir atını oğurradılar. Atı gəzmədi. Seyid Bərdədə olanda oğurruyuflar. Bir nəfər buna deyifdi ki, Seyid, deyillər atın oğurranıf? Deyir:

– Yox, seyidin atını oğurramazdar. Yəqin kimsə ehtiyacı olufdu aparıfdı.

– Bəs Seyid, nətəri aparıf, heş gətirmir.

Deyir:

– Gətirəjək, mındar heyvandı, yeməli deyil ha. Gətirəjəh. Yəqin işi-zadı var da.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

O at aparanın başına hava gəlir. Cavan oğlan idi. Onu o yer olmur müalicəyə aparmasınnar. Sora baxıcıya baxdırıllar. Baxıcı deyər ki, bu, nəysə Seyidin malına toxunuf. Tapın Seyidi, özünü aparın onun yanına ziyarət eləsin. Ziyarətə gedir. Həyətə girəndə bir on metr getmiş artıq bu sərbəst olur. Ayılıf atasını, anasını tanıyır. Gəlif ziyarət eliyənnən sora yalvarıf-yaxarıf, bəs günahlarımnan кeç.

Deyif:

– Hə, yaxşı, keçirəm.

Öləndə vəsi eləmişdi ki, məni aparın öz camaatımın içində dəfn eliyin, üsdümə də daş qoymuyun. Qəbrimi də qorumuyun, itsin batsın. Deyiflər, olmaz axı. Heyvan-zad gəlif keçir qəbirsdannığın içinnən. Onda demişdi ki, hasar çəkin, balaca qapı qoyun. Heylə də elədilər.

**II mətn**

Yəhya babanın atını oğurruyuflar. Seyid məllim deyif ki, baba, bilmirsən, sənin atını kim aparıf?

Deyif:

– Bilirəm.

– Gedif gətirim?

Deyif:

– Bala, getməh lazım döyül. Deyərsən, gətirər, gətirər, gətirməzsə, onun sağ gözü bədəninə baxajaxdı.

Bu gedif deyir. Aradan bir az keçir, bunu (at oğrusunu – top.) tutullar. Tutullar, gedir türməyə. Aradan bir neçə il keşmişdi. Mən traktorda işdiyirdim, əlli beşdən qabax. Getmişdim evə. Mənnən böyüh qardaşım vardı. Dedim:

– Qardaş, yuxarı məhlədə kimin dəvəsi var ki?

Deyir:

– Dəvə döyül ey o. Səlimi tanıyırsan? Türmədə dəli oluf, gətirif tulluyuflar evinə.

Dediyi günə düşdü. Onnan sora öldü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 76. SEYİD ƏMRAH

Seyid Əmirah olur, onun ojağında maral da gəlif sağılırmış. Çox sınaxlı bir ojax oluf. Sora o kişinin gözdəri tutulur. Bunun gəlini varmış. Gəlin qatığ eliyif yığıntı çalxıyır*. Kişinin də gözdəri görmürmüş. Oğlu meşəyə gedir alaçıx çubuğu kəsməyə. Deyir:

– Ay gəlin, bəridən quymağ iyi gəlir.

Qızdar quymax bişirir. Yağı töküf quymax bişirir. Deyir:

– A kişi, quymax nədi?

Kişinin də gözdəri görmür axı. Daa fikirrəşmir ki, zalım qızı, bu ojaxdı. Bunnan niyə saxlıyırsan? Quymax bişirirsən, buna da ver. Gətirir kişinin qabağına qatıx-çörəh qoyanda kişi çörəyi yemir, ayana itəliyir. İlahi nətər eliyirsə, həmin dəyqə kişinin gözdəri açılır. Oğlu gəlir ki, atasının gözdəri açılıb. Oğlu gətirdiyi çubuğu düşürür, fikirrəşir ki, səhər gedib yenə gətirsin. Deyir:

– Ay oğul, narahat olma, səhər getmiyəssən.

Deyir:

– Ata, niyə?

Deyir:

– Yox, səhər getmiyəssən. Getsən də, qayıdajaxsan.

Atasının sözünə baxmır, səhər cütü yüklüyür. Bu vaxt hay düşür ki, gəlin öldü. Dedi:

– Ay oğul, sənə demədim getmə.

## 77. ŞIX ƏHMƏD BABA

Bizim kəntdə (Laçın rayonunun Lolabarı kəndi – top.) bir kişi var idi. Mənim yaşımnan yenə qabax oluf. Şıx Əhməd kişi deyillərmiş. Çox alicənab adammış. Çox camaat adamı imiş. Özü də şıx imiş. Nə deyirmişsə, düz olurmuş. Bu kəndin camaatının hamısı, qonşu kəntdərin hamısı ona inanırmışdar. Dediyi də düz olurmuş. Yayın yaylığında çıxırmış dağın başına, buna inanmıyan adamlar görür-

---

* yığıntı çalxalamaq – nehrə çalxalamaq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

müş ayağında qar gəlir. Elə bir dağ imiş, kətdən görükən yer imiş da, qar-zad yox imiş. Çıxırmış ora, enirmiş, buna inanmıyan adamlar görürmüşdər ayağı yarıya qədər qardı. Sora ona inanırmışdar. O kişi çox alicənab adam imiş. Bizim camaatımızın hamısı onu yaxşı kişi kimi tanıyırdılar. Xəncəri ağzı üsdə qoyarmış, çıxıf onun üsdündə ayağı yalın oynarmış camaatın gözü qabağında. Xəncər onun ayağını kəsməzmiş. Heylə Allah adamı idi. Onun uşaxlarına, nəvələrinə, nəticələrinə də kim toxunsa, ziyanını çəkər. Hə, heylə bir adammış o kişi. Dağın başında onun piri var idi. O kişi qışda da ora çıxırdı. Halbuki qışda ora çıxmax mümkün döyüldü. Amma qış olsun, yay olsun, elə gün olmurdu ki, o kişi üş dəfə ora çıxıf enmiyə. Biz gedirdih onun pirinə. Heyvan-zad aparıf kəsirdih. Mən özüm də getmişəm ora. Düzdü, yaxınnığında su-zad yox idi. Amma yerin özü yaxşı yer idi. Elə həqiqətən pirə oxşuyan yer idi. Dağın başında qəbir var. Bəlkə də onun özünün qəbri imiş, amma mən eşitməmişəm.

## 78. ƏLİ BULAĞI

Söyüd ağacı var imiş. Onu yerə taxıf, atını bağlıyıf, çıxıf o qayanı çapıf. İndi Əli bulağı deyirih ey. Ora ziyarətə gedirih. Bu boyda qaya uçuf, qaya uçanda yerə düşməsin deyə əlini verif qabağa. O boyda daşı Əli saxlıyıf əliynən. Əlinin də pəncələri, barmaxları ordadı. Qayıdıf ordan çıxıf, o suynan dəsdəmaz alıf. Çapıf qoyduğu qayanın da başı düzəngahdı. Onun iki dizdərinin də yeri, əllərinin, barmaxlarının da yeri, alnının da yeri, namaz qıldığı yer də ordadı. Həmişə qara örtühlü gedirih, namaz qılırıx, nəzir deyirih. Fətir bişir apar, xörək bişir apar, nə bilim, qənd al, peçenye al, bir sumkanı dolduruf onu orda özümüznən hərriyirih, ordan qaytarıf paylıya-paylıya gəlif çıxırdıx öyümüzün içinə.

## 79. MAZAN NƏNƏ

### I mətn

Pir Stansiya Xələfli kəndindən təxminən 4-5 kilometr aralıda dağın zirvəsinə gedən yolda, ən sonuncu dərədə yerləşir. Pir adam



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

boyundan yuxarı dairəvi şəkildə dağ daşları ilə hasara alınmış, qapı da qoyulmuşdur. İçəridə isə Mazan nənə basdırılmışdır. Bu pirə, adətən, erkək qoyun, dana, xoruz və s. heyvanlar qurban deyilir. Pirə əvvəlcə gərək çöldən, saat istiqamətində üç dəfə fırlandıqdan sonra daxil olasan. İçəridə məzarın ətrafına üç dəfə dövrə vurursan. Bu zaman pirin daşlarından öpülür, müəyyən niyyətlər deyilir, nəzirlər qoyulur. Əvvəlcə gələnlər tərəfindən qoyulan nəzirlər götürülür. Əgər çörəh götürülürsə, evə gətirilir və bütün ailə üzvüləri həmin çörəhdən bir tikə kəsib yeyirlər. Pirə gətirilən qurbanı da çöl tərəfdən pirin ətrafına fırladırsan. Bu pir ərazidə məşhur olduğu üçün yaxın-uzaq yerlərdən bura ziyarətgaha gələnlər çox olub.

### II mətn

Deyillər bir qadın oluf, gedif kündə eliyif. Paltar qazanı qoyuf ki, paltar yuya, çörəh sala. Sürfəni açıf, kündəni eliyif yığıf ora, qayıdıf çörəh salıf. Deyiflər:

– Evin yıxılmasın, – Mazan nənədi adı, – bilirsən, qənimlər gəlif çıxıflar.

Orda deyif:

– Allah, özün bilən yaxşıdı, mən neyniyə bilərəm.

Orda Allah Mazan nənəni qayba çəkir. Amba kündələri də daş oluf, oxlavı da, dörd ayağı da, sajı da.

Vayennilər gəlirmiş axşam vaxdı, onun nəyi var yığıf aparıllar tökülllər Araza ki, bura gəlif yığıncax eləməsinnər. Səhər gəlif görülləmiş kündə də yerindədi, saj da, oxlav da – hamısı yerbəyerindədi.

Hajı Qaraman özü deyif ki, mənim övladım ora ziyarata gedə bilər, amma ayrı yerə icaza vermirəm gedə. Hajı Qaraman babam deyirmiş ki, o qadın kəsik* qadın olduğuna görə, hər cuma mən gedirəm onun görüşünə. O da bizim sinif kimi nəcabət yiyəsidi.

Onun bir dənə kündəsin götürən olufdu. Qayıdan baş qayadan uçufdu.

---

* kəsik - züryətsiz



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 80. AŞIQ QURBANİ PİRİ

### I mətn

Stansiya Xələfli kəndi Cəbrayıl rayonunun mərkəzindən 48 kilometr aralı, Araz çayının sol sahilində, İranla sərhəddə yerləşir. El arasında bu kəndə Diri dağı deyirlər. Çünki bu kənd Diri dağın ətəyində yerləşir. Aşıq Qurbani piri kənddən təxminən iki kilometr aralıda, şosse yolunun kənarında, dağın döşündəki təpədə yerləşir. Pirin adı Qurbanlı piridir. Qəbirstanlığın ucunda yerləşir. Böyründə iki-üç kiçik qarağac var.

Rəvayətə görə, bu pir Aşıq Qurbaninin adı ilə bağlıdır. Aşıq Qurbani gəncəli Ziyad xanın qızı Pəri xanımı alıb geri qayıdarkən indi pir olan yerdə yatıb. Bu vaxt bir ilan onu yatdığı yerdə vurub. Aşıq Qurbani ölür, orda da basdırırlar. Qurbani haqq aşığı olduğu üçün onun məzarı ziyarətgaha çevrilir. Pirə, adətən, qoç, dana, xoruz qurban deyilir. Pirə ziyarətə gedərkən əvvəlcə (qeyd edim ki, bu pir çay daşlarından dairəvi şəkildə təxminən qırx santımetr hündürlüyündə hasarla əhatə olunub) çöl tərəfdən saat istiqamətində üç dəfə fırlanırsan, fırlanan vaxt müəyyən istək deyilir, pirin daşlarından öpülür. Üç dəfə fırlandıqdan sonra pirin içərisinə daxil olursan. İçəridəki məzarın başına üç dəfə dövrə vurursan. Məzarı fırlanan vaxt pirə müəyyən nəzirlər qoyulur. Səndən əvvəl ora kimsə nəzir qoyubsa, onu götürmək də olar, götürməmək də. Adətən, götürülür. Pirdən götürülən şey müqəddəs tutulur. Pirdən götürülən nəzir daim evdə saxlanılarsa, o evdən xeyir-bərəkət əskik olmaz. Pirə gətirilən qurbanı pirdə kəsmək daha məqbul hesab olunur. Ziyarəti başa vurub pirdən çıxarkən, gərək üzü pirə tərəf çıxasan. Bu pirin arxa tərəfində, lap pirin yaxınnığında bir dağdağan ağacı var. Ziyarətdən sonra o ağaca parça bağlanılır.

### II mətn

Bala, o Mazan nənə Qurbannı kəndində oluf. Onun yiyəsi Fərəməz xan oluf. Qurbani də onun oğlu oluf. Bu fakdı ha, yalan dəyil. Birincisi, o Mazan nənənin ətrafında, Şəfliyə tərəf çoxlu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bişmiş kərpiş var. Bir də bir böyüh qəbirsdannıx da var. Qəbirisdannıxda çoxlu müxtəlif baş daşdarı var. Elələri var, heş yazısı yoxuydu. Elələri də varıydı ki, üsdündə yazısı varıydı. Orda bir də bir qəbir varıydı. Yumru, gödəh, yarım metrə qədər baş daşı varıydı. Qabaxlar orda incir ağaşdarı çoxuydu. Bir otuz-qırx dənə olardı. Bir də çoxlu çinar varıydı.

Rəvayətə görə, bir gün bı Qurbani kəndin cavannarıynan gedif gəzməyə. Gejə qayıtmıyıf. Özü də onun adı Qurbani dəyil ha, o kəndin adına görə heylə götürüf. Bılar yalan dəyil ha, fakdı. Bını axtarıflar, gejəni tapmıyıflar. Səhər bını qoyun aparan çobannar o Mazan nənənin başının üsdəki dağdan tapıflar. Görüflər ki, yatıfdı, ağzınnan, burnunnan köpüh axır, su axır. Yığışıflar, baxıflar. O bilənnər gəlif deyif ki, bına vergi verilifdi. Bı hakk aşığı olufdu. İndi orda, bına vergi verilən yerdə bir pir var. Ona buta verilən yerdi ora. Bu birisində isə onu basdırıflar, ora da ona görə pirdi.

Həmən Qurbannı kəndini nətər olufsa, ilan bürüyür. Kəndi ilan elə bürüyür kü, kənd köçür, addıyır o biri taya (Cənubi Azərbaycan nəzərdə tutulur – top.). İndi də o tərəfdə Qurbannı kəndi var. İlan sohra çəkilif gedir. Sohra bir neçə nəfər qayıdıf gəlir. Amma tay Mazan nənədə yox, bir az aşağıda Xudayarrı qışdağında yaşıyıllar.

### 81. SEYİD ƏLİ

Bir günnəri Sovet hakimiyəti vaxdında bunu çağırıflar ki, sən camaatı çaş-baş salmaginən. O vaxdı allahsızdıx vaxdı idi. Buna deyiflər ki, camaatı niyə çaş-baş salırsan? Sənin nə möcüzən ola bilər? Sovet hökumətinin möcüzəsi budu ki, insannar aya, kosmosa qalxır. Bəs sənin möcüzən nədi? Deyif ki, mənim möcüzəm onnan da qüvvətdidi. Seyid Əli deyir belə. Deyillər:

– Nətər?

Deyir:

– Gəlin bəri.

Bular çıxıllar binadan çölə. Qapıdan çıxanda Seyid Əli KQB-nin adamına deyir ki, görürsən aralıdan iki nəfər gəlir? Baxır ki,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

aralıdan iki nəfər qadın xeylağı gəlir. Nəysə, olar yavaş-yavaş gələndə deyir ki, indi gör mən onların başına nə oyun açacam. Deyir:

– Yaxşı.

Bu Seyid Əli İranda təhsil alıfdı, çox möcüzəli bir seyitdi, həqiqətən, cəddinə qurban olum. Burda nətər bir şey oxuyursa, bu qadınnar paltarrarını qaldırır, guya ki sel gəlir, seldən addıyıllar. Baxıllar ki, su-zad yoxdu, ancax bu qadınnar elə bil sudan keçillər. Bular buna deyir ki, Əli kişi dayan, dayan. Qadınnar gəlib keçəndə bular deyir ki, a bacı, nəydi o? Qadınnar da deyir ki, sel gəldi, az qala bizi aparırdı. Buna bax ey, bura qup-qurudu.

Deyiflər:

– A kişi, sənnən işimiz yoxdu, səninki səndə, bizimki bizdə.

## 82. QARQIŞLAQ PİRİ*

Qarqışdax piri indiyətən iki dəfə dağılmışmış. Bu da üçüncü dəfə oldu, üçüncü dəfə dağıldı. Özü də Qarqışdax dəyil, Qarı qışdaxdı, qoja qışdaxdı, qarı qışdaxdı. Onun əvliyası çoxdu. Onun çil ağacı da varıdı. Onun kalafalığı** da çoxudu. Bir yol canım qurban olan Fatma nənənin kündələri qalanda – o əsrdə də dağıdıflar, bir yol da onnan sora dağıdıflar, bir də indi dağıldı. Bu üçüncü dağınıxdı. Orda illaf*** peyğəmbərrər, ojaxlar oluf. Fatma nənənin əlində kündə olanda gavır gəlif başının üsdünü kəsif. Fatma nənə deyif:

– Allah, mənim kündələrimi daş elə, gavıra qismət eləmə.

Fərhad (söyləyicinin oğlu – top.) da çox görüf. Balacası balaca, yekəsi yekə daş olmuşdu. Bir belə duağı**** var. Oxlavı vardı, o da daş olmuşdu. Gedirdih ziyarət eliyirdih, çırax yandırırdıx, toyux hərriyif gətirirdih. Böyüh ojax idi, böyüh pir idi.

---

* Qarqışlaq piri – Cəbrayıl rayonunun Xələfli kəndində yerləşir.
** kalafa – xaraba qalmış ev
*** illaf – ən çox, lap çox
**** duağ – dördayaq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 83. MOLLA ALI

### I mətn

Molla Alı (xalq arasında Mollalı deyirlər – top.) bizim babamızın qardaşı oluf. Yolnan gedirmiş. Qabağına iki arvat gəlif. Arvatdar kişini görəndə duruxuf. Kişi bınnara deyif ki, ay bajı, qorxma, gəlin. Arvatdar gəlmiyif, qayıdıf qaçıf. Qayıdanda kişi yola nətər nəzər salıfsa, yolun o tərəfi də, bı tərəfi də oluf qırmızı yalav. Yalavın ortasınca cığırnan qaçıflar, qaçıflar, gəliflər kişinin yanına. Kişinin yanına gələndə dala baxıf görüllər yalav yoxdu. Deyif ki, bajı, siz bı yolnan gedirdiniz. Di siz gəlin gedin öz yolunuznan, mən də öz yolumnan.

### II mətn

Molla Alı çox oxumuş kişiydi. İranda da oxuyuf, mollalıx oxuyuf. Elə mollalıx ki, arpanı dirəyə yeridif. Deyiflər:

– Baba, deyillər molla arpanı dirəyə yeridir, nətəri olur?

Deyif ki, gedin bir qoşa avıc gətirin qoyun dirəyin dibinə, görün nətəri olur. Quranı alıb əlinə, oxuyuf, oxuyuf, oxuyuf, arpa dirəh yuxarı yeriyif, dirəh aşağı yeriyif. Deyif:

– Bala, gördüüz arpa dirəyə nətəri yeriyir?

## 84. GORDU BABA

Gordu baba yel piriydi. Ayağı əyri gedən yeriyə-yeriyə gəlirdi. Gərəh əlində də bir qab su aparıf qapısına-bajasına səpeydin. Payı sudu. Çırağ aparıf yandırırdıx.

## 85. SEYİD ƏBİL

Zəngilanın Zərnəli kəndində Seyid Əbil vardı. Ağır seyidiydi, sınanmış seyidiydi. Bınnan irəli adamlar çuxa geyirdilər. Bının da bir köhnə çuxası olur. Aparır hansısa bir kəntdə boyaxçıya verir bını boya. Boyaxçı baxır ki, bı bir qoja kişidi, özü də əynindəki çuxa da



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

lap köhnə, pal-paltarı da cır-cındır. Bını qavır. Bı da küsür gedir. Boyaxçı bir də görür ki, küpdəki boyaxların hamısı oluf ayran. Bilir ki, bayaxkı qoja kimsə möcüzəli adamdı, seyid adamdı. Qaçır düşür ayaxlarına, yalvarır. O da bını bağışdıyır. Gəlir çomağını salır küplərin içinə, qarışdırır bir dəfə, təzədən hamısı dönüf oluf boyax, rəng. Onnan deyillər ki, "Seyid Əbilin boyağı ayrana çəvirən cəddi".

## 86. SEYİD RZA OCAĞI

Cəbrayıl rayonunun Cocux Mərcannı kəndindədi. Dəmir yolunnan keçəndə ordadı. Yanında iydə ağacı da var. Onun dibindədi. Balaca qəbirdi. Uşaxdıx biz, onda dedilər bir seyid ölüf orda. Seyid də bir ağsakqal kişiydi. Yudular, suata tutdular, bühdülər, apardılar qardaşdarına təhvil verdilər. Qardaşdarı da deyif ki, nahax gətirmisiz, gərəh orda basdırardız.

Yaxşı ojaxdı, nə niyyət tuturdun, olurdu. Maşınnar hamısı ordan keçəndə pul qoyurdular. Orda çırax da yandırırdılar. Oranı da qəbir fason smentdəmişdi bir ağsakqal kişi. Hamı ziyarət eliyirdi oranı.

Dəsdəmaz alıf uzanıf. Elə uzandığı yerdə də ölüf. Yanındakı adamlardan biri deyif ki, a seyid baba, uzanma, soyuğ olar. Deyif ki, a bala, qoy bir az dincəlim, heş nə olmaz. Elə orda da ölüf. Pul qoyullar, çırax yandırıllar. Kimə qismət olurdu, o da götürürdü. Nəzir eliyirdim ki, inəyim doğsun, sağ-salamat olsun, siftə yağını aparıf qoyajam ora. İndi də gediflər. Elə heylə də durur deyillər.

## 87. SEYİD HEYDƏR AĞA*

### I mətn

Seyid Heydər Sarı baba seyitdərinnəndi. Seyid Heydər ağa, qardaşı Seyid Əli qışda gəlif burda qışdıyırmışdar, yazda da gedirmişdər dağa. Otuz səkgizinci ildə ustav qoyulur. Hər kəsə beş qoyun, bir inək, bir də balasını saxlamağa icazə verilir. Onnan sora olar dağa gedə bilmiyiflər, qalıflar burda.

---

* Seyid Heydər ağa – Məzarı Ağcabədi rayonunun Hacılar kəndindədir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir dəfə mən bu kişinin dükanına gəldim. Bunun dükanı onun (Seyid Heydər ağanın – top.) evinə bitişih idi. Təsadüfən bu kişi qapını aşdı, ordan (Seyid Heydər ağanın məhləsindən – top.) nəysə verəsi oldu. Baxdım gördüm ki, evin büşkəyində iki xaral buğda var. Gördüm ki, hər xaralın üsdündə bir ilan qıvrılıf, bax belə yatıf. Kişidən soruşdum:

– Əşi, bu nədi belə? Bu ilannardan qorxmursan?

Dedi:

– Yox, bu ilannar adama dəymir ki. Seyid Heydər ağanın malına qaroul çəkir.

**II mətn**

Seyid Heydər ağanın yeznəsi qalxoz sədri idi. Bunu mənim əmim oğlu var, Sabir məllim, o danışırdı. Deyir, yayda su qıtdığı idi, indiki kimi artezan yoxuydu. Deməli, kişi pambığın qırağıynan gəldiyi yerdə görür pambığ yanır. Deyir:

– Sənin yeznən qalxoz sədridi, pambıx da burda yanır. Sən də deyirsən mən beləyəm. Bu pambığı suvarmax lazımdı, bir kəraməti gösdər.

Minacat çəkir, papağın tulluyur göyə. Deyir:

– Mən gedirəm, siz özüzə bir yer tapın.

O evə gəlincə and olsun Allaha, leysan tökdü.

**III mətn**

Biri yolnan gedirmiş atdı. Görür beş-altı qoyun var ağılda. Düşür qoyunun birin alır atın qujağına, aparır kəsir. Gejədi də. Nənəsini durğuzur ki, dur bunu qourma elə, yeyəjəm. Yeyir ətinnən, yatır. Yata bilir? İlan yapışır boğazınnan, qışqırır ayılır. Bir də yatır. Bir də bu qaydada ilan bunu qoymur yatmağa. Nənəsi bunun çığırtısına dözə bilmir. Deyir:

– Ay bala, sən nağarmısan, neynəmisən? Sən yuxuda nə görürsən?

Deyir:

– İlannar məni boğur, öldürür.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bu heyvanı hardan gətmisən?

Deyir:

– Ay nənə, yolun qırağınnan, filan kəntdən gətmişəm.

Deyir:

– Ə, sən bilirsən kimin heyvanın gətmisən? Seyid Heydərin heyvanını gətmisən. Tərpən get, o kişidən halallığın al.

Atnan gəlir, kişiyə hal-qəziyəni danışır. Deyir:

– Get, qorxma, halal elədim sənə.

Onnan sora gedir rahatdanır.

**IV mətn**

İt tutan olanda Seyid Heydər ağa barmağını kəsirmiş, qanın çörəyə vuruf verirmiş ki, ala ye. Onnan sora o adamı quduzdux tutmazdı.

## 88. LƏLƏ OCAĞI

Qəbri Şiş dağın başındakı qəbirsdannıxda idi. İndi yanmışdar oranı alıf. O ojax yeddi qardaşdılar. Biri İrandadı, biri bizdədi, biri Təbrizdədi, biri Şamdadı, biri də bizim kəfşəndədi. Qalannarını bilmirəm hardadı. Yel ojağı deyirdih ona. Bir uşax gedif dağıtmışdı. Sora ölmüşdü. Traktor dağıtmışdı yer əkəndə. O da orda sınıf qalmışdı. Sora ağsakqallar dedi ki, oranı əkmiyin. Əsas çırax yandırırdıx orda. Orda öz-özünə də çırax yanırdı. Bir də görürdün kü, bir ojax yanır öz-özünə. Bir nəfər kişi deyif ki, mən öləndə aparın Lələdə basdırın. Deyiflər ki, ora ojaxdı axı. Çoban imiş özü. Çomağını da basdırıflar, özünü də basdırıflar orda. İti, deyir, hey gedif yatırmış orda.

## 89. CƏBRAYIL ATA PİRİ

Cəbrayıl ata pir var. Ermənilər gəlif hasar çəkiflər, pirin qapısın özdərinə tərəf qoyuflar. Neçə kərə onu hörüflər, başa gəlif, səhər gəlif görüflər ki, uçuf. Axırı bizim azərbaycanlılar deef ki:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Adə, bı Azərbaycan piridi. İnanırsız, yaxşı eliyirsiz. Bının qapısın qıblıya qoyın. Qıblıya tikin, görün nolur.

Sora hörgünü qıblıya tərəf tikillər. Hörgü hal-hazırda durur. Mən özüm görmüşəm. Girirdih içərisinə, ziyarət eliyirdih, gəlirdih. İstənilən vaxt, belə quraxlıx olanda kəndin camaatı çağırardı.

– Ay camaat, gəlin gedəh Cəbrayıl atıya, yağış yağmır.

Yığışardıx, qurban götürərdih, gedərdih qurbanı kəsərdih. O qurbanı orda biz bişirə bilməzdih yağışın əlinnən.

## 90. İMAM OCAĞI*

Əvvəllər ölən seyitdərin hamısını orda basdırırdılar. Horadizdəydi. Qətl sınanda da gedirdilər ora. Həmişə gedif, hərrənif qurban kəsirdih. İmamlarımızdan bir ölüf, onu götürüflər, suata tutuflar, aparıf orda basdırıflar. Üsdünü nə qədər götürüflər, qalmıyıf, uçuf. Qoyun kəsirdilər, neçə dəfə aparmışıx, Hajı Qaramana getdiyimiz kimi. Ojaxda qurbanı yeddi adama paylıyıf qalanını gətirirdih evə. Niyyət qurbanı, deyin qurbanı olurdu.

## 91. HACI MƏCNUN

Hajı Mejnun varıymış. Qarabağdan imiş. Gəlif orda (Çələbilərdə – top.) o, məktəbi bilmirəm, neçə ilə qutarıfsa, qalıf orda məəllim işdiyif. Molla Vəli Vidadinin özü orda məəllim işdiyif on dokquz il. Orda basdırıflar. Şəxsən onun qəbrini özüm görmüşəm, düzəltmişəm.

## 92. KƏMƏR QOŞMAR

Bir də Qumlaxnan Xudafərinin arasında bir pir vardı, adına Kəmər Qoşmar deyirdilər. Orda Xudafərində bir kişi vardı. Urusdar o pirin daşdarını o kişiyə daşıtdırıf Araza töhdülər. Sərhət çəkiləndə sərhədə düşmüşdü. Qaraş addı kişiyə tökdürdülər Araza, bir az da dəli kimiydi.

---

* İmam ocağı – Füzuli rayonunda yerləşir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 93. PİR DƏRƏSİ

Bizdə Pir dərəsi deyilən yer var (Cəbrayıl rayonunun Qumlaq kəndi – top.). Oranı ojax kimi ziyarat eliyirdih. Mən gözümü açannan oranı heylə görmüşəm. O piri heylə görmüşəm. O pirdə çoxlu dağdağan ağacı oluf. Dedilər ki, 1941-1945-də onu urus doğruyuf, yığıf arabıya yandırmax üçün aparanda araba aşıf, urus da qalıf altında, ölüf. Onun yerində bir-iki ağaj qalmışdı. Təzədənnən pöhrə verdi, o dağdağan böyüdü. Çaylaxdı, çaylağın içindədi. İntəhası Pir dərəsi deyillər. Gözümü açıf onu heylə görmüşəm. Çərşənbə bayramında camaat el adətiynən yığışıf gedirdi, o piri hərrənirdi. Elə başqa vaxdı da əhd eliyən o pirə gedirdi. Gedif yüyrük asırdılar, mismar çalırdılar, onnan sohra niyyət tutuf çırax yandırırdılar.

Pirin böyürrərində oturuf ağrıyan yerrərinə daş düzürdülər ağrını götürmək üçün. Çərşənbə bayramında lap çox gedif ziyarət eliyirdilər. Qər-qənfet tökürdülər pirin dibinə, üsdünə. Yüyrüh asırdılar dıkqılı uşağ əvciyi kimi, guya bı yüyrüh yellənirmi, yoxsa yellənmirmi. Uşağı olmuyannar eliyirdi bını. Sənin kimi cavannar balaban, nağara götürüf gedif o pirin böyründə çalırdılar, oynuyurdular. Mən gözümü açıf oranı heylə görmüşəm. Tay indi o orda nə vədədən icad oluf, niyə ordadı, bilmirəm.

*Söyləyicinin arvadının əlavəsi:* Bala, orda qeybdən çırax yanırdı. Bir dəfə üş-dört arvatnan getdih pirə. Gördüh kü, pirin yanındakı kolun dibində yalav kimi yanır qayıbınnan. Yanımdakı yoldaşdarıma dedim ki, ora bax, ora bax, orda ojax yanır. O dedi, hanı, bı dedi, hanı? Dedim, aaz, kolun dibində ojax yanır. Dedilər, saa görükür, bizə görühmədi. O pirə fəsəli də bişirif aparırdıx. Xəsdəlihləri də götürürdü.

## 94. YAL PİRİ*

Qadın qəbri idi. Döyüşdə Əmirəlmömininin nəslindən kimsə ölüb, basdırıblar ora. Üsdünü örtməzdilər. Deyərdilər belə buyrublar. Qıraqlarına daşlar düzmüşdülər.

---

* Zəngilan rayonunun Vejnəli kəndində yerləşir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir çolax arvad vardı bizdə, Gülsənəm arvad. Kəntdə yay aylarında quraxlıx olurdu. On gün, iyirmi gün yağış yağmırdı. O vaxt ağbirçəklər, ağsakqallar deyərdilər ki, Gülsənəm, get. Gülsənəm çimirdi, gedirdi həmin piri ziyarət edirdi, ordan bir dənə daş götürürdü, gətirirdi atırdı kəhrizin gözünə. İki gün, üş gün yağış yağırdı. Sora Gülsənəm gələrdi, həmin daşı götürüb aparardı qoyardı yerinə.

Kənd uşağı idik, gələrdik kəhrizə. Hava da çox isdi idi. Bizim kəntdə də göl yox, çimməyə yer yox. Gəlirdik kəhrizə, ayaxlarımızı soyunurdux, girirdih kəhrizə. Kəhrizin için təmizdiyirdik ki, təmiz olsun. Bilməmişik, içində iri daşdarı götürmüşük tullamışıx aşağı böyürtkannığa. Təsəvvür elə ki, yağış başdadı, duman başdadı. Bir gün, iki gün, üş gün, dörd gün... Hamı düşdü Gülsənəm arvadın üstünə ki, get o daşı tap, apar qoy yerinə. Gülsənəm arvad gəldi axşama qədər orda axtardı, tapammadı. Onu qısnamışdılar. Axırı biz dedik ki, içindəki daşları tullamışıx böyürtkannığa. Kişilər də töküldülər, böyürkannığı bişdilər ki, Gülsənəm arvad o daşı tapsın. Daa deyəmmərəm həmin daşı tapdı, başqa bir daşı tapdı, apardı ora yerinə qoydu, yağış kəsdi. Səkgiz-on gün bizdə çox dumannı, çiskinni günnər oldu.

Gülsənəm arvad kəndin yeganə çolağı idi. Deyirdilər Allahtala birinci bunun duasını eşidir. Ona görə kimin nə imkanı vardı, birinci ona kömək eliyirdi. Hətta pirə ziyarətə gedəndə Gülsənəm arvadı özdəriynən götürürdülər ki, hamıdan sora o pirdəki nəzir-niyazı götürsün, özünə pal-paltar alsın.

## 95. QARADƏYƏ PİRİ

Qayanın başında yerrəşir. Qurban aparanda, qayanın aşağısında bulax var, bulağın yanında onu kəsirdik, ziyarət eliyirdih, sora çıxıf gəlirdih. Mənnən yaşdı adamların dediyinə görə, pasdayannı ora ağ* gələrmiş. Yayda, qışda ağ gəlif qalarmış orda. Ağ müqəddəs yerrərə çox gəlir. Özdərini qorumax üçün o yerrərə gəlillər.

---

* ağ – ahu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 96. QIRXLAR PİRİ

Qırxlarda deyillər, guya qırx dənə övliya daş oluf orda qalıf. Ona görə qırxlar deyillər. Ora ancağ iyun-iyul aylarında getməh olardı. Başqa vaxt getməh çətin idi. Qar olurdu.

## 97. DAĞDAĞAN PİRİ*

Bu pir kənddən təxminən 1,5 kilometr aralı yol qırağında yerləşir. Qurbanlı pirinin yaxınlığındadı. 4-5 metr hündürlüyündə bir dağdağan ağacıdır. Dibində daşlar dairəvi şəkildə üsd-üsdə qoyulub. Bura ziyarətə gələnlər çox az olurdu. Təsadüf hallarda bura ziyarət olunurdu. Lakin yol qırağında olduğu üçün ordan keçənlər pirə nəzir qoyurdular. Buradakı dağdağan ağacı müqəddəs hesab olunur. Bu ağacdan qırmaq, sındırmaq olmaz. Onu kimsə sındırsaydı, ziyanlıq tapardı. Ancaq bəzən kiçik bir çöp qırıb boyundan asırlar ki, göz dəyməsin.

## 98. MƏRMƏR PİRİ

İndi orda basdırılan kimsənin adı Mərmərdi, bala. Övliya adıynan çağırıllar, bala. Övliyaların hamısının adı var. Seyid qabrı, Çomağ ata, Ağoğlan, Ağdonnu Şıx, Cəbreyil ata, Gordu baba, Xələf qabrı, Tumas ata, Dağdağan ata. Mərmər yel piridi. Yel qurudan Mərmərə gedirdi, sağ qayıdırdı. Gözuu yel kor eləsin, ora getsən, gözün açılır, sağ qayıdırdın.

## 99. ŞIX ATA

### I mətn

Şıx Ataya get niyyət elə. Şıx Ata uşax paylıyırdı. Birinin uşağı olmuyanda gedif niyyət eliyirdi, gələn ilə uşağı olurdu.

Dağlarda yağış oynuyuf gedəndə üş yerə bölünürdü. Birini Şıx ata götürürdü, birini Gordu baba, birini də Hajı Qaraman öz kəfşənnərinə yağdırırdılar. Olar da heylə yağışı bölürdülər.

---

* Stansiya Xələfli kəndində yerləşir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**II mətn**

Adi bir heyvanı xəsdəlik tutanda aparıf Şıx ata pirinə dolandırırdıx. O dolandırmağnan da heyvanın xəsdəliyi keçif gedirdi. Adam xəsdə olanda da gedif orda qurban kəsər, sağalarmış.

## 100. PİR AVID

Pir Avıd piri yağış paylıyırdı. Niyyət elə get, o günü yağış tökürdü. Quraxlığ olanda gedif çırağı yandırıf deyirdilər:

– Ya Pir Avıd baba, yağış gəti.

## 101. FATMA NƏNƏ

Canım qurban, o Fatma nənə o taynan danışırmış. Danışanda Araz qıjıldıyırmış, qoymurmuş səs eşidilməyə. Qayıdıf deyif ki, səni görüm lal axasan. Onnan sohra həmən yerdə Araz başdıyıf lal axmağa. Xudafərin düzündədi həmən yer.

## 102. ÇAXIRLI OCAĞI

Yel ojağıydı. Çaxırrı kəndinin yaxınnığındaydı. Qılçasını-qolunu yel tutanı deyinni* eliyirdilər ki, gedəjeyih ojağa üş çərşənbə. Kimin nə vaxt girəvəsi** olurdusa, onda gedirdi. Amma dalbadal gedirdilər dayna. Gərəh arada itirmiyeydin. Neçə baş külfət idinsə, məsələn, beş başıydınsa, beş dənə, on başıydınsa, on dənə isdədiyin adamların adına deyinni eliyərdilər. Pambıxdan piltə qayırırdılar, onu da yağlıyıf qoyurdular bir kağızın arasına. Bir də fəsəli bişirirdih. Yel tutan uşağı da götürüf gedirdih. Torpaxdan bir yer idi. Ortasında bir dənə kalafada daş var idi. Daşın ortasında bir əl boyda çala var idi. Apardığımız piltəni orda yandırırdıx. Ortada da kül eliyif yel olan yerə – qoluna, qılçasına, harasınısa yel tutuf ağrıyırsa ora sürtürdüh. Fəsəlini də aparıf orda yeyirdih. Yolnan gedən varıydisə, olara da təklif eliyirdilər. Qalanını da, qırın-qırtısını da ora qoyurdular ki, quşdar yesin. Yel ojağı idi ora.

---

* deyinni – niyyət

** girəvəsi – fürsəti



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 103. ƏRƏSTƏ OCAĞI*

Ərəsdə addı bir arvat varıydı. Özüm də görmüşdüm onu. Bir otuz il olar onun öldüyü. Oğlu Allahverdi yatıf yuxusunda görüf kü, əvlərinin dalında, arxın başında bir ojax var. Yuxuda deyiflər ki, o ojax sizindi. O da nənəsini (anasına nənə deyir – top.) götürüf gedifdi səhər-səhər. Deyif:

– Yuxu görmüşəm, gedəh görəh gerçəhdi, yoxsa yox.

Gedif görüflər elə həqqi gerçəhdi. Arxın başında bir daşdı yumru, ortasında da bir yırtıx yer, çala yeri varıydı. Ətrafında da çoxlu daşdar varıydı. Orda piltə yandırırdıx, buğda tökürdüh, çörəh qoyurdux qurt-quş yesin, suabdı**. Nəzir qoyan da olurdu, pul nəziri – qəpih. Qəpih qoyurdular ki, kim gəlir götürür, götüsün. Ərəsdənin oğlu Allahverdi getdi müharibəyə, qayıtmadı. Dedilər ki, itdi.

## 104. DÜLDÜL PİRİ

Füzulidəydi. İri, yekə bir daşıydı. Bir dəfə getdih gəldih. Onun da ortasında iri çala varıydı. At adıdı Düldül. Deyillər guya hansısa imamın atı oluf. Çox adam gedif fırranırdı ora. Heyvan hərriyirdilər, pul nəzir qoyurdular.

## 105. QEYRİ-MÜƏYYƏN ŞƏXSLİ ÖVLİYALAR

### I mətn

Gəlif durmuşdux Saatlıda. Bir kişi nağıl elədi. Dedi, burda bir seyid arvadını döydü, Arazın qırağında. Bax, bı yoldan arvat gəlif özünü Araza atdı. Paltarı qoymadı arvadı batmağa. Amma su aparır bını. Seyid gəldi çəliyini vırdı yerə, Araza dedi: "Mənim arvadımı hara aparırsan sən?" Araz ikiyə bölündü. Arvad çıxdı quruya. Onnan sora Araz təzədən qarışdı. Başdadı axmağa.

---

* Ərəstə ocağı – Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndində yerləşir.

** suabdı – savabdı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### II mətn

Bizim kəndin qırağında bir ojax varıydı. Bı ojağın böyründə ona yaxın olan bir əv varıydı. Bı əvin kişisi bir gün bir vedrə su götürər, vannasını götürər, gedər o ojaxda yuyunar. Ojağın da qırağını daşdarnan hörmüşdər, daldanacax olmuşdu. Deyər gedim orda bir suya girim, gəlim. Gedif girif çimir. Bı gəldi altı ay yatdı. Altı aydan sohra dədəm bına dedi ki, get o ojağın başına hərrən, öp o ojaxdan. Bı getdi dolandı, öpdü ojaxdan. Sağaldı. Sohra dedi ki, gedif daş gətirif ojağın dağılan yerrərini də hördürəjəm. Elədi. Yaxşı da oldu.

İndi bala, ojax, ojax, bir də ojax. O, günah eləmişdi. Ojaxda çimmişdi. Getdi hərrəndi, gəldi, altı ay yatannan sohra yaxşılaşdı.

## TARİXİ ŞƏXSİYYƏTLƏR HAQQINDA

## 106. İSGƏNDƏR

### I mətn

İsgəndər paçcah durub on atdıynan səfərə çıxmax isdiyirdi. Qabağına bir qarı çıxdı. Dedi:

– Qarı nənə, bayıra çıxmışam, bir fal aç görəh.

Qarı fal açanda ağlıyıf. Deyif:

– Bala, günorta bir-iki dəmirin altında saa ölüm görünür.

Gediflər, düşüflər günorta bir yerə. Tüfəhlərini təpə-təpə qoyuf üsdünə paltarrarını atıllar. Bı deyif ki, mən bir az dincəlim, siz də oturun. Bılar oturuflar. Görüllər ki, bı yuxuda danışır, gülür. Deyiflər ki, nə danışdın, nə güldün? Dedi ki, gəlmişdilər canımı almağa, dedim:

– Qoyun ayılıf vəsiyətimi eliyim sora.

Deyif:

– Mənim taxtı-xərcimin qapısını qırx gün açıx qoyun, maa ehsan verin. Quran kitabını bir qaba qoyun, xonça düzəldin, bir qaba da qızıl-gümüş qoyun, onu da xonça düzəldin, bir qaba da ox-yayımı qoyun, onu da xonça düzəldin. Buları mənim evimin girəcəyinə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qoyun. Hər kim bu sirri aşmasa, mənim ehsanımnan, xörəyimnən yeməsin.

Bı sirri tapan olmadı. Xörəyini yeyən olmadı. Həmən qarı fırrandı, gəldi çıxdı bıra. Dedi ki, ay camaat, bı paççahın xörəyini niyə belə haram eləmisiz? Dedilər:

– Bəs, belə-belə.

Qarı dedi:

– Ay camaat, İsgəndər paççah deyir ki, mənnən çox dava eliyən olmadı qızıl-gümüş üsdündə, mənnən çox Quran-kitab oxuyan olmadı, mənnən çox ox-yay çəkən olmadı. İndi bunnarın biri maa köməh etmədi ki, durum gəlim nənəmin yanında vəsiyətimi eliyim. Camaat sora yeməyi yeməyə başdadı.

**II mətn**

İsgəndər zülmət dünyasına getməli oluf. Axşam bunun vəziri gəlif öyə. Ata görüf ki, bu çox məluldu. Deyif ki, nolufdu? Deyif:

– Vallah, İsgəndər hər dediyini eliyif, indi də deyir zülmətə gedirəm. Zülmətə gedif nətər qayıtmağ olar?

Deyif ki, oğul, zülmətə gedif qayıtmax üçün ancax qulunnu maydan minməh lazımdı. Qulunnar qalsın, maydan ayannan bəri gələndə yol tapıf gələ bilər.

İndi rəvayətə görə, bir səsli su, bir səssiz su oluf. Orda iki bulax oluf. İsgəndər həmişə yaşamağ üçün lazım olan sudan işmiyif, Xıdır orda oluf, o içif.

**III mətn**

İsgəndər öləndə bilif ki, anası çox ağlıyajax. Ona görə deyif ki, mənim ehsanımı, xeyratımı dərdi olmuyana verərsən. O da kəntbəkənt gəzir. Bir dərdsiz adam tapmıyıf. Gətirif toyuğa-cücəyə atanda toyux-cücə deyif:

– Bizim dərdimiz hamısınnan çoxdu.

O da yemiyif.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## IV mətn

İsgəndər zülmətə gedif dirilih suyu işməh üçün. Gedif tapıf suyu. İşməh isdiyəndə qoja vəziri varmış, deyif:

– Əlini saxla, bir söz deyim saa.

Deyif:

– Buyur.

Deyif:

– Sən həmişə belə cavan olmuyassan, belə sərkərdə olmuyassan. Qojalessən, vəzifədən düşessən, səni sayan olmuyajax. O vaxdı Allah-taladan nə qədər ölüm isdəsən vermiyəjəh saa. İndi əgər məslahatdısa, yaşaginan.

Deyir:

– Mənə heylə yaşamax lazım döyül.

Heylə oluf suyu işmiyif.

## V mətn

İsgəndər bəy Mərziyə xanımı qonax çağırır. Mərziyə xanım görür ki, bu, adına görə buna hörmət eliyə bilmədi. Bu göylüh eliyir də. Sora Mərziyə xanım bunu qonax çağırır. Mərziyə xanım ləldən-cəvahirdən yığır, bir padnosu doldurur, üzünə də qırmızı yaylıx sərir, qoyur İsgəndər bəyin qavağına. Bu aşmır. Mərziyə xanım deyir:

– İsgəndər, xonçanı niyə aşmamısan?

Deyir:

– Açajeyih.

Bu, ayna gedənnən sora xonçanı qaldırır ki, aşsın da. Qaldıranda görür hamısı ləldi, cəvahirdi. Ağzını örtür. Bir də gəlir:

– İsgəndər bəy, niyə aşmamısan o xonçanı.

Deyir:

– Mərziyə xanım, burda yeməli şey yoxdu axı.

Deyir:

– Ye, yeməlidi, niyə yemirsən? Bəs dünya malına niyə uymusan?

Rəvayətə görə İsgəndər bəy öləndə anasına vəsiyyət eliyif ki, ana, mənim əllərimi cinazadan çölə qoy.

– Ay oğul, nəyə görə, nə maqsada?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Qoy Bərdə camaatı bilsin ki, bir belə varnan mən əliboş gedirəm ora. Bir də ana, mənim ehsanımı dərdsiz adama ver, yesin.

İsgəndər ölür, anası buna ehsan verir. Kağız çıxır bunun döş civinnən. Yazır ki, ana, xiffət eləmə. Ölüm Allahdan gəlir. Əgər bu ölüm bəndə tərəfinnən olsaydı, topnan, tüfəynən, qoşunnan qaytarardım. Amma buna mümkün döylü.

Anası halvanı yüklüyür dəvəyə. Hansı kəndə sürürsə, deyir başına dönüm, vallah, mənim də dərdim var. Axırda görür yox ey, qaytarajax geri. Gedir dəryanın qırağına. Götürür halvadan dəryaya tulluyanda balıxlar çığrışır:

– Ay aman, onu tullama bura. Mənim dərdim səninkinnən çoxdu. Okqədər balamızı tutuf aparıf yeyiflər ki. Tullama bura.

Axırı anası deyir:

– Deyəsən mənnən az dərdi olan yoxdu.

Oturur halvadan doyunca yeyir, minir dəvəyə, çıxıf gəlir.

## 107. ŞAH ABBAS

### I mətn

Deyir, Şah Abbas cənnət-məkan çıxıf şəhəri gəzərmiş. Şəhərin tininnən belə keçəndə görür bir nəfər yemiş kəsif. Qavın da deyillər bizim dildə, yemiş də. Özü də dərviş libasında gəzirmiş ki, bını tanıyan olmasın. Deyir, özü də şəhərdə bir narahatdığ-zad olanda bının yuxusu-zadı gəlmirmiş, narahat olurmuş ku, nəysə var. Bı da elə bil, mənim kimi qara adammış, gedif fəhləlih eliyifmiş, on beş-iyirmi qəpih alıf verif yemişə, divarın dibində oturuf kəsif yeyirmiş. Guya Şah Abbas deyif ki, olar, qardaş, onnan bir dilim də maa verərsən? Deyillər də. Şah Abbasın nəyi kəmdi? Yalandı, gerçəhdi, deyillər dayna. Nəysə, bir dilim yeyir, iki dilim yeyir. Bı yemiş Şah Abbasa daddı gəlir, şirin gəlir. Deyir, gedif əmr eliyir ki, şəhər darvazalarının hamısının başına yazın vırın ki, dünyanın dadını-ləzzətini bı çoban gədə gördü. Şah Abbas elə hesab eliyir ki, dünyanın dadı-ləzzəti o bir dilim yemişdəymiş.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**II mətn**

Şah Abbas qoşun çəkif gedif Gürcüsdana, Tiflisi almağa. Altı ay mühasirədə saxlıyıf, ala bilmiyif. İkinci səfər bir də hücum eliyif, isdiyif qəflətən ala. Genə ala bilmiyif. Qoşunun hamısı qırılıf. Beş-altı adam qalıf. Bılar qaçıf gəliflər bir dənə kəntdə qalıflar gecəni. Kəntdə qalanda bırda bir qoca qarı varmış, bının evinə düşüflər. Deyiflər:

– Ay arvad, nəyin var yeməyə?

Deyif:

– Bala, heş nəyim yoxdu yeməyə.

Pul veriflər bına. Deyiflər ki, get bir şey al, gət, yeyəh. Qarı gedir bir şey alır gətirir yeməh bişirməyə, hamma bişirmir. Deyillər:

– Niyə bir şey bişirmirsən?

Deyir:

– Bir qazanım var, onda da itə yal bişirirəm. Qoy yalı bişirim, sohra qazanı yuyum, sizə xörəh bişirərəm.

Görüllər ki, arvad kəpəy qaynadır. Qaynadır, aparır tökür yalağa. Yalağa tökəndə, – qarı da şahı tanımırmış, – it tez gəlir burnunu soxur yalağa. Yalağa soxanda ağzı yanır. İt tez ağzını çəkəndə itə bir ağaş vırır, deyir: “Daş başaa, Şah Abbas kimi burnunu birdən soxur e. Qırağınnan az-az ye”, – itə deyir.

Şah Abbas barmağını dişdiyir ki, ay dadi-bidad, mənim məğlub olmağım mənnən qabax gəlif çıxıf bıra. Bı qarı məə başa salır ki, qırağınnan az-az ye. Yəni şəhərə birdən niyə girirsən?

Deməli, çörəh yer eliyir. Durur qoşunu topluyur, gedir Tiflisi alır. Həmən kəndi də qarıya bağışdıyır. Həmən kənd indi də durur.

**III mətn**

Şah Abbas həmişə dərvişlibas oluf məmləkəti gəzirmiş ki, görsün nə çatışmazdıx var, nə yox. Gedif görür ki, toydu, məclisdi. Bunu oturduflar lap ayaxda. Tanımıyıflar.

Sabah gedif libasını geyif həmin yerə gələndə bunu oturduflar lap başda. Deyif ki, çuxam ye, çuxam ye. Deyiflər: “A kişi, şah dəli olufdu”. Deyif: “Dəli-zad olmamışam”. Dünən o sufranın ayağında oturan sail də mən idim. İndi mənim şahlığım çuxamnandı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şah Abbasa cənnətməkan deyiflər. O, çox ədalətdi şah oluf. Ədalətsiz şah Nuşirəvan oluf. Şah Abbas deyirmiş ki, bircə Novruz bayramı, axır çərşənbədə yediyim yeməh mənim canıma yatır. Sual veriflər ki, niyə? Deyif ki, o vaxdı kasıbın da, döylətdisinin də qazanı ojax üsdündə olur, yeməh yeyir.

### IV mətn

Bir gün Şah Abbas gəzməyə çıxmışmış. Görüf ki, üş dənə oğlan oturuf. Biri deyir ki, kaş şahın arvadı mənim olaydı. Biri də deyir, kaş şah atını maa verəydi. Biri də deyir, kaş şah maa bir kisə qızıl verəydi.

Gedir çıxır taxta, üçünü də çağırır. Bir kisə qızıl deyənə qızıl verir, at diyənə at verir. Bu arvadını maa verəydi deyənə arvadını verir. Göndərir arvadın yanına. Arvad da çox ağıllı arvadmış. Arvad qırx dənə yumurta boyuyur, hərəsi bir formada, bir rəngdə. Deyif ki, qırxını da yeyərsən, sora mən saa gedəjəm. Bu, özünü bərkidif qırxını da yeyir. Deyir: "O yumurtada nə dad bildin?" Deyir: "Vallah, hamısı yumurtadı". Deyir: "Kopoğlu, dur get, kadının da hamısı kadındı".

## AŞIQ RƏVAYƏTLƏRİ

## 108. SARI AŞIQ

### I mətn

Bir gün Sarı Aşığın yolu dağlara düşür. Bir çobanın evində qonaq qalmalı olur. Sən demə, çobanın bir neçə qoyunu quzulayıbmış. Evin xanımı təzə sağdığı süddən kətəməz* bişirir. Süd bişdikcə bərkiyir. Bunu görən aşıq deyir:

Mən aşiqəm, buz bağlar,
Çaylar, sular buz bağlar.
Bu gün bir əcaz gördüm,
Od içində buz bağlar.

---

* kətəməz – heyvanın ilk südündən bişirilən yemək



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## II mətn

Bir dəfə taxıl biçini zamanı Sarı Aşıq bir kəndlinin evində qonaq imiş. Ev yiyəsi oğlanları ilə biçilib bənd vurulmuş taxılı xırmana daşıyır, bir tərəfdən at qoşulmuş vəl ilə taxılı döyürmüşlər. Evin xanımı da evdə qonaq olduğundan məcməyidə düyü artlayırmış ki, aş bişirsin. Aşıq bu mənzərəni görüb deyir:

Mən aşıq, yaydı günü,
Sonalar yay dügünü.
Qəmər çəkər, sar döyər,
Açılmaz yay dügünü.

## III mətn

Bir gün Sarı Aşıq Yaxşıgilə gəlir. Yaxşının bacısı Günəş Aşığa çox hörmət qoyur. Aşıq da Günəşin hörmət-izzətini görüb deyir:

Mən aşıq, yaxşı Günəş,
Çıxıbdı yaxşı günəş.
Yaxşıya gözəl çatmaz,
Yaxşıdan yaxşı Günəş.

Bu zaman içəri girən Yaxşı Sarının dediyi bayatıdan çox mütəəssir olur. Əməlli başlı qaş-qabaq tökür. Məsələnin nə yerdə olduğunu duyan Sarı Aşıq səhvini düzəldir və deyir:

Mən aşıq, Gün aşanda,
Durmuşam günaşanda.
Üzgörəsi demirəm,
Sən handa, Günəş handa?

## IV mətn

Yaxşının yaşadığı Maqsudlu kəndi Həkərinin sol sahilində, Sarı Aşığın yaşadığı kənd isə sağ sahilində idi. Aşıq sevgilisini görmək üçün çayı keçib bu tərəfə gəlməli imiş. Bir gün Yaxşının anası soruşur:

– Ay Sarı, sən bu çayı necə keçibsən ki, heç islanmayıbsan?

Aşıq cavabında deyir:

Mən aşıq, bayı keşdim,
Xotkarı, bayı keşdim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Altı camış, yüz keçi,
Qucaqda çayı keşdim.

Heç nə başa düşməyən ev əhlinə aşıq bayatını xırdalamalı olur. Sən demə, Sarı Aşıq çarıqlarını qucağında islatmadan bu taya keçirif. Çarığın da altı camış dərisindən, üzünün ipləri isə keçi dərisindən toxunmuşmuş.

## 109. AŞIQ ƏLƏSGƏR

Aşıq Ələsgər evdən çıxanda bir mollaynan qavaxlaşır.
– Salam-məlöykü.
– Əlöykümət-salam.
Molla deyir:
– Ələsgər, hara gedirsən?
Deyir:
– Gedirəm məclis var, ora.
Deyir:
– Ələsgər, qoltuğundakı nədi?
Deyir:
– Sazdı.
Deyir:
– Ələsgər, onu çalma ey, günahdı.
Deyir:
– Buy, ay molla, nətər günahdı, niyə günah olur?
Deyir:
– Vallah, çalmax günahdı da.
Deyir:
– Molla, sən gejə ayağınnan asılırsan ki, ya Allah, bir adam ölsün, səhər gedim onun meyidin götürüm, pul alım gətirim, uşa-ğım yesin. Mən də gejə ayağımdan asılıram ki, ya Allah, sən özün toy elə, şaddıx elə, şənnih elə, gedim çalım-çağırım, gətirim, onun pulun verim balalarımı saxlıyım. Niyə səninki halaldı, mənimki haram?
Deyir:
– Vallah, o şeytan işidi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyəndə Ələsgər götürür deyir:

– Molla, sənnən üş qatar söz soruşajam. Əgər o sözü maa deyə bildin, oxuduğun Quran haqqı, burda sazı yerə vuruf qırajam. Deyə bilməsən, Quran kitabını əlinnən alajam.

Deyir:

– Yaxşı, de.

Götürür orda deyir:

Mənnən salam olsun, ay duran molla,
Altı gündə dünya neçə don geydi?
Kim idi göyün bənnası,
İldızdar harda yerbəyer oldu?

Deyəndə molla boynun dalın qaşıyır.

Deyir:

– Ə, niyə dinmirsən?

Deyir:

– Yaxşı, o biri kəlməni de görüm.

Deyir:

Mələhlər cəm oldu, neçə idi sayı,
Hansı idi onun içinin bəyi?
Hara çağırdılar, molla, Məhəmməd peyğəmbəri
O kim idi, onnan bixəbər oldu?

Deyəndə gənə boynun dalın qaşıyır. Deyir:

– Əyə, niyə dinmirsən. Deyir:

– Yaxşı, axırıncı kəlməni ge görüm.

Ələsgər götürür deyir:

Ələsgərəm, muğarraram saadını,
Yerdən xəvər verərəm göy büsatını.
Cannıdı, cansızdı, molla, ərşin sütunu
Müsurman əhlinə nə xəvər oldu?

Deyəndə bu yönəlir getməyə. Deyir:

– Hara gedirsən, ə?

Deyir:

– Rəhmətdiyin oğlu, sən ərşdən-ürşdən danışırsan. Mən nə bilim ərşin sütunu cannıdı, cansızdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dedi:

– Bilmirsənsə, bəs niyə mənim çaldığımı günah eliyirsən, ə. Maa ver, ə, Quran kitabını.

Quran kitabını əlinnən alır. Molla başdıyır buna yalvarmağa. Çox xayişdən-minnətdən sora verir. Deyir:

– Ala, Quran kitabını verirəm özünə. Get arvatdarı allat, duadan-muadan yaz, başını saxla. Aşığnan nə işin var?

## TOPONOMİK RƏVAYƏTLƏR

### 110. GÜRCÜHANİ

Bir gün Nadir şah Gürcüsdana hücuma keçəndə bı gürcülər qaçıf bir dərədə gizdəniflər ki, Nadir şah bıları tuta bilməsin. Hay gəlif ki, bəs şah, gürculər filan yerdədi. Oların gizdəndihləri yerdən bəridə bir hündür təpə vardı. Nadir şah çıxıf həmin təpəyə, əlini qoyuf gözünün üsdünə, deyif ki, ə, gürcü hanı? O kəndin adı qalıf Gürcühanı. Sohradan o kənt gürcüləşif. İndi böyüh şəhərdi, adı da qalıf Gürcühani.

### 111. ƏTYEMƏZLİ KƏNDİ

Kəndin adının qoyulması belə oluf ki, keşmiş vaxdı rəvayətə görə, ajdıx oluf. Bütün kəntdərdə atdarı kəsif yeyiflər. Müsəlmana guya at yemək olmaz. O kəndin camaatı at əti yemiyif. Ora at əti aparan olanda deyərmişdər olar at yemillər. At yemillər sözü tədricən uzun-uzun illər keşdihcə çevrilif oluf Ətyeməzdi. Amma əslində Atyeməzdidi.

### 112. ANA-BALA QAYASI

Keşmişdə qaçaqaç imiş. Amma bilmirəm, erməni qovluyur qaçıllarmış, yoxsa elə belə. Güney tərəfə qaçıllarmış. Yarısınadək qaçıfdı. Qaçıf çıxıf, amma o gəlin qaça bilmiyif. Deyif:

– Ya Allah, məni ya quş elə, ya daş elə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qurban olduğum bunu daş eliyif. İndi həmən qaya durur. Uşağı kürəyinə şəlləkli, başında yaylığı, əlində sumkası güneyin döşündə beləcə görükür ki, çıxa bilmiyif. Yanında iki qaya da var. Daa bilmirəm o nə qayadı. İnsan şəkli deyil, elə belə qayadı da, daş.

## 113. ÇAYLI KƏNDİ

Zəngilan tərəf bizə tərəkəmə deyir, biz də olara Çaylı deyirik. Ona görə ki, biz dədə-baba köçəri olmuşux. Nikolay vaxdında dağa köşmüşüh, sentyabr ayında qayıdıf gəlmişih arana. Sovetin vaxdında da bir müddət camaat getdi, gəldi. Sohra kalxoz oldu. Çaylıda çəltih əkilirdi, pambığ əkilirdi qabaxlar. Onlara Çaylı deyirdih çayın qırağında olduğuna görə.

## 114. HACILAR KƏNDİ*

Aşağı zona ki var – Muğan tərəf, onnar haca gedəndə də, gələndə də Hacıqabulda toplaşırmışdar. Amma bu zona kı var – Zaqatala, Qax, Balakən, Tərtər, bular həmişə haca gedəndə bura (Hacılar kəndinə – top.) toplaşırmışdar, Xudapirimdən** keçif haca gedirmişdər. Haca gedənnərin toplaşma yeri bura olduğunnan kəndin adı onnan qalıf.

# MÜXTƏLİF MÖVZULU RƏVAYƏTLƏR

## 115. QIŞIN DOSTLUĞU

Qışnan biri dosd olur. Çox söhbətdər olur aralarında. Nəhayət, baxıf görür havalar yavaş-yavaş soyuyur. Qışa deyir ki, xəbər elə, mən heyvan üçün ot tədarükü görməmişəm, odun tədarükü görməmişəm. Gələndə mənə deyərsən, mən hazırraşaram da.

Deyir:

– Yaxşı.

---

* Hacılar kəndi – Ağcabədi rayonunda yerləşir.
** Xudapirim – Xudafərin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəli, vaxd keçir, payız gəlir çatır. Qışın gəlməyi başdıyır. Bir səhər durur görür ki, sağ tərəfdə hündür bir dağ var, ora qarrıyıf, qar yağıf. Aradan beş-on gün keçir, baxır görür ki, sol tərəfdə hündür bir dağ var. O dağa qar yağıf. Bir beş-altı gün keçif, duruf görür ki, arxa tərəfdə bir dağ var. O dağa qar yağıf. Elə yağıf yumurta boyda. Bir səhər də duruf görür ki, həyətə nətər qarrıyıfsa, qapını açır, qar doluf içəri. Qışı çağırır. Deyir ki, biz dosdux?

Deyir:

– Hə.

Deyir:

– Bəs sənə demədim ki, gələndə mənə xəbər elə, hazırraşım.

Deyir:

– Xəbər eləməyim nətər olur ki? Buynuzu olur xəbər eləməyin? Xəbər elədim da. O dağa yağdım, səə bildirdim ki, bax, yağdım bura. O dağa yağdırdım, səə bildirdim ki, qardı ha, qış gəlir. Arxadakı dağa yağdım, qarşıdakı dağa, daa yer qalmadı. Sən başa düşmədin ki, bir gün də sənin qapının ağzına qarrıyajaxdı. Daa bunnan yaxşı bildirməh necə olur?

Hə. Qış məlumatını helə dosduna verir.

## 116. İNAM

Biri gəlir görür ki, molla çayın kənarında dəsdəmaz alır. Deyir:

– Molla dayı, mən üzə bilmirəm, mənə bir barmax dua yaz, bu çaydan keçim.

Molla yazır duanı, verir buna. İnama gətirirəm ey, inam ayrı şeydi. Girir suya, qaça-qaça keçir o üzə. Molla qalır bu üzdə. Deyir:

– Molla dayı, sən də keç.

Molla deyir:

– Yox, bala, qorxuram.

Deyir:

– Nətər ə, mən sənin bir barmax kağızınnan keşdim, indi sən keçə bilmirsən?

Deyir:

– A bala, sən inam gətirirsən, mənsə qorxuram.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 117. YAXŞI QONŞU

Deyir bir gün bir kişinin ayləsi elə vəziyyətə düşür ki, evi satmax isdiyir. Elan verir. Ev alıcıları gəlir bının qapısına. Deyillər:

– Evi neçiyə verirsən?

Deyir:

– Vallah, evi bı qiymətə verirəm, hamma qonşumu bı qiymətə verirəm, satıram saa.

Deyillər:

– Bı nətər olan şeydi?

Qonşu da bını eşidirmiş öz həyətinnən. Evi satan kişi deyir:

– Mənim qonşum o qədər mehriban qonşudu ki, onu evimnən baha verirəm saa. Qonşumu alsan, evi verəjəm, almasan, vermijəm.

Qonşu bını eşidir, deyir: "Ə, bı nə sirdi görəsən?" Tez addıyıf gəlir öz həyətinnən bıra. Deyir:

– A qonşu, bı nədi, bı nə əhvalatdı?

Deyir:

– Əşi, nə bilim, filankəsdən borc almışıx, indi qaytara bilmirih. Vaxt gəlif tamam oluf. İndi evi satıf onun pulunu vermək isdiyirih.

Qonşu da deyir ki, nə qədər pul boşdusan, de, mən verəjəm. Deyir, qonşu çıxardır verir. Deyir:

– Nə evi sat, nə də bir şey elə. Apar pulu ver, ev də halalın olsun.

## 118. SALAVAT ÇƏKMƏYİN SAVABI

Birinin bir əziz, bircə madar oğlu varmış. Bı gəlir qəfil ölür. Öləndə görür kü, bı vəşidi, tez üsdünü örtür. Oğlu da deyəndə kişinin elə bil yüz yaşı varmış, oğlunun da altmış yaşı dayna. Oğlu da qojeymiş. Üsdünü örtür. Qurban olduğumun biri gəlir, bının üsdünü aşdırmax isdiyəndə bı deyir:

– Aşma, aşma.

Bı açır. Açanda görür kü, həmənki adamdı. Deyir ona görə bı adam oldu ku, şərt namaz qılmaxda dəyil. Salavat hamısınnan üsdündü. Gündə üş dəfə "la ilahə illallah, Məhəmmədü Rəsullalah"



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

deyif üzaa salavat çəkməlisən (söyləyici bu yerdə salavat çəkir – top.). Gündə üş dəfə “la ilahə illallah” demək çox savabdı. Deyif bı bir dəfə üzünə salvat çəkif, ona görə qayıtdı belə oldu.

## 119. GÖLƏ QƏLƏM SANCAN

Birinin gözü görmürmüş. Allah-talıya yalvarıllar ki, xudavəndi-aləm, bının gözünü aş dayna, cavan oğlandı. Hamı çimir, bı qalır belə zəlil. Deyir:

– Ey mənim bəndələrim, onu mən həylə eləmişəm, həylə də qoymuşam. Həylə məsləhət bilmişəm, həylə şeyə layixdi. Onu mən həylə kor eləmişəm.

Olmur. Deyir:

– Yaxşı, açajam, – bəndələrinə deyir. Bı gəlir açır.

Gedillər gölə çimməyə. Bu oğlan habelə qələmə qayırır çoxlu, aparır sancır gölün dibinə. Uşaxlar hoppanıf çimdihcə qələmə qarınlarına batır, qan axır. Allah qayıdır deyir ki, sizə demədim mənim hesabıma əl qoymuyun.

Allah hər küşdənin əməlini öz qabağına qoyur.

## 120. CƏNNƏTİN QAPISINI BİRİNCİ AÇAN

Biri atasına deyif ki, ateyi-mehriban, görən cənnətin qapısını kim açacax birinci? Deyif:

– Bala, bırda bir naxırçı arvadı var – Xeyri arvat var, o açacax.

Deyif ki, nətəri? Deyir ki, o açacax da.

Gedir görür kü, bı Xeyri arvad oturuf cəhrə əyirir. O namazımıza qoşulan Xeyri arvat. Ona görə də namazımızda deyilir ki, xeyir işdər sahibi olax. O arvadın adınnan qalıf. Görüf kü, oturuf cəhrə əyirir, yanında balaca ağ quruşqada su, üsdündə də bir belə quru çörəh, yanında da bir uzun çombax. Bına sual verir. Deyir ki, niyə belə?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ona görə ki, mənim ərim axşama kimi naxırdadı, mən yaxşı çörəh yesəm, yaxşı çay işsəm, günah elərəm. O çombax da onnan ötəridi ki, ajığı tutanda məni vırsın.

Yoxsa indikilər kimi? Baş yoldaşın yolu ağırdı, bala. Onçün də birinci cənnətin qapısını həmən Xeyri arvad açıf. Namazımızın, cənnətin qapısını həmən Xeyri arvad açıf. Qırx dəvəən avsarını o çəkif.

## 121. YONQARINA BƏRƏKƏT

*Söyləyicinin dediyinə görə, evlərini təmir edəndə ustadan aylıq qazancını xəbər alır. Usta yüksək bir məbləğ deyəndə təəccüb edir ki, nə üçün bu qədər qazancı olduğu halda gileylənir? Usta deyir ki, bizi peyğəmbərin qarğışı tutub, ona görə nə qədər qazansaq da, yonqar kimi sovrulur. Ardından da bu mətni danışır.*

Deyir, bir dülgər işinin müqabilində bir təlis* pul alıb yol ilə gedirmiş. Bu zaman qarşısına bir peyğəmbər çıxır. Salamlaşıb hal-əhval tutandan sonra peyğəmbər təlisə işarə edir ki, bu nədi belə aparırsan? Dülgər fikirləşir ki, əgər desəm ki, bu puldur, peyğəmbər deyəcək apar bunu kasıb-kusuba payla. Mən də ki, pulumu heç kəsə vermək istəməyəcəm. Aramızda inciklik düşəcək. Odur ki, deyir:

– Peyğəmbər sag olsun, mən bir dülgər babayam, bu təlisdəki də işlədiyim yerdən götürdüyüm ağac yonqarıdı, aparıram evdə sobada yandıram.

Peyğəmbər baxıb deyir:

– Allah yonqarına bərəkət versin.

O zamandan dülgərlər nə qədər çox pul qazansalar da, pulları deyil, yonqarı bərəkətli olur.

## 122. MİN ŞÜKÜR

*Söyləyicinin dediyinə görə, bu mətni taksi sürücüsündən eşidib. Taksi sürücüsü öz halına şükür edərək bu mətni danışıb.*

---

* təlis – dəsmal



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir gün bir vəzir padşahın yanına gəlir. Deyir ki, şah sağ olsun, ölkədə dolanışığı düşən adamların sayı aşıb daşır, hamı narazılıq edir. Padşah bir az fikirləşib vəzirə deyir ki, get o adamları vəzifəsinə və işinə görə sıra ilə düz. Sonra hər kəsə de ki, özünnən sonra gələnin vəziyyətini öyrənsin. Vəzir gedir, əvvəl özü durur, sonra vəkili, ondan sonra saray əyanlarını, tacirləri, bənnaları, onların şəyirdləri, işi-gücü olanlar, əlsiz-ayaqsızlar düzülür. Vəzir özünnən sonra baxır vəkilə və fikirləşir ki, mənim bir işim-gücüm var, otururam padşahın yanında, onun yeyib-içdiyinnən yeyib içirəm. Buna da min şükür. Vəkil baxır sarayın əyan-əşrəfinə, öz-özünə deyir ki, elə mənim də bu sarayda vəzir qədər hörmətim var, yeri gələndə padşah mənim də fikrimi soruşur. Ailəm də heç vəzirinkindən pis dolanmır, min şükür. Saray əyanları da baxır tacirlərə, fikirləşirlər ki, bunlar bir tikə pul qazanmaq üçün ölkələr gəzirlər. Onlar da öz rahatlıqlarına min şükür edirlər. Belə-belə növbə gəlir digər sənət sahiblərinə. Onlar da özlərinnən sonra gələnlərlə özlərini müqayisə edib, şükür edirlər. Əlsiz-ayaqsızlar da gözləri görməyənlərə baxıb deyirlər, Allah, sənə şükür, bizim gözümüz var, bu dünyanı görürük. Qəbirstanlığın yanında duran kor ayağı altda yatanları düşünüb, öz halına şükür edir. Beləliklə, camaat arasında narazılıq yatır.

## 123. XEYİR ƏMƏL

Qayınanam deyərdi ki, heç kəsi yeyəcək bir şeylə umsundurma. Əgər umsundurdunsa, həmin yeməkdən ona da ver. Verməsən, yerin cəhənnəmdir.

O danışırdı ki, iki qonşu olur. Biri çox kasıb, o biri qonşu isə çox varlıymış. Bir gün varlı qonşu müqəddəs yerlərə həcc ziyarətinə getməyə hazırlaşır və həmin günü həyətində heyvan kəsir, varlı dost-tanışını da yığıb qonaqlıq verir. Bişirilən kababın iyi ətrafa yayılır. Kasıb qonşunun bir hamilə gəlini var imiş. Gəlin kababın iyindən çox narahat olur. Gəlinin qayınatası gizlincə pişiyi tutur, dalda bir yerdə kəsir, pişiyin ətindən kabab çəkib gəlninə yedizdirir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sabahısı günü zəvvarlar yola düşür. Ziyarətə çatırlar. Varlı yatır, çox qəribə bir yuxu görür. Yuxuda müqəddəslərdən biri ona deyir ki, ay filankəs, sən niyə belə yubanmısan, sənin kasıb qonşun səndən əvvəl mənim ziyarətimə gəlmişdi. Varlı buna inanmır, deyir ki, bu ola bilməz. Çünki o adamın bura gəlmək imkanı yoxdur. Müqəddəs ona deyir ki, mən əlimi yağa bulayıb onun kürəyinə vurmuşam. Varlı ziyarətini başa vurub evinə qayıdır. O qədər həyəcanlı olur ki, öz evinnən qabaq qonşuya gedir və onun arxadan kürəyinə baxıb görür ki, bəli, adamın çuxasının arxasında beş barmaq şəkili düşüb. O zaman başa düşür ki, xeyir əməl çox vacibdir.

## 124. AĞLARSA, ANAM AĞLASIN

Deyir qədim zamanlarda bir oğlanla bir qız olur. Bunlar bir-birini çox sevirmişlər. Bir gün oğlan xəstələnib ölür. Oğlan o dünyada gəzdiyi vaxt görür bir göl var, kənarında da bir qoca kişi oturub. Yaxınlaşır soruşur ki, bu nə göldü belə, burada niyə oturmusan? Kişi cavab vermir, oğlan da çıxıb gedir. Üstünnən xeyli zaman keçir, oğlan gəzə-gəzə gəlib bir də burdan keçəndə görür ki, gölün suyu xeyli quruyub, amma qoca yenə gölün kənarında outrub. Yenə də qocaya nə sual verirsə, qoca cavab vermir. Üstünnən bir müddət də keçir. Oğlan bir də həmin kişiylə rastlaşır. Görür ki, qoca oturub gölə baxır. Ancaq göl elə quruyub ki, lap bir ovuc qalıb. Oğlan bu işə lap mat qalır. Yenə qocaya deyir:

– Ay əmi, bu gölün suyuna nə olub, niyə quruyub?

Qoca bu dəfə dilə gəlib deyir:

– Oğul, bu gölün suyu, sənin üçün o dünyada ağlayanların göz yaşından əmələ gəlmişdi. Hər gün sənə ağlayanların sayı azaldıqca, bu gölün suyu da qurudu. Hətta səni sevən o qız belə ağlamır. Bu qalan su isə sənin ananın göz yaşlarıdı. Çünki o, hələ də ağlayır.

*Söyləyici bu mətni yas məclisində eşidib.*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 125. AYININ QIZI OĞURLAMASI

Ayı bir qızı oğurruyur aparır. Bunu kadını kimi saxlıyır. Bu olmuş şeydi ey. Yalan şey döyül. Kişilər söhbət eliyəndə eşitmişəm. Bu kadın hamilə oluf. Bunun ayıdan iki dənə oğlu oluf. Ayı gedirmiş alaçığ evlərdən motal gətirirmiş, yağ dərisini oğurruyuf gətirif qoyurmuş bunun yanına. Bişmiş çörəyi gətirif yığırmış ora. Çox vaxdan sora o uşaxlar da iriliyif-eliyif. Ova-zada gələn oluf. Səs-küyə ayı burdan uzaxlaşıf. Ayı bunu güdürmüş, qoymurmuş. Kahası var imiş. Onun qabağına elə daş yığır ki, on adam onu aşıra bilməzmiş. Bu kadın çıxır, ovçulara qoşulur gəlir.

## 126. İLAN DAVASI

### I mətn

Palaçı* Məmməd oluf. İlannarı o taydan o keçirif bəriyə. Deməh, bı Qavırrı yaylağında bılar vırışıflar. Naxçıvan tərəfdədi. Bı Naxçıvan ilannarının padşahı İran ilannarına əmr eliyif ki, saa müharibə elan eliyirəm, hazır ol. Bı padşah da qoşununu cəm eliyif.

Üş min ilan oluf, gəlif Arazın qırağına ki, keçə Diri dağı tərəfə, ordan da gedə Naxçıvana. Bı ilannardan iki başçı gəlif, bı Palaçı Məmmədin biri o tərəfini kəsdirif, biri də bı tərəfini. Bı nağarajax? Əlacı kəsilif, ilannarı yarı-yarı, hissə-hissə yığıf palanın üsdünə, çəkif bəriyə, bəri taya. İlan da çox ağır olur, heylə olduğuna baxma. Daşıyır, axırda bir qara ilan bının barmağınnan vırır. Bı gəlir bıların başçılarının yanına ki, bəs belə-belə, sənin ilannarınnan biri mənim barmağımnan vırdı. Bı padşah bının barmağını alır ağzına, nə ki zəhər var soorur hamısını, soorur tüpürür. Sohra da əmir eliyir, bı ilannar tökülür bı qara ilanın üsdünə, onu tiftih-tiftih eliyillər, bir sümühləri qalır. Bı ilannardan bir azı Diri dağı isdi olduğunnan qalıllar bırda, tay gedə bilmillər. Onnan Diri dağı heylə ilannığ olur.

---

* palaçı – bərəçi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Həə, bılar gedif çıxıllar o Qavırrı yaylağınnan bəriyə, bir dərənin başına. Orda bir Bunyovka dəyirmanı varıydı, onu biz görmüşdüh, mən özüm çox görmüşdüm. Siz hardan göreydiz. Bı dəyirmançı baxır ki, bı ilannar gəldi, girdi bının dəyirmanına. Sayır, görür düz iki yüz ilan girdi bının dəyirmanına. Dəyirmanın suyu kəsilir, işdəmir. Səhər olur, bı baxır ki, bı ilannar başdadı dəyirmannan çıxmağa. Sayır, görür yüz doxsan dokquzu çıxdı, biri çıxmadı. Gedir oların qəməndirinə deyir ki, sənin ilanının biri qalıf mənim dəyirmanımda. Çıxmır ki, mən dəyirmanımı işdədim. Deyir, o nətər fit verirsə, o ilan əlbəəl ordan çıxır gəlir.

O dərədə bıların böyüh davası olur. İndi bir dənə də o dərədə ot bitmir. Teyxa ilan qanıdı, ilan zəhəridi. Biz onnan çox götürüf gəlirdih. Elə bil ki, qoyunun yelini gələndə* biz onnan avışdırırdıx, elə onnan da qayıdıf gedirdi. O davadan düz iki yüz ilan salamat çıxır, sağ qalır. Onun birinin quyruğu yox, birinin yarısı yox, birinin gözü kor. Hamısı yaralı, şikəst. Gəlillər, bıları təzədən Palaçı Məmməd keçirif o taya. Biz hər yaylağa gedəndə o torpaxdan gətirirdih.

### II mətn

Muğan tərəfdə oluf, bunu yaşdı kişilər söhbət eliyiflər. O formu ilan sürüsü gedir, heş kəsə də dəymir, toxunmur. Böyürbaşıynan da gedən var. Belə-belə (söyləyici başını sağa-sola çevirir – top.) eliyə-eliyə gedir ki, toxunmuyun, dəymiyin. O ilannardan biri suyun üzüynən getdi, nətər elədisə, o taydan qayığı sürdülər gətdilər düz Kürün qırağına. Hamısı yığıldı o qayığın içinə, bax bu forma, qayıx da keçirdi o üzə. Üş günnən sora bax bu forma gəlirdi. Çoxusunun quyruğu yoxuydu, beli yaralı, qanı axa-axa. İlannarın da müharibəsi oluf. Olufdu, həqiqətən də, olufdu heylə şey.

---

* yelini gələndə – döşü şişəndə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# II. VERGİLİ ADAMLAR

## 1. GÖZ ƏTİNİN TƏMİZLƏNMƏSİ

Gülnisə addı arvat varıydı. O gözə ət gələndə onu silkirdi*. Bir qaba su tökürdü. Qırx dənə buğdanı əlində saxlıyırdı. Bir-bir həmən gözün üsdünnən salırdı suya, qaba. Amma onun orda dediyi sözdər də varıydı. O sözü bilmirəm mən. Yalannan özümnən qura bilmərəm. Sohra da içində buğda olan suyu üş dəfə adamın başına fırrıyıf o sudan çırtdadırdı ət gələn gözə. Onun da sözü varıydı. Sohra ona nəzir verirdi gözünə ət gələn adam, qəbul olsun deyənə. Qəpiydən, qəntdən, qənfetdən, nəzirsiz olmaz. Qardaşı ölənnən sohra verilmişdi vergi. Onnan başqa heş kimdə yoxuydu o vergi.

## 2. İLAN TUTAN SEYİDLƏR

### I mətn

Bı Sofu Usufun əsli İrannan gəlmişmiş. Onun üç oğlu vardı. O kəntdəri gəzərdi. Özü söhbət eliyirdi ki, məni urus gəldi apardı. Dedilər ki, dağda mağarada bir əjdaha var yekə, onu tutmalısan. Üş dənə cızıx çəkdim çəliyimnən dairəvi. Oxudum, qışqırdım, oxudum, qışqırdım. Gördüm kü, oyanıf gəlir. Gəldi birinci cızığı keşdi, ikincisini keşdi, üçüncüdə qışqırdım, dayandı. Tutdum qoydum meşoğa, verdim olara. Maa təzə pal-paltar, qəsdum, pul verdilər.

### II mətn

Bir dəfə məni qolumnan ilan bərк çaldı. Dədəm Sofu Usufu çağırdı. Gəldi qolumu lezviynan doğram-doğram elədi (söyləyici açıf qolunu gösdərir. Sol qolu, həqiqətən, doğram-doğramdı – top.). Durdu qatıxdan çoxlu sürtdü. Zəhəri sığadı töhdü yerə. Sohra dədəm Musa bına dedi ki, ay Sofu Usuf, çağır o ilanı gəlsin, görəh nətəri ilandı, baxax. Dedi:

---

* silkirdi – götürürdü, təmizləyirdi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A Musa, sən Allah, üz vurma. Onsuz da günaha batıram. Oları çağıranda yalan demiş oluram. Oları çağıranda dua oxuyuram. İlannar da elə bilir ki, dünyanın hər tərəfi od tutuf yanır, bircə mənim qarşım salamatdı. Ona görə də gəlif düz ayaxlarımın altında durullar. Axı dünya od tutuf yanmır, yalan demiş oluram.

**III mətn**

Sofu Suf Qumlaxdandı. Amma çox güjdü sofuydu. Bir dəfə Niqalay vaxdı, bının cavan vaxdı İran xanı gəlif Xudafərini addıyıf bı taya. Bının bir sofusu oluf, onu da gətirif. Deyif, gəlin sınaxdan keçirəh, görəh sizin sofu güjdüdü, yoxsa bizim sofu. Bı İran sofusu tutduğu ilanın zəhər dişini çıxardıf. Bı sofu ilanı bıraxıf. Xan bına deyif ki, tut onu. Bı gülüf. Deyif:

– O ilanın zəhər dişini çıxardıflar.

Əl atıf tutuf. Sohra deyif, maa bir saj gətirin, çörəh sajı. Bir də bir ojax qalıyıf. Torbasında çoxlu ilan oluf. Gözdüyüf, bı saj bir azca isinif. Sohra ilanın birini atıf bı sajın üsdünə. İlan da isdidən ajıxlanır, ajığı tutur. Sohra əl atıf ilanı tulluyuf yerə, deyif:

– Tut.

İran sofusu qorxuf qaçıf. Bı təzədən əl atıf ilanı götürüf qoyuf qoynuna. Bı İran xanı bına çoxlu ənam verif.

Mən özüm onnan yaxın olmuşam, onun evində olmuşam, çay işmişəm. Həmişə həyətində çoxlu cürbəcür ilannar olufdu. Heş kimə dəyif toxunmurdular. O, ilanı çağıranda üş dənə belə yumru dayirə cızırdı. Kiminsə evinə, tavlasına ilan girəndə gedif onu gətirirdilər. O da gəlirdi, cızıx çəkirdi, başdıyırdı dua oxumağa, ilanı çağırmağa. Özü də bı vaxt çox möhkəm tərriyirdi. Teyxa su olurdu. İlan da gəlif yatırdı, qıvrılırdı onun cızığında. O da tutuf ya qoynuna qoyurdu, ya da torbasına.

Özü də o çox güjdü sofuydu. Seyitdərdən belə güjdüydü. Özü seyid dəyildi, amma hörməti seyitdərdən çoxuydu. Camaat ona çox hörmət eliyirdi. O vaxt hamı gedif anbardan buğda, peyin götürürdü. Biri deyirdi ki, mənim payımnan on kilo, biri deyirdi əlli kilo



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kəsif verərsən Sofu Suf aparar. Beş-altı dəfə də mən maşınnan aparmışam onun taxılını. Bir də görürdün dört-beş ton taxılı olurdu.

Bir dəfə mən maşını aşırdım. Nəysə, heş işdərim yaxşı olmurdu. Getdim onun yanına. Bir göy daşı varıydı. Daşın üsdü teyxa ilan gözü kimiydi. Onnan baxdı. Maa dedi ki, yaxşı görükmür, şoferrihdən bir az uzaxlaş. Belə-belə hər il getdim, maa dedi, hələ icazə yoxdu. Düz beş ildən sohra maa dedi ki, indi qayıda bilərsən sənətaa. İndi yaxşı görükür. Onnan sohra mən təzədən qayıtdım maşın sürməyə.

### IV mətn

Bir qız çıxır ağaca. Ağaca çıxanda bu qızın əyağınnan ilan vurur. Çığırır, gedillər düşürüllər. Bu ilan gedir girir bu ağacın kökünə. Gəlir ağam belə cızığı çəkir. Hökm eliyir ki, ilan çıxsın çölə. Bütün ilannar yığışır gəlir o cızığa. Mən özüm gözümnən görmüşəm. O ilan çıxmır ağacın kökünnən. Görür kü, üş yüz yaşı var, bunun bığları var, buynuzdarı var ilanın. Deyir ki, ilannarın pətşahıdı bu ilan. Buna deyir ki, sən niyə çıxmırsan? Deyir ki, mənim nəvəm vırdı o qızın əyağınnan. Deyir:

– Sən vurmamısan, niyə çıxmırsan?

Deyir:

– O gəldi maa tabe oldu. Mən onun pətşahıyam.

Bala, ilanı hökmüynən gətdi o cızığa. Belə cızığı çəkirdilər, belə bax, bu xətt kimi yol qoyurdular. İlan o xətnən gəlirdi orda qıvrılırdı. Ağ ilan ayrı yığılırdı tayfa-tayfa, qırmızı ilan ayrı yığılırdı tayfa-tayfa, qara gürzələr ayrı yığılırdı tayfa-tayfa. İlannarın da tayfası var e, bala. Qırmızı ilan, uçağan ilannar ortada qalırdı həmişə. Bala, bu fakdı, indi bu saatı da var.

## 3. FALA BAXMA

Allah-taladan üş gün ölü qalıf. Ayılannan sora vergini veriflər ona. Atamın anası gəliniydi. Bir gün yanımızda iyirmi qəpiyi atdı suya. Qəpiyin yannarı yumru oldu. Dedim: “Mama, o nədi?” Dedi ki, insandı, saa su görükür. Söhbət eliyirəm onnan. Mis kasada suyu qoyurdu qabağına. Təsbehi üş dəfə kasanın başına hərriyirdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İyirmi qəpiyi də atırdı ora. Başdıyırdı adamın taleyinə baxmağa. Adı Nənəxanım idi. Arayatılıydı, bizim kəndə gəlin gəlmişdi. Dedihləri də düz çıxırdı. Elə hey deyirdi ki, bir vaxt gələjəh, dünyanı su alajax. Maa demişdi ki, taleyin pozulajax, ordan çıxassan. Elə helə də oldu. Mən də birinci evimnən çıxdım. Ordan çıxannan sora altı uşağın yiyəsi oldum.

## 4. BUTA VERMƏ*

Ana babamın bircə oğlu vardı, vergi verilif ona. Heş kim inanmıyıf. Bütün kənd gəlif. Bir həftə dayım yatıf. Yatannan sora ayılıf ki, mana vergi verilif, badə içmişəm. Göyçayda Sarı Aşıx deyillər, onun qızını maa buta veriflər, gedəjəm onu gətirməyə. Qızın da adını deyir ey. Nənəm deyir, hamı düşüf əlinə-ayağına, bunu fikrinnən döndərməh isdiyiflər. Deyif:

– Yox, gedəjəm.

Tutuf ağaca bağlıyıflar, qoymuyuflar gedə. Sora bunu sınamax üçün deyiflər ki, bajın hamilədi. De görəh, onun nəyi olajax? Deyif ki, iki dənə qızı olajax. Həqiqətən də iki əkiz qızı oluf. Dədəmə deyif ki, filan yerə sazımı qoyajaxlar, çimif pak olarsan, gedif onu gətirərsən. Yatırmış, yuxuda nə deyirmişdərsə, onu eliyirmiş. Dədəm gedif bunun sazın gətirir verif özünə.

Sora gedif cindar gətiriflər. Nənəm deyir onu nəynənsə mundarradılar. Onnan da dayımın səsi batdı. Dayım onnan sora xəsdə düşdü, öldü.

---

* Bu mətn Bərdə rayonunun Dəymədağıldı kəndindən qeydə alınıb.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# III. OVSUNLAR

## 1. İLAN DUASI

Bala bı duanı oxuyanda, bını oxuyuf bağa, baxçıya, sahiyə girəndə ilan heş vaxt saa toxunmaz.

Ərəb, ərəb ahıyam,
Ərəblərin şahıyam.
Ərəb oldu bir kişi,
Bağlandı ilan dişi.
Süleyman peyqumbərin pıçağı məndə,
Fatma ananın saçağı məndə.
Dəymə maa, ay Allahın heyvanı,
Dəymə maa, ay Allahın ilanı.

## 2. QURDAĞZI DUASI

### I mətn

Gündüzdən düyə doğuf qalıf örüşdə, bilməmişik. Sohra gejə məlıdi. Baxdıx ki, doğufdu, balası da qalıf örüşdə. Gejə vaxdı hara gedeydih. Nənəmin nənəsi dedi ki, qurdun ağzını bağlıyım, sabaxdan nə olar, olar. Gejə vaxdı hara gedəjeyih. Pıcağı götüdü, ağzı qatdanan pıçağı. Pıçağın ağzına oxudu,

Allahdan fəmənt,
Dörd yanı kəmənt.
Açarı Süleyman,
Kilidi Məhəmmət.

Dedi, pıçağı qatdadı qoydu döşəyin altına. Sabaxdan durduğ inəyi buraxdıx, düşdüh dalına. Getdih, bir əlli metr qalmış məlıdi. Bir də gördüh kü, bızav yovşannıxdan durdu, inəh yüürdü balasının yanına. Gördük sağdı, götdük gəldik.

Həmin arvat bir şey olanda tez qurdun ağzını bağlıyırdı. Mənim bildiyim budu, daa başqasını bilmirəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### II mətn

Canavarı tutanda canavarın dodağını kəsif saxlıyıllar. Heyvana canavar düşəndə o kimdədisə, onu alıllar, aparıf suya salıllar. Onun suyunu da aparıf heyvanın üsdünə səpillər. Heyvan qurd ağzınnan çıxsın deyənə.

### III mətn

Anam rəhmətdih qurdun ağzını saçıynan bağlıyardı. Diyirdi:

Ayı gördüm ağladım,
Gülü dəsdə bağladım.
Fatma nənənin saçıynan,
Peyğəmbərin bıçağıynan
Qurdun ağzını bağladım.

Bunu oxuyup saçını bağlıyırdı. Səhər heyvan gələndə onu bağlı qoymurdu, açırdı. Deyirdi günahdı, o da özünə yem tapmax isdiyir, mən onun ağzını bağlamışam. Səhər onun ağızını açırdı. Amma kəntdə bir kişi varmış, heyvanı itəndə deyirmiş ki, a bala, canavar gedip bazardan, tükannan ət alıp yemiyəjəh, qoy biri də qalsın, canavar yesin də.

### IV mətn

Bıçağın ağzını açırsan. Bıçağın ağzına "Ayətül-kürsünü" oxuyursan. Üfürüf qatdıyırsan, qurdun ağzın bağlıyırsan. Ona da sərhəd qoyursan, elə-belə üfürüf bağlamax olmaz. Deyirsən beləsi filan yer, beləsi filan yer, bunun arasında olan qurdun ağzını bağlıyıram. Bir də deyəllər ki, qurd ağzı oxunan bıçax suyun üsdünnən keçəndə təsirdən düşər.

## 3. UŞAĞIN ÇİLƏDƏN ÇIXARILMASI

Qurdu öldürüllər, onun ağzını halqa-mərəkə soyullar. Ona qurdağzı deyillər. Biri varıydı bizdə. Köçənətən dururdu. Çilləli uşağı, yerimiyən uşağı onun ağzınnan keçirirdilər. Üş dəfə keçirirdilər. Qonşumuzda bir arvat varıydı. Onun nəvəsinin iki yaşı varıydı, yerimirdi. Gətirdi bı arvada dedi ki (söyləyici yanındakı qoca arvadı göstərir – top.), – əlində də bir çəngə ot, bir də bir çatı, ip, – otu qoy uşağın qabağına, ipi də sal uşağın boynuna. Denən ki, malsan, otu ye, adamsansa, dur yeri. Uşağ onnan iki-üç həfdə sora durdu yeridi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# IV. ETNOQRAFİK MƏTNLƏR

1. Deyillər insanın ağzınnan ruh çıxır, qalır havada. Havada dövr eliyir. İndi deyilənə görə, hər cuma axşamı ölülərindi. Bunu ölülərə veriflər. Hər cuma axşamı ölüsü təzə ölən, ölmüyən yeməh bişirir. Bir duz atır ki, bu ocaxdan gedənnərin adına atıram. Guya həmən gejə ruh gəlir, o evdə hərrənir. Gəlif görsə ki, burda şənnihdi, yeməh bişir, şad gedir. Gəlif görsə ki, yeməh-zad bişirmirlər, heş-zad yoxdu, kor-peşman qayıdıf gedir.

2. Adına günü gərəh evdə yağ-soğan eliyəsən, bişmiş qazanın ola. Ölülərin ruhları məleykəynən qonax gəlillər. Gəlif görür ki, samavar qaynıyır, nəsə bişmiş var ojağın üsdündə, deyir ki, Allah sənnən razı olsun. İrazı gedir. Elə ki, gəlir görür ki, irağ olsun, evdə dava-şava, heş nə yox, deyir: "Allah, hər iki cahanda üzüü qara eləsin".

3. Adına günü yun daramağ olmaz, iş görməh olmaz. Məleykələr bişmiş bişirirmiş, düyünü yuyurmuş. Görüf kün, bajısı düyünü o tərəfə addadır, bu tərəfə addadır. Deyif: "A bajı, niyə düyünü o tərəfə, bu tərəfə addadırsan?" Deyir: "Gözü çıxmış yun darıyır, yunun tükü gəlif bişirdiyim bişmişə tökülür, düyüyə tökülür. Ona görə də belə çöyürürəm ki, tük keşməsin". Elə onnan da həmən kadının gözü tökülür.

4. Ölü ölənnən sora aparıllar basdırmağa. Orda qəbri kim qazacaxsa ordan götürdüyü torpağı yeddi addım sayıf qoyur aralıxda, sora basdırıllar. Camaat gedənnən sora, deyir, həmin adam yox, kimliyinnən asılı olmuyarax, hər kim o torpağın üsdünə çıxar. Ordan yeddi addım aralanannan sora inkir-minkir ölən adamı dirildir. İsdiyir lap tikə-tikə doğranmış bir adam olsun. Allah-tala ona can verir. İnkir-minkir onnan sorğu-sual alır. Ta o vaxda qədər ki, o sorğu-sualı onnan ala bilsin. Məsələn, soruşullar ki, Rəbbin kimdi, nəbin kimdi, dinin, Kəbən. Bu dört şeyi soruşur sənnən. O cənnət-cəhənnəm, savab-günah, olar qalır qiyamət gününə. Nə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

vaxtsa olajax. İnkir-minkir bu sualı verir, almıyıncaya qədər toppuzun səsdəri eşidilir. Elə bədheybət səsdər çıxır ki ordan, ürəyi gedən, dəli olannar olur. Torpağın üsdünə çıxır, o səsdər mütləq onun qulağına gəlməlidi. O səsi düz o eşidir. O torpağın üsdündə dursan ha, başqa yerdə yox. Yanı bu yalan deyil. Bunu o vaxdı öyümüzdə eşitmişdim ki, kimsə eliyif, ürəyi partdıyıf ölüf. İnanmıyıf heylə. Deyif, yalandı, ola bilməz.

*Söyləyici bu mətni nənəsindən eşidib.*

5. Ölən adamın ruhu gəlir, yoxluyur cumadan cumaya. Görür ayləsinin hamısı ordadı, şad gedir. Görür yox, bekaf gedir. Deer: "Allah sizə nəhlət eləsin, hardasız?" Ölünün qoltuğunun altınnan sağ tərəfdəki ağacı çəkillər. Bunu durğuzullar. Deyir ki, sən filankəsi belə incitmisən, filankəsə belə borcdu qalmısan. Bunun cəzalarını deerlər ki, sən cəza çəkəssən. Sora gedir. Sabahısı gəlir sol tərəfindəkini durğuzur. Deer ki, bir belə oğurrux eyləmisən, bir belə zad eyləmisən. Bunu sıxıllar möhkəm. Ohqədər sıxıllar ki, bircə çörəyin yanığı qalır bədəndə. Deer ki, niyə oğurruğ eləmisən? Əl deyir: "Mən götürmüşəm". Diş deyir: "Yemişəm". Göz deer ki, mən də görmüşəm. Qaş deer ki, mən sizdən yuxarıyam, mən heşzad görməmişəm. Onun günahını o yuyur. Əgər günahı varsa, cəzanı verillər ona. Nətər bu dünyada cəza çəkirsə, o dünyada da heylə cəzanı çəkir. Günahı yoxdursa, sakitcə yatır. O ağacı sünnüyə qoymullar, amma şiəyə qoyullar. Deyir, o, ona dayaxdı.

6. Deyilənə görə, adam ölür, aparıf basdırıllar. Yeddi qədəm bəri gələndə ənkir-minkir gedir, guya bunu tərpədir. Adam öləndə qoltuğunun altına söyüt qoyullar. Guya ona dirənif durur. Orda ənkir-mənkir gəlir onnan suallar eliyillər. Danışdırır, əgər düzəməlli adamdısa, bağışdıyır, bədəməlli adamdısa, qəbir onu elə sıxır ki, anasınnan əmdiyi süd burnunnan tökülür. Bircə əyər yanıx çörəh yeyifsə, yanıx çörəh mədədən getmir heş vaxt. Ona görə də heş kəs yanıx çörəh yemir. Bircə çörəyin yanığı qalır mədəsində.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ənkir-mənkir gedif onu danışdıranda, deyillər, guya ruh qayıdır bədənə, sora ruh ağızdan çıxır.

7. Bir gəlin varıydı. Üzü belə çopur-çopuruydu. Dedi, ay qızdar, qaynanam yaman azazılıydı. Dilənçi gəlmişdi. Birinə bir köhnə donumu verdim, birinə də bir isdəkan düyü verdim. Deyir, gəldi yuxuda mən əzəl-başdan öldüm. Deyir, öldüm, məni apardılar basdırdılar, yuxuda ha. Taa deyir gördüm divar belə yarıldı, bir yalav əyənnən bəri yandırır məni. Həmən o donu verdiyim adam var ha, gəldi gözümün qabağında həmən o donu o yırtığa basdı. O od söndü. Yanı deyir, o dünya da var, bu dünya da var. Bir də, deyir, bir az keşdi, ölmüşəm ha, bir atdı qarışqa gəldi. Başdadı üzümü-gözümü yedi. Elə onnan çopur-çopur qalmışam. Deyir, həmən düyü verdiyim adam, gəlin gətdi o düyünü səpdi, bir isdəkan vermişdim. Olar yedi, mənnən aralaşdılar. Deyir, bıy, oyandım gördüm yuxudu, oyandım gördüm üzüm sızıldıyır. Qızdar, – deyir, – Allah da var, Quran da var, gejə də var, gündüz də var, cəhənnəm də var, cənnət də var.

8. İsdirsən ki, bax bu kəndə dolu düşməsin. Dolu-zad düşməsin də. Dolu gəlif əkini, biçini aparmasın. Yeddi dənə duva yazıllar. Bir dənə bədəni təmiz, pak molla yeddi dənə duvanı yazır. İndi heylə molla yoxdu ey. İndi get bu mollalara deginən, vallah, heş biri bilmir. O yeddi duvanı, qarğını kəsillər, salıllar qarğının içinə. Üsdünü də mumluyullar. Duvanı burdan apardı, məsəlçün, Ağdaşın ərazisində aparıf birini basdırıf Türyançayda. Qayıdıf bu basdırdığı yerdən torpax götürür. Məsələn, birini aparıf basdırır o Surxay dağında. O götürdüyü torpaxdan ora da tökür, ordan da torpax götürür, hərrənir bu fason, gəlir düz bir də Türyançaya. Bu yeddi duvanı basdırır. İsdirsən dünya dağılsın, yernən göy qarışsın, o əraziyə dolu düşmür. Biz elə duvanı yazmışıx. Yolun bir tərəfi bizim taxıllar idi, o biri tərəfi başqasının. Yolun bu tərəfini dolu vurmuyuf, o biri tərəfini vuruf. Bax, belə şeylər oluf.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

9. Yağış yağmıyanda gərəh çoxlu adam yığıla, gedələr ojaxları ziyarət eliyələr. Sohrasına gələlər qurban kəsələr. Zikr eliyələr ki, ya Allah-tala, sənnən isdiyirih ki, bı zəmilərə su ver. Mal-qoyun, nə bilim, kimin nəə güjü çatırdısa, onu qurban kəsirdilər. Yığışıf da qurban alırdılar, bir-bir də kəsirdilər. Qurbanı da aparıf kəndin kənarındakı qəbirsdannıxda kəsirdilər. Hamı da gedir – arvat, kişi, hamı gedirdi. Qəbirsdannıxda ojax varıydı, ona görə qurbanı orda kəsirdilər. Şıx Baba Veysin ojağı deyirdilər ora. Sınanmış ojax idi ora. Tay bilmirdim o Şıx Baba Veys hardan gəlif. Nə niyyət eliyirdin, diləyin keçirdi. Onun ziyarətgahının altınnan deyillər İrana yol gedir. Bizim Arayatılı kəndindədi.

10. Bı əli Allah bı ələ möhtac elməsin. Niyə? Görürsən, salavat çəkəndə hərdənbir sol əlnən də çəkillər. Ona göra kı, deyillər bir az o da savaba batsın. Qanuna qalanda xamır yoğuranda bu sol əli qatmalı deyilsən, onnan yoğurmalı dəyilsən, sağ əlnən yoğurmalısan.

11. Əlhətdə qoyulanda birinci qonşunu soruşallar. Qonşunnan gərəh həmişə yaxşı olasan ki, o dünyada onun cəzasını çəhmiyəsən.

12. Yağış yağdırmax üçün pak, təmiz adamlar, belə dini, mövhumatı yaxşı, dərinnən bilən adamlar, hamısı Quran, kitaf götürüf gedif çıxıllarmış müsəlləyə. Məsələn, bir dağın üsdünə. Allaha yalvarırmışdar, dua oxuyurmuşdar. Evə qayıdıf gələnə qədər yağış yağırmış. Bax, belə şeylər hamısı həqiqətən olufdu.

13. Uşağın ili tamam olunca yeddi qurban kəsəllər. Uşaxlar oluf, yaşı tamam olunca yeddi qurban kəsdih. Ayağ açanda, dil açanda, nənə deyəndə, yeriyəndə, diş çıxardanda. Özü də qurban kəsif ayağı yalın, başı açıx yeddi əvə paylıyırsan.

14. Bir quraxlığ olanda, bir də yağınnığ olanda, taxıl bol olanda, camaat bir kəndmi, iki kəndmi, sözü qoyullar bir yerə pul yı-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ğıllar, bir mal alıllar. O malın başına ip salıf o kəndin, o sahənin başına gəzdirillər ki, kürər sözü, gələn qadadan, baladan, bizim taxılımıza, camaatımıza zərər toxunmasın. Qurbanı gətirif dedihləri yerdə kəsif, dedihləri yerdə paylıyırmışdar. Bir də quraxlığ olanda dediyim kimi hamı yığışırmış, elə bil, sənin malın varmış, satırmışsan. Sən də bir pay olurmuşsan. Dediyim kimi, o malı da kəndin, sahənin başına hərriyirmişdər ki, Allah, saa agahdı dayna, sənnən savayı bir əlacımız yoxdu. Bı qurbanı qəbul elə, bı malın da, heyvanın da qurbanını qəbul elə. Bizə urza qismət elə, yağınnığ olsun.

15. Qoyunun kəlləsini ütürsən, doğramax yeri gələndə əngini kəllədən ayırırsan. Əng sümüyünü kəllədən ayıranda əng sümüyünün başdarı ətdi qopursa, hamilə qadının qızı, sümühlər şütürüm çıxırsa, oğlu olur.

16. Bınnan irəli uşağın bir yaşı tamam olmuyunca, başına əl vırmazdar. Ona mındar tük deyillər. Bir yaşı tamam olanda uşağın başının tükünü qırxallar. Onda ya əmisi, ya da dayısı, hansı qoçax çıxsa, irəli duruf ya pul, ya da qızıl bərabəri həmən tükün çəkisincə pul verərdilər atasına, anasına, o tükü alardılar. Sohra da gənə həmin tükü dədəsinə qaytarardılar. Olar da o saçı aparıf bir yerdə basdırardılar.

17. Axşamçağı bir adama tərəzi verməzdər, verəndə də o adamnan daş alıf kirəv* kimi qaytarıf gətirif qoyullar yerinə. Əyər heylə olmasa, onda əvdəki boğaz mal, heyvan varsa, o bala salır.

18. Ayın üzü tutulanda mis qabın arxasına döyürdülər ki, ayın üzü açılsın. Özü də gedirdih küllüyün başına, şeir deyirdih. Qurban da kəsirdih (hansı duanı oxuduqları, hansı şeiri dediklərini xatırlaya bilmədi – top.).

---

* kirəv - girov



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

19. Quraxlığ olanda at başını (mındar olan at olmazdı) kəsif, bir şeyə bağlıyıf suya (çay, gölməçə, göl, nə olsa) sallıyardılar. Bı neçə gün suda qalırmışsa, neçə gün orda qalırmışsa, yağış yağırmış. Onu ordan çıxardanda yağış kəsərmiş.

20. Bunnan irəli yağış yağmıyanda, quraxlığ olanda keçmiş-dən şəhitdərimiz varıydı, – otuzuncu illərdə rusdar hajıları, hampa-zorları* öldürmüşdü – gedif onların qəbirinin üsdünnən torpağı gö-türüf təmiz axan suya atardılar. Deyirdik: "Şəhiddərimizin ruhuna torpağı atırıx, sən də yağış yağdır, ay Allah".

Bir dəfə yağış yağmıyanda Pıta addı bir arvat şəhit babasının qəbrinin torpağınnan gətirif atmışdı suya. Elə bil ki, bu gün atmışdı, sabah yağış yağdı. Sohra Maral addı bir arvat da həylə eləmişdi, yağış yağmışdı.

21. Dörd çərşənbə olur. Biri yelə düşür, yelin havasını alır, hava soyuğ olur axı, başdıyır isdiləşməyə. Biri də suya düşür, su-yun şəkkini** qırır, su başdıyır isdiləşməyə. Biri də düşür ota. Ota urusxat verilmiyincə, ot bitmir axı. Gərək canım qurban olan ona urusxat verə ki, ot bitə.

22. Toy eliyən vaxdı, o vaxdı dəvətnamə yox idi, bir dənə, iki dənə uşax düşərdi kəndin başınnan ayağına camaatı dəvət edərdi. Gələrdilər toya. O vaxdı qarmon nədi, tar nədi, heylə şeylər olmu-yuf. Ancax qara zurna, bir də balabannan toy eliyərdilər. Camaat toy üçün yaxşı at saxlıyardı, görəh kimin atı keçir. Kimin atı keçirdi varlı-hallılar gətirirdi, misalçün, sənin atına yüz kilo arpa bağış-dadım, apar ver ata.

Çörəh yeməmişdən qabax camaatın hərəsinə bir nəlbəki nə-mər paylıyardılar. İçində xurmadı, qoz ləpəsidi, belə şeylər. Nəməri paylıyanda o boşqaba biri üş maat qoyurdu. Əliyev Bayram üş

---

* hampazor – varlı, güclü adamlar
** şəkkini – soyuqluğunu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

maat, Əliyev Nazim beş maat, oğluna da borc olsun. Bax, belə olardı o vaxdarı. And içirdi, dağlarda belə alaçıxlar tikilirdi. Qara zurna çalınırdı. Ancaq gəlini öküzün belində gətirərmişdər. Cavan oğlannar alıf yedəyinə gətirərmiş.

23. Toy vaxdı on-on iki atdı yığılardı, at çapardılar. On ərşin parçadan gərdəh qururdular. Gərdəyi verirdilər onun birinin əlinə, o da götürüf qaçırdı. Atdılar da düşürdü dalına. Əlinnən ala bildi, ala bildi, ala bilmədi gedirdi ev yiyəsinnən xələtin alırdı, gərdəyi verirdi.

Gərdəyi açıx verməzdilər adama. Xəlvət onu verirdilər istədihləri bir adama ki, onu aparsın, gəlinin yiyəsinə versin, onnan xələt alsın.

24. Deyir ki, mən gedirəm Əhmədin qızını alam oğluma. Bu qızın adına əl ağacının üsdünə qırmızı lent bağlıyıf, gətirif qoyullar evin küncündə. Bunu bir on gün, on beş gün, bir ay saxlıyıllar ki, görəh bu evdə xoşbaxtlıx, yoxsa bədbaxlıx olajax. Əgər bunun ayağı düşürsə, gedəh o qızı alax. Bu, afşarrarda olan adətdi.

25. Novruz bayramında elə olurdu ki, bir də görürdün ki, bir oğlan arvat paltarı geyif ev-ev gəzir. Hansı evə isdiyir, girir, götürür xonçadan tökür cibinə, ürəyi nə isdəsə, eliyir. Heş kim də onu tanımırdı. Amma uşax-böyüh marax gösdərirdi da, görəh bı kimdi. Axırda görürdün ki, tutuf üzünü açıllar. Dinc oturmullar. Görürdün ki, oğlandı, arvat paltarı geyif gəzir. Gəlirdi girirdi evə, başdıyırdı oynamağa, pay yığırdı.

26. Elimizin yaxşı adətdəri vardı. Geri düşən adamlara kömək eliyirdilər. Tərəkəmədə belə bir şey vardı. Bir nəfər mayadan düşəndə camaat yığışırdı, deyirdillər yüz evih, hərəmiz filankəsə bir quzu verəjeyih. Deməli, yüz quzusu olurdu onun. Ağlı olan, bajarığı, fərasəti olan o yüz quzuynan maya tuturdu, vəziyyətdən çıxırdı. Amma eləsi olurdu ku, yüz quzu yığıf verirdilər. Altı aydan sora yüz quzu da çıxıf gedirdi, əli qalırdı boş. Heyləsini də kənddən çıxardırdılar. Deyirdilər, sənə düşmür bura.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

27. Qaynanam Xıdır Nəbidə pişi bişirtdirirdi, koka*. Yağın içində qızardıf pesoxluyub yığırdı. Bir yekə ləyən bişirirdi. Deyirdi bu Xıdırın payıdı, bunu sən həmişə bişir. Həmin o bir yekə ləyən kokanı mənə verib paylatdırırdı qonşulara.

Vaxdı çatanda deyirdi Xıdıra az qalıf ha, yağın, peşoğun varmı? Xamırı kündəliyif ortasını boğuf iki qatdıyırsan üsd üsdə düşür da. Qabın içinə yağ töküf orda qızardırsan. Bişdihcə də pesoxluyursan.

28. Amanat basdırmax – ölünü yuyursan, təmizdiyirsən, qüsulun verirsən, aparıf basdırırsan. Deyirsən mən bunu basdırıram, vəsiyətinə görə namazını filankəs gəlif qılajax. Filankəs də nə vaxt gələrdisə namazın ona qıldırardılar.

---

* koka – kökə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# V. İNAMLAR, YASAQLAR

1. Qarğa əti yeyən hamilə qadının uşağı lal olar.

2. Xeyli vaxt geyilməyən paltarı sandığa qoyanda üsdünə bir sancax taxıf qoyallar. Yoxsa cinnər gəlif paltarı aparıf geyif kirrəndirillər.

3. Hamilə vaxdı qadın gərəh dooşan əti yemiyə. Yesə, uşağının dodağı dooşan dodağı kimi yarığ olacax. O dooşan dodax, dooşan dodax deyillər ha, bax, o heylə olur.

4. Uşağın qırxı çıxanda arxasına vura-vura deyillər: İrəş-irəş, birdən dirəş. Bu zaman uşax qılçalarını düzünə saxlıyajax.

5. Qırxlı uşağın qırxı çıxannan sora anası onun əl dırnaxlarını dişi ilə tutar ki, böyüyəndə uşax oğru olmasın.

6. Ağlıyan uşax yaxşı olar, qeyrətdi olar.

7. Qırxlı uşağı açıx qoymazdar. Onda deyillər şeytan alladıf güldürür.

8. Qırxlı uşağın arxasını yuyanda əlini yumamış uşağın üzünə çəkəndə uşağın mındar tükü tökülür.

9. Qırxlı uşax yuxuda həm çox gülür, həm də çox ağlıyır. Ağlıyanda şeytan deyir ki, anaan məməsin kəsmişəm. Onda uşax yuxuda ağlıyır. Deyəndə ki, ataan qulağın kəsmişəm, onda gülür.

10. Təzə doğulan oğlan uşağı hakda deyillər: Oğlan uşağının onu çıxdı, donu çıxdı.

11. Oğlan uşağının göbəyi gec düşəndə deyillər ki, dalınca qardaşı olajax.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

12. Yaşı tamam olanda uşağın saçını qırxıllar. Deyillər ki, qız uşağının saçını dayısı qırxsa, onda onun saçı çox uzun olur.

13. Dölün cinsini bilməh üçün hamilə qadının qarnına əl vırırdılar. Uşax oğlan uşağıdısa, onda arvadın qarnı pilə kimi yumuşax olur. Qız olanda gəlinin qarnı göy daş kimi bərk olur. Həm də uşax gedə olanda hamilə qadın özü quş kimi yüngül olur, cəld olur. Qız uşağı olanda qadın ağır olur, ləng hərəkət eliyir.

14. Hüzür yerində, ölü yuyulan yerdə üş gün-üş gecə şam, çırax yandırıllar ki, o adamın yeri qarannığ olmasın.

15. İlan ıldız görməsə, ölməz. İlanı öldürüf basdıranda gərəh onun quyruğunu çöldə qoyasan. Gejə ıldız görə. Onnan sohra ölür. Onnan da deyillər ki, ilanı görənə nəhlət, görüb öldümüyənə nəhlət, öldürüf basdırmıyana nəhlət.

16. Qızılı ilan qoruyur. Harda qızıl basdırılıfsa, onun üsdündə ilan yatır. Əslində, o ilan dəyil ha, bala. O ilan qızıl yəyəsinin tamahıdı, nəfsidi, adamın gözünə heylə görünür. Elə biri bir küpü qazıf çıxarıf. İlanı qavıf da bir təhər. Amma neçə ildən sohra o kişini çöldə ot bişdiyi yerdə ilan vırdı öldürdü.

17. Elə bil ki, otmusan bir məclisdə, söhbət eliyirsən. Bu vaxt söhbət təsadüfən ilannan düşsə, onda niyyətin gerçəh olar.

18. Dooğanı bişirəndə gərəh onu bir nəfər bılıya, əldən ələ keçəndə o çürüyür.

19. Yerimiyən və ya gej yeriyən uşağın ayağının açılması üçün belə edillər: Böyürtgənin bir budağını, qanadını ayırıf qoyullar qırağa. Çərşənbə günü bir tərəfdə uşağın anası, bir tərəfdə də qız uşağı duruf üş dəfə həmin uşağı o qanadın altınnan verif üsdünnən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

alıllar. Bını yeddi həfdə gərəh dalbadal eliyəsən, onnan sohra o uşax yeriyəjəh.

20. Kimin əlinə, üzünə dəmrov çıxarsa, boz düşərsə, onu aparardılar nənəsini, anasını ildırım vırmış uşağın yanına. Bı da həmin yerə üş dəfə tüpürürdü. Üş həfdə eliyirdilər. Hamma bilmirəm neçənci gün eliyirdilər. Onnan da gedirdi.

21. Baş soğanı oyuf içinə duz töküllər. Orda duz əriyirdi, suya qarışırdı, soğanın suyuna. Onu damızdırırdılar ziyilin üsdünə. Gündə üş-dört dəfə, onnan gedirdi.

22. Elə bil ki, ay para görünəndə birinci dəfə, süpürgəni götürürdülər, ziyilin üsdünnən süpürürdülər. İsdər əldə olsun, isdər ayaxda, fərq eləmirdi. Deyirdilər: "Ayım, səni xoş gördüm, ziyilin yerini boş gördüm", – deyif ziyilin yerin süpürürdülər. Üş dəfə ay görünəndə eliyirdilər. O da ayda bir dəfə görünürdü.

23. İldə bir dəfə ilan qabıxdan çıxır. Dırnağının qaravışı qopannar o qabıxdan tapıf sürtürdülər ora. O qədər sürtmüşəm ki, qopmasın deyə.

24. Ojax yanan zaman toplaşallar ojax başına. Onda ağsakqallar deyərdilər ki, tüsdü kimə tərəf getsə, onun nişannısı göyçəy olar.

25. Toyux bannıyanda deyir: "Ey mənim sahibim, sənə muşdulux gələjəhdi". Elə də olur ki, deyir ki, ey mənim sahibim, evinnən təsatdıx çıxarginən. Təsatdıx da, bilirsən də, fağıra-füqəraya pay, kasıba əl tutmax təsatdıxdı. Toyuğ ya xeyrə bannıyır, ya şərə. Onu Qurana baxmaxnan bilmək olar.

26. Hədiyə banı,
Hüdüyə banı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Altı ayağı,
İki dabanı. (*Açması:* tərəzi)

*Söyləyici tapmacanın ardınca aşağıdakı inamı söylədi:* Bınnan irəli tərəzilər belə olmurdu. Əsil tərəzilər olar idi. Gejə vaxdı onu qonşuya vermirdilər. Naxır gələn vaxdı, mal ayağında vermirdilər. Bir də həmin vaxdar qapını-bajanı süpürməyə qoymurdular yekələr. Deyirdilər dini-bərəkəti, var-döyləti süpürüf atırsız əənə.

27. Uşax dünyaya gələndə əlləri, yumruxları yumulu gəlir. Yumulu gəlir ki, dünya mənimdi. Amma o dünyaya gedəndə əlləri açıx gedir ki, əliboş gedir.

28. Bayquşa gündə üç sərçə normadı. Ona əslində bəyquş deməlisən. İmamlarımızın heybəsi yananda o ağzında su gətirif atıf keçirif. Amma sərçə tuluğu deşif. Bax, bu sərçələr var ha, olar tuluğu deşif. Ona çörəh-zad atmax düzgün dəyil.

29. Bayquş gəlir qonur ağaca, başdıyır ulamağa. Deyillər ziyannıxdı. Ağbirçəx arvatdar çörəyin üsdünə duz qoyur, deyir:

– Ay bayquş, səni bu çörəyə, duza and verirəm, burdan çıx get.

Ona ağaşdan salva atmax olmaz. Atsan deyir torpağın da ver gəlsin. Ağac verdin, torpağı da ver. Qəvir axtarır. Yemək də atmax olmaz. Yemək atanda deyir ehsanın verir. Başına dönüm, onu andnan yola salmax lazımdı.

30. Saxsağan görürsən gəlif qırıldıyır qapıda. Deyirsən, ay saxsağan, xeyir söylə, xeyir söylə, nəyə qırıldıyırsan? Oğlumun oğlu oluf, qızımın oğlu oluf, günüün də kor qızı oluf. Oğlumun toyunda saa çoxlu düyü tökəjəm, ət tökəjəm, yeyəssən. Xeyirsə, yeri dəyiş. Düzdüsə, hoppanajax o qənətdən bu qənədə. O, həmişə xeyir gətirir, xeyir söylüyür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

31. Torpax qutarası şey deyil. Amma Allah ilana gündə üş dəfə torpağa dil çalmağa ixdiyar verif. Üş dəfədən artıx dil çala biliməz.

32. Göy qurşağı deyillər Fatma anamızın hanasıdı. Yağış yağannan yağana onu qurur.

33. Hava günəşlidi, amma görürsən yüngül yağış çiskinliyir. Ona çoban alladan deyillər.

34. Dədəsinin üzünü görmüyən uşağı hal aparan adamın üsdünə aparanda ayılır.

35. Ağzınnan su axan uşağı ata üzü görmüyən uşağın qılçının arasınnan keçirəndə o olmur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# VI. NAĞILLAR

## 1. QOLUNDA QIRX KƏLİN GÜCÜ OLAN KİŞİ

Bir kişi varıymış. Bu kişinin qolunda qırx kəlin gücü varmış. Həməşə güjünnən istifadə eliyif gəlif-gedən karvannarı soyuf talıyarmış. Bu kişi yavaş-yavaş başa düşür kü, gəlif-gedən karvannarı soyuf-talamaxda düz eləmir. Bir gün öz-özünə deyir: "Ay Allah, maa izn ver bir dənə karvan talıyım, sohra qolumdakı güjü al". Belə deyənnən sohra gedif yolda dayanıf gələn bir karvanı çapır. Geri qayıdanda yolu bir dərədən düşür. Görür kü, bir dərədə iki çadır var. Çadırın ikisi də teyxa qızıldan, gümüşdəndi. Kişi çağırır, amma bu çadırdan heş kim çıxıf kişiyə cavab vermir. Belə olanda kişi əl atıf çadırın dirəhlərini yerinnən çıxarmax isdiyir. Amma nə qədər eliyif çıxara bilmir. Birdən yadına düşür kü, bunun qollarındakı güc alınıf.

Elə bu vaxt çadırdan bir qız çıxıf deyir:

– A kişi, sən kimsən, niyə heylə eliyirsən?

Kişi deyir:

– Mən bir heylə çağırdım, amma heş kim cavab vermədi, mən də isdədim ki, bu çadırları söküf aparam.

Sohra kişi soruşur:

– Bəs sən kimsən, nəçisən? Bu çadırlar kimindi, maa niyə cavab vermirdin?

Qız deyir:

– Bizdə naməhrəm adam qabağına çıxıb cavab verməkharamdı. Ona görə də mən saa cavab vermirdim. Amma tay gördüm sən çadırları dağıdırsan, məjbur oldum çıxmağa. Onu bil ki, bu çadırlar qardaşımındı. Gəlif səni burda görsə, öldürəjək.

Kişi dedi:

– Bəs indi qardaşın hardadı?

Qız dedi:

– Qardaşım bir padşahın qızını isdiyir, qız da qardaşımı isdiyir. Amma padşah vermir. Qardaşım da budu neçə gündü padşahın qoşununnan vuruşur. Amma qələbə çala bilmir. Padşahın qoşunu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çoxdu. Padşah qızı da gizdədif bir quyuda, quyunun ağzına ağır, yekə bir daş qoyuf, yanına da qırx pəhlivanı gözətçi qoyuf.

Bılar söhbət eliyirdilər ki, qızın qardaşı gəldi. Gəlif kişiylə hal-əhval tutdu. Bajısına dedi:

– A bajı, bu kimdi, nəçidi?

Bajısı qorxusunnan dedi:

– Allah qonağıdı. Çörəyə qonağ elədim, yemədi. Dedi ki, evdə kişi yoxdu, mən içəri keçə bilmərəm.

Bular yeyib-içənnən sohra oğlan başına gələni kişiyə danışdı. Kişi dedi:

– Allahın köməyinnən səhər qızı sənə gətirərik.

Səhər açıldı. Kişiylə oğlan yaraxlarını qurşadılar, atlarını minif meydana gəldilər. Padşahın qoşunu da gəlmişdi. Bılar davaya başdadılar. Padşahın qoşununu çox qırıllar, amma qoşun qutarmırdı kı, qutarmırdı. Kişinin qolunnan qırx kəlin güjü alındığınnan pis vuruşurdu. Axşam oldu, hərə bir tərəfə çəkildi. Kişi oğlana dedi:

– Bunnan biz padşahın qoşununu qırıf qızı ala bilmiyəjəyik, qoşunu laf çoxdu. Sən səhər döyüşə gedərsən, qoşunun başını qatarsan, mən qızı gətirəjəm.

Səhər açıldı, oğlan döyüşə getdi. Kişi də özünü qoja görkəminə saldı. Bir qab halva bişirif bihuşdarı qatdı. Sohra padşahın əsgərlərinin qızı saxladıxları yerə gəldi. Əsgərlər bunu tutanda kişi yalannan dedi ki, halva bişirif satıram, padşah özü icazə verif. Qaravılçılar hamısı halvadan yeyib huşdan getdilər. Kişi bıları öldürüf quyunun başına gəldi. Gördü kü, quyunun ağzına yekə bir daş qoyuluf. Kişi nə qədər güj verdisə, daşı tərpədə bilmədi. Kişi Allaha yalvarmağa başdadı: "Ya Allah! Mənim güjümü özümə qaytar". Allah kişinin güjünü özünə qaytardı. Kişi bir təkannan daşı bir qırağa atdı. Qızı götürüf oğlanın çadırına gətirdi. Qızı orda qoyuf oğlana köməyə gəldi. Özünü padşahın qoşununa vurdu, qoşunu pərən-pərən saldı. Oğlan qayıdıf gəldi. Sohra bular toy elədilər.

Kişi buları burda qoyuf öz evinə getdi. Bılar bırda qalsın, sizə deyim padşahdan. Kişi gedənnən sohra padşah bütün qoşununu topluyuf oğlanın üsdünə gəldi. Oğlan nə qədər qılıc çaldısa, xeyri



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olmadı. Kəmənd atıf oğlanı tutdular. Bajısıyla arvadını da tutdular. Gətirdilər padşahın  yanına. Padşah bınnarın başını kəsif aparıf öz çadırlarına qoymağı əmr elədi. Əsgərlər bıların üçünün də başını kəsif aparıf öz çadırlarına qoyullar.

Kişi öz yurduna gedənnən sohra bir gün pis yuxu gördü. Öz-özünə dedi ki, yəqin oların başında bir iş var. Atına minif gəldi. Gördü kü, bıların üçünün də başı kəsilif. Çox ağladı, sızdadı. Amma bir çarə eliyə bilmədi. Bıların üçünü də elə paltarlı bir yerdə basdırdı. Sohra gedif peyğəmbəri tapdı. Əhvalatı ona danışıf, peyğəmbərə yalvardı kı, oları diriltsin. Peyğəmbər dedi ki, gedək oların yerini maa gösdər. Kişi peyğəmbəri həmən yerə gətirdi. Oları torpaxdan çıxartdı. Üçünü də yan-yana qoydu. Başdarını da üsdərinə qoydu. Peyğəmbər cibinnən bir lələk çıxartdı. Sohra lələyə tüpürüf bıların başdarıynan boyunnarına sürtdü. Bıların üçü də asqırıf ayağa durdular. Gəlif öz yerlərində təzədən toy elədilər. Kişi də oğlanın bajısın aldı. Birlikdə xoşbəxt yaşamağa başdadılar.

## 2. HEYVANLARIN DİLİ

### I mətn

Musa peyğəmbər idi, səyf eləmirəmsə, öküzü qoşmuşdu işə – cütə, yer şumlamağa. Öküzü işlədirdi, ulağı saxlıyırdı ziyarətə getməyə. Qoşmurdu, incitmirdi ulağı, hətta öküzə verdiyi yemin yaxşısını ona verirdi ki, əmələ gəlsin, kökəlsin. Bir axşam öküz yorulmuşdu. Sahibi qapını örtüb daldan qulax asırdı. Görür öküz çox sızıldıyır, otu yemir, yeyə də bilmir, yoruluf. İndi ulax soruşur öküzdən:

– A qardaş, niyə gileylənirsən?

Deyir:

– Yiyəmiz yaman zalımdı. Məni bu gün qoymuyuf qılçamı qatdamağa, işdəməhdən yorulmuşam, otu da ağzım tutmur yeməyə.

Deyir:

– Tutmur, yemə.

Deyir:

– Nağarım bəs?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Yemə, özünü vur xəsdəliyə sabah qoşmasın səni.

Qurban olduğum peyğəmbər eşitmişdi söhbəti. Sabah gəlir, görür öküz yatıb, qoyduğu nə varsa hamısı qabağında qalıf. Ulağı götürüf aparır işdətməyə.

Bir gün belə, iki gün belə, ulax əldən düşür, yorulur da, iş getməlidi, işi dayandırmax olmaz. Həm də axşam gətirib salanda qulax asırdı ki, nə deyir, nə söhbət elijəh. Görür ki, bir axşam ulax gəlibdi, qoyulan otu da yemir, ağlıyır. Öküz soruşur indi:

– A qardaş, niyə ağlıyırsan?

Deyir:

– Ona görə ağlıyıram ki, mən burda təkcə qalajam, sənsiz nətər qalajam mən?

Deyir:

– Niyə tək qalırsan ki? Mən nətər olajam bəs?

Deyir:

– Bəs sahibim büyünnəri çöldə söhbət eliyirdi ki, neynirəm onu mən, xəsdədi, işə yaramır, sabah aparıf verim onu ətdiyə mən.

Öküz deyir:

– Bəs mən neyliyim?

Deyir:

– Qabağaa qoyulan otun hamısını ye, sabah sahibin gələndə qıçına bir təpik də vur, bilsin ki, sən sağalmısan, səni ətdiyə verməsin, aparsın işdətsin.

Burda, deyir, qurban olduğum gülür, güləndə arvad soruşur ki, niyə güldün? Arvad bilmirdi da! Bu sirri aça bilməzdi, Allah tərəfinnən pay verilmişdi. Deyir:

– Ağız, mənnən nə isdiyirsən isdə, mənim nəyə güldüyümü soruşma.

Nə qədər yalvarır, nə qədər and verirsə, əmələ gəlmir. Bu isfariş eliyir arvadın qardaşına ki, gəlsin. Arvadın qardaşı gəlir. Arvadın qardaşına deyir ki, nəysə bir vergi olub məndə, indi mən onu desəm qeybə çəkiləjəhdi, əl çəkmir. Qardaşı deyir ki, madam ki, əl çəkmir, onun bir əlacı var. Apar sal dama, xançalı çək boğazına, qutarsın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bunnan. Öldür, canın qutarsın da. Qardaşı da çox yalvarıf-yaxarır ki, a bajı, nə işə qalıf.

İt deyir ağzını tutub göyə ucadan uluyurdu. Ordan xoruz soruşur ki, niyə uluyursan?

Deyir:

– Sahibimizi, bizə yem verəni, ağamız öldürəjək.

İndi toyux soruşur:

– Niyə öldürür, niyə öldürür?

Deyir ki, heyvannar danışırdılar, ulax heylə deyəndə gülməyi tutuf, onu arvad görüfdü. Deyir ki, sirri aç, görüm niyə gülürsən? Bu da aça bilməz. Deyir ki, öldürsün, niyə soruşur. İndi xoruz ağlıyır. İt deyir:

– Niyə ağlıyırsan?

Deyir:

– Ağamızın ağlı azalıf.

Deyir:

– Niyə azalıf, nağarsın, neynəsin?

Deyir:

– Öldürməsin, döysün.

(Bizim arvadnan gedirəm ora-bura qonax, deyirəm arvadı döymək lazımdı, deyəjək indi yenə döyməkdən danışır).

İt soruşur:

– Nə qədər döysün?

– O qədər döysün ki, o, anasının südünə and içsin ki, anadan əmdiyim süd burnumnan gəlsin, bir də sənnən soruşmujam, o vaxtadək döysün.

Deyir, salır tovlaya, o qədər döyür, döyür, deyir:

– Soruşmujam, Allah hakqı, soruşmujam.

Deyir:

– Yox ey, anaa südünə and iç.

Deyir:

– Anamdan əmdiyim süd hakqı bir də sənnən sorğu-sual eləmijəm.

Söyündühlərinnən it hürür, toyux qakqıldıyır, xoruz bannıyır, mallar içəridə mələşillər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**II mətn**

Süleyman peyqumbər bütün heyvannarın dilini bilirmiş. Günnərin bir günü Süleyman peyqumbər yolnan gedirmiş, atnan, atı yühləmişmiş, arvad da atın üsdündədi, bir uşax arvadın qujağındadı. Bir də, ayıf olmasın, arvad üzürlüdü*. Bular üç elədi, atın özü də boğazdı. Maydanın, atın bir dayçası da dalınca gəlir. Dayça kişniyir ki, nənə, məni də gözdə. Bı da, yanı nənəsi də kişniyir ki, üç adam belimdə, biri də qarnımda, yüküm də beş. Sən də bekarsan dayna. Bir az tez gəlginən. Peyqumbər bını eşidir, gülür. Axı bıların dilini bilir. Güləndə arvad deyir ki, nəyə güldün? Arvad da bilir ki, əri bıların dilini bilir. Amma əri bına aşmır. Axı bildihlərini aça bilməz da. Deyir ki, nə bilim, güldüm dayna. Deyir ki, yox, açıf deməsən, səndə oturmuyjam. Düzü, arvadın hökmü bir az zad olur dayna. Kişi yumşalır ki, aça deyə, bir az gedənnən sohra görür ki, bir qoç bir qoyunun dalına düşüf. Qoyun gəlir qabaxkı arxın üsdünnən tullanır. Süleyman peyqumbər görür kü, qoyun qoça tərəf dönüb deyir ki, sən də hopbul gəl. Qoç da deyir ki, yox, sən olmazsan, o biri qoyun olar. Hopbulum dalı qatda düşüm arxa, belim sınsın? Sən olmazsan, o birsi olar. Paho, Süleyman peyqumbər özü üçün sözü götdü. Arvad genə deyəndə, dedi:

– Sən olmazsan, başqası olar. Nə bı il olsun, nə də gələn il, heç oturma.

Arvad bınnan dilini kəsdi.

## 3. TÜLKÜYNƏN TOZDU BƏYİN NAĞILI

Biri varmış, biri yoxmuş, Allah varmış, şəriki yoxmuş, şərikinə lənət. Bir tülkü varmış, bir də, nə bilim e, bir də bir dəyirmançı varmış. Bı dəyirmançı görür kü, bı tülkü gündə gəlir bı dəyirmanın qabağında quyruğunun üsdündə oturur, sohra qayıdıf gedir. Bına yazığı gəlirmiş dana, durur bir az un aparıf tökür bı daşın üsdə, bı gəlir yalıyıf gedir. Bir günnərisi bı tülkü gəlir bına deyir ki, səni əvləndirə-

---

* üzürlüdü – hamilədi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

jəm, ay dəyirmançı. Deyir ki, ay Allahın heyvanı, unuu ye, çıx get. Məni neynirsən əvləndirif?

Deyir:

– Yox, səni əvləndirəjəm.

Bı tülkü bına deyir. Bı deyir, heyvandı dana, yəqin bınnan ötəri haray çəkir, nədi? Deyir ki, yox, əvləndirəjəm səni. Saa, məsələn, Yemən patcahının qızını alajam.

Deyir:

– Ay Allahın heyvanı, mən bir dəyirmançı şeyəm, o da patcah qızı. O, maa gələrmi? Sən nə danışırsan?

Deyir:

– Mən alaram, sən görərsən, alajam.

Nətərsə, bı tülkü bınnan kəlmələşənnən sohra gedir bı Yemən patcahının qızını almağa. Gedir Yeməndə oturur. Bı patcahların bınnan qabaxda elçi daşı olarmış, gedən elçi gedif o daşın üsdə outrarmış. Bı gedir oturur bı daşın üsdündə. Gedif bı patcahın qaravaşdarı, qulluxçuları deyir ki, patcahi-aləm sağ olsun, bir dənə tülkü gəlif oturuf elçi daşının üsdündə. Deyir ki, aparın ona çörəhdənzaddan atın, ac heyvandı da, yesin, çıxsın getsin. Bılar bına çörəh qırıntısı-zadı gətirəndə tülkü deyir ki, maa heş nə lazım dəyil, maa patcah lazımdı. Qayıdıf gəlif deyillər ki, patcahi-aləm sağ olsun, o deyir ki, heş-zad lazım dəyil. Maa ancax patcah lazımdı.

Deyir:

– Gedin bıraxın gəlsin.

Gəlir, qapıdan girir, baş əyir, salam-kəlam. Deyir ki, gəlmişəm ki, sənnən qohumlux eliyəh. Mənim bir yaxşı bəyim var, bəy oğludu, atası bəy oluf, özü də bəydi. Qızıı verəsən ona.

Deyir:

– Ay Allahın heyvanı, niyə çıxıf getmirsən işaa-güjaa? Sən qız alansan, qız verənsən? O nə deməkdi?

Deyir:

– Yox, bı işin dalına düşmüşəm, patcah, bınnan əl çəkmiyəjəm. Alajam qızıı.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Hə, yaxşı, bəs o bəyin adı nədi?

Deyir:

– Tozdu bəy deyillər ona, onun adı Tozdu bəydi.

Axı bı dəyirmançıdı. İndi bı deyir ki, yaxşı, baxarıx da. Get, bir fikirrəşərik, görüşərik. Bı gəlir dəyirmançıya deyir ki, əl-ayağını qayır, irahatdıx elə, aparajam səni görsünnər.

– Ay səni yanasan, mən cır-cındırın içində, mən dəyirmançıyam, niyə məni qoymursan oturam yerimdə?

Deyir:

– Yox, gedəjəyih dedim, gedəjəyih.

Bını qatır qabağına gəlir. Gəlif Yemən torpağına çatanda deyir:

– Otu bırda. Mən gedim gələjəm, məni bırda gözdə.

Gedir gənə həmən yerdə oturur. Genə qaravaşdar bına deyir, belədi. Çağırıllar. Gedir içəri, deyir ki, patcahi-aləm sağ olsun, bəynən gəlirdim, bəy də ata o qədər arpadan, buğdadan yedirif ki, lap belə oynuyur quzu kimi. At gəldi nətəri yıxıldısa, bı yıxılannan sohrasına palçığa bılandı üsdü-başı, libası – hamısı bılandı, atın da qıçı sındı. Sənnən xayiş eliyirəm ki, bir dəsd libas ver, bir də at ver, gedim bəy dəyişsin, gətirim. İndi gətirirdim bıra sənin hüzuraa dana, sən görəsən kimdi bəy. İndi bı da bir dəyirmançıdı da, amma səxavətdidi dana, noolsun ki üsdü-başı cır-cındırın içindədi. Bı bırdan durur bir dəsd paltar alır bına, bı əvdən, həmən bı patcahın əvinnən. Bir dəsd paltar alannan sohra, bir də bir qəşəh at alır, gətirir bı dərədə bını geyindirir, bı ata da mindirir. Bını aparır bı patcahın qapısına, bala. Patcah baxır görür ki, elə doğrudan da, bı bəyə oxşayır. Deyir:

– Əyə, bının əvi-əşiyi, nəyi var?

Tülkü deyir:

– Eee, bir əvi-əşiyi var ki, gəl görəsən.

Hə. Bılar yönnəşillər, patcah deyir ki, gəlif filan vaxdı apararsan. Tülkü gedir.

Bir varrı varmış, yaxşı da bir imarəti varmış. Bı tülkü dəyirmançını örgədir ki, get o varrıya denən ki, patcahın ilxısına qotur düşüf, deyillər sənin başın ona dərmandı, səni patcah gəzir, gejiynən bı vilayətdən çıx. Patcah səni öldürdəjəh, beynı qoyunun qotu-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

runa sürtəjəh. Bı bını deyənnən sohra, bılar da bir ərimiş, bir arvad, gejiynən tutur arvadının əlinnən çıxır gedir. Bının bı imarəti qalır Tozdu bəyə. Bınnan gələn nümayəndə gəlir görür ki, bının bir imarəti, bir cah-cəlalı var ki, gəl görəsən. Patcah gətirir qızına qırx gün-qırx gejə toy eliyir, bını qoyur bı imarətin içinə, çıxır gedir.

Bir günnərisi bı tülkü deyir ki, gedirəm filan yerə, qayıdıf gələjəm. Gedir, qayıdıf gələndə gəlif yıxılıf qapının ağzına, deyir:

– Tay mən ölürəm, tay mən azarramışam, tay mən ölürəm, – tülkü yıxılır. Tülkü bını sınıyırmış dana, bı bəydi axı tay. Deyir:

– Yox ey, tay mənölləm, öldüm.

Gözdərini yumur, özünü vırır ölmüşdüyə. Deyir:

– Görüm indi bı dəyirmançı maa neyniyəjəh dana. Bəs mən bını dəyirmannan aralıyıf bı sənətə nail eləmişəm.

Bı elə bilginən ki, yıxılır bırda gözdərini yumur, ayaxlarını uzadır. Bının nökəri-naibi varmış dana, bəydi sanki. Birini çağırır, məsələn, deyir:

– Əə, Həsənqulu, gəl bı Allahın heyvanını götür apar at əənə.

Həsənqulu gəlir, tülkünün quyruğunnan yapışır ki, ata yerə, tülkü gözdərini açır, durur oturur ayağ üsdə, deyir:

– Həə! Səni dəyirmançılıxdan pis günə qoydum, qoydum. Qoymadım, baxarsan işaa.

Elə bir fəsad törədir, elə bir iş görür ki, bını elə həmən dəyirmançı gününə salır tay.

Uşaxlara belə nağıl deyirdim, tay ayrı nağıl bilmirəm.

*Söyləyici bu nağılı Şamaxıda qoca bir kişidən eşidib.*

## 4. MƏLEYKƏYLƏ EVLƏNMİŞ OĞLAN

Bir oğlan əvlənif. Demə əvləndiyi məleykəymiş dana, canım qurban olan. Bı da bilmiyif. Gəlir bının bir oğlu olur, bir qızı. Bının yetmiş-həştad yaşında bir anası oluf. Gəlir bının anası öləndə, canı çıxanda bı gəlin tez çıxır yükün üsdünə. Oğlan buna göz yumur. Meyidi-zadı yuyanda oraları yuyuf-eliyir, təmizdiyir-eliyir. Bınnan qabax meyidi çiyində aparırdılar, örkənnən-zadnan sarıyırdılar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gedəndə bı gəlin görür ki, döşü sürtülmüş bir çarıxdı, bircə dənə də köhnə süpürgədi, cinazadan asılıf gedir o dünyaya. Bı qakqıldıyır gülür. Oğlan deyir:

– Yaxşı, gələrəm əvə, hak-hesabıı verərəm.

Gəlir anasının üçü-zadı çıxır, eliyir. Deyir:

– Maa sən cavab verginən, mən hələ də ağrıyıram. Mənim anam can verəndə, canı çıxanda sən niyə çıxdın yükün üsdünə?

Deyir:

– Gəlginən sual vermə. İki balamız var, bı sözü maa demə. Əgər desəm, məni görmüyəssən.

Deyir:

– Heş görmüyüm, maa cavab ver.

Deyir:

– Ona görə mən çıxdım ki yükün üsdünə, insanın başı kəsilir, siz görmürsüz. Qan hər yanı götürür. Heyvanın başı kəsildiyi təki. O, mənim üsdümə sıçramasın deyənə çıxdım yükün üsdündə oturdum. Bir də sənin anan bı işıxlı dünyada bir köhnə süpürgə verif, bircə də döşü parax çarıx verif. Bı işıxlı dünyadan o dünyaya onu aparıf, – deyir gəlin bını, sora da pırrıyır, uçur gedir. Oğlan bir başına vırır, bir dizinə. Deyilənə göra, deyir, böyüh bir çinar var, uca. Deyir, bir göyərçindi. Gəlir orda "ququk-ququk" eliyir üş dəfə, gedir. Özü də cuma günü. Oğlan da bir başına vırır, bir dizinə. Məleykə imiş dana, nə bilmək olur. Qurban olduğumu tanımayana nəhlət. Onun yolunnan çıxana nəhlət.

### 5. QARAÇUXASINI AXTARAN KASIB

Bir nəfər varrı olur. Bunun kasıb qonşusu olur. Bu varrı qonşu kasıb qonşunu bir səhər çağırır, deyir:

– Ə, bizim at doğajeydi, axşamnan qalıf dərənin ayağında. Beyjə də bir qoyun azarramışdı, kəsmişih. Onu apar ver evdə uşaxlar yesin, sən get o atı götür, gəl.

Deyir:

– Qoy gedim arvada deyim, gəlim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gedir arvada deyir ki, aaz, filankəs deyir bir qoyun kəsmişəm, apar onu uşaxlar yesin, get, atı gətir. Deyir ki, ə, niyə gətirmirdin? Gətirərdin dana.

Qayıdır gəlir. Görür ki, cəmdəyin yarsın aparıflar. Varrı qonşu deyir:

– Bəs niyə gəlmədin, ə? Uşaxlar ətin parasın aparıflar çöldə bişirməyə. Heyvan kəsiləndə gənə sənə ət verəjəm, get atı götür, gəl.

Deyir:

– Qoy gedim arvada deyim.

Arvada deyir. Arvad deyir ki, ə, başına daş, nə verir götür, gətir bəri. Qayıdır gəlir, görür o paranı da aparıflar, qarınnan baş qalıf. Deyir:

– Ə, onu da aparıflar ey. Qarınnan baş qalıf. Apar buları ver evə.

Nəysə, aparır buları verir evə.

Gedir görür kü, bu at təzə doğufdu, bir qara paltar adamdı, qulunun ağzını ayırır, atın əmcəyini salır onun ağzına, qulun əmir. Gəlir yaxına, deyir:

– Salam-məlöyküm.

Deyir:

– Əleyki-salam.

Deyir ki, bu at filankəsin döyül?

Deyir:

– Hə.

Deyir:

– Bəs sən nağarırsan burda?

Deyir:

– Mən onun qaraçuxasıyam, qulunu əmizdirirəm.

Deyir ki, görəm mənim qaraçuxam hanı, mən yaxşı dolana bilmirəm. Deyir ki, sənin qaraçuxan hardadısa yatıfdı. Gərəh gedif durğuzasan.

Nəysə, bu gətirif atı verir. Deyir ki, sənin qaraçuxanı da gördüm. İndi sağlıxnan qal, mən gedirəm öz qaraçuxamı axtarmağa.

Nəysə, bu, qaraçuxasını axtarmağa gedir. Bir canavar bunun qabağına çıxır. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Hara gedirsən?

Deyir:

– Qaraçuxam yatıfdı, onu axtarmağa gedirəm.

Deyir:

– Ə, qaraçuxanı tapsan, mənim də dərdimi de ona.

Deyir ki, yaxşı. Bir xeylax getmiş görür kü, bir bağman bağın qırağında oturufdu bekaf. Deyir:

– Ə, hara gedirsən belə?

Deyir:

– Qaraçuxam yatıfdı, onu axtarmağa gedirəm.

Deyir ki, tapsan mənim də dərdimi de ona. Deynən ki, bax, bu bağı görürsənmi? Bu çiçəhliyir, bar gətirir, yetirənə yaxın hamısı tökülür yerə, əlim qalır boşda. Bir şey əldə eliyə bilmirəm.

Deyir:

– Deyərəm.

Gedir görür ki, bir yerdə çalğı səsi gəlir. Gedir ki, bir şəhərin padşahıdı. Böyüh məclis quruflar, yeyif içillər. Salam-məlöykü, əlöykət-salam. Ə, bərdən gəl, çörəh ye.

Nəysə, bu, çörəh yeyir. Bu şəhərin padşahı da kadın xeylağı imiş, amma kişi paltarında idi. Bu, çörəh-zad yeyənnən sora deyir ki, hara gedirsən belə? Deyir ki, qaraçuxamı axtarmağa gedirəm.

Deyir:

– Ə, tapsan mənim də dərdimi de ona.

Bu gedir ki, bir dağın döşündə qara çuxalı adamdı, başın bürüyüf yatıf. Durğuzur bunu. Deyir ki, mənim qaraçuxam sənsən.

Deyir:

– Hə.

Deyir:

– Ə, xalxın qaraçuxası maydan doğuzdurur, qulun əmizdirir. Sən də yıxılmısan bura. Bütöy cəmdəyi yeyə bilmədim, parasın yeyə bilmədim, bir p..lu qarına möhtac qaldım.

Deyif:

– Yatmışam, xəbərim olmuyuf, yoxsa onu da yeyə bilmiyəjeydin. Məni durğuzmusan, daa getginən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Yaxşı, gedirəm. Amma gələndə mənim qavağıma bir padşah çıxdı, mənə belə-belə söz dedi.

Deyir:

– O padşah qızdı. Getsin sənin kimi bir oğlana. Özü getsin evdə-eşihdə qav-qaşığın yusun, səni də qoysun yerində padşah.

Deyir:

– Bəs bağman da belə-belə dedi.

Deyir:

– O bağmanın da bağının kül olduğu yerdə yeddi küp qızıl var. Qazsın çıxarsın, onnan sora bağ bar verəjəh.

Deyir:

– Bəs canavar?

Deyir:

– Canavar da başı xarab adamın beynini yesin, qoturu onnan gedəjəh.

Nəysə, gəlir xanımı tapır. Deyir ki, vallah, o bir söz dedi, mən xəjalət çəkirəm saa deməyə. – Kişi paltarındadı axı. – Dedi ki, o, bir qızdı, bir oğlana getsin.

Deyir:

– Ə, bunu sənnən başqa heş kəs bilmir. Bir sən bilirsən, bir mən. Gəl çıx otur taxtda, evdə qavdan-qaşıxdan yuyuf eliyim, saa yeməh hazırrıyım.

Deyif:

– Yox ey, mən qaraçuxamı durğuzmuşam, gedirəm.

Gəlir bağa. Bağmana deyir:

– Salam-məlöykü.

Bağman deyir:

– Əleyki-salam. Ə, tapdın?

Deyir:

– Hə.

– Nə dedi?

Deyir:

– Vallah, bir söz dedi, bilmirəm yalan deyir, gerçəh deyir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Nədi?

Dedi ki, bağı kül oluf keçən yerdə yeddi küp qızıl var. Onu qazsın çıxarsın, onnan sora bağ bar verəjəh. Deyir:

– Ə, bunu sənnən, mənnən başqa heş kəs bilmir. Gəl çıxardax, ikimiz böləh, yarısı sənin, yarısı mənim.

Deyir:

– Yox ey, mən qaraçuxamı durğuzmuşam.

Nəysə, canavar çıxır qavağına. Deyir:

– Nətər oldu?

Deyir:

– Vallah, nə deyir düz deyir ey. Bax, padşah haqqında belə demişdi, düz çıxdı. Bağman haqqında belə demişdi, düz çıxdı. Sənin də haqqında dedi ki, o, bir başı xaraf adamın beynini yesin, onun qoturu gedəjəh.

Deyir:

– Yaxşı, bəs sən niyə padşah oluf orda qalmadın? Bağman saa dedi gəl qızılı bölək, niyə eləmədin?

Deyir:

– Neynirəm, qaraçuxamı mən durğuzmuşam.

Hoppanır bunu yıxır yerə. Deyir:

– Ə, donuz oğlu, padşah olmadın, qızılı çıxartmadın, sənnən başı xaraf adamı mən hardan tapajam, – deyif onu yeyir.

## 6. İSGƏNDƏR

Bir gün Makedoniyalı İsgəndər deyif ki, gedif zülmətdən də vergi alajam. O vaxtı da deyillər ki, qocaları elə bil, qoyuf səbətə, aparıf dağın başınnan atırmışdar ki, ölməmişdən qarğa-quzğun yesin. Bir oğlan atasını qoyur səbətə, aparıf dağın başınnan atmağa. Gəlif dağın başına çatır, səbəti yerə qoyur, atasını içinnən çıxardanda atası deyir ki, bala, səbəti də apar.

Deyir:

– Neynirəm səbəti?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Səni də qoyuf səbətə bura gətirəjəhlər, onda lazım olajax.

Deyir:

– Bir halda ata, mən də bıra gələjəmsə...

Atasını qoyur səbətə, təzədən qaytarır geriyə.

İsgəndər də zülmətə getməh üçün yaşdı adam axtarır ki, yolu örgənə, görə ora nə yolnan getməh olar. Car çəkir, hamma hamının atası gedif axı. Birdən atasını geri qaytaran çıxır deyir ki, məni öldürməsən, mən saa ağsakqal qoca taparam.

Deyir:

– Öldürmərəm, get tap gəti.

Atası deyir ki, ora nə qədər adam gedəjəhsə, hamısının qulunnu maydan olmalıdı altında, yəni balalı at.

Deyir:

– Nətəri?

Deyir ki, balalı atın balasını alıf bırda yığassınız tovliya, balasız gedəjəh. Zülmət bizim öz dilimizdə qarannıx deməhdi də. Kəsəsi, kişi deyən kimi gedillər. Orda göz gözü görmür. Orda deyir, su da var, qiymətdi şeylər də var. Sudan, deyir, vəzir içir, amma İsgəndər içə bilmir. Bı da, sən demə, ömür suyuymuş. İsgəndər də Qurana baxıf da, bına deyiflər ki, sən dəmir altda öləjəhsən, polad altına girməsən, sən ölmüyəssən. Orda zülmətdə, deyir, əl atıf nəysə götürüllər. İşıxlı dünyaya çıxanda görüllər ki, bı elə şeydi ki, qiyməti yoxdu. Orda götürən də peşmandı, götürmüyən də peşmandı. Az götürən də peşmandı, çox götürən də. Deyilənə görə, yolda gəlillər isdiyə düşüllər. Yolda elə bil ki, palatka düzəldillər. Biz dədə-babadan ona çatma deyirih. Üşqıçadı, dağa gedəndə onu quruf onun üsdündə nehrə-zad çalxıyırdıx. Üsdünə bir şey atıllar, İsgəndər girir altına, kölgüyə. Birdən qıraxdan Əzreyıl gəlir, deyir ki, kəlmeyi-şəhadətini oxu.

Deyir:

– Bəs polad?

Deyir:

– Sən tüfəhdən gölgəlih düzəltmisən, onun da hamısı poladdı, bircə dıqqıyı ağajdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Onda möhlət ver, vəsiyəmi eliyim.

Deyir:

– Elə.

Vəsiyətini eliyir. Deyir ki, məni basdıranda əlimin birini açıx şəkildə qoyun çöldə. Bilən, qanan, biləjəhdi əlim niyə açıxdı. Qanmıyan deyəjəhdi ki, İsgəndər deyir ki, mən getdim, dünya qaldı. Qanan da deyəjəh ki, İsgəndər deyir mən dünyadan əliboş getdim, apardığım beş metrə kəfən oldu. Heylə də eliyillər, kəsəsi.

İndi bala, bu dünyanın axırı belədi. İmkanın ola yaxşı yeyəsən, yaxşı geyəsən, yaxşı ürəyin isdiyən yerlərdə gəzəsən, isdirahət eliyəsən. Vəssəlam. İmkanın da, məsəlçün, varsa, elə bilginən ki, birinə yaxşılıq eliyəsən, o da çıxa qabağaa. Yoxsa mənim civimdə pulum var deyə asım, kəsim, bunun heş axırı yoxdu.

## 7. KASIBIN QİSMƏTİ

Bir gün Musa peyğəmbər Allahın yanına gedirmiş. Görür bir qadın gəldi bının qabağını kəsdi. Dedi:

– Ya Musa, mənim uşağımın vaxtınnan iki ay keçif, üç ay keçif, amma uşax dünyaya gəlmir.

Gedir Allahın yanına. Deyir:

– Ya Allah-tala, belə işmi olar, özünə agahdı, gördün hər şeyi.

Dedi:

– Ya Musa, gördüm hər şeyi. O uşağın urzası azdı deyin dünyaya gəlmək isdəmir. Ona gündəlik iyirmi qəpik yazmışam. O da dünyaya gəlmək isdəmir ki, ay Allah-tala, mən nəynən dolanım.

Gəlir görür uşax oluf anadan. Allah-tala Musuya demişdi ki, get, uşax olajax anadan. Gəlif görür kü, uşax oluf anadan.

Üsdündən beş il, on beş il keçir. Musa peyğəmbər deyir ki, gedim görüm o uşağın axırı nətəri oldu. Gəlif görür kü, uşax on beş yaşındadı, mal otarır, camaatın malını yığır, aparır otarır. Deyir:

– A bala, dolanmağın, yaşayışın, vəziyyətin nətərdi? Nətər dolanırsan?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Ya Musa, vallah, əlləşirəm, çalışıram, özümü öldürrəm, beş yüz maat alıram ayda, onnan iyirmi qəpih bizim evə xeyri yoxdu. Hardan gəlir, hara gedir, bilmirəm.

Deyir:

– A bala, Allahdan sənin urzan iyirmi qəpikdən artıx dəyil. Sənin urzan elə iyirmi qəpikdi. Get öza başqa bir sənət tap, işdə, iyirmi qəpihdən artıx alma.

Gəlir, nağarım, neyniyim, malı da buraxır. Anası da deyir ki, ay oğul, etmə, eləmə, filan-beşməkan. Deyir:

– Yox, ana, qutardıx. Urzam iyirmi qəpihdi.

Hə, gedif meşədən kol-kosdan gətirirmiş, odun da gətirirmiş. O vaxt bizdə də çox satırdılar. Bazarda şələ-şələ gətirif satırdılar. Gedir hər gündə meşədən bir şələ odun gətirir satır.

Hə, bir gün, deyir, tacirnən padşah dosd imiş. Tacirin arvadı deyir ki, a kişi, get bazardan quru odun al gətir, nə bilim, kababa, samavara. Bu da hərrənə-hərrənə gedir, görür bir yaxşıca uşaxdı. Oturuf, qabağında da bir şələ odun. Deyir:

– A bala, buna nə verim?

Deyir:

– İyirmi qəpih.

Deyir:

– A bala, bunu, məsəlçün, aparıf o güneyin başına, o evə qoya bilərsənmi?

Deyir:

– Hə.

Deyir:

– Ona nə alarsan?

Deyir:

– Heş bir şey.

– Əyə, etmə-eləmə, dəli dəyilsən ki?

Deyir:

– Yox, aparıf qoyaram, amma iyirmi qəpih oduna almışam, qutardıx.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gedir, evə aparır odunu. Arvad deyir ki, a bala, nə aldın, nə verdin, – tacirin arvadı deyir. Deyir:

– İyirmi qəpih verif, odun gətirmişəm.

Deyir:

– A bala, otur, qoy kişi gəlsin görüm onun pulumu yoxdu, malımı yoxdu? Görüm niyə az verif saa pulu? Niyə bir maat vermiyif?

Kişi gəlir, deyir:

– Ay arvad, ataa goru hakqı, dedim bir maat verim, iki maat verim, əlli qəpik verim. Dedi “yox, yox, elə iyirmi qəpik ver. Elə iyirmidi ki, iyirmidi”.

Deyir:

– A kişi, görürəm bu bir yaxşıca uşaxdı. Nolar, sabah da padşah bizə gələjək. Qoy sabah da qalsın bizə kababa, çaya, çörəyə kömək eləsin.

Tacir dedi:

– A bala, olarmı sabah gedif meşədən odun gətirmiyəsən, sabah da bizdə işdiyəsən, puluu da alasan?

Deyir:

– Hə, niyə olmur, olar.

Padşah gəlir tacirin əvinə. Yeyillər, içillər, deyir:

– Hə, tacir, bu uşax nə yaxşı uşaxdı, kimin uşağıdı?

Day dillənmir ki, nökərdi. Deyir:

– Padşah sağ olsun, qardaşım oğludu, – tacir padşaha belə deyir. Tacirin də vur-tut bircə qızı var idi. Padşah deyir ki, ə, gəlsənə o qızı elə buna verək?

Deyir:

– Padşah sağ olsun, sənin sözuu kim atkaz eliyə bilər. Verirsən, ver, nə deyirəm.

Gədəni çağıtdırır. Deyir:

– A bala, bu əvin qızını alırsanmı?

Deyir:

– Padşah sağ olsun, sənin sözuu kim atkaz eliyə bilər. Sən nətər deyirsən, elə də olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Padşah əmr eliyir, bına qırx gün, qırx gecə toy eliyillər. Bının kəbinini bı oğlana kəsillər. Tacir bunnarı ayırır, ayrıca dolanıllar.

Bir gün Musa peyğəmbər eşidir ki, oğlan əvlənif. Gəlir yanına, deyir:

– A bala.

Deyir:

– Hə.

Deyir:

– İndi nətərdi dolanmağın?

Deyir:

– Ya Musa, indi yüz iyirmi qəpihdi.

Deyir:

– A bala, o yüz yoldaşıı urzasıdı, iyirmi qəpih səninkidi. Gedin birtəhər dolanın.

## 8. NAXIRÇININ NAĞILI

Bir naxırçı olur. Bı naxırçı çöldə kəndin heyvanını, naxırını otarırmış. Gəlməymiş bı naxırçı, gəlmənin əvi kəndin qırağında olar. Həzrət Əli axşam gəlir, hələ mal gəlməmişmiş. Düşür bı arvadın əvinə qonax. Arvad da kişisiz qonağı qəbul elədiyinə görə, bilmir qonağın Həzrət Əli olduğunu, gedir kişinin qabağına ki, birdən kişinin ajığı tutar. Deyir:

– Əşi, vallah, iki qonax qəbul eləmişəm, hamma o sən deyən qonaxlardan dəyil. Birdən oların yanında maa ajığın tutar, maa söz deyərsən ki, arvad xeylağısan, niyə kişi xeylağını qonax eləmisən?

Nəysə, kişini qabaxlıyır, bını deyir. Kişi gəlir görür ki, abırrı adamlardı, oturuflar.

– Salam.

Allahın salamını, kalamını verir, alır. Alıf verənnən sora arvadnan kişi fikirrəşir ki, nağayrax, neyniyəh bı qonaxları razı yola salax. Nəysə, bir danaları, bir də bir inəkləri varmış bıların. Kişi durur dananı kəsir. Kişinin də arvaddan başqa bircə qızı varmış. Nəysə, bılar dananı kəsif yeyillər. Rəvayətin dediyinə görə, bıların



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mehriban olduğuna görə, kişinin heş bir şey danışmadığına görə, Həzrət Əli yoldaşına him-cimnən örgədir ki, çox yaxşı aylədi. Nağayrax, neyniyəh? Rəvayətin dediyinə görə, üz tutullar Allahın dərgahına. Qız ölür. Qız ölür, qızın ehsanını, payını verillər, yeyillər. Bı Həzrət Əligil bırdan getməmiş arvad da ölür. Qalır kişi. Kişi inəyi də kəsif arvada ehsan verir. Arvad da getdi, qız da getdi. Kişi deyir:

– Tay arvad yox, qız yox. Mən bı kəntdə durmuyajam. Gedirəm tay ayrı ölkəyə.

Kişi üz tutur, gedir ayrı bir ölkəyə. Gedir varrı bir adama naxırçı olur. Bının malını otarır, qoyununu otarır. Bir gün yamaşda mürgülüyür. Kişi yuxluyur. Yuxluyanda bir kişi gəlir bını durğuzur. Deyir:

– Nədi, niyə belə olmusan?

Gətirir bına iki alma verir. Kişi baxır görür ki, alma o qədər yaxşı almadı ki, özü yemir. Deyir:

– Aparım bını verim ağama. Ağamın yanında üzüm ağ olsun, yaxşı almadı.

Kişi almanı qoyur cibinə, axşam gətirir əvinə. Əvdə oturuf çörəh yeyəndə ağasına deyir ki, ağa, bəs belə-belə. Almaları verir ağasına. Ağası deyir ki, bı alma üç olmalıdı, birini neynəmisən?

Deyir:

– Əşi, vallah, yamaşda yuxulamışdım, birdən məni durğuzdular, gördüm bir şəxsidi. Bı almaları verdi maa. Gördüm ki, yaxşı almadı, götdüm gəldim ki, saa verim.

Ağası elə öz dediyini deyir ki, alma üç olmalıdı, neynəmisən, birini də ver. Ya da get həmən yerdə bir də otur. O kişi gətirif birini də verəjəh.

Nəysə, bı kişi malı aparıf otarır. Gəlir orda oturur. Deyir:

– İlahi-pərvərdigara, mən nə nağıla düşdüm. Bəs iki almanı vermişəm, indi ağam üçüncünü isdiyir. Mən nağarım?

Kişini bırda genə yuxu aparır. Kişi bir az yatır. Yuxudan ayılır görür ki, həmən kişidi, bir qab alma gətirif. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Keyfindi, bı almanı götür apar ver o kişiyə, keyfin dəyil, gözuu yum.

Kişi deyir:

– Yox, başaa dönüm, mən bir də o əvə getmirəm. Gözümü yumajam.

Kişi gözünü yumur, açanda görür kü, bir bağlı-baxçalı yerin qırağındadı. Kişi baxır görür kü, vallah, bı bir bağdı, hər tərəfi də bı almadandı. Bağın başında da bir bulax var, bulağın yanında hörühlü bir dana, bir də bir inək var. Bir arvad da orda nə yuyursa, yuyur, bir qız uşağı da yanında. Kişi çox təəccüb qalır. Rəvayətin dediyinə görə, kişi yeriyir bağa sarı. Görür kü, bir bağmançı bağı suvarır. Bağa baxır, baxır, deyir:

– Qardaş, ola bilər bı almadan birini girim yeyim?

Deyir ki, yox, bını verə bilmərəm, icazə yoxdu. Mən bı bağdan heş kimə heş nə verə bilmərəm, heç özüm də yeyə bilmərəm. Kişi bir az duruxsunur. Qayıdır gedir bulağa sarı. Gedir görür kü, inək bının inəyidi, dana da bının danasıdı, uşax da bının qızıdı, arvad da bının ayləsidi. Kişi bılarnan görüşənnən sora qayıdır bir də bağmançının üsdünə, deyir ki, bəs gəldim bayax maa alma vermədin. Bax, o inək də mənimdi, arvad da mənimdi, qız da mənimdi, dana da mənimdi. Deyir:

– Əşi, niyə heylə deyirsən? Bı bağ bir naxırçınındı. Onun haçarı onun cibindədi. Mən bı bağın qapısını açıf səni içəri buraxa bilmərəm.

Deyir:

– Nətər naxırçıdı?

Deyir:

– Belə-belə.

Kişi əl atır cibinə, görür ki, cibində haçar. Qapını açır, girir içəri. Deyir:

– Hə, indi girə bilərsən. Bı bağ o naxırçınındı ki, o sənsən.

Deyillər o çarıxlı-patavalı naxırçı gedif cənnətə haa... Bax, o həmən naxırçıdı rəvayətə görə. Deməк, özü də, arvadı da, qızı da, danası da, inəyi də gedif cənnətin bağının qırağına.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 9. ÖLÜNÜN ŞAHİDLİYİ

Bir gün bir oğlanı öldürüf atıllar peyğəmbərin qapısına. Gəlif oğlanın dədəsi deyir ki, ya oğlumu ver, ya da öldürəni ver, ya da, deməк, sən öldürmüsən.

Deyir:

– Yox, mən öldürməmişəm.

İndi canım qurban olan peyğəmbər fikirrəşir, deyir:

– Bını aparıf basdırmıyın, bı kəfşəndə iyirmi səkkiz xalı olan öküz var. Axtarın onu tapın.

Gedillər üş gün bı kəfşəni gəzillər. Bir öküzdə iyirmi yeddi xal olur, o biri öküzdə iyirmi altı xal olur. Dürüst gəzillər. Gəzənnən sora axır ki, iyirmi səkkiz xallı öküzü tapıllar. Gəlif deyillər ki, tapmışıx.

Deyir:

– Gedin gətirin bıra görək yiyəsi kimdi.

Gətirillər, bilillər ki, filankəsindi. Peyğəmbər deyir ki, onu alın, kəsin, yandırın. İndi bının yiyəsi deyir ki, yox, o mənim atamın yediyarıdı*. Onu mənə atam belə verif ki, atam tacir idi, gedirdi üç aylarnan, yük gətirirdi. Düşürəndə alıcılar gəlif götürürdülər. Bir gün gənə yükü gətirdi tökdü həyətə. Mənə də dedi ki, get alıcını gətir. Mən də gedif alıcını gətirincən gördüm ki, atam başını qoyuf yükün üsdünə yuxuluyuf. Mən atamı qıymadım durğuzam. Anam dedi ki, bala, çağır dursun. Dedim:

– Ana, yox, durğuzmaram. Atam üç aydı yol gedif gəlif. Yatajax, durajax, onnan sora alannar gəlif aparajaxlar malları. Mən atamı niyə yarımçıx durğuzuram?

Atası yatır. Duranda deyir:

– Oğul, gəldilər-getdilər mal alannar?

Deyir:

– Hə ata, belə-belə oldu.

Deyir:

---

* yediyarıdı – yadigarıdı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Filan inəyin atdakı erkək dananı saa verirəm. Yaxşı ki, məni yuxudan durğuzmadın.

İndi o, atamın yediyarıdı. Mən də neçə ildi onu işdətmirəm. Boşduyuram, o çəmənnərdə otduyur, gəlir qapıya. Deyillər:

– Yox.

Peyğəmbər deyif ki, onu gətirin kəsin, yandırın. Onun ətini yandırın, sümüyünü yandırın. Onun külüynən ölən oğlanı avın. Təmiz başdan ayağa avın. O oğlan diriləjəh. Onnan sora özü deyəjəh ki, məni kim öldürüf.

Öküzün yiyəsi deyir ki, onda öküzü soyun, onun dərisiynən maa qızıl verin, onnan sora onun dərisini yandırın. Deyillər:

– Yaxşı, baş üsdə. Təki oğlan dirilsin, öldürəni desin.

Soyullar, öküzü yandırıllar, kişinin də qızılını verillər. Öküzün külüynən də oğlanı avıllar. Oğlan durur ayağa, dillənir. Bına deyillər ki, səni kim vırdı, atdı ora. Deyir:

– Əmim oğlu, öz əmim oğlu.

## 10. ÇOBANIN HƏCC ZİYARƏTİ

Üş nəfər gedillər ziyarətə: biri çoban olur, ikisi savatdı. Bir kəndin ayağında gejə düşür. Bular gejə hərəsi bir evdə gejəliyir. Çoban bir evə düşür, görür ki, iki uşaxdı yatıf, arvad da qazanda nəsə qaynadır, bişirir. Uşaxlar durur:

– Ana, noldu, bişmədi?

– Bala, bu saat bişəjək, bir az gözdüyün.

Xeyli vaxt keçir, çoban soruşur:

– A xala, o nədi ki, mən gələnnən qaynıyır, o, bişmiyif.

Deyir ki, a qardaş, vallah, heş nə yoxdu, daşdı, su töküf qaynadıram. Bu uşaxları aldadıram görüm bular yatarmı. Bular da ajdı, yatmıllar. Çoban çox bərk dilxor olur. Deyir ki, buralarda ferma, qoyun olan yer var? Təxminən deyir da, bir belə gedərsən. Çoban durur tərpənir, gedir fermadan bir qoyun oğurruyur, gətirir. Kəsir, tələm-tələsih soyur, verir bu arvada, deyir:

– Bişir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bişirir. Deyir, ilan vuran yatar, aj yatmaz. Bu uşaxlar hara yatır, ə. Deyir:

– A bala, durun yeyin.

Duruf yeyillər. Yeyənnən sora yatışıllar. Bu da burda gejəliyir. Səhər duruf düşür yola. Belə-belə gedif çatıllar. Bərk isdiymiş, koma-koma oturullar, görüllər çoban olan komanın üsdünə bulud kölgə salır. Qıraxdakılar baxıf deyir: "Səni, bulardan kimsə savabkar adamdı". O deyir mənimkidi, bu deyir mənimkidi, başdıyıllar sporraşmağa. Bu Məkkənin də sahibi gəlir.

– Nə spordu?

Deyir:

– Belə-belə, o deyir mənimkidi, bu deyir mənimkidi.

Deyir:

– Dağılışın, kimin başının üsdündə dursa, savab onunkudu.

Hərə bir tərəfə dağılır. Görüllər çobanın başının üsdə kölgə salır. Məkkə sahibi deyir ki, bununkudu, özü də bunu yolda qazanıf, bura gələndə qazanıf.

İndi heylə oğurrux da var, belə oğurrux da var.

## 11. ALLAH GÖRÜR

Üş nəfər gənc Kərbəlaya gedillər ziyarətə. Olardan ziyarəti qəbul eliyən soruşur ki, nə gətirmisən? Biri deyir ki, ağam sağ olsun, yaxşı pul götürmüşdüm. Yol uzunu xəşdiyə-xəşdiyə gəlmişəm, yenə də var. O birsinnən soruşur ki, nə gətirmisən?

Deer:

– Ağam sağ olsun, yaxşı var gətirmişəm, mülk gətirmişəm.

O birsinnən soruşur ki, sən nə gətirmisən? Deyir ki, mən iman gətirmişəm. Deyir:

– Səən ziyarətin qəbul olundu. Getmə heç hara.

İkisi də qayıdırır, çıxır gedir. Qayıdıf gedəndə fikirrəşir ki, bir də imtahan eləsin. Əziyyət çəkif gəliflər, boş qayıtmasınnar. Deyif:

– Qayıdın bəri.

Qayıdıllar. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Gedin adama bir çolpa tapın gətirin.

Gedir hərəsi bir çolpa tapıf gətirir. Deyir:

– Aparın bu çolpaları təklikdə kəsin. Elə yerdə kəsin, görən olmasın. Kəsin, gətirin.

Biri yönünü belə tutur, biri belə, gedillər. Aradan iki dəyqə keçməmiş bir də görür biri kəsif gətirif. Deyir ki, görən olmadı?

Deyir:

– Xeyr, ağa, görən olmadı.

– Gətir qoy ora.

Bir xeylax sora o birsi gəlir. Gənə kəsif gətirif. Deyir:

– Görən olmadı?

Deyir:

– Xeyr ağa, görən olmadı.

Deyir:

– Qoy ora.

Gözdüyür, gözdüyür, biri çox gej gəlir. Aradan keçir bir saat, iki saat, gəlir. Gələndə görür ki, diri çolpa qoltuğunda gəlir. Deyir:

– Bular kəsdi gətdi, sən niyə kəsif gətirmədin?

Deyir ki, ağa, yer tapmadım. Deyir ki, niyə yanı, bular ayna duran kimi kəsdilər, kəsif gətdilər. Sən nətəri bir xəlvəti yer tapmadın, görən olmasın, kəsif gətirəsən?

Deyir:

– Ağa, hara apardımsa, gördüm Allah görür, kəsə bilmədim.

İndi onu fikirrəşməh lazımdı. Allah görür. Bizim nə danışdığımızı, nə iş tutduğumuzu görür. Mənim təbliğatım budu.

## 12. PEYĞƏMBƏRİN QÜRRƏLƏNMƏSİ

İbrahimxəlil peyğəmbər Məkkəni tikdirir otuz mərtəbə: biri qızıl, biri gümüş. Tikif qurtarır, əlini vurur belinə, deyir:

– Allah-talaya mən bu qədər yardım eləmişəm, görəm mən bu qədər savabı neyniyəjəm? Qohuma, arvadıma, övladıma, qızıma paylıyannan sora bu savabı hara yığışdırajam?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Allah-talanın buna ajığı tutur ki, mənim varımnan, döylətimnən mənə ev tikdirmisən, qurralanırsan? Qurralanma. Peyğəmbər yatanda Cəbrayılı yanına çağırıb deyir:

– Ya Cəbrayıl, götür Məkkədən aralı qoy onu.

Peyğəmbər yuxudan duruf görür ki, nə Məkkə var, nə Mədinə. Düzü-biyaban səhradı. Bu gedir, gedir, ohqədər ağlıyır, gözünnən qan-yaş gəlir. Axırı dizini yerə qoyuf başdıyır otdamağa, daa əldən gedir. Deyir:

– Ya Cəbrayıl, peyğəmbər əldən gedir, bir qıça çörəhnən bir tikə pendir ver, heş bilməsin sənin məleykə olduğu. Denən eşitmişəm Məkkəni tikdirmisən, onun yarı savabını ver məə, çörəyi verim səə.

Cəbrayıl gəlif deyir:

– Deyəsən ajsan?

Deyir:

– Hə.

Deyir:

– Eşitmişəm Məkkəni tikdirmisən. Onun yarı savabını ver maa, çörəyi verim.

Verir. Yatıf ayılır ki, dili ağzında yanır. Da Ərəbistan çölüdür. Allah-tala deyir:

– Peyğəmbər əldən gedir, bir bardax suynan Məkkənin yarı savabını da al.

Məkkənin yarı savabını da alıf. Deyir ki, götür peyğəmbəri yuxulu Məkkənin barısınnan çölə qoy. Götürüf qoyur çölə. Ayılır yuxudan. Göydən səda enir:

– Ya peyğəmbər, mənim varımnan, döylətimnən, qürrəmnən öy tikdirmişdin mənə. Əlini belinə qoydun qürrələndin. Deyəsən, bir qarın yeməyə satdın Məkkəni. Bəlkə, aj qarını doydurardın, bəlkə, bir yetim başı sığallıyardın, bəlkə, əlsiz adama əl tutardın.

Peyğəmbər səyfini başa düşür, deyir:

– Peyğəmbər olmağıma baxma, mən bu işdə səyf eləmişəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 13. SÜLEYMAN VƏ AHULAR

### I mətn

Peyğəmbər getdiyi yerdə baxıf görür ki, kənarda bir beş dənə, altı dənə ceyran otduyur. Görür ki, bunun içinnən bir dənə ceyran təkləndi gəldi bu Süleyman peyğəmbərə baş əydi, təmənna elədi. Dedi ki, sana qurban olum, insan əhlisən, hara gedirsən sən?

Deyir:

– Allahın yanına gedirəm, söhbət eləməyə.

Deyir:

– Get Allah-talaya denən ki, Allahın bizə qəzəbi keçif, bütün sular quruyuf, meşələr quruyuf, hər yer yanıf. Bircə o tala yer qalıf. Bizə denən rəhm eləsin.

Süleyman peyğəmbər gedir Allah-talanın yanına. Qabaxca ceyranın xayişini çatdırır. Allah-tala deyir:

– Get olara deginən ki, sizə mən heş cürə rəhm eliyəmmijəm, qoy qırılsın.

Qayıdır gəlir Süleyman peyğəmbər. Ceyran gəlir bunun qabağına, deyir:

– Noldu?

Deyir:

– Vallah, qabaxca səninkini dedim, sora özümkünü. Dedi, mən onnara heş cür rəhm eliyəmmijəm.

Bu peyğəmbərlərdə yalan, əyri söz olmaz. Qayıdır gedir. Deyir, mən bunu öz yoldaşdarıma demiyəjəm, məyus olmasınnar. Deyir, Allaha pənah.

Bir həftədən sora qayıdır gəlir ki, ceyrannar oynaşır, gömgöy ot, çiçək. Deyir:

– Saa fəda olum, sizdə yalan olmaz. Sən dedin ki, olara heş cürə rəhm eləmiyəjəm.

Deyir:

– O dilsiz, ağızsız heyvanı nəhqədər zülmə çəkdimsə, gənə Allahın adını yadınnan çıxartmadı. Ona görə mən olara rəhm elədim.

Bax, helə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### II mətn

Yeddi il yağış yağmıyıf. Canım qurban olan peyğəmbər Allahnan kəlmələşməyə gedirmiş. Keçilərdən biri gəlir bının qabağına, deyir:

– Ya peyğəmbər, bizim də ərzimizi Allaha oxu. Axı yağmadı, bitmədi, yeddi ildi korrux çəkirik.

Gedir, min kəlmələşir, min birdə bıların hak-hesabını deyir. Deyəndə deyir:

– Hələ yeddi il də korrux çəkəjəhlər.

Qayıdıf gələndə peyğəmbər heyvannar özdərinnən birin yolluyullar bının qabağına. Özü də yolluyanda bına deyillər ki, yolda saa şad xəbər versə, oynuya-oynuya gəl. Məlil xəbər versə, bikef gəl, heş gəlif bırda deyif bizim ürəyimizi qırma. Gəlir deyir ki, ya peyğəmbər, bizə nə xəbər gətirdin. Deyir ki, Allah dedi ki, hələ yeddi il də innən belə korrux çəkəjəhlər. Bı gəlir. Görüllər, vallah bıdı, oynuya-oynuya gəlir, şad gəlir. Deyillər:

– Hə, tay yağdı, bitdi.

Yağır, bitir, bılar da yeyif-içir.

Bir də peyğəmbər gedəndə gedillər qabağına. Deyillər:

– Bəs səndə də yalan, niyə belə dedin?

Peyğəmbər də gedir deyir:

– Ya Allah-tala, bəs sən həylə dedin, mən də həylə dedim. Niyə məni yalan çıxardırsan?

Deyir ki, o oynuya-oynuya, şad oluf getdiyinə görə biz onun urzasını verdik. Onüçün oların urzasını verdim həylə.

## 14. SÜLEYMANA QALMAYAN DÜNYA

### I mətn

Süleyman peyğəmbər hələ aylə qurmamışdı. Başqa bir ölkəyə bir illik səfərə çıxmışdı. Səfərdə ikən bunun qabağına gözəl bir qız çıxır. Bu qızı görəndə elə o saat vurulur ona. Qəlbində deyir: "Səfərimi başa vurum, qayıdanda bu qızla aylə qurajam".

Səfərini bir ilə, iki ilə, beş ilə, nəysə, başa vuruf qayıdanda həmən yolu gəlir. Həmən yerdən keçəndə, deyir, bu boylanır, ora-bura baxır, axtarır. Bunun qabağına bir qarı çıxır, qoja qarı. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Oğlum, nəysə elə bil itirmisən, axtarırsan?

Deyir:

– Ay ana, heş-zad, elə-belə baxıram.

Deyir:

– Yox, nəysə sən gəzirsən?

Deyir:

– Hə, mən filan vaxdı burdan keçəndə bir qız gördüm. Vurulmuşam ona. Onnan aylə qurajam. Qərar vermişəm ki, aylə qurum. Onu gəzirəm, görüm bir də görə bilərəmmi.

Deyir:

– Gəzmə, oğlum, o qız mənəm. Mən bu dünyayam, – deyir, – bu dünya. Qocalıram, yenidən cavanlaşıram. Əgər sən mənə vurulmusansa, çıx kəntdən bir kilometr get. Yenərsən bir dərə var, o dərədə mənə uyannarın halına bax.

Bu, deyir, kətdən çıxır, görür ki, bir dərin dərə var. Dərəyə yenəndə görür ki, üş dənə insan, pəhlivan cəsədi var, bir dənə ənbiz, qızıl topası var. Aralıya baxır, görür uzaxda bir dəvə otduyur. Fikirrəşir ki, ilahi, bu nə səhnədi? Qıraxda bir dəvə, burda üş pəhlivan yatır, bir topa qızıl, bir mejməyi də aş var. Fikirrəşir, bu nə səhnədi, bu nə oyundu. Bu belə olufdu.

Bu üş pəhlivan haranısa qarət eliyifdilər, bu dəvəni yüklüyüfdülər. Dəvənin üsdündə bu pulu, bu qızılı gətirifdilər, bir dərədə töküfdülər. Qərar verifdilər ki, bölsünnər. Bölmək zamanı ikisi bir oluf, biri bir. Fikirrəşillər ki, neynəyək bu yoldaşı öldürəh, bu ikimizin olsun. Ajmışdılar, deyir. Yoldaşı deyir ki, bunu bölə bilmijeyih. Yeməh tapax yeyəh, sora gənə burdadı da, bölərih. Bu yoldaşdardan birini ikisi göndərir ki, kəndə get yeməh gətir, yeyəh, onnan sora böləh. Bu gedir kəndə yeməh gətirməyə. Bu ikisi fikirrəşir ki, o gələndə nağarsınnar ki, onu öldürsünnər, bu qızıl buların ikisi arasında bölünsün. O yeməyə gedən adam fikirrəşir ki, nağarsın, nətər eləsin bu ikisini öldürsün, qızıl buna qalsın. Həyat belədi ey. Fikirrəşəndə həyat başdan-ayağa dərtdi, qəmdi.

Bəli, bu gedir aş bişirtdirir, üş nəfərrik, bir mejməyi. O vaxdı mejmada qoyallarmış. Hələ bir sini də var. Bir mejməyi aş, üsdü belə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çolpalı-filanlı gətirir. Həmən dəvəni minif getmişdi. Dəvənin üsdündə gətirir. Gələndə yolda qərar verir ki, yeməyə zəhər qatsın. Olar yesinnər ölsünnər, qızıl qalsın buna. Bunnar qərar verir ki, gələn kimi onu vuruf öldürsünnər, sora yeməyi yeyif qızılı bölsünnər. Belə də olur.

Bu, aş qujağında gəlir. Dəvədən düşür, elə yeməyi alıf yerə qoyanda bunu daşnanmı, hansı alətnənsə vuruf öldürüllər. Deer hə, bunnan qutardıx. Yeməyimizi yeyəh, bölgümüzü böləh. Bu ikisi də aşı yeyir, bular da burda ölür. Dəvə qalır yiyəsiz, həmən dəvə. Yiyəsiz dəvədi, boş səhrada gedif otduyur. Mejməyidə qalıf yemək. Pəhlivannar ölüf, qızıl da qalıf ortalıxda. Odu ki, deyir, halına bax, dünyaya uyannarın halına bax. Dünyaya uyannarın aqibəti budu ey. Axırı heşdi. Nə var bu dünyada qalan şeydi. Bunu başa düşənnər, qanannar, hiss eliyənnər mənimsiyiflər, amma azdı da. İsdər-isdəməz həyat elə şeydi ki, cəlb eliyir ey, qüvvə var ey, cəlbedici qüvvə. Kimsə ehtiyac üzünnən axtarır, bu cinayəti deyirəm ha, kimsə şöhrət üzünnən axtarır. Hər ikisinin aqibəti eynidi.

### II mətn

Süleyman peyğəmbər üş yüz il yaşamışdı. Gedirdi bir yerə. Getdi gördü ki, yolda bir gəlin oturuf ki, gözəlliyi dünyanı alladır. Dedi ki, mən saa nə verim ki, qayıdanda səni alım. Dedi:

– Barmağındakı üzüyü ver.

Barmağınnan üzüyü çıxardanda gəlin dedi ki, orda daşın dalında boxça var, apar at ora. Apardı atdı, getdi getdiyi yerə. O üzük onun barmağında getsə ora, üş yüz il də yazılajeydi o üzüyün üsdünə. Gəlif yaşıyajeydi.

Qayıdanda gördü ki, bu gəlinin yerində bir qarı oturuf, qarı dünyanı alıf ağzına, əl-ayax dağ kimi oluf, bir yekə qara qarıdı. Peyğəmbər dedi ki, burdakı zənən nejə oldu? Dedi ki, o adam mənəm. Dedi:

– Onda üzüyümü qaytar.

Dedi:

– Atdığın daşın dalındadı, get götü.

Getdi, baxdı, gördü ki, burda üş minnən artıx üzük var. Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Axı mən üzüyümü tapa bilmirəm.

Dedi:

– Tapa da bilməzsən. Sənin kimi Süleymannar çox gəlif gedif.

Süleyman peyğəmbər soruşdu ki, bəs sən niyə belə oldun?

Dedi:

– Gedəndə dünyan işıxlıydı, indi dünyan qarannıxdı. Sən allandın. Gərəh üzüyü çıxarmıyeydin. Üzüh barmağında olseydi, ömrün yazılajeydi. İndi sənin dünyan qarannıxdı, ölüm haqq-hesabdı.

Süleyman peyğəmbər dedi:

– Ya Allah-tala, axı mənim uşaxlarım körpədi.

Allah-tala dedi:

– Get dur dəryanın qırağında. Çəliyi vır suya, bir ağ yol açılajax. – Çəliyini vurdu, bir ağ yol açıldı. – Get dəryanın ortasına, orda qabağaa bir qara daş çıxajax. Çəliyınnan vır, o daş sınajax. O daşın içində ağ qurdun ağzına göy yarpax verən Allah sənin uşaxları qırmıyajax ha.

Əzizim başa qaldı,
Biçinçi başa qaldı.
Bu Süleyman mülküdü,
Bunda kim başa qaldı?

Üş yüz il yaşıyan Süleyman peyğəmbərə qalmıyan dünya kimə qaldı?

## 15. QUŞ SÜMÜYÜNDƏN EV

### I mətn

Qız deyir ki, mənə gərəh quş sümüyünnən meçid tikilə, quş başınnan minarəsi qoyula. Süleyman peyğəmbər çağırır bütün quşdarı, deyir:

– Quşdar, silkinin.

Deyir, quşdarın əti bir yana, sümüyü bir yana yığılır. Meçit tikilir, minarə tikilir. Fikirrəşillər ki, hansısa quş gəlmiyif. Üş dəfə quş göndərif dalıynan, bayquş gəlmiyif. Üçüncü dəfə Süleyman peyğəmbər özü gedir. – Ənuşiravan padşahın qızını oğluna alır. Buna sifariş



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

verif ki, quş sümüyünnən meçit, quş başınnan minarə tikilsin. – Peyğəmbər özü gedir bu quşun ayağına. Bayquş onnan sora gəlir. Deyir:

– Nədən ötəri məni gətirmisən? Niyə bu quşdarı qırdırırsan bir qızdan ötəri? Özün neçə il yaşamısan?

Deyir:

– Yüz yaşım var.

Deyir:

– Nə möcüzə görmüsən?

Nəysə deyir. Deyir:

– Mənim də filan yerdə, filan arxın qırağında bir uca çinarda üş yuvam var. Biri qış yuvası idi, ortadakı payız yuvası idi, lap başdakı yay yuvası idi. İsdinin tüğyanında, gejənin bir vaxdı bir qar başdadı, gördüm yuvanı basır, keşdim orta yuvaya. Orta yuvanı da basır, çıxdım yay yuvasına. Onu basa-basda bir ağ giləli yağış başdadı, o qardan bir əlamət qalmadı. Səhər gördüm iki dənə oğlan at suvarır. Biri o birinə deyir: "Beejə bekara bir yağış yağdı". O sirri birjə mən bildim. Mən bildim ki, iyirmi metr qar yağdı, yağış töküldü, qarı yudu apardı. O sirri mən bildim. Sən nə bilirsən? Gedərəm sonsuznan, züryəti olmuyannan, Sabirin (söyləyicinin yaxın qohumu - top.) ata-anası ölüf, onnan qalaram, küllüyündə eşələnərəm, gəlif tikdirdiyin imarətin üsdündə qənət çalaram, zirri-zəvər olar. Mənnən işin yoxdu.

Onnan sora o quşun adı olur Bəyquş. Görürsən o necə zəhmli quşdu. Hansı qapıya gəlirsə, getməlidi. And olsun Allaha, bu çinardan üç il biz onu qova bilmədik. İsa məllim gəldi daşdadı, dedi:

– Odu, kösöyü atın dalınca.

Mümkün olmadı. Nağardıx, axırı o kişini apardı.

### II mətn

Bir dəfə, canım qurban olsun, Süleyman peyqumbərin arvadı əmr eliyir ki, maa bir əv tik quş sümüyünnən. Mən içəridə olanda çöldən gedən məni görməsin, hamma mən çöldən gedənin hamısını görüm.

Əmr eliyir ki, nə qədər cannı quş var gəlsin, bəs bu quşları peyqumbər qırdırajax, bunun sümüyünnən arvada əv tihdirəjəh. Quşun



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

hamısı gəlir, bayquş gəlmir. Əmr eliyir, bayquş gəlir, durur kənarda. Deyir ki, niyə gəlmirsən? Bayquş da elə bil ki, bir az bırda durur, bir az orda durur. Peyqumbər deyir ki, niyə bir yerdə durmursan? Deyir ki, yurd yurtdan sayalı olar. Ona görə də bir az bırda dururam, bir az orda, bir az da orda. Bayquş deyir ki peyqumbərə, bu quşdarı bıra nəə yığmısan? Deyir ki, belə-belə dana, yığmışam ki, hamısını öldürtdürəm, qırdıram, arvada əv tihdirəm.

Deyir:

– Noolar.

Bayquşa deyir ki, sənnən üş söz soruşajam, əyər dedin, canını qutardın, demədin elə səni də öldürtdürəjəm.

Deyir:

– Hə... Nolar.

Deyir:

– De görüm dünyada gedəjəh çoxdu, gələjəh?

Deyir ki, gedəjəh. Deyir:

– Niyə?

Deyir ki, gedəjəh gedifdi, gələjəh də gedəjəh. Deyir:

– De görüm dünyada abadan çoxdu, xaraba?

Bayquş cavab verir ki, xaraba. Deyir:

– Niyə?

Deyir:

– Xaraba xarabadı, abadannar da xaraba olajax.

Deyir:

– De görüm dünyada arvad çoxdu, kişi?

Deyir ki, arvad. Deyir:

– Nejə?

Deyir:

– Sənin kimi arvad sözünə baxan kişilər də arvatdı elə.– Peyqumbərə deyir bını bayquş. – Sən bir belə cannının qanına, canına bayis oluf qırmağnan əv tihməh isdiyirsən. Qarğuya-qamışa sən nə vermisən ki, qırdırıf gətirif çavıstan* tihdirə bilmirsən, arvad çölnən

---

* çavıstan – qarğıdan tikilən dam



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gedəni görə, çölnən gedən də arvadı içəridə görmüyə? Peyqumbər deyir ki, sən bayquş yox, bəy quşsan. Gündə üç dənə sərçəni saa cirə* verdim. İndi, deyilənə görə, guya sərçənin üçü də gəlir fırranır bayquşun başına. Bayquş da ikisini yeyir, birini hərriyir başına, bıraxır. Belə də olufdu.

## 16. MUSA ALLAHI QONAQ ÇAĞIRIR

Turi-Sənadan Allahdan cavab alan Musa peyğəmbər oluf. Gedif çıxıf Turi-Sənaya, sözünü-söhbətini qutarannan sora deyif ki, biz dosdux da, sənnən dosdux. Deyir:

– Hə.

Deyir:

– Onda mənə qonax ol.

Deyir:

– Yaxşı.

Vaxt qoyullar. Deyir:

– Olaram.

Gəlir bazardan düyüsünü alır, aş qarasını alır. Çünki müsəlmanın ən hörmətdi yeməyi pilovdu. Məsələn, anam deyir ki, düyü qulfallahdı, onu ayaxlamax olmaz. Yaxşı da aşpaz çağırır. Aşpaz bu düyünü dəmliyir. Düyü dəmdə olan vaxdı bir sail gəlir, yolnan keçən.

– Salam-məleyki.

– Əleykimət-salam.

Deyir:

– Yol adamıyam, ajam. Bunnan bir qismət verə bilərsən mənə?

Aşpaz gedif peyğəmbərin yanına, deyif:

– Bunnan bir qismət ver, belə ajdı.

Deyir:

– Ə, dəlisən, nəsən? Biz Allahı qonax çağırmışıx. Onu tərpətməkmi olar?

---

* cirə – norma



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bunun əlacı kəsilir, deyir ki, əşi, bunnan bir qismət mənə verəjəhsən?

Deyir:

– Hə.

Deyir:

– Onda xayiş edirəm, mənim payımı ver.

Bu payını verir, bu yol adamı yeyif gedir. Axşam da gözdüyüllər gəlmir, səhər də gözdüyüllər gəlmir. O biri gün gənə gedir Turi-Sənaya, namaz qılır. Deyir:

– Aşpaz verdi, yedim, getdim, cənnəti də aldı.

## 17. ALLAHIN HÖRMƏTLİ BƏNDƏSİ

### I mətn

Musa peyğəmbər genə bir gün Allahnan kəlmələşməyə getmiş imiş. Deyir:

– Ey mənim Allahım, mənnən hörmətdi bəndən var?

Keyfi yuxarı imiş. Deyir:

– Ya Musa, bu dəfə gəldiyin yolla getmə, filan yolu get.

Ayrı bir yol gösdərir. Musa peyğəmbər az gedir, çox gedir, görür çöllü-biyabandı. Axşam da düşür. Amma dağın başınnan tüsdü gəlir. Deyir:

– Gedim bu tüsdüyə sarı. Kənd yox, kəsək yox. Nədisə, orda yaranmışlardan var ki, tüsdü gəlir.

Gedir ki, qayanın başında düzəngah yerdi, bir sürü qoyundu, bir də çoban.

– Çoban qardaş, məni qonax eliyərsənmi?

Deyir:

– Allaha da qurban olum, qonağına da. Gəl bəri.

Musa peyğəmbər də ajıf. Gedif baxır ki, nə paltar var, nə qab var, nə yeməh var. Heş bir şey yoxdu. Bu fikirrəşir ki, ay Allah, mən gəldim, burda nə yatmağa mitil var, nə yeməyə çörəh.

Çoban qoyunu yığır arxaca. Oturullar. Deyir:

– Ey mənim Allahım, qonax var, təam göndər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Musa peyğəmbər məətdəl qalır. Deyir:

– Bu kimnən danışır, ay Allah? Qonşu yox, qohum yox.

Bir də ajıxlı-ajıxlı deyir:

– Ey mənim Allahım, demədim mənə təam göndər, qonağım var!

Rəvayətə görə, bir bulud gəlir, bu somuyaan* üsdünə düşür. Görür ki, bir dənə qızıl badnos, içində iki adamlıx hər bir nemət var. Qab-qaşıx hamısı da qızıldandı. Altı uzun bir dərədi, qəlbi, hündür dağdı. Bunnar yeyir-içir. Çoban qab-qaşığı yığışdırır, qayadan tulluyur. Musa peyğəmbər məətdəl qalır. Çəngəl qızıl, qab-qaşıx qızıl, badnos qızıl, bunu götürdü niyə tulladı? Bu dayana bilmir, çobana deyir:

– A çoban qardaş, Allah-tala pislih elədi sənə? O formu qızıldan qab-qaşıx göndərdi, burda yedih-işdih. Sən niyə qayadan tulladın o qab-qaşığı?

Deyir:

– Otuz ildi mən burda çobanam. Bir sürüdü, bir də mən. Allah-tala gündə üş dəfə belə qızıl badnosda yeməh göndərir. Mən burda dəmir-dümür yığanam? Allah-talanın dəmir-dümürü azdı, mən burda qızıl yığam, dəmir-dümür yığam? Mən elə bildim ki, sən düzgün qonaxsan.

İndi Musa peyğəmbər namaz qılır. Bu da başını yerə qoyub "ağ qoyun, qara qoyun, başımı yerə qoyum" deyib namaz qılır. Bunun da namazı budu. Bilmir da. Onnan sora Musa peyğəmbər bilir ki, onnan qabax çoban gedəjəh cənnətə. Çoban, rəvayətə görə, çarıxlı-patavalı cənnətə gedir. Musa peyğəmbər gedir ki, cənnətdədi çoban. Hə, belə işdər.

### II mətn

Abidə peyğəmbər adı verməк isdiyirmiş. Abid gedir bir kolun divində yolun qırağında yatır. Buna, deməк, gündə bir dənə nar gəlirmiş. Bunun yeməyi bu imiş. Nə var onun içindəymiş. Axşam da olanda yorğan-döşəh gəlirmiş, səhər yığılıb gedirmiş.

---

* somuya – daxma



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir günnəri buna bir qonax gəlir, Allah tərfinnən, cənab əmirzad olur da. Gəlir görür ki, iki nar gəldi, iki dəsdə yorğan-döşəh gəldi. Birini götürür qoyur narın, bəlkə, sabah gəlmədi, bunu səhərə saxlıyım. Yorğan-döşəyin də birini saxlıyır, bəlkə, səhər yorğan-döşəh gəlmijəh. Nəysə, bu belə olur.

Burdan durub cənab əmir yolnan gəldiyi yerdə görüf ki, bir çoban dağın döşündə qoyun otarır:

– Ay yolnan gedən qardaş, ay yoldaş, ay aman, ay dad, gəl bura.

Deyir:

– Qardaş, günortadı, kənt də uzaxdı. Gedif çörəh yeyə bilmiyəjəhsən, aj qalajaxsan. Gə bura, mənnən çörəh yeyəh.

Gəlif deyir:

– Ay oğul, hanı sənin çörəyin? Heş misəfkən-zadın da yoxdu.

Deyir:

– Ə, sənin nə işəə qalıf, deyirəm gəl mənnən çörəh yeyəh. Allah-tala maa çörəh göndərəjəh.

Oturur kolun dibində, deyir:

– Bu saat gələjəh, filan vaxdı.

Gedif görüf yaxşı yeməh, plov. Yeyif-içif, axırda qabın dibində bir az qalıf. Çomağı çəkir qabı qırıxlıyır, tulluyur ora. Deyir:

– Ay oğul, niyə belə elədin?

Dejir:

– Vallah, bu da qurd-quşun payı-zadı da, gəlif yeyər.

Deyir:

– Axı səə hər saat qismət gəlməz.

Deyər:

– Gəlməz, bu çomaxnan Allahın başını dağıdaram.

Gedir Allah-talanın yanına. Deyir ki, Allaha, bir heylə ibadət eliyən, peyğəmbərrih verməh isdədiyin, onun hansı cənnətdihdi, hansı cəhənnəmlih.

Deyir:

– O çoban cənnətdihdi, o kişi cəhənnəmlihdi.

Başa düşürsənmi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

### III mətn

Allaha ibadət eliyən bir alim olur. Musa peyğəmbər gedəndə bu alimin evində qonax qalır. O vaxdı Allahın qapısı açıx idi. İndi Allah qapını bağlıyıf. Allah-tala tərəfinnən o alimə yemək, mitil gəlirmiş. Qonağı olduğuna görə, iki çörəh gəlir, iki döyrə xörəh gəlir, iki dəsd mitil gəlir. İbadətnən səxavət yarıdı. Allaha ibadət eləməhnən döyül ey, səxavətin də gərəh ola. Alim fikirrəşir ki, balam, həmişə bir çörəh gəlirdi. Bu nə işdi? Öz-özünə düşünür ki, yağın beyjə soyux olajax. Bu çörəyin birin yeyir, heş Musa peyğəmbərə təhlif eləmir. Çörəyin birin qoyur ayana, saxlıyır səhərə. Gejə də mitili altına üsdünə tökür, yatır. Musa peyğəmbər də kürkünə bürünüf yatır. Gejə oyanır ki, bir maşakqat qopuf, bir qiyamət qopuf. Deyir:

– Ay dədə vay, bu mitilnən mən qızmadım, yağın qonax ölüf.

Çağırıf:

– Qonax, qonax.

– Nədi əşi?

Deyir:

– Ə, üşümürsən ki?

Deyif:

– Yox, niyə üşüyürəm ki?

Deyir:

– Axı mən üşüyürəm.

Deyir:

– Üşüyürsən, dur gəl gir yanıma.

Əlin belə uzadır bunun kürkünün altına, görür burdan yalo düdəhlənir. Dürtülür gejə yatır bunun böyründə. Səhər açılır. Deyir:

– Bəs sən kimsən?

Deyir:

– Neynirsən, qonağam da, qaldım evində, gedirəm.

Bu gedir. İndi Allahnan bu danışmağa gedir axı. Deməli, Allahın bu alimə nətər qəzəbi keçərsə, altı gün buna çörəh göndərməz. Bu, əlajı kəsilər, durar gedər yahudidən çörəh isdiyər. Yahudi söyündüyünnən gətirər buna altı çörəh verər ki, Allahın alimi gəlif bizim qapıda dilənir. Altı çörəyi alıf geri qayıdanda bir qoja it kəsir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bunun qavağını. İt cumduhca çörəhdən verir. İt nahadı addadır, keçir durur qavağında. Birin də verir. Nəysə, it beşin alır bunun əlinnən, qalır biri. Biri qalanda deyir:

– Ay Allahın heyvanı, Allah saa nəhlət eləsin. Beşin saa verdim, qoy birin də mən yeyim da, – deyəndə Allahın hökmüynən it dillənir.

Deyir:

– Alim, Allah sana nəhlət eləsin. Sana nolmuşdu qonağın çörəyin özünə vermirsən, indi gedif yahudidən çörəh alıf yeyirsən. Nə vacib olmuşdu, niyə vermirdin qonağın çörəyin özünə? Özün də Allaha ibadət eliyirsən.

Alim burda çatdıyır ölür, dərisi şıppıltıynan boğazınnan çıxır. İt də ölür, itin də dərisi boğazınnan çıxır. İtin dərisi keçir alimin boğazına, alimin dərisi keçir itin boğazına. İt gedir alimin əvəzinə behiştə.

## 18. CƏNNƏT XİDMƏTÇİSİ

Peyğəmbər gedirmiş namaz qılmağa meçidə. Görüfdü bir dənə şir, qapını belə daraxlıyıf duruf. Buna deyifdi:

– Ay Allahın heyvanı, niyə camaatı qoymursan meçidə girsin günorta namazına?

Şir deyir:

– Mən gəlmişəm məni evləndirəsiz.

Peyğəmbər, deyir, iclas çağırır. Üş dəfə təklif eliyir:

– Kim qızını bu şirə verir?

Heş kəs dillənmir. Qoja kişi görür peyğəmbərin sözü yerə düşür:

– Mən – deyir, – verərəm. Yeganə bir qızım var.

Qızını verir. Peyğəmbər kəbini kəsir, qızın əlini verir şirin əlinə, çıxır gedir.

Bir günnən sora kişi gedir:

– Ya peyğəmbər, aman-zaman bircə dənə qızım var idi, aldın əlimdən verdin şirə. Barı yerini de, gedim görüm onun taleyi nətərdi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– A kişi, ala bu kağızı – kağız yazıb verir əlinə, – kağız uçacağ, sən də dalınca get. Kağız hansı darvazanın yanında düşsə, qızın ordadı.

Xeylax gedir, az gedir, çox gedir, görür ki, bu düşdü bir dənə darvazaan ağzında. Qapını döyür, qız gəlir. Görür, vallah, qızı ağappax belə ağarıf, qızıllı, geyimli-gejimli. Qujağında da bir oğlan uşağı oturuf, yeyir-içir. Deyir:

– Qızım, şir hanı?

Deyir:

– Ay ata, o şir deyil axı, o şir donunda məleykədi. Cənnətdə xidmətçidi. Gedif, gələjək indi.

Bir azdan sora gördü nətər bir oğlan gəldi... Amma peyğəmbər deyif ki, kişiyə, yolda nə görsən gəl mənə de. Çox qalır, az qalır bilmirəm, bunun payını-pürüşünü tutullar, bu qayıdır. Qayıdanda görür bir dəvə can verir, bir sürü qarğa gəlir bunu dimdihləyir, qalxır uca çinar başında Quran oxuyur. Kişi götürüf bir daş atır:

– Qoyun bu heyvan ölsün, sora dimdihləyin da.

Bir də yeyif qayıdıllar, çıxıllar Quran oxuyullar. Qayıdır Süleyman peyğəmbərin yanına. Deyir:

– Nə gördün, razı oldunmu?

Deyir:

– Qızımdan da, göyümdən də, sənnən də razı oldum.

Deyir:

– Bəs axı mən səə bir söz demişdim, yolda nə gördün?

Deyir:

– Ya peyğəmbər, bir dənə dəvə idi, can verirdi. Bir sürü qarğa gəldi qondu, dimdihlədi, ağzı qannı çıxdılar ora, Quran oxudular.

Deyir:

– A kişi, qumarbaz da Quran oxujax, piyanıska da Quran oxujax, nəşəxor da Quran oxujax.

Bax, indi, həmin zamanamız, oğul, gəlif çatıfdı. Belə. Bu da bu qədər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 19. BORCLUNU BORCDAN QURTARAN ƏLİ

Bir gün bir kişi varmış. Bının çoxlu borcu varmış. Bı baş götürür öz vilayətinnən gedir ki, başqa yerdə işdiyə, pul qazana bir az, gətirə borcunnan-zadınnan verə bir az, qaytara. Bir xeyli yol gedənnən sohra ajır. Bir kəndin qırağına çatmışımış. Bağlıx bir yer imiş. Görür ki, bir nəfərdi, bı bağlardan birini suvarır. Deyir:

– Qardaş, salam.

Deyir:

– Əleykə-salam.

Deyir:

– Qardaş, ajmışam, bəlkə, bir az çörəyin olar yeməyə?

Deyir:

– Hə, niyə yoxdu? Get qabağa, bağın o biri başına. Orda ağaşdan asılı heyvə var, götür, yeməh var, çörəh var. Yarısını ye, yarısını da maa saxla.

Kişi gedir. Bının dediyi kimi eliyir. Bı yeyincə bı bağban da gəlif çıxır. Deyir:

– Qardaş, yedin?

Deyir:

– Hə, yedim.

Deyir:

– Doydun?

Deyir:

– Yox, doymadım.

Deyir:

– Doymadınsa, götür hamısını ye.

Kişi götürüf bının çörəyinin hamısını yeyir. Deyir:

– Ay qardaş!

Deyir:

– Hə, – bağban bına deyir ha. Deyir:

– Gedərsən, qabağaa bir kənt çıxajax. Mənim evimi xəbər alarsan, – adını deyir da. Məsəlçün, Həsənin evini xəbər alarsan, saa gösdərəjəhlər. Arvad-uşağıma deyərsən ki, yoldaşın dedi ki,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

axşama qonağım olajax, Allah verənnən nə varsa, hazırrasın. Özün də otur orda məni gözdə. İşimi qutarıf gələjəm.

Bı yolçu gedir. Bının dediyi kimi eliyir. Bının evini tapır. Bı nətər demişdisə, elə deyir bının arvadına. Sən demə, bı bağban da elə-belə adam deyilmiş ha. Qurban olduğum Həzrət Əliymiş. Nəysə, axşam olur, oturullar bular surfa arxasında, Allah verənnən yeyillər, içillər. Sohra qurban olduğum bı yolçuya qayıdıf deyir ki, ay qardaş, de görüm, sən kimsən, nəçisən, hayannan gəlif, hayana gedirsən? Sən nəsə qərib adama oxşuyursan.

Deyir:

– A qardaş, vallah, mən başqa bir vilayətdənəm. Hal-qəziyəm də bıdı. İndi borcumu qaytarmax üçün özümə iş axtarmağa çıxmışam.

Deyir:

– Bəs indi fikrin nədi, zikrin nədi, hara kimi gedəssən?

Deyir:

– Nə bilim, Allaha pənah. Qismətimi harda tapsam, ora kimi gedəjəm.

Deyir:

– Qardaş, mən saa kömək eliyərəm.

Deyir:

– Nətəri?

Deyir:

– Yatax, inşallah, sabah deyərəm.

Bı yatır. Amma bı yolçu yatmır, axı yata bilmir. Deyir, görəsən, kimdi, nəçidi bı, maa nətər kömək eliyəjək? Nəysə, bı fikirrəşə-fikirrəşə səhəri açır. Səhər durullar. Deyir:

– Bilirsən nə var?

Deyir:

– Nə var?

Deyir:

– Gedəjeyih bazara, məni sən aparassan, qul kimi satassan, amma nə badə ucuz satasan ha. Bir yaxşı qiymət denən. Desələr bı qulun əlinnən nə iş gəlir, nə bacarır, nə işin sahabıdı ki, bını belə baha satırsan? Denən bı qulumun əlinnən hər iş gəlir, nə desən bacarır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Ay qardaş, sən nə danışırsan, bı nətər olan şeydi, mən bını eliyə bilmərəm.

Deyir:

– Yox, sən qorxma, sənin işinə qalmıyıf. Sən mən nə deyirəm onu da elə.

Nəysə, bını qul sifətində aparır bazara. O gəlir baxır, gedir, bı gəlir baxır, gedir. Axırda bir vilayatın sahıbı gəlir, deyir ki, bı qulu neçəyə verirsən? Deyir, misal, filan qiymətə.

Deyir:

– Nə bacarır bı qul?

Deyir:

– Vallah, nə desən bacarır, özü də çox güjlüdü.

Bını bı xan alıf aparır. Bı kişi də o pulu götürüf gedir. Bı xan bı qurban olduğumu qul sifətində aparır öz sarayına. Aradan bir az keçir. Bı xan baxır ki, vallah, bı qula nə deyirsən eliyir. Əlinnən də hər iş gəlir. Özü də çox az danışır. Soruşmasan cavab verməz. Həm də xan fikirrəşir ki, bı qul gələnnən bının surfasının bərəkəti birə-beş artıf, çoxalıf. Elə hər günü bını aldığına şükür eliyir. Bı, qurban olduğum Əlidi, ayağı ruzuludu axı, canım qurban olanın.

Bir gün bı xan nökərlərini göndərir meşəyə ki, bəs qışa odun yığın. Gedillər. Bı da bıların içindədi. Gedillər. Bir az eşşəyin belində, bir az atın belində, bir az öz kürəklərində odun daşıyıllar. Bir gün bı qayıdır ki, bəs sabah mən özüm tək gedəjəm oduna. Hamı deyir ki, sən tək nətər daşıyassan odunu? Deyir ki, mən daşıyajam. Hamı qalır belə, bir söz deyə bilmillər. Səhəri bı tək gedir meşiyə. Bir az vaxt keçir. Hay-küy düşür. Deyillər xana ki, bəs bir sürü vəşi heyvandı, kəndə tərəf gəlir. Çıxıllar görüllər ki, bı nökərdi, bütün vəşi heyvannarın kürəyinə yekə-yekə ağaşdarı yük vuruf. Bütün vəşilər sürüyüf gətirif tökür xanın sarayına. Xan baxır ki, bı bir dəfəliyə iki qışın, üş qışın odununu gətirif töküf bının həyətinə. Xan bilir ki, nəysə, bında bir sirr var. Çağırır bını yanına, deyir:

– Bı nə hak-hesabdı, bı nədi belə? Sən kimsən?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Vallah, mən elə bir nökərəm, kim olajam ki?

Tay xan heş nə demir. Üsdünnən bir müddət keçir. Xanın vilayətində su qıtdığı varımış da. Dağ qoymurmuş ki, bı vilayətə su gələ. Xan camaatı yığır, aparır işdədir, amma heş bir xeyri olmur, dağı yara bilmillər. Bı gəlir, əlini belə qoyur dağa, qurban olduğum, nətər güj verirsə, dağ ortadan aralanır, su yönünü dəyişir, kəndə gəlir. Özü də əlinin izi qalır haman dağda. Onu mən özüm də görmüşəm. Tərtərdədi o. İndi də durur əlinin izi orda, canım qurban olduğumun.

Xan bını çağırır, deyir:

– Sən maa bir belə yaxşılıx elədin. De görüm mənnən nə isdiyirsən? Saa nə verim?

Deyir:

– Maa heş nə lazım deyil.

Deyir:

– Səni and verirəm Allaha, de görüm sən kimsən, nəçisən?

Deyir:

– Əşi, vallah, mən filankəsəm. Bağbannıx eliyirdim. Bəs halqəziyə də bı oldu, belə oldu.

Tay xan da bını buraxır, bı da gedir öz ayləsinin yanına. Heyləcə özünü qul kimi satdırır ki, o boşdunu boşdan qutarsın. Heylə onu boşdan qutarır.

## 20. ƏLİNİN DİVANI

Əli çox ədalətli oluf, qurban olduğum. Elə bil ki, kimin nə davalı işi varmışsa, gedirmiş onun yanına. Olların davasını o saat həll eliyirmiş düzdüynən, ədalətnən. Bir gün nətər olursa, bir arvadın uşağını başqa bir arvad – belə şey arvad imiş da, həyasızın biri imiş, – götürür ki, bı mənim uşağımdı. Uşağın da yəəsi hara gedirsə, bını isbatdaya bilmir ki, bı bınındı da. O deyir: "Uşax mənimdi". Bı deyir: "Uşax mənimdi". Heş bir qazı, heş bir molla bıların bı davasını həll eliyə bilmir. Bı tay naəlaş qalıf gedir qurban olduğumun yanına. Əli qurban olduğum da əmr eliyir o biri arvadı da gətirillər, uşağı da gətirillər. Əli deyir: "Uşax kimindi?" Bı həyasız arvad deyir ki, uşağ mənimdi. Uşağın gerçəh anası da and-aman eliyir ki, yox ey, o, yalan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

deyir. O deyir mənimdi, bı deyir mənimdi. Qurban olduğum bilmir nağarsın. Fikirrəşir belə. İndi bına agah olur da nağarmax lazımdı. Bı bilmir axı bıların hansına inansın. Deyir, bı Zülfüqarını belə çıxardır, deyir: "İndi mən bilirəm nağarajam". Qılıncını çıxardır ki, bölэjəm bı uşağı iki yerə. Yarısını sən götü get, yarısını da sən götü get. Qılıncını – Zülfüqarını qaldıranda bı uşağın gerçəh anası deyir:

– Ya Əli, başaa dönüm, qılıncı saxla.

– Hə, nədi?

Saxlıyır. Deyir:

– Ya Əli, başaa dönüm, mən isdəmirəm. Uşağ onundu, ver aparsın.

Bı indi qəsdən belə deyir ki, uşağı ölməsin də. Bınnan aralı olsa da, təki sağ qalsın. Heç olmasa, aralıdan görsün. Amma qurban olduğum deyəndə ki, mən bını bölürəm, heç o biri arvadın tükü də tərpənmir. Nə deyəjəh ki? Canı canınnan dəyil, qanı qanınnan dəyil. Bı belə deyəndə qurdan olduğum deyir ki, hə, bı uşağ sənin uşağındı. Götü çıx get. O biri arvadı da görkəzib deyir:

– Bını da bağlıyın dəvənin quyruğuna, qoyun sürüsün.

Belə deyəndə yanındakılar deyir ki, ya Əli, başaa dönək, bı nə sirdi, bı nətər oldu belə?

Deyir:

– Bəs uşağ arvadınıydı. Ona görə o razı olmadı ki, uşağ ölsün. Uşağın əsil anası oydu. Dedi mənnən aralı olsa da, bilim ki, sağdı. Amma o birsinin heç tükü də tərpənmədi, çünki onun uşağı dəyildi.

Əlinin belə ədalətli işdəri çox oluf.

## 21. HƏZRƏT ƏLİ İLƏ CİNNİ CƏFƏR

Məhəmməd peyğəmbər, Həzrət Əli, bir də Salmanı-Farsı yolnan gedirmişdər. Bir quyuya rast gəlillər. Daş atıllar, görüllər bu quyuda su yoxdu. Özü də daş çox uzağa getdi. Buları marax götürür ki, bu nə quyusudu? Salmanın belinə kəndir bağlıyıf sallıyıllar quyuya. Bir az keşməmiş Salman deyir ki, ay yandım, məni çəkin, ay yandım, məni çəkin. Bunu çəkif çıxarıllar. Bu səfər Məhəmməd peyğəmbər deyir ki, məni sallıyın quyuya. Bu səfər də bunun belinə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ip bağlıyıf sallıyıllar quyuya. Bir az keçir bu da qışqırır ki, ay yandım, məni çəkin, ay yandım, məni çəkin. Bunu da çəkif çıxarıllar. Bu səfər Həzrət Əli, canım qurban olduğum deyir ki, məni sallıyın quyuya. Amma nə qədər yandım desəm, çəkmiyin ha. Bunu sallıyıllar quyuya. Bir az keçir başdıyır qışqırmağa:

– Ay yandım, çəkin.

Amma bunu çəkmillər, elə sallıyıllar quyuya. Bir az keçənnən sohra bu başdıyır tay sərinnəməyə, isdi qutarır. Sohra çatır quyunun dibinə. Elə quyunun dibinə düşən kimi bunun üsdünə çoxlu qoşun gəlir. Canım qurban olduğum başdıyır bularla vuruşmağa. Elə bularnan vırışır, amma buların boynun vurduxca təzdən buların başı əmələ gəlir. Bu qırdıxca, bular təzdən dirilir. Axırda bular buna deyillər ki, sən bizi qırıf qutara bilməzsən. Bizi öldürsən də təzdən diriləjəyih. De görəh sən kimsən, bıra niyə gəlmisən? Bu deyir ki, bəs mən filankəsəm. Dinimiz bıdı, peyğəmbərimiz bıdı. Özüm də peyğəmbərimizin əmisi oğluyam. Bəs deyin görüm siz kimsiz, niyə siz ölmürsüz? Bular deyillər ki, bizə Cinni Cəfərin qoşunu deyəllər. Bizi qırıf qutarmax olmaz, biz ölmürük.

Bını götürüf aparıllar Cinni Cəfərin yanına. Cinni Cəfər bınnan xəbər alır ki, sən kimsən? Bı kim olduğunu, bura nətər gəlif çıxdığını, hamısını deyir. Sohra da deyir ki, bizim din hax dinidi. Sən də gəl bizim dini qəbul elə.

Deyir:

– Mən o zaman sizin dini qəbul eliyərəm ki, siz dua eliyərsiz, mənim övladım yoxdu, mənim övladım ola. Mən onda sizin dinin savabına inanaram, sizin dinə gələrəm.

Canım qurban olduğum dua oxuyur, bına deyir ki, narahat olma, sənin bir oğlun olajax. Cinni Cəfər də bına deyir ki, bəs, sizin tayfa nə vaxt çətinniyə düşsə, mənim öz qoşunum sizin köməyinizə gələjəh.

Vaxt gəlir keçir, Kərbala çölündə Allah nəhlət eləmiş Yəzidin qoşunuynan imamlarımız davaya çıxanda bir də imamlarımız görüllər ki, bir yel əsdi, bir tufan qopdu, gəl görəsən. Bıdı, baxdılar ki, bir dəsdə qəribə geyimli-gejimli atdı buların qabağında hazır dayanıf. Biri çıxdı qabağa, dedi ki, bəs biz Cinni Cəfərin qoşunu-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yux. Özüm də Cinni Cəfərin oğluyam. O vaxt belə bir söhbət olufdu. İndi atam da bildi ki, sizin tayfa dardadı, bizi köməyə göndərdi. İzin ver biz bu qoşunu beş dəyqənin içində məhv eliyək, qırıf qutarax. Qurban olduğum imamlarımız da deyir ki, yox, bu bizim özümüzün – insan tayfasının işidi. Sizin bına qarışmağınız düz çıxmaz. Biz öz hak-hesabımızı özümüz eliyəjeyih. Nə qədər eliyillərsə, bular razı olmur. Orda da olar tay qayıdıf çıxıf gedillər. Allah nəhlət eləmişdər də imamlarımızı qanına qəltan eliyir.

İndi o vaxt imamlarımız imkan versəydi, o Cinni Cəfərin qoşunu oları qırıf məhv eliyəjeydi. Heç olar özdəri də heylə qırılmazdı.

## 22. ƏZRAYILIN QARDAŞLIĞI

### I mətn

Bir nəfər Allaha üz tutuf deyir ki, ay Allah, elə elə, mən hər şeyin dilini bilim. Heylə olsa, nə yaxşı olar? Allah bına deyif ki, yox, bilməsən yaxşı olar. Bilməsən yaşıyarsan. Bilsən, yaşamıyassan.

Deyif:

– Yox, elə elə ki, it, pişik nə eləsə, mən onun dilini bilim.

Deyif:

– Yox, bilmə, bilsən, yaşamıyajaxsan.

Olmuyuf, əl götürmüyüf. Allah da deyif:

– Get bil. Get itin də dilini bil, pişiyin də.

Allah Əzrayıl vasitəsiynən deyir bına. Gedir. İt mırıldıyıf, pişih miyolduyuf, deyif:

– Səhər yiyəmizin qırmızı inəyi öləjəh, ət yeyəjiyih.

Kişi tez inəyi aparıf satıf ki, inəh öləjəh. Gərəh satmıyeydi dana. Hə... Gəlif bir-iki gün qalıf. İt mırıldıyıf, pişih miyolduyuf. Görüf bılar deyir ki, səhər yiyəmizin camışı öləjəh, çoxlu ət kəsif tökəjəhlər, biz də yeyəjeyih. Aparıf camışı satıf.

Nəysə, belə-belə üş şey satıf. Bının üçü də, ya da heç olmasa üçünün biri ölməliydi axı. Qoymadı ki, biri ölə, gələn qada-balanı apara. Bının başına daş düşsün. Görüf ki, bir gün itnən pişih deyir ki, yiyəmiz öləjəh, çoxlu xeyrat verəjəhlər, biz də yeyif doyajıyıh. Bı qaçıf Əzrayıla deyif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qardaş, axı belə deyillər, maa bir əncam.

Deyif:

– Mən nağayrım, saa demədim onnarın dilini soruşma, ziyan çəkəssən. Dedilər inək öləjəh. Niyə qoymadın inək ölə? Tay indi qada-bala tökülüf sənin üsdünə. Mən ona neynim?

Bırdan bına bir variat verif, axı bına yalvardı, yapışdı ki, məni ölməyə qoyma. Əzrayıl bına dedi ki, mən saa bir variat verim, get sən onnan yaşa. Tay indi ki mənnən qardaş olmusan, olmusan. Filan yerdə bir xəsdə var, gedirəm onun canını almağa. Get ona denən ki, bını mən sağaldajam.

Deyif:

– Bəs mən nətəri sağaldajam?

Əzrayıl deyir ki, onun dərdini mən bilirəm, mən sağaldajam. Sən gedərsən onun kravatının başını çəvirif o tərəfə qoyarsan, diriləjəh. Bı gedir deyir:

– Mən bını sağaldaram.

Əzrayıl deyən kimi eliyir. Bına deyillər ki, saa at verəjeyih, mal, dəvə, var-döylət verəjeyih. Neçə xəsdəni belə eliyif. Tay bı dünyada varranıf. Bının çoxlu var-döyləti, qoyunu, malı oluf. Əzrayıl bına deyif ki, qardaş, aman-aman, qoyuna gələnə ver, quzuya gələnə ver, südə gələnə ver, yuna gələnə ver, o var-döylət demə, mənimdi. Hər kim gəlir, sən də ye, gələnə də ver getsin. Bı da kim nəyə gəlif, verif. Axırda biri bir tava götürüf, bir yol südə gəlif. Bına danışıf. Tavasını bı dolduruf, amma danışıf. Bı da tavasını dolduruf əənə gedəndə tava düşüf, süd tökülüf. Süd töküləndə, vallah, eşitdiyim variata görə, bı süddən isdiyif ki yığa bı tavıya yerdən əliynən. Yığıf tavıya, bir az yığannan sohra götürüf gedif. Gedif ağzını açanda görüf tavaynan bir qızıldı bı yerdən yığdığı süd. Dolanışığı verif bına. Əzrayıl deyif:

– Qardaş, saa demədim danışma. O kişinin südünə niyə danışdın? Mən də onun apardığı südü elədim bir tava qızıl. Dolanışığı verdim ona. Saa demədim saa verdiyim mala danışma, ver dünyaya.

Həylə qardaşdığı oluf.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**II mətn**

Bir cavan yolnan gedirmiş. Yaman ajır. Üzünü Allaha tutur ki, ay Allah-taala, özün görürsən ki, mən ajam, ajınnan ölürəm. Bir az gedir, görür, ə, qabağında bir otax var, içi də dolu yemək. Deyir:

– Ay Allah-tala, məni eşitdin ha, bını maa qismət göndərmisən. İndi maa bir yoldaş ver, mən o çörəydən bir qismət yeyim, yoxsa ölsəm də dilimə vırmaram.

Allah-tala qalır belə. Axırı Əzreyili çağırır, deyir ki, get o kişiynən yoldaşdıx elə. Gəlir oturur, çörəh yeyillər. Deyir:

– Ə, innən sora qardaş oldux.

Deyir:

– Ə, sənnən mənim qardaşdığım tutmaz.

Deyir:

– Ə, yox canın üçün. Hara getsən, sənnən əl çəkən dəyiləm.

Hə, bılar yolnan gedillər. Baxır, görür ki, bı hansı evə girir, vay-şivən qopur. Axırı görür bı tay əl çəkən dəyil, deyir:

– Ə, ay qardaş, mən Əzreyiləm, sən çıx get, işinnən məşğul ol, mən də gedim öz işimə. Mən adamların canını alıram.

Deyir:

– Onda səni yaxşı tapmışam. De görüm, mənim vaxdım havaxdı?

Deyir:

– Sən evlənən axşamı, həmən tarixdə sənin vaxdındı. Toy gejəsi sənin canıı alajam.

Vax gəlir, vədə yetişir. Bı əlli yaşa çatır, altmış yaşa çatır. Gəlir bını güjnən evləndirillər. Bilir ki, öləjəh, Əzreyil gəlif bının canını alajax. Toy gejəsi Əzreyil gəlir ki, qardaş, gəlmişəm, sözümüz sözdü da. Deyir:

– Ay qardaş, səni ant verirəm Allaha, o bir yerdə kəsdiyimiz çörəyə, beyjə maa möhlət ver. Sabah gəl canımı al.

Əzreyil üzünü tutur Allaha, deyir:

– Ay Allah-taala, sən özün görürsən, sən məni məjbur elədin get onnan çörəh kəs. İndi maa ant verir o kəsdiyimiz duz-çörəyə.

Onnan sora Allah deyir ki, get onnarın hərəsini elə on beş-on altı yaşında cavan, qoy ömürrərini sürsünnər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**III mətn**

Bir oğlan olur, çox kasıb olur da. Baş götürüf gedir. Görür kü, bir oğlan çıxdı bınnan yoldaş oldu. Deyif, belə kasıbam. Bı da qayıdıf deyif ki, mən saa bir çörəh verəjəm, sən ölənətən o çörəyi yeyəssən. Sora da qayıdıf deyif ki, mən Əzrayılam. Bı, qorxuf. Deyif:

– Qorxma, qardaş, qorxuf eləmə. Bırda dur, gəlirəm.

Əzrayıl gələndə birinci it bilir axı. Özü də insan can verəndə gərək qapının bir az böyrünü açıx qoyasan. Əzrayıl gedir, gəlir. Beş dəyqədə getdiyi yerdə çığrışma, bağrışma qopur. Bı gəlir, deyir:

– Qardaş, birinin xəsdəsi olajax, o səni çağırajax. Bı həkimə aparajax, o həkimə aparajax, ora aparajax, bıra aparajax, əncam olmuyajax. Səni çağırajaxlar. Gəldin gördüm mən o xəsdənin başının üsdündəyəm, heş nə demə. Yox, baş tərəfdə dəyiləm, ayax tərəfdəyəm, denən bını bişirin verin, onu bişirin verin, tezdihnən sağalajax. Qorxma, onun ölmü yoxdu. Onnan da sən varranassan.

Bı gəlir, belə-belə çox varranır. Bir günnəri gətirillər bını bir xəsdənin üsdünə. Gəlir görür kü, Əzrayıl bının başının üsdədi. Deyir:

– Xəsdəni çəvirin, xəsdəni çəvirin.

Yanı başını çəvirin belə. Çəvrillər. Bı Əzrayılın ajığına gedir. Deyir:

– Ə, kopoğlu, eləmə.

Amma gədə eliyir. Əzrayıl heş nə demir, xəsdəyə də dəymir. Bı gedəndə elə bını yolda tutuf deyif:

– Canıı burda alajam. Mən çörəyi saa verdim, sən qədrini bilmədin. Elə bırda da canıı alajam.

Elə orda da canını alıf. Taa bı çörəyi saa verif dana. Niyə bının qədrini bilmədin?

**IV mətn**

Əzrayılla bir gənc yol gedəsi oldular. Gəldilər bir kəndə yaxınnaşanda yoldaşına dedi ki, sən burda gözlə, gəlirəm. Nəysə, bu kəndə yaxınnaşanda böyüh təşviş, hay-haray qopdu. Qayıtdı gəldi. Dedi ki, noldu, sən kəndə çatan kimi hay-haray qopdu. Dedi ki, mən Azreyi-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ləm, vaxdı çatan var idi, onun canını aldım, gəldim. Deyir ki, ras ki heylədi, qardaş, bir yerdə çörəh yemişih, mən havaxt öləjəm. Deyir:

– Sən gəlin gətdiyin gejəsi ayağını otağa qoyanda öləjəhsən.

Nəysə, bular ayrılır. O helə gedir, bu belə gedir. Bu evlənmir ki, evlənmir. Hamı deyir:

– Ə, yuxu imiş, vaqeyə imiş ey, görmüsən.

Evləndirillər bunu. Gəlin gəlir, otağa daxil olan kimi Azreyil oğlanın başının üsdünü kəsdirir. Deyir:

– Salam-məlöykü.

Deyir:

– Əleyki-salam.

Deyir:

– Qardaş, bir yerdə olmuşux, çörəh yemişih, səni bir o Allaha and verirəm, mənə bir gejəlih möhlət ver. Bu olmur. Səni yüz iyirmi dörd min peyğəmbərə, on iki imama, Qurana and verirəm. Sən o kəsdiyimiz çörəh, mənə möhlət ver.

Deyir:

– Səə qırx il möhlət verdim, get yaşa.

Bu məhətdəl qaldı. Deyir:

– A qardaş, nətər oldu səə bir belə and, bir belə söz dedim möhlət vermədim, amma çörəyə and verən kimi möhlət verdin.

Deyir ki, onu bilginən ki, dünyada qanannar üçün çörəhdən qiymətli şey yoxdu. Çörəh Qurannan qabax gəlmişdi. Ras ki çörəh kəsmişəm, ona görə səə qırx il ömür verdim.

A qardaş, yediyin çörəyin qədrini biləsən axı.

## 23. NİŞANLISINI İTİRMİŞ İLAN

### I mətn

Bir oğlan öz nişannısıynan bağda gəzirmiş, görüf bir qara ilan ağ ilanı gəmrih-gəmrih elədi, qanatdı tamam. Oğlan götürüf qara ilanı öldürür. Bular da nişannı imiş. Ağ ilan deyir ki, dünyada gəzdiyim haram olsun, qoysam səni aylə qurasan. Sən ki mənim nişannımı öldürdün, mən də qoymujam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu, ildə bir dənə qız alırmış, səhər duruflarmış ölüf. Bilən olmurmuş bu nədəndi. Qırx gün, qırxıncı gündə peyğəmbər təklif eliyir ki, bu oğlana kim qızını verir. Da heş kəs dillənmir. Ölür da, gedən gejəsi ölür bu. Bir də çağırır:

– Bu oğlana kim qızını verir?

Qoja kişi görür peyğəmbərin sözü yerə düşür, deyir:

– Mənim yeganə bir qızım var, verirəm buna.

Qızı verir buna, peyğəmbər kəbini kəsir. Peyğəmbərə agah imiş da, hər şeyi bilirmiş. Deyir:

– Onun yerini yığmıyın mən gəlincə.

Peyğəmbər gedir görür bir ilandı. Belə ayılıf deyir:

– Paho, gejikmişəm.

Deməli, bunun başına ağrı verif, gözünü aça bilmir.

– Gejikmişəm, uduzdum.

Durğuzur:

– Ay Allahın heyvanı, – Süleyman peyğəmbər bütün quşdaların, heyvannarın dilini bilirdi, – burda nə gəzirsən?

Deyir:

– Vallah bir neçə il bunnan qabax bu oğlan öz nişannısıynan gəzirdi bağda. Mən də öz nişannımnan. Heş nahaxdan mənim nişannımı öldürdü. Mən də fikirrəşdim ki, qoymujam bunun əli ələ dəysin. Neçəsini alsa, vurmalıyam. İndi də nəsə başımı ağrı tutdu, dura bilmədim. Bunu da öldürəjeydim.

Deyir:

– İndi o ilanın yerini bilirsən harda basdırılıf?

İlan sürünüf bunun yanınca, oğlan da dalınca gediflər. Sürünü-sümüyünü yığır, peyğəmbər zamanı imiş, əlini çəkir üsdünə, olur şümal bir ilan. Bu ilan deyir:

– Mən axı qojalmışam.

Bunun da üsdünə əlini çəkif, bu cavannaşır. Deyir:

– Gedin insannardan aralı gəzin.

İlan barədə eşitdiyim əfsanə budu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**II mətn**

Bir kişi oluf, bu kişinin bir oğlu oluf. Bir gün bu kişi oğlunun taleyini bilməhdən ötrü gedif oğluna fal aşdırır. Falçı buna deyir:

– Sənin oğlunu evlənən günü ilan vuruf öldürəjəh.

Günnər gəlif keçir. Kişinin oğlu yekəlir. Bu oğlan yekə, gözəl bir oğlan olur. Bu oğlan çox bilikliydi. Atası buna hər şeyi örgətmişdi. Oğlan iyirmi beş yaşına çatır. Amma kişi bunu evləndirmir ki, evləndirmir. Oğlu çox deyənnən sohra atası bunu evləndirməh qərarına gəlir. Toy eliyillər. Atası oğlannan gəlnini gətirif bir otağa qoyur. Bılara çoxlu yeməh-işməh də qoyullar. Oğlan gəlinə deyir:

– Sən yat, mən Quran oxuyuf, namaz qılajam.

Falçıların dediyi ilan toy günü oğlannan gəlin olan otağa girmişdi. Məqamı gözdüyürdü kü, oğlanı vura. Oğlan da Quran oxuyurdu. Allahdan bütün günahlarının bağışdanmasını isdiyirdi, dua eliyirdi. Bu vaxt buların evinin qabağınnan bir qoja arvad keçirdi. Qapıları döyüf çörəh isdiyirdi. Oğlan tez yeməynən dolu qabı götürüf qarıya verdi. Təzdən gəlif Quran oxumağa başdadı. İlan gördü kü, səhər açılır, oğlanı çala bilmiyəjəh, sivişib otaxdan çıxdı. İlan yuvasına gedəndə qabağına heyvannarın dilini bilən bir adam çıxdı. Bu kişi soruşdu:

– Ay ilan, bu vaxt hardan gəlirsən?

İlan dedi:

– Getmişdim bir oğlan varıydı onu çalmağa, amma çalmadım, qayıdıf gəldim.

Bu kişi soruşdu:

– O oğlanı niyə çalmax isdiyirdin, günahı nəydi?

İlan dedi:

– Oğlan sevgilimə qovuşduğum gün mənim sevgilimi öldürmüşdü. Mən də and işmişdim ki, onu toy elədiyi gün çalım, amma çalmadım.

Kişi soruşdu:

– Bəs niyə çalmadın?

İlan dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mən gördüm kü, o ancax Quran oxuyur, tova eliyir. Həm də o bir aj qarıya çörəh verdi, suaba batdı. Tay mən də onun bütün günahlarını bağışdadım, öldürmədim, qoy xoşbəxt yaşasınnar.

## 24. ŞAH ABBAS VƏ OĞRULAR

Üç adam gəlirmiş Şah Abbasın xəzinəsinə oğurruğa. Şah Abbas dəyil e, Şıx Abbasdı. Bildiyini bilir, onun bilmədiyi şey yoxdu. Məsələn, Zəfərnən Gözəl (söyləyici özünün və toplayıcının adını çəkir – top.) evdən çıxıf. O bilir ki, Zəfərnən Gözəl onun yanına gəlir. Üç adam durur geyinir, gəlir Şah Abbasın anbarına oğurruğa. Şah Abbas da deyir:

– Arvad, mənim çarığımı da gəti, fəhlə paltarımı da maa gəti.

Bı saat çarığını geyir, fəhlə paltarını da geyir. Bı hərrənir əvin dalına. Görür kü, üç adam gəldi əvin dalına. Yaxınnaşır deyir:

– Bırda nə axtarırsız?

Deyillər ki, gəlmişih Şah Abbasın ambarına oğurruğa.

Deyir:

– Ay əviniz yıxılsın, bəs onun anbarını aşmaxmı olar? Qaravılçısı-zadı.

Birinə deyir ki, nə bilirsən ki, sən Şah Abbasın anbarına oğurruğa gəlmisən? Deyir ki, it hürəndə mən bilirəm nə deyir. Bının sirrini alır. Birinə deyir ki, bəs sən nə bilirsən gəlmisən? O da deyir ki, mən də isdiyir otuz iki qıfıl olsun, əlimi atanda hamısı açılajax. – Görüm o biri nə deyir. Allah saa nəhlət eləsin, şeytan biniyə, mənim yadımdan çıxdı. Hə. – Bı da deyir ki, mənim bir gejə bırda eşitdiyim səsi, gördüyüm üzü yeddi ildən də sora ay-qarannıx gejədə görsəm, tanıyıram. Bına deyillər ki, bəs sən kimsən, nə bilirsən? Bı da deyir ki, nə xəntərə* tay olsa, götürərəm, Şah Abbas deyir.

Gedillər, ambara yaxınnaşanda it hürür. İt hürəndə Şah Abbas it səsi bilənə deyir ki, indi o it hürdü, nə dedi?

Deyir:

---

* nə xəntərə – nə qədər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– İt dedi ki, yiyəsi yanızdadı.

Hə... Bının sözünü aldı, bildi bının sirrini. O birisi də anbarın qapılarını, qıfıllarını aşdı, gəldilər. Ambarda dedilər ki, beşini götürəh, biri qalsın.

Dedilər:

– Yox, şah da adamdı, birini götürəh. Onun dünyası var, bəs nə verər millətə. Birini götürəh, ikisini qoyax.

Birini götürdülər, qoydular bının dalına, gətirdilər ambarın dalında bını böldülər dörd yerə. Üçü götürdü getdi, bı da gəldi əvinə.

Gəldi. Nə bilim bir qaldı, qalmadı, beş qaldı, qalmadı. Bının üçünü də tanıyır axı. Qırmızı geydi, taxta çıxdı. Cəllatdarı gətdi, dar ağacını qurdu. Dedi:

– O adamları çağırın bıra.

Durdu özü də arvad paltarı geyindi, o adamlar içəri girəndə başına örtüyü saldı gəlin kimi bir-iki malı saldı qabağına ki, apara qoşa naxıra. Şah Abbas ha... Axı onun itin dilini bildiyini bildi, o birinin də qıfıl aşdığını bildi. Gərəh indi o birisini də bilə. Başına örtüyü örtür, bıların qabağınnan keçəndə dedi:

– Allah, görəsən, Şah Abbas bı yazıxları hara aparır?

Özü e... Şah Abbas özüdü. İsdiyir o ayqarannıx gejədə adam tanıyanı yoxluya. Dedi:

– Ay Allah, can-can, görən şah bıları neynir, – deyəndə o adam dedi ki, biz də sənin kimi g.......nərin felinə düşmüşüh.

Əlbəhəl bildi ki, Şah Abbasdı bı. Hə... Çağırdı gətdi. Heş birini də dar ağacına vermədi. Oların söz "hə"sin aldı, boşdadı.

## 25. ŞAH ABBASLA ÜÇ BACI

Bir günnəri gejəymiş, çıxmışlarmış seyrə vəzirnən Şah Abbas. Gedir görür hamı yatıf, bir yerdən işıx gəlir, bacadan. Bınnan qabax baceydi. Orda durufları. Görüflər bırda üş qız var, üş yetim qızıymış. Bulara xəlvətcə qulağ asıflar. Biri deyif, Allahın altında məni vəkilin oğlu aleydı. Biri də deyif ki, Allahın altında məni vəzirin oğlu aleydı. Biri də deyif ki, o balacası, Allahın öz altında



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məni Şah Abbas aleydı, mən hamama gedəndə mənim paltarımın suyu tökülə-tökülə o apareydi, qoyeydi hamama. Şah Abbas hirsdənir. Gəlir çıxır səhər taxta. Qızdarı çağıtdırır. Böyüh qıza deyir:

– Sənin əlinnən nə gəlir?

Böyüyü deyir ki, mən bir gəvə toxuyaram, qoşunuu hamısı yığılar o gəvənin üsdünə, genə artıx qalar. Bını alıllar vəzirin oğluna. İkinci qız da deyir ki, mən yumurta qabığında bişmiş bişirərəm, qoşunuu hamısı yeyər, genə artıx qalar. Onu da alır vəkilin oğluna. Balaca qızı öldürməh isdiyir. Deyir:

– Nətər olur bı qız deyir mən hamama gedəndə paltarımı Şah Abbas götürə.

Öldürməh deyəndə, vəzir-vəkilin sözü işdiyirmiş bının yanında. Deyiflər ki, şah sağ olsun, öldürmüyəh. Elə aparsınnar azdırsınnar. Azdırax getsin də, bir yerdə ölsün. Bını aparıf bir meşədə azdırıf gəlillər.

Bir cütcü varıymış. Qoja kişiymiş, bının evladı yoxuymuş. Bı gəlir qəfildən bı qızı tapır. Qız başına gələni bına nağıl eliyir. Bını qızdığa götürür. Bınnan cüt sürür, eliyir. Gəlir bir gün cüt sürdüyü yerdə... Kasıb adam imiş da. Allahdan savayı Allah yoxdu. Cüt sürəndə qız kişiyə kiməh eliyirmiş. Görür ki, cüt ilişdi. Baxır görür ki, burda küp var da. Bını nişannıyır, gəlir deyir:

– Ata.

Deyir:

– Hə.

Deyir:

– Ata, belə-belə.

Atası deyir:

– Qoy gün düşsün, gedəh.

Gedillər küpü gətirillər. Gəlir bı qız bir imarət tihdirir. Tay Şah Abbasın imarəti nədi bının yanında. Bir yurd salıllar. Bının qırx incəbelli qulluxçusu da olur. Atasını-anasını qəşəh saxlıyır də. Yaxşı saxlıyır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir günnəri saa nədən deyim, bı Şah Abbasdan. İlahi düzəltdiyini heş nə poza bilməz. Allah var, rəhmi var. Allaha qurban olum. Şah Abbas gəlif bırdan keçəndə deyir:

– O kimdi, nədi ki, gəlif belə yerdə bı əvi-eşiyi, imaratı tikif? Nətər imaratdı mənim imaratımdan üsdündü?

Bırdan da qız görür kü, qırx atdı gəlir. Bılar gələndə qız atasına-anasına gösdərir, deyir ki, o qabaxdakı atdı Şah Abbasdı. Qızdara da başa salır ki, dinmiyin. Gəlir oturullar. Yeməh-işməyin ortasında bı qız qayıdır qızdara deyir ki, qızdar, qızdar, hamama gedirəm, gəlin mənim paltarımı aparın, gedəh hamama. Məni hamamlandırın gətirin. Belə deyəndə Şah Abbas qalxır ayağa, deyir:

– Xanım, olar paltarıı mən aparım?

Deyif:

– Gəl apar, niyə olmur.

Nağıldı da, deyiflər, eşitmişəm. Bının aparıf paltarını su eliyir. Süzələnə-süzələnə gətirir. İndi bı isdolda-zadda söz düşür, danışıxda-zadda, Şah Abbas deyir:

– Sən hansı şahın qızısan, nə bilim, nəsən, kimsən?

Şah Abbas bı qıza deyir ha. Deyir:

– Biz üş yetim qızıdıx. Belə-belə, birini aldın vəzirin oğluna, birini aldın vəkilin oğluna, həmən sürgün elədiyin qız da mənəm. Deyirdim Şah Abbas mənim paltarımı aparsın. Həmən qızam.

Allah bütün arzulara belə yetirsin. Şah Abbasın çox işdəri oluf. Hamma xeyirxah oluf. Şah Abbasa Allah rəhmət eləsin.

## 26. ŞAH ABBASLA PİNƏÇİ

Bir gün Şah Abbasnan vəzir Allahverdi xan çıxır şəhərə. Şəhərə çıxanda bir pinəçi olur. Bı pinəçi yamax yamıyanda görür kü, bılar gedir. Gülməyi tutur, gülür. Güləndə bını şahnan vəzir görür. Gedir işə, saraya. Əmr eliyir ki, kişini gətirsinnər. Kişini gətirillər. Padşah deyir ki, sən nəyə güldün?

Deyir:

– Şah sağ olsun, gülməyim gəldi, güldüm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şahın acığı tutur, deyir:

– Saa çörəh verən mən, bəs belə-belə, sən pinəçisən, nəçisən gülürsən?

Deyir:

– Şah sağ olsun, çörəh verən sən dəyilsən, çörəh verən Allahdı.

Deyir:

– İndi mən səni atajam zindana, sənin Allahın saa çörəh verər.

Bını atır zindana. Deyir ki, bına heş nə vermiyin. Aradan bir on beş, iyirmi gün keçir. Şah fikirrəşir ki, bı ya ölmüş ola, ya da ki can verir. Gedif bına baxajam. Düşür zindana, gəlir görür kü, zindannan fıştırıx səsi gəlir. Kimsə bir lalayı çalır* qəşəh. Gəlir soruşur ki, bu kimdi? Deyillər bəs filankəsdi. Deyir: "Bəs mən demişdim axı bına çörəh vermiyin, bı fıştırıx çalır".

Bir ora, bir bıra, məlum olur ki, hər gün vaxdında bının çörəyi gəlir. Deməli, zindanda çörəh verən dəyişih salır, ayrı adama verəcəyi çörəyi gətirif verif bına. O biri adam da ölüf. Gəlir bına deyir ki, anan namaz üsdəymiş.

Deyir:

– Şah sağ olsun, anam namaz üsdə olmağına namaz üsdəymiş. Hamma sən onu bil ki, çörəh verən Allahdı.

## 27. ŞAH ABBASLA BOSTANÇI

Bir ili bir kişinin yaxşı bosdanı olur. Çoxlu məhsul götürür: yemiş, qarpız, xıra. Kişi satdığın satır, yediyini yeyir, genə çox qalır yerdə. Fikirrəşir bını neyniyim. Arvadı bına deyir ki, a kişi, gəl bınnan bir yaxşı pay düzəlt, apar ver Şah Abbasa, bəlkə o da sənə bir qiymətdi şey verər, biz də kasıblığın daşını atax. Kişi deyir:

– Ay arvat, camaat padşaha qızıl verir, gümüş verir, nə bilim qiymətdi şeylər verir. Padşahın nəyinə lazımdı yemiş-qarpız. Qoy oturum yerimdə. Mənim başımı bəlaya salma.

---

* lalayı çalır – fit çalır



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Arvad çox deyənnən sora, tay kişi bezir, bekar arvatdardanmış da, görükür. Kişi deyir:

– Yaxşı, apararam.

Səhər kişi durur, könülsüz-könülsüz olsa da, bir eşşəh yükü xıra çatır, aparır. Kişi evdən bir az aralammışdı ki, dərd bını götürür, padşah hirsdənər, bının boynun vırar. Mən nağayrım. Evə də gedəjəm, arvad başdıyajax deyinməyə. Kişi elə fikirri-fikirri gedirdi ki, birdən kimsə qıraxdan dedi:

– Salam-məleyküm, a kişi. Nə yaman fikirrisən?

– Əleykümət-salam, – kişi dedi. Baxdı ki, bına salam verən bir keçəldi, qabağında beş-altı qoyun, keçi otarır. Kişi əleykümət-salam deyib getmək isdiyirdi ki, keçəl genə soruşdu.

– A kişi, niyə belə bikefsən?

Kişi dedi:

– Ay keçəl, nəyinə gərəhdi, get qoyunu otar, mənə bir köməyin dəymiyənnən sora neynirsən mənim dərdimi?

Keçəl dedi:

– A kişi, dərdini danış, heç olmasa yüngülləşərsən, bir də nə bilməh olar, bəlkə, elə köməyim dəydi.

Kişinin nə dərdi vardısa, hamısını danışdı keçələ, dedi:

– Ay keçəl, indi gedirəm, ya Şah Abbas boynumu vırdıra, ya da maa bir bəxşiş verə, Allah kərimdi.

Bı keçəlin də otardığı qoyunnar bir nəfəriniydi, keçəl ona nökər durmuşdu, amma keçəlin qoyun otarmaxdan xoşu gəlmirdi. Keçəl bir az çoxbilmiş olur axı. Tez qayıtdı ki, a kişi, gəti bu qoyunnarı da verim saa, bir az da cibimdə pulum var, onu da verim saa, o xıraları ver maa, mən aparım şaha. Qismətim nəsə, o da olar. Kişi əvvəlcə inanmadı. Sora gördü ki, keçəl zarafat eləmir, elə fikri bıdı, tez razı oldu. Qoyunnarı alıf, keçəlin pılın da alıf xıraları eşşəh qarışıx verdi keçələ. Kişi orda-bırda bir az gejəliyənnən sora qayıtdı gəldi evə. Qoyunnarı saldı həyətə. Səsə-küyə arvad çıxdı, dedi:

– A kişi, bı nə qoyundu, bəs eşşəh hanı?

Kişi dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Arvat, apardım xıraları verdim Şah Abbasa, yedi, çox xoşuna gəldi. Əmr elədi, maa bir az qoyun verdilər, bir az da pul. Pul da cibimdədi. Eşşəh də yolda batdı palçığa, nə qədər elədim, çıxarda bilmədim, qaldı öldü.

Arvad bir az kişinin qarasına danışannan sora dedi:

– Gördün, a kişi, mən deyənə qulağ asmax isdəmirdin. Gördün mən necə ağıllıyam. Gələn il genə aparıf Şah Abbasa pay verərsən, genə Şah Abbas sənə bəxşiş verər.

Kişi dedi:

– Hə, arvad, düz deyirsən, sən çox ağıllısan.

Bılar bırda qalsın, gör indi keçəlin başına nə gəldi. Keçəl yolnan getməhdə olsun, eşit Şah Abbasnan vəzir Allahverdi xandan. Şah Abbasnan vəzir Allahverdi xan dərviş paltarı geyif genə həmişəki kimi məmləkəti gəzməyə çıxmışdılar. Bılar elə yolda keçələ irast olullar. Şah Abbas keçəldən soruşur ki, a keçəl, bı nədi, hara aparırsan? Dedi ki, bosdanım yaxşı çıxmışdı, onnan Şah Abbasa pay aparıram. Vəzir Allahverdi xan deyir ki, ay keçəl, camaat padşaha qiymətdi pay aparır, qızıl-gümüş aparır, sən də yemiş-qarpız. Padşahın nəyinə lazımdı yemiş-qarpız.

Keçəl deyir:

– Əşi, aparıram, götürər, götürər. Götürməz də, soxaram gözdərinə, gələrəm.

Ta bılar özdərin biruzə vermillər. Şah Abbas başqa yolnan gəlir, oturur taxta. Keçəl eşşəyin böyründə gəlir çıxır sarayın qapısının ağzına. Keşihçilər bına deyillər ki, ay keçəl, nə isdiyirsən? Deyir bəs, belə-belə, şaha yemiş-qarpız gətirmişəm. Şah Abbasa xəbər çatır, bilir axı kimdi, deyir:

– Bıraxın gəlsin.

Keçəli gətirillər şahın yanına. Şah deyir:

– Keçəl, eşidirəm.

Deyir:

– Qibleyi-aləm, sizə bir az yemiş-qarpız gətirmişəm.

Şah deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay keçəl, camaat şaha qiymətdi bəxşiş gətirir, sən də yemiş-qarpız gətirmisən, neyniyəjəh şah bı boyda yemiş-qarpızı?

– Qibleyi-aləm, mənim də gücüm bına çatdı. Dedim apararam, şahın xətri xoş olar.

Şah deyir:

– Ay keçəl, heş fikirrəşmədin ki, birdən şah bına hirsdəndi, götürmədi, üstəlih sənin boynuu da vırdırdı.

Deyir:

– Qibleyi-aləm, götürərsən, lap yaxşı, götürməzsən də yolda dediyim olsun.

Şah Abbas deyir:

– Keçəl, yolda nə demişdin?

– Şah sağ olsun, bir sözdü, elə-belə demişdim.

– Keçəl, Allaha and olsun, yolda nə dediyini deməsən, sənin boynuu vırdırajam. Yox, əgər düzünü desən, sənə çoxlu qızıl, gümüş verəjəm.

Keçəl çox bilir axı. Sırazı annadı ki, yolda dərviş paltarında rast gəldiyi adamlardan biri Şah Abbas özüymüş, biri də onun vəziri Allahverdi xan. Yolda necə demişdisə, elə də şaha dedi.

Şah Abbas əmr elədi, keçəlin gətirdiyi yemiş-qarpızdan bir-ikisini kəssinnər. Kəsdilər, şah yedi. Gördü, doğurdan da, çox daddıdı. Əmr elədi, keçələ iki kisə qızıl-gümüş verif yola salsınnar. Vəzir bı tərəfdən qayıtdı ki, şah sağ olsun, nə qızıl, nə gümüş, yemiş-qarpıza da qızıl-gümüş verəllərmi? Şah Abbas dedi ki, vəzir, onun da gücü ona çatıf, onu gətirif. Vəzir dedi ki, şah sağ olsun, mən bına dözə bilmərəm, irazı olmaram ki, keçəlin biri o boyda qızıl-gümüş aparsın. Gedif oları keçəldən geri alajam.

Dedi:

– Ala bilirsənsə, get, al.

Vəzir tez ata minif kəsmə yolnan gəlif keçəlin qabağın kəsdi. Dedi:

– Sənə üş sual verəjəm, tapdın, tapdın. Tapmadın qızıllar mənimdi. Keçəl gördü kü, başqa yol yoxdu, dedi:

– Razıyam.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Vəzir dedi:

– De görüm bı dünyada ən şirin şey nədi?

Keçəl dedi:

– Vəzir, könül sevən göyçək olar.

Dedi:

– Keçəl, de görüm, göydəki ulduzların sayı nə qədərdi?

Dedi:

– Vəzir, göydəki ulduzların sayı mənim eşşəyimin tüklərinin sayı qədərdi. İnanmırsan, gəl say.

Vəzir gördü ki, keçəl bı sualın da altınnan çıxdı, üçüncü sualın verdi:

– De görüm, Allah hardadı?

Dedi:

– Paho, vəzir, sən nə eyib şey danışırsan. Mən heç eşşəyin üsdə Allahın yerin sənə gösdərə bilərəmmi? Eşşəh çox natəmiz heyvandı. Gəl sən atı ver, mən minim, Allahın da yerin sənə gösdərim, sora atını qaytarajam özünə.

Vəzir Allahverdi xan bına inandı, düşdü, atı verdi keçələ. Keçələ də elə at lazımıydı. Neynirdi eşşəyi. Nə qədər "hoşa" deyirdisə də, güjnən addım atırdı. Elə atı minən kimi qızıl-gümüş kisəsin də götürdü, dedi:

– Vəzir, Allah o de, o dağın arxasındadı. İnanmırsansa, get bax, mən getdim. Sən sağ, mən salamat.

Keçəl ata bir qamçı çəkif gözdən itdi. Vəzir də kor-peşman, bildi ki, keçəl bını allatdı, qayıtdı gəldi saraya. Şah Abbas bilirdi ki, vəzir keçəldən qızıl ala bilmiyəjəh. Vəziri qanıqara görən kimi, dalağı sanjdı. Dedi:

– Vəzir, nə oldu, aldınmı qızılları?

Dedi:

– Yox, şah sağ olsun, ala bilmədim.

Vəzir başına gələni danışdı şaha. Şah Abbas qayıtdı ki, vəzir, mən qızılları vermişdim, sən də atı verdin apardı. Bajarana baş qurban, keçəl bajardı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bı tərəfdən də keçəl atnan gəldi çıxdı o bosdançının evin tapdı. Qızılların yarısın bına verdi, qoyunnarı da geri aldı. Eşşəyin də pılın verdi kişiyə. Qoyunnarın da aldı, çıxdı getdi. Qızılları kişiyə verəndə dedi ki, bəs bı sənin yemiş-qarpızının pılınnandı. Kişi gətdi bu qızıllardan arvada gösdərdi. Arvad soruşdu ki, bı pıllar hardandı? Kişi dedi:

– Bəs belə-belə. Mən o vaxt yemiş-qarpızı aparıf Şah Abbasa çatdırmamışdım, yolda vermişdim keçələ. O da bəs belə, qızıl-gümüş gətdi verdi, qoyunnarın da aldı getdi, onunkuydu.

Bını eşidən arvad kişiynən başdadı dalaşmağa. Kişiyə hər söz deyir. Axırda kişiyə deyir ki, bilmirəm, keçəl nətəri eliyif, aparıf xıranı Şah Abbasdan qızıl-gümüş alıf, sən heylə elə, yoxsa səni evə qoymujam. Kişi də mənim kimi arvatdan qorxanın biriymiş, fərsiziymiş. Bilmir nağarsın. Durur gedir keçəlin yanına. Arvad dedihlərin bına deyir. Deyir, arvad məni evə qoymur, ölmüşəm, məni götür. Keçəlin bına yazığı gəlir, nejə getmişdi, başına nə gəlmişdi, nejə qayıtmışdı, hamısın bına danışır. Kişi gəlir evə.

Arvad məsələni bilənnən sonra bını məcbur eliyir ki, təzədən bir eşşəh yükü xıra yükləsin, aparsın Şah Abbasa, çoxlu qızıl-gümüş alsın gətirsin. Arvatdı, zənənədi, gözü doymaz heş vaxt, ajgöz olur həmişə. Kişi naəlaj qalır, gedir bazardan bir eşşəh alır, gəlir. Yühlüyür, bir yaxşı eşşəh yükü, düşür yola, gedir. Bir xeyli gedənnən sora yolda iki nəfərə rast gəlir. Genə bılardı elə, paltarrarın dəyişiflər, Şah Abbasnan vəziridi. Kişiynən salam-məleyküm, əleykümət-salam eliyənnən sora, deyillər ki, bı nə yükdü, hara aparırsan, özün də niyə bikefsən? Görüllər axı kişi fikirridi, qəmlidi. Kişi deyir:

– Əşi, heş nə, elə-belə şeydi.

Bılar bir də üz vırannan sonra kişi deyir, bəs belə-belə. İndi də bını aparıram Şah Abbasa. Genə bı vəzir Allahverdi xan deyir ki, əşi, camaat şaha qiymətdi xələtdər aparır, hədiyyə verir. Şah neynir xıranı? Demirsən birdən şah əsəbləşər götürməz, səni də hələ asdırar. Kişi deyir, əşi götürər götürər, götürməz vıraram başına, gələrəm. Şah Abbas bilir ki, bırda nəsə bir sirr var. Amma tay kişi bılara niyə bikef olduğun demir, eləcə deyir ki, yemiş-qarpızdı, bosdanım yaxşı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

oluf, Şah Abbasa onnan pay aparıram. Şah Abbas tay üz vırmır. Görür ki, bırda bir sirr gizdənif. Qayıdır gəlir saraya, deyir bəs belə-belə, bir kişi eşşəynən gələjəh, eşşəhdə də yük. Gətirərsiniz onu yanıma. Kişi gəlir çıxır sarayın qabağına. Aparıllar bını Şah Abbasın yanına. Şah Abbas bına deyir ki, kişi, xeyirdimi? Kimsən, nəçisən, nəyə gəlmisən? Kişi deyir ki, bostanım yaxşı məhsul vermişdi, onnan sizə pay gətirmişəm. Şah Abbas hirsdənir:

– Kişi, neynirəm mən yemiş-qarpızı, mənə qızıl gətirillər, nə bilim tay nə. Demirsən mən bını götürmərəm?

Kişi qorxudan özün elə itirir ki, bilmir nə desin. Elə bircə onu deyə bilir ki, əşi, götürərsən, lap yaxşı, götürməzsən, yolda dediyim olsun. Keçəl bına demişdi axı. Şah Abbas deyir ki, kişi, yolda nə demişdin? Düzünü deyəsən ha? Yoxsa, bu dəyqə boynuu vırdırajam. Kişinin yadınnan çıxır ki, yolda nə demişdi. Elə Şah Abbas soruşduxca kişi deyir ki, yolda dediyim olsun, yolda dediyim olsun. Şah Abbas əmr eliyir, kişini gətirillər dar ağacına. Məqsədi bıdı ki, kişidən örgənə ki, yolda nə deyif. Özü bilir, isdiyir bını kişidən eşitsin. Yoxluyur görsün ki, kişi qorxağ adamdı, yoxsa nətəri. Bı sirri örgənməh isdiyir axı. Kişiyə deyir:

– Səni kim örgədif göndərif?

Deyir:

– Heş kim, elə özüm gəlmişəm.

Bı tərəfdən keçəl deyir ki, əşi, görəsən, bı kişinin başına nə gəldi? Yazığın biridi, fərəsətsizdi, birdən nəsə başına bir iş gələr. Gəlir, sarayın qabağına çatanda görür ki, kişini az qalıf dar ağacınnan asallar. Gəlir əhvalatı örgənir. İcazə alır, gəlir Şah Abbasın yanına, deyir:

– Şah sağ olsun, əmr elə kişini gətirsinnər bıra.

Şah Abbas əmr eliyir, kişini gətirillər. Keçəl deyir ki, şah sağ olsun, o birinci səfər gələn xıranı da bı kişi gətirirdi, mən qoyunnarı verif onu alıf gətirmişdim. Bı yazığın başına gələnin hamısı arvadının ucbatınnandı. Keçəl əhvalatın hamısın danışır. Şah Abbas bıları bağışdıyır. Bu keçəl bını aldatmışdı, demişd, yaxşı bosdanım oluf. Şah bılara çoxlu təzədən pıl verif yola salır. Kişi gəlir arvadını boşuyur, başqa bir arvad alır, rahat yaşıyır, keçəl də gedir öz evində rahat yaşıyır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 28. ŞAH ABBASLA SOYĞUNÇULAR

Şah Abbas görür şəhəri talıyıllar, amma öhdəsinnən gələn yoxdu. Allahverdi xan vəzirə deyif ki, çıx şəhərə, gör mənə oxşuyan bir adam taparsanmı. Bu çıxır şəhəri axtarır, fırranır ayna-bayna. Gedir görür ki, bir pinəçi elə Şah Abbasa oxşuyur üz qurluşunnan. Deyir hə. Buna deyir ki, dur şələ-pələni götür.

Deyir:

– Nədi, noluf, niyə götürüm?

Deyir:

– Səni şah çağırır.

Aparır bunu Şah Abbasın yanına. Şah Abbas buna deyir ki, səni qoyajam yerimdə, amma hak-ədalətnən işdə.

Deyir:

– Baş üsdə.

Deməli, Şah Abbas təhvil verir taxdı buna, çıxır şəhərə. Görür ki, camaat halay vuruf, bir dənə dərviş imamdan, peyğəmbərdən qəsidə deyir. Bu, deyif qutarannan sora dərvişi çağırır yanına. Deyir:

– Qardaş, mən də qəsidə deyənəm. Gəlsənə yoldaş olax. Ayaxdan sən dur, başdan mən, deyək camaatı başa salax.

Deyir:

– Nolar.

Bir gejə bular gejələməyə yer axtarır, buları qonax saxlıyan olmur. Böyüh mağazanın yanında gejəliyillər. Addıyıllar dal tərəfdə qalıllar ki, qavaxda durmuyax da. Gəlif bizim başımızı əkəllər. Dərviş yatır. Şah Abbas güdür. Görür ki, bir-iki dənə ala papax gəlir, milis işçisi. Deyir: "Hə, qoy görəh bular nəyə gəlillər". Çəkilir daldaya ki, bunu görüf tutallar. Görür ki, şakqıltı gəldi. Gəlillər lomu salıllar tükanın ağzına, qanırıf qırıf girillər içəri. Şah Abbas çıxır:

– Ə qardaş, Allah xeyir versin, nağarırsız?

Deməli, şəhəri talıyan bu ala papaxlar imiş. Bular Şah Abbası tutullar. Axı bular yığışdırıf nə varsa, pulu da, hər şeyi yığışdırıflar, aparıllar. Deyillər səhər bizi satajax. Bunu aparax salax içəri, deyəh bu idi şəhəri talıyan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Qardaş, mənim yoldaşım da var idi, dey orda yatıf.

Gedif dərvişi də durğuzullar:

– Ə, dur ayağa, mağazanı dağıdıf burda niyə yatmısan?

Nəysə, nə başızı ağrıdım, bunu aparıllar. Sizin ağlıza gəlməz, qədimdə dam olardı, ortasında ojax qalıyırdılar qışda, yuxarısınnan da baja açırdılar. Aparıf salıllar bura. Şah Abbas gejə buna deyir ki, gəl yat ayağımın altında, əlim ora çatsa, mən çıxım gedim. Əgər ikimizi də səhər gəlif şahın yanına aparsalar, ikimizi də öldürəjəh. Bu yatır bunun ayağının altında, onun əli çatır bajaya. Ordan yapışır bərk, sora bunun ayaxlarınnan qaldırır Şah Abbas çıxır burdan.

Gejəynən gedir Allahverdi xan vəziri durğuzur. Deyir:

– Dur məni apar ora.

Aparır. Görür ki, pinəçi uzanıf, yaxşı saz qızdardan biri ayax tərəfinnən oturuf, biri ortadan oturuf, biri də baş tərəfdən, bunu yelpiyillər. Şah Abbas belə baxır, deyir:

– Pay atonan yezit, gör bundakı hörmətə bax ey.

Şah Abbas deyir:

– Verin behuşdarı burnuna, apar hardan götürmüsən o daxala söykə, önnüyünü də qoy dizinin üsdünə, sapı da ver əlinə.

Aparıf bu dediyi kimi eliyir. Pinəçi nə müddətdən sora oyanır. Görür kü, ay qardaş, hardadı? Bu nədi, nejə işdi?

Səhər ertə padşah çağırır Allahverdi xan vəziri ki, o tutduxlarınız hardadı? Deyir ki, biri qaçıf, – Şah Abbasın özünü deyir ey, – amma biri burdadı.

Deyir:

– Gətirin bura. Gedin hərrənin, onu da tapın gətirin.

Bu qəsidə deyəni də götürüllər, gedif belədən-belə, belədən-belə hərrənillər. Bu pinəçiyə çatanda milis işçisi deyir:

– Ə, buna nə çox baxırsan? Bəlkə budu yoldaşın?

Deyir:

– Allah haqqı, elə ona oxşuyur.

Taraf-turuf, bir-ikisin dartıf bunu durğuzullar. Qatıllar qavaxlarına, aparıllar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Şah sağ olsun, gətirmişih dusdaxları.

Çağırır vəzir-vəkili, deyir dar ağacını qurun. Dar ağacını qurullar. Nəçəlniyin birin çağırır. Deyir:

– Bura bax ə, gəlif lomu salıf mağazanı dağıdırsınız, indi də bu yetimləri tutursunuz ki, siz eləmisiniz.

Vəzirə deyir ki, götür bunu as. Oranı dağıdan milislər neçə nəfərdisə, hamısını asdırır. Deyir, deməli, şəhəri ayannan-bəri siz talamısınız. Pinəçini də asdırır. Bu dərviş qalıf məlil-müşkül. Deyir:

– Sən öl, məni də asdırajax.

Deyir ki, sənnən qəsidə deyən mən idim, gəl bəri. Saa onçün dedim ki, ora əlim çatsın, mən gedim. Bizi pinəçinin yanına gətsəydilər, bizi öldürəjeydi.

## 29. NUŞİRƏVAN PADŞAH

Nuşirəvan çox zülümkar padşah oluf. Deyilənə görə, yetmiş min uşax qırıf Nuşirəvan. Niyə, nə üsdə? Bu, çox zülümkar oluf, zülüm eliyirmiş də camaata. Səhər-səhər yerinnən duruf güzgünün qavağında bir belə daranıf, bir belə daranıf deyir: "Görəm, maa bu dünyada qalib gələn olar?" Öz-özünə deyif ha. Bütün alimləri, müşteyidləri yığajam, görüm, mana qalib gələn kim olajax. Olmuş işdi ey bu. O müşteyidə deyif, o axunda deyif: "Baxın görün mənim əjəlim kimin əlindədi, kim qalib gələjəh maa". Alimlər baxıflar. Bir dənə alim deyif:

– Nuşirəvan, sənin əjəlin bir uşağın əlindədi.

Deyif:

– Nətəri uşax?

Deyif:

– Anasının heş boynuna düşmüyüf o uşax.

Deyif:

– Onda nağarmax lazımdı?

Bu fikirrəşifdi ki, nağarmax lazımdı o uşağ olmasın. Bütün arvatdarın hamısın kişidən ayırıfdı ki, o uşağ olmasın.

Aradan bir müddət keçəndə, qardaş, gənə həmin alimə deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bax, gör o uşağ anasının qoynunda yoxdu ki?

Baxıf deyif:

– Var.

– Əşi, mən ayırmışam axı buları.

Deyif:

– Elə sən ayıran gejəsi o düşüf anasının boynuna.

Nəysə, axırda buraxıf hamısını ayləsinin yanına. Qadağan qoyuf ku, kimin oğlan uşağı olsa, yanıma gətirməsə, boynun vurdurajam. Kimin oğlan uşağı olur, aparır yanına, öldürür. Axırda bir kasıf kadının oğlu olur. Əri deyir:

– Arvad, aparax padşahın yanına, eşidər bizi öldürər.

Hamısı Allahdan olan şeydi də. Deyir:

– A kişi, o nə bilir mənim oğlum oluf, qızım oluf, yaxud boylu olduğumu. Mən özüm dokquz ay buna zəhmət çəkmişəm. Niyə aparım öz əlimnən verim ki, ala öldür.

Deyif:

– Bəs nağarax?

Deyif:

– Aparıf qoyajam odey, o kahaya, ağzın da hörəjəm. Ölər ölər, qalar qalar.

Dağlarda kahalar olur. Aparıf qoyullar ora, ağzın da hörüllər, qayıdıf gəlillər. Aradan təxminən bir müddət keçir, bir aymı, iki aymı keçir. Arvad deyif:

– Ay kişi, dur gedəh, görəh uşax ölüfmü, qalıfmı.

Duruf gediflər. Bir az söküf baxıllar ki, ə, burda cöngə kimi oğlan uzanıf, bax bu barmağı (baş barmağı – top.) ağzındadı. Deyillər ki, bu kim olar. Nəysə, söküf girillər içəri. Bu oğlan qalxır, deyir:

– Kimsiniz?

Anası bunu qucaxlıyır, deyir:

– Oğul, mən ananam, bu da atandı. Bəs padşah belə bir fərman verif, gətirif səni onçün qoymuşux bura.

Allah-tala bunun baş barmağınnan iki göz açır: birinnən su gəlir, birinnən süd. Bir ay buna bir neçə yaşa başa gəlir. Hər günü bir yaş olur. Götürüf bunu gedillər. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Əşi, bu cöngə kimi oğlandı, öylənməlidi. Padşah körpə uşaxları öldürür, bunu neyniyir.

Aparıllar evə. Deməli, bu Nuşirəvan günüz Allaha güllə atıf gejə ayağınnan asılırmış. Bir neçə ağaşdan Allah qayırıf. Yığıf anbara, bir nəfər buna təyin eliyir ki, gejə Allahlara qaroul çəhsin. Bir gün vaxt gəlir çatır buna. Bu deyir:

– Ay ata, bu nə Allahlardı, Allah nə gəzir burda?

Deyir:

– Bala, neynirsən, get qaroulu çək gəl.

Gejə bu gedir qaroulun çəkməyə. Gejə arz eliyir ki, Xudavəndi-aləm, bu qıfılı aç, mən görüm orda neçə Allah var, oları görüm. Şakqıltıynan kilit açılır. Girir içəri, görür burda Allah nə gəzir. Hamısı xırda-xırda odunnardı. Bular guya Allahdı. Bir yekəsi var, dik söyküyüf divara, guya böyüh Allah budu. Gejə gəlir, evdə bir yaxşı qəməltiləri varmış. Bu qəməltini götürür, gedir bu allahları qırır, doğruyur tökür, baltanı da vurur o yekənin çiyninə, gənə söyküyür divara

Səhər ertə hay düşür ki, beyjə kilidi qırıf allahları qırıflar. Ə, dinivalni* kim idi, gətirin bura görüm. Gətirillər. Deyir bəs buları kim belə eliyif? Deyif ki, padşahi-aləm sağ olsun, vallah, mən düzdü qaroul çəkirdim. Gördüm içəridə bir şarakqaşuruk var. Pencərədən baxdım ki, bax, odey divara söykənən var ey, çiynində balta olan, gördüm buları bir-bir hamısın qırıxlıyır ki, Allah bir olar, o da mənəm. Siz kimsiniz?

İndi qardaş başına dönüm heylə zülmkarlar da oluf. Nuşirəvan bunu çağırıf qavax-qavağa, uzax olsun, sənnən mənim kimi durur. Deyir:

– Əyə, ağaş da bir-birin qırarmı?

Qəməlti burdadı axı (pencəyinin altını göstərir – top.). Taxır ürəyinin başına ki, əyə, qurumsax, ağaşdan Allah olarmı? Camaata bir belə zulum eliyirsən. Həmən uşax onu məhv eliyir, özü olur onun yerinə padşah. Onnan sora o el çıxır azadlığa.

---

* dinivalni – növbətçi, qarovulçu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 30. BİR QAZ OLSA, YOLARSANMI?

Şah Abbas Vəzir Allahverdi xanı özünə vəzir gətirməh isdiyirdi. Allahverdi xan deyir ki, yanındakı vəziri rədd eləsən, gələrəm, sənin vəzirin olaram.

Bir gün yanındakı vəziri götürür, çıxır səyahətə. Gedir görür gölün qırağında mən yaşda qoja kişidi beş-altı dənə qoyunu buraxıf, qoyun otarır, hərdən bir qarqunu vurur suya.

Deyir:

– Salam-məlöykü, əmi.

Deyir:

– Əleykət-salam.

Deyir:

– Əmi, ikidəsən üşdə?

Deyir:

– Oğul, dünən ikidə idim, buyün üşdə.

Deyir:

– Əmi, uzaxdasan, yaxında?

Deyir:

– Oğul, başına dönüm, dünən çox uzaxda idim, amma indi lap yaxındayam.

Deyir:

– Əmi, üçüncü sualı verirəm. De görüm neçə dəfə çapmısan, neçə dəfə çapılmısan?

Deyir:

– Oğul, iki dəfə çapmışam, bir dəfə çapılmışam.

Deyif:

– Axırıncı sualı verif gedirəm, əmi.

Deyir:

– Buyur.

Deyir:

– Bir qaz olsa, yolarsanmı?

Deyir:

– Dəridən çıxardaram.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bular çıxır gedir. Elə bil Rəncbərlərin* ayağınnan qayıdır, deyir:

– Vəzir, o kişiyə mən nə dedim, o mənə nə dedi?

Deyir:

– Şah sağ olsun, sən belə dedin, o da belə dedi.

Dedi:

– Yox ey, onun mənası var.

Deyir:

– Vallah, başa düşmədim.

Deyir:

– Vəzir, saa qırx gün vaxt verirəm. Onu örgəndin gəldin, maa dedin, əvvəlki vəzirimsən. Yox demədin, onda öz baxdınnan küs.

Bu gedir evə kor-peşman. Arvad baxır ki, vəzirin qaş-qavağı yernən gedir. Deyir:

– Əşi, nolufdu?

Deyir:

– Hal-qəziyə belə.

Deyir:

– Allah başına daş salmasın, qırx gün hələ vaxdın var. Qırx günün otuz dokquz günün kefində ol. Otuz dokquzuncu gün get o kişiyə nə isdəsə verginən, onu örgənginən. Səhər də get şaha dalajit elə də.

Bu öz yeməyində-işməyində olsun. Qırx günün tamamına bir gün qalır. Deyir indi tərpən get o kişini tap.

Gedir kişinin yanına, tapır onu. Deyir:

– Əmi, yadındadı, otuz dokquz gün bunnan qavax iki nəfər atdı gəldi bura. Onun biri mən idim, bir də şah idi. O, saa belə dedi, sən ona belə dedin. Onun mənasın maa de.

Dedi:

– Oğul, sənin güjün çatar ona?

Deyir:

– Nə desən verərəm.

Çıxardır tənbəki torbası varmış civində, onu verir. Deyir ki, bax, bunu ağzınatan dolu qızılnan gətir, onnan sora saa deyim.

---

* Rəncbərlər – Ağcabədi rayonunda kənd



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Gəlir evə. Arvad nəyi varsa yığır, torbanın başı yarımçıx qalır. Arvad boynundakını, qulağındakını, nəyi qoyursa, genə yarımçıx qalır. Gəlir and-aman eliyir ki, bir qıram qızıl deyilən şey qalmadı evdə, hamısın gətdim.

Deyir:

– Oğul, sən burda otur – qoyunun yanında, mən o şəlin dalına keçim gəlim.

Keçir kolun dalına, orda gizdiyir, qayıdır gəlir. Deyir:

– Oğul, dəftər-qələmi götür yaz, mən deyim. O, məə dedi ki, uzaxdasan yaxında. Düzdü?

Deyir:

– Hə.

Dedim ki, dünən uzağı görürdüm, amma indi qojalmışam, görmə qabiliyyətim zəyifliyifdi, yaxını görürəm. Dedi ki, ikidəsən üşdə. Dedim ki, dünən ikidə idim, indi üşdəyəm. Dünən iki ayağımnan yeriyirdim, amma indi çəliyə söykənə-söykənə gedirəm. Üçüncü dedi ki, neçə dəfə çapmısan, neçə dəfə çapılmısan. Dedim ki, bir dəfə çapmışam, iki dəfə çapılmışam. Yəni iki qızı ərə vermişəm, bir oğul evləndirmişəm.

Bunu da yazır. Deyir:

– Bəs o qaz məsələsi.

Deyir:

– Bala, qaz da sən, yolluyuf gəlmisən. Nəyin var aldım, dərini boğazınnan çıxartdım. İndi get.

Bu gedir sevinə-sevinə evinə. Arvad deyir ki, örgəndin. Deyir ki, hamısın yazmışam. Deyir ki, əzbərrə, səhər get şahın yanına. Əzbərriyir, səhər gedir şahın yanına.

– Vəzir, örgəndin?

Deyir:

– Hə, örgənmişəm.

Deyir:

– And olsun bu cıqqama, – o vaxdı papağa cıqqa deyirdilər, – düzün dedin, sənnən işim yoxdu, səni buraxajam çıx get. Amma



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yalan desən, səni dar ağajınnan asdırıf iki böləjəm. De görüm onu öz kəllənnən fikirrəşdin örgəndin, yoxsa o kişiyə nəysə verdin.

Deyir:

– Şah sağ olsun, indiyəcən qazandığımın hamısın apardım verdim ona, onnan örgəndim.

Deyif:

– Sənnən maa vəzir olmaz, yer get. Buyünnən belə mənim vəzirim vəzir Allahverdi xandı.

## 31. ALLAHDAN İSTƏYƏN ŞAH ABBAS

Şah Abbas təğyir-libas oluf kəntdəri gəzərdi. Həmişə də gedəndə kasıb evlərdə qalardı camaatın vəziyyətin örgənməh üçün. Gedir bir evdə qalır. Evin yiyəsinin bir oğlu vardı. Bunun beş quzusu vardı, həmişə bunu otarıf gətirirmiş. Gejə qonax qalır burda. Bu, quzunun birin kəsir bulara. Ət ortalığa gələdə vəzirnən şah deyir ki, vallah, biz ancax quzunun ürəyini yeyirih, ayrı əti bizə bişirmə. Görür kü, bular bir ürəynən doymuyajax da. Bu, beş quzunun beşini də kəsir, bunun ürəhlərini gətirif bişirillər. Şah baxır ki, bu bir quzunun ürəyi deyil da. Səhərdən bular ürəh yeyir.

Səhər durur, bular çıxanda gətirir buna kağız verir. Deyir:

– Bu kağızı verirəm saa, gedərsən Şah Abbasın sarayına. Bu kağızı orda verərsən, saa ənam verəllər.

Nəysə, kağızı alır saxlıyır. Aradan bir-iki gün keçənnən sora arvada deyir ki, bu kağızı aparım, Şah Abbasdan ənam alım.

Gəlir deyir:

– Mənim şahnan işim var.

Deyillər ki, şah namaz qılır. Deyir:

– Harda qılır?

Deyillər ki, özünün namaz yeri var, orda namaz qılır. Qapını açır görür kü, şah namazı qutarıf, əlini götürüf hakk dərgahına: “Xudavəndi-aləm, sən maa ver, mən özümnən aşağıya verim”. Kişi ordan düşür, başdıyır qaşmağa.

– Əşi, sən hara gedirsən? Bəs şahın yanına gəlmişdin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Ay başına dönüm, bu, əlini açıf Allahdan isdiyir. Deyir maa ver, mən də mənnən aşağıya verim. Mən də gedif Allahdan isdiyəjəm, maa da versin. Maa düşman döyül ki.

## 32. QOCALARIN ÖLDÜRÜLMƏSİ

Bir kişi olur, çox qojuymuş. Oğluynan gəlini varmış, bıların yanında qalırmış. Axırı bir gün gəlin deyif ki, dədaa götü, əvdən çıx. Oğlu da bını qoyuf bir səbətə, aparıf qoyuf bir dağın başına. Qoyuf gəlif. Qayıdanda kişi deyif:

– Bala, səbəti götü get.

Deyif:

– Dədə, neynirəm səbəti?

Deyif:

– Bala, sən də qojalanda oğlun səni qoyajax səbətə, gətirif qoyajax bıra, qarğa-quzğun yeyəjəh.

Bı da təzədən kişini qoyuf səbətə, götürüf gətirif əvə. Arvada da deyif hara gedirsən get, dədəmi özüm saxlıyajam. Dədəmi hara aparıram?

Bı tərəfdən də bı ölkənin şahına başqa bir ölkənin şahı müharibə əlan eliyir. Qonşu ölkənin şahı bir az güjdü olur. Bı şaha deyir ki, saa üç variat verəjəm, əgər onu tapdın, maa yolladın, yolladın. Tapmadın, yeddi illih bacı-xərcini millətimin verəssən. Bının da biri üç alma oldu. Qonşu padşah dedi ki, bı almaların üçü də bir rəngdədi, bir boydadı, bir çəkidədi. Tap görüm bı almaların hansı bı ilki, hansı bildirki, hansı inişilkidi? Axı bı padşah özü fərman vermişdi ki, kimin əvində qoca varsa, onu aparsın dağın başında qoysun, ya da öldürsün. Kim fərmana əməl eləməsəydi boynu vırılırdı. İndi bı padşah bı ölkədə bir yaşdı, qoja adam tapbadı ki, onnan məsləhətdəşə, bı suala cavab tapa. O, dədəsini evə qaytarıf gətirən xəlvəti saxlıyırdı. Hə... Ölkə qara geydi, heş kim qonşu padşahın sualına cavab tapa bilmirdi. Bı, dədəsini gizdin saxlıyan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

da dedi ki, dədə, bəs belə-belə. Qonşu padşahın sualını aça bilmirih, gərəh yeddi ilin bacı-xərcini verəh.

Kişi dedi:

– Bala, get padşaha denən ki, almanın üçünü də birdən salsın suya, hansı suyun dibinə getsə, bilsin ki, o bıilkidi. Bildirki suyun ortasına, yuxarısına enif çıxajax, suyun üzündə qalan da inişilki olajax.

Bı da gəldi dədəsi deyən kimi padşaha dedi. Padşah bınnan soruşdu ki, bını saa kim dedi?

Dedi:

– Padşah sağ olsun, özüm tapdım.

Gədə deyən kimi eliyif cavabı göndərdilər qonşu padşaha. Bını tapdı. Bir də üç at yolladı, üçü də bir boyda, bir rəngdə. Onun da biri bı ilki, biri bildirki, biri inişilki. Gənə ölkədə hamı qara geydi. Cavab tapmadılar. Gənə getdi dədəsinə dedi bını. Dədəsi dedi ki, get padşaha denən ki, bir yerə süd qoysunnar, bir yerə arpa qoysunnar, bir yerə də ot qoysunnar. İnişilki at arpıya gələjəh, bildirki at ota gələjəh, bı ilki at da südə gələjəh. Gədə getdi. Padşah gədiyə çoxlu ənam verdi. Atdarı da seşdi padşaha göndərdi. Sohra o padşah iki cərgə qoşun yolladı: bir qız, bir oğlan. Dedi:

– İndi bını arala.

Oğlan gəldi əhvalatı atasına danışdı. Dedi:

– Ata, onu nətəri eliyəh?

Dedi:

– Bala, bir az isdi su götü, tök bir variatın əlinə, gör əlbəhəl əlini geri çəhsə o, qız uşağıdı. Dedi, yox, əlini yudu, o, oğlan uşağıdı.

Bı da bir variata töhdü, gördü yox, bı variat əlini yudu. İndi bı, oğlan uşağıdı, qorxmadı yudu. Hamma qıza təkəndə qız "uyy" elədi, əlini çəhdi. Dedi, indi o da qız uşağıdı. Axı oğlan atasını gizdəmişdi. Sohra onu da çıxartdı üzə. Padşaha da dedi ki, bəs sualları mən yox, atam tapmışdı. Padşah ona dəymədi. Dedi:

– Get, yaşa. Saa dəymirəm, sən maa bir belə yaxşılıx elədin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 33. HÜCÜRƏVAN PADŞAH

Bir Hücürəvan patcahı vardı. Gəldi bir dərvişi örgətdilər. Dərviş iki yüz qoşun yığdı. Gəldi Hücürəvan patcahına dedi ki, iki ay patcahlığı ver maa, iki aydan sohra özün götü. Bı da dedi ki, yaxşı, verirəm. Bı da "yaxşı verirəm" deyənnən sohra arvad dedi ki, əşi, sən dəlisən, cinnisən? Dərviş kimdi ki, sən dərvişə patcahlığı verirsən? Dava yox, şava yox.

Dedi:

– Ay arvad, dərviş maa nağarajax?

Dərviş bının patcahlığını alannan sohra qoşununu tökdü, bının başınnan tacını götdü. Bını taxtınnan saldı. Geyindi-gejindi, otdu bının taxtında. Bı da iki oğlunu, bir arvadını, bircə dəsmal da çörəh götdü evdən çıxdı. Bını çıxartdılar patcahlıxdan. Getdi otdu bir çayın üsdə. Otdu aşağı çörəh yeməyə. Bir tacirin bı vaxt bir qoşunu gəldi. Gəldi çaydan su götürə. Gördü, vallah, yeməh-işməh, bir kişi xeylağı, bir zənən xeylağı, iki də gözəl uşax oturuf suyun üsdə çörəh yeyir. Getdilər dedilər:

– Tacir Məhəmməd, vallah, bəəndə bir zənən oturuf, elə deməh olar ki, xana-bəyə layıxdı.

Dedi:

– Gedin onu gətirin maa.

Dedilər:

– Nətəri gətirəh?

Dedi:

– Deyin ki, karvanda bir qadın, ayıb olmasın, həmlini yerə qoyur. Karvanda qadın yoxdu. Ora qadın lazımdı.

Bını götdülər getdilər. Kişi qaldı bırda gedələrnən. Kişi gözdədi, gözdədi, qadın gəlmədi. Arvadı da karvannan götdülər getdilər. Durdu əənə yüürdü, arvadı tapmadı, bəənə yüürdü, arvadı tapmadı. Gəldi əlini hər yerdən üzdü. Durdu gədənin birini çiyninə aldı ki, çayı addıya. Çayın ortasına çatanda gördü ki, qıraxda qalan gədəni canavar götürdü. Kişinin ağlı başınnan çıxdı, çiynindəki gədə də düşdü çaya. Bəri tərəfdəkini çoban yüürdü canavardan aldı. Çayda-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kını da çıxartdı. Gədələri gətirdi. Kişi də bəri tərəfə çıxdı. Kişi bəri tərəfə çəvrildi arvadı tapmadı, o tərəfə çəvrildi gedələri tapmadı, dəli oldu. Başına döyə-döyə ha getdi. Heş bilmədi dünya hardadı. Başına döyə-döyə az getdi, çox getdi. Bınnan irəli patcah mənzili az-az olurdu. Bınnan irəli maşın yoxuydu, bırdan vıra gedə Ukraynıya. Getdi çıxdı bir yerə ayaxyalın, başı açıx. Bı yerdə də quş uçurdurdular ki, patcah tikələr. Patcah ölmüşdü. Quş gəldi qondu bı böyürdən çıxan qonağın başına. Bının başına nə oyun gətdilər. Apardılar saldılar bir tikiliyə. Bir də quş uçurtdular, quş getdi haranı dəldisə, gənə qondu bı kişinin başına. Bını qoydular səhərə. Dedilər:

– Quşun ağlı başınnan çıxıf. Bı, hardan gəlif çıxıf?

Səhər oldu, gənə quş getdi bir mərəh* tapdı, ordan girdi, mindi bının başına. Dedilər:

– Tay üşdən keşməh olmaz. Bını patcah qoyajeyih.

Bını patcah qoydular. Bı tərəfdən çoban da bı gədələri saxladı. Az oldu, çox oldu, çobanın nənəsi bına dedi ki, bala, bını apar bir detdoma qoy, bir hökumətə qoy, nağayır. İndi Allah tərəfi bını tanıdı dedi, tanımadı dedi, bilmirəm.

Dedi:

– Nənə, bınnarın ikisini də həmən bı təzə tikilən patcaha aparıram verəm.

Gəldi dedi:

– Patcah sağ olsun, mənim anamın iki körpə uşağı var. Saxlıya bilmir. Onu gətirsəm sən saxlarsan?

Dedi:

– Niyə saxlamıram?!

Getdi, gətdi, verdi uşaxları patcaha. Patcah uşaxların birini qapını açıf örtməyə qoydu, birini çəkməsini silməyə qoydu.

Bı tərəfdən tacir Məhəmməd arvadı apardı otax bəzədi, nağardı, gəldi qapıdan girdi, dedi:

---

* mərəh – tikili



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay xanım, səni həbelə yerə gətirif çıxarmışam. O çayın qırağınnan səni həbelə evə çıxartmışam. Saa nə oluf başıı tikif yerə gözuun qan-yaşını tökürsən?

Bı da heş demə Hücürəvan patcahın taciriymiş. Arvad dedi:

– Tacir Məhəmməd, saa bir nala çəkərəm, Hücürəvan patcahdan betər olarsan, tarı-mar olarsan, – deyəndə dedi:

– Nətər, nətər?

Dedi:

– Deyirəm saa bir nala çəkərəm Hücürəvan patcahdan betər olarsan, – deyəndə dedi:

– Bıy, əvin yıxılsın canım, bı Hücürəvan patcahın arvadı çayın üsdə nağayrırdı? Bı nolandı?

Tacir bildi ki, bı, Hücürəvan patcahın arvadıdı. Bırda yeddi il saxladı, bına qulluxçu, nökər verdi. Bını qəşəh yerdə saxladı. Bını ağzında dili kimi, nənəsi kimi, bajısı kimi saxladı. Bir tərəfdən də bı, yeddi il Hücürəvan patcahı axtarmağa getdi. Bı nə bilsin ki, bını əlbəhəl o ənki patcahın yerinə patcah qoyuflar. At mindi, dəmir çarıx geydi, yeddi ildən sohra Hücürəvan patcahı tapdı. Getdi xəlvətcə soruşdu ki, bı patcah kimdi, nəçidi, haralıdı? Dedilər biz nə bilək, adı Hücürəvandı. Gəldi çıxdı, quş uçurtdux, üş dəfə qondu başına, patcahımız oldu. Gətdih patcah tikdih. Gəldi arvadı götdü, getdi. Apardı ki, bını bı patcahın mənzilində verə Hücürəvana. Arvadı götürüf gedəndə getdi bəridə kümə* tikdi. Getdi icazə aldı. Patcahın görüşünə getdi. Hələ tanışdıx vermiyif. Getdi patcahın görüşünə, dedi ki, mənim bırda bir amanatım var. Sən elə adam verə bilərsən ki, beyjə mən qoyam o evə qaravılçı, mənim amanatım salamat ola.

Dedi:

– Niyə vermirəm. Bıde, mənim yanımda iki oğlan var. Apar qoy qaravılçı. Özü də çox halal oğlannardı, halal uşaxlardı.

Apardı bıları qoydu qapıya, dedi:

– Bırda yuxulamazsız, oturarsız bı xanımın qapısında.

---

* kümə – koma



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xanım yuxuladı, yuxuladı, yuxulayammadı. Dedi: "Ay Allah, bı məni hara gətirdi, hara aparır".

Bı iki qapıçı qoyduxları oğlan da bir-biriynən danışır. Biri deyir ki, mənim atam varıydı, Hücürəvan patcah idi. Dərviş bizi qavdı, gəldih çayın üsdündə birimiz çaya düşdüh, birimizi canavar apardı. Çoban bizi xilas etdi. Atamı tapmadıx, anamı tapmadıx, qaldıx çobangildə. Çoban gətdi bizi patcaha qapıçı verdi, ayakqabı silən verdi. Bını arvad eşidir. Arvad dedi:

– Bala, bıra gəlin görüm nə deyirsiz?

Gedir, habelə bı uşaxlar nağıl eliyillər. Uşaxlar başlarına gələni arvada danışdılar. Arvad bıları qucaxladı, üzünnən öpdü, dedi:

– Bala, siz mənim balalarımsız.

Tacir Məhəmməd də getdi patcahın mənzilində yatdı, nə bilim, harda yatdı. Səhərdən gəldi gördü ki, gedənin biri arvadın bı qolunun üsdə, biri də bı qolunun üsdə yatıf. Gəldi patcaha dedi ki, sənin əvin yıxılsın, sənin maa verdiyin halal balalar bıdı? İkisi də arvadın yerinə girif yatıf. Deyəndə arvad bıları eşitdi. Arvad dedi:

– Tacir Məhəmməd, əlii saxla, mən balalarımı tapmışam tay. Allah sənin balalarını saxlasın. Mən imana, dinə gəlmişəm. Bı gejə bıları qolumun üsdə almışam. Bılar mənimdi. Yeddi ildi mən bılardan ayrılmışam.

Hə... Hücürəvan patcahın apardı arvadını da verdi, oğlannarını da verdi.

İndi Hücürəvan patcah qoşun topluyuf dərvişin üsdünə gəlməhdə olsun. Qoşunu topladı gəldi. Dərvişi də öldürdü, patcahlığın da götürdü. Arvadını da gətirdi, uşaxlarını da gətirdi.

Tacir Məhəmməd gəldi dedi ki, Hücürəvan patcah, mən bilmədim çayın üsdəki sənin arvadındı. Apardım, axşam maa dedi ki, Tacir Məhəmməd, saa bir nala çəkərəm, Hücürəvan patcahı kimi taxtın tarac olar. Yeddi ildi bı, anamdı, bajımdı, saxlamışam ağzımda dilim kimi. Gətirif indi verrəm saa. Hücürəvan patcah təzdən öz taxtına qayıtdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 34. HƏR VİLAYƏTDƏ BİR EV TİK

Bir padşah varmış. Bının üç oğlu olub. Bir gün padşah oğlannarını yanına çağırıb deyir:

– Gedin hərəniz bir vilayətdə çoxlu ev tikin.

Padşahın oğlannarının hərəsi üz tutur bir vilayətə. Bir müddət keçir. Bir gün padşahın böyüh oğlu qayıdır gəlir atasının yanına, deyir:

– Ata, dediyini yerinə yetirmişəm.

Atası oğlunu da yanına salıb gedir oğlunun dediyi vilayətə. Gəlib çıxıllar. Baxır ki, oğlu o qədər ev tikib ki bı vilayətdə, amma hamısı da xaraba, bı evlərdə heş kim yaşamır. Baxır, deyir:

– Yox oğul, sən mən deyəni eləməmisən.

Tay heş nə demir, qayıdıf gəlillər. Bir müddətdən sohra padşahın ortancıl oğlu qayıdıb gəlir, deyir:

– Padşah sağ olsun, dediyini elədim.

Padşah durur, bını da yanına salıb gedir. Gəlib baxır ki, bı oğlu da vilayətdə çoxlu ev tikdirib, amma heş birində bir adam da yaşamır, elə xarabadı. Deyir:

– Oğul, yox, sən də mən deyəni eləməmisən.

Qayıdıb gəlir. Bir müddət keçir. Axırda padşahın kiçik oğlu qayıdıb gəlir. Deyir:

– Atayi-mehriban, dediyini yerinə yetirmişəm.

Qalxıb gedillər. O vilayətə girəndə padşah baxır ki, biri bını oğluna ordan salam verdi, evinə dəvət elədi, biri bırdan salam verdi, evinə dəvət elədi. Kim qabağına çıxdı ədəbnən salam verdi, baş əydi, ayağının altına xalça-palaz döşədilər, gül-çiçəh verdilər, hamı bına xoş gəldin elədi. Padşah bılara baxdı, dedi:

– Hə, oğul, bax, mən deyənnəri sən eləmisən.

## 35. BU GÜNÜ DƏ BELƏ İTİRDİK

Bir ölkədə bir tacir varmış. Çox da qüvvətdi tacirmiş. Yaxşı da alveri varmış. Bının böyründə də başqa tacirlərin satış toçkaları varmış, maqazinnəri varmış. Bı tacir hər gün qapını bağlıyıf gedəndə deyir ki, böyün də belə itirdik. Bını yoldaşdarı, qonşu tacirrər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gedir şaha xəbər verir ki, bəs filan tacir hər axşam qapını kilitdiyif gedəndə deyir ki, böyün də belə itirdih. Şah əmr verir ki, səhər bütün toçkalar hamısı bağlansın. Təkcə o tacirin mağazası açıx olsun. Əmr eliyir ki, hamı daa alveri o tacirdən eləsin. Şahın əmri əmrdi də. Nətər deyir, elə də eliyillər. Axı bına da fikir verir yoldaşdarı ki, görəh böyün nə deyəjəh. Axşam gənə qapını kilitdiyif gedəndə deyir ki, böyün də belə itirdih. Gedillər şaha deyillər ki, şah sağ olsun, gənə də həmən adam həmən vəziyyətdə qapını kilitdiyif gedəndə dedi ki, böyün də belə itirdih. Əmr eliyir, deyir:

– Onu gətirin bıra.

Gətirillər şahın hüzuruna. Şah deyir ki, a kişi, mən əmr vermişdim ki, bütün satış toçkaları hamısı bağlansın, səninki açıx qalsın, hamı da sənnən alver eləsin. Deyirsən ki, böyün də itirdih. Böyün də itirəjəhsənmi?

Deyir:

– E-e-e, şahım sağ olsun. Mən döylətdən, dünya malınnan ötəri deməh isdəmirəm. Yəni deməh isdiyirəm ki, ömrümüzdən, günümüzdən böyün də itirdih. Mən satış toçkalarımdan gələn gəlirim hakqında söhbət eləmirəm. Ömrümüz hakqında fikirrəşirəm ki, böyün də belə itirdih.

## 36. İNƏYİN QARNINDAKI BUZOV

Şah Abbas dərvişlibas olub gəzirdi. Günorta olanda naxırı su üsdünə yığallar da. Belə baxdı, dedi:

– O qızıl inəyin qarnında qaşqa buzov var.

Naxırçı da belə durmuşdu, malgüdən. Dedi:

– Yox, dişi olmağına dişidi, amma quyruğunun uju ağdı, alnına qoyuf.

Daa bu demiyəjəhdi Şah Abbasdı. Qayıtdı çıxdı taxta. Naxırçını apardı, inəyi apardı, inəh yiyəsini də. Kəsdirdi, gördü ki, naxırçı deyəndi, bu deyən döylü. Tarixdə heş kim isdəməz özünnən ağıllı qabağa keçə. Dedi:

– Mən Şah Abbas olam, bunu bilmiyəm.

Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, sən kimsən, nəçisən? Bu kamalın, ağlın yiyəsi, özü də mala gedirsən.

Dedi:

– Şah sağ olsun, deerlər ki, saatın xoş vaxtında yaradılıb filankəs. Cənnətin, cəhənnəmin arasında bir qoş var. İkimiz bir saatda doğulmuşux. O qoş dırnağıynan quyruğunu qatdıyanda sən olmusan. Saa dünya quyruxdu. Dırnağıynan buynuzunu vuranda, dırnax daş, buynuz daş, mən olmuşam. Mənim çörəyim daşdan çıxır, dünya səə quyruxdu. Amma mən sənnən ağıllıyam.

## 37. AĞLIMI ALINCA, PULUMU AL

Bir gün bir varrının qızı bir kasıbın oğluna ərə gedir. Varrının qızı kasıfın oğlunu bəyənir da. Bunun atası, anası, qohum-əqrəbası deyir o kasıf adamdı, sən neynirsən ona gedib. Deyir:

– Nolur olsun, mən getməliyəm ona. Nolsun kasıfdı.

Nəysə, gedir bu kasıfın oğluna. Qız da düz, əməli-saleh adammış.

Musa peyğəmbər bir gün gedirmiş. Deyir:

– Ya Musa, gedirsən, sənə agahdı, mən varrının qızıyam, bu da kasıb aylədi. Allah-talaya mənim sözümü deyərsən, bizə bir var versin da.

Nəysə, Musa peyğəmbər gedir Turi-Sənada söhbət eliyir Allah-talaynan. Kəlam verib kəlam alır. Axırda deyir ki, mən gəlirdim, ey mənim Allahım, belə bir kadın idi, şəxs idi, gəldi ayaxyalın, üzü örpəhli, ayağımın altına düşdü, mənə belə dedi. Mən ona nə deyim? Gedəndə soruşajax axı. Musa peyğəmbərin yolu ordan imiş da.

Deyir:

– Ya Musa, verdim var.

İndi nə yollasa, bulara var verir. O qədər varrı olullar, o qədər varrı olullar. Bunun da qaynatası var görmüyən kasıf adamdı, zəhmət çəhməyən adamdı. Elə gedif birinə odun yarırmış, onnan bir axşam dolanışığını alıf gətirirmiş. Var olanda gərəh zəhmət də ola. Bu kişi dilxor olur bu varın, döylətin əlində.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bir gün Musa peyğəmbər genə gedirmiş. Bu kişi deyir:

– Əşi, mən kasıf olanda arxayın otururdum, zəhmət çəhmirdim. Musa peyğəmbər gəlir, gedim ona deyim ki, Allah-talaya desin ki, bu varı azaltsın bir az.

Tərpənir gedir. Gəlinin də başı qarışıx idi. Heyvanı sağırmı, artdaşdırırmı, neynirmi? Bir də gözünü açır, görür ki, Musa peyğəmbər gedir, qaynatası çatdırıf. Bu bilir ki, qayınatası darıxıfdı varın əlində. Bilir ki, gedif deyəjəh ki, bu varı al. Bu tərpənir. Gedir Musa peyğəmbərə deyir ki, bəs bu varın-döylətin əlində ölmüşüh ayləlihcə. Allah-talaya deynən bu varı bir azaltsın. Bu gəlin çatır. Daa kişinin axırıncı sözüdü. Deyir:

– Ya Musa, canım sənə fəda olsun. Qaynatamdı, mənnən böyühdü. Amma sənnən birjə dənə xayiş eliyirəm ki, Allah-talaya mənim sözümü də deyərsən. Vardı, alar, özü bilər, alsın, amma ağlımızı almasın.

Musa peyğəmbər gedir, genə kəlam verif kəlam alannan sora deyir:

– Ey mənim Allahım, iki şəxs mənə belə söz dedi. Mən nə deyim olara?

Deyir:

– O zənən ki gəlif deyir ağlımızı almasın, varı alır qoy alsın, gedif ona deyərsən ki, mən onun varını neynirəm, haraya aparajaydım varı? Ağlını alajaydım, var öz-özünə çıxıf gedəjəydi. O zənənin sözünü eşidirəm. O var zənənindi. Getsin nə qədər yeyillər yesinnər.

Ağıl heylə şeydi.

## 38. LOĞMAN

### I mətn

Bir loğman olur, bir dənə tələbə oxudur. Oxuyub qutarannan sora görür ki, bunun tələbəsi onnan bilihlidi. Bunun ürəyi götürmür. Deyir: “Səni, mənnən üsdündü, bilihlidi. – Pul da Musa peyğəmbərin vaxdınnan şirinmiş. – Bunu öldürəjəm”. Bu tələbəni buraxır, gedir. Tələbə işdiyir, camaat, əhali bunun yanına gəlir. Necə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

deyillər filan professor bilihlidi, hamı gedir onun yanına, bu da heylə. Bu, tələbəsini çağırır, deyir:

– Sən öl, səni öldürəjəm. Gedərsən, hazırrıx görərsən, sənə bir dərman verəjəm səni öldürməh üçün. Onnan özünü müdafiyə elə.

Bu tələbə məhətdəl qalır. Deyir:

– Ay Allah, bu mənim məllimim ola, mən bunun tələbəsi. Mən neyliyəm ki, bunun zəhərinnən canımı qutaram?

Kor-peşman qayıdır gedir evinə. Bu da təzə evlənmiş imiş, bunun yoldaşı da bilihli imiş. Kadın olanda nolar. Görür ki, yoldaşı qanıqara gəldi. Loğman buna qırx gün möhlət verir. Deyir:

– Get qırx gün fikirrəş. Elə bir dərman hazırra ki, özünü müdafiyə eliyəsən.

Bu kor-peşman evə gedəndə yoldaşı deyir:

– Niyə peşmansan?

Deyir:

– Heş-zad.

Deyir:

– Bə nolub sana? Loğman səni niyə çağırıb?

Dedi:

– Vallah, mənə dedi ki, otuz dokquz gün ötər, qırxıncı gün sənə bir dərman verəjəm. Sən də elə bir dərman düzəlt özünü müdafiyə elə. O, mənim məllimimdi, mən onun qabağında nə dərman düzəldə bilərəm ki, canımı müdafiyə eliyəm onun dərmanınnan.

Deyir:

– Elə bu?

Deyir:

– Bəli, bu.

Deyir:

– Qorxma. Gəl otur çörəyini ye, yeməyini ye.

Oturub çayını-çörəyini yeyir. Deyir:

– Bə mən neyniyəjəm?

Deyir:

– Get bir dənə hovuz düzəlt.

Hovuzu düzəltdirir. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Otuz dokquz gün gətir hovuzu südnən doldur. O dərmanı sənə verən kimi gəl özünü tulla hovuza, südün içinə. Onda sənə heş-zad olası deyil, qorxma.

Yoldaşı dediyi kimi bu gətirif hovuz tikir. İçini südnən doldu-ruf gedir loğmanın yanına. Loğman gətirif ona dərman verir. Ölüm dərmanıdı. Dərmanı verən kimi oğlan özünü tulluyur hovuza, südün içinə. Süd zəhəri qoymur yayıla. Oğlan ölmür. Qutarır bunnan.

Bunun yoldaşı deyir ki, di get sən loğmana deynən ki, sənə qırx gün möhlət verirəm. İndi mən dərman hazırrıyajam, sən özünü müdafiyə elə. Sən get de, gəl.

Nəysə, bu gedir. Görür ki, loğman oturub isdolda. Loğman gözdüyür ki, tələbəsi ölməlidi axı. Görür ki, tələbə gəldi, ölmədi. Məhətdəl qalır bu, nə işdi. Tələbəyə deyir:

– Sən neynədin, ölmədin?

Deyir:

– Neynirsən? Ölmədim da. İndi mən bir dərman hazırrıyajam, sənə verəjəm. Qırx gün möhlət verirəm. Sən dərman hazırra, mən dərman verəndə özünü müdafiyə elə.

Bu loğman fikirrəşir ki, ay Allah, mən bu dərmanı icad elə-dim, onnan artıx mən dərman bilmirəm. Mən nə dərman hazırrıyım ki, özümü bunnan xilas eliyəm? Bu loğman qırx gün fikirrəşir. Arada bunun yoldaşı deyir:

– Get gör loğman nejədi?

Bir iyirmi, iyirmi beş gün keçənnən sora gedir loğmanın yanına. Görür ki, loğman qıravatda uzanıf, elə iskileti qalıf. Az qalıf ölməyə. Bu qayıdır gəlir. Yoldaşı deyir:

– Vəziyət nətərdi?

Deyir:

– Loğmanın ömrünə az qalıb, heç qıravatdan dura bilmir.

Otuz dokquz gün keçir, qırxıncı günü deyillər loğman öldü. Loğman o qədər fikirrəşir ki, heş dərman-zad lazım olmur. Dərman-sız ölür.

Loğmannan da belə bir şey eşitmişəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**II mətn**

Biri loğmana sataşıf. Loğman bını başdıyıf qavmağa. Ərəsdun da düşüf bıların dalına. Loğman bını qavıf-qavıf... Bu gedə özünü yetirif bir bulağa. Başdıyıf bı sudan işməyə. Loğman deyir ki, həə, tay bını tutdum. Su qoymuyajax bını qaşmağa. Oğlan hoppulur, bulağın o tərəfində isdi qum varmış, paltarını soyunur, kürəyini bir xeyli sürtür bərk quma. Qum bının ürəyinnən suyu çəkif dağıdıf. Ərəsdu deyif ki, ağa, getmə, tuta bilmiyəssən. Qavıf, amma tuta bilmiyif. Qayıdıf gəliflər. Deyif ki, Ərəsdu, nə bildin tuta bilmiyəjəm?

Deyif:

– Ağa, belə-belə, ona görə.

Sohra loğman deyif ki, Ərəsdu, bala, sən məni üş yerdə üsdələdin*. Tay mənim yaşamağım yoxdu. Ya sən maa zəhər ver, mən ölüm, ya da mən saa zəhər verim, sən öl. Deyif:

– Ağa, yox, mən saa zəhər verə bilmərəm.

Mən aşığam, ay Araz,
Axıf gedən, ay Araz.
Usdadına kəm baxan,
Urzusunu tapar az.

Loğman deyif:

– Ərəsdu, indi mən saa qırx günə zəhər qayırıf verəjəm.

Qırx günə şümşad qabın içində bına bir qaşıx zəhər qayırıf verir. O, qırx günə zəhəri qayırınca bı da qırx günə qırx təhnə qayırır. Bının iyirmisini ayrannan doldurur, iyirmisini inəh südünnən doldurur. Deyir:

– Nənə, doldur. Özü də heş kim bilməsin.

Qırx günün tamamında loğman gətdi Ərəsduya zəhər verdi. Ərəsdu zəhəri işdi, girdi içəri. Süddə silkindi, ayrannan işdi. Çıxdı o biri süddə silkindi, quruşkadakı ayranı işdi. Belə-belə zəhərin hamısı çıxdı südə, qatığa.

---

* Söyləyici ikinci və üçüncü hekayələri unudub.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aradan bir xeyli vaxt keçənnən sohra Ərəsdu geyindi paltarını, getdi loğman işdiyən yerə. Loğman başını qaldıranda çaşdı, inanmadı. Dedi:

– Sən Ərəsdusan?

Dedi:

– Bəli, ağa, həmən Ərəsduyam.

Loğmanın ürəyi qırıldı barama teli kimi nazik bir teldən asılı qaldı. Dedi:

– Ərəsdu, bala, bu dördüncü dəfədi ki, sən maa üsdün gəldin. İndi növbə sənindi. Get sən maa zəhər qayır.

Ərəsdu getdi bir keçə parçası götürdü. Atdı bını qabağına. Hər loğman gələndə başdadı bını həvəhdəsdiynən döyməyə. Loğman hər soruşanda deyirdi saa zəhər qayırıram. Ərəsdu bilirdi ki, loğmanın ürəyində olan o tük, tel qırx günnən sohra qırılajax, loğman öləjəh. Bir gün loğman gəlir, qırxıncı gün olur. Deyir:

– Ərəsdu, gedəh sizə bir çay içəh.

Ərəsdu deyir ki, yox, ağa, gedəh sizdə içəh. Ərəsdu bilir axı, bı, bu gün öləjəh. Fikirrəşir ki, mən bını apararam əvə, orda ölər. Deyəllər Ərəsdu bına zəhər verdi. Getdilər Loğmangilə. Çay işdiyi yerdə loğman deyir ki, Ərəsdu, məni tut, öldüm. Ərəsdu tez bının başını çevirir qıvlıya, namazını qılır. Loğman ölür.

**III mətn**

Bir loğman olur. Bının yanına bir xəsdə gəlir. Xəsdə elə bir vəziyyətdə olur ku, cüzam-zad tutmuşmuş, vəziyyəti çox pis imiş. Loğman bına baxır ayannan-bayannan, deyir:

– Qardaş, mənim əlimnən gəlməz.

Tökülüşüllər bının üsdünə, bına çox ağır söz-zad deyillər ki, sən nətər həkimsən, sən nətər loğmansan, bir dərman deyə bilmirsən xəsdəyə. Niyə bını müalicə eləmirsən? Axı bı xəsdə ölür. Deyir:

– Ə, qadan alım, mən hardan alım beş il qısır qalan buludu, mən hardan alım yeddi il su işmiyən ilanı, on il də doğmuyan keçinin südünü ki, mən onu müalicə eliyim. Bının dərdinin dərmanı bıdı.

Bı adam bını eşidir, ölümü alır gözünün qabağına, deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, ölməh ölməhdi, tay xırıldamax nə deməhdi?

Baş götürür çıxır gedir dağlara. Gedif bir qayanın dibində oturmuşmuş kölgədə. Görür kü, bir keçi gəldi. Bının özü də bərk susamışmış. Deyir ki, qoy elə bı keçini tutum, sağım içim. Keçini tutur, sağır bir camı varmış ona. Qoyur yerə, isdiyir içə. İşməh isdiyəndə bı mamentdə bir dənə möhkəm göy gurulduyur. Qəfildən bir yağış yağır, bir qara bulud o yannan gəlir, bir leysan yağır. Bı südün yarısı olur su. Yağış kəsif, gün çıxıf. Bı isdiyif ki, südü içə, görüf kü, bir qara yekə ilan daşın altınnan çıxdı, gəldi südü işdi, qayıtdı zəhərini də tökdü camın içinə, çıxdı getdi. Süd də oldu zəhər. Bı fikirrəşir ki, ay dadi-bidad, onsuz da bıralarda susuzdan öləjəm. Qoy elə bı ilanın zəhərini içim, canım birdəfəlik qutarsın. Götürür bı südü çəkir başına. Çəkənnən sohra özünü yaxşı hiss eliyir. Bir az gözdüyür. Sohra bını yuxu tutur. Səhər ayılır görür kü, əyə, bı ölmüyüf, əksinə, özünü daha da yaxşı hiss eliyir. Bütün yaraları-zadı hamısı sağalıf, sağlamlaşıf. Qayıdıf gəlir kəndə. Görüllər ki, bı oğlan qayıtdı. Loğman bını eşidir, gəlir. Bı deyir:

– Bəs belə-belə, sağalmışam, amma sən məni müalicə eləmədin.

Deyir:

– Yox, sən maa de görüm, başa nə oyun gəldi?

Deyir:

– Bəs belə-belə.

Başına gələnnəri nağıl eliyir. Deyir:

– Hə, mən deyəndi. Yeddi il su içməmiş ilanın zəhəri, beş il qısır qalmış keçinin südü, bir də qısır qalmış buludun yağışı. O, mənim əlimdə dəyildi, Allahın əlində idi.

**IV mətn**

Bir gün loğmanın oğlu xəsdələnir. Loğman deyəndə bı həkimdi da. Həkimnən də yüksəh bilir. Loğman belədi. Nə qədər çalışır uşağı sağalda bilmir. Qalır çarəsiz. Arvada deyir ki, mən el içində, oba içində biyabır olmamaxdan ötrü kəntdən çıxıram. Oğlan üş günnən sora öləjəh. Mən bir həftədən sora gələjəm. Tay camaat



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

deməsin ki, loğman nətər loğmandı ki, onun dərdin bilmir. Uşax ölənnən sora qayıdıf gələjəm.

Nətər deyir, heylə də eliyir. Çıxıf gedir. Loğman gedənnən sora loğmanın şəyirdi gəlir bulara. Görür ki, loğman yoxdu evdə. Deyir:

– Ay xanım, loğman hardadı?

Loğmanın arvadınnan xəbər alır. Deyir:

– Loğman gedifdi filan şəhərə.

Deyir:

– Nədi, niyə gedifdi?

Deyir:

– Hal-qəziyə belə-belə. Uşax xəsdələndi, sağalda bilmir. Biyabır olmamax üçün çıxıf gedifdi. "Uşax ölənnən sora gələjəm" dedi.

Şəyird deyir ki, xanım, saa bir sual verəjəm. Əyər düzünü desən, mən uşağı sağaldaram.

Deyir:

– De görüm uşax loğmannandı, yoxsa kimnəndi?

Deyir:

– Şəyird, sən nə danışırsan, dəlisən-nəsən?

Deyir:

– Yox e, xanım, maa düzünü de. Uşax loğmannandı, yoxsa kimnəndi?

Deyir:

– Ay şəyird, Allahdan nə gizdin, bəndədən nə gizdin. Uşax çobannandı.

Deyir:

– Onda maa bir qab qatıx gətir, bir qab pencər. Pencəri bişir gətir.

Bı minvalla üş-dört gün uşağı pencərnən, qatıxnan maalicə eliyir. Vaxt keçir, uşax sağalır, durur ayağa.

Vaxt tamam olur, loğman gəlir evə. Görür ki, ə, uşax qapıda oynuyur. Çox təəccüb qalır ki, uşax necə sağaldı, kim sağaltdı belə vəziyətdə? Gəlir evə, deyir:

– Arvad, bı uşağı kim sağaltdı, nejə sağaltdı?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A kişi, şəyird sağaltdı.

Deyir:

– Necə sağaltdı şəyird bını, nə verdi bına?

Deyir:

– Vallah, qatıxnan, bir də pencərnən sağaltdı.

Deyir:

– A köpəh qızı, niyə maa demədin ki, uşax çobannandı. Mən uşağın dərdini çoxdan tapardım. Mən öz qidamın vasitəsiynən uşağı sağaltmax, maalicə etməh isdiyirdim. Çobanın da yediyi qatıx, pencərdi. Onnan da əmələ gələn qatıx, pencərnən sağala bilər. Belə deyərdin maa, mən də bileydim uşağın dərdini.

Vəssəlam.

**V mətn**

Ə, bala, bir kişinin oğlu xəsdələnir. Hara aparır heş bir həkim bının dərdinə əlaj eliyə bilmir. Axırda elə olur ki, gedir bir loğmanın yanına. Loğman baxır uşağın sifətinə, başa düşür ki, bu, nədi. Deyir:

– Bir xam at tapın gətirin, mindirin uşağı ata, çapsın atı.

Atı tapıllar, gətirillər. Uşax minir atı, çapır. Gedir hərrənir, bir azdan sora gəlir. Oğlanın atası deyir ki, nədi bı, niyə belə oldu? Bu atı çapdı. İndi bu nədi? Deyir:

– Uşağın ürəyinə tük dolaşmışdı. O tük imkan vermirdi ki, ürəh inkişaf eliyə. Atı çapdı, ürəh genişdəndi, tük qırıldı. Ona görə də hər şey gəldi normal hala düşdü. Oğlan rahat nəfəs aldı.

*Söyləyici mətni nənəsindən eşidib.*

## 39. QUŞ DİNDİ, NƏ APARDI Kİ, MƏN DƏ DİNİM

Genə, deyir, padşahın bir oğlu varıymış. Həm lalıymış, həm karıymış. Bütün həkimi, mollanı, cindarı, loğmanı yığır, deyir:

– Ə, nətəri mən bı ölkənin şahı olam, bı uşağa əlac tapılmasın? Bı nə deməhdi?

Nə bilim, bir cindar olur, deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ay padşah, bını apar bir çöllü-biyabannığa tulla, görəh nə iş tutajax orda, – deyəndə uşağı aparıllar. Hamma, deyir, ovçu qoyun yanına ha. Qoyun, gennən, aralıdan hərrənsin yanınca, yoxsa bını vəşi heyvannar yeyər. Meşədə o vaxt vəşi heyvannar çoxuydu.

Hə... Gedir, ovçu da bını daa gennən-genə izdiyir, izdiyir, izdiyir, görür ki, əyə, bir qəlbi ağacın başında quşdu, oxuyur. Bına belə baxır, baxır. Ovçu gözdüyür axı bını. Birdən tüfəynən bını, bı quşu vurur. Quş düz gəlir bının ayağının üsdünə düşür, qabağına düşür. Düşəndə bı o tərəfə boylanır, bı tərəfə boylanır, görür heş bir şey yoxdu, heş kim yoxdu. Deyir:

– Ay Allahın quşu, heyvanı, o ağacın başında dinməzcə duraydın, o yolnan ötən ovçu da səni vurmuyaydı.

Gəlir ovçu bı padşahın oğlunu qatır qabağına, aparır, deyir:

– Ə, filan oğlu, filan. Məni bı kolda-kosda öldürürsən, gəl ə.

Gəlir deyir:

– Padşah sağ olsun, oğlun, bax, bı sözdəri dedi. Bax, belə oldu, heylə oldu.

Mən sizə söylədiyim kimi deyir. Oğlan gördü işin üsdü açılıf, dedi:

– Ay dədə, o quş dindi, bı dünyadan nə apardı, mən də dinim bı dünyadan nə aparım. Elə lal-kar olmax hamısınnan yaxşıdı.

## 40. MƏNƏ RƏHM ELİYƏN, ALLAH SƏNƏ ZÜLM ELƏSİN

Deyir, bir gün tacirrər alverə gedillərmiş. Alverə gedəndə bıların qabağını quldurrar kəsir. Təmiz mallarınnan, hər şeylərinnən bıları məhrum eliyillər, əllərinnən alıllar. Bı tacirin birinin qoçax bir nökəri, qulu varmış. Bı, tacirə deyir ki, icazə ver mən o malı, mülkü, döyləti qaytarım. Amma şərikih ha, yarı sənindi, yarı mənim.

Deyir:

– Baş üsdə, qaytar.

Nökər bırdan vırır, ordan çıxır, ordan vırır, bırdan çıxır. Bı var-döyləti qaytarır. Qaytaranda deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Tacir, indi yatax. Sən yat, mən keşih çəkim.

Bir vaxt görür tay təntiyif:

– Ay tacir, dur indi sən keşih çəh, mən yatım.

Yatır. Yatanda bı əvi yıxılmış tacir deyir: "Ə, bı qədər varın-döylətin yarısını bı nökərə verəjəm?" Bının başına bir daş salır, nökərin ha. Daşı salır, nökər də ölür. Elə onda dünya-aləm qarışır. Yer-göy gurulduyur. Gurultu qopur. Bının gözdərinin ikisi də tutulur. Dəvə, mal, qoyun hara gedir, hardan gəlir heş bilmir. Yolnan ötən, keçən bını gətirir şəhərə çıxarır.

Deyir, bı dilənirmiş şəhərdə. Padşah vəzirnən şəhərə çıxıfmış. Bını görüllər. Padşah deyir:

– Ay vəzir, bı, yaman yaxşı, mərifətdi adama oxşuyur. Apar onun torbasına bir az qızıl tök.

Aparır. Qızılı tökəndə deyir:

– Ey qızıl tökən, Allah saa zülüm eləsin, Allah zülüm versin, – deyəndə padşahın buna yaman ajığı tutur. Deyir:

– Ə, bının boynunu qılışnan vırın.

Deyir, belə deyəndə vəzir deyir:

– Ay padşah, bında bir sirr var yəqin, ona görə bı sözü işdətdi.

Gəlillər:

– Ə, niyə o sözü dedin?

Deyir:

– Ə, mən özüm özümə eləmişəm.

Mən sizə söylədiyim kimi padşaha heylə söylüyür. Bax, mən belə elədim, heylə elədim, Allah da maa bı zülmü elədi. Siz maa nahax kömək eliyirsiz. İndi çox şeylər var. Maa gərəh Allah rəhm eləsin.

## 41. DAĞYUNUSUN XƏZİNƏSİ

Bir kişi oluf. Bı kişi bilirmiş ki, Dağyunusun qızıllarını, var-döylətini aparan dəvə karvanı qırılıf. Qırılıf qalıf bir dərədə. Amma tay yerini dəqiq bilmirmiş. Amma bilirmiş ki, bını filan dəriyə qonan qoja qəjirrər bilir. Bı da qəjirin dilini bilmirmiş axı, gedif qulax asa, görə nə danışıllar. Bı bir körpə uşağını götürür aparır, o



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qəjirrər yığışan dərədə bir balaca qaraltı tikir. Elə hey uşağı orda saxlıyır. Bı uşax yavaş-yavaş qəjirin dilini örgənir. Bir gün bı kişi çoxlu eşşəyi, atı qırıf aparıf tökür o dərəyə. Çoxlu da su qoyur qablarda. Uşağı da qoyur o qaraltının içində. Uşağa deyir ki, qulağ as, nə eşitsən hamısını maa deyərsən.

Qəjir tökülür bura, leşdən yeyillər, sudan içillər, leşdən yeyillər, sudan içillər. Sohra bala qəjirin biri qayıdıf deyir ki, hı-hı-hı, bəs heş görəsən nə vaxtsa belə leş yediyimiz olmuşdu? Anası qayıdıf deyir ki, hı-hı-hı, bir dəfə də belə şey olmuşdu.

Deyir:

– Ana, nətər, nejə olmuşdu?

Deyir:

– Bala, Dağyunusun vaxdında olmuşdu. Dağyunus var-döylətini vırmışdı beş yüz dəvənin belinə, apartdırırdı filan yerə. Bir filan dərəən içində sel gəldi, tufan gəldi bı dəvələrin hamısını qırdı. Onda düz bir ay gejə-gündüz biz leş yedih ha. Qızılları da, var-döyləti də qaldı o dərədə, üsdünü torpax basdı.

Uşax da bıları gizdəndiyi yerdən hamısını eşitdi. Gəldi dədəsinə dedi hamısını bir-bir. Kişi də bildi ki, harda qırılıf. Getdi, qazdı çıxartdı Dağyunusun pullarını.

## 42. KOR CANAVARIN QİSMƏTİ

Çoban imiş, kəndin, deyir, qoyununu güdürmüş. Hər axşam gəlillər ki, qoyun yiyələri, a kişi, mənim qoyunumun biri yoxdu. Səhəri gün o birisi gəlir ki, mənim qoyunumun biri yoxdu. Bu da deyir ki, nətər olur, mən qoyunu dağda-dərədə güdmürəm, düzənnih yerdi, qoyunun yanına gələn yox, gedən yox. Deyir:

– Yaxşı, yoxluyaram.

Səhər gənə qoyunu aparanda görür ki, bir dənə qoyun dərəyə yaxınnaşanda sürüdən ayrıldı, başdadı ayna getməyə. Dedi:

– Görəsən nə sirdi, bu, hara gedir?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Görür ki, dərədən düşdü. Gedir baxır, görür ki, dərədə bir canavar, qoyun da düşüf onun qabağına. Baxır görür ki, canavarın gözü kor. Deyir:

– Hə, ya rəbbi, dərədə kor canavara verə bilirsən, məə verə bilmirsən?

Sürünü qaytarır dala, camaatın qoyununu verir, deyir:

– Daa buyünnən mən çoban olmuram.

Ay aman, ay dad. Deyir:

– Əşi, yox.

Deyir:

– Dərdin-sərin nə?

Deyir:

– Heş nə.

Gəlir evə, arvadı deyir:

– A kişi, nə tez gəlmisən belə?

Deyir:

– Arvad, ojağın yanında məə döşəhçə qoy, mütəkgə qoy.

Gəlir oturur. Deyir:

– Noluf?

Deyir:

– Burdan tərpənən döyüləm.

Deyir:

– A kişi, acınnan ölərih biz. Dur get çobannıx elə, eləmirsən başqa bir işin qulpunnan tut.

Deyir:

– Yox.

Bir gün, iki gün, arvad görür ki, yox, vəziyyət ağırdı, yeməyə heş nə yoxdu. Lapatkanı götürür gedir bir az, boyana kökü deyərih, balma kökü deyərih, bunnan-zaddan gətirsin, suda pörtdətsin yesinnər. Belə zad eliyəndə, bir ağacın dibini lapatkaynan eşəndə görür ki, saxsı qab var. Arvad tərpədir, içi cınqıldıyır. Hiss eliyir ki, bu, qızıldı. Gəlir kişiyə deyir ki, a kişi, bəs ağacın dibində belə bir şey görmüşəm. Allah-tala bizə verifdi, dur gedəh onu gətirəh.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yox, mən orda isdəmirəm, bax burda, ojağın yanında isdiyirəm.

– A kişi, amandı.

Deyir:

– Yox.

Gəlir qonşuya deyir ki, qonşu, filan yerdə bir şey var, gəl gedəh onu qazax, onu götürüf gələh, paylaşax, böləh. Qonşu gedir, baxır görür ki, doğrudan da, qızıldı. Arvada deyir ki, qoy qalsın, indi götürmüyəh, bilər camaat, gejə götürərih.

Arvad deyir:

– Yaxşı.

Arvad gəlir evə. Qonşu hava qaralan kimi gedir xəlvətcə ordan götürür aparır evinə. Gətirir evə, deyir ki öz arvadına:

– Arvad, gəl gör nə tapmışam.

Açanda bir dəsdə arı uyuşuf bu kişini tas-tas eləməyə. Arvada deyir ki, arvad, tez onun ağzını bağla. Tez ağzını bağlıyıllar. Deyir:

– Zərəl yoxdu. Mən bunu bildim bu nədisə, bular mənə qurma quruf, bu qonşular. Arını yığıf bura, məə də deyir qızıldı. Gör indi mən buların başına nə oyun açajam.

Axşam daa hava qaraldımı, gəlif dal tərəfdən nərdivanı qoyur, buxovdan bu şeyi buraxır içəri ki, arı qoy düşsün buları evdə tas-tas eləsin. Buxovdan düşür, küpə partdıyır, qızıl tökülür burdan ora. Kişi deyir:

– Arvad.

– Hə.

– Bax, Allah verəndə beləcə verir. Mən bu ojağın qırağında isdiyirdim, burda da verdi.

Deyir:

– Səən bu hardan ağlaa gəldi?

Deyir:

– Nə ağlıma gəldi? Kor canavara dərəən dibində qoyun gətirə bilir, mən öydə oturduğum yerdə verə bilmir?

Yəni bir şeyi Allah verirsə, onu heş kəs, bəndə də ala bilməz. Verməsə, aləm yığışsa, ona hörmət eləsə, mənasızdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir ki, birinin əlində alma varmış, düşür yerə. Yerə düşəndə yolnan ötən biri varmış, deyir ki, qismətin döylü. Deyir:

– Döylü?

Deyir:

– Yox.

Almanı götürür, silib deyir:

– İndi mən bunu yeyim, gör qismətimdi, ya yox?

Deyir:

– Oğul, ye, yesən qismətindi, yeməsən yox.

Yəni Allah verməsə, bəndə versə də, onun mənası yoxdu.

## 43. FƏRASƏTLİ QARDAŞLAR

Bir kişinin üç oğlu olur, ayləsi, bir də özü olur. Kişi ovçuluxnan məşğul olurdu. Ovda da heylə bir gəlir yox idi. Dərinin birini yetmiş köpüyə alırdılar. Ovdan gələndə bu, çox korruxlanır, çox gəzir piyada, ayləni çətin dolandırır. Oğlannarı da iriləşifdilər, oğlannarı da gedir ova. Bular heş ov ovlamağın girəvəsini bilmillər harda durmax lazımdı, harda ovlamax lazımdı. Aylədə ehtiyac çoxdu. Fikirrəşir ki, aylənin xətrinə əyri yola düşsün.

Deyir, bir gün padşahın imarətinin yanınnan keçəndə görür ki, xəzinənin abuşkası açıxdı. Fikirrəşir ki, yəqin yaddan çıxıf qalıf ey açıx. Qarannıx düşmüşdü. Abuşkanın açıx qalması cəlb edir bunu. Deməli, abuşka açıxdı, oğurruğa gəlməh olar. Abuşkanın açıx olmasının mənası bu idi ki, oğrunu tutmax. Abuşkanın içərisinnən padşah dərin bir quyu qazdırmışdı insanın qurşağına qədər, içini də qırnan doldurmuşdu ki, oğru gəlif abuşkadan özünü atanda düşsün bura. Bunu yazıx kişi bilmirdi. Gəlir evə, oğlannarını yığır belə, deyir:

– Mən yaşamasam da olar, sizin yaşamağınız üçün padşahın xəzinəsinin abuşkası açıxdı, gedəjəm oğurruğa, bir az qızıldan-zaddan gətirim, siz yaxşı yaşıyın. Amma ola bilər ki, məni tutallar. Saat birəcən gəlməsəm, mənim dalımca gəlin. Deməh, ya tutulmuşam, ya da yüküm ağırraşıf.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kişi durur, o vaxt patava oluf, patavasının qatmasını bərkidir, birdən-ikidən oğurruğa getməmiş adam, abuşkanı açıx görür, içəridə qızıllar hamısı işıx salır. Təntimiş adam, abuşkadan özünü atır. Atan kimi düşür quyuya, bircə çiyinnəri qalır çöldə bunun.

Oğlannarı gözdüyür, gəlmir, duruf gedillər. Görür kölgə düşür, deyir:

– Oğlannarım, sizsiniz, gəldiniz?

Deyir:

– Hə, gəldih.

Deyir:

– Ehtiyyatdı olun, mənnən təxminən yarım metr buyza qurudu. Mən elə vəziyyətə düşmüşəm ki, daa burdan çıxası deyiləm. Ya ölüb çıxajam, ya da qaldım burda.

Böyüh oğluna deyir ki, sən ayağı qoy çiynimə, keç xəzinəyə. Böyüh oğlu ayağını qoyur kişinin çiyninə, addıyır xəzinəyə. Ortancıla deyir:

– Sən də keç.

Kiçiyə deyir:

– Sən də keç.

Üçü də keçir. Deyir:

– Yığın, nə qədər yığırsız, yığın.

Nə qədər gücü çatır yığıllar. Qayıdanda böyüh oğluna deyir:

– Oğul, burda məni tutajaxlar, sizin hamınızı güllələyəjəhlər. Gedirsən başımı kəs, götür get, bilən olmasın ki, mən kiməm.

Deyir:

– Ata, onu mən eliyə bilmərəm.

Deyir:

– Onda keç.

Ayağını qoyur kişinin çiyninə, çıxır çölə. Ortancıl gəlir, ortancıla deyir:

– Oğul, sabahları məni burda tutajaxlar, biləjəhdilər sizin atanızam, sizi çox incidəjəhlər. Başımı kəs, götür get, cəsədimi tanıyan olmasın.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yox, ata, mən onu eliyə bilmərəm.

Bu da addıyır çölə çıxır. İndi kiçih gəlir. Kiçiyə deyir:

– Olar cəsarət etmədilər, sizin üçünüzü də asdırajax şah darvazanın bir tayınnan. Başımı kəs, götür get, tanıyan olmasın, apardığınızı dinc yeyin-için da.

Deyir:

– Yox, ata, mən onu eliyə bilmərəm.

Deyir:

– Yaxşı, keç.

Bu da keçir, deyir:

– Getmiyin, dayanın.

Dayanıllar.

– Sabahları padşah məni burdan çıxartdırajax, parça-parça doğratdırıf aparıf düzə tullatdırajax ki, quşdar yesin, həm də mənim sahibim gəlsin ağlasın. Ağlıyanda bilsinnər ki, kimdi mənim yiyəm. Anana tapşır, birdən ora gələr ha! Heş biriniz gəlmiyin. Neçə gün cəsədim o çöldə qalsa, quzğunnar tikə-tikə eliyif aparsa, gəlmiyin.

Vəsiyyətini eliyir, deyir:

– Çıxın gedin.

Oğlannarı gedir. Sabah açılır, Allah hamının sabahını xeyirə açsın. Xəzinədar gəlir, hər gün yoxluyurdu, görür ki, qırın içində bir adam var. Padşaha xəbər göndərir ki, padşah sağ olsun, bir nəfər gəlifdi oğurruğa, xəzinənin yarısını da aparıflar, düşüf qalıf qırın içində. Deyir:

– Çıxartdırın, gətirin.

Çıxardıllar bunu burdan. Bunun başını kəsdirif, başı da üsdündə tullatdırır imarətinnən bir qədər aralı. Görüllər bunu, arvad da görür, uşaxları da görür ki, kişini öldürüf atıflar ora. Heş birisi getmir. Burda söhbət cırlaşır, danışmax məqsədəuyğun deyil.

Padşah biliciləri çağırır, deyir ki, sınaxdan keçirin bildiyinizi. Xəzinəni kim yarıf, tapın. Tapa bilmillər. Ağsakqalları çağırır, qara-sakqalları çağırır, əmələ gəlmir. Əl atır ipəh qarılara, köpəh qarılara, burdan da bir şey çıxmır. Bunun, deyir, üş qızı vardı. Qızdar deyir:

– Ata, niyə narahat olursan, biz o oğruları taparıx.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ortancıl qız gəlir qabağa, deyir:

– Ata, car vur, meşədə böyüh bir tala var, o talada mən əlli dəvə yükü qızılnan gejəliyəjəm. Heş kəs saat on ikidən sora çölə çıxmasın. Pusquda adam qoyarsan, oğrular gələndə tutallar.

Hətta, deyir, hasar da çəkilmişdi, hasarın qapısı da var idi. Qapıçı qapını bağlıyır, əlli dəvə yükü qızılı çəkir, tam yiyəsizdih idi. Bu talada bu, axşamlıyası olur. Qoşun talanı mühasirəyə alır, padşahın qoşunu ki, oğru gələndə tutsun. Sərvan – dəvənin yedəyini çəkən oturmuşdu dəvənin üsdündə, yuxluyurdu. Tez-tez dəvənin ipini çəkirdi ki, görsün dəvə burdadı. Dəvə getsə, o biri dəvələr də getcəh, qız da. Qız dəvədən gejədən xeylağ keçənnən sora düşür, ta yuxluyurdu. Deyir:

– Mən düşürəm.

Düşürüllər, yer salıllar, yatır. Arxası üsdə yatmışdı, ayın işığını qaytarırdı, o qədər gözəl idi. Gecədən bir qədər keçənnən sora qoşun gedir yuxuya. Bular hasardan keçillər içəri, camaata qoşulullar, bularnan deyif-danışıllar. Kiçih qardaş böyüyə deyir ki, gedif o qızı öpəjəm. Deyir:

– Ə, qırdırarsan bizi, qoy görəh.

Qız oyax idi, oğlan yaxınnaşır, bir əlini bu üzdən qoyur, bir əlini o üzdən, toxunmasın deyə, üzünnən öpəndə qızın əlində qayçı vardı, qayçıynan bunun bığının yarısını kəsir. Bu heş duymur. Qayıdır gəlir, deyir:

– Öpdüm, heş bilmədi.

Deyir:

– Nə bilmədi, ə, səni damğalıyıf ey, sənin xəbərin yoxdu.

Nağarax, nağarax, qayçını götürüf nə qədər bığlı adam var bığının yarısını bunki fason kəsillər. Qızı ehmalca götürüf aşırdıllar dəvənin belinə, dəvənin kəndirini kəsif bir daşa bağlıyıllar. Dəvənin yedəyini çəkir, qalan dəvələr də dalınca ehmalca qapıdan çıxıllar. Dəvələr də çıxır, qız da, götürüf gedillər.

Sabah açılır, xəbər gedir padşaha ki, dəvələr də gedif, qız da gedif, amma oğruya nişanə vuruflar. Qapını açıllar, deyillər:

– Kimin bığı bütöydü çıxsın, kimin bığı paradı, qalsın.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Görüllər ki, hamının bığının parası kəsihdi. Padşah daha da hiddətlənir. Padşah nə qədər qoşun başçısı vardı, nə qədər əyannar, nə qədər ipəh qarı, nə qədər köpəh qarı var, hamısını yığır. Deyir:

– Yox ey, olar tapılmalıdı.

Bular axtarışda olsun, oğlannar qızı da götürüf gəlillər evə. Dəvələr tutular deyə doğruyullar hamısını. İndi beş dəvə, üş dəvə olur, mən əlliyə yaxın dəvə demişəm. Söhbətdə də əlliyə yaxın dəvə deyilif, bəlkə də şişirdillər nağılda. Görünür, bəlkə də əlli dəvə oluf, amma əlli dəvəni kim kəsə. Yığıllar pəyəyə ki, dəvələr çıxıf eliyər, görən olar. Qızı da kəbin eliyillər böyüh qardaşa, aylə qurur bunnan. Özdəri ovlarınnan məşğul olullar, analarına tapşırıllar ki, qapını açmırsan, evə adam buraxmırsan, çaaranda “evdə heş kəs yoxdu” sözünnən başqa bir kəlmə demirsən. Həyətə heş kəsi buraxmırsan. Deyir, ova gedirdilər öz qaydaları üzrə. Gələndə də dəvələrin ətinnən bişirirdilər, yeyirdilər. Yeraltı dam var idi, damın tirlərinnən asmışdılar dəvələrin ətini ki, xarab olmasın.

Bir gün nəpəh qarılardan biri padşaha deyir ki, mən taparam o oğruları. Deyir:

– Sən oğruları taparsansa, tərəzinin bir gözünə sən özün qoyulajaxasan, bir gözünə də qızıl-gümüş qoyulajax. Bu qədər hakqın var, tapsan.

Qarı tumanının balağını sancır. – Balağ sancardılar, indi olmasın. Tumanın ətəyini yığışdırardı qıvrax olsun deyə. – Sancır tumanı, düşür yola. Dəsmal çəkir, hönkürüf ağlıya-ağlıya kəntdəri başdıyır gəzməyə. Kim bunnan soruşur noluf, deyir:

– On səkgiz yaşında oğlum var, xəsdədi, ölür. Həkim ona dəvə əti buyuruf. Bircə tikə dəvə əti olsa, o sağalar.

Dolana-dolana gəlif çıxır bu oğruların həyətinə. Ana görür darvazanın dalında bir kadın ucadan ah-vay çəkif ağlıyır. Ürəyi yuxa idi ananın, dayana bilmir, yaxınnaşır qapıya, qapını açır, görür ki, bir qoja qarıdı.

– Ay ana, noluf?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir ki, bəs bir oğlum var, on səkgiz yaşında, gözümün ağı-qarasıdı, ölür. Ona həkim dəvə əti buyuruf, bircə tikə olsa, ölməz. Ürəyinin yumuşaxlığınnan "yoxdu" deyə bilmir, deyir:

– Gəl, içəri.

Gəlir içəri qarı, uje görür ki, burda işıx uju var. Pəyələr bizdə yeraltı oluf. Uzun pəyə idi, iyirmi metr uzunnuğu. Bunu salır pəyəyə. Qarı içəri girəndə, qarıya bu səhnə lazım idi, görür ki, dəvələri şakqalıyıf asıfdılar. Deyir ki, a bajı, bu nədi?

Deyir:

– Aaz, heş kimə demə, padşahın qızı da, dəvələri də bizdədi, böyüh oğluma kəbin eləmişih, aylə quruflar. Bax, heş kimə demə ha! Nə qədər isdiyirsən sənə dəvə əti verim. Bir bud götür, apar.

Deyir:

– Neynirəm aaz, mənə bir tikə lazımdı.

Yox, aaz, bir az da, bir az da, arvad tikə-tikə ətdən kəsir, canı-yanannıx eliyir. Oğlannarın ovdan gələn vaxdı idi. Ovdan gələndə həmişə dokqazlarına baxırdılar ki, görəh bir hadisə olmuyuf ki. Qarı deyir, çox tələsiyirdi, tez burdan getsin. Görüllər ki, qapı açıldı, içəridən kadın çıxdı iti sürətlə. Binokulla baxırdılar, elə-belə görünməzdi, aralı idi. Böyüh qardaş deyir:

– İçəridən kimsə çıxdı, bərk getdi.

Bu, deyir, atın başını boşduyur. Atın başını keşmişdə kişilər saxlıyırdılar ki, at toxdax olsun. Atın başını buraxdı ki, at sərbəst getsin. Heş, deyir, bir dəyqə çəhmədi, arvadın başının üsdünü kəsdilər. Təxminən arvad bir on metr aralanmışdı evdən. Dedi:

– Ay ana, hardan gəlirsən, hayana gedirsən, kimsən, nəçisən?

Deyir:

– Allah bajıma köməh olsun, oğlum ölür, məni ləngitmə oğul, dəvə əti arzulayır. Bu evin yiyəsi verif ki, aparım verim, dirilsin.

Deyir:

– Ay ana, ver, baxım görüm nə verif?

Deyir:

– Budu.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A qanmır o, axmax arvatdı, bir elə ətdən verdiyi ətə bax. Qayıt götür.

Arvad getməh isdiyir, bu qoymur.

– Ay oğul, bəsdi, başına dönüm.

Deyir:

– Aaz, adam qızısan, qayıt.

Qaytarır, elə içəri girən kimi qılışnan vurur. Qarı da getdi, gəlmədi.

Padşahın əlacı kəsilir, götürüf elan vurdurur. Elan verir ki, mən oğruları tapmıram, oğrular öz ayağıynan gəlif çıxsa, mən oları bağışdıyaram. Elanı oxuyuf oğlannar gəlillər. Üçü də gəlif deyillər:

– Dəvələri də biz aparmışıx, qız da bizdədi, xəzinəni yaran da bizih, orda qalan cəsəd atamızındı, qızıllar bizdədi, filan.

Padşahlar padşahı İranda otururmuş. Bu deyir ki, baş padşahdan məktub gətirin ki, həqiqi oğrular sizsiz.

Örgənillər ki, padşah yatanda bu imarətdə yatır. Pusquda durullar ki, o nə cür gəlir, neçə nəfərnən gəlir. Görüllər ki, gejədən xeyli keçənnən sora bir nəfər pəhlivan bunu gətirdi. Qapının böyründə düymə var, düyməni basan kimi qapı açıldı. Keşdilər içəri, qapı örtüldü. Təxminən saat yarım çəhdi, onnan sora bu gələn şəxs çıxdı çölə, qapının düyməsini basdı, qapı bağlandı. Gejədən xeyli keçənnən sora bular da yaxınnaşıllar qapıya, qapının düyməsini basıllar, qapı açılır. Keçillər içəri. Beləcə otuz dokquz qapı açıllar, qırxıncı qapıda görüllər padşah burdadı, yatıf. Bular, deyir, zınqırov, tısbağa çanağı, şeytan çanağı, cındır-cundur paltarda böyüh qardaşı bəziyillər. Böyüh qardaş girir içəri, padşahın yatağının başında ayağını bərk vurur yerə, bu çanaxlar bir-birinə dəyif səs eliyir. Eybəcər bir gurultu əmələ gələndə padşah gözünü açır, görür başının üsdündə adama oxşamıyan bir şəxs var.

– Pismillah, pismillah, – deyir. Deyir ki, pismillah demə, o dünyadan gəlmişəm mən. Səni o dünyaya padşahların padşahı seçiflər, onçün gəlmişəm. Deyir ki, axı mənim vəzifəm var, taxtayam, yerimi bir adama verməliyəm. Deyir ki, onda sabah saat on ikiyədək səə vaxt veririh. Vəzifəni təhvil verərsən, gələrsən filan meşəyə. Səni



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tabuta qoyallar, eşşəyin belinə sarıyallar, sən öz xoduna gələjəhsən o dünyaya. Oratan gətirif qoysunnar, getsinnər, sən qeybinnən gələssən. Belə təpiyini vurub yerə, qozalarını silkələdir, çıxır çölə.

Sabah açılır, padşah qəzəb donunu geyinir, çıxır taxta. Deməh, bilillər ki, nəysə bir dəyişiklih var. Padşah qəzəb donunu geyinir, yəqin kiməsə ajığı tutuf. Çağırır bütün əyannarını, başqa ölkələrin padşahlarını, deyir:

– Məni o dünyada padşahlar padşahı seçiflər, getməsəm olmaz.

Bir nəfər qohumlarınnan öz yerinə seçir. Deməh, bir tabut düzəldir, hal-xoş eliyir, hallallıx eliyir, yerini təhvil verir, uzanır tabuta, deyir:

– Məni filan yerə qoyarsız, mən qeybimdən gedəjəm.

Tabutun ağzını mismarlıyıllar, eşşəyin üsdünə möhkəm sarıyıf qatıllar qabağına, iki nəfər oğrular deyən yerə qoyuf qayıdıllar. Oğrular ulağı qatıllar qabağına, gətirillər. Eşşəh getdihcə tabut yellənirdi. İçində əsniyir, deyir:

– Bəh-bəh-bəh, bu dünyanın yolları da yüyrühdü, yolları da yüyrühdü, – deyə-deyə gəlir. Gətirillər tabutu, padşahın taxtının qabağında tabutu qoyullar. Padşah deyir:

– Bu, nədi belə?

– Sən demişdin kağız gətir, biz özünü gətirmişih.

Qapağı açanda padşah içəridən deyir:

– Burda heş kim hökm eliyə bilməz, buranın padşahlar padşahı mənəm – deyəndə baxır görür ki, bu ölkənin padşahı burdadı, tanıyırdı. Gəldiyi ölkənin padşahı deyir:

– Səni oğrular gətirif, ay zalım. Həqiqətən oğru olduxlarını isbata keçirməh üçün səni oğurruyuf gətiriflər.

Bu ölkənin padşahı oğlannardan birini vəzir qoyur, birini qoşun başçısı götürür, birini də vəkil götürür. Bu minvalla yaşıyıllar. Yaşıyannarı yaşasın, ölənnərə Allah rəhmət eləsin. Bunnan da nağıl bitir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 44. DİLİMİ MEHRİBANÇILIĞA ÖYRƏDİRƏM

Bir oğlan uşağı oduna getmişdi meşəyə. Tamah eliyir, çox doğruyur odunu, ulağa çox yüklüyür. Yağış da, deyir, yağmışdı, surunçax* idi. Gələndə, deyir, ulax... Yer çala-çökür idi, görünür, orda xəndək də oluf. Bu yerlərdə "qəndək" deyillər, bizlərdə "xəndək". Deməh, bu xəndəkdən keçəndə ulağın ayağı sürüşüf yıxılıf. Uşax indi güjü çatası döylü bu ulağı qalxıza. Bu dəmdə padşah da vəziriynən çıxmışdı gəzməyə. Gəzməhdən qayıdanda gəlif burdan keçəndə görüllər ki, bir odun yüklü ulax yıxılıf yerə, uşax da boynunu qucaxlıyıf yalvarır:

– Dədəm sənə qurban, dur, nənəm sənə qurban, dur, başına dönüm, dur.

Padşah çönür vəzirə baxır:

– A vəzir, bu nə deməhdi, yalvarmaxnan heyvan qalxar?

Deyir:

– Padşah sağ olsun, özünnən soruşax.

Deyir:

– Soruş.

Deyir:

– Ay oğlan, yalvarmaxnan o ulax durandı o yükün altınnan?

Deyir:

– Əmi, bilirəm ey durmaz, amma mən dilimi mehribançılığa örgədirəm.

"Dilimi mehribançılığa örgədirəm" sözünü eşidəndə bu padşaha böyüh dərs olur ki, bu uşax dilini mehribançılığa örgədir, mən də kəsməhdən, öldürməhdən, asmaxdan danışıram. Vəzirə deyir:

– Düş, vəzir, atdan.

Düşür. Ulağın yükünü açıf qoyullar yerə, ulax qalxır, odunu yüklüyüllər. Uşağa deyir ki, o sözü hər gün gəlif mənə deyərsən, mənnən bir qızıl onnux alarsan. Yəni unutmuyum da o sözü, dilimi mehribançılığa mən də örgədə bilim.

---

* surunçax – sürüşkən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Uşax gəlir, odunu boşaldır, eliyir, anasına deyir ki, bu günnən mən oduna getmiyəjəm.

– Ay oğul, noldu?

Deyir:

– Mən bu günnən padşahın qonağı olajam, hər gün padşahın otağında oturajam, onun əyannarının söhbətinə qulax asajam, gündə mənə onnux qızıl verəjəh, dolanajağıx.

Bu sözü eşidəndə, paxıllığa gəlir bu söz, ağsakqal bir qonşu yatmışdı, deyir, aman-zaman bircə dənə qoja inəhləri vardı. Arvad girir içəri, bunu bərk silkəliyir.

– Qalx, – deyir.

Deyir:

– Nədi?

Uşax deyəndə eşidir də bu. Deyir:

– Qalx, sən də get, dilimi mehribançılığa örgədirəm de, sən də gündə bir onnux qızıl al.

Bu da qalxır, evdə tir-dirəh qalmır, hamısını yüklüyür ulağa, qatır qabağına. Padşahın imarətinin qabağınnan keçəndə ağacı ilişdirir ulağın qıçına, ulax yıxılır. Başını qucaxlıyır yalvarır. Deyir, padşah baxıf görür, ə, qoja bir kişi ulağı yüklü gedirdi, ağacı ilişdirif yıxdı, indi uzanıf böyründə. Qulluxçunun birini göndərir ki, gör orda nə oluf, bir xəbər gətir. Gedir, gəlir deyir:

– Padşah sağ olsun, qoja kişidi, yüklü olduğunnan ulağı yıxılıfdı, o da yanında uzanıf ağlıyır, yalvarır.

Deyir:

– Get, gətir onu bura.

Gəlif aparıflar. Deyir:

– Nağarırsan orda, ay qoja?

Deyir ki, ulağa yalvarıram dursun. Deyir:

– Ə, yalvarmaxnan ulax durar?

Deyir:

– Bilirəm ey durmaz, dilimi mehribançılığa örgədirəm.

Ordan cəlladı çağırır, deyir:

– Yüz dənə çubux kəsin.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Cəza tədbiri imiş ey bu. Yüz dənə çubuğu kəsif gətirir, qandalağı salır ayağına. Deyir ki, sən bu yaşında dilini indi örgədirsən mehribançılığa? O qədər döyüllər, döyüllər, sürüyüf aparıllar atıllar küçəyə. Yiyəsi gəlif sürüyüf aparır. "Paxılın goru cəhənnəmə" sözü burdan çıxır.

Uşax, deyir, gündə gəlir padşahın qulağına bu sözü deyif gündə bir onnux qızıl alırdı. Padşahın ən tərifli vəziri heç gündə on qızıl almırdı. Özü də tərs kimi də vəzirə gösdəriş verir ki, sən verərsən bunun hakqını. Vəzir indi gündə bir qızıl buna hak verir. Bir gün uşax gələndə vəzir çıxır qabağına, deyir:

– Gəlmə. Gəlif padşahın qulağına söz demə.

Deyir:

– Niyə?

Deyir:

– Padşah deyir ki, o bir də gəlif mənim qulağıma söz desə onun boynunu vurdurajam. O, mənim qulağıma söz deyəndə tənəffüsünnən pis iy gəlir.

Uşax səhərisi gəlmir. Gözdüyür, gözdüyür, gəlmir. Vəzirdən soruşur bu uşax niyə gəlmir? Deyir:

– O uşağı mən gördüm küçədə, deyir padşahın qulağınnan pis iy gəlir, ona söz deyəndə mən iyrənirəm.

Padşah qəzəblənir:

– Uşağı gətirin.

Uşağı tapıllar, gətirillər. Deyir:

– Niyə gəlmirdin iki gün?

Deyir ki, padşahı-aləm sağ olsun, mən gələndə vəzir mənə dedi ki, səən tənəffüsünnən pis iy gəlir. O gün də mən sarımsax yemişdim, bəlkə də, tənəffüsümdən gəlirdi o iy, ona görə gəlmədim. Vəzir mənə demişdi ki, guya sən mənim tənəffüsümdən iyrənirsən. Padşah görür ki, vəzir həmin sözü də gəlif ona deyif. Vəziri çağırır, deyir ki, bu günnən bunun hakqını artırdım. Sən verəjəhsən, gündə iki onnux qızıl verəjəhsən.

Vəzirin, deyir, pulu yox idi. Most bankda pulu vardı. Bir gün pulu olmur verməyə, götürür qəbz yazır Most banka ki, Most bank



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

adıyla cəllada yazır ki, bu uşax ora çatan kimi boynunu vur. Uşax, deyir, tələsih əlində kağız gedirdi. Amma bu, vəzirin oğlu ilə dostdux edirdi. Vəzirin oğlu çıxır bunun qabağına, deyir:

– Hara gedirsən?

Deyir:

– Bu gün pulumu ala bilməmişəm, kağız veriflər, gedif verif pulumu alıf gəlirəm bu saat.

Dartıf zornan bu kağızı bunun əlinnən alır. Deyir:

– Ə, sən dayan, mən gedim alım gətirim.

İndi vəzirin oğlu götürür kağızı, gedir. Oxuyan kimi boynunu vurullar. Vəzir görür ki, sən öləsən, budey, uşax gəlir.

– A bala, noldu, dünən hara getdin?

Dedi ki, əmi, dünən mənə kağız yazıf verdiniz ey, gedirdim onu almağa, sənin oğlun çıxdı mənim qabağıma, o kağızı zornan mənnən alıf özü çıxdı getdi. İndi onnan gəlif çıxmıyıf, pulumu da gətirmədi. Vəzir duyux düşür ki, hə, uşağının boynun vuruflar. Onunçün deyillər, dərin qaz, gen qaz, özün düşərsən. Bunnan da söhbət bitir.

## 45. İNSAN NƏSLİNƏ ÇƏKƏR

### I mətn

Bir padşahın qızını başqa padşahın oğluna alıllar. Padşahların arasında dostdux oluf. Bunnar uzun-uzadı dosd oluflar, elə bilginən ki, dosdunun evladı olmurdu, bu dosdunun da xəbəri yox idi, uşax evinnən bir qız götürüf. Bu uşax evinnən uşax götürənnər üçün xoşagəlməz söz olur. Bilmiyif da uşağı götürəndə kimin uşağıdı. Oğlu olan padşah dosdunun evinə qonax getmişdi. Görür bunun evində bir uşax, deyir:

– Qızdı, oğlandı?

Deyir:

– Qızdı.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bizim evdə də biri əmələ gəlif, oğlandı. Bular yekəlif həddi-buluğa çatanda – padşah oğlu padşah qızını alar da, gedif rəiyyətin qızını almıyajax – bu uşaxları evləndirərih, dosduğumuz çevrilər qohumluğa.

Nəhayət, vaxt gəlif çatır, gəlini gətirillər. Qırx gün-qırx gejə orda toy vuruluf, qırx gün-qırx gejə burda toy vurulajax. Padşah xanımına tapşırmışdı ki, elə adam qoy gəlinə nəzarət eləsin, görsün gəlnimiz nəynən maraxlanır.

Yol uzunu qabaxda qoşun gedir musiqi çala-çala, dalıynan dəvə dəsdəsi, at dəsdəsi gəlin aparıllar. Gəlif belə keçəndə görür arx axır, arxın qırağında da söyüd ağacı qəşəh sərinnih verir. Deyir, onun böyrünnən keçəndə gəlin belə baxır, deyir:

– Nə yaxşı sağanaxlıx var ey burda.

İndi fənərkadan-zaddan eliyillər, keşmişdə fənərka yox idi. Söyüd ağacı yaxşı əyiləndi. O qaraçılar söyüd ağacını yonurdular, nəzik eliyif, qatdalıyıf sağanax qayırırdılar. Ələyin böyürlərinə sağanax deyillər. Deyir ki, nə yaxşı sağanax var ey burda. Bu söz qalır bunun yadında.

Gedillər evə, toy qurtarır, hamı çəkilir gedir evinə. Padşahın imarəti, nəhqədər qonağı, nökəri – burdadı hamısı. Surfası da çox geniş açılardı. Deyir, surfa salınıf bərdən ayna, burda heş olmasa əlli-altmış qaşıx var idi. Nəhqədər boşqab, yeməh töküllər, yeyillər, musiqi çalınır, xanımlar rəqs eliyir, qulluxçular oynuyur, xidmətçilər xidmət eliyir. Bu gəlinin heş qaşqabağı açılmır. Padşah nəzarət eliyir, görür gəlin heş nəynən maraxlanmır, çox yad görünür buna bura. Xanımına deyir ki, qulluxçuya tapşır, gör bu nəynən marax-lanır. Padşahdan da böyüh aylənin gəlini olajaydı bu, biznən marax-lammır, qaynıyıb-qarışmır? Adamlar çəkilənnən sora gəlin yığışdır-malıdır da surfanı. Babalardan adət belədir. İndiki gəlinnər deyillər yox, qaynana yığışdırmalıdı. Desinnər, eybi yoxdu, yığışdırar qayna-na. Qulluxçu gəlini güdür, görsün gəlin nəynən maraxlanır. Görür camaat çıxannan sora otaxda heş kəs qalmadı. Gəlin girdi bura, burdan iki dənə stol qaşığı, yəni bu böyüh qaşıxdan götürdü hər əlinə birini, başdadı stolun başına fırranmağa. "Hay it, hay it, hay it" eliyə-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

eliyə, qaşıxları da əlində oynada-oynada üş dəfə dövrə vurdu surfanın başına, bitirdi gəldi, qaşıxları stolun üsdünə qoyuf başdadı surfanı yığışdırmağa. Axşam olur, padşahın arvadı qulluxçunu çağırır:

– Bu gün nə gördün? Padşahın tapşırığıdı, bu gün cavab verməlisiz.

Deyir:

– Mən bir şey duymadım, bircə onu duydum ki, yolda söyüddühdən keçəndə sizin gəlniniz dedi ki, nə yaxşı sağanax çıxar bunnan. Belə bir söz işdətdi. Mən qorxdum sizə deməyə ki, cəzalandırarsız ki, gəlnimizə nəsə yapışdırır. Bu gün də iki dənə qaşığı götürdü, surfanın başına dal-dala üç dəfə "hay it, hay it" deyə-deyə fırrandı.

Padşaha dedilər ki, söyüddühdən keçəndə gəlin deyif nə yaxşı sağanaxlıxdı bu. Bu günnəri də iki dənə stol qaşığı götürüf əlinə, camaat çəkilənnən sora üş dəfə surfanın başına "hay it, hay it" deyə-deyə fırranıf, sora surfanı yığışdırıf.

– Allah, evimiz yıxılıf.

– Nədi?

– Gəlnimiz qaraçıdı.

Burda it də yoxdu, Qarabağda qaraçı əlində ağac kəndə girir. Eləsi olur iki əlində də ağac olur.

İndi ismariş eliyir ki, sizə qonax gəlirih. Vaxt gəlir, yığışıf gedillər. Söhbət əsnasında deyir:

– A dosdum, sizin qızınızda belə əlamətdər olufdu. Söyüddühdən keçəndə deyir ki, burada yaxşı sağanaxlıx var. Aparmışıx, biznən maraxlammır. Tapşırıx vermişəm ki, görsünnər nəynən maraxlanır. İki dənə stol qaşığı götürüf dal-dalına solun başına fırranıf "hay it, hay it" deyə-deyə. Qaraçı tayfasına uyğun gələn əlamətdərdi.

Deyir:

– A qardaş, başına dönüm, o vaxdı mən onu uşax evinnən götürmüşdüm, yəqin, qaraçılar gətirif qoymuşdular da, nə bilim.

Deməh, körpə uşax da yekələndə atasının, anasının işdətdiyi əlamətdəri işdədir. İrsi keçir buna deyillər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**II mətn**

Bir gün Şah Abbas gəzməyə çıxanda bir uşax tapır. Uşağı gətirir, yekəldir, eliyir. Nəysə, bı isdiyir şahlığı verə bı uşağa. Uşax çox diribaş uşaxdı. Çağırır vəziri Allahverdi xanı, deyir ki, mən uşağı qoymax isdiyirəm şah. Amma bının milliyətini mən bilmirəm. Mən hər gədiyə şahlıx tapşıra bilmərəm. Bının milliyyətini mən bilmirəm. Nətər eliyim bını örgənim? Bı deyir ki, vallah, nə deyim. Şah deyir:

– Vəzir, saa qırx gün vaxt verirəm, örgən gör bı kimdi. Tapmasan boynu vırajam.

Vəzir baxır, əlaj yoxdu, deyir:

– Yaxşı, onda bı uşağı da ver, özümnən götürüm.

Gedir otuz dokquz gün məmləkətin hər tərəfini gəzir, car çəhdirir, elan verdirir, soruşur ki, bəs bilərsız, eşidərsız, filan vaxdı şah tapan uşax kimdi? Amma bını heş kim bilmir. Gəlir, çörəyi qutarmışmış. Bir az pendir-çörəyi qalmışmış. Oturullar bir söyüd ağacının dibində çörəh yeyələr. Çörəh yeyəndə uşax uzanmışmış, belə göyə baxırmış. Göyə baxanda görür kü, söyüdün yarpaxları, budaxları sallanır. Deyir:

– Vəzir.

Deyir:

– Nədi?

Deyir:

– Söyüdün nə xəlbir toxunmalı budaxları var.

Tez vəzir barmaxlarını dişdiyir ki, ey dadi-bidad, bı, qaraçı uşağıdı. Yavaşca gəlir Şah Abbasın yanına. Deyir:

– Şah sağ olsun, məsləhət dəyil.

– Niyə?

Deyir:

– Şah sağ olsun, bı, qaraçı uşağıdı.

Deyir:

– Nə bildin?

Deyir:

– Köpəyoğlu söyüdü görən kimi dedi ki, nə xəlbir toxunmalı budaxları var. Onda bildim ki, bı, qaraçı uşağıdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 46. ÜZLÜ QONAQ

Qış idi, dağ zonalarında qış aylarında iş olmur. Bununla əlaqədar olaraq dağ zonasınnan bir nəfər aran zonasında olan dosdunun evinə qonax gəlir. Fikirrəşir ki, yayda bu, taxılını bişdirəjəhdi, biçinçi axtarajaxdı, elə mən qalım orda, biçim. Sentyabrdan gəlif oturuf taxıl biçinini gözdüyür ey. Belə qonaxdan danış. Gəlir, nəysə.

– Salam-məleyki.

– Əleykimət-salam.

Xoş-beş, filan. Qonaxdı gəlif, qonağa deməh olmaz ki, niyə gəlmisən. Bir ay sərasər qalır burda. Bu gələn günü kişi dəyirmannan gəlir. Kəli qoşullar arabaya, bir çual həşdat kilo buğda tutardı, unu kişi dəyirmannan gətirir. Deməh, qonax gələn axşamı arabanın dalını verir seyvana, düşürür qoyur taxtın üsdünə.

– Qonax, xoş gəlmisən, beş gəlmisən.

Görüşüllər bunnar. İndi bu həştad kilo nə qədər gedir, on beş gün gedir, bir ay gedir deyə bilmirəm. Bir axşam söhbət eliyillər, söhbət azalmışdı da. Bir söz deyəndə inamsızdıx yaranmışdı, keşmişdilər yalana. Ev yiyəsinin qonağa münasibəti bir az soyuxlamışdı, qonağın da həmçinin. Nəysə, bu minvalnan axşam olur, arvad daxil olur içəri, deyir:

– A kişi, sabah dəyirmana getməh lazımdı ey, unumuz qurtarıf.

Qonax indi iki ay qalıf, üç ay qalıf... Həşdat kilo un qutarıf deyəndə kişi deyir ki, yaxşı, arvad. Yadına düşür, mən o bir çual unu gətirif düşürəndə bizim qonax gəlif.

Deyir:

– Düşür.

– Nətər oldu bəs, qutardı? – Yəni un qutardı, bizim qonax getmədi. – Hazırra – yəni taxılı xəlbirdən keçir, təmizdə, – səhər aparıf bir çual da üyüdərəm, eybi yoxdu.

Arvad gedir. İndi söhbət eliyillər. Söhbət qutarıf yalan-gerçəh, danışılanın çoxu inamsızdıxdan irəli gəlir. Ev yiyəsi deyir:

– Qonax, sabah getdiyin o yol hakqı, filan iş filandı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sabah getdiyin yol hakqı, yəni çıx get sən də, mənası budu. Qutarannan sora qonax deyir:

– Xozeyin, bax, indi dəyirmana gedəssən ey, səhər.

– Hə.

– Unu yığıf gətirəssən ey, bir çual.

– Hə.

– Bax, onun axır kökəsi hakqı, filan iş filandı.

Yəni onun axır kökəsinətən burdayam. İndi bu əlamətdərə keçiflər. Kişi daa bu qərara gəlif ki, qonax evdən çıxsın, qapını bassın bağlasın ey, içəri buraxmasın. Qonax da duyuf bunu, çıxmır.

Yaz açılıf da, taxıl bitif göyərif, taxıl başdıyıf baş aşmağa. İndi fikirrəşir ki, nağarım qonax çıxsın. Deyir:

– Hə, hopbanax.

Özü qərar verir ki, hopbandırım qonağı, qapının ağzına tərəf hopbansın, qapıdan itəliyim çıxardım çölə. Oturmuşdular. Deyir:

– Qonax.

Deyir:

– Hə.

Dinməzcə oturuflar, söhbət qutarıf. Deyir:

– Qonax, gəlsənə hopbanax?

Deyir:

– Əşi, qonax öy yiyəsinə tabedi. Sən nə deyirsən onu eliyəh, mən nə deyirəm saa.

Deyir ki, qonax, dur, ölçü vahidi qoy, hopbanax. Deyir:

– Vallah, qonax öy yiyəsinin nökəridi, nə desə eləməlidi. Nə deyirsən onu eliyim, amma ölçü vahidini özün qoy.

İndi ev sahibi durur evin ayax tərəfinnən başdıyır addımlaya-addımlaya düz gedif çıxır evin o biri başına, olur altı addım. Deyir:

– Altı addım oldu?

Ordan üç addım sayıf gəlir mərkəzə.

– Üç addım o tərəfə, üç addım da bu tərəfə, ortadımı bura?

Deyir:

– Hə.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Dur gəl.

Gəlir. Deyir:

– Di hopban.

Qapı tərəfi gösdərir. Deyir:

– Ay ağa, sən nə danışırsan, sən dura-dura mən hopbanarammı? Ev yiyəsi sənsən, böyüh sənsən, sən hopban.

Bu yazıx da mənim kimi hopbana bilmirmiş heç. Canını dişinə tutur, ayağının ikisini də vuruf yerə hopbanır, qapıdan xeylağ bəri düşür. Ayağını bir addım qabağa atır ki, oranı ölçü təyin eləsin. Amma bərki ayağının üsdünə düşmüşdü. Bir addım qabağa atır ki, mən bura. Ayağı yerə düşən kimi, qabaxkı ayağının üsdünə qalxır. Gənə qapıya tam çatmır, qapıdan bəri düşür. Fikirrəşir ki, qonax bunu ötməh üçün bir az irəli düşər. Qapıya yaxın olar, itəliyif çıxardar. Qonax da belə baxırdı, deyir:

– Sən ora?

Deyir:

– Hə.

Deyir:

– Nolar.

Qonax da ayağını cüt vuruf yerə sıçrıyır evin o başına.

– Yox, yox, yox, olmadı, olmadı, bu tərəfə.

– Ay rəhmətdiyin oğlu, ölçünü sən ölçmədin?

– Mən ölçdüm.

Deyir:

– Bölmədin?

Deyir:

– Böldüm.

– Orta döyül bura? Sən oyza hopbanmısan, mən buyza.

Yaz gəlir, bu deyir ki, ay ağa, gedif biçinçi tutmuyajaxsan? Bu qış mən də sizdə olmuşam da. Nə fərqi, taxılı mən biçərəm. Biçin də bilmir ey, bədbaxt oğlu. Heç taxıl biçməyi də bilmirmiş.

– Taxılı mən biçərəm, amma gedim uşağı da gətirim. – Oğlu varmış dağda. – Gedim götürüm gəlim, ikimiz biçəh da.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Uşağı gətirir ki, bəlkə, uşax bajarır, uşaxdan bir şey örgənsin. Bu da fikirrəşir ki, yaxşı oldu, gedif biçinci axtarmıjam. Bütün qışı çörəyimi yeyif, hakqını da verəjəm, bir də gedif ikinci adam niyə gəzim? Bunun dilini-zadını başa düşürəm. Deyir:

– Nolar, get gətir.

Gedir oğlunu da götürür gəlir. Bayaxdan bir nəfər idi, indi oldu iki.

Bir gün taxıl yetişif, çıxıllar sahəni gəzməyə. Ev yiyəsi sahəni bulara tanıdır. Bu dərə mənimdi, o dərə mənimdi, yerləri gösdərir.

– Biçərsinizmi?

– Əşi, nə var, arı biçən kimi biçəjəyih.

İndi sabah biçinə gedillər. Deyir:

– Xozeyin, bilirsən nə var?

Deyir:

– Nədi?

Deyir:

– Bizə bir balta lazımdı, bir də bir sijim.

Uzun çatıya sijim deyillər, beş metrdən az olmur uzunnuğu. Bu da iş adamıdı, baltanı gətirir, sijimi də, amma bilmir bunu neynir bu. Fikirrəşir ki, yəqin lazımdı, isdiyir da. Gedəyə deyir:

– Götür sijimi də, baltanı da.

Götürüllər, kişi aparır buları.

– Hə, buranı biçin, mən də gedim yeməh tədarükü görüm, gətirim burda yeyin-için.

Kişi gəlir yeməh-zad hazırradır. Gəlir görür bu, kəmənd atır, sijimin ujunu düzəldif bu atır, düşür bir sünbülün boğazına, gedə sünbülün kökünnən bir balta. Bunu görən xozeyin hirsdənir.

– Ə, bu nə biçim taxıl biçməhdi, bu, kəməndlə nə vaxda biçər?

Görür ki, xozeyin gəlir, tez-tez atır:

– Ə, aşağıdan vur!

Yəni aşağıdan vur bir balta, iki balta. Kişi çatır:

– Ə, bir əlizi saxlıyın, nağarırsız?

Deyir:

– Nağarasıyıx, taxıl biçirih da!



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, heylə taxıl biçəllər?

Deyir:

– Oğul, bilirsən nə var? Xozeynin ajığı tutur, sünbülü iki-iki tut, bir-bir gej olur da. Kəməndi elə atginən iki-iki düşsün kəməndə sünbül. Ağanın ajığı tutur.

Ağa görür səni bular biçinçi döyüllər, avara bir şeydilər. Deyir:

– İsdəmirəm sizin biçini.

Kakraz yaz açılıf, buna lazımdı gedif öz təsərrüfatı ilə məşğul ola. Deyir:

– Neynəyəh, ajığın tutur, tutsun da. Bişmə deyirsən, bişmərih.

Helə çıxıf gedillər.

## 47. MOLLAYNAN KEÇAL

Keçal camaatın malına gedirdi. Bir gün Keçal gətirif malı çayın qırağında arxaca qoymuşdu. Arvatdar paltar yuyurdu. Kəntdə qonum-qonşu paltar yuyuf gətirif suya çəkirdilər. Keçal oturuf qıraxdan baxır, arvatdar çırmanıf buratan, dizdən yuxarı. Mollanın arvadının bədəni Keçalın xoşuna gəlir. İşdəməmiş molla arvadı idi da! Nağarırdı ki? Bədəni dümağ, qəşəh, gözəl. Sabah Keçal getmədi naxıra. Malı da, adətən, arvatdar qoşardılar naxıra. İndi arvatdar gətirif malı qoşanda görüllər Keçal getmir. Keçalın gəlif anasını çağırıllar:

– Keçal hanı, niyə getmir mala?

Deyir:

– Keçal deyir getmiyəjəm mən.

– Aaz, niyə?

Deyir ki, Keçal deyir mollanın arvadı bir öpüş versin, gedim. Mollanın arvadına deyillər:

– Aaz, nə biləjəh molla, bir öpüşdü, ver getsin, qalmışıx malın əlində.

Deyir:

– Aaz, molla məni öldürər, sən nə danışırsan! Verə bilmərəm, bajı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İki gün, üş gün, beş gün... Keçal mala getmir. Bu arvatdar yığışıllar mollanın arvadının başına.

– Aaz, topuğunnan-zadınnan bir öpüş ver, bu kopoğlu çıxsın getsin mala. Bir yer tap, orda ver, öpsün.

Deyir:

– Yaxşı, deyirsiz, deyirsiz, onun üzü qara olsun. Axşam deyin gəlsin girsin o toyuğun hininə, gedərəm qıçımdan, topuğumdan, bir yerimdən-zadımdan öpsün, təki getsin mala.

Deyir, Keçal gəlifdi erkənnən girif toyux hininə, gizdənif orda, arvadı gözdüyür ki, arvad gəlsin, öpsün. Mollaların hamısı arvadı gürgəliyəndilər*, yəni tam sərbəst buraxmıllar. Molla axşam gördü, səni, arvad yaman əl-ayağa düşüf. İndi arvad tələm-tələsih düzəldir mollanın çörəyini, surfasını, çayını-zadını ki, tez getsin Keçalı yola salsın dana. Birdən p..un üsdü açılar, molla gedif toyuğa baxar, nağarar. Mollanın yanına tez surfa salır, çörəh qoyur, çayını gətirir, nə lazımdı qoyur. Molla görür, səni, həmişə bir saata surfa açılmırdı, indi arvad beş dəyqəyə surfa aşdı. Molla görür ki, arvad getdi, düşür arvadın dalınca. Görür arvad toyux hininə tərəf gedir, molla da gedir. Arvad çörüküf görür ki, molla gəlir, daa yaxınnaşa bilmir. Molla çatır:

– Arvad, burda nağarırsan?

Deyir:

– Heş nə, toyuğumuza baxırdım da!

Toyuğa baxıram deyəndə Keçal gizdənə bilmir. Molla baxır, görür Keçal toyuğun içində. Keçal da görür molla gəlir, bir saz xoruz varmış, xoruzu tutur, basır qoltuğuna. Molla gəlir:

– Ə, Keçal, burda nağarırsan?

– A molla, niyə ajığın tutur, xoruzumuz yad gəlif, onu tutuf aparıram.

– Ə, xoruzunuzun qabağında dura bilmirsən? Göt xoruzu da, rədd ol.

Mollaan bir xoruzunu da vuruf qoltuğuna götürüf gəlir.

---

* gürgəliyəndi – pusandı, izləyəndi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İki gün belə keçir. İndi deyillər ki, aaz, noldu, sən bir yer tapıf bir öpüş verə bilmədin, bu gedə mala?

Deyir:

– Aaz, öy tikdirmişik istifadəyə verilməyif, indi-indi taxta döşətdirmişih, ora girmirih heç. Gəlsin girsin ora, yaxındı, elə bu öydən keçim o öyə, bir yerimdən öpsün, cəhənnəm olsun getsin mala.

Keçal gəlir girir öyə, arvad da bilir Keçalın gəldiyini. Tez mollanın çay-çörəyini verif keçir öyə. Arvad keçən kimi molla da bunun dalınca keçir ki, görüm arvad niyə belə eliyir. Keçal görür ki, molla gəlir. Keçal başdıyır öyün bu başınnan addımlamağa:

– Bir, iki, üç – addımlıya-addımlıya gedir o başa, qayıdır gəlir bu başa. Molla baxır, görür Keçal heş dayanmır, elə bir, iki, üç ölçə-ölçə gedir o başa, qayıdır gəlir.

– A Keçal, nağarırsan?

– A molla, ajığın niyə tutur, öy tikdirəjəm, deyirəm görüm neçə metrdi.

– A kopoğlu, gərəh mənim öyümün üsdündə tikdirəsən?

– A molla baba, ajığın niyə tutur, sənin öyünün üsdündə tikdirmə deyirsən, tikdirmərəm.

Gənə baş tutmur. Gənə beş-altı gün keçir, mala gedən yoxdu. Arvadı təmiz əldən salıllar, arvad axırda deyir:

– Aaz, mümkün döyül ey, bu kopoğlu imkan vermir. Gəlsin öyə, girsin yükün dalına. Yükün qabağına da pərdə salardılar ki, yük görsənməsin. Ora sandıx qoyardılar, fərməc qoyardılar, mitil yığardılar, qabağına da pərdə tutardılar ki, bu əlamətdər görükməsin. Un çuvalı qoyardılar, hətta yükaltı olardı təxminən 40 santı yerdən hündür, mıxça çalardılar, üsdünə ağac düzərdilər. Gözdüyür burda. Camış da təzə doğuf, balasını gətirif bağlayıfdılar yükün qabağına ki, kəlçə üşüməsin. Arvad girəvə axtarır ki, Keçalı yola salsın. Molla yerinnən durmuyuf hələ. Molla çığırır ki, ağız, peçi tez qala, üşüyürəm, dururam geyinəm.

– Yaxşı, yaxşı.

Qalamır. İndi girəvə axtarır ki, molla yorğanı başına bürüsün, nağarsın, bu, işini görsün. Molla hirsdənif:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Donuz qızı, sənə demədim peçi qala!

Arvad odunu gətirif qoymuşdu, amma peçə yığmamışdı hələ. Odunun birini götürür atır arvada. Salva dəyir kəlçənin təpəsinə. Təpəsinə dəyən kimi kəlçə partdıyır. Molla görür, ə, kəlçə ölür, tez pıçağı çıxardıf boğazını kəsir, qoymur mırdar olmağa. Keçal görür, paho, iş uzandı, molla kəlçəni kəsdi, camaat yığışajax bura, ət almağa gələjəh, bu, burda nağarsın? Keçal qəşəh durur, teşti götürür, teştin ağzını unnan doldurur çıxır qırağa, durur mollanın böyründə. Molla kəlçəni soyurdu, görür nəsə böyründə ayax var. Başını qaldırıf görür Keçal duruf başının üsdündə, əlində də teşt.

– Ə, Keçal, burda nağarırsan?

Deyir ki, molla baba sağ olsun, gördüm kəlçəni kəsirsən, pulumuz yox idi, un götürüf gəlmişəm ət almağa.

– Ə, mən indicə kəsmişəm. Ə, nə bilirsən kəsmişəm, un götürüf gəlmisən. Sənin unun gözəə girsin, sənə ət-zad satmıram, unuu götür, irədd ol!

– Molla baba, ajığın niyə tutur, satmırsan satma, unumu da götürüf çıxıf gedərəm.

Bir teşt də un burdan götürüf gəlir. Camaat tökülüf, nəhayət, tənbeh eliyif Keçalı göndərir mala.

## 48. KEÇALNAN KOSA

Bir gün Keçalnan Kosa səfərə çıxası olullar. Səfərə çıxanda yol azuqəsi götürüllərmiş. Yol nə qədər uzax olursa, buların azuqəsi qutarır. Yeməh qutarır, yaxınnaşıllar kəntdə bir öyə. Görüllər ki, dokqazda uşaxlar oynuyur. Kosa deyir ki, ay uşaxlar, bu öyün uşaxlarınnan var sizin aranızda? Tanımır axı. Bir uşax yüürə-yüürə gəlir. Deyir ki, əmi, mən bu öyün uşağıyam, nədi?

Deyir:

– Ataa adı nədi?

Deyir:

– Həsənqulu.

– Anaa adı nədi?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Xanımca.

– Bajıı adı nədi?

– Sevil.

– Qardaşıı adı nədi?

– Həsən.

Bütün aylənin adını örgənir, uşağa deyir:

– Dur get, daa lazım döyülsən.

Qapını belə açır, açanda görür arvad təndirdə çörəh bişirir. Deyir:

– A Xanımca bajı, Həsənqulu dayı öydədi? – deyəndə arvad təəccüblənir. Bulara gəlif-gedən qonaxları tanıyırdı, bu təsadüfən gələn qonaxları tanımır. Həm də belə dəqiq danışdığı üçün deyir: “Yəqin, kişinin dosdarınnandı”. Deyir:

– Gələr indi. Qapıda niyə durursuz, gəlin içəri, Həsənqulu dayı gələr indi.

Deyir:

– Xanımca bajı, bizə Həsənqulu dayı lazımdı.

Deyir:

– Gəlin da, gələjəh. Gəlin, gəlin.

Arvad çörəyin ikisini bişirif qoymuşdu, təndir çörəhnən dolu idi. Qonax gəldi, əl-ayağa düşür ki, tez bişsin. Qonaxlar keçir içəri, bu qonaxların altına döşəh qoymaxdan ötrü gəlir öyə, iki dənə də çörəyi götürüf gəlir. Çörəhləri sərir, buların altına mitəkgə qoyur, yasdıx qoyur. Keşmiş vaxdı yerdən oturallarmış, dirsəhlənif söykənəllərmiş, söhbət eliyəllərmiş. İndi bular arvad bişirif gəlincə hərəsi çörəyin birisini yeyir, ajmışdılar. Keşmiş vaxdı, rəvayətə görə, qonax gələndə fətir bişirəllərmiş, bir də çolpa kəsəllərmiş. Arvad tez-tələsih bir çolpa tutur, qonşuya kəsdirir, bunu burda hazırrıyır, soyutma eliyir. Dədə-baba fətiri... Təndirin közünü qırağa kürüyüf sora fətiri yaxıf alta, sora közü yaxallarmış, fətir öz xoduna bişərmiş. Fətiri teyxa südən, şəkərdən yoğurallarmış. Fətiri həmişə bişirməzlərmiş ey. Fətiri ən əziz qonax gələndə bişirəllərmiş. Bu fətirin hamısını hazır eliyir, aparıf təndirə yaxır, gəlif çolpanı qoyuf pörtdədir. İndi bular fikirrəşillər ki, kişi gələjəh, buları tanımıyajax axı. Arvad da tez-tez baxır:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– A bala, mən sizi tanımıram. Evlatdarım, siz kimsiniz?

Deyir:

– Həsənqulu dayının dosdunun uşaxlarıyıx.

Həsənqulunu heç bular görsələr, tanımazdar, Həsənqulu da buları tanımır. İndi fikirrəşillər ki, kişi gələndə biz özümüzü nətər tanışlıx verəh. İndi Keçal Kosaya deyir ki, bilirsən nə var?

Deyir:

– Nədi?

Deyir:

– Həsənqulu dayı gələndə dalaşax, heş yadına düşməsin bizdən kim olduğumuzu soruşmax. Dalaşax, elə bizi aralaşdırmağın hayına qalsın. Bizi çölə çıxarmax isdiyəjəhlər ki, dalaşmıyax bir-birimizlə. Hansımız çölə çıxsax, içəridə qalan o çolpanı da, fətiri də götürüf çıxsın, qaçax gedəh.

Baxırdılar, gördülər arvad fətiri bişirif gətirif mitilin arasına qoydu. Qayda idi, mitilin arasına qoyurdular ki, isdi qalsın, o isdi hava fətirin içində çiylih qoymasın. Çolpanı da bişirif gətirdi qoydu yükaltının altına. Mıxça çalırdılar, ağac qoyurdular üsdünə, qarşısına pərdə çəkirdilər, yük yığırdılar. Mitili, fərməci, sandığı, kimin nəyi vardısa yığırdılar üsdünə, altı qalırdı boş. Şor-pendiri, yavannığı onun altına yığırdılar. Axşam düşür, arvad deyir:

– Həə, Həsənqulu dayınız gəldi.

Həsənqulu artırmaya çıxanda deyir:

– Arvad, deyəsən qonağın var.

Deyir:

– Yox, mənim qonağım döylü, sənin qonağındı.

Baxır, tanımır. Deyir:

– Aaz, bular kimdi?

Deyir:

– Dosdarının uşaxlarıdı.

Kişi gəlir girir, nə qədər baxır, tanımır bunnarı. Artıx qarannıx düşmüşdü. Kişi əl-ayağını yuyur, gəlir oturur. Bular da çörəhdən-zaddan yeyif, artıx yeməyə ehtiyac yoxdu. İndi bular yeməyi götürüf qaşmax isdiyillər. Kişi ayannan-bayannan söhbət eliyir,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

hərrənir söhbət gəlir soruşmağa ki, a bala, mən sizi tanımıram, hansı dosdarımın uşaxlarısız deyən kimi, Keçal kosanın sağ tərəfində oturmuşdu, sağ əliynən Kosanın başına bir qapaz vurur.

– Kopoğlu, mən, dədəmin dosdunun öyüdü gəlmişəm, sən niyə gəlmisən?

Kosa da deyir:

– Kopoğlu özünsən, mən də sənnən gəlmişəm.

Dartma yaxam cırıldı, tutaşıllar. Arvad da baxır, kişi də. Deyir:

– Ay arvad, bular kimdilər, bular hardan gəldi çıxdılar bu öyə? Qonum-qonşunun yanında bizi biyabır elijəhlər ki, sizin öyünüzə qonax gəlir, qonax öyünüzdə dalaşır. Belə biyabırçılıx olar?

İndi birini arvad tutur, birini də kişi. O ordan hücum eliyir – cavan adamlardı, bular yaşdı, acizdirlər buların əlində. Kosa yavaş-yavaş dala durur ki, qapıdan bunu itəliyif çölə çıxarsınnar. Çölə çıxan kimi Keçal qapının cəftəsinnən dartır ki, açsın, arvad qoymur. Kişi də çöldə tutuf Kosanı. Qəfildən arvad qapını açıf çıxır çölə. Qapını bərk tutur, buraxmır. Qalıf indi Keçal içəridə. Kosa çöldən deyir:

– Tez ol, kopoğlu, tez ol, çıx!

Yəni yığışdır çıx ey, çolpanı, fətiri göt, çıx. İndi Keçal yekə fətirdi, fətiri harasına qoyur, sığmır. İçəridən deyir ki, yekəbaş, başı heç hara sığmıyan kopoğlu. Yəni, fətir yekədi. Parolu deyir ki, hara qoyuram görükür da. İndi yadına düşmür qırıxlamax. Kosa çöldən deyir ki, para-pırtıx, qarnı yırtıx kopoğlu, tez ol, çıx. Yəni qırıxla qoynaa-qoltuğaa doldur ey, deyir. Yadına düşür ki, ə, bunu qırıxlamax. Kəsir bunu qırıx-qırıx eliyir, doldurur cibinə, qoynuna, qoltuğuna. Çolpanı götürür. Qapını necə çəkirsə arvad gəlir durur öyün ortasında. Çöldən tutmuşdu arvad, dəstəhdən. Çıxan kimi bu da kişinin sinəsinə bir yumrux, kişi bunu buraxır. Kosa qaçır, Keçal də onu qovalıyır. Kişi dallarıncan bir az gedir:

– A bala, a bala.

Görür getdilər, qayıdır gəlir, deyir:

– Ay arvad, bu nə bəla idi gəldi bizi tapdı?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– A kişi, nə bilim, çörəh bişirdiyim yerdə hər ikisi də gəldi, sənin adını çəhdilər, mənim adımı çəhdilər, uşaxların adını çəhdilər, dedim yəqin tanıyırsan.

Deyir:

– Aaz, hardan tanıyıram, yaxşı oldu getdilər. Qoy bizdən aralı getsinnər, qırsınnar orda bir-birini. Aaz, bəri gətir görüm.

– A kişi, nəyi gətirim, ey? Allah onnarın axırına çıxsın, yaxşı fətir bişirmişdim, çolpa soyutması eləmişəm, çıxıf getdilər, yemədilər.

– Aaz, cəhənnəmə yeməsinnər, gətir yeyəh.

Arvad əlini atır, fətir yoxdu, əlini atır qazana, çolpa yoxdu.

– A kişi, vallah, möcüzədi! Vermədim yeyələr, amma yoxdu, tapmıram.

Deyir:

– Aaz, səs eləmə, qoy bəla uzaxlaşsın, elə bu dava fətirnən çolpanın davası imiş.

Keçalnan Kosa fətirnən çolpanı götürüf bir qədər yol gedillər. Başqa bir şinniyə* çatanda buların gənə, deyir, çörəyi qutarmışdı.

Görüllər ölkənin padşahı yazıf yapışdırıf ki, mənə iki nökər lazımdı. Deyillər ki, gedəh bir-iki gün də nökərçilih eliyəh, özümüzü düzəldəh, sora yolumuza davam eliyəh. Görüllər ölkənin padşahı yazıf-yapışdırıf ki, mənə iki nökər lazımdı. Elanı oxuyullar, görüllər yazılıf ki, bir nəfər lazımdı bir inəyi otarajax, bir nəfər də təhcə padşaha çay verəjəh, ayda onnux qızıl alajax. Fikirrəşillər ki, bunnan asan iş olar? Bir inəhdi da, quyruğunnan tut qabağa qat, otdasın, axşam da gətir. Bu birisi də fikirrəşir ki, padşahdı da, apar çayını ver, otur yanında, içəndə gəl birini də apar. Bu, asan işdi.

Gəlillər, deyillər ki, biz nökər ola bilərik. Padşahın qulluxçuları var idi. Mala baxan ayrıdı, çay gətirən ayrıdı, imarətin içinə baxan ayrıdı. Şərtdəşillər, Keçal inəyə gedəsi olur, Kosa çay verəsi olur. Bijdih işdədir ki, inəh ayna-bayna gedə bilər, amma padşah nağarajax, oturuf orda, aparıf bir isdəkan çayını verəjəh.

---

* şinnik – kənd, oba



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Səhər xəzinədar Keçalı çağırır ki, inəyin qapısını açıram, apar otar. İnəyin ordan çıxdığını Keçal görmür, o cür iti sürətlə çıxır. Bu minvalla bütün günü padşahın o teritoriyasını, sahəsini bu inəh gəzir. Padşah inəyidi, yediyi xurma, kişmiş, otu neynir. Gəzir, bu da bunun dalınca bütün günü yüürür. Bu burda inəyi otarmaxda olsun, görəh Kosa nağarır.

Padşah oturduğu otağa qalxmax üçün Kosa qırx pilləkən çıxırdı. Bir isdəkan – Səlyan isdəkanında çay götürür qırx pilləkən çıxır, aparıf padşahın qabağına qoyanda bir qonax gəlir. Padşah deyir:

– Çay gətir.

Bir isdəkan da dolduruf gətirir, bütün günü qırx pilləkəni çıxıf-düşür, çıxıf-düşür, çörəh yeməyə də imkanı olmur. Keçal da bütün günü yüürür. İndi ikisinin işi bu fasondu. İndi axşam Keçal fikirrəşir ki, ə, sənə nə var, bir isdəkan çaydı da, qoy padşahın qabağına, özün də otur onun yanında. Bu da deyir ki, nə var, bir dənə inəhdi da, tut quyruğunnan, otar. Niyə getmədim mən? İndi işlərini dəyişməh isdiyillər. Kosa deyir:

– Keçal, işin nətərdi?

Deyir:

– Ə, nətər olajax, apardım inəyi sahəyə, tarlaya buraxdım, inəh axşamacan quyruğunu atıf belinə, yeyif yatıf, mən də uzanmışam. Pis elədim?

Dedi:

– Niyə?

Dedi:

– Ə, gərəh bir taburetka da götürərdim, kitab da götürərdim, oxuyardım, bekar orda qəribsəmişəm. Sənin işin nətərdi?

Deyir:

– Elə mənim işim də rahatdı. Bu gün axşamatan elə başımı qoyuf yatmışam. Nə var, padşahdı, qabağına çay qoyuf yıxılıf yatmışam da – deyəndə Keçal deyir:

– Kosa, gəlsənə işimizi dəyişəh.

Deyir:

– Dəyişəh deyirsən, dəyişəh da.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dəyişillər. Keçalın indi bijdiyinə bax ey, Kosaya bir taburetka, bir kitab şəlliyif. Kosa getdi inəyə. Keçal da durub gəlir. Axşamatan qırx pilləkən aşağı-yuxarı çay daşıyır. İkisi bir gəlmir ey adamın. Birinin qabağına çay qoyur, elə başını qaldıranda biri gəlir. İndi axşam düşüf, hər ikisi işdən halıdır. Görüllər ki, çətin işdi, işdəməh mümkün döylü. Asand iş olsaydı bu qullux yiyəsiz qalarmı? İndi deyir ki, gəl qaçax – Kosa Keçala deyir. Deyir:

– Bunun bircə yolu var, şərt kəsmişik axı, bizi öldürəllər, qaçax.

İndi qaçmağa başdıyanda deyir ki, ə, bilirsən nə var? Deyir:

– Yox!

Deyir:

– Səni, o inəh maa dağ çəkif, – Kosa deyir.

Kosa fikirrəşir ki, Keçalı inəyin yanında qoysun getsin, səhər bunu öldürsün padşah. Deyir:

– Nədi?

Deyir ki, inəyi kəsəh, ətinnən götürəh yolda yeməyə. Nə yeyəjəyih yolda? Pəyənin üsdündə baja var idi. Kosa Keçala deyir ki, sən gir. Uzun bir kəndir götürüflər. Kosa deyir, sən gir, Keçal deyir, sən gir. O, buna deyir, bu, ona deyir. Keçalı endirəsi olur. Keçal deyir ki, nəysə əməl var burda, bunu qoyuf gedəjəh. Kəndiri bağlıyır ortasına, bunu sallıyır aşağı. Keçal orda inəyi yıxır, qanrıf kəsir, dərisini soyur tələsik. Buddarını, bardon* var idi, bardona yığır. Deyir ki, kəsdin?

Deyir:

– Hə.

Deyir:

– Ətinnən qoy çuala, çəkim çölə, qıçalıyım, sora səni çəkim, gedəh.

İsdiyir əti götürüf gedə, bu orda qala. İndi bu nağarır? Budun birini də kəsir, ətini yığır çualın içinə, budu çöörür üsdünə, deyir:

– Hə, di çəh.

---

* bardon – səbət



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Oldu.

Hıqhahıq Kosa bunu çəkir, içində də Keçal, üsdündə də ət, çıxardır. Çıxardan kimi kəndiri açıf tulluyur əynə, çualın ağzını belə eşif burmacdıyır ki, əlinə yaxşı yatsın. Atır dalına, deyir:

– Keçal, di qal orda.

İsdiyir ki, hava işıxlanınca bu ölkədən keşsin o biri ölkəyə ki, bunu tutmasınnar. O qədər gedir ki, gejəynən, hava işıxlananda, gün təzə çıxmışdı yerinə, keçir o biri padşahın torpağına. Keçəndə çuvalı qoyur yerə, alnının tərini silir, deyir ki, ay yazıx Keçal, bu gün sənin toyundu. Əti Keçal üsdünnən aşırır, deyir:

– Nə toydu, ə, toy eliyillər maa.

Baxıf görür ki, Keçal da gəlif.

Keçalnan Kosa həmişə söhbətlərində bir-birinə heylə dav gəlillər*. Söhbət burda qutarır. Ordan aynası hara gedir, nələr olur, məlumatım yoxdu.

## 49. ŞƏRİKLİ KÖMBƏ

Kişi, deyir, ölürdü, aman-zaman bir oğlu var idi. Oğlunu çağırır, vəsiyət eliyir. Deyir:

– Oğul, dəyirmana gedəndə heş bir kosanın dəyirmanında dən üyütmə.

Kişi bir gün ömrünü tapşırır gedir.

Oğlu bir gün dəyirmana gedəsi olur. Gedir dəyirmana, görür dört kosadı, yəni dört tükü var. Deyir:

– Hə, atam demişdi axı kosanın dəyirmanında dən üyütmə, gedim o biri dəyirmanda üyüdüm.

Gəlir ikinci dəyirmana, görür üç kosadı, üç tükü var. Gəlir o biri dəyirmana, görür iki kosadı, o birinə gəlir, görür bir kosadı. Deyir:

– Olmadı.

Keçir axırıncıya, görür zividi** kosadı. Deyir:

---

* dav gəlillər – üstün gəlirlər
** zividi – tamam, başdan ayağa



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Gənə nisbətən gedim o dört kosanın dəyirmanında üyüdüm da, daa dəyirman yoxdu.

Gəlir dörd kosanın dəyirmanına dəni üyüdür. Dağarı var idi, dağarda aparmışdı. Dağar mal dərisinnən hazırlanmış qab idi. O vaxdar meşoğ olmuyuf, mal dərisinnən tikif içində aparıllarmış. Bu da dağarda aparmışdı. Meşoğu əvəz eliyirdi. Dağar da yarım pud – səkgiz kilo tutardı. İndi dən orda üyünür, bular oturuflar, ortada ojax yanırdı. Su dəyirmannarının ortasında ojax olardı. İndi daşın birinin üsdündə Keçal oturuf, birində dəyirmançı Kosa oturuf. Kosa deyir:

– Keçal, gəl bir dənə tapmaca deyəh, kim tapmasa...

Kömbə bişirillər. Görürsən, kömbə yadıma düşmür, soradan yadıma düşür. Qayıtdım dala. İndi axşam düşüf, Kosa başdıyır ki, Keçal, gəlsənə kömbə bişirəh? Ojağın közünü qırağa sivirif kömbə yaparmışdar. Sora külnən üsdünü örtüf köz yığallarmış, kömbə bişərmiş. Deyir:

– Nolar.

Deyir:

– Onda unu sənnən, urvası mənnən – Kosa deyir Keçala. Deyir ki, bir dağar unum var, onnan da xamır yoğurajam. Urvası mənnən, unu sənnən. Deyir:

– Nolar, onda o dəyirmanın dalınnan iki ovuc un gətir.

Keçal gətirif iki ovuc un qoyur. İndi kosa yoğurur, suyunu o qədər tökür ki, xamır duru olur, un yığışmır bir yerə. Deyir:

– Yaxşı, indi urva lazımdı. Keçal, urva gətir.

Keçal gedir öz ununnan urva gətirir. Bu urva gətirdihcə Kosa sudan əlavə edir, olur duru. Nəhayət, un qurtarır, axırda dağarı gətirir. Dağarın gerisinnən belə tıkqıldadır, təmiz içini çırpır ki, daha mənim unum qalmadı.

Deyir:

– Gənə durudu, onda ordan sən maa iki qısma un gətir, sən maa iki abbası boşdu qalarsan.

Hələ xamır yoğurullar ey, borc başdadı. Keçal ordan iki qısma un gətirir, fətiri bişirillər. Fətiri bişirir, deyir, söykəyillər kötüklərə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ojağı yekə kötüklərdən qalıyırdılar. Qıpqırmızı qızarıf, deyir, fətir. İndi heş birinin ixdiyarı yoxdu fətirdən kəsə yeyə. Kosa deyir:

– Keçal, püşk atax, görəh fətir kimə düşür.

Deyir:

– Atax.

Deyir:

– Keçal, de.

Deyir:

– Yox, sən de.

Kosa deyir indi. Deyir ki, getmişdim bağa. Bağda uşaxları mən qoydum, qayıtdım gəldim arana, həyətin meyvəsini yığmağa. Qozu çırpdım. Qozu çırpannan sora qayıtdım belə baxdım, gördüm qozun təpəsində bir qara qoz var. Yağmışdı, deyir, yer palçıx idi. Palçıx kəsəyini götürüf atdım, getdi yapışdı qozun təpəsinə. Orda böyüh bir sahə əmələ gəldi, mən çıxdım oranı şumladım, taxıl səpdim. Nəhayət, yaxşı taxıl bitdi. Çıxdım biçməyə. Elə çini götürüf biçməyə başdıyanda bir tülkü çıxdı. Çini atdım tülküyə, çin ilişdi tülkünün quyruğuna. Tülkü qaşdı, çin bişdi, mən yığdım. Tülkü qaşdı, çin bişdi, mən yığdım. Bax, Keçal, gətirdiyin un var ey, bax, o un həmin taxıldandı. İndi sən de.

Deyir:

– Mən də getdim bosdana. Bosdanda gəzirdim. Gördüm böyüh bir qarpız var. Əlimdə qəmə var, uzun bıçax. Bıçağı uzatdım ki, görüm yetişif, yoxsa yox. Bıçax getdi qarpıza. Əyildim bıçağı çıxartmağa, başım da girdi.

Deyir ki, ona nə var, bağlamasını açır. Deyir ki, gəlirsən öyə, görürsən qapı bağlıdı, haçarı götürüf salırsan qıfıl yerinə, açırsan, qapını itəliyən kimi qapı gedir, sən də girirsən içəri. Bu aşdı, amma Kosankı bağlı qaldı. Fətir də qaldı Kosaya.

Keçal durur sallana-sallana gəlir öyə. Anası gözdüyürdü ki, un gətirəjəh, çörəh bişirəjəh da. Öydə çörəh yox idi. Arvad görür ki, yazıx belə söylənə-söylənə dağar çiynində boş gəlir evə.

– Ay oğul, unun hanı?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Köpəh qızı, iki abbası hələ boşdu qalmışam.

Sabahları tezdənnən kosa qapını kəsir.

– A bajı, keçal hanı?

Deyir:

– Öydədi.

– Deynən çıxsın.

Deyir ki, səhər gəl. Səhər-səhər, on gün-on gün uzadır, iki abbası tapmır buna verə. Nəhayət, bir gün deyir:

– Ana.

Deyir:

– Hə.

Deyir:

– Bu kopoğlu mənnən əl çəhmijəh, bəlkə, belə əl çəkə. Mən özümü vurajam ölülüyə, gələndə ağla, üzünü-gözünü, saçını yolginən ki, keçal ölüfdü. Qoy kopoğlu çıxsın getsin.

Bu uzanır, anası bunun üzünü ölü kimi örtür, guya ölüfdü. Kosa gəlir Keçalı çağırır. Deyir:

– Ay bala, başın sağ olsun, Keçal öldü beyjə. Yer getginən daa, Keçal ölüf.

– Hara gedirəm, ay ana! Bizim şərtimiz var.

Deyir:

– Nədi?

Deyir:

– Şərtimiz belədi ki, o öləndə mən onu yuyum, aparım basdırım, mən öləndə o yusun, aparsın basdırsın. İndi o ölüf, mən onu yuyuf aparıf basdırmalıyam. Hara gedirəm?

Kosa böyüh qazan qoyur, qazanı suynan doldurur, ojax qalıyır. Ojağın üsdünə qazanı qoyur. Su, deyir, indi pakqapax qaynıyır. Keçal atdan-atdan baxır, görür ki, su qaynıyır. Anası gəlir, Kosanın eşitməyəcəyi səsnən deyir ki, a bala, dur, Kosa səni bişirəjəh.

Deyir:

– Ay ana, hardan alım iki abbasını verim, qoy nağarır qayırsın, dözərəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kosa bunu lüt soyundurur, aparır yuqat taxtının üsdünə. Ayaxdan başdıyır şakqaşak qaynayan suyu düz başınacan tökür. Yuyur bunu, qəbirsdannıxda kümbəz varmış, aparır bunu qoyur kümbəzin içinə. Başdıyır buna qaroul çəhməyə. İnanmır da ölüf. Qaroul çəkəndə qırx nəfər qaçax gəlir. Hansı padşahınsa xəzinəsini talan eləmişdilər, kalan qızıl gətirmişdilər. Dolullar kümbəzə. Kosa da qıraxdan pusurdu, Keçalı da uzadıf kümbəzin ortasına. Bular gətirdihləri qızılı töküllər, belə bir əmbiz* əmələ gəlir. Bir dənə də əyri qılınc gətirmişdilər, qılıncı da qoyullar böyrünə. Qaçaxların başçısı başdıyır bölməyə. Bölür. Deyir, bu sənin, o sənin. Qırx yerə bölür. Birinə, deyir, bir qızıl çatışmır. Çatışmayanda bu qılıncı götürür əlinə, deyir ki, bu qılıncı verəjəm o bir qızılın əvəzinə, bu şərtnən ki, kim bu meyidin ortasınnan vurub kəssə, qılınc onunkudu. Keçal bilirdi ki, Kosa bunu pusur. Elə qılıncı qaldırıf endirməh isdiyəndə Keçal qəfildən çığırır:

– Kosa, qapını kəs.

Kosa qapını kəsdirəndə bu qaçaxlar gətdihləri sursatı da qoyuf qaçıllar. Qaçıf gedillər. Kosa girir içəri, indi ikisi bölür. Qaçaxların biri çox özünnən deyən imiş. Deyir:

– Qayıdım görüm bu nə hak-hesabdı.

Gəlir indi pusa-pusa. Görür iki nəfərdi, qızılı bölüllər. Qutarannan sora Kosa deyir:

– Keçal.

Deyir:

– Hə.

Deyir:

– Keçal, iki abbasını ver.

Qaçağın biri əyilif qapıdan belə baxırdı ki, görsün bular nə cür adamdı, keçalın gözü bunu almışdı, qəfildən əlini çalır, bunun papağını başınnan alır, tulluyur Kosaya. Deyir:

– Ala, bu da sənin iki abbasın.

---

* ənbiz – qalaq, topa



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu adam qaça-qaça gəlif o birilərinin yanına, deyir ki, ə, qəbirsdannıx əhli nətər dirilifsə, birinə iki abbası çatmamışdı, papağımı da aldılar verdilər ona, qaçın.

Sabah açılır, hər ikisi duruf qızıllarını, varlarını yığışdırıf gəlillər evlərinə.

## 50. YEDDİ KORUN NAĞILI

Yeddi kor yaşıyır bir yerdə, boş səhrada bir kümbəz vardı, o kümbəzdə axşamlıyırdılar. Gündüz olanda hər kor hərəsi bir kəndə gedərdi – dilənməh üçün. Korun biri gəlir kəndə, oturmuşdu yolun qırağında. Ömrü boyu dilәndiyi bütün pulları, əynində sırıxlı var idi, köhnə sırıxlı idi, sırıxlının pambığını çıxardıf yerinə pulu yığmışdı. Sırıxlı elə heylə pul idi. Hava isdi olduğu üçün yaxasını açmışdı. Bir kasıf olur, isdiyir ki, sırıxlını bunun əyninnən çıxarsın. Örgənif ki, sırıxlının içərisində pambıx yerinə puldu. Gedir bir küpə tapır, dopu deyirdilər o vaxdı. Xəsdəlih-zad dəyəndə qoyardılar o dopunun iki-üçünü, onunla da qutarıf gedərdi. Bu dopudan birini tapıf bu cır arını yığır içinə, ağzını sələliyir. Sələ mal-qoyun gönünnən olan şeydi. Sələynən bağlayır, gətirir. Kora deyir:

– A qardaş, a qardaş.

Ayannan gələndə ayağını yerə bərk vura-vura gəlir ki, guya qaçır bu. Gəlir deyir ki, məni hökumət hərriyir, tutajaxlar məni. Bu qazonnu şeydi, bunu burda saxla, bir azdan sora gəlif aparajam. Amanın günüdü, dəymə ha, gözdə, oğurradarsan. Tap-tap ayağını yerə vura-vura bir az aralanır, bir on metr, oturuf gözdüyür. Kor görür ki, tapbıltı da kəsildi, xışıltı da, bu dopunu verən adam getdi da, uzaxlaşdı yəqin. Tamah buna güc eliyir, deyir:

– Ağzını açım, görüm yeməli şeydisə barmağımı batırım qoyum ağzıma da.

Dopuda nə olar? Ya bal olar, ya da yağ. Bu baxırdı, görür ki, kor yavaş-yavaş əlini aparır dopuya tərəf, ağzını açır, sələni qaldırıf əlini içinə salanda arı qalxır sırıxlının içinnən darışır bunun bədəninə. Bu cır arı bunun bədəninə necə daraşırsa bu birinci sırıxlını



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çıxarır. Orda sırıxlı yada düşürdü? Fırradır özünnən aralı. Elə o saat sırıxlını götürür kasıb. Bu bütün paltarını soyunuf tökür yerə, bunun çığırtısına küçədən keçən bütün camaat tökülür. Hamı bunun halına yanır, başının tükünün arasına qədər arı dolur. Birtəəri bunu arıdan xilas eliyillər. İndi bu başdıyıf paltarını yığmağa, çırpa-çırpa yığır. Maykasını tapır, köynəyini tapır geyinir, rubaşkasını tapır geyinir, nəhayət, keçir sırıxlıya. Sırıxlıya keçəndə sırıxlını tapmır. Gəzir, gəzir, ötənə deyir:

– Mən paltarımın birini tapmamışam, sən Allah, görün buralarda mənim paltarımın biri yoxdu ki?

Paltar nə gəzir, götdü getdi. Aparır qoyur öyə, gəlir. İndi əl çəhmir bunnan. Bu sağ əl çəhmir bu kordan ki, bunun axırına çıxsın.

Axşam düşür, kor durur söyə-söyə, qarğış eliyə-eliyə:

– Sənin küpə verən öyün yıxılsın, yurdun tari-mar olsun, bu nə idi, pulum getdi, canım getdi, malım getdi – danışa-danışa gəlir, çəliyini yerə döyə-döyə. Gəlir girir kümbəzə. Ajıxlanıf, heş nə qazanmıyıf. Hamıdan qabax gəlif, bu da bunun ardınca gəlif oturuf bunun böyründə. Elə bu söyür burda. Bir az aradan keşmişdi, bu bilmirdi burda neçə kor var. Bir az aradan keşmişdi, görür ki, bir kor da gəldi. Bir az aradan keşdi bir kor da gəldi, yeddi kor oldu, bunnan səkgiz nəfərdilər oturuflar. İndi başdıyıllar söhbətə. Hərə öz dilənif gətirdiyinnən yeyir, taam eliyir. Bular bir yerdə qəşəh surfa açıllar, qəşəh yeyillər, yığışıllar. Bu başçıları deyir ki, bir söhbət eliyin.

– Nə söhbət?

– Hərə öz gördüyünnən, bu gün nə təsadüf eliyif onnan söhbət eliyin.

İndi birinci bu sırıxlı itirən kor başdıyır:

– Ə, nə söhbət elijəm, öyü yıxılsın namərdin.

– Noluf, nədi?

Deyir ki, əşi, ömrüm boyu diləndiyimi sizdən xəbərsiz, sizə deməmişdim, sırıxlının pambığını çıxardıf yığmışdım pambıx yerinə. Buyün bir namərd oğlu namərd gəldi, bir dopu gətirdi, dedi qazonnu şeydi, bunu saxla. Gedənnən sora tamah maa güj elədi, dedim görüm baldı, yağdı, nədi, barmağımı batırım qoyum ağzıma. Ağzını açan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kimi arı məni süpürüf aldı. Paltarımı soyunuf tökmüşəm yerə, bir əni-müsibətnən arını özümdən uzaxlaşdırmışam. Yolnan ötən-keçən də köməh eliyif, paltarın hamısını tapıf geyinmişəm. Sırıxlını tapmadım deyəndə başçı kor deyir ki, nağarmısan?

Deyir:

– Sırıxlının pambığını çıxardıf yığmışdım arasına.

Deyir:

– Sırıxlının pambığını çıxardıf niyə arasına yığırdın?

Deyir:

– Neyniyim ə, bə?

Deyir:

– Ə, torba tikif belə qoltuğuzun altına qoyuf içinə yığammırsız – deyəndə kor deyir:

– Görüm ə, nətər eləmisən?

Kor əlini gətirincə sağ əlini uzadıf pulu götürür torbadan. O biri deyir:

– Ə, yox, heylə niyə eliyirsiz? Papağızın qırağını qatdıyın, içinə yığın.

O biri deyir:

– Baxım görüm ə, nətər yığmısan?

Sağ onnan qabax əlini uzadır. Sağ bu minvalnan buların hamısının pullarını alır. Biri qurtdanır, görür pulu yoxdu, bilir ki, Həsənqulu idi da "görüm ə" deyən. Deyir:

– Ə, pulu bəri ver.

Deyir:

– Pul nədi, sən öl, almamışam.

O birisi baxıf görür bunun da pulu yoxdu.

– Ə, mənim də pulumu ver.

O bunu vurur, bu onu vurur, başdıyıllar davaya burda. Bu sağ da görür bunnarı. Qırıllar bir-birini. Başçı deyir:

– Dayanın ə, dayanın.

– Nolub?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Dayanın ə, səbriniz, qərarınız olsun. Bizim içimizdə, sən öl, sağ adam var.

Yüürür qapının ağzını kəsir. Deyir ki, tutajağam bu saatdarı. Deyir ki, nətər tutajağıx? Deyir ki, mən paçamın birini buyza qoyajam, birini də buyza, sizsə gəlin bir-bir mənim paçamın arasınnan keçin çölə. Sayax, yeddi adamıx da, səkgizinci sağdı, sağı tutajağıx. Elə birinci sağ keçir. Sayır bir-bir, korun biri qalır dala. Tutullar gupuyullar, döyhadöy olur.

– Ə, dədəm, nənəm sizə qurban, mən filankəsəm, mən də koram, məni öldürmüyün.

Nəfəsini kəsillər bunun. Biri deyir ki, ə, sağ birinci çıxıb da, kişini öldürmüyün. Sağı tuta bilmillər.

Nəysə, sağ indi öyə gəlir, pulları da yığır gətirir. Kəndin böyründə zibillih var idi, zibillihdən keçəndə görür ki, köhnə meşox var. Meşoğu götürür, fikirrəşir ki, gedirəm-gedirəm, bir az da təzəh yığım aparım öyə, arvad-uşax ojax qalasın. Deyir, bu torbanı təzəhnən dolduruf dalına atıf gəlirdi. Qarannıx düşür, gələ bilmir. Yolun qırağında meşoğu qoyuf başının altına uzanmışdı, görür köç gəlir. Köç burdan keçəndə görür, səni, burda bir adam uzanıf, yasdığını da qoyuf başının altına. Fikirrəşillər ki, bura yaxşı yerdi, biz də burda axşamlıyax, səhər köçüf gedərih. Bunun böyründə düşməh isdiyəndə deyir:

– Bajıoğlu, bajıoğlu, mənimki qazonnu maldı. Malınızı mənimkinnən kənar eliyin. Mənə yaxın gəlmiyin, aralı durun.

İçərilərində bir qoçax varmış, ürəyində deyir onun anasını ağladıf beyjə onun qazonnu malını aparajam ey. Deyir:

– Kişiyə yaxın getməyin ə, aralıda tökülün.

Aralıda tökülüllər, bularınkı da hamısı ləl-cəvahiratdı. Gejədən bir az keçəndə bu başını qoyub meşoğun üsdünə, gözdüyür. Bilirdi ki, nəsə olajax. Görür ki, orda qoçağın biri qızıl meşoğunu sürüyə-sürüyə gətirir buna tərəf. Bu özünü yuxuluğa qoyur, qımıldanmır. Başını salır meşoğun üsdünnən yerə. Çəkir meşoğu, görür yüngüldü, deyir:

– Yəqin çəkidə yüngül, qiymətdə bahalı şey olar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qızıl meşoğunu qoyur bunun başının altına. Aparır qoyur təzəyi ora, meşoxların içinə. Yuxuya gedən kimi bu durur meşoğu götürür, tərpənir öyə. Heylə varranır, başdıyır yaşamağa. Kasıblığın daşını atır.

## 51. DÖYÜLƏN AXMAQ

Deyir, bir gün arvadın dosdu, aşnası var idi. Kişi bazardan gəlir, qazan alır gətirir evə. Deyir:

– A kişi, qazan aldın gətirdin?

Deyir:

– Aldım, gətirdim.

Baxır, deyir:

– Yaxşı qazandı, amma bir şeyi örgəndin?

Deyir:

– Nəyi?

Deyir:

– Qazan satannan örgəndinmi mən bunun içinə nə qədər duz tökməliyəm?

Kişi məhətdəl qalır. Deyir:

– Yox, arvad, yadıma düşmüyüf.

– Onda böyüh səyfə yol vermisən, get örgən, gəl.

Gəlir qazan satanın yanına, misgərin. Keşmişdə qazanı misgərlər düzəldirdi. Misgər görür ki, qazan satdığı kişi gəlif.

– A kişi, nə lazımdı?

Deyir:

– Başaa dönüm, arvad deyir ki, qazana nə qədər duz töküm?

Misgər başa düşür ki, arvad bunu evdən uzaxlaşdırıf. Belə baxır, deyir ki, kişi, bir belə (söyləyici bir ovcunu göstərir – top.), bir də bir belə (söyləyici iki ovcunu göstərir – top.). Yəni yarısınnan bişirəndə bir qısma, ağzınnan bişirəndə iki qısma. Bu da mənim kimi yaddaşdan zəyif imiş, yaddan çıxmasın deyə, bir belə, bir də bir belə deyə-deyə gəlir. Düzü-biyabannan gəlirdi, görür ki, bir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

cütcü yer şumluyur, toxum səpir. Bunun böyrünnən keçəndə salam əvəzinə deyir:

– Bir bir belə, bir də bir belə – eliyə-eliyə yadınnan çıxmasın deyə gəlir. Cütcü vedrəni qoyur yerə, – o vaxt səbət oluf, heç vedrə də olmuyuf, cəvəran deyirdilər, vedrə ölçüsündə hörürdülər çubuxdan – qoyur yerə, qarğa qovmax üçün ağac götürürdülər, ağacı götürür, tez gəlir:

– Kopoğlu, nə bir belə, bir belə deyirsən? Niyə qarğış eliyirsən?

Deyir:

– Başaa dönüm, bəs nə deyim?

Deyir:

– Belə şey görəndə denən ki, Allah bunnan bol eləsin, Allah buna bərəkət versin, Allah bunnan çox eləsin.

İndi bu gəlir.

– Allah bunnan çox eləsin, Allah bunnan bol eləsin – deyə-deyə gəlir yolnan. Görür bir yerdə vahsey-şahsey, bir kəntdə vur çatdasın qopufdu. Gəlir deyir ki, Allah bunnan çox eləsin, Allah bunnan bol eləsin, həmişə bu gündə, filan. Bu səfər tutub burda möhkəm döyüllər. Deyir:

– Başınıza dönum, öldürmüyün məni, nə deyim, nə deyim?

Deyillər:

– Belə şey görəndə, deynən axır görəcəyiniz olsun, belə şeylər görmüyəsiniz, Allah sizə bir də belə şeylər gösdərməsin.

Gəlir, yolda görür bir kəntdə vur-çatdasındı. Girir mağara:

– Axır görəcəyiniz olsun, Allah sizə bu günü gösdərməsin.

Bu səfər də olan-qalan sümüyünü burda əzişdirillər. Deyir:

– Ə, məni öldürmüyün, bəs mən nağarım, neyniyim?

Deyillər:

– Belə şey görəndə qol götür oyna, papağı tulla göyə.

Gəlir, indi görür bir kişi qabağında öküz gəlir. Papağını belə tulluyur, paltarını heylə tulluyur, öküz ürkür, yükü tulluyur. Öküz yiyəsi tutur bunu, qalanını da bu əzişdirir.

– Ə, məni öldürmə, bəs nağarım, nə deyim?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Belə şey görəndə əlinə ot al, trü-trü elə.

Deyir, bu gəlir görür ki, bir kişi dalında ot şələsi gəlir. Otu yolur, uzadır, deyir:

– Trü-trü.

Kişi şələni qoyur yerə, deyir:

– Adamsan, adam oğlusan, filan-beşməkan.

– Ayə, məni öldürmə, bəs nağarım?

Deyir:

– Belə şey görəndə keç arxasınnan qaldır, qoyma düşməyə.

İndi gəlir, deyir, keşmişdə belə çayın kənarında arvatdar paltar yuyurdular. Gəlir arvadın birini dalınnan qaldırır, arvad başı üsdə düşür suya. Arvatdar yığışır bunu döyüllər. Deyir, möhkəm döyüllər. Deyir:

– Aaz, məni öldürmüyün, bəs mən nağarım, nə deyim?

Deyillər ki, belə şey görəndə kənardan qaç, gendən qaç, yaxın gəlmə.

Bir kəntdə gecə ev yarmışdılar, oğruları gəzirdilər. Komanı görəndə götürülür. Deyillər:

– Odey, oğru qaşdı.

Yüyürüllər, tutuf gətirillər, basıllar dama. Elə onnan bu da canını qutarır, arvad da.

## 52. TOYUQ OĞRUSU

Biri toyux oğrusu idi, toyux tuturdu. Daa qojalmışdı. Bir gün qohum-əqraba yığışır ki, bu, pis adətdi, bunu tərgit, daa yaraşmır səə, qocalmısan filan, aylə adamısan, bunu tərgit, çıxsın getsin. Toyux tutmax sənin şəxsiyətə də yaraşmır.

Deyir:

– Yaxşı, bu günnən də tərgitdim.

Gəlir girir damın altına. Bir il keçir, o adamların bircəciyi qapını açıf bir manat uzatmır ki, apar get çörəh al. Qalır ehtiyac içində. Ayrı bir sənəti olmur, sənətini də tərgidif. Nəhayət, məjbur



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olur bir axşam çıxır səfərə. Bu toyuxları da indi hamı yığır hinə, amma toyux əslində ağajda yatır, lap qışda. Əsas nar ağajında yatallar. Nar ağajının şahı qalın olur, yıxılmır. Bir də incil ağajıdı, çünki budaxlar bir-birinə yaxındı.

Deyir, nar ağajında toyuxlar yatışmışdı. Gündüzdən gedir buranı bəlirliyir* ki, toyuxlar burda yatır. Həmişə narı bizdə çəpərə yaxın əkərdih. Çəpəri də qaratikannan çəkərdih. Belə şəldən-şüldən, böyürtkənnən kimdə olsa, deyəllər ki, dul arvatdar belə çəkərdilər. Qaratikannan çəkilmiş çəpər, yaxşı mıxçalanmış, cavan qaratikan, ona yaxın getməh olmur, tikannarı iri olur. Hə... Nar ağacı, toyuxlar da yatıf üsdündə. Bir ildi getmir, sənətini tərgidif, yadırğıyıf. İndi bilmir hardan, nə cür tutmax lazımdı. Söz verif ki, daa oğurruğa getmijəm, indi gərəh elə tuta ki, bilinməsin. Əlini atır toyuğun birinə, "qığıl" eliyif uçur, qalxır yuxarı. O birsi, bu birsi, toyuxları tuta bilmir, hamısı dağılır. Biri düşür yerə, girir kola. Kola girəndə görür bunu. İndi toyux tutannar bilillər, toyuğu tutduxca özunü verir çəpərin dərinniyinə. Deyir, köynəyinin qolunu çiyninətən sivirib polnu əlini salıb kola. Burda, deyir, it hürür. Barmağının uju toyuğun ayağına dəyir. Toyuğun da getməyə yeri yoxdu, daa dirənif. İt hürür, toyux yiyəsi ayılır yuxudan. Ev iki mərtəbəli idi. Tüfəngi, deyir, asılı idi abuşkanın sütununnan. Toyux yiyəsi tüfəngi götürüf yavaş-yavaş enir. Kişi gəlir. Bunu görəndə görür yox, tülkü-zad döylü, adamdı. Tüfəngi asır ağajdan, dəmir yavanı götürür, qoyur çiyninə, gəlir. Bu da başı aşağı çalışır ki, toyuğu tutsun. Durur bunun arxasında əlində də yava ki, duranda yapışdırsın bunun təpəsinə da. Nəhayət, toyuğun bir ayağını çətinlihlə tutur, çıxarır. Belə çönəndə görür ki, toyux yiyəsi dəmir yava da çiynində. Deyir:

– Nağarırsan?

Deyir:

– A başa dönüm, görürsən də nağarıram, niyə soruşursan? Bu zülümnən mən toyux tuturam, bu ağzı göyçəhlər də adımı qoyullar toyux oğrusu.

---

* bəlirliyir – işarələyir, nişanlayır



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 53. NAŞI OĞRU

Deyir, biri heç oğurrux bilmirmiş. İsdəmiyənin biri götürüf milisə şikayət verir ki, bu şəxs oğurrux eliyir. İşdəmir, eləmir, heç hara getmir, hamıdan kefi kök yaşıyır. Milis bunu çağırır, deyir:

– Səni tutajam.

Deyir:

– Niyə?

Deyir:

– Bəs sən nəynən yaşıyırsan? Oğurrux eliyirsən. Deyilənə görə sən oğurruxnan yaşıyırsan.

Deyir:

– Mən oğurrux bajarmıram, Allah yetirənnən dolanıram birtəəri, filan.

Deyir:

– Yox, sən oğurrux eliyirsən. Mütləq, bir heyvan gətirəjəhsən. Bir heyvan deyəndə quzu-muzu yox ey, erkəh. Bir erkəh gətirif verəjəhsən, canı qutarajaxsan, yoxsa tutularsan.

Deyir:

– Vallah, mən bajarmıram axı.

Deyir:

– Yox, gedəjəhsən, yalan deyirsən, sən oğrusan.

Naəlac qalır.

– Mənim heyvanım-zadım yoxdu.

– Yoxdu, get oğurra, gətir.

Bu, məjbur qalır gəlir, qonşusuna deer ki, örgənmişəm filan yerdə iki dənə saz erkəh var. Gedəh onları çıxardax, bu köpəh oğlannarı mənnən əl çəhmir. Gedəh çıxardax, biri olsun sənin, biri də mənim. Mən tək gedə bilmirəm axı, bilmirəm yolunu.

İndi, deyir, bu gedir. Yoldaşına deyir:

– Külfədən gir, çıxart ver mana, mən də çıxardım, onnan sora əlinnən tutuf səni də çəkif çıxardım, götürəh gedəh.

O da heç oğurrux bajaran adam olmuyuf ey, məjbur oluf gedif. Tamah aparıf bunu da. İki mərtəbə ev idi, işıx yanırdı. Görür qoşalü-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

lə də ordan asılıf, evin yiyəsi də qəşəh taxtın üsdündə yatıf. Yaxınnaşıllar, qoyun pəyədədi, yeraltı oluf pəyə də. Pəyənin külfəsinnən dosdu deyir ki, sən gir, mən sənin əlinnən tutum endirim aşağı. Bu deyir, yox, sən gir. Nəhayət, kişi girəsi olur. Pəyə də çox dərin imiş. Bunun əlinnən tutur, dirsəyi dirənir torpağa, bunun ayağı genə çatmır yerə. Buraxır, g..ü üsdə dəyir yerə. Baxır görür ki, pəyədə bir at da var. Qoyunnar da burdadı. İndi qoyunun birini qalxızır, külfədən verir, çöldəki çəkir. Çəkir çıxardır çölə, bu səfər o birini qalxızır. O birini qalxızanda bu biri qoyunu – işdətmiyif da bu yolu – buraxır. Bunu tutuf çəkəndə görür ki, o biri çıxıf ikinci mərtəbədə tarapbatarap məliyə-məliyə belə qaçır, belə qaçır. Deməh, bu qoyunu çəkif çıxarır, bunu da buraxır. Bu da məliyə-məliyə o biri qoyun tərəfə gedir. Çöldəki baxıf görür ki, kişi qalxdı, qalxan kimi də tüfəngi götürdü. O saat çöldəki qaçır. Bu qaldı pəyədə. Hopbanır düşür, hara çıxajax?

İndi qoyunnar çıxıfdı. Kişi gəlir. Pəyənin qapısında qıfıl varmış. Tüfəng əlində bir-iki güllə atır havaya. Gəlir görür ki, qıfıl yerindədi. Deməh, oğru içəridədi, külfədən girif. Oğru qoyunnarı külfədən çıxarıf. İndi qıfılı açır. İçəridəki nağarsın? Qaçır girir atın qarnının altına, görür yox, görünəjəh, işıxlar da yanır. Qoyunnar da gəlif durur pəyənin ağzında. Qoyun yiyəsi də qıfılı açır. Bu nağarsın? Təxminən otuz-qırx santı pəyənin girəcəyində qəlbi yer varmış. Uzanır burda ki, görməsin da, üsdünnən addıyıf keşsin. Qorxur, işdətməmiş adam. Bu adam da tələm-tələsih, işə düşmüş adam, qıfılı açır, itəliyir, qapı açılanda bu qalxır cumur buna. Ham-ham eliyir it kimi, başını salır iki qıçın altınnan ötürür pəyənin içinə. Tulluyur pəyənin içinə, qapını çəkif rəzəliyir, çıxır qaçır. Qoyunnar düşür bunun dalına. İndi bu qaçır, qoyunnar da bunun dalınca. Bu fikirrəşir ki, hara gedim? İndi bu içəridən qoşalüllə atır, gurp, gurp, hay-küy salır, qapı rəzəlidi. Evin adamları qalxır, qonşular qalxır, kənd qalxır:

– Əyə, qoyma.

Partapart, athaat, gurpagurp. Bu kişi fikirrəşir ki, hara qaşsın aydınnıx gejə, gündüz kimi.

Pəyəni açıllar, kişi çıxıf çölə.

– Ə, noluf?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Belə-belə, iki qoyun çıxmışdı, pəyəni aşdım, nəisə bir şey cumdu mənə, it kimi hürdü, ağlagəlməz bir şey. Qapını çəkdi rəzələdi, qaldım içəridə. Qoyun da gedif, adam da.

İndi başdıyıllar gəzməyə. Deyir, qaratikannıx idi, aydınlı gecə, bu qaçır, iki qoyun da bunun dalınca. Qoyun heyvanı belədi, adamdan əl çəhməz. Bu, nəhayət, fikirrəşir ki, gedim qəbirsdannığa. Deyir, uçux bir qəbrə girir bu, qoyunnar da biri bu üzdə, biri də o üzdə durub qəbrin üsdündə. Başdıyıllar gəzməyə kolluğu, gurpagur, athaat, qəbirsdannıx kimin ağlına gəlir. Tapmıllar, camaat qayıdıf gedir kəndə. Bu durur, qoyunnarı da götürüf gəlir. Vəd vermişdilər ki, qoyunnarı oğurruyannan sora filan yerdə ayrılarıx. Gəlif görür qaçan yoldaşı gəlif duruf orda. Sual verir. İndi bu bölməlidi bunnan. Gör sual harda çıxır ey. Nə qədər çətin, mürəkgəb sualdı. Yoldaşın ixtiyarı var, səlahiyəti çatır ki, deyə biri mənim, biri sənin. İndi deyəjəh ki, vermirəm, gedif şikayət elijəh, ev yiyəsinə gedif deyəjəh. Deyir:

– Nolar, deyirsən, deyirsən, amma sənə düşmür. Sən məni qoyuf pəyədə qaşmısan. Heç olmasa, çəkif çıxardaydın da.

Deyir:

– Qoyunu niyə buraxırdın?

Heç ağlına gəlmir ki, ayağını bağlıya, gedə bilməyə. Bu oğurruğu mən də etməmişəm, mən də helə olaram. Amma söhbətdə eşitmişəm ki, nağarmax lazımdı. Birini verir buna, deyir:

– Yaxşı, it aparan olsun.

Birini aparır milisonerə, deyir:

– Çox əzab-əziyyətnən gətirmişih, bir yoldaş da aparmışdım özümlə, canım üçün, mənim özümə heş nə qalmır, mənnən əl çəkin. Sən mənim canım, sən sənin canın, sən dədənin goru, mənnən əl çəh, mən oğru-zad deyiləm. Bax, bunu da məjbur elədin, getdim oğurradım gətdim. Hələ bizi az qalmışdı tutalar. Tutsaydılar biyabırçılıx idi, kim buraxajaydı bizi? Mənnən əl çəh.

Deyir:

– Yaxşı, heyvanı apar evə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Milisoner yanındakı yoldaşına deyir ki, doğrudan da, bu oğru imiş, bunu tutmax lazımdı. Oğru deyilsə bu heyvanı hardan oğurradı gətdi bu.

Bu aparıf indi qoyunu verəndə baxıf görür ki, bunun qapısında bir əlli-altmış hinduşka var. Deyir:

– Ə, məni tutajaxlar onsuz da, elə bu hinduşkaları da oğurruyum.

Yolunu bilir da, qoyunnarı oğurruyanda örgənif. Gejə bir bardon da götürüf gedir bunun qırx dənə hinduşkasını oğurruyur, aparır hansısa bazarda tezdənnən satır. Milisoner bunu tutanda deyir:

– Canın üçün, hinduşkaları da mən aparmışam. Narahat olma, aparıf bazarda satmışam.

Bax, məjburiyət adamı bu cür şeylərə sürüklüyür.

## 54. PADŞAHIN BAŞ AĞRISI

Padşahın başının ağrısı tutur. Çağırır loğmanı. Loğman baxıf deyir ki, oğrunu tutun, onun başının dərisini soydurun, onun başının dərisinnən dəf düzəltdirin, o dəf çalınsın, sənin başının ağrısı keçif getsin.

Deyir, oğru qaçırdı, görür köhnə bir dəyirmandı. Dönür dəyirmana, görür dəyirmançı unnuxda un təmizdiyir. Tələm-tələsik içəri girir. Deyir:

– Noluf?

Deyir:

– Padşahın başı ağrıyır, loğman deyir bir dəyirmançı tapsın, onun başının dərisini soysunnar dəf qayırsınnar, çalsınnar, onun başının ağrısı kəsilsin.

– Bəs nağarım?

Deyir:

– Tez soyun paltarıı.

Soyunur, – can şirin şeydi da, – paltarını verir buna. Bu da soyunuf tökür, paltarlarını dəyişillər. Dəyirmançının paltarında içəridən çıxır unnu-zaddı bularıın qabağına. Dəyirmançı da içəridədi ey. Bunnan soruşullar:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Adam qaçırdı, nejoldu, onun dalınca gəlmişih?
Deyir:
– Dey, dey içəridə.
Özü çıxır qaçır. Dəyirmançı içəridə bu sözdəri eşidir. Dəyirmanın daşdarını xam daşdardan hörürdülər, tilişkəli olurdu. İndi başını döyür o daşdara. Daş, deyir, bunun başının dərisini cırıx-cırıx eliyir.
– Sənnən də olsun, mənnən də olsun, sənnən də olsun, mənnən də olsun – deyə-deyə cırıxlıyır. İndi bular çatıfdılar, tutufdular bunu:
– A kişi, nolufdu, bir dayan.
Deyir:
– Yox, aldada bilməzsiniz.
Görüllər yox ey, cırıxlıyır izana* başının dərisini.
– A kişi, dayan, nə sənnən də olsun, mənnən də?
Deyir:
– Kiri, mənim elə başım yoxdu ki, dərisinnən dəf qayrıla, sənin padşahının da başının ağrısı kəsilə.

## 55. QOŞUNBASAN

Biri ulağı alıf gətirir, quyruğunu-qulağını kəsir, adını qoyur qoşunbasan. Bu ulağı işdətmir. Padşaha xəbər gedir ki, birinin qoşunbasanı var, qulağı yox, quyruğu yox, çox eybəcər bir şeydi, adam qorxur görəndə. Padşah bunu çağırır, deyir ki, o nə heyvandı saxlıyırsan, camaat vahimələnir. Deyir ki, qoşunbasandı. Ölkəmizin üsdünə qoşun gələndə onu basmaxdan ötrüdü. Padşah buna xüsusi maaş ayırır.
Qoşunbasana tumar vurur, sığallıyır, vaxdında gəzdirir, yemini verir. Bir gün ölkənin üsdünə başqa ölkənin padşahı hücuma keçir. Düzü-biyaban boş səhra idi, bərk qırğın gedir burda. Padşaha xəbər gedir ki, qoşunu qırdılar qutardılar, artıx məğlub olursan.
Deyir:

---

* izana – tamam, başdan-ayağa



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, kişini tapın, deyin ki, qoşunbasanı buraxsın, camaat qırılır.

Xəbər gəlir ki, qoşunbasan gəlir. Düşmən qoşunu da döyüş gedən zaman maydan at miniflər. Həm qıvraq olur, həm də qaçağan olur, bərk qaçır. Əlaxüsus da, geri qayıdanda çox bərk qaçır. Düşmən qoşunu qayıdır geri, qaçıllar. Qoşunbasan da çoxdandı bağlanmış ulax olur, atın iyini alıf, bilmir hayandadı, başını tutuf düzün ortasında gah bu tərəfə qaçır, gah o tərəfə qaçır. Atın sidiyini, qoxusunu iyliyir. Bular, deyir, qaçıf böyüh bir dərədə gizdənmişdilər. Döyüşçülərdən biri, qoçağı, ürəklisi deyir ki, nə qoşunbasandı ey o, gedim görüm. Gedif, səni, onu vuruf öldürəjəm, nədi o? Qılıncı sivirir gedir. Heyvan görməmiş ulax atı görəndə yüürür üsdünə. Yüürəndə at da ürkür götürülür. Götürüləndə, deyir, bu daldan çatır, sıçrıyır ata. Sıçrıyanda atın üsdündə patron-zad yığmax üçün xurcun vardı. Bunun qabax ayağının biri xurcunun bir gözünə, digəri o biri gözünə düşür, a…... də salıb atın içinə. Nəysə, nəfəsini dərənnən sora düşür, başını dik tutuf yönü günbatan tərəfə. Daa dincəlif da. Gedəndə bu bərk sürür, çatır qoşuna, deyir:

– Əyə, durun qaçın. Sən öl, bir şey gəldi üsdümə, güjnən qaşdım. Elə bir şeydi ki, deyir, kopoğlunun malı ciblərimi yoxladı, gördü ciblərimdə bir şey yoxdu, əlini saldı xurcunu yoxladı, gördü bir şey yoxdu, atın içini də yoxladı.

Bunnan da bitir.

## 56. ÖZGƏSİNƏ QUYU QAZAN, ÖZÜ DÜŞƏR

Deyir, bir nəfər təzə əvlənmişmiş, bir qız gətirmişmiş. Mehriban dolanırmışdar. Bir ərmiş, bir arvad. Bir günnəri bunun əlində tüfəh vardı. Bu nağarırsa, əlində tüfəh açılır, dəyir bunun yoldaşına. Ölür bu. Başdıyır başına-gözünə döyməyə:

– Allah, mən nağarım? Gedim bunun yiyəsinə nə cavab verim?

Çıxıf çöldə başın salıf aşağı ağlıyırmış. Şeytan da həmişə nurani sifətdə oluf. Nurani surətdə bir kişi gəlir. Deyir ki, ə, filankəs, noluf, niyə ağlıyırsan?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Əşi, heş nə.

Deyir:

– Ə, sən Allah, de görüm noluf?

Deyir:

– Əlimdən xata çıxıf.

– Nə xata?

Deyir:

– Tüfəh açıldı, yoldaşıma dəydi. Heş gətdiyim iki ay döylü.

Deyir:

– Boy, boynu yerə soxum. Ə, bilmirsən onu neynəməh lazımdı?

Deyir:

– Yox vallah, neyniyim?

Deyir:

– Ə, otur burda, bir cavan oğlan gələndə deynən gedəh içəridə bir şey var, onu qaldır mənim dalıma. Bir badron da ona vur, yıx ora. Get yiyəsinə deynən belə-belə gördüm, ikisin də öldürmüşəm.

Bu kişi gedir. Aradan bir az keçənnən sora cavan oğlan gəlir. Deyir:

– Ə qardaş oğlu, girəh, içəridə bir şey var, onu qaldır mənim dalıma.

Bir badron da buna vurur, yıxır onun yanına. Şeytan örgədif axı. Gedir yiyəsinə deyir ki, pis yolda idi, ikisin də öldürmüşəm. Yiyələri xəjalət gəlif qızı götürür aparır. Gedə qalır orda. Deyir, bu oturur gözdüyür ki, kim gəlif buna yiyə çıxajax, bunu da apara. Görür ki, həmən kişi gəlir, bunu örgədən kişi. Deyir:

– Ə, noldu, nağardın?

Deyir:

– Elə sən dediyin kimi elədim. Sən hara gedirsən?

Deyir:

– Bizim gedə üş gündü evə gəlmir, onu axtarıram.

Deyir:

– Əşi, gəl içəri bax, bəlkə, budu.

Kişi girir içəri ki, öz oğludu. İndi şeytanın bəzən qurduğu kələyə özü düşür.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 57. AXMAQ CANAVARIN NAĞILI

Bir gün ac-yalavac bir canavar meşənin içiynən gedirdi. Birdən qabağına bir eşşəh çıxır. Canavar buna deyir:

– Ay eşşək, səhərdən elə yeməh axtarırdım, əlimə yaxşı düşmüsən, indi səni yeyəciyəm.

Eşşək dedi:

– Ay canavar qardaş, deyəsən, sən lap axmaxsan. Sən bəs bilmirsən ki, eşşəyin ətin ancax səhər ertə yeməh olar. Gecə yeyərsən, səni zəhərriyif öldürər. İsdiyirsən indi məni yeyib öləsən? Gözdə bırda, gedim mən də sənin üçün yumuşax yorğan-döşəh gətirim, səhərə kimi yat, səhər duruf yeyərsən.

Canavar bına dedi:

– Ay sağ ol! Ağıllı söz deyirsən. Get, tez elə, yorğan-döşəh gətir, mən də oturuf səni gözdüyürəm.

Eşşəh yırğalana-yırğalana çıxdı getdi, bir də qayıtmadı. Canavar da səhərə kimi eşşəyi gözdədi. Səhər açılanda bildi ki, eşşəh onu alladıf. Aj qarına genə meşəni dolaşmağa başdadı. Bütün gejəni gəzdi. Səhərə yaxın qabağına bir keçi çıxdı. Tez keçinin qabağın kəsif dedi:

– Keçi, indi mən səni yeyəciyəm. Allah səni maa yaxşı yetirif.

Keçi də qorxağ olur axı. Yazıx neynəsin. Canavarın qabağında tir-tir əsməyə başdadı. Dedi:

– Sən nə vaxt isdəsən məni yeyə bilərsən. Ancax onu bil ki, mənim ətim çox dadsızdı. Gərəh mənim ətimi sarımsağnan, turşuy-nan yeyəsən. Qoy gedim evdən sarımsağ, turşu gətirim, onnan sora ye məni.

Canavar tez razılaşdı.

– Di get, tez ol turşu, sarımsağ götü, gəl.

Canavar keçini gözdədi, gözdədi, nə qədər gözdədisə, keçi gəlif çıxmadı. Axırda başa düşdü ki, keçi də bını alladıf. Canavar kor-peşman, ac qarına, deyinə-deyinə genə meşəni gəzməyə başda-dı, görsün ki, əlinə nə keçir. Gəlif meşənin qırağındakı çaya çatdı. Gördü çayın yaxınnığındakı palçığın içində bir camış eşələnir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Camış elə həylə olur ee. Harda lil, zığ görsə, gərəh özün verə ora, xasiyətidi. O tərəfə aşajax, bı tərəfə aşajax. Çıxmaz palçıxdan. Canavar da bını görən kimi tez camışın qabağın kəsdi ki, bəs mən acınnan ölürəm, Allah səni nə yaxşı yetirif, indi səni yeyəjəm. Camış bir az o tərəf bı tərəfə aşannan sora dedi:

– Mən elə bilirdim ki, sən ağıllısan, sən demə axmağıymışsan ki! Heş sənin dişdərinnən heyvan qaçıf qurtara bilər? – Yalannan belə deyir ee. Başın alladır. – Bəs sən görmürsən ki, mən başdan-ayağa palçığın içindəyəm. Qoy gedim girim suya, palçığımı təmizdiyim, gəlim. Onnan sora məni ye.

Canavar dedi bına.

– Düz deyirsən, get, çim, gəl. Amma tez gəl, day dözə bilmirəm.

Camış özün çaya vıran kimi başdadı gülməyə.

– Ayə, ay canavar, get başqa yerdə özaa yem axtar, sən çox axmağsan, məni yeyə bilməzsən. Mən bırdan heş vaxt çıxmaram.

Camış çay yuxarı üzdü, çay aşağı üzdü. Canavar bildi ki, camış bını alladıf. İnnən belə gedif suda camış tuta bilməz ki! Bildi ki, camış da onu alladıf. Təzədən başdadı gəzməyə, görsün qabağına nə çıxır. Elə bir az gəzmişdi ki, qabağına bir at çıxdı. Tez atın qabağın kəsdi ki, bəs acınnan ölürəm, bı dəyqə səni yeyəjəm. At da neynəsin yazıx. Gördü kü, hiylə işdətməsə xeyri yoxdu. Dedi:

– Bilirəm ki, məni yeyəssən. Amma bir xayişim var. Rəhmətdih atam vəsiyət eləmişdi ki, yaşımı bilməmiş ölmüyüm. Dal ayağımın altında nə vaxt doğulmuşam o yazılıf, onu oxu maa de, sora məni yeyərsən.

Canavar dedi:

– Yaxşı, tez elə, gəti görüm.

At dal ayağını qaldırdı. Canavar arxa tərəfinə keçən kimi bını elə vırdı ki, canavar bir də ayağa dura bilmədi. Ona görə də bına axmağ canavarın nağılı deyillər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# VII. LƏTİFƏLƏR

## *MOLLA NƏSRƏDDİN HAQQINDA*

### 1. ULAQ GƏLİR, KƏS QABAĞINI

Deyir, Molla Nəsrəddin oduna gedirmiş, yer də palçıx yerdi. Bizim yerlər dərə-təpə olduğu üçün dərə-təpəni təsvir eliyirih. Təpələri çıxanda, heyvanatın ayağı sürüşəndi, ona görə həmişə bizdə nallı oluf kəllər, öküzdər, atdar. Hə... Deyir, ulax çox çətin çıxırdı yoxuşu, yükü çətin gətirirdi. Gənəşir* birinə ki, ə, mən nağarım ki, bu ulax yükü gətirəndə çətin gətirir, gej gəlir, yavaş gəlir. Bir az tez gəlsin. Deyir ki, ə, o naşatırı tanıyırsan?

Deyir:

– Hə.

Deyir:

– Onnan götür, o ulax belində yük gələndə gördün ki, yavaş gəlir, gələ bilmir, onda bir damcı quyruğunun altına damızdır. Onda tez gələjəh.

Gəlir, gəlir, indi naşatırı da götürüf. Gedif indi ulağı yüklüyüf meşədə, odunnan gəlir. Bu yoxuşu çıxanda, deyir, yağış yağmışdı, ulağın ayağı yerdə durmurdu. Hə... Fikirrəşir ki, mamentidi. Bir damcı salır ulağın gerisinə. Salan kimi ulax dözmür, götürülüf yoxuş yuxarı çıxır. Ulax götürülür, bu çatmır indi ulağa. Yüürür, yüürür, çatmır. Fikirrəşir nağarsın. Deyir, hə, qərar verir ki, bir damcı da özünkünə salsın. Bir damcı da özünkünə salır. Nətər yüürürsə, gəlir ulaxdan qabağa keçir. Evə çatır. Görür ki, arvad saj asıf çörəh bişirir. Deyir:

– Ay arvad, mən getdim, ulax gəlir, kəs qabağını.

### 2. ÖLÜ DƏ HALVA YEYƏR?

Molla, ağacı, deyir, başdan duruf ayaxdan kəsirdi. Bir nəfər də gəlir belə baxır. Deyir:

---

* gənəşir – məsləhətləşir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə kişi, nağarırsan sən? Ağacın başında durmusan, kökünnən kəsirsən. Ağaj yıxılajax, yıxılıf öləssən.

Elə o saatdarı pışkını* da atır, düşür. Tutur xirtdəyinnən ki, sən mənim öldüyüm günü bilirsən. Bu da bilmirdi. Nə bilir yazıx. Çıxış yolu axtarır. Deyir:

– Meşəyə gedirsən oduna-zada?

Deyir:

– Hə, gedirəm.

Deyir:

– Gedəssən, ulağı yüklüyəssən odunnan, gələndə ulax üş dəfə yel buraxajax. Birincidə sənin əjəlin gələjəh, ikincidə canına çökəjəh, üçüncüdə uje bil ki, ölürsən da.

Molla belə də edir. Gedir oduna. Elə ədəti imiş odun gətirməh meşədən. Gedir meşəyə odun qırır, yüklüyür ulağa, gəlir. Çox yükləmişdi, deyir, yoxuş idi yol. Çıxanda güjə düşür ulax, özünü yığışdıra bilmir, bir yel buraxır. Yel buraxanda, deyir, molla ucadan əsniyir. Əsniyir, deyir ki, hə, gəlir əjəlim. Yoxuşun ortasına çatanda bir yel də buraxır ulax. Deyir:

– Hə, əjəlim bədənimə çökdü.

Yoxuşun başına çatanda birini də buraxır. Deyir:

– Hə, indi öldüm.

Tirtap uzanır. Elə orda da qalır. Guya öldü. Ulax gəlir qapıya, molla gəlmir. Dalıncan gəlillər ayləsi, nə bilim, qohum-əqrəbası görəh nejoldu. Gəlif görüllər molla yıxılıf ölüf. Götürüf aparıllar bunu evin bir tərəfində uzandırıllar, meyitdi da. Uzanıf indi bu. Üsdünə-başına da sorux-morux** çəkillər. Ölür burda. Başdıyır, da ədətimizdi, öləndə halva bişirillər. Halva qazanı, teşti ojağın üsdünə qoyuflar, halva bişir. İndi dürməh qayırıllar, bunun dəfnində qəbirsdannıxda paylıyajaxlar. Yığıllar bir tuj vedrələrə. Bu teşt də kakraz bu meyidin başının üsdündə oluf. İndi orda – çöldə büküllər, padnosa qoyuf gətirillər, burda yığıllar teştin içinə. Molla da başdı-

---

* pışkı – mişar

** sorux-morux – ağ mələfə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yır burda yavaş-yavaş yeməyə. Bu daşıyıf gətirən hər gələndə görür ki, ə, gətirir, elə az qalıf. Çıxır deyir:

– A bajı, mən daşıyıram, nəysə orda dürməh yoxdu. Mən daşıdıxca elə bil nəysə yeyir. Elə bil bu ölü yeyir axı dürməhləri, – deyəndə o birsi deyir:

– Nə danışırsan, az. Ölü də halva yeyərmi?

Onda molla başını qaldırır, deyir ki, mən yanı o qədər ölüyəm ki, iki bülüş, – yanı bükük deməhdi, – iki bülüş halva da yeyə bilmirəm?

## 3. MAA DA İNƏYİM QALDI

İnəyini aparır bazara, – lotular dedin yadıma düşdü, – qırx lotular, deyir, durmuşdular. Görüllər molla inəyi gətirir. İndi fırıllax qurullar ki, molladan inəyi müftə-əlləzin alsınnar. Yanı pulsuz mollanın inəyini əlinnən alsınnar. Gəlif çatır. Molla bulara çatanda biri qabağa gedir.

– Salam-əleyki.

– Əleykimət-salam.

– Ay molla, keçini hara aparırsan?

Deyir:

– Ay bala, sən keçi deyirsən de ey, sözüm yoxdu ona, amma mən bunu qapıdan çıxardanda inəh çıxartmışam. Bazara aparıram satmağa.

Deyir:

– A kişi, gözün cılıx-bılıx, yəni əyən-bəyən görür, dolaşıx görür. Keçidi ey, bu.

Deyir:

– Ay oğul, nə deyirsən de. İndi keçidi, keçidi da, neyniyim, nə deyirsən?

Deyir:

– Əşi, bu keçini niyə bazara aparırsan? Elə sat bizə da.

Deyir:

– Alın, satım da.

Deyir:

– Neçəyə?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Qiymәti özünüz qoyun, özünüz dә alın.

Deyir:

– Ay molla, bu çox, çox getsә, bazarda gedәr qırx maata da. Bunu ver elә qırx maata bizә.

Deyir:

– Verdim.

Molla da lotuları tanıyırdı ey. Bilirdi buların fırıldağınnan bu çәtin çıxajax, amma çıxajax. Deyir ki, yaxşı, qırx maata verdim sizә. Biri gәlir qabağa, deyir:

– Molla, bax, bu mәn ölüm, onun bir maatın keç mana.

Deyir:

– Ay oğul, bir maatdan ötәri mәn ölüm nәdi, ayıfdı. Yaxşı, bir maatını keşdim sәnә.

O çәkilәn kimi o birsi gәlir:

– Molla, mәn ölüm, nolar bunun bir maatın da maa keç.

Belә bu minvalla otuz dokquz maatını keçir. İndi qalıf başçısı, lotuların başçısı. Baş lotu gәlir. Deyir ki, a kişi, heç insafdı bunun hәrәsinә bir maat keşmisәn, nolar bir maat da mәә keç da.

Deyir:

– Yaxşı, bir maat da sәnә keçirәm.

İndi biri dözüm gәtirmir, deyir:

– Molla, bәs qırx maat idi, hәrәmizә bir maat keşdin, sәә nә qalır?

Deyir:

– Ay oğul, heş-zad, maa da inәyim qaldı.

## 4. ONSUZ DA DÜŞӘCӘKDİM

Bir gün uşaxlar oynuyurdular. Bu itdә olan milçәyi heyvanata – ata, yaxud ulağa buraxanda olar çox şıllaxlıyan şeydi. Olarınkın itә buraxanda it dincәlәn döylü ha. Hәr heyvanatın özünün milçәyi var. Bular bir itin milçәyini buraxıllar ulağın bәdәninә. Ulax, deyir, soncuxluyur, tәpik atır uyza-buyza, Molla yıxılıf düşür. Gülüşüllәr. Deyir:

– Nә gülürsünüz, onsuz da düşәjeydim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 5. ARVAD GƏTİRİB

İrəhmətdih Molla Nəsrəddin getmişmiş gəzməyə. Gedif orda-bırda gəzif evə də axşam gej gəlif. Qaynənəsi, arvadı deyif:

– Ay Molla, hardaydın, niyə belə gej gəldin?

Deyif:

– Nə bilim? İlişdim bir arvada, aralana bilmədim, gej gəldim, onu da gətirdim.

Deyiflər:

– Hara qoydun?

Deyif:

– İde, güzgünün dalına. Gedin güzgünün qabağınnan baxın, görükəjəh.

Arvad gedif baxıf, deyif:

– Ay bala, bı mənnən də qoja bir arvad gətirif.

Gəlin gedif baxıf qayıdıf deyif ki, nənə, niyə həylə deyirsən? Mənnən də gözəl bir arvad gətirif.

## 6. MOLLANIN TƏRS OĞLU

Mollanın bir tərs oğlu varmış. Həmişə eşşəyə yükü yüklüyəndə nə deyirmişsə, tərsinə edirmiş. Bir gün körpüdən keçirmişdər, bunun eşşəyinin yükü əyilir. Yükü əyiləndə kişi görüf ki, eşşəyi düşəcəh çaya, deyif:

– Ay oğul, həmişə sənə nə demişəm tərsinə eləmisən. O eşşəyin yükünü aşırt.

Deyif ki, ay ata, heş vaxt sənin sözə baxmamışam, amma indi baxajam. Bəridən qaldırıf, eşşəh qarışıx yükü düşüf çaya.

# BƏHLUL DANƏNDƏ HAQQINDA

## 7. ARVAD FELİ

Bəhlul savatdı yazıçı imiş. Deyirmişdər ki, sən dəlisən. Ona görə ona Danəndə deyillər. Bir kadın buna kələh gəlir. Deyir, mən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəhlul Danəndə olam, arvat maa kələh gələ? Deyir, arvatdarın nə bijdiyi var, hamısını yazajam. Bəhlul kəntbəkənd, şəhərbəşəhər bu arvatdarın əməlinnən yazır. Bir qatır yükü kitab bağlıyır. Bunun kitabının da bir səyfəsi qalmış imiş ki, axırıncı kitabı bağlasın. Bir bəyin xanımı eşidir ki, belə bir adam var, düşüf kəntbəkənd, şəhərbəşəhər bu arvatdarın əməlinnən yazır. Deyir:

– Nətər bir belə kadının əməlini yaza, kimsə bunun qabağını ala bilmiyə.

Bunun sorağında olur ki, əgər o bu kəndə, bu şəhərə gəlsə, onu tutun gətirin mənim yanıma.

Bəhlul Danəndənin bir vaxt yolu düşür oraya, gedir çıxır həmin kadının yaşadığı şəhərə. Bir də xanıma deyillər ki, bəs bir adam gəlif şəhərin ayağınnan düşüf yazır. Deyir:

– Onu gətirərsiz yanıma.

Aparıllar xanımın yanına. Bunun qatırını aparıf tövləyə bağlıyıllar, yükünü düşürdüllər, yaxşı ot qoyullar. Xurcun da nətər xurcundu? Sən görməzsən da. Elə bil ki hər tərəfi bir un meşoğudu. Onu keçirif bir-birinə, atıf yəhərin üsdünə, onu dolduruf, bir qatır yükü kitab bağlıyır. Hə... Arvad gətirir buna çay-çörəh qoyur. Nökərləri də var imiş bu xanımın. Deyir:

– Mən xamır yoğurajam. Qonax qalsın evdə. Siz çıxın çöldə pusun. Mənim səsim gələndə cumun içəri.

Bu Bəhlul da yazıx nə bilsin arvadın əməlini. Bu xanım oturur, xamır yoğuranda o vaxdı da yufka, don yox idi. Onda tuman deyirdilər, burdan aşağa tuman geyirdilər, başına da qatma salırdılar. O qatmaynan çəkif tumanı bağlıyırdılar düşməməh üçün. Keşmişdə heylə idi, mən gördüm o tumannarı. Mənim nənəm də heylə geyinirdi. Ordan xanım üsd tumanının bağını açır, qatmasını, belə sallanır. Bəhlul bilmir. Bu, əlini salır xamıra, ayağa duranda görür ki, tuman düşür aşağı. Arvad özü eliyif axı bu əməli. Deyir:

– A qonax qardaş!

Deyir:

– Nədi, a bajı?

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Tuman düşür, əlim də xamırda. Günahdı əli xamırrı-xamırrı tumana vurmax. Sən də mənim qardaşım, bu tumanın bağını bağla.

Bəhlul görür ki, tuman düşür, əli də xamırda. Daa nə bilsin bu əməl eliyir. Duruf qatmanı belə tutuf bağlıyım deyəndə xanım Bəhlulun qolunnan tutuf qışqırır. Nökərlər cumur içəri.

– Ə, kopoğlu, nağarırsan? Xanımı tutursan?

Bunnan sora Bəhlul deyir:

– Xanım, bildim niyə belə elədin. Bağışda, mən siznən bajarmaram. Buraya kimi bajarmışam, burdan ayna bajarmadım.

Bəhlulun heylə əhvalatını eşitmişəm mən. Xanım Bəhlulun neçə ilə bağladığı bir qatır yükü kitabı heylə ləğv eliyir, çıxır gedir. Deyir:

– O kitabı da burax getsin, arvatdarın əməlini də. Sən arvad əməlinnən baş tapmarsan.

## 8. QURUMSAQLARIN YOLDAŞI

Biri gəlir Bəhlulun qabağına:

– Bəhlul, mən subayam, nətərəm indi?

Deyir:

– Sən soltannar soltanısan.

Bir müddətdən sora evlənir. Deyir:

– Axı evlənmişəm, indi nətəri oldum?

Deyir:

– İndi oldun kişilərin yoldaşı.

Gəlir deyir:

– Mən nə axmağ adamam. Soltannar soltanınnan gəlif oldum bir evlənməhnən kişilərin yoldaşı.

Hirsdənir, arvadı boşuyur. Deyir:

– Bəhlul, arvadı boşadım, indi nətərəm?

Deyir:

– İndi oldun qurumsaxların yoldaşı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 9. BAŞINI ALDADIB UDURAM

Bir gün Bəhlul Danəndə qoyunnan oturuf şahmat oynuyurmuş. Bını yoldan keçənin biri görür. Deyir:

– Ay Bəhlul Danəndə, bı nədi, heç qoyunnan da şahmat oynuyallar?

Bəhlul Danəndə ağzını diriyir bının qulağına, yavaşca deyir:

– Kiri, kiri, başını alladıf uduram.

Deyir:

– Neçə-neçədi, heç aparmısan?

Deyir:

– İki-ikidi.

## 10. ARVADA SİRR VERMƏK OLMAZ

Bəhlul Danəndə üş topa topluyuf belə. Vəzir-vəkil gedirmiş. Bı vəzir qayıdıf deyif ki, onun birini sat maa. Neçiyədi?

– Üş tümənə.

Götürür torpağı belə savırır, deyir:

– Kül o kişinin başına ki, arvada sirr verə.

Deyir:

– Elə bı?

Deyir:

– Hə.

Birini də alıllar. Onu da üş tümənə. Bı səfər də deyir ki, kül o kişinin başına ki, qohumunu ata, yada bel bağlıya. Bını da savırır. Biri də var, vallah. Eşitdiyimi deyirəm, onu yaddan çıxartmışam. Onu da savırır. Bını alan vəzir deyir:

– Vallah, bını sınıyajam.

Gedif. Deməli, neçə il şaha vəzir imiş dana. Onnan işi keçirmiş, onnan işdiyirmiş. Şahın gedir qotazdı-motazdı qəşəh bir qoçu varmış, onu oğurruyuf aparır ayrı bir yerdə gizdədir. Ayrı yerdən də bına oxşar bir qoç alır, gətirir, kəsir. Deyir:

– Arvad, elə eləynən ki, şah bilməsin. Bilsə, məni asar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Yaxşı.

Şahın da qoçunu bir ayrı yerdə saxlatdırır. Aradan bir beş gün keçir, bının arvadnan sözü çəp gəlir. Deyir:

– Ey köpəyoğlu, bı da sənin şahın qoçunu kəsdiyindi?

Bı gedir şaha çatır. Bunun üsdünə şah bını çağırtdırır. Arvadı sınıyır axı bı. Bı belə.

Sohra gedir bir qoyun kəsir. Qoyunu kəsir, qoyur meşoğa. O ku bının varınnan, çörəyinnən, çayınnan yeyib-içənin birinin yanına gedir, deyir:

– Qardaş.

Deyir:

– Nədi?

Deyir:

– Qardaş, əlimnən qan çıxıfdı. Adam öldürmüşəm. Bını gör neynirsən? Sən Allah, bını bir yannıx eliyəh gəl.

Deyir:

– Ə, apar ayna. Sən Allah, qanıı apar ayna, maa tərəf gətirmə. Götür get.

Ə, bu da qoyundu ey, adam dəyil ha. Gedir mənim təki bir fağır qohumu varımış dana. Lap qoja bir arvad imiş, evdə oturturmuş. Deyir:

– Bıy, xoş gəlmisən başaa dönüm, qurban olum.

Deyir ki, ay bajı, əlimnən qan çıxıf, bir adam öldürmüşəm. "Bıra gəti" – deyif duruf ojağın yerini qazıf. Onun kəlləsini belə-belə eliyim. Elə basdırajeyih bırda, heş kim də bilmiyəjəh. Açır görür cəmdəh.

Şah da çağırır bını. Deyir, camaatı yığıf ki, bının vəziri asılsın. Camaat hamısı ağlaşır da. Vəzir çox yaxşı adammış. Assın deyəndə camaat əl-əl ağlıyır. Vəzir deyir:

– Şah sağ olsun.

Deyir:

– Nədi?

Deyir:

– Şah sağ olsun, sənin öz qoçun gəlsə, məni asarsan?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Yox.

Dingildəyə-dingildəyə deyir:

– Filan yerdədi, gedin bının qoçunu gətirin.

Bının qoçunu gətirəndə bı durur deyir ki, bəs belə-belə, bı sözü də mən almışdım. Şah bir heylə bına yalvarır ki, qalsın işdəsin, deyir:

– Yox, mənim bir qoçca hörmətim olmadı?

Hər adama bel bağlamax olmaz. Arvada sirr verməh olmaz. Amma arvad var on kişinin qabağıdı, arvad da var, heç çöp də dəyil.

## 11. ƏMANƏTƏ XƏYANƏT

Bəhlul İmam Cəfəri Sadıx Əleyhsalamın tələbəsi oluf. Onun dörd yüz tələbəsi oluf. Oların içində Molla Nəsrəddin, bir də Bəhlul çox savatdı tələbələri oluf. Deməli, o vaxdı ki, müxalifət imama qalib gəlif, məhtəbi-zadı dağıdıflar, onda İmam Cəfəri Sadıx Əleyhsalam deyif ki, dağılın gedin, özüzü vurun dəliliyə.

Deyir, bir günnəri bir nəfər at alasıymış. Bir az pulu varmış. Aparır verir şəhərin qazısına. Deyir ki, bax, bu beş yüz maatdı. Bunu saxla amanat. Məndə olsa, xəşdiyəjəm. Mən üsdünü düzəldif gəlif bir at almax isdiyirəm.

Vaxt olur, pulu düzəldir. Gəlir qazıya deyir ki, gəlmişəm pulu aparmağa.

Deyir:

– Nə pul?

Deyir:

– Mən sənə beş yüz maat verməmişəm amanata.

Deyir:

– Ə, səfeh-səfeh danışma. Sənin pulu harda görmüşəm?

Nə qədər eliyir, sübut eliyə bilmir. Gileylənə-gileylənə çıxanda Bəhlul deyir ki, bala, niyə gileylənirsən. Deyir:

– Əşi, qazıya beş yüz maat pul vermişəm, indi danır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir ki, sənnən gedəh onun yanına, görüm o sənin pulu niyə vermir?

Nəysə gedir. Deyir ki, mən girirəm içəri, onnan bir söhbət başdıyajam, havaxt mən öskürdüm, gir içəri. Girir içəri. Qazı deyir ki, Bəhlul, sənnən çıxmıyan iş. Xeyir ola belə. Deyir ki, başıma bir hadisə gəlif, onunçün gəlmişəm. Deyir, əlimə lapatka almışdım yeri belə qurdalıyırdım. Gördüm bir zincir var orda. Bu zincirin dalınca qazdıxca getdi, qazdıxca getdi. Baxdım ki, bir binaya çıxıf bu. Bu zincir binanın qapısına bağlıdı. Çəhdim, deyir, qapını aşdım, girdim içəri. Gördüm hamısı ləl-cəvahirdi. Bu belə deyəndə oğlan girir içəri. Deyir:

– Ay qazı, sən Allah, mənim o pulumu ver.

Axı Bəhlul buna deyifdi ki, burda xəzinə var. Demək, bunun yerin bunnan örgənməh xatirinə deyir:

– Ala pulu, rədd ol çıx getginən.

Bəhlula deyir ki, əhvalatın dalın danış. Deyir:

– Hərrəndim gördüm bir qapı var. Oranı aşdım, gördüm qızıl qaravat var. Qızıl qaravatın üsdündə bir qız yatıf, deyirsən xudavəndi-aləm, yemiyim, işmiyim, buna tamaşa eliyim. Qızın barmağında bir üzüh vardı. Üzüyü çıxartdım gördüm ki, üzüh o xəzinənin hamısına dəyər. Mən üzüyü çıxardannan sora üzüh yekəldi. Dedim ki, əşi, bunu salım boynuma, xəzinədən də yığışdırım. Deyir üzüh başımnan keçənnən sora başdadı məni boğmağa. Boğdu, boğdu məni, "hah" elədim ayıldım, gördüm yuxudu.

Deyir:

– Allah sənin evini yıxsın. Mən də deyirəm burda bir xeyir var, pul da getdi.

## 12. ALLAH BİLMİR NƏ VAXT YAĞDIRMAQ LAZIMDI?

Bir dəfə camaat yığışır Bəhlulun başına. Deyillər neçə vaxdı yağış yağmır. Sən ağzı dualı kişisən. Gedəh çıxax bir qəlbi yerə, sən alqış elə, biz "amin" deyəh, bəlkə, yağış yağa.

Nəysə, gedillər. Bir bağın böyrünnən keçirmişdər. Görüllər ki, su bağa axmağ əvəzinə, bağın böyründə arx var, ora axır. Bəhlul de-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yir ki, ə, bu suyun ağzın çöyürün, verin bağa. Bağman da ayannan baxırmış. Görür kü, suyun ağzın çöyürdülər verdilər bağa. Deyir ki, əyə nağarırsan, əyə nağarırsan? Deyir ki, əşi nədi, bağa su çəkirih dana.

Deyir:

– Ə, sən bilmirsən, bağın çiçəh vaxdıdı, bağa su vurmazdar. Keç ötür ayna.

Bəhlul deyir ki, ay camaat, bu bağman bağı havaxt suvarmax lazımdı bilir, Allah-tala bilmir havaxt yağdırmax lazımdı?

## 13. MAYAMA ZİYAN ELİYİR

Bir dəfə Bəhlul gedir tacir tükanına. Görür tacir oturufdu, gözündə də keşmək. Kişmiş, fındıx, noğul, ayın-oyun, hər şey var tükanda. Tacir də oturuf orda, tamaşa eliyir. Çəliyi belə uzadanda deyir:

– Ə, yavaş, gözümü töhdün.

Deyir:

– Gözün görür?

Deyir:

– Hə.

Deyir:

– Bəs niyə olardan yemirsən?

Deyir:

– Vallah, yeyərəm ey, amma mayaya ziyan eliyir.

Deyir:

– Sən ver mən yeyim, qoy mənim mayama ziyan eləsin.

## 14. MÜSƏLMANLARIN ALLAHI

Bəhlul Harun ər Rəşidin dövründə yaşıyıfdı. Bir gün deyir gömrüh işçiləri yəhidiləri gömrühdə tutullar. Buların malların müsadirə eliyillər ki, siz yahudisiz. Bular da nə qədər eliyillər, xəlifənin qəbuluna girə bilmillər. Kimə deyillər, heş kəs vejinə almır. Deyillər bunu Bəhlula söylə. Gəlillər Bəhlulun yanına ki, biz yəhudiyik. Yəhudi olduğumuza görə mallarımızı müsadirə eliyiflər.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Darıxmıyın, cuma gününə qədər maa möhlət verin, görüm cuma namazında sizin sözüzü çatdıra bilərəmmi?

Xəlifə cuma namazına gələndə bu da gedir durur xəlifənin düz arxasında. Namazın birinci ayəsi pismillahi-rəhmani-rəhim. İkincisi, əlhəmdulillahi rəbbül aləmin. Bu həmd-səna aləmlərin rəbbi üçündür. Bu da arxada durur. Elə ki namaza başdıyıllar, xəlifə eşidən qədər bir az bərkdən deyir ki, əlhəmdülillahi rəbbül müsəlman. Xəlifə eşidir, amma namazı kəsə bilmir. Qutarannan sora qayıdır ki, o nətər namaz qılmaxdı? Əlhəmdülillahi rəbbül müsəlman nədi? Bir müsəlmannarın allahıdı Allah? Deyir ki, hamının Allahıdı?

Deyir:

– Hə.

Deyir:

– Yəhudilərin də Allahıdı?

Deyir:

– Bəli.

Deyir:

– Bəs xalxın niyə müsadirə eləmisiz malların? Əgər bu yəhudilərin də Allahıdırsa, yəhudi deyə niyə malların müsadirə eləmisən?

Deyir əmr eliyir, gömrüh işçiləri müsadirə elədihləri malları qaytarıf verillər.

## 15. DƏRYADAN ÇIXAN ƏL

Dəryadan iki belə barmax çıxır. Bütün alimləri, müşteyidləri yığır padşah ki, o nədi ordan çıxıf? Oxu yaya qoyuf atıllar, bombalıyıllar, nağarıllar, o barmağa nə dəymir, nə çəkilmir. Alimləri yığır ki, o nədi? Heş birisi bilmir o nədi. Gedif Bəhluli Danəndəni gətirillər. Bəhluli Danəndə gəlir. Özü də öz qardaşı olur ey. Deyir ki, o nədi, biz onu yay-oxa qoyurux, bombaya qoyurux, o çəkilmir. Ona səjdə qılır professorlar, alimlər.

Deyir:

– Tərpənər. Onun ordan getməyin isdiyirsən?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dəryadan çıxan əl itkin düşən sahibi-zaman peyğəmbərdi. O barmağını qaldırır ki, mənim bəndəmin ikisinin ürəyi birdisə, mən də çıxım üzə. Bəhlul da barmağın bir belə eliyir, bir də belə. Deyir ki, sən ikisini deyirsən, heş birinin də ürəyi düz deyil. O saat əl ordan çəkilir. Hələ də itkindi o, bəndələrə görə. Deyir bəndəm əgər birrəşirsə, mən də çıxım üzə, birrəşəh. Gör nə qədər ədalətdi peyğəmbərdi.

## 16. QİYMƏTLİ KƏLLƏ

Bəhlulun qarğıdan atı olur. Gedir qardaşının məclisinə. Atdılar bir yannan, bu da qarğını minir, hamısın keçir. Məclisdə hamı pul yığır, padnosa yığıllar. Bu gətirir bir dənə insan kəlləsi qoyur. Qardaşı məyus olur, çox pis olur ki, bu məni bəylər içində sındırdı. Deyir:

– Qağa, niyə qızarıf bozarırsan?

Deyif:

– Niyə heylə elədin?

Deyir:

– O kağızı sənin tay-tuşdarın qoyuf ora, mən sana...

Daşı civinnən çıxardır belə vurur, kəllə qırılır. İçinnən bu yekəlihdə ləl çıxır. Hamı məhətdəl qalır. Pulu dəsdə tutur, belə cırmax isdiyəndə haray düşür ki, cırma. Deyir:

– Bu kağızdı, cırılan şeydi, amma bu ləl, dart gör çırılar? Ömrü boyu yesən qutarmaz. Bu insan kəlləsi döyül ey. İnsanın kəlləsində sözdər o qədər dərc olunuf ki… Kəllə var, söz deyirsən bu qulağınnan girir, o qulağınnan çıxır.

Bəhlul məclisə gəlməzdən əvvəl üç dənə insan kəlləsi tapır*. Tozu tökür bu kəllərdən birinə, burdan üfürəndə burdan çıxıf gedir. Onnan sora insanın kəlləsin qoyur, yay-ox atır, ox gedif deşif çıxır o üzə. Həmən bu ləl çıxan kəlləni qoyur, yay-oxu atır, sancılıf qalır burda. Həmən kəlləni götürür, aparır qardaşının toyuna. Elə onu qoyanda qardaşı pis hala düşür. Deyir:

---

* Söyləyici lətifənin əvvəlini sonradan xatırlayır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Qardaş, məclisdə atım atınızı keşdi, xələtdə də ki hamıdan çox xələt qoymuşam. Niyə qızarıf bozarırsan?

Onnan sora onun adı qalıf Bəhluli Danəndə.

O, ölənə kimi öylənmiyif. Qardaşı buna çox yalvarır ki, səni öyləndirim. Buna toy eliyillər, gəlini gətirillər. Toy qutarannan sora indi bəy qızın yanına getməlidi axı. Gedir oturur qızın yanında. Bədbaxın qızının qarnı cırıldıyır. Qarnı cırıldıyanda durur çıxır. Deyir:

– Qardaş, niyə çıxdın?

Deyir:

– Ay rəhmətdiyin oğlu, hələ mən bunun yanına getməmiş, uşaxlar bunun qarnında çığrışır, bəs bunun yanına mən gedəndə bunu kim saxlıyajax? Subaylıx soltannıxdı.

## *ŞAH ABBAS HAQQINDA*

### 17. ŞAH ABBAS VƏ KƏLNİYƏT

Şah Abbas elan eliyir ki, kim qışın ayazında lüt səhərə kimi qalsa, filan mülkü verəcəm ona. Kəlniyət deyir ki, mən. Nəysə. Doqovorrarını yazıllar, Kəlniyət kürkünü çıxardıf qoyur ora, lüt, üzr isdiyirəm, gözətçi bunun yanında, səhəri açır. Gedillər şahın yanına. Hə. Deyillər ki, dediyin kimi elədi. Sənədi ver, getsin mülkünə sahib olsun. Şah Abbas deyir:

– Xeyr. Bu kəntdən baxanda o biri kəntdə işıx yanırdı, gözünnən isinif.

Şaha neynəsin. Amma maraxlı burasıdır ki, saray əhlinin təsərrüfat işinə bu Kəlniyət baxırdı. O vaxdı da qaz yox, elektrik yox. Daş evlərdi. Burda sajayağın üsdündə qazan qaynıyır. Deməh, yeməh-işməh bunnan hasil olur. Kəlniyət əmr eliyir ki, ojağı damda qalıyarsız, qazannarı da çıxarıf bajaya düzərsiz. Ə, qardaş, şahın dəyqası keşməz. Yeməh vaxdı nə çörəh gəldi, nə çay gəldi. Bütün aləm qarışıf, şah oturuf.

– Ə, bu nədi belə?

– Vallah, Kəlniyət belə əmr elədi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ojax damda yanır, qazan, qab-qaşıx da bajanın başında. Şah Abbas məhətdəl qalır. Damda ojax yana, orda qazan qaynayar? Çağırır.

– Ə, dəlisən, nəsən?

Deyir:

– Şah sağ olsun, dəli deyiləm. Nətər olur ki, mən bu kəntdə gözümnən isinə bilirəm, o damda ojax yanır, çaydan orda qaynıya bilmir? Qaynıyajax.

Şah Abbas əlini vurur Kəlniyətin kürəyinə, deyir ki, kəlimsən ki, kəlim.

Sənədini götürür, gəlir.

## 18. ŞAH ABBASLA BƏRƏÇİ

Bir gün Şah oğlu Şah Abbas Vəzir Allahverdi xanı çağırır ki, gedəh məmləkəti gəzəh, görəh camaatın vəziyyəti nətərdi. Nəysə, bı kənd sənin, bı kənd mənim, gəlif çıxıllar Kür çayının qırağına. Bu çayı addamalı olullar o tərəfə. Bırda bir bərəçi oluf. Bərəçiyə deyiflər ki, qardaş, biz dərviş babayıx, pulu pul, minnəti minnət, hakqı da hak. Bizi addadarsan o tərəfə?

Deyir:

– Niyə addatmıram, gəlin oturun.

Gəlif oturullar. Rəvayətə görə, o bərəçinin bıları keçirtdiyi yer çox enni imiş. Nəysə, başdıyır bı bərəçi bılara məzəli şeylər danışmağa, yolun damarını kəsməh üçün. Bılar çox gülür. Bı vəzir Allahverdi xan çox gülməli şeylər danışır, bılar gülüllər. Bı bərəçi də yaxşı dəmkeş imiş. Deyir:

– Ə, sən yaman lotu oğlansan, bizi yaman güldürdün. Saa şərab verəjəm, iç. Bir az da qızış, səndə yaxşı sözdər var.

Bı yerinnən qalxır, bir tulux çıxarır. Tuluxdan üş dənə quruşqaya şərab süzür. Deyir:

– Götürün bını içəh, qoy bir az da kefimiz qalxsın.

Deyir:

– Qardaş, biz görürüh sən yaxşı adamsan. Hamma biz içən dəyilih, dərviş babayıx. Bizə işməh olmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Ə, bı dəryanın ortasında kim kimədi. Götürün vırax getsin. Qiyamat qopmuyajax ha. Gündə sizin kimisinin yüzünü o tay-bu taya aparıram. O taya gedəndə də vırıram, bı taya gələndə də.

Deyir:

– Yox ey, bizə olmaz.

Bir az da keçir, genə söhbətin şirin yerində bərəçi götürür, deyir:

– Ə, dünyanın axırı dəyil ha, vırın getsin.

Deyillər:

– Yox ey, biz dərvişih, bizə olmaz.

Nəysə, quruşqanı çəkir başına, özünkünü də içir, bılarınkını da.

– Ə, siz yaman yaxşı oğlansız. Tay az qalmışıx o taya çatax. Götürün bir quruşqa içəh. Deyir, yox ey, bircə qurtum olsa, içməlisiz.

İkisi də baxır bir-birinin üzünə. Öz quruşqalarınnan tökülər bının quruşqalarının üsdünə. Hərəsinin quruşqasında bir qurtum qalır. İçillər. Bı kişi qırağa çatmağa az qalmış, durur o tərəf, bı tərəfi yığışdırır eliyir. Hazırraşır ki, o tərəfə kəmənd atsın, qayığı bağlasın. Şah Abbas vəzir Allahverdi xana deyir ki, bına deynən ki, biz filankəsdərih. Bu cür ki, bizi ordan bıra güldürə-güldürə gətirdi, gəl bının hakqını ikiqat verəh. Bı ikisi bı bərəçinin başı qarışanda bu cür xosunnaşa-xosunnaşa danışıllar belə. Hə, düşəndə bı vəzir Allahverdi xan yaxınnaşır, deyir:

– Ə qardaş, sən bizi ordan bıra yaman güldürə-güldürə gətirdin. Allah sənin ata-anaa rəhmət eləsin. Özü də bilginən ki, o Şah oğlu Şah Abbasdı, mən də vəzir Allahverdi xanam. Tanıginən, biz dərviş-zad dəyilih. Hə. Bının hakqı nə edirsə, de, bının hakqını saa ikiqat verəh.

Bərəçi bını eşidən kimi tez yerdən qalxır, üzünü tutur Allaha tərəf, deyir gülə-gülə:

– Ey Allah, mən neçə ildi, bırda o tərəf-bı tərəfə adam daşıyıram, özü də o tərəfə keçəndə də içirəm, bı tərəfə keçəndə də içirəm. İndiyə qədər nə Şah Abbas olmuşam, nə də Vəzir Allahverdi xan. İndi bılar bir damcı içən kimi biri Şah Abbas oldu, biri də vəzir Allahverdi xan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 19. ABDAL QASIMLA ERMƏNİ AŞIĞI

Saz aşığı erməni gəlir. Deyir ki, gedif Avdal Qasımı bağlıyajam. Avdal Qasım da, deyir, yolun qırağında qolunu yayıf söykənif ağaca. Erməni Avdal Qasımı görməmişdi, tanımırdı, amma eşitmişdi Qasım belə hazırcavab adamdı. Deer gəlif keçəndə Avdal Qasım görür ki, bir erməni çiynində saz kəndə tərəf gedir. Deyir:

– Ə, hara gedirsən?

Deyir:

– Qasım kirvənin yanına.

– Ə, nəyə gedirsən?

Deyir ki, gedirəm onu bağlıyajam.

Deyir:

– Nətər bağlıyajan? Bir de görüm, nə deyif bağlıyassan?

– Deyəjəm ki,

Əziziyəm, bəndə səni,
Salaram bəndə səni.
Qoymaram gələsən,
Bizim kəndə səni.

– Bəs onda Avdal Qasım dinməz durajax?

Deyir:

– Məə nə deyəjəh bu sözün qabağında?

Deyir:

– O da deyəjəh ki,

Əziziyəm bəndə səni,
Salaram bəndə səni.
Yıxaram harsınını,
Qoymaram kəndə səni.

Elə orda da erməni qayıdır dala. Deyir:

– Ə, bunun çobanı belə danışanda indi gör Qasım nağarajax da. Gör mana nə deyəjəh?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 20. BİR QARINGAH OXUYUN

Deyir bir gün Qarabağ bəylərindən biri ətraf kəndlərdən varlı-hallı adamları toplayıb qonaqlıq verirmiş. Qonaqlığa gələn bəylərdən biri yolda Avdal Qasımla rastlaşır. Ordan-burdan söhbətləşirlər. Məlum olur ki, hər ikisi eyni yerə qonaq gedir. Bəy deyir:

– Bı qonaqlıqda indi məndən soruşacaqlar ki, sənin üçün nə oxunsun. Vallah mənim muğamnan-zaddan elə də başım çıxmır. Heç bilmirəm nə cavab verəcəyəm.

Avdal Qasım da arif adam idi. O saat məsələni başa düşür, deyir:

– Heç fikir eləmə, bəy. Sənin orda gözün məndə olsun. İki barmağımı qaldırsam, de ki, xanəndə "Dügah" oxusun. Üç barmağımı qaldırsam, "Segah" sifariş edərsən, olar, bitər.

Bəy çıxış yolu tapdığı üçün çox sevinir. Birlikdə gəlib çatırlar ziyafət verilən evə. Yeyib-içdihdən sonra ev yiyəsi bir-bir qonaqların arzusu ilə xanəndəyə sifarişlər verir. Növbə bəyə çatanda Avdal Qasım tez iki barmağını göstərir, bəy də "Dügah" sifariş eləyir, xanəndəyə pul bağışlayır. Bir müddət sonra yenə də bəyin arzusunu soruşurlar. Bu dəfə də Avdal Qasım üç barmağını göstərir. Bəy bu dəfə "Segah" sifariş verir. Bəyin səxavətindən ruhlanan xanəndə bir müddət sonra yenə də bəyin arzusunu rica edir. Bəy qalır çıxılmaz vəziyyətdə. Çar-naçar yenə də baxır Avdal Qasıma. Bu dəfə də Avdal Qasım dörd barmağını yuxarı qaldırır və məclis əhli duyuq düşməsin deyə tez həmin əlini belinə doladığı kəmər yerinə keçirir. Avdal Qasımın qarnına işarə etdiyini düşünən bəy üzünü xanəndəyə tutub deyir:

– İndi də bir qarıngah oxuyun.

## *LAHICLILAR HAQQINDA*

## 21. LAHICLILARIN DUZ ƏKMƏSİ

İki qardaş olur. Görüllər ki, hamı taxıl, yonca, arpa əkif-becərir. Bunnar da qərar verir ki, nə əkilmirsə, onu əkəh. Yaddarına



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

düşür ki, duz əkən yoxdu, duz əkəh. Yeri şumladıllar, duzu əkillər. Vaxt gəlif keçir, duz çıxmır. Hara çıxır ə. Fikirrəşillər, deyillər:

– Ə, bu il quraxlıx oluf, duz çıxmıyıf.

Gələn il yeri şumluyuf bir də əkillər. İndi qərar verillər ki, qaroolun çəhsinnər. Bəlkə də, oğru gəlif aparır, oğurruyullar. İndi qarool çəkillər. Biri sahənin o başında duruf, biri bu başında. Hərəsinin də əlində bir tüfəh. O ayannan, bu da bayannan şumu gözdüyüllər. Bu dəkqədə yekə milçəhlərdən biri vızıldaya-vızıldaya gəlif qonur şumun ortasına. Milçəh qonanda biri görür, o birisi görmür. Bu indi çağıra bilmir ki, milçəh uçar gedər. Fışdırıx verir. O biri ordan baxanda isdiyir deyə ki, gəlif da oğru. Milçəh ordan uçur düz qonur bunun alnına. Barmağıynan gösdərir ki, oğru burdadı, qonuf alnıma. – İnsannarın avamlığına misal çəkillər ey. – O da dizini qoyur yerə, tarap bunun təpəsinə bir güllə. Gəlif görür ki, paho, kişi ölüf, milçəh də uçuf gedif.

## 22. LAHICLILARIN ODUN YIĞMASI

Lahışdılar odun yığmağa gedillər. Buların qabağına odun yüklü ulaxnan bir kişi gəlir. Fikirrəşillər ki, nağarax ulağın beli qırılsın, bu kişi odunu apara bilməsin? Uşaxdı dana. Nağarax, nağarax? Nə yühləsinnər? Söhbətin dediyinə görə, biri bajarıxlı imiş. Deyir:

– Tapdım.

– Nə?

– Paltarımızı soyunax, doldurax torbaya, meşoğa, qoyağ ulağın belinə, sarıyax. Ulağa ağırrığ eləsin, öldürsün.

Paltarrarını soyunullar, yüklüyüllər ulağın belinə odunun üsdünnən. Ulax yiyəsinin də ürəyinnəndi ki, paltardı, aparıf geyinəjəh. Bular da gözdüyüllər ki, ulağın beli bu saat qırıla, bu saat qırıla. Ulax çıxıf gedir, beli qırılmır.

İndi hamısı çılpağ, odun yığıllar. Baxıllar ora-bura. Özünnən deyənin biri baxır, görür ki, hündür bir ağaşdı. Ağacın bir budağı gedif ey, quruyuf, qabığı tökülüf. Ağ buynuz deyillər ona. Oluf ağ buynuz. Fikirrəşir, deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mütləx mən o qanadı qırmalıyam.

Qalxır ağaca, qanatnan tuta-tuta gedir, dartır, olmur. Yavaş-yavaş qanadın ujuna gedir, dartır, dartır, genə qanat qırılmır. Geri də qayıda bilmir. Yoldaşının birinə deyir ki, gəl sən də tut mənim ayağımnan, dartax, ikimiz qırax. Bu minvalnan yeddi nəfər olullar, bıların yeddisi də tutuflar ordan, sallana qalıflar, qanad da qırılmır. Birinci tutanın əli ağrıyır. Deyir ki, ə, siz mənim ayağımnan bərk tutun. Mən əlimə tüpürüm. Heylə olar yıxılır bir-birinin belinə. Odunsuz-zadsız qayıdıf gəlillər.

## *SİRİKLİLƏR HAQQINDA*

### 23. ŞIĞIDIĞIN BƏSDİ, BİR AZ DA QANAD ÇAL

İki dənə siriyli göydə təyyarə görür. Biri o birisinə deyir ki, başaa dönüm, o nədi? O birisi də qayıdıf deyir ki, ayə, adamdı da, özünə qanad bağlıyıf uçur.

Deyir:

– Biz də helə eliyə bilərihmi?

Deyir:

– Hə, niyə eləmirih?

Gedillər biri özünə, qollarına uzun taxda bağlıyır, çıxır bir qəlbi dağın başına. O birisi də dağın aşağısınnan bına baxır. Bı özünü ordan atır. Başdıyır elə başaşağı şığımağa. Bı birisi baxır ki, bı heş qanad çalmır, elə süzür. Deyir:

– Başaa dönüm, şığıdığın bəsdi, bir az da qanat çal.

### 24. BU NƏ QƏŞƏNG MOSKVİÇDİ

"Pobeda"nın təzə çıxan vaxdıymış. Bir nəfər rayonnan Siriyə "Pobeda" ilə qonax gedir. Hə, gedillər, kəntdə saxlıyır maşını. Bı siriylinin biri gəlir durur maşının yanında, başdıyır oxuyur maşının üsdünü: "Po-be-da". Qayıdıf deyir ki, ayə, başaa dönüm, bı nə qəşəh masqvişdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 25. MƏNİMKİ DƏ NOLDADI

Deyir bir gün maşınnan icra katibi, nə bilim, isbalkom, raykom gedillər Siriyə. Kəntdə də bir baməzə kişi varmış. Bılar gedillər bının qəbuluna ki, bəs bı kişi hamıya həmişə hazırcavab oluf. Bı kişini də rayonda tanıyan varmış dana. Yolnan bılar getdihləri yerdə, meşə kənarıynan maşınnan gedirmişdər, görüllər ki, bı kişi ulağı yühlü gəlir. Raykoma deyillər ki, həmən baməzə kişi, hazırcavab kişi gəlir. Bı deyir:

– Ə, ona bir bəlqəmə* atajam. Görüm, cavab verə biləjəhmi?

Maşını saxlıyıflar, kişiyə deyiflər ki, a kişi, benzinimiz qutarıf. Bəlkə, bir az benzinin ola. Kişi tez ulağın quyruğunu qaldırır, deyir:

– Paho, mənki də noldadı e.

## 26. İSTİNİ İÇƏRİ VERİR, TÜSTÜNÜ ÇÖLƏ

Bir gün bir siriyli gedir bir yerə. Bırda bı bir dənə peş görür. Bınnan irəli də peş yoxuydu. Ojağı elə damın ortasında qalıyırdılar. Bı bına çox təəccüb qalır. Qayıdır gəlir, kəntdə deyir: "Ay qardaş, bu gün bir şey görmüşəm bir yerdə, isdini içəri verir, tüsdünü çölə".

## *KƏBİRLİLƏR HAQQINDA*

## 27. KƏBİRLİNİN ÇOMAĞINI QALAYLATMASI

Kəbirrilər dağa gedəndə – köçəri tayfadı dana, – gedib bı Ağcabədinin Qalayçılar kəndi var, ordan keçirmişdər. Bı kəbirrinin biri görür ki, ə, o aravadın başında par-par parıldıyan bir şey var, bı arvadın əlində par-par parıldıyan bir şey var. Bir dənə də bir ağsakqal kişi gəldi, bının əlində bir dənə bir məcmeyidi, ağappaxdı. Qalaylatdırıf gətirirmiş. Bir də yaxşı afdafadı. Deyir:

---

* bəlqəmə atmaq – söz atmaq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, qardaş, səhərdənnən fikir verirəm, bırda qoyunun qabağında dayanmışam. Gedillər girillər o əvə, çıxanda biri teşt, biri qazan gətirir. Məni başa sal görüm bı nədi belə? Bı nə hak-hesabdı belə?

Deyir:

– Əşi, bırda nə var belə, aparıf pulunu verirsən, qabıı qalaylatdırıf gətirirsən dana.

Bı kişi gedənnən sora, bının da əlində gərməşovdan yaxşı bir çombağı, ağacı varmış. Bının qabığı qurumuşmuş, qabığı tiftihlənmişmiş, pis görünürmüş. Deyir:

– Hə, bını aparım qalaylatdırım, desinnər ə, filankəsin nə yaxşı çombağı var.

Gedir. Nəysə.

– Salam.

– Əleyki-salam.

Görür ki, biri körüyü basır, biri də qabları qalaylıyır. Nəysə, görür ki, ə, heş bura çombağ gətirən yoxdu. Amma bir də baxır ki, biri çombağa oxşar nəsə bir şey gətirif qalaylatdı. Demə, bu tüfəh imiş. Deyir:

– Ə, qardaş, ala bı pulu, bı çombağı qalayla.

Deyir ki, qalayçı:

– A qardaş, mən çombağ qalaylamıram.

Deyir:

– Ə, yekə kişisən. Ala bı pulu mənim çombağımı qalayla. Mənim pulum pul dəyil? İki qat deyirsən, iki qat verim, üç qat deyirsən, üç qat verim. Təki mənim çombağımı qalayla.

Deyir:

– A kişi, burda çombax qalaylamıllar, burda mis qalaylıyıllar.

Deyir:

– Ə, sənin üçün nə fərqi var, ya çombax, ya mis. Al mənim çombağımı qalayla.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 28. KƏBİRLİNİN AĞSAQQALI

Bir gün deyir, kəbirrinin bir arvadı əlini salır belə dirəyin o tərəfinnən meşoxdan un götürür. Dirəh qalır qollarının arasında. Başdıyır hay salır ki, bəs əlimi nətər çıxarım? Un da ovcunda. Hay düşür, ağsakqalı çağırıllar. Bı gəlir baxır, baxır, deyir:

– Hə, bının başqa yolu yoxdu. Gərəh dirəh kəsilsin.

Nəysə, dirəyi kəsif bı arvadın əlini ordan çıxarıllar. İndi bı ağsakqal başdıyır ağlamağa. Deyillər:

– Ay ağsakqal, day niyə ağlıyırsan? Şükür Allaha, arvadın əlini ordan çıxartdın.

Bı da qayıdır deyir ki, yox e, ona ağlamıram. Ona ağlıyıram ki, mən ölənnən sora siz nağayrassıız?

## *BAĞIRBƏYLİ* ƏHVALATLARI*

## 29. DAĞ BOYDA OLARDI

Meşəbəyi Mahmud Unannova** gəlibmiş. İmanoğlu Məstalı onu evinə dəvət eləyir. Mahmud acından ölürmüş. Elə ha gözləyir ki, süfrəyə yemək gətirərlər. Amma heç özünü o yerə qoyan olmur. Çayı çay dalınca süzüb gətirirlər kişinin qabağına. Mahmud görür ki, olmayacaq, ayağa durub Məstalı kişinin qolundan tutur, deyir:

– A kişi, bir bura gəl.

O, Məstalını özü ilə bərabər darta-darta çıxarır həyətə. Əlindəki qamçını qarşı tərəfə – Dəyhan düzündən yuxarıda ucalan Daz dağa tərəf tuşlayır:

– O dağı görürsən? – deyə soruşur. Bir şey başa düşməyən Məstalı kişi çaşqınlıqla:

– Görürəm, başa dönüm, nədi ki?

O da cavabında deyir:

– Əgər su içmağın adama bir xeyri olseydi, hər bir qurbağa o dağ boyda olardı.

---

* Laçın rayonunun Ağanus kəndinin  xalq arasındakı adı
** Laçın rayonunda kənd



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 30. ELƏ TOXUMDU Kİ...

Müharibə illəri imiş. Kənddə qalan qocaları, qız-gəlini yığıb aparıbmışlar kolxoza taxıl biçməyə. İşin arasında oturub dincəlirmişlər. Mehrablı Qızbəsin qızı Növrəstə üzünü biçinçi yoldaşlarına tutub deyir:

– Ay uşaqlar, bu gejə yaxşı bir yuxu görmüşəm. Gördüm ki, bir yerdəyəm, Əzrayıl gəlib canımı almağa. Birdən Sadıq oğlu Əli böyürdən çıxdı, gəlif Əzrayıla nə dedi, nə demədi bilmədim, məni onun əlindən alıb apardı.

Növrəstənin dediklərinə diqqətlə qulaq asan Mürsəl oğlu İsa dedi:

– Aparar baji, aparar. Bu Məhərrəm uşağı elə toxumdu ki, onnarın sözü Əzrayılın da yanında keçər, inkir-minkirin də.

## 31. UŞAQLARI SUVARMAĞA GƏTİRMİŞƏM

İsa kişinin evi kəndin yuxarı başında idi. Onların evinin yuxarısında, meşənin ətəyində qədim bir xırman var idi. Ona Alçalı xırman deyirdilər. İsa kişinin yeddi qızı var idi. Bir dəfə gejə kişi bərk susayır. Hansı qızından su istəyirsə, ona su verən olmur. Sən demə, səhəngdə su yox imiş. Qorxudan bunu heç kəs kişiyə deyə bilmir. Atalarının buyruğu dalınca bir-bir dəhlizə çıxır, səhəngin boş olduğunu görüb geri qayıtmırlar. Beləliklə, İsa sonuncu qızından da su istəyəndən sonra işin nə yerdə olduğunu başa düşür. O bərk hirslənib qızlarının hamısını qatır qabağına, gətirir bulağın başına. Onların hamısını bircə-bircə məcbur eləyir ki, əyilib bulaqdan su içsinlər.

Evi bulağa yaxın olan Maqsud səs-küyə çıxır həyətə. Səsindən tanıyır ki, bu İsa kişidi. Maqsud bir az da qənşərə çıxıb xəbər alır:

– Ə, İsa, bu gejə vaxtı nağarırsan orda?

– Ə, Maqsud, sən öl, Alçalı xırmanda susundan ölüb batırıq. Uşaqları suvarmağa gətirmişəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 32. ӘL ÇӘKİN YAXAMDAN

Axşam imiş. İsa kişi ot biçinindən təzəcə qayıdıbmış. Eşşəyini tövlənin qabağındakı payaya bağlayıb qabağına göy ot qoyubmuş. Özü də əl-üzünü yuyub dəhlizdə həmişəki yerində mütəkkəyə dirsəklənib uzanmışdı. O, Fitat arvadın süzdüyü pürrəngi çayı içirdi ki, qonşuları Kamal müəllim gəlir.

– Axşəmın xeyir, İsa dayı.

– Ağbatın xeyir, Kamal. Gəl otu, çay içax.

– Sağ ol, İsa dayı, içmirəm. İsa dayı, Suçıxanda bir yük odunum var, gəldim ki, eşşəyi verəsən, tezdən gedəm onu gətirəm.

– Nolar, Kamal. Verərəm, niyə vermirəm. Bağlamışam pəyənin qabağına. Tezdən gəl, aç apar. Amma elə gəti ki, mən də işə gedəjəm, gejikmiyim.

– Yaxşı, arxeyin ol, əşi. Di sağ ol, mən getdim.

İsa kişi də deyir ki, sən də sağ ol. Kamal müəllim təzəcə gedibmiş ki, Əli müəllim gəlir.

– Axşəmın xeyir, Qara dayı, – o, İsa kişini belə çağırırdı.

– Ay ağbaxtın xeyir, Əli. Keş gəl. Gəl otu, çay içax.

– Sağ ol, Qara dayı, gəldim eşşəyi verasan, Şüşənin tükanında un var, tezdən gedəm bir tay alam gətirəm.

İsa kişi deyir:

– Əli, verərəm, niyə vermirəm. Amma canın haqqı, sənnən qabax, elə bax hindicə Kamal gəlmişdi, dedi Suçıxanda odunum var, verdim ona.

Əli müəllim deyir:

– Yaxşı, sağ ol, Qara dayı, gejən xeyrə qalsın.

İsa kişi deyir:

– Sən də sağ ol.

Əli müəllimdən azca sonra Vəli müəllim gəlir. Kişi hələ də çayını içə bilməyibmiş.

– Axşəmin xeyir, İsa dayı.

– Ağbaxtın xeyir, Vəli. Gəl, otu, çay içax.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Vəli müəllim oturur. Fitat arvad ona da çay gətirir. İsa kişi xəbər alır:

– Vəli, sən allah, xeyirdimi gejə vaxtı?

– Xeyirdi, İsa dayı. Padaranda bir yük otum var, gəldim ki, eşşəyi verəsən, qarannıqdan duram, gedəm onu gətirəm.

İsa kişi Vəli müəllimə heç nə demir. Böyrünə qoyduğu çəliyini götürüb hirslə ayağa qalxır. O evin qabağına çıxır uca səslə çağırır:

– E he-e-y, Ağanus camaatı, e he-e-y!

Yay vaxtı olduğundan hamı dəhlizdə, balkonda, həyət-bacada imiş. Odur ki, onun səsini eşidib yerbəyerdən hay verirlər. O taydan Balış, Məhərrəm, Qəbil, Maqsud, aşağıdan qonum-qonşular az qala bir ağızdan:

– Ə, nədi İsa, noolub? – deyə soruşurlar.

İsa kişi səsini bir az da qaldırır.

– Ə-ə-ə, eşşəyi palanlamışam, aparıram bağlayam Talıbın tutuna (Talıbın tutu deyilən ağac kəndin ortasında idi), hansınıza lazımsa, gəlin aparın. Əl çəkin mənim yaxamdan.

## 33. QOYUN İSİNƏK

Qışın oğlan çağıymış. Bərk şaxtalı bir gecədə Heydər oğlu Xanların evinə od düşür. Ev başlayır yanmağa. Gecə yarısı imiş. Ev yiyələri, qonşular yuxudan hövlənak oyanır, haray-qışqırıq salıb camaatı köməyə çağırırlar. Ayağı yer tutan Xanlar kişinin evinə doğru qaçır.

Əstan kişi də səs-küyə yuxudan oyanır. Biləndə ki, yanğın var, tələsdiyindən geyinə bilmir. Əyninə bir sırıxlı gödəkçə keçirib alt paltarında yıxıla-dura özünü çatdırır Xanlar kişinin evinə. Amma gəlib çatınca qoca o qədər üşüyür ki, soyuqdan dişləri şaqqıldayır. Əstan kişi çatan kimi yanğını söndürmək üçün əlləşən adamları itələyib qabağa soxulur. Çənəsi soyuqdan əsə-əsə hirslə deyir:

– Ə, nə qayırırsınız, o yana durun, qoyun isinax. Ə, görmürsüz şaxtanı?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 34. BAŞIN QOLTUQ GÖRMƏYİB

Qalayçı körüyünü atın üsdünə bağlamışdı, özü də oturmuşdu, misi getmiş qabları qalaylamağ üçün bir kəntdən başqa bir kəndə gedirdi. O biri kəntdə də tanıyırdılar, ildə bir dəfə, iki dəfə gedirdi. Bilirdilər ki, gələcəhdi nə vaxdsa, bu qalayı getmiş qazandı, ləyəndi, mejməyidi, hazır qoymuşdular. Deyir, gedirdi atın üsdündə, düzün ortasında gedirdi. Çoban da qoyunun yanında durmuşdu. Çobannarda adətdi yolun qırağında duruf gəlif-gedənnən papiros isdəməh. Durmuşdu, deyir, bu atdı gəlif keçəndə bunu saxlıyır.

– Salam-məleyki.

– Əleykimət-salam.

Çox eybəcər çoban idi, erkəh qoyuna gedirdi. Erkəh qoyuna gedən çoban çox qanmaz sayılırdı. O annamırmış ki, insanın təpəsinə ağaşnan vursan, ölər. Bunu saxlıyır:

– Kimsən, nəçisən?

Deyir:

– Ay bala, qoy çıxım gedim yolumnan, salamını verdim, neynirsən, bir şəxsəm. O kəndə gedirəm, qalayçıyam. Qab qalaylamağa gedirəm.

Deyir:

– Qalaylamax nədi?

Deyir:

– Ağardıram. Qabları ağardıram, – deyən kimi çoban bunun yükünü aşırdır, salır yerə. Bu da yükün üsdünnən dəyir yerə, yıxılır. Deyir:

– Ay oğul, nə isdiyirsən?

Deyir:

– Mənim bu ağacımı qalayla.

Deyir:

– A bala, ağacı qalaylamağ olmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Demirsən qalayçıyam, mən sənə burda hardan alım qazanı, mənimki də ağaşdı da. Demirsən ağardıram, mənim bu ağacımı ağart.

Gərəh burda körüh qura, kömür közərdə, körühlüyə, sora ağarda. Ağac da yanajax, quru ağac. Deyir:

– Ay oğul, yanar ey ağac, qalay götürməz.

Olmur. Payasını qaldırır, deyir:

– Səni, boynu kökünə bir ağaş vuraram ağzın dəyər yerə. Qalayçı deyilsən, qalayla.

Ayna-bayna baxır, köməh axtarır. Görür ayanda bir kişi qoyun otarır. Deyir:

– Oğul, qalaylıyaram, o kişiyə bir sözüm var, deyim gəlim.

Körüyü də burda qoyuf qaça-qaça gedir kişinin yanına. Kişi görür ki, uşax atdını saxladı, yükünü aşırdıf saldı, kimisə incidir. Budaha, qaça-qaça gəlir.

– Noluf?

– A balam, bu uşax sənindi?

Deyir:

– Hə, mənim oğlumdu.

Deyir:

– Sənin oğlundu lap yaxşı. Çox olsun sənin oğlun, amma bu ağılda olmasın.

Deyir:

– Nədir?

Deyir ki, a kişi, quru ağaş heş qalay götürər? Mən qalayçıyam, yolumnan gedirəm kəntdərə qalay qalaylamağa. İndi yükümü də aşırtdı, məni də atdan saldı. Dirənif ki, bu ağacı qalayla. Kişi nə desə yaxşıdı?

– Ə, nə qanır, nə qanır ə. Çobandı, nə qanır, get ağart, ver əlinə.

Əlacı kəsilir, nağarsın ağsakqal belə deyəndə. Bunnan da güman yeri kəsildi. Qayıdır gəlir, körüyü qurur.

– A bala, vallah yanajax.

Razılıx vermir, tutaşıllar. Bu deyir qalaylıya bilmərəm, bu deyir qalayla. Tutaşıllar, yazıx qalayçının başı keçir bunun qoltuğu-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nun altına. Qalayçının başını nətər sıxırsa, qalayçı görür yox ey, başı əzilir, xırtıldıyır, deyir:

– Burax ə, burax ə, qalaylıyıram.

Əlacı kəsilir, başı əzilir axı. Körüyü qurur, indi ağacı soxur körüyün içinə. Qara tüsdü qalxır, çəkir qalaydan sürtür ki, birtəəri eləsin versin. Bir ayrı qalayçı keçirdi. Heş qalayçı deyildi ey, ağardanmış. Bu əsl qalayçı idi. Soradan gələn qalayçı görür bu, ağacı soxur, çıxardır. Deyir:

– Ə, nağarırsan?

Deyir ki, ağaş qalaylıyıram.

Deyir:

– Ə, quru ağaş qalay götürər, Allah başaa xeyir eləsin. Sən nətər qalayçısan, sənin ağlın kəsmir ki, quru ağaş qalay götürməz?

Deyir:

– Başın qoltux görmüyüf, başın qoltux görə, görüm götürür, götürmür.

Bunnan da qalayçının söhbəti bitir.

## 35. QAZININ BÖLGÜSÜ

Deyir, ölkənin padşahının üç oğlu vardı. Vaxt gəlir, padşah əldən düşür, ölüm yatağına düşür. Oğlannarını çağırır, vəsiyət eliyir:

– Məni yaxşı dəfn eliyin, gələnə-gedənə yaxşı baxın, ağıllı olun, mülkümə yaxşı baxın, dağıtmıyın.

Vəsiyətini eliyir. Biri xəzinəyə gedir ki, harda qiymətdi şey var, onu götürsün, kiçih qardaşı qəbir qazmağa göndərillər. Bu da gedir eşşəh xəndəyinə oxşar bir şey qazır. Ortancıl qardaş gələn-gedəni qarşılıyır. Bu minvalnan kişini yola salıllar. Keçillər kişidən qalma mirası bölməyə. Bölüllər, düz gəlmir. Böyüh qardaş – böyükçülüh də var, – birinci bu gəlifsə, bu da qazanıf da. Soradan gələnnən bu bir döylü axı. Beş yaş o birilərinnən yekədirsə, beş yaş artıx qazanıf. Qoyuna gedifsə, beş quzu əmələ gəlif da bir qoyunnan, böyükçülühnən əlaqədar olarax böyüh qardaş özünə çox pay götürür. Ortancıl deyir məə də çox düşməlidi, kiçih deyir bəs mən nətər, filan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bölə bilmillər. Çox götür-qoy edillər, buların böyüyü-kiçiyi yaxın gəlmir, buların bölgüsünə şərih olmur, bulara köməh eləmir. Nəhayət, qərar verillər ki, getsinnər qazının yanına, qazı bölsün. O vaxdı bölgünü qazı bölərmiş. Gəlillər qazının yanına. Qazı deyir:

– Xoş gəldiniz, beş gəldiniz, kimsiniz, nəçisiniz?

Deyillər, filan padşahın övlatdarıyıx, atamızdan qalan mirası bölə bilmirih aramızda, xayiş edirih onu bizə bölüf verəsən.

Deyir:

– Hə, başınıza dönüm, sadalayın görüm atanızdan sizə nə qalıf?

Başdıyıllar sadalamağa. Atamızdan bizə bir at qalıf, bir xəli qalıf, bir tapança qalıf, bir dəhrə qalıf. Bütün nəyi varsa, hamısını sadalıyır, sadalıyır, sadalıyır. Qutaranda deyir deyin. Deyir:

– Hə, qutardıx.

Başdıyır indi qazı bölməyə. Qarabağda danışılana görə bütün haça dilli atdar Şirvan zonasında oluf. Bu atdar ceyranı quzu kimi tuturmuş, yorulmax bilmirmiş, ceyrannan bərk qaçırmış. Nişanalarını deyirəm: ayaxları səkilli olur, uzun biləh, haça qulax, boynu nazik. Elə bu əlamətdər arıxlığı bildirir da. Deyir ey, dil nazik, bel nazik, tel nazik, denən bir quru cəsəddi da. İndi onun sözü olmasın, bu əlamətdər onun arıxlığını bildirir, amma bərk qaçan olufdular. Hətta deyillər hər qoçax onun üsdündə dura bilməzmiş. İndi gör bu atı qazı nə günə qoyur. Deyir:

– Şirvanski dayça – endirdi təmiz, təmiz qiymətdən saldı, – amerkanski tapança, iranski xalça, – xəlini xalçaya çevirdi, – qazı paluçayetsya.

Seşdi içinin yekələrini götürdü özünə. Hakk alır da, daa havayı bölmüyəjəh ki? İndi yetimin payını verir.

– Xorratski nehrə, – fikir ver ey nə boydadı bu, – dülgərski cəhrə, kuzniçeski dəhrə yetim paluçayetsya.

Gör yetimə nələr verdi. Bu, nəyə gəlir? Bir növ təlimdi ki, malını özün böl. Qarabağda deyillər ki, özgənin itirdiyi malı özgə bayatıynan axdarar. Tapar tapar, tapbaz ona əsər eləməz. Gərəh özün axtarasan malıı. Bu da ona bənziyir. Malı bölə bilmədin, qazı da seşdi yarıyannarını özünə götürdü, içinin çürüyünü verdi səə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 36. MOLLA SƏNİN DAYINDI

Deyir, donuz dadanmışdı mollanın çəltiyinə. Bu söhbətdər indiki mühitə uyğun gəlir. Çəltiyə dadanmışdı. Çəltiyi molla yığırdı dəyəyə. Xam donuz gəlirdi bu vaxtdarı, uçuruf çəltiyi yeyif dağıdırdı. Molla bir dəfə, iki dəfə, gündüz oranı hörüf qayıdırdı, gejə donuz gəlirdi. Bu minvalnan tamam mollanı donuz cana yığır. Molla arzuluyur ki, mən nağarım bu heyvannan hayfımı alım. Daa çəltik mındarranıf çıxıf sıradan. Ağlına gəlir ki, bir quyu qazım, donuz gəlsin düşsün quyuya. Onda donuzdan hayfımı alım. Belə də eliyir. Deməh, o donuz haranı uçuruf gəlirdisə, onun içəri üzünnən dərin bir quyu qazır. Quyunun üsdünə qarğı çöplərinnən düzür, üsdünə də azacıx küləş atır. Donuz gəlir içəri keçəndə təpəsi üsdə düşür quyuya. Molla səhər gəlir görür ki, donuz quyuda. Hirsdi adam, ajığı tutmuş, ambarı dağıdıf. Donuz nağarsın? Götürür qarğıynan belə vurur, qarğı çatmır. O biri qarğını götürür vurur, çatmır. Qarğı nağarajax donuza. Birini də götürür vurur, ucu toxunur donuza. Donuz, xam donuz, xortulduya-xortulduya quyunun dibində dairə vurur, xortulduya-xortulduya, səs eliyə-eliyə. Molla bir də gətirir yoğun qarğı. Belə yendirir, vuranda çatmır. Bir az irəli durur vursun, çatmır. Bir az irəli durur, vuranda mollanın ayağı sürüşür, düşür quyuya, donuzun yanına. Donuz xortulduyur, cumur mollaya. Molla deer ki, – bayax dediyini demir, – indi deer ki, ay Allahın halal heyvanı, nə xort-xort edirsən. Molla sənin dayındı. O anbarda nə qədər çəltih varsa, hamısı sənin payındı. Nə xort-xort edirsən, ay Allahın heyvanı. Yazıx molla.

## 37. MOLLA İTƏ DUA YAZIR

Bir çoban olur, mollanı sınamağ üçün deyir: "Molla dayı, üzdən irax, mənim bir köpəyim var, onu sağaltsan, əmliyi verəjəm saa". Mollanın da tamaxı iti olur. Dua yazır itə. Deyir ki, sən günahımnan keç, günaha yazma, Allah.

Gözüm düşdü çobanın ətinə,
Dua yazıram itinə,
Allah, sən günahımnan keç.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Belə yazır. Deyir:

– Əmliyi ver.

Deyir:

– İt sağalajax?

Deyir:

– Hə, sağalajax.

İt sağalır. Mollanın ətə tamahı düşüb, itə dua yazıf.

### 38. XƏRCİN-XURCUN NƏ ÇIXIR?

At ölmüşdü, aparıf yiyəsi tullamışdı çölə, dərənin birinə. Arığınnan ölmüşdü. Quşdar gəlillər indi bu leşin üsdünə. Dartışdırır kim nə bajarır yeməyə. Quşdar yeyillər. Ala qarğa özünü doyurur, saxsağan da doyur. İndi çıxıllar belə, leşdən beş-on metr aralanıllar, özdərini havaya verillər. Qarğa qənətdərini belə çalır, deyir:

– Arrrıxdı, arrrıxdı.

Saxsağan da qayıdır ki, xərrcin-xurrcun nə çıxır, xərrcin-xurrcun nə çıxır.

Yəni pul verirsən? Müftə şeydi də, yeyirih. Nağarax arıxdı. İndi lətifəsi bizdən uzax. A kişi, müfdə yerə danışıram. Sən məni elə bil imtahan eliyirsən.

### 39. SƏN SƏNSƏNSƏ, BƏS MƏN KİMƏM?

Camaat gəlif parkda oturur, duranda bu özünü dəyişih salırmış. Bilmirmiş özü nədi, kimdi. Bu adamın hansı bunun özüdü. Nəysə, bir gün fikirrəşir, deyir ki, hə, deməli mən özümü tanımağ üçün özümə nişanə qoymalıyam. Gətirir indi bu bir dənə boranını qoyur torbaya, asır tokqasının böyrünnən. Gəlir parka, tokqadan da asılı boranı, balaca bir boranı. Görünür yuxuluyurmuş da bu, duranda özünü dəyişih salırmış. Yatır bu. Yatannan sora özünə oxşar bir şəxs gəlir bunun böyründə oturur. Belə baxır, görür ə, bu, boranını belinnən asıf. Fikirrəşir deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, yaxşı oldu, bu boranını açım bağlıyım öz belimə, görüm duranda bu nağarajax.

Bunun belinnən boranı olan torbanı açır, bağlıyır öz qurşağına, yanı öz tokqasına. Bu oturuf indi bunun böyründə. Bu, yuxudan ayılır. Görür ki, böyründə bir kişi oturuf, boranı da onun belinnən asılıdı, bunun belində də yoxdu. Deyir:

– Baho, dəyişih düşdüm ey.

Fikirrəşir, deyir:

– A qardaş, mən mənəmsə, bəs sən kimsən? Yox, sən mənsənsə, bəs onda mən kiməm?

Orda boranıya görə deyir ha. Boranı bunun belinə bağlıydı, indi bağlıyıf ora, dəyişih salır. Bilmir kim kimdi.

## 40. KİŞİSƏN, STOLUN HAQQINI VER

Pulu yoxdu birinin, bərk də ajmışdı Bakı kimi yerdə, şəhərdə. Fikirrəşir, yürünür, yürünür, pulu yox, ajıf özü də. Resdoranın iyi vuruf, dayana bilmir. Deyir:

– Əşi, gedif doyunca yeyəjəm, onsuz da döyuf buraxajaxlar dana. Da nəyim var, nə alallar?

Gəlir elə içəri girəndə yemahləri mənim kimi yeməmişdi ey, adını da bilmirmiş. Oturan kimi afisiant gəlir.

– Nə isdiyirsən?

Deyir:

– Bax bu camaat nə yeyir onnan məə də ver.

Ə, camaat kefi kök adamdı, oturuf burda, qonaxlıx, konyak, arax, kabab, lüləsi, qarışıf bir-birinə. Nə varsa stalovada afisiant hamısınnan yığır bura. Bu başdıyır həzin-həzin yeyir, yavaş-yavaş təhcəjə yeyir. Fikirrəşir ki, nağarsın, bunun axırı nolajax. Trup deyincə yeyir ey. Tamam yeyir, araxdan, konyakdan da vurur. Doyannan sora qalxır ayağa, əlini vurur stola, deyir:

– Ə, nejə burda bir kişi yoxdu ey, ə – deyəndə stalova da dolu adamdı da. O, bunun üzünə baxır, bu, onun üzünə baxır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Ə, bu nə axmax danışır? Kişi yoxdursa, burdakı camaatın hamısı kişi döyül?

Nəysə, indi heş kəs cürət eliyif deyə bilmir ki, ə kişi, nə danışırsan sən. Bu bir də əlini vurur stolun üsdünə.

– Ə, nejə burda bir kişi yoxdu ey?

Bir oğlan qalxır, gəlir deyir:

– Kişi, əməlli danış, nejə yanı kişi yoxdu ə?

Deyir:

– Var, ay oğul?

Deyir:

– Niyə yoxdu ki?

Deyir:

– Hanı?

Deyir:

– Mən.

Deyir:

– Kişisən, babanın stolunun hakqını ver da.

Hindi bu sözdən sora kim vermiyə bilər?

## 41. QIRQOVUL DEYİB YEYİRƏM

Deer, ovçu ovdan gəlirdi. Bütün günü piyada gəzmişdi qoşalülə tüfəh çiynində. Çox yürünür, yürünür, əlinə ov keçmir. Nəhayət, qayıdır gəlir. Düzü-biyabandı, aşağı düşürdü, deyir. Bərk ajmışdı. Baxıf görür ki, yeri şumluyufdular. Taxıl səpiflər, qarğa gəlif tökülüf, ala qarğa. Qarğaların da növü var ey. Qara qarğa, ala qarğa, dul qarğa. Qara qarğa yeməlidi, yeməh olar. Hə. Ala qarğa gəlif tökülür. Tüfəyi hərriyif atır, qarğanın biri qalır. Bunu götürür gəlir. Görür ki, belə sahənin qırağında nazik su axır. Fikirrəşir, daa yeriyə bilmir, bərk ajmışdı. Deyir:

– Elə bunu təmizdiyim suyun qırağında, yuyum-eliyim başını-gözünü. Şahtikannan-zaddan ojax qalıyım, bunu kabab eliyim, yeyim.

Deer, qarğanın başını kəsir. Tükünü-zadını yolur tökür, qarnını yarır, içini çıxardır. Ətini təmizdiyir, yuyur eliyir. Şahtikan çö-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

pünnən belə şişdər qayırır. Şahtikan yığır gətirir bir xeylax, ojax qalıyır. Başdıyır indi tikələri xırda-xırda kəsir taxır şişə, ojağa tutur, bişirir. Başdıyır yeməyə. Bu vaxt başqa bir ovçu gəlir. Bu da başqa səmtdən gəlirmiş. Görür ki, suyun qırağında ala qarğanın ayaxları, başı, tükü. Bu da kabab bişirir burda. Deyir:

– Ə, nağarırsan?

Deyir:

– Kabab bişirirəm.

Deyir:

– Nədən?

Deyir:

– Ə, gəlirdim, sən ölmiyəsən, bir dənə qırqovul çıxdı, atdım, çox idilər, qaşdı getdi, biri qaldı. İndi onu bişirif yeyirəm.

Dedi:

– Hanı ə, qırqovul?

Dedi:

– Ə, deynə, ayağı-başı orda. İndicə kəsmişəm, heş tullamamışam.

Deyir:

– Qırqovul nədi, ala qarğadı ey o.

Deyir:

– Ə, sən ala qarğa bil, mən qırqovul deyif yeyirəm. Ad qoyulanda orda idin?

## 42. DEYİNGƏN ƏR

Kişi, deer, həmişə arvadını töhmət eliyərdi. Töhmət, deyir, bu olardı ki, yeməhləri bəyənməzdi. Yarpax dolması bişirərdi, deyərdi bunun göyünü çox yekə doğramısan, ya ayranı çox turşdu. Bir günnəri ət alır gətirir. Arvad gətirir bozbaş bişirir. Kişi deyir:

– Aaz, mən bozbaş yemijeydim, bunu sən niyə kabab eləməmisən?

Gələn dəfə alıf gələndə kabab bişirir. Deyir:

– Yox, ey. Aaz, mənim ətimi tərg eləmisən, mən kifdə yeyəjeydim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Üçüncü dəfə, deyir, gələndə kifdə bişirir. Deyir:

– Əşi, yox ey, mən qourma yeyəjeydim.

Belə-belə kişi arvadın təmiz canını yığır boğazına. Bir gün kişi ət alanda arvat qərar verir ki... Tərəziyə qoyulan ətin dini-bərəkəti də olmur. Yekəxana olmasın. Tərəziynən çəkilmiş ətdi da, yarım kilo, bir kilo, çox olsun iki kilo, alıf gətirif. İndi arvat bütün bişmişdərin hamısınnan bişirir ki, kişi hansınnan desə, ona versin. Hazırrıyır. Bütün bişmişdər hazırdı. Evi də süpürür, qab-qacağı silir, abışkanın şüşələrini silir. Nə varsa, təmizdiyir, süpürür. Görür kişi gəlir. Girir içəri, yan döşəyini salır. Yan döşəyi uzun döşəhdi. Mütəkgəni qoyur, yasdığı qoyur, kişi yaxşı uzansın. Ev-eşiyə baxır, hər şey səliqəli, qaydasında. Elə kişi seyvanda ayakqabılarını çıxardır ki, içəri daxil olsun. Arvat çönür belə, görür – körpə uşax var idi, – uşax palazın küncünə təzəh qoyuf. Daa götürməh mümkün olmur, kişi gəlif çatıfdı. Palazın qulağının birini qatdıyıfdı üsdünə. Kişi gəlif keçir, gedir oturur. Oturan kimi arvad surfanı salır, bozbaşı gətirir.

– Yox ey, mən qourma yeyəjeydim.

Qourmanı qoyur.

– Yox, mən kabab yeyəjeydim.

Kababı qoyur. Bütün bişmişdərin hamısının adını çəhdihcə qoyur surfaya. Kişi hirssənir hindi. Söz tapbır deməyə. Nətər çaşırsa, ağlını Allah alır, özünnən asılı olmuyarax deyir:

– Yox ey, mən p.. yeyəjeydim.

Deyən kimi arvad palazın qulağını açır:

– Bu da p..., a kişi, yeməh isdirsən, ye.

## 43. İKİ AŞIĞIN DEYİŞMƏSİ

Çiynində saz, altında at. Atı o qədər sürür ki, at ajır. Həm tərriyir, həm yorulur. Məsafə uzağ olur. Yiyəsizdih, meşənin arasıynan gəlirdi. Yolun alt tərəfində çay axırdı, bu Kəlbəcərin yolu kimi. Üsd tərəfi meşə idi, tamam yiyəsizdih. Yolun qırağında yekə-yekə daşdar. Oranın camaatı ona çınqıl deyir. Daşın birini, onun hissələrini bir maşın götürməz. Bax, belə dağdan qopuf gəlif tökülmə daşdardı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qopmasının da səbəbi ildırımın çaxması, yağışın yağması, günün qayanı korlamağı, çatdatmağı. Bular uzun işdərdi. Fikirrəşir, deyir ki, düşüm, elə yiyəsizdihdi. Özü də at yoruf məni. Bir az oturum dincəlim, at da bir az otdasın, sora yoluma davam eliyərəm. Düşür, deyir, çidarını* çalır, buraxır. At otduyur, özü oturuf bir daşın üsdünə, sazı da qoyuf böyrünə dincəlir. Bu dəmdə baxır görür ki, ey, aralıdan, bu gəldiyi səmtdən atdı gəlir. Atdı gəlir, gəlir, yaxınnaşanda görür ki, bir nəfər oturuf daşın üsdündə, dincini alır, atı da buraxıf, at otduyur. Bu səhnəni görəndə yadına düşür. Deyir ki, elə mən də uzax yol gəlmişəm, yaxşı oldu, həmsöhbət olarıx. Mən də düşüm, atın çidarını çalım, at otdasın, mən də oturum bir az dincəlim, sora bir yerdə yolumuza davam eliyərih. Bu da, bəli, gəlir düşür atdan. Atın çidarını çalır, atı buraxır. Buna yaxın bir daşın üsdündə oturur.

– Salam-məlöykü.

– Əleykimət-salam.

Hər ikisi dinməzcə oturmuşdu. Bu soradan gələn aşıx qabaxca gələnnən soruşur ki, kimsən, nəçisən, hardan gəlif hara gedirsən? Cavab verir ki, aşığam, dağdan gəlif arana gedirəm, çalıf-çağırmağa, yəni oxumağa, çalmağa, şənnənməyə, qazanc eləməyə. Bəs sən kimsən? Cavab verən o birisinnən soruşur, sora gələnnən soruşur.

Deyir:

– Mən də aşığam. Dağdan gəlirəm, arana gedirəm çalıb-çağırmağa.

Deyir:

– Lap yaxşı.

Bu əvvəl gələn deyir ki, bilirsən nə var, bajı oğlu? İki qoçun başı bir qazanda qaynamaz. Gəlginən elə ikimiz də bir səmtə gedirih. Orda bizim sözümüz bir-birinnən düz gəlməz. Gəl burda bağlama deyəh. Kim kimin bağlamasını aça bilməsə, sazını alsın, o da qayıtsın dala. Qayıtsın getsin işinnən məşğul olsun, onnan aşığ olmaz. Aşıxlar arasında belə bir şərt var. Deyir:

– A bajı oğlu, qoy gedəh başımızı hərriyəh.

---

* çidar – atın ayaqlarını bağlamaq üçün kəndir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir:

– Yox, ey, burda deyişəjeyih. Kim kimi bağlasa, bağlanan qayıtsın getsin da.

Deyir:

– Yaxşı.

İndi yiyəsizdih, dağın havası, meşənin havası. Su axır aşağıdan. İki kefi kök adam. Saz oxuyannar. Bu aşıxlar sözdəri qurtaranda dalay-dalay deyillər. Bu dalay-dalay sözünü bunnar oxumağa başdamazdan da deyillər. Bəzən də lap ucadan deyillər ha. Ərə, gəl hey, ho dalay-dalay, ho dalay-dalay, ho dalay-dalay. İndi bular döörə vurullar belə. Bir-birinin arxasınca sazı çalıllar. Ho dalay-dalay, ho dalay-dalay. Uzun-uzadı dalay-dalay. Dalay nəyi gösdərir? Dalay buların heş birinin heş zad bilmədiyini gösdərir. Dalayın da əsl mənasını izah eləsən, dala qayıt deməhdi. Hə. İndi qabaxca gələn arxadakına deyir. De gəlsin. Deyir:

– Ə, yox, əvvəl sən gəlmisən, sən de, gəlsin.

Deyir:

– Onda deyirəm, gəlsin. Bağlamanın şərtini bilirsən. Dediyim bağlamanı aça bilməsən, sazı alajam, səni dala qaytarajam.

Deyir ki, – arxadakı cavaf verir ey, – dediyin bağlamanı bilməsəm, sazımı verif geri qayıdajam. Gərəh təsdiq eliyə ey. Yoxsa dijəh bilməmişəm, mən eşitməmişəm. Gərəh dilinnən deyəsən. İndi deyir:

– A dalay-dalay, ha dalay-dalay, – uzun-uzadı dalaydan sora deyir al gəlsin, deyirəm.

Yola bir sandıx düşmüşdü,
Yola bir sandıx düşmüşdü,
Yola bir sandıx düşmüşdü,

– Uzadır da bu sözü.

Tap görüm o sandığın içində nə vaaar imiş,
İçində nə vaaar imiş,
O sandığın içində nə vaaar imiş?

İndi başdıyır bu axdarır. Açajax bu yola düşən sandığı, sandığın içində nə var? Fikirrəşir, bütün kitabları tökür, mənim kimi boş kəllə, varaxlıyır oyza-buyza, tapa bilmir. İndi vaxt keçir axı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Görür uzandı, indi bu təkrar eliyir ki, tez ol de gəlsin, cavabı ver gəlsin, ver gəlsin. Bu tapa bilmir. Deyir ki, ə, sən yerin altınnan danışırsan – cavaf verir indi. Yerin altınnan danışırsan, göyün qatınnan danışırsan, o nədi, onu mən tapa bilmirəm, tapa bilmirəm.

Deyir:

Onda sazı qoy yerə, saz mənimdi,
Sazı qoy yerə, saz mənimdi.
Tapa bilmədin, tapa bilmədin.

İndi o cavaf verir, sazı əldən gedir. Deyir:

Ədə yanerəm, ədə yanerəm,
Saz gedir əldən, sazımı alersən.
De görüm o nə imiş?

Deyir ki:

O ki yola düşmüşdü
Spişka karofkası idi,
İçində spişka var idi.

Gör nəynən bağlıyır ey. Bağlamanın dərəcəsinə bax ey. Gülməlidi, həm də məzmununa bax. Gör nəyi tapbax çətindi. Sazını alır, qaytarır. Bununnan da buların deyişmələri bitir.

## 44. MƏNİ SUYA APARIN

Bir nəfər özünü çoxbilmiş hesab eliyir. Bədbaxlıxdı da bu. Qarşısındakını savatsız, biliksiz hesab eliyir. Bu savatsız, qammaz adamların işidi ki, qarşısındakını zəyif hesab eliyir. Mənim düşündüyüm belədi. İnsan odu ki, qarşısındakını, lap savadsız da olsa, aciz adam da olsa, özünnən usdün tutmasın. İndi isdiyir ki, bunu alçatsın. Deyir buna bir sual verəjəm, görüm o suala nejə cavab verəjəh. Bildiyi bu imiş ey. Özünü çoxbilmiş hesab eliyir, amma əslində heşzad bilmir. Deyir ki, ay yoldaş, sənnən olar bir söz soruşum.

Deyir:

– Gözəl olar.

Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Mən susamışam, isdiyirəm bir az mədəni danışım. Nə cür danışım? Deyim mana su gətirin, yoxsa mən su işməh isdiyirəm.

Deyəndə deyir:

– Heş birisi mədəni olmaz onun.

Deyir:

– Bə nə cür deyim?

Deyir:

– Hamısınnan yaxşısı odu ki, deyəsən ki, məni suya aparın.

### 45. MƏN ÇƏRDƏYİ ÇIXARDIB ATDIM

Kişi bazardan aş gavalısı alıf gətirir. Oğruluğunu, əyriliyini, düzdüyünü təyin etməh üçün sayır gavalını, görüm neçə gavalıdı. Yığır boşqaba, qoyur yükün altına. Axşam adətmiş çörəhdən sora həmişə meyvə yeyəllərmiş. Mənim yaxşı yadıma düşür, uşax idim onda mən, çörəh yeyilənnən sora meyvə gəlirdi surfaya. Yeməh gələn zaman gavalını qoyullar bir qırağa ki, yeməh yeyilənnən sora gətirsinnər. Gavalını da qoyanda uşağın biri görür. Bir dənə gavalını götürüf yeyir uşax. İndi axşamdı, yeməh yeyilif. Kişi deyir:

– Orda meyvə var, gətirin surfaya.

Gətirillər. Kişi sayır, görür gavalının biri əysikdi. Deyir:

– Gavalının biri əysikdi, əlli dənə olmalı idi, qırx doqquzdu. Birini kim alıf?

Heş kim boynuna almır. Deyir:

– Mən gavalını neynirəm ki, onsuz da yeyiləjeydi. Amma o gavalını kim yeyifsə, onun çərdəyinin uju çox şişdi. Əgər udufdusa, o çərdəh batıf onun mədəsini deşəjəh, – deyəndə uşax deyir ki, mən çərdəyi çıxardıf atdım.

### 46. BU GÜNÜN QABAĞINDA QAR DURAR?

Qış düşmüşdü, qar basmışdı, kəl, öküz, keşmiş vaxdın sözüdü. Hə. Birinin otu qutarır. Hələ yaz gəlmiyif, ot çıxmıyıf. Heyvan qalır aj. Durur gedir əmisi oğlunu, dayısı oğlunu, qardaşını – hamısını



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yığır bir yerə. Deyir ki, ə, mənim malım qırılajax, sizin də otuuz çox-du. Camaat hamısı sizi qınıyajax ki, bax, hərəniz bircə şələ ot verseydiz, onun heyvanı yaza çıxardı. Köməhlih eləmədiniz, adamlığınız çatmır, filan-beşman. Bax, bu töhmətin altınnan çıxa bilmiyəjəhsiz. Mənə ot verin bu heyvanıma verim, qırılmasın, çıxsın yaza. Deyillər ki, şərt kəsəh. Ot verəjeyih. Nə qədər özümüzə çatır, bir heylə verəjeyih, çıxsın yaza sənin heyvanın. Amma şərtimiz budu ki, biz isdəmirih o otu sənnən. Biz otu sənnən isdəmijeyih. Amma bu şərtnən ki, öz heyvanına ot yığgınan. Qış gələndə başdama dilənməyə.

Deyir indi yay gəlifdi, ot çalınır. Artırmada həmən ot dilənən palazı saldırıf, döşəyin üsdündə uzanıf. Camaat gedir ot çalmağa. Məən kimi, odey, oturuf. Birdən biri deyir ki, ə, bu tənbəl elə oturuf evdə gənə. Qışda gənə gəlif zəhləmizi tökəjəh ki, ot ver, ot ver. Gedəh onu da durğuzax, cəhənnəmə, getsin özünə ot yığsın da. İndi gəlillər. Birinin çiynində yava, birində dəhrə, birində, nə bilim, çalma. Belə qalxır oturur ki, hara gedirsiz, ə. Deyir ki, dur gedəh dana, qış gəlir ey, qar yağajax. Gedəh ot çalax.

Deyir:

– Ə, nə düşüncəsiz adamlarsız ey siz. Ə, bu günün qabağında qar durar?

Hə, bax, belə. Beləsi də var.

## 47. QOYDUM QAÇDIM

Biri oluf, qoldan zorruymuş. Həmişə dəyirmana dən aparanda birini əənə eliyirmiş, birini bəənə eliyirmiş, dəni üyüdüf tezcə gəlirmiş. Elə bil ki, qolunun güjünə güvənirmiş. Həməşə də evə gəlif çıxanda dədəsi bına deyirmiş ki, a bala, nətəri oldu, belə tez üyüdüf gəldin. Deyirmiş ki, ay dədə, birini əənə elədim, birini bəənə, kimdi maa bir söz deyən. Orda bir kişi yoxuydu. Dədəsi də həmişə bına deyirmiş ki, bala, heylə demə, kişi var, qabağaa çıxmıyıfdı, irast gəlmiyif. Bir gün dalı q….nın biri qabağaa çıxajax. Belə-belə.

Bir gün genə dən aparır. Genə birini əənə, birini bəənə. Biri bına güj gəlməh isdiyir. Əl atır yaxasına, bını tutur, belə qaldırır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Sən demə, bının şalvarının paçası cırığımış. Bı bını göyə qaldıranda dalının q….. görükür. Bı deyir ki öz-özünə, sən öl, bı elə dədəm deyəndi. Dədəm deyən dalı q…. bıdı. Qoyur qaçır. Gəlir. Nə dən var, nə un var, heş nə yox. Elə canını götürüf qaçıf. Dədəsi deyir:

– A bala, nədi, noluf?

– Dədə, heş nə. Sən deyən dalı q… gəlmişdi, qoydum qaşdım.

## 48. TÜLKÜ TÜLKÜLÜYÜNÜ BİLDİRİNCƏ

Padşah loğmanı çağırır, deyir:

– Başım çox bərk ağrıyır, nağayrax?

Loğman deyir ki, bir dənə dəvə tapdır. Onu kəsdir, beynini bişirtdir, ye, başının ağrısı kəssin. Deyir tülkü qaçırdı meşədə, bərk qaçırdı. Pələng, şir çıxır bunun qabağına. Tülküyə deyir ki, hara qaçırsan. Deyir ki, padşahın başı ağrıyır. Loğman dəvənin beynini ona dərman deyifdi.

– Bəs sən niyə qaçırsan? Sən ki dəvə deyilsən, tülküsən?

Deyir:

– Ə, tülkü tülkülüyünü bildirincən dərisini boğazınnan çıxardıllar ey.

Hə, bax, belə qısa timsallar var.

## 49. KORUN ÜRƏYİNDƏN KEÇƏN

Gətirif kornan sağa yeməh qoyullar, dolma qoyullar. Kor deyir ki, ə, bəlkə bu iki-iki yeyir. Bir az keçir, deyir: Bəlkə üç-üç yeyir. Üç-üç yeyəndə yanındakı adam qolunnan tutur ki, qardaş, bunu bir-bir yeyəllər. Deyif:

– Vallah, mənim gözüm görmür, elə bilirəm ki, mən bir-bir yeyəndə sən iki-iki, üç-üç yeyirsən.

## 50. GƏLİNİN ABİDİ YOLDAN ÇIXARTMASI

Bir abid olur, neçə illərin abidi olur, Allahın qoyduğu qaydadan kənara çıxmamış bir adam olur. Bir dənə qadın, – qadın şeytan cinsidi, – deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Hə, mən səni çıxardaram yolunnan.

Deyir ki, mən qırx il, əlli il çəhdiyim zəhməti bir qadınnan ötrü bada verə bilmərəm. Neynirsə, bunu yoldan çıxardır. Alladannan sora qolunu götürüf oynuyur. Deyir:

– Niyə oynuyursan?

Deyir:

– Ə, yüz illih abidi alladıf yolunnan çıxartmışam, niyə oynamıyım?

Bu arada abid də qolunu götürüf oynuyur. Deyir:

– Yaxşı, mən səni alladıf yolunnan çıxartmışam deyə oynuyuram. Bəs sən niyə oynuyursan?

Deyir:

– Mən də sənin kimi Allahın düşmanını belə-belə eləmişəm deyə oynuyuram.

## 51. PEYĞƏMBƏRİN QARĞIŞI

Peyğəmbər namaz qılırmış. Biri gəlif deyir:

– Ya peyğəmbər, qarğış neçə ildən sora tutur?

Deyir:

– Qırx ildən sora.

Deyir:

– Əşi, peyğəmbərin çuxası qəşəhdi, bunu oğurruyum geyim. Qırx ildən sora nə olar, olar.

Bu, çuxanı göturuf çiyninə salıf iki addım gedənnən sora yıxılıf, qıçı sınıf. Deyir:

– Ya peyğəmbər, sizdə də yalan olur? Bəs demədin qırx ildən sora tutur?

Deyir:

– Bir yazığın inəyini oğurramışdın, qırx ili tamam oldu, mənimki soradı hələ.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 52. UŞAĞIN ÇÖRƏYİNİ ƏLİNDƏN ALIRSAN

Bir uşax sağ əlində çörəh yeyir, şikli düşür suya, suyun qırağındaymış. Görür ki, ə, o biri uşax, – uşaxdı axı, – bunun çörəyini yeyir. Ağlıyır, çörəyi düşür suya. Hə. Çörəyi suya düşür, ağlıya-ağlıya gedir. Atası, anası deyir:

– Ə, niyə ağlıyırsan?

Deyir:

– Çörəyimi aldılar.

Ata da ağsakqal kişidi. Suya baxanda görür ağsakqal adamdı, deyir:

– Ağsakqal kopoğlu, ağsakqallığınnan utanmırsan, uşağın çörəyini alırsan əlinnən?

## 53. MƏNİ GÖRƏNDƏ LAL OLURSAN

Bir çoban gəlir məclisə. Görür kü, bir molla kitab oxuyur. Bir kitab da bı alır aparır örüşə. Açır qoyur qabağına, deyir:

– Danış.

Hər nə qədər eliyir, kitab bınnan danışmır. Durur kitabı qoyur qabağına, başdıyır döyməyə, deyir:

– Mollanı görəndə fitil-fitil ötürsən, məni görəndə lal olursan?

## 54. DAŞ DİLLƏNƏNDƏ SƏN DƏ DİLLƏN

Qız köçürəndə anası bının cibinə daş qoyur, deyir:

– Bı daş dillənəndə sən də dillən, yəni söysələr də, döysələr də dinmə.

Köşdüyü evdə nə qədər eliyillər bı dinmir. Elə bilillər qız laldı. Bılar dağa gedəndə bı qızın ərini təzədən əvləndirməh isdiyillər, qızın üsdünə günü gətirillər. Qızın da bınnan xəbəri yox. Bir də görür kü, toynan atın belində bir qız gətirillər. Bı da ojağın üsdə süd qoymuşmuş. Bını görəndə südü götürməh yaddan çıxar. Bını da atın belində olan günü görür, deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Lalım, karım, mürdəşirim,
Südün daşdı, dur, götü.

Axır ki, qızın dili açılır, yəni dinir, cavab verir, deyir:

G….. yəhər qaşında,
Gözü ojax başında,
Zirəhsənsə, gəl götür.

Görüllər ki, ə, bı qız lal, kar, kor dəyil. Bına deyillər ki, bala, sən niyə danışmırdın? Deyir:

– Bəs belə-belə, anam belə demişdi.

Tay, təzə gəlini qaytarıllar geriyə.

## 55. RƏİYYƏT OĞLUNA GEDİB OYNUYA-OYNUYA GƏZ

Bir naxırçı qızı olur. Gözəl olur. Bir günü bını bir şah oğlu görür. Şah oğlunun bına tamahı düşür. Gəlir qıza deyir ki, səni almax isdiyirəm. Qız bına deyir ki, get bir həfdədən sohra gələrsən, cavab verərəm. Ona kimi mən qonşumnan məsləhətdəşərəm. Şah oğlu gedir, bir həfdədən sohra gəlir qızdan cavab almağa. Qız şah oğluna deyir ki, səninkiynən mənimki tutmaz. Şah oğlu soruşur ki, niyə?

Qız deyir:

– Qonşum dedi ki, şah oğluna gedif qısıla-qısıla gəzməhdənsə, irəhət oğluna get, oynuya-oynuya gəz.

## 56. ONSUZ DA ƏLLİ QƏPİK VERƏCƏM

Bir gün bizdə bir kişi varıydı, bı gedir dəlləyə. Özü də, sən demə, birinci səfərmiş bı dəlləyə gedirmiş. İndi bı dəlləhlərdə qayçını çox şakqıldadıllar axı. İndi bilmirəm vərdiş eliyiflər, nədi. Bı kişi oturur, başdıyır başını vırdırmağa. Dəlləh qayçının çox şakqıldatdıxca kişi də fikirrəşir ki, bı belə eliyir ki, bınnan çoxlu pul alsın. Dözmür, deyir:

– Ay bala, özuu çox yorma, onsuz da əlli qəpih verəjəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 57. XƏBƏRİ PADŞAHA NECƏ ÇATDIRMALI?

Bir gün bir padşah olur. Bı padşah deyir ki, sabah kim maa xəbər gətirsə, yaxşı xəbər, ya pis xəbər, yaxşı xəbər verənə ənam verəjəm, pis xəbər gətirənin boynun vırdırajam. Səhər bir nəfər gəlif deyir ki, şah sağ olsun, sənin bütün qohum-əqrəban sənnən tez qırılajax, sənnən tez öləjəh. Padşah deyir ki, bı bəd xəbər verdi, bının boynunu vırın. Aparıf bının boynunu vırıllar. Bir nəfər də bını götürüf gəlif başqa cür deyir. Deyir ki, padşah sağ olsun, sən bütün qohumlarınnan çox yaşıyassan. Padşah deyir ki, bı yaxşı xəbər verdi, bına çoxlu ənam verin. Bına çoxlu ənam verif yola salıllar. Hamma əslində də eyni şeyi demişdi e... Biri eylə dedi, boynunu vırdı, biri belə dedi, ənam qazandı.

## 58. DEYİRSƏN, HEÇ ELƏMİRSƏN

Bir gün bir kişi başqa evdə gecələməli olur. Yatmamışdan qabax evin arvadına deyir ki, bəs mən gecələr sayıxlıyıram, birdən qorxarsan. Arvat deyir ki, əşi, sayıxlıyırsan, sayıxlıyırsan da, heş nə olmaz. Gecə olur, yatıllar. Gecənin bir aləmi kişi deyir:

– İsdiyirəm gələm yanaa.

Bir az keçir, genə deyir:

– İsdiyirəm gələm yanaa.

Bir az keçir, genə deyir:

– İsdiyirəm, gələm yanaa.

Guya sayıxlıyır dana. Bir səfər də deyəndə arvat qayıdır deyir ki, əşi, deyirsən, heç eləmirsən axı.

## 59. HEÇ NƏ

Bir kişinin qonşusunda bir dul gəlin varmış. Kişinin bunnan xoşu gəlir. Gedif mollaya deyir ki, bəs qonşuda bir gəlin var, onun kəbinini gəl kəs maa. Molla deyir:

– Yaxşı, səhər gəlif kəsərəm.

Kişi gedənnən sora molla deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Görəsən, o dul gəlin nətərdi, gözəldimi?

Girəvəliyir gedir görür. Görür gözəl-göyçəh bir zənəndi. Deyir:

– Əşi, bının kəbinini elə özümə kəsərəm da, tay kişiyə niyə kəsirəm.

Səhər kişi mollanın yanına gələndə molla fikirrəşir ki, bını nətər başımnan eliyim, alladım? Qayıdır kişiyə deyir ki, kəbini kəssəm, maa nə verəssən? Kişi də qayıdıf deyir ki, nə isdiyirsən? Molla özünü itirir, qayıdır deyir ki, heş nə. Kişi də deyir ki, heş nə, heş nə da. Heş nə verərəm. Molla tez fikirrəşir ki, bı maa heş nəyi nətər verəjəh? Qayıdıf deyir ki, kəbinizi kəsəjəm, əyər mənim heş nəyimi verə bilməsən, kəbinizi geri oxuyajam. Razısan?

Kişi deyir:

– Hə, razıyam.

Molla buların kəbinini kəsir. Sora da kişiyə qayıdıf deyir ki, indi mənim heş nəyimi ver, mən çıxım gedim. Kişi deyir:

– Get o palazın qırağını qaldır, ordadı.

Molla gedir palazın qırağını qaldırır. Kişi deyir:

– Nə tapdın?

Molla da deyir ki, heş nə. Kişi də bına deyir ki, o da sənin heş nəyin, götü, çıx get. Molla kor-peşman çıxır gedir.

## 60. ARVADI NECƏ AĞILLANDIRMALI?

İki yaxşı dost varmış. İkisi də nişannı olur. Bir çərşənbə günü bayramda biri o birinə deyir:

– Qardaş, gedəh görəh nişannılarımız nağarır.

Gedillər, baxır görür kü, bının nişannısı ağıllı-başdı gəzir. Bı ürəhlənir. O birsinin nişannısı başını qoyuf yerə, qılçaları göydə oynuyur. Dəli təkin dingildiyir. Bı gəlir yaman xar olur, pis olur. Vaxt olur buların toyları olur, ikisi də evlənir. Bılar gəlir girir gərdəyin dalına. Səhər oğlan duruf çarığını geyəndə pişih gəlir mavıldıyır. Tez bı gəlinin əri deyir:

– Kopoğlunun pişiyi, məni tanımırsan, sən maa mavıldıyırsan?

Oğlan götürür pişiyi vırır. Hirsdənir lap bərk vırır. Deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– İndi məni tanıyarsan.

Bı dəli dediyin qızın dodağı beş yerdən partdıyır. Gəlir bı dəli dediyin bir gəlin olur, bütün camaatın gözü onda olur. İndi bılar yaxınnaşıllar, dosdular dana. O birsi bına deyir:

– Qardaş, bı gəlin az qala çıxa mənim başıma. Taa məni minir.

Deyir:

– Hə.

Deyir:

– Hə.

Deyir:

– Qardaş, gəl belə bir iş görəh. Biz sizə gələndə deyəjəm ki, gəl arvaddarımızı dəyişəh. Sən də deyərsən hə, yaxşı.

Gəlillər bulara. Deyir:

– Qardaş, gəl arvatdarımızı dəyişəh.

Deyir:

– Hə, qardaş, başaa dönüm, gəl dəyişəh.

Bını yoldaşına da deyir da, belə bir iş görəjeyih. Bı öz yoldaşını qoyur burda, bının yoldaşını götürür gedir. Bı oturur, oturur, oturur, gejə keçir. Bı arvad qayıdır ki, bı nətər şeydi, gejə keçir, yatax da bəs. Deyir:

– Yox, bizim yerin adəti var.

Deyif:

– Nə adətdi?

Deyir:

– Bizim yerdə gəlini gətirəndə üş gün gəlini minirih. Palanı qoyurux belinə, minirih o başa, bı başa.

Gəlin deyir:

– Ay Allah, bı nə qanıydı mən düşdüm.

Bı oğlan durur gedir eşşəyin palanını gətirir, qoyur bı gəlinin belinə. Bir də ağac alır əlinə, bının qıçına-qıçına. O başa mələdir, bı başa mələdir. Səhər açılır. İki gejə bını o ki var məələdir. Pis ürəhnən yox ha. İndi deyir:

– Qardaş, sən gəl mənim yoldaşımnan qol-boyun belə keş da bizim evin qabağınnan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Deyir, bının yoldaşınnan gəlif belə keçəndə, bı görür axı. Deyir:

– Ədə, saa dədəm-nənəm qurban, məni bı qannan qutar.

Deyir:

– Aaz, əynə yeri, indi-indi xoş gününə çıxmışam.

Bı yıxılır bının ayağına.

– A saa dədəm-nənəm qurban, sənin başaa dönüm, məni bınnan qutar.

Bınnan sora gəlir onu aparır. Onnan sora bı olur ağıllı bir arvat. O iki qardaş heylə onu ağıllandırır.

## 61. BİZƏ İŞDƏSİN, BİZ DƏ ONDAN YEYƏK

Deyir, bir xan özünə nökər tutmağ isdiyir. Oğluna deyir ki, axdar bir yaxşı nökər tap. Oğlu gəlir deyir ki, ata, bir nökər tapbışam, bizə işdiyəjəh, özünnən yeyəjəh. Xan deyir ki, yox, oğul, bı sərf eləmir. Eləsini tap ki, bizə işdəsin, biz də onnan yeyəh.

## 62. AY QIZ, QIZI QIZDAN AL, QIZI QIZA VER

Bir arvad oluf. Bir gün bilif ki, damın üsdə adam var, oğurruğa gəlif. Tez möhkəmnən deyif ki, ay qız, qızı qızdan al, qızı qıza ver. Sən bı qızı tut, mən bı qızı bəliyim. Heylə deyif ki, oğru elə bilsin ki, bının çoxlu qızı var, yazığı gəlsin, heş nə oğurramasın, çıxsın getsin. Doğrudan da, heylə oluf. Oğru inanıf, bına yazığı gəlif, qayıdıf gedif.

## 63. DEYİRSƏN, YƏNİ AŞIQLI ELİYƏRDİM?

Bir kişi varıydı, yaşdıydı. Müharibədə də olmuşdu. Bir gün bunun arvadı öldü. Arvadının qırxı çıxmamış getdi bir dul arvad aldı gətidi. Qonşuda qoja arvad varmış. Buna deyir:

– Ədə, ədə, Musdafa, utanmadın heş?

Bu, o mənada deyir ki, yəni gözdüyeydin heç olmasa arvadın qırxı çıxeydi. Bu da özünü bilməməzdiyə qoyur.

– Ay qonşu, nə deyirsən? Deyirsən, yanı aşıxlı eliyeydim?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## 64. BOŞBOĞAZ İNSANLAR

Bir gün loğman oğluna dedi ki, oğul, dünyada boşboğaz adamlar çox olajaxdı, əhəmiyyət vermiyəsən. Hansı iş gözəl işdisə, onun ardıncan gedəsən. Deyir:

– Ata, o boşboğaz nətər olur, mənə onu əyani gösdərəsən.

Deyir:

– Gəl.

Minillər ata, hər ikisi gəlillər bir kəndə. Kənddə bir belə adam toplaşıf. Ata-bala təhləşif atnan keçillər belə. Burdakılar deyir:

– Buna bax ey, iki dıraz kişidi, ata yazığı gəlmir, ikisi də təhləşif minif ata.

Oğlu deyir:

– Bizə çox lağ elədilər. Bəs biz heyvana çox qəddarlıx eliyirih.

Deyir:

– Hə, nolar bala, onda mən düşüm, sən min ata, mən atın başın çəkim, gedəh.

Gedif qonşu kəntdən keçəndə yenə bir topa adam idi. Buların böyrünnən keçəndə salam verdi. Dedilər:

– Bah, yaman da oğul tərbiyə eliyifdi. Kişini salıf atın qavağına, özü minif ata.

Kişiyə deyir ki, ata, bizə qəbahət elədilər. Gərəh sən ata mineydin dana. Deyir:

– Neyniyəh, bala, mən minim ata. Mən minim ata, sən atın başını çəkginən.

Atın başını çəkdi, bir topa da adamların böyrünnən keçəndə bu səfər dedilər:

– Ağsakqal kişi körpə uşağı salıfdı atın qavağına.

Uşax çox narahat oldu. Dedi ki, ata, yenə bizə qəbahət tutdular. Düşdü atdan, dedi:

– Neyniyəh, bala, atı yedəyimizə alax, ikimiz də piyada gedəh.

Gəldilər bir topa adamların da böyrünnən keçəndə bu adamlar da dedilər ki, bulara bax ey, atı özdərinnən çox isdiyillər.

Dedi:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Bala, o insannar ki var, olar boşboğazdılar. At sənindi. İsdiyirsən min, isdiyirsən yedəyə al, isdiyirsən neynirsən elə.

## 65. ŞAHIM, AYAQYOLUNDAKI SÖZ

Deyir bir şahın axmaq bir vəziri olub. Bir gün başqa bir ölkənin padşahı bunları oğlunun toyuna qonaq çağırır. Yemək zamanı dəvətli padşahlardan birinin vəziri görür ki, şahının bığlarında yediyi düyünün bir-ikisi sallanıb durub. Vəzir şahı məsələdən halı etmək üçün deyir:

– Şahım, uca dağ başında qar görünür.

Şah o saat vəzirin eyhamını başa düşür. Əlini bığlarına çəkir, düyüləri təmizləyir. Axmaq vəziri olan şah bu məsələdən çox təsirlənir. Ayaqyoluna getmək adıyla otaqdan çıxır. Dalınca çıxan vəzirə acıqlı-acıqlı deyir:

– Gördün nə cür ağıllı vəzirlər var? Şahını necə məsələdən agah etdi. Sən isə başını aşağı sallayıb yeməkdən başqa heç nə bilmirsən. Bax, indi içəri qayıdıf oturajam, düyünü də elə yeyəjəm ki, bığıma, saqqalıma yapışsın. Sən də yaxşı bir söz tap, məni məsələdən agah elə.

Vəzir boynunu büküb baş üstə deyir. Şah əllərini yuyub yenidən məclisə qayıdır. Oturub yerinə başlayır plovdan yeməyə. Plovun düyülərindən iki-üçü yapışır şahın bığına-saqqalına. Axmaq vəzir bunu görüb tez deyir:

– Şahım, ayaqyolundakı söz.

Məclis əhli hamısı vəzirin ədəbsiz sözünə gülür.

## 66. AŞIQ GÖRDÜYÜNÜ ÇAĞIRAR

Bir gün bir aşıq sazını da götürüb ruzu qazanmaq ümidi ilə kənd-kənd, oba-oba gəzməyə başlayır. Gəlib bir obada bir evdə qonaq olur. Həmin gün evin xanımı axşama xaşıl bişiribmiş. Dəvət eliyirlər aşığı süfrəyə, xaşılı hamılıqca yeyirlər. Gecəni aşıq qonaq qalır. Səhər durub hazırlaşır getməyə. Evin sahibi dil-ağız eləyir. Deyir ki, gəlmişkən bir-iki gün də qal. Aşıq deyir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

– Yox, ay qardaş, çox sağ ol. Gəldim, xaşılınızı da yedim, daha gedirəm.

Aşıq xaşıl deyəndə ev yiyəsi fikirləşir ki, ədə, sən ölməyəsən, bu aşıq məni biabır eliyəjək. Hər yerdə deyəjək ki, bizdə xaşıl yeyib. Başlayır əl-ayağa düşməyə. Deyir ki, qoymaram gedəsən. Bəs, yaxşı bir xoruzum var, kəsim, axşama arvad yaxşı çığırtma-pilov bişirsin, ye, sonra çıxıb gedərsən. Aşıq razılaşır. Axşama yaxşı bir çığırtma-pilov dəmlənir, yeyib-içib yatırlar. Səhər aşıq sağollaşır ki, gedə. Deyir:

– Ay qardaş, sağ ol, xaşılını yedim, çığırtma-pilovunu yedim, daha mən gedirəm.

Ev sahibi görür ki, aşıq yenə xaşıldan danışır. Hövsələsi qaçır. Deyir: "Gərək necə olsa xaşılı bu aşığa unutduram". Odur ki, deyir:

– Bəs aşıq qardaş, qoymaram gedəsən. Bir yaxşı qoçum var. Elə sənin kimi yaxşı insanlara qismət olmasını istəyirəm. Kəsim, bir-iki gün yeyək, sonra gedərsən.

Nəysə, qoçu da kəsir, yeyib-içirlər. İki gün də keçir. Aşıq yenə getmək havası çalır. Deyir:

– Sağ ol qardaş, xaşılınızı yedim, xoruzunuzu yedim, qoçunuzu yedim, haqqını halal elə, mən gedirəm.

Ev sahibi görür ki, aşıq yenə xaşılı birinci saydı, lap qanı qaralır. Deyir:

– Qardaş, getmə. Bir erkək danam da var. Onu da kəsim, yeyəndən sonra gedərsən.

Aşıq deyir:

– Qardaş, heç özü ərəsət-məhşər eləmə. İstəyirsən lap dəvə kəs, mən aşığam, gördüyümü əvvəldən axıra qədər çalıb oxuyajam.

### 67. DÜY ŞALIMA, AT DALIMA

Varlı və imkanlı adamlardan biri vəfat edir, var-döylət qalır dul arvadına. Hələ meyit götürülməmiş bir neçə var-döylət hərisi arvada elçi düşməyi düşünür. Biri isə fikirləşir ki, sonraya qalsa, arvad əldən çıxa bilər. Odur ki, tez bir ara arvadı tapır, bir üzük də alıb verir ar-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

vada ki, elə yasdaca taxarsan arvadın barmağına. Nəysə. Arvad üzüyü də götürüb gəlir yasa. Görür ki, qiyamətdi. Evin xanımı üz-gözünü cıra-cıra ağlayır. Bu da keçir ev yiyəsinin yanına, ağlaya-ağlaya deyir:

Belə, a bajı, mən sənə nə deyim,
Nə deyim, nejə deyim?
Belə o filankəs bir üzük göndərib,
Onu saa nejə verim?

Arvad cavabında deyir:

A bajı, ta nə vardı ki, nə deyəm,
Belə düy şalıma, at dalıma.

## 68. KARIN KÖNLÜNDƏKİ

Bir kişi taxıl biçirmiş. Bu zaman bir gənc kişiyə yaxınlaşır və nə isə soruşur. Kəndli ağır eşidirmiş, elə bilir ki, gənc ona kömək etmək istəyir. Odur ki, sağ ol, var ol deyə təşəkkür eləyir. Axşam evə dönəndə hadisəni arvadına danışır:

– Arvad, bu dünya heç xali deyilmiş, yaxşı insanlar var imiş. Bu gün bir cavan mənə kömək eləməyə gəlmişdi.

Arvad da bir az qulaqdan ağır imiş. Elə bilir ki, əri ona donluq parça almaq istəyir. Odur ki, təşəkkür eləyib deyir:

– A kişi, ta mənim rəng seçən vaxtım deyil, nə alsan qəbulumdu.

Tez içəri evə qaçıb qızına deyir:

– A qızım, dədən mənə donluq alajax.

Qız da ağır eşidirmiş. Elə bilir ki, kimsə ona elçi düşüb. Odur ki, tez deyir:

– Ana, atam kimə məsləhət görsə, ona da gedəjəm. Heç fikir-zad eləməyin.

Qız da tez qaçıb sevincini nənəsi ilə bölüşür. Əhvalatı nənəsinə danışır. Nənənin də qulağı ağır eşidirmiş. Odur ki, nəvəsinin nə dediyinin fərqinə varmadan deyir:

– A bala, nə bişirirsiz, bişiririn, amma yumuşaq olsun ki, dişim tutsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# VIII. ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

**A**

1. Adın nədi?
   – Bakqal.
   – Hak ver, hakk al.
2. Adın çıxdı dokquza, daha enməz səkgizə?
3. Ağ gözəl ayran, uşaxlar yesin,
   Qərinin canı çıxsın, yağı yavan yesin.
4. Ağac başında qora, bilmədim düşdüm tora.
5. Ağız dediyin quzu-küzü: kərə də çıxar, kürə də.
6. Ağlamax bilməyən ölüsünü mındar eliyər.
7. Axşam bırda, səhər bırda,
   Çöldə bitən yovşan bırda.
   = Daa bırda, axşam bırda
   Bitifdi yafşan bırda.
8. Aj abırsız olar.
9. Ala gedir, ula gedir,
   Əlvan-əlvan tula gəlir.
10. Ala oldux, ula oldux, itdərə də tay oldux.
11. Anası gülünü dərif, balası gülabını çəkir.
12. Arvad keçi olsa, bir əvi ayrannı eylər.
13. Arvadınkı doğmaxdı, yerinki yağmax.
14. Arpanı sütül götür, buğdanı ötür götür.
    = Arpanı ötür bişir, buğdanı sütül.
15. Arpıya cuğ dedilər,
    Buğdaya gəndim.
    Darıya ad qoyanda
    Mən qaşdım gəldim.
16. At vırıbdı dizaa, indi gəlmisən özaa.
17. Ata evin dirəyi, oğul isə biləyi.
18. Atam adına alallar, yana-yana qalallar.
19. Atdıynan piyada bir yol getməz.
20. Atı cidarrı minir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

21. Atın işini görüncə, qamçını ver maa.
22. Aşığınkı haynandı, mollanınkı vaynan.
23. Aşıx toya, molla vaya.
24. Ayağıma yer eliyim, gör saa nə eliyim.
25. Ayı meşədən küsüf, meşənin xəbəri yox.

**B**

26. Balalı quşa dən çatmaz.
27. Balam ləli, hamıdan dəli.
28. Balı olanın milçəyi Bağdatdan gələr.
29. Bazarın siftəsi gur olar.
30. Başı mollanın, leşi mollanın,
Yeddi payın beşi mollanın.
31. Bəxt yatanda quymax da diş yarar.
32. Biçin biçməh – su içməh, pendir sıxmax – can çıxmax.
33. Bir xəndəh sudan, bir yalax yaldan doyan dəyil.
34. Bir il yatdım üzülmədim, qırx gün zahılıxdan üzüldüm.
35. Bir qaşıx su da adam boğar.
36. Biri ölməsə, biri dirilməz.
37. Bu it o itin dayısıdı, haya gələn hamısıdı.
38. Bud əti yemir ki, ombuya yaxındı.
39. Buzu gün əridər, insanı xəcalət.
40. Buraxıram bəsdim* sınır, buraxmıram bəhməzim tökülür.
41. Buğda çörəyin yoxdusa, buğda dilin olsun.
42. Bükə bilmədiyin biləyi gərək öpəsən.
43. Böyüh qardaş gic olar, kiçih qardaş bic olar.
44. Böyüməmiş buynuz çıxardır.

**C**

45. Cin olmamış adam çarpır.

**Ç**

46. Çoban çox olanda sürüdə qoyun qalmaz.

---

* bəsdi – saxsı küpə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

47. Çobanın qoyun dərdi,
Dəyirmançının su dərdi,
Qalayçının qab dərdi,
Qəribin soyux dərdi.

48. Çox şirin yeməyin acı-acı gəyirməyi də var.

**D**

49. Dadsız aşa duz neynəsin, ağılsız başa söz neynəsin.

50. Dama-dama göl olar, dada-dada heç.

51. Dana yekəlir, çulu yekəlmir.

52. Darıxma darrığa, çıxarsan varlığa.

53. Daş daşa dəyməsə, divar möhkəm olmaz.

54. Daz dazıynan yatdımı?
Daz daza təpiy atdımı?
= Daz dazıynan yatdığı nədi?
Daz daza təpik atdığı nədi?

55. Dediyim dedih, çaldığım düdüh.

56. Deyənə baxma, dedizdirənə bax.

57. Deyilənə görə, Novruz girəndən sonrakı axır on günü ermənilər üşüyür. Bununla əlaqədar belə bir məsəl deyirlər: Dahrazanın (Xaçaturanın) soyuğu, təndirə təpir toyuğu.

58. Dəvə dəngəsiynən* yoxa çıxıb.

59. Dədə görmüyənnər elə bilər Şakqulu da bir dədədi.

60. Dədəmin adı Xıdır,
Gördüyüm iş bıdır.

61. Dəli dəlidən qorxar.

62. Dəli Tanrıdan güjdü olar.

63. Dəliyə tikə, ağıllıya pay düşmüyəjək.

64. Dəmir qapının da taxta qapıya işi düşər.

65. Dəskiralı dən dənniyir, bu köpəyoğlu xoruza dönüf bənniyir.

66. Dəsdədən ayrı düşən qazın səsi taladan gələr.

67. Dilini işə salınca, ağlını işə sal.

---

* dəngəsiynən – topasıynan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

68. Dingilim mələk, dingilim saj,
Əlim xəmirdə, qarnım aj.
69. Dindi, dilin gör,
Qavza* q…n gör.
70. Dişsiz ağız, daşsız dəyirman.
71. Doludan biri qorxar, boşdan ikisi.
72. Donuzun könlü şamaydı, it də qovdu şama saldı.
73. Doğuzduran da özüdü, göbəyini kəsən də.
74. Dörd kişi bir kor arvada dəyməz (Arvadı rayona getdiyindən kişi yeməyini özü bişirirdi. Onda öz vəziyyətinə uyğun olaraq belə bir məsəl çəkdi).
75. Dostuu görəndə halını xəbər al, xasiyəti həmən xasiyətdi.
76. Dövlət – xəlvət.
77. Döymə taxda qapımı, döymüyüm dəmir qapını.
78. Döyülmüyən darıdan düyü olmaz.
79. Düz həmməşə əyrini kəsəjəh.
80. Dünənki nökərçiliyinə baxma, bugünkü ağalığına bax.
81. Dünənki ot bugün tikan oluf.

**E**

82. El ağzı çuval ağzı dəyil ha, bağlıyasan.
83. El tikəni yel sökə bilməz.
84. Eli ürküt, axsağını tut. = Sürünü ürküt, axsağını tut.
85. Elm axtarmaxnan artar.
86. Elti əyrisi, balta əyrisi.
87. Erməni, zəyzəyaa** qoyun girib?
88. Eşşəh otun təmizinnən yeyər, suyun durusunnan içər.
89. Eşşəh minənə mədət ver.
90. Eşşəh nədi, döşəh nədi.
91. Evdə iki arvad olanda ev süpürlməmiş olar.
92. Evdən əvvəl qonşu axdar, yoldan əvvəl yoldaş.
93. Evinin nökəri, çölünün bəyi.

---

* qavza – topa
** zəyzəyaa – üstü açıq qoyun saxlanan yer



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## Ə

94. Əhmədə Əhməd düşüf, saa nə zəhmət düşüf.
95. Əkinçi olunca bilici ol.
96. Ələhcən əvi olanın əcəmcə (yaxud: xəlvircə) qarğaşası** olar.
97. Əl işdər, baş buyurar.
98. Əlaa nə düşdü, ver sərçəyə, qaranquş gəldi-gedərdi.
99. Əlim yandı, ağzıma təfdim.
100. Ələyə gələni ərə verirsiz.
101. Əlli əllinin dalıncan, o da əllinin dalıncan.
102. Əməl azmasa, qada yayınmaz.
103. Ər evdən, oğul beldən, amma qardaş tapılmaz.
104. Ər tutanı el tutar, ər atanı el atar.
105. Əri döymüş arvadı it də tutdu bir tərəfdən.
106. Ərişi arğaca** bab elə, görən desin, ha belə.
107. Əsil azmaz, bal qoxmaz, qoxsa yağ qoxar, çünki əsli ayrandı.
108. Əslində olan itməz.
109. Əti çiy yeyərsən, ət gətirərsən,
Xəmiri çiy yeyərsən, lət*** gətirərsən.
= Çiy ət ət gətirər,
Çiy xəmir dərt gətirər.
110. Ətnən dırnağın arasına girən iylənif çıxar.
111. Əvvəli meydan olanın axırı zindan olar.
112. Əvimdə biri ölüncə, çölümdə mini ölsün.
113. Əvində yoxdu urvalıx,
Goolnunnan keçir dargalıx.
114. Əvli qardaş elə bilir ki, ərgən**** qardaş xədimdi.
115. Əzizim əzizdi, tərbiyəsi onnan da əzizdi.

## F

116. Fil yükün dəvə çəkməz.

---

** qarğaşa – qayğısı
** əriş, arğac – xalça toxunanda istifadə olunan iplər
*** lət – xəstəlik
**** ərgən – yetkin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

117. Filankəs korun əlinə dəyənək verir.
118. Filankəs sürtülmüş aşıq kimi alçı durur.

### G

119. Gecə dırnax tutannan, gündüz nağıl danışannan uzax qaç.
120. Gedirdim dəyirmana,
Yoldaş oldu Sadıx maa.
Gör nejə pis olmuşam,
Şıllağ atır qodux maa.
121. Getmişdi xəbərə, otdu xəşilə.
122. Gəlin deyif: "Ajmışam". Qayınana da deyif ki, paraya dəymə, diriyə dəymə, doğra, doyunca ye.
123. Gəlinə duvax, divara suvax.
124. Gəlmə itin quyruğu belində olar.
125. Gəlməzdən əvvəl gedəcəyini düşün.
126. Gərdiş könül açandı.
127. Gəzən ayağa daş dəyər.
128. Gəzəyən, ya baldırına, ya qarnına.
129. Gəzəyən gəzə bilməz, gəzməsə, dözə bilməz.
130. Gizlində görüşsən də, aşkarda doğassan.
131. Gözə qaytağa* yoxdu.
132. Gözəlağa çox gözəliydi, vırdı qızılca (yaxud: çiçək) çıxartdı.
133. Görükən dağın dibi yaxın olar.
134. Güvənmə varrığa, düşərsən darrığa.
135. Güjürrüyən** dağ aşırar.
136. Güldürənin yanında oturma, ağladanın yanında otur.

### H

137. Haja gedən gəldi, saja gedən gəlmədi.
138. Hajı dayıda pulun olsun, nə danar, nə verər.
139. Halva-pilov yalandı, ölüyə qalan Qurandı.

---

* qaytağa – qadağa
** güjürrüyən – çalışan, güc verən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

140. Hatuş koxa, Matuş koxa,
Bir kənddə otuz koxa.
141. Heç ayrı, köç ayrı.
142. Hənək-hənək, bir gün dəyənək.
143. Hər kəs bəxtinin dəmirçisidi.
144. Hər rəngi boyamışdı, qalmışdı fısdıx yaşılı. = Hər quşu uçurtmuşdu, qalmışdı qəcələ.
145. Hərcayı sözün mərcayı da cavabı olar.

**X**

146. Xalqın dərdi, mərdin dərdi.
147. Xan özü toxdu, elə bilir orduya bir yuxa çoxdu.
148. Xəmir yeyənin fağırı olmaz.

**İ**

149. İynəli, saplı gündə təzə, iynəsiz, sapsız ildə təzə.
150. İki çul, bir palan, hamısı da oldu yalan.
151. İki ölünü bir dərədə qoymur (yəni başını hər yerə soxur).
152. İl bahardan bilinər.
153. İlim il olsa, kiçik çilləm yazdandı.
154. İrəli dursan bij deyillər, geri dursan gij.
155. İsdəmirəm heyvasını, narını
Qoy desinnər Pirbudağın bağı var.
156. İşi həjətnən* görəllər, höjətnən** yox.
157. İt adına üyüdüf özuuz yeyirsiz.
158. İt ayağını karvannan əsirgəməz.
159. İt qursağı yağ bəyəmməz.
160. İt qusduğunu yeyər.
161. İt dalınca düşən təzəh tapar.
162. İt itnən dalaşdı, yolçunun işi uanda*** düşdü.

---

* həjətnən – alət
** höjətnən – zor, güc
*** uanda – avanda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

163. İt itə dəyməz (yaxud: dəymir).
164. İt unu kimi hər yana dağılıflar.
165. İt hürər, yalını (yaxud: payını) kəsər.
166. İt yiyəsini, dəli qız ərini tanımır (həddən artıq qarışıqlıq olanda işlədilir).
167. İtin axmaxlığıdı qəysəvədən* pay umur.
168. İtiyi itən anasının qoynunu axtarar.

**K**

169. Kasıb evdən çıxdı, ev varranmadı ki?
170. Kasıb kasıblığını bilsə, geydiyi mav-daray** olar.
171. Kasıb, evində ölmə, balan qorxar.
172. Kasıblığa düşdün, əlii işdət, qəribliyə düşdün, dilii işdət.
173. Keçi deyir ki, and olsun Məkkiyə, bir də gəlmərəm təkiyə. Üstünnən bir müddət keçir, dözmür, deyir: Neynirəm andımandı, quyruğumun dibi yandı.
174. Keçinin qoturu suyun təmizini bəyənməz.
175. Keçinin (yaxud: sığırçının) bəyliyi darı savılıncadı.
176. Kəfənin cibi olmaz.
177. Kəndiizdən çıxıb kəsəyiizə dağılıf.
178. Kim sənətə xor baxar, boynuna torba taxar.
179. Kimini yanıdırır, kimini qandırır.
180. Kirvənin damının üsdünə çıxmır ki, evinə torpax tökülə.
181. Kişi xeylağını hal apardı?
182. Kol dibində evim olsun, Məkkədə ərim olsun.
183. Külək əkəni fırtına biçər.
184. Kök ölüf, arıx qalıf.
185. Kül başına küllüklər,
Qarğa səni dimdiklər.

---

* qəysəvə – qurudulmuş ərikdən hazırlanır
** mav-daray – parça növləri



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**M**

186. Mağdurum* bıdı,
Yarısı sudu.
187. Maya buddu arvad al ki, nər buddu oğul doğsun.
188. Mən utancax, sən fırıldax.
189. Mən gedən yerdə qol sınar, yaxşı ki baş yarıldı.
190. Mən səni bilirdim bir uca dağcan,
Sən məni bilmədin bir gilənarcan.
191. Məni varrı yanına qoy, verməsə də, verməsin.
192. Mənnən ötdü, qardaşıma dəydi, elə bildim saman çuvalına dəydi.
193. Mərd özünnən görər, namərd yoldaşınnan.
194. Mərd mərtdən kəsər, mərd Murtuzəli hər ikisinnən.
195. Molla gəlmişkən ölən ölsün.

**N**

196. Naxırçı qızının könlü naxırçı əppəyi isdiyər.
197. Nə eləmişəm özümə eləmişəm, külü də gözümə eləmişəm.
198. Nəlbəki, boşqab, çini neynər maa?
Yarım yar olsa, günü neynər maa?
199. Nökər dedi: “Bir tabağ xəmirim varıydı, it apardı: inanmadılar”. Bəy dedi: “Bir tabağ xamırım varıydı, it apardı: inandılar”.

**O**

200. Od sönər, ad yox.
201. Ojağ isdi, yan yasdı.
202. Ojağ altda köz, adam altda söz.
203. Oğlumun oğlu məni çaydan keçirər,
Qızımın oğlu g…ə barmax keçirər.
204. Olan oldu, torba doldu.
205. Ortaxlı öküzdən tək buzov yaxşıdı.
206. Otdu ojağa, çıxdı bujağa.

---

* mağdurum – qazancım



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

207. Oturanda ojax boyda,
Duranda sajax boyda.

### Ö

208. Ölkəni düşmənnən qoru, sirri yaltaxdan.
209. Ölmüş eşşəyin yağışdan qorxusu olmaz.
210. Ölüm var ölüm kimi, ölüm var zülüm kimi.
211. Ölünü qoy, dirini ağla.
212. Özgənin itiyini özgə bayatısıynan axtarır.

### P

213. Paxıl artmaz.
214. Paltar yamax götürər, qarın yamax götürməz.
215. Paltar, yumax bir çeştik,
Qavğası* var bir qışlıq.
216. Paltarı təzə ikən qoru, canını cavan ikən.
217. Papağı keçi dərisinnən,
Xəbəri yox gerisinnən.
218. Pis yerin görüküncə, pis yamağın görüksün.
219. P.. yeyən iti öldürməzdər.

### Q

220. Qabağı bığda qavırır,
Dalı saman savırır (isitməyən ocaq haqqında deyirlər).
221. Qancıx saxladım köpək apardı,
Köpək saxladım qancıx apardı (yəni qız saxladım oğlan apardı, oğlan saxladım qız apardı).
222. Qancıx tayadan düşməmiş gəlif çıxdı.
223. Qara kişmiş bəy cibində, ağ kişmiş ağac dibində.
224. Qarnımdan çıxdı qada,
Haraya gedim dada.
225. Qartal yuvasınnan qartal uçar.

---

* qavğası – qayğısı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

226. Qarışqanın qahımları varmış ha.
227. Qatırı ya döy, ya başına dön.
Qara qatır, nə bilir xətir.
228. Qaşına-qaşına çıxdı ojax başına.
229. Qavırmanı gəlnim qavırsın,
Qavırğanı qızım qavırsın.
230. Qayın arvadı, xayın arvadı.
231. Qayquluya** söhbət haramdı.
232. Qaz lələyi qanun yazar.
233. Qazanmayanın qazanı qaynamaz.
234. Qazanı qaraya tutmazdar.
235. Qərib gözü qəmli olar.
236. Qızdan olanın sınırın** kəs.
237. Qış dumanı qar gətirər, yaz dumanı bar.
238. Qışda ocax başında, yayda dağlar başında.
239. Qışın qarı, yayın barı.
240. Qoyunu mayda, quzunu yayda.
241. Qohumun kimdir? – Yaxın qonşu.
242. Qulun at olunca, yiyəsi mat olar.
243. Qurban olum o qana üsdünnən bir gün keçə.
244. Qurd rəngini dəyişər, xasiyətini yox.
245. Qurd tapanda quşnan yeyər, quş tapanda göyə çəkər.
246. Qurd dumanda gəzər.
247. Quymağımız diş yarır.

**S**

248. Saman sənin deyil, samannıx ki sənindi.
249. Sağlıx sultannıxdı, baba, demə yoxsulam.
250. Saxla qarğanı, ovsun gözüü. = Saxla küçük, gəmirsin baş.
251. Sevindi bujağa düşdü,
Atıldı ojağa düşdü.

---

** qayquluya – qayğılı adam
** sınırın kəs – gəliş-gedişini, əlaqəsini



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

252. Sığırçının başı kəndə tərəf, dalı şəhərə tərəf oldu, dedilər: Dalı başınnan şərəflidi.

253. Su yatar, düşmən yatmaz.

254. Sümük Süleymannan olsa da, süd döndərəndi.

255. Sünnünün tərsi dönər, ləzginin tərsi dönməz.

256. Süpürülməmiş yerdən dava axtarır.

257. Süpürsəm də keçəl Sərxanın arvadıyam, süpürməsəm də.

258. Sürü qayıdanda axsax həmişə qabaxda olar.

259. Sözü söylə qanana, qulağında qalana.

260. Söymə nökər dədəmi, söymüyüm şah dədaa. = Söymə qul atama, söymüyüm xan ataa.

**Ş**

261. Şah oğluna gedif qısıla-qısıla gəzməkdənsə, irəyət oğluna get, oynuya-oynuya gəz.

262. Şeytanla şərikli buğda əkən saman biçər.

**T**

263. Tamahgirin qohumu olmaz.

264. Tapan tapan olseydi, çoban bəy olardı.

265. Tarlanın daşlısı, qızın saşlısı, kişinin yaşlısı.

266. Tatı tamarzı görüf əlinə bağır öfkəsi verdilər.

267. Tay kəlin boyunduruğu çiynində qalar.

268. Tez-tez gələn kül üsdə, gej-gej gələn çul üsdə. = Gündə-gündə gələn kül üsdə, ayda-ildə gələn çul üsdə.

269. Tezdəni ləngit, günortanı bərkit, axşamı tərgit.

270. Təbriz uzaxdadı: ip burda, şeytan burda.

271. Təzə binənin iti də gərək qancıx ola.

272. Tənbəl dağda qar gördü, yorğana büründü.

273. Tənbəl fikirri olar.

274. Tərəkəmə qazanar, tat yeyər, eşşəh qazanar, at yeyər.

275. Tərəkmə ya it oğrusu olar, ya at.

276. Toba toxluxdandı, üz-göz yoxluxdandı.

277. Tutun sıxınnansa, seyrəyi yaxşıdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**U**

278. Uduzan pəhləvan güləşə doymaz.
279. Uğurum olsun, Urumda olsun.
280. Usda oğlunnan şəyird olmaz.
281. Uşax yeyər, oyuna gedər,
Çoban yeyər, qoyuna gedər.
282. Utanana utancağam, yaşmağım üzdən yuxarı.
Utanmaza utanmazam, tumanım dizdən yuxarı.
283. Uzananın üsdə qar yağar.
284. Uzun kösöv əl yandırmaz.

**Ü**

285. Üzdə mələk, dalda kələk.
286. Üzəngi yoldaşı oluf.
287. Üzüm üzünə baxar, rəng gətirər.

**V**

288. Vardan verən bəllidi, yoxdan verən dəlidi.
289. Varrını yağ saxlar, kasıbı hax saxlar.
290. Ver – qorxma, istə – utanma.
291. Verif yaman olunca, vermiyif yaman ol.
292. Verillər götür, döyüllər qaç.
293. Vədəsiz yarpax tökülməz.
294. Vəli vəlnən, kəli kəlnən.
295. Vuran oğul anasınnan soruşmaz.

**Y**

296. Yaxşı adama çatmasan da, yurduna qon.
297. Yaxşı ananın pis qızı olmaz.
298. Yağ yağnan qaynıyar, yarma yavan qaynıyar.
299. Yağ yemir ki, ağzı yağa bulaşa.
300. Yağlı çörəyin olunca, yağlı dilin olsun.
301. Yağlı tapmasan da, yavanın olsun.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

302. Yalançı dəyirmannan düşdü, başı unnu gəldi, heş kim inanmadı.

303. Yalançı da tamahgiri bir dəfən alladar.

304. Yanımızı yasdı, yerimizi isdi elədik.

305. Yanlız insan ya şeytandı, ya Rəhman.

306. Yanşax yanın kar yırtar.

307. Yanvar çıxdı, fevral azdı, mart da yazdı.

308. Yarı yanında, əli qoynunda.

309. Yatan ölmür ha, yetən ölür (Kişi öləndən sonra əmlakını arvadının adına yazdıracağını dedi. Arvadı isə onun nə ölməyini, nə də varını istədiyini dedi. O zaman kişi bu atalar sözünü misal çəkdi.)

310. Yasdı-yasdı yarpaxlara yaz qırağı demərəm,
Sənin kim adama dızqırağım demərəm.

311. Yaşmax altınnan çıxan dil, bulud altınnan çıxan gün.

312. Yatanın üsdünə yağış yağar.

313. Yayda işdəmiyən qışda titriyər.

314. Yayda kölgədə oturan qışda odun axdarar.

315. Yaylığının qulağına bax, evlərinin ulağına bax.

316. Yaz yağışı tez keçər.

317. Yediyini it aparır,
İşdiyini də sel.

318. Yer bərk olanda öküz öküzdən görər.

319. Yetimə deyillər, kimi minərsən? Deyir: Çörəh verəni.

320. Yeyir yandırannan,
İçir qandırannan.

321. Yeznə kişinin düşmənidi.

322. Yıxıldığın yeri tanı.

323. Yolda çörəh ağırrıx etməz.

324. Yoxsulun evində dəmir tapılmaz, itinin adını "Dəmir" qoyar.

325. Yurd yurddan sayalı olar.

326. Yüz dərənin başını bir tab* kəsər.

327. Yüz hadıx olsa da, güj doğana düşür.

---

* tab – dağın beli



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## IX. DEYİMLƏR

1. Ağaşda yatmısan, nədi? (nə tezdən durmusan mənasında işlədilir).
2. Arpaya qatsan, at yeməz, kəpəyə qatsan, it yeməz (bir şey çox dadsız olanda deyirlər).
3. Aş üsdə omba ətidi elə bil.
4. Ay gözəl oğlan, tula dişdər səni,
   Anannan eylər qara qaşdar səni.
5. Bir ilə dovşan dərisi də dözər (bir ilin çox az olmasına işarədir).
6. Biri özüynən axmağın birini aparır bir məclisə. Deyillər ki, bunu niyə bura gətirmisən? O da deyir ki, Bayramalısız toy olmaz.
7. Beş eşşəhli xoca kimi özünü çəkir (loğa, özünü dartan adamalara deyirlər).
8. Bir köynək yamannığa yırtıb (adı pisliyə çıxan şəxs haqqda deyilir).
9. Birənin dalına bit yazır (bic adam haqqında deyilir).
10. Dəli Nəzərəm, belə gəzərəm (özü bildiyi kimi hərəkət edən adamlar haqqında deyirlər).
11. Elə bil qotur dəvəyə yağ çəkirsən (xoşallanmaq mənasında).
12. Elə bil ki, tat içinə tərəkəmə düşüf.
13. Elə söz deyərəm ki, kar qulağı eşitməmiş olar.
14. Elə get ki, dəyirmannan darı gedən kimi.
15. Əskisi yanıxdı (yəni hər işdə onu günahkar bilirlər).
16. Həfdəsinnən motal dolmaz, cad olar (yalançı adam haqqında deyirlər).
17. Hinit-vinit, bizim it (oxşarlığı bildirir).
18. İki siçan oynasa (yaxud: dalaşsa), biri oda düşər (dar yer mənasında).
19. İt əşi, pişik qəşi (çox qarmaqarışıqlıq olan yerdə deyirlər).
20. Loğman deyif ki, bal bütün dərtdərin qarşısını aldı, bir ölümün yox.
21. Nə bağayarpağı, nə quzuqulağı (onun üçün fərqi yoxdu).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

22. Qaraçı (yaxud: dilənçi) yabısı kimi nə dayanıb durmusan?

23. Qarğa balasının əlinnən isdi təzəyə həsrət qalan kimi.

24. Sən eşşəyin yekəsini axurdan çıxartdın (yəni məsələnin əsasını həll elədin).

25. Sənə görə hava xoşdu (yəni dünya vecinə deyil).

26. Su şırıltısına, qarğa qırıltısına oynayannar.

27. Şeytannarı kar olsun (ölüdən danışanda deyirlər).

28. Toyux ağzı qanatmamışam ha (kiməsə bir şey çatmayanda, yaxud da verilməyəndə işlədilir).

29. Tülkü papağını, xoruz qanadını çırpmamış (yuxudan tez duran haqqında deyilir).

30. Yağış olsan, heç kəsin tarlasına düşməzsən (yəni xeyirsiz adamsan).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# X. TAPMACALAR

1. Maydan yolnan gedirdi, üsdündə yükü, dalınnan da balası gəlirdi. Balası hıkqıldıyır yükün altında. Hıkqıldıyanda balasına deyir ki, niyə hıkqıldıyırsan. Deyir ki, ay ana, yüküm yaman ağırdı. Deyir: "Nətəri, mən hıkqıldamıram, sən hıkqıldıyırsan? Mənim yükümün əgər ikisini alıf sənin yükünün üsdünə qoysalar, ikimizin də yükümüz hələ barabar olar. Yox, sənin yükünün ikisini alıf mənim yükümün üsdünə qoysalar, mənim yüküm doqquz dəfə səninkinnən ağır olar". İndi, təyin elə, tap. Ana ulağın belində nə qədər yük varmış, bala ulağın belində nə qədər yük varmış?

*Açması:* Ana ulağın üsdündə yeddi, bala ulağın üsdündə isə üş kilo yük olur. Ana ulaxdan ikisin alıf bala ulağın yükünün üsdünə qoyanda barabar olur, bala ulağın yükünün ikisin alıf ana ulağın üsdünə qoyanda doqquz dəfə ağır olur.

2. Ağac başında qırmızı yumurta.
***(zoğal)***

3. Gündüz yatar, gecə uçar,
Çox quşdardan yeyin qaçar.
***(yarasa)***

4. Bir quşum var tağ üsdə,
Dimdiyi yarpağ üsdə.
***(badımcan)***

5. On beşində ucalar, otuzunda qojalar.
***(Ay)***

6. Ağ sandığım açıldı, içinnən nur saçıldı.
***(sünbülün açılması)***

7. Qırmızı nar, hər evdə var.
***(od)***

8. Bazarda qara, evdə qırmızı.
***(kömür)***

9. Ay gedir, il gedir,
Bircə qarış yol gedir.
***(beşik)***

10. Mənim adım Avdıkərim,
Qavala çəkilir dərim.
***(keçi)***

11. O tayda bir kişi duruf,
Əlində şişi duruf.
Deyir maa bir ət ver,
Nə erkək olsun, nə dişi.
***(göbələk)***



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

12. Od yanmaz, tüsdü çıxmaz, bişən hansı xörəkdi?

***(pendir)***

13. Bu dərədən el getməz,
Külüng işdər, bel getməz.
Bəbir bir at minifdi,
Qarnı altdan yel getməz.

***(çay)***

14. İki toyux basdırmışam: biri isdi, biri soyux.

***(yay, qış)***

15. Bir kişinin dörd evi var: biri yaşıldı, o biri al, biri sarıdı, o biri ağ.

***(fəsillər)***

16. Burdan vırar qılıncı,
Bağdatda oynar ucu.

***(şimşək)***

17. Göydə doğular, yerdə boğular.

***(yağış)***

18. O nədi ki, özü var, kölgəsi yox.

***(su)***

19. Bir sürü atdar,
Çəməndə otdar,
Vaxdı gələndə
Dərisi çatdar.

***(pambıq)***

20. Bədəni yerdə, sakqalı göydə.

***(turp)***

21. Altı dəri, üsdü dəri,
İçində bir ovuc darı.

***(əncir)***

22. Evimizdə bir kişi var,
Bir şələ sakqalı var.

***(süpürgə)***

23. Gün çıxar gələr,
Axşam mürgülər.

***(günəbaxan)***

24. Səssiz göldə it hürər.

***(qurbağa)***

25. Yumru təkər, əllərdə gəzər.

***(qaval)***

26. O nədir ki, bədəni içəridə, başı çöldə?

***(mismar)***

27. Bir özüdü, dörd gözü.

***(düymə)***

28. Bir qara quşum var,
Havada uçar, qanadı yox.

***(bulud)***



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

29. Nə əli var, nə ayağı,
Qapını açar dəlisayağı.
***(külək)***

30. Odda yanmaz, suda batmaz,
Yazda ölər, qışda gələr.
***(buz)***

31. Qanadı var uçmağa,
İynəsi var sancmağa.
***(arı)***

32. Yer altında yolları,
Əyri-üyrü qolları,
Nə incədi belləri.
***(qarışqa)***

33. Balaca quyu, içində suyu
Ağcadan ağdı, sarıdan sarı.
***(yumurta)***

34.Balaca bakqal, nə versəm udar.
***(ağız)***

35. Bir güzgüm var qapalı,
Dörd qırağı saçaxlı.
***(göz)***

36. Ay gedər, il gedər,
Bircə qarış yol gedər.
***(qapı)***

37. Bir balaca sandıxca,
İçi dolu ağ mıxca.
***(kibrit qutusu)***

38. Balaca quyu, pıkqıldar suyu.
***(samovar)***

39. Deyə bilməz sözünü,
Tez yandırar özünü.
***(qovurğa)***

40. Üzük aldım, qaşı yox,
Təpə gördüm, daşı yox.
O nədir ki, ağlıyır,
Gözlərinin yaşı yox.
***(kamança)***

41. Ağzı birdi, dili min
Gah belə deyir, gah elə.
***(qələm)***

42. Qapağı ikidi, yarpağı min.
***(kitab)***

43. Bir gün biri, bir gün biri,
Nə ölüdü, nə diri.
***(ürək)***

44. Tağ atmaz, kölgə tutmaz,
Yer altda nə yemişdi.
***(donbalan)***

45. Böyün bir kətdi gördüm,
Kətdanı kətdə gördüm.
Yirmi dörd ulduzu
Dörd ayın altda gördüm.
***(atın nal və mıxı)***



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

46. Getdi buyrux, gəldi buyrux,
Əridi qazan, qaldı quyrux.
***(çarıx və ayaq)***

47. Əlli-altmış yaşında hələ də deyir uşağam, genə də deyir uşağam.
***(ilan)***

48. Hajılar haja gedər,
Cəhd edər gejə gedər.
Bir yumurta içində
Yüz əlli cücə gedər.
***(hörümçək yumurtası)***

49. Vay! Papağım göydə qaldı.
***(qoz)***

50. Ağ atımı nalladım,
İstanbula yolladım.
***(təyyarə)***

51. Uzun-uzun uzanar,
Özünə köynək qazanar.
***(oxlov)***

52. Nə yerdədir, nə gördə.
Nə evdədi, nə çöldə.
***(pəncərə)***

53. Səfalı bəy xəstədi,
Zənciri qəfəsdədi.
Nə yerdədi, nə göydə,
Çərxi-fələk üstədi.
***(Əzrayıl)***

54. Yer altında sarı biz.
***(kök)***

55. Bizdən sizə diyiri qoz.
***(siçan)***

56. Hini hinicə, burnu əyricə.
***(noxud)***

57. Hürü Hürünü dindirir,
Hürü Pərini dindirir.
Bir budaxda beş alma,
Bir-birini dindirir.
***(saz)***

58. Bir atım var, minmək olmaz,
Bir qamçım var, sürmək olmaz.
***(yel)***

59. Nədəndi, ha nədəndi?
Əsili gülbədəndi.
Ağaşda bir çırax yanır,
Gör piltəsi nədəndi?
***(ay)***

60. Sarıca dığa yer qazar.
***(damcı)***

61. Ay naxırçı, dur gedək.
Naxırı sür gedək.
Səksən səkkiz qapıya
Bir kilidi vır, gedək.
***(......)***



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

62. Dağdan gəlir dağ kimi,
Qolları budax kimi.
Əyildi su işməyə
Bəyirdi oğlax kimi.
***(mancanaq)***

63. O nədi ki, hər şeyin qarnın yırtanda ölür, bının qarnın yırtanda dirilir.
***(ocaq)***

64. O nədi ki, toxumsuz bitər?
***(dombalan)***

65. Daş dambıldar,
Su gumbuldar,
Heyva çalır,
Nar oynar.
***(samovar)***

66. Mırğızı, bəyi xan durğuzu.
***(nəcis)***

67. O kimdi damım üsdə?
Toz tökər camım üsdə.
Aşımı şor eylədi,
Gözümü kor eylədi.
***(tüstü)***

68. O nədi ki, dəymişi ajı olar, kalı şirin?
***(uşax)***

69. Gedən getmə, işim var,
Zərgərdə gümüşüm var.
Ağzı bağlı otaxda
Gözü bağlı quşum var.
***(baramaqurdu)***



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# XI. BAYATILAR

1. Mən aşıx, ayax sudan,
Ağ sudan, ayax sudan.
Camalın suda gördüm,
Çəkmədim ayax sudan.
= Əzizim, ayax sudan,
Üzər hay ayax sudan.
Yarımı suda gördüm,
Kəsmərəm ayax sudan.

2. Aşıx, el gəli dağlar,
Döşü kölgəli dağlar.
Oturub yol gözdərəm,
Haçan el gəli, dağlar?

3. Yox dağlar bir ov sənnən,
Getməz qar, qırov sənnən.
Yüz il pusquda qaldım,
Tutmadım bir ov sənnən.

4. Yetimin yekə dərdi,
Yüklənif lökə dərdi.
Nər çəkməz, maya çəkməz,
Bəlkə, fil çəkə dərdi.

5. Gəl gedək dağa, qardaş,
Qorxuram yağa, qardaş.
Sən duman ol, mən çiskin,
Çəkilək dağa, qardaş.
= Gəl gedək dağa belə,
Qorxuram yağa belə.
Sən duman ol, mən çiskin
Çəkilək dağa belə.

6. Gecəmiz necə keşdi?
Bilmədim necə keşdi.
Mənimki ah-vayınan,
Səninki necə keşdi?

7. Mən aşıq, osan dağlar,
Qar başın basan dağlar.
Sənə gələnnər gedif,
Sən elə osan, dağlar.

8. O tayda təkə otdar,
Təkə nə yekə otdar.
Sürüsünnən ayrılıf
Ah çəkə-çəkə otdar.

9. Afçıyam, av dəyiləm,
Çaxmağa qav dəyiləm.
Afçı, əlin qurusun,
Vırmalı av dəyiləm.

10. Əzizim, sənə dağlar,
Sənət ver, sənə dağlar.
Can məndə qərar tutmaz,
Göndərim sənə dağlar.

11. Əzizim, murad ağlar,
Murad ver, murad ağlar.
Ellər murada yetdi
Canım namurad ağlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

12. Qarşıdan Hürü gəldi,
Gözümün nuru gəldi.
Bu arxı kim işdədi,
Su belə duru gəldi?

13. Əzizim, gəlmiyəsən,
Gələsən, gəlmiyəsən.
Qorxuram yaddaşasan,
Gəlmiyə-gəlmiyə sən.

14. Gedirəm elinizdən,
Düşmərəm dilinizdən.
Olaram bir yaşılbaş,
Uçaram gölünüzdən.

15. Yaşıldı başın ördək,
Nə çəkif başın ördək?
Həmişə cüt gəzərdin
Hanı yoldaşın, ördək?

16. Əlimdə qələmim var,
Kağızım, qələmim var.
Yaxın gələ bilmirəm,
Uzaxdan salamım var.

17. Sinəm göz yatağıdı,
Eşqin öz yatağıdı.
Gözüm ilham çeşməsi,
Könlüm söz yatağıdı.

18. Quş uçar, yenə gələr,
Çölə, çəmənə gələr.
O tayda yuva qurar,
Bu tayda dənə gələr.

19. Bu göllər sona yeri,
Bu daşdar xına yeri.
Gədihdən aşır günəş,
Boyanır qana yeri.

20. Dağlar, otun qurusun,
Bağlar, tutun qurusun.
Fələh, sənin mənimtək
Matın-mutun qurusun.

21. Quşum uşdu tüləhdən,
Qolum sındı biləhdən.
Bizimki düz gəlmədi,
Çərxi dönmüş fələhdən.
= Quşum uşdu kələhdən,
Oxum sındı ləlehdən.
Mən mını kimdən görüm
Çərxi sınmış fələhdən.

22. Gözlə, bağdan gül itər,
Yaxana düz gülü tər.
Tər düşər gül yanağa,
Yandırmazmı gülü tər?

23. Ömrümə pəlmə gəldi,
Çən gəldi, çəlmə gəldi.
İnsafsız qocalığa
Ha dedim, gəlmə, gəldi.

24. Maral, yerin şam oldu,
Otdu yerin şam oldu.
Gözümü yola dikdim,
Gəlmədin, axşam oldu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

25. Ata-ata gedifdi,
Yata-yata gedifdi.
Qurban olum qardaşa,
Extilata* gedifdi.

26. Oğlan, adın Həsəndi,
Qılınc başı kəsəndi.
Düşmənə bel bağlama,
Düşmən zəncir kəsəndi.

27. Oğlan, adın Əlidi,
Qolları düyməlidi.
Qurban olum qardaşa,
Səfərə getməlidi.

28. Aman-aman oldu, gəl,
Halım yaman oldu, gəl.
Ayları vədə verdin,
İllər tamam oldu, gəl.

29. Araz üsdə yel əsir,
Qırağında gül əsir.
Küləkdən qanad alıf
Araz Kürə tələsir.

30. Əziziyəm, ay qardaş,
Qaşın ucu yay qardaş.
Kaş mən özüm öləydim,
Deməyəydim, vay qardaş.

31. Əziziyəm, vətəndə,
İgid gərək vətəndə.
Elin sözü bir olsa,
Yağı qoymaz vətəndə.

32. Əyirplan göydədi,
Qanatdarı göydədi.
Qurban olum qardaşa,
Qardaş qərib yerdədi.

33. Dəvəçiyəm, gəzirəm,
Dəvəmə güllər bəzirəm.
İtirmişəm cavannarı,
Sorağıynan gəzirəm.

34. O gələn bizə gəlir,
Hündürdən düzə gəlir.
Atamın cavan balası,
Geyinif bizə gəlir.

35. Qərib öldü, götürün,
Küçələrə ötürün.
Qəribin vay xəbərin,
Qohumlara ötürün.

36. Aşiqəm özüm sənə,
Dəyməsin gözüm sənə.
Qoçum yox qurban kəsim,
Mən qurban özüm sənə.

37. Mən aşiqəm, saldı yar,
Dərdi mənnən aldı yar.
İki könül arzusu,
Qiyamətə qaldı yar.

38. Siqaret yana-yana,
Od düşsün şirin cana.
Necəsən, qoyum gedim,
Qalasan yana-yana.

---

* extilat – söhbətləşmək



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

39. Bakının yeli əsdi,
Qüssələr məni kəsdi.
Sağ gözüm sənə qurban,
Sol gözüm mənə bəsdi.

40. Əzizim, səfa gəldin,
Xoş gəldin, səfa gəldin.
Nə mən öldüm qutardım,
Nə sən insafa gəldin.

41. Bu dağda maral azdı,
Ovçu çox, maral azdı.
Qəm çəkmə mənim üçün,
Gələrsən, vaxtım azdı.

42. Mən aşiq, lala yalqız,
Gül qoşa, lala yalqız.
Qorxuram qərib öləm,
Qəbrim də qala yalqız.

43. Aşığam, köhnə dağı,
Gəzirəm köhnə dağı.
Təzədən bir dağ çəhdin,
Unutdum köhnə dağı.

44. Əzizim, içmə, dosdum,
Hər sudan içmə, dosdum.
Uyma düşmən sözünə,
Dosdunnan keçmə, dosdum.

45. Əzizim, yüz il məni,
Xalçaya düz ilməni.
Dosdum mənə yad olmaz,
Görməyə yüz il məni.

46. Dağ başını qar alar,
Duman alar, qar alar.
İnsan azad olmasa,
Ömrü-günü qaralar.

47. Yaxın qoyma qubarı,
Tükənməz etibarı.
Çox şeyi itirərsən,
İtirsən etibarı.

48. Unutmaz vətən məni,
El deyif ötən məni.
Qürbətdə yol otuyam,
Tapdayar ötən məni.

49. Gül üsdündə yaş olum,
Ellərə sirdaş olum.
Qürbətdə şah olunca,
Vətənimdə daş olum.

50. Aşıq, el gəli dağlar,
Döşü kölgəli dağlar.
Oturuf yol gözdərəm,
Haçan el gəli, dağlar.

51. Əzizim, sənə, dağlar,
Meylimdi sənə, dağlar.
Can məndə qərar tutmaz,
Göndərim sənə, dağlar.

52. Əzizim, o da yaxşı,
Pərvanə oda yaxşı.
Yaman arvad, pis oğul
Olmaya, o da yaxşı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

53. Zirvələr qara qaldı,
Vüsal bahara qaldı.
Quzeylər ağ geyindi,
Güneylər qara qaldı.

54. Əzizim, bu dağnan,
El gedər bu dağnan.
Mən ölüm, sənə qurban,
Sən ölmə bu dağnan.
= Əzizim, bu dağnan,
Sallan gəl budağnan.
Sənə yaxşı deməzdər
Mən ölsəm bu dağnan.

55. Ağlıyan başdan ağlar,
Kirpikdən, qaşdan ağlar.
Qardaşı ölən bacı,
Durar obaşdan ağlar.

56. Bənövşə çiçəhləndi,
Yarpağı ləçəhləndi.
Yatmağın yalan oldu,
Ölümün gerçəhləndi.

57. Sən məni ağlar qoydun,
Sinəmə dağlar qoydun.
Yıxdın atam evini,
Qapımı bağlar qoydun.

58. Əzizinəm, açaram,
Gül tək işıx saçaram.
Ölüm ana da ola,
Ana yurddan qaçaram.

59. Qarabağdan gəlirəm,
Yüküm yoxdu, zəliləm.
Bir döşəh at, bir yasdıx,
Əcəl gəlib, ölürəm.

60. İsmət durduğu yerdə,
Boynun burduğu yerdə.
Namərd, əlin qurusun,
İsməti vurduğun yerdə.

61. Əziziyəm, şam ağlar,
Piltə yanar, şam ağlar.
Qəribin qürbət eldə
Məzarında şam ağlar.

62. Əzizim, ana yeri,
Əzizdi ana yeri.
Cənnətdən şirindi,
Hər kəsə ana yeri.

63. Eləmi, ya saraylar,
Ürəyim yas haraylar.
Üsdümə hücum çəkdi,
Pis günnər, yassar aylar.

64. Əzizinəm, yüz dərdim,
Dərmansızdı yüz dərdim.
Ərəb gəldi, öc aldı,
Birkən artdı yüz dərdim.

65. Bu dağlar, ulu dağlar,
Çeşməli, sulu dağlar.
Qarabağ əldən gedir,
Göy kişnər, bulud ağlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

66. Anam, anam, öz anam,
Mənə pənah, göz anam.
Bir günümə dözmürdüm,
Ərəseymə döz anam.

67. Allah amanda dursun,
Yarım yuxudan dursun.
Ana, gülabı gətir,
Yarım telinə vursun.

68. Qara at nalı neylər?
Qara qaş xalı neylər?
Sən kimi yarı olan
Dövləti, varı neylər?

69. Küçədə xonça gedir,
İçində nimçə gedir.
Aləmin gülü getsə,
Bizimki qönçə gedir.

70. Mən əzizəm, şonqara,
Şikar gəzər şonqara.
Cik-cik deyən sərçələr,
Neylər şahin-şonqara.

71. Mən aşiqəm, başabaş
Oxu dərsin başabaş.
Eşqinnən səməndərəm,
Oda yandım başabaş.

72. Qızılgül açılanda,
Açılıb saçılanda.
Yarımdan ayrılardım,
Hər sabah açılanda.

73. Əziziyəm, gül bağda,
Bülbül bağda, gül bağda.
Sənsiz bağa girmərəm,
Xəzəl olsa gül bağda.

74. Araz arxa dolanır,
İpək çarxa dolanır.
Könlüm yarın başına,
Qorxa-qorxa dolanır.

75. Qış gəldi, qar gəlmədi,
Dağlara bar gəlmədi.
Dərdinnən xəsdə düşdüm,
El gəldi, yar gəlmədi.

76. Payın qazanda dursun,
Ərzin yazanda dursun.
Açılmaz qəmli könlüm,
Yüz min sazanda* dursun.

77. Mən bu yola bələdəm,
Kim deyir nabələdəm?
Necəsən bir ah çəkəm,
Dağı-daşı mələdəm.

78. Bağlara çən düşübdü,
Başıma dən düşübdü.
Tanrı, məni quş eylər,
Yada vətən düşübdü.

79. Gül üsdündə yaş olum,
Ellərə sirdaş olum.
Qürbətdə şah olunca,
Vətənimdə daş olum.

* sazanda – saz çalan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

80. O tayda ana ağlar,
Baxar bu taya, ağlar.
Qorxuram bu nalədən,
Od tutub yana dağlar.

81. Əzizim, sözə qaldı,
Bir şirin sözə qaldı.
Yad qovuldu dağlardan,
El-oba bizə qaldı.

82. Su axar, yeri yaş qalar,
Daş zindanda daş qalar.
Oğlu gedən ananın,
Gözlərində yaş qalar.

83. Mən aşiqəm gül gülə,
Bülbül gülə, gül gülə.
Yar telinə gül taxıf,
Calağ oluf gül gülə.

84. Bir kiçicik quş idim,
Budağa qonmuş idim.
Niyə uçurdun məni?
Mən sənin olmuş idim.

85. Eləmi, düşən yeri,
Atılıb düşən yeri.
Göz yaşım oda dönüb,
Yandırır düşən yeri.

86. Mən aşiqəm, al inci,
Gey qəddinə al, inci.
Dosda xəyanət olmaz,
Qurma mənə al, İnci.

87. Mən aşiqəm, ay ağa,
Piltə yanar a yağa.
Mərd sözün üzə deyər,
Heç yapışmaz ayağa.

88. Araz axar gilinən,
Dörd bir yanı gülinən.
Qismət olsa danışam,
Uzaq düşən elinən.

89. Əzizim, suda yandı,
Sel gəldi, su dayandı.
Eşq oduna su tökdüm,
Alışdı, su da yandı.

90. Mən aşiq, qoşa dağlar,
Çatıf baş-başa dağlar.
Sizdə oğul itirdim,
Dönəsiz daşa, dağlar.

91. Çiçəklər hala gəldi,
Arılar bala gəldi.
Nə günah elədim ki,
Başıma bəla gəldi?

92. Bosdanda tağım ağlar,
Basma, yarpağım ağlar.
Hələ sağam, ağlaram,
Ölsəm, torpağım ağlar.

93. Qara-qara qazannar,
Qara tarix yazannar.
Əlində qələm sınsın,
Bu tarixi yazannar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

94. Gün getdi, sarı qaldı,
Getdikcə sarı qaldı.
Girov yoluna baxmaxdan,
Gözümdə sarı qaldı.

95. Atın qoşuna gəlsin,
Nalla, qoşuna gəlsin.
Qaşqın başına gələn
Kafər başına gəlsin.

96. Başıma baş bağlaram,
Yuyaram yaş bağlaram.
Gözlərəm, vətən qayıtmasa,
Bağrıma daş bağlaram.

97. Apardılar gülümü,
Eylədilər zülümü.
Nə qoydular danışım,
Nə kəsdilər dilimi.

98. Qarabağda talan var,
Zülfün üzə salan var.
Sən getdin çox əyləndin,
Heç demədin gözü yolda
qalan var.

99. Pəncərədə quş mənəm,
Yalvarsalar, düşmənəm.
Bu vətənin quşuyam,
Bu vətənə düşmənəm.

100. Əvləri günortadan,
Tikilib günortadan.
Dərdinə şərik ollam,
Bölərəm tən ortadan.

101. Mən aşiq Diri dağı,
Dik durub Diri dağı.
Ölüm Allah əmridi,
Yamandı diri dağı.

102. Maralı vay, dağı vay,
Maral otlar dağı, vay.
Özün qaşdın qutardın,
Mənə çəkdin dağı, vay.

103. Məni gördü yan verdi,
Yaş kirpiyə san verdi.
Neçə yorğan-döşəkli
Quru yerdə can verdi.

104.Qardaş-qardaş, quş qardaş,
Qanadı gümüş qardaş.
Saçım sana üzəngi,
Gəl qapımda düş, qardaş.

105. Qardaş deməm, qan olar,
Yel əsər, fəğan olar.
Qardaş gələn yollara
Bacılar qurban olar.

106. Könlüm bir fəğan ağlar,
Yel əsər, Muğan ağlar.
Dindirmə, min dərdim var,
Hərdən bir fəğan ağlar.

107. Qəlbimdə qala yeri,
Çəkəllər qala yeri.
Qorxuram qaşqın düşəm,
Təpili qala yerim.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

108. Bu nara qəlbi nara,
Çəkiflər qəlbi nara.
Diliynən dosd olanın
Qayıt bir qəlbin ara.

109. Gözlərim neyçün ağlar?
Uçuruf quşun ağlar.
Vurulan qəflə mənimdi,
Kiradan* neyçün ağlar?

110. Canımın azarı var,
Ağrıyır, azarı var.
Aşığın şan bağrını,
Tapmamış az arı var.
= Aşığın şan bağrına
Qonmamış az arı var.

111. Araz üsdə xan bağlar,
Xan oturmuş, xan bağlar.
Mənim viranə könlüm
Arı gəlsə, şan bağlar.
= Araz üsdü xan bağlar,
Duman gəlsə, çən bağlar.
Göylüm elə verandı,
Arı gəlsə, şan bağlar.

112. Göydən gedir quş, əmi,
Çağırıf neynir bu məni?
Əl dəsmalın kəfən eylə,
Göz yaşınnan yu məni.

113. Aşıx el gəldi, neynim?
Poştlara** tel gəldi, neynim?
Obalara yağış yağdı,
Bizə də sel gəldi, neynim?

114. Dağda boran oldumu?
Yağdı, boran oldumu?
Çoxlu girov itirdik,
Onu görən oldumu?

115. Yandım-yandım, su varmı?
Xəsdə sudan doyarmı?
Gedək gavıra yalvarax,
Görək girovları qoyarmı?

116. Qanqal nə qalınmış,
Əyağım da yalınmış.
Gedək gavıra yalvarax,
Gavır nə zalımmış.

117. Məni vırdı üç ilan,
Yumurtası puç ilan.
Varmı ola qaşqın kimi,
Zəmisi göy biçilən?

118. Məni vırdı ilannar,
Tanıyannar, bilənnər.
Ovsunçu kar etmədi,
Haray, ovsun bilənnər.

119. Aslanım, hay aslanım,
Qapını kəsim, yasdanım.
Dünya çiçəklənən yerdə,
Dolu döydü bosdanım.

---

* kiradan – kirə verən

** poşt – poçt



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

120. Qaşdarın qələmgahdı,
Gözün əymə, günahdı.
Dağlara duman gəlsə,
O da mən çəkən ahdı.

121. Gedərəm, yolum dağdı,
Dörd yanım güllü bağdı.
Çəkərəm vətən qəhrin,
Necə ki canım sağdı.

122. Dərya, sənnən kim keşdi?
Kim qərq oldu, kim keşdi?
Güney (quzey) xiyallı könlüm,
Xiyalınnan kim keşdi?

123. Gəldi burdan bad keşdi,
Bad əyləndi, bad keşdi.
Fələk, gəl isbat eylə,
Görüm hansı günüm şad keşdi.

124. Qəlbimdə qurdum taya,
Kölgəsi düşdü çaya.
Bizi belə eliyən
Nə gün görsün, nə vaya.

125. Baxçadan gül qırallar,
Yava* gəzmə, duyallar.
Kəsəllər dal-qabağın,
Görən necə qıyallar?

126. Ağlaram ağlar kimi,
Dərdim var dağlar kimi.
Vətənnən ayrılannan
Xəzəl ollam, tökülləm
Viranə bağlar kimi.

127. Götürün ağ yelkəni,
Gözüm görsün gələni,
Ya rəbb, görən neyləllər,
Qaşqınnıxda öləni?

128. Ölürəm, yaram nədi?
Ölümə çaram nədi?
Xuda vermiş bir dərtdi,
Çəkirəm, çaram nədi?

129. Ürəyim aldı vərəm,
Açıxda dəyil, görəm.
Nə yasdığım silkinir,
Nə yetir fərzim, öləm.

130. Qəribəm, ağrır başım,
Yasdığa damar yaşım.
Desələr vətənə qayıdırsan,
Yasdıxdan qalxar başım.

131. Tüfəyini qola sal,
Götür sağdan sola sal.
Gördün qənim üsdün gəlir,
Sən də özuu kola sal.

132. Sumaxda yaxşı su var,
İçməyə yaxşı su var.
Dərtdən, qəmnən, hicrannan,
Qaşqında yaxşısı var.

---
* yava – açıq-aydın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

133. Ay dağlar, yasdı dağlar,
El getdi basdı dağlar.
Üç ay toy-bayramnan,
Dokquz ay yasdı dağlar.

134. Gəl məni qoyuf getmə,
Nar kimi soyuf getmə.
Boynumu çiynim üsdə,
Burulu qoyuf getmə.

135. Mən aşiq, yüz məzarı,
Şannan bal üzməz arı.
İtirmişəm qəbrini,
Gəzirəm yüz məzarı.

136. Dağda dolu durufdu,
Dolu boynun burufdu.
Mən doludan qorxuram,
Dolu məni vırıfdı.

137. Mən aşıx sənət ağlar,
Sənət ver, sənət ağlar.
Yiyəsi cavan ölüf,
Qoynunda sənət ağlar.

138. Bizə fələh eliyif,
Quruf kələh eliyif.
Girif güllü baxçama,
Ləl期-ləlıh eliyif.

139. Gəlişin yaza bənzər,
Boyun şahbaza bənzər.
Qayıtsan vətən sarı,
Qış günün yaza bənzər.

140. Yandım-yandım, bişdim mən,
Qəm çayına düşdüm mən.
Kabab odnan bişər,
Odsuz-zadsız bişdim mən.

141. Yandım sənəm oduna,
Səlbi-sənəm oduna.
Yana-yana kül oldum,
Öz kimsənəm oduna.

142. Fələyin çarxı dönsün,
Su gəlsin, arxı dönsün.
Bizi belə eliyən fələyin,
Özünün dəhnədən arxı dönsün.

143. Aman fələh, dad fələh,
Heç olmadım şad, fələh.
Bizə verdiyin paydan
Sən özün də dad, fələh.

144. Araz ada qaytarar,
Yuyar, ada qaytarar.
Qurban kəs, sadağa ver,
Qurban qada qaytarar.

145. Məni vurdu talx ilan.
Başıı götür, qalx, ilan.
Bizə fələh eliyif,
Nə işin var xalxınan?

146. Bağında badamçalar,
Yeməyə badamçalar.
Zilfaa qadağa qoy,
Dolanar, adam çalar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

147. Sən gedən bir il oldu,
Verən bağlar kül oldu.
Getdin, gəlirəm deyif,
Nə yalançı dil oldu.

148. Qabırstan bir kənd oldu,
Dörd yanı gülbənd oldu.
Xaraba qalsın oranı,
Hər yana gedən gəldi,
Ora gedən bənd oldu.

149. Əvləri Maşatdadı,
Tikilib, Maşatdadı.
İsdədim duram gələm,
Qollarım daş altdadı.

150. Qarrı dağlar aşaram,
Duman gəlsə, çaşaram.
Mən bir qaynar qazanam,
Ağzım aşma, coşaram.
= Sinəm qaynar qazandı,
Odu vurma, daşaram.

151. Əlimə saz verdilər.
Yonqarın az verdilər.
Dərdimi çox elədilər,
Dərmanın az verdilər.

152. Gülü saşdım divara,
Bağban gəlsə, suvara.
Qışı belə qışdadıx,
Yazı saldıx avara.

153. Dağlarda gəzən mənəm,
Al geyib bəzənmənəm.
Yuvasız quşlar kimi,
Sərgərdan gəzən mənəm.

154. Mən aşıx, qoynuuza,
Babalı boynuuza.
Ya məni evləndirin,
Ya salın qoynuuza.

155. Dağların qarı mənəm,
Yağıfdı, qarı mənəm.
Fərhad Şirin qannısı,
O köpək qarı mənəm.

156. Mən aşığam, dərd, ağıl,
Qoymaz başda dərd ağıl.
Mehman irazı olmasa,
Xana yıxıl, dər-dağıl.

157. Mən aşıx, ay qabağı,
Bulutdu ay qabağı.
Gülməz namardın üzü,
Açılmaz qaş-qabağı.

158. Gəncənin hey Ağdamı,
Tikilif hey Ağdamı.
Qoy ölən rəqib olsun,
Sən elə hey ağ damı.

159. Otağında birə var,
Məni dişdər, birə var.
Rusdamı-Zal olsan da,
Fələh səni bir avar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

= Otağında gənə var,
Məni dişdər, gənə var.
Urusdamı-Zal olsan da,
Fələh saa genə var.

160. Otağı dərd arxalı,
Döşənmiş dərd arxalı.
Qaşqın bir əv tikifdi,
Qəm əvli, qəm arxalı.

161. Ay mənim inci könlüm,
İnci, zarıncı könlüm.
Səni fələh vırıbdır,
Nə küs, nə inci, könlüm.

162. Alma versəm, almazsan?
Sən almasız qalmazsan.
Hansı bağın gülüsən
İylədihcə solmazsan?

163. Dincələm, ha dincələm,
Dərdim atam, dincələm.
Əynim, başım, boğazım,
Qoymaz yatam, dincələm.

164. Oba köşdü çaxmaxdan,
Sular doymur axmaxdan.
Gözlərimə qan damdı,
Yollarına baxmaxdan,
Vətən yoluna baxmaxdan.
= O görünən Ağdamdı,
Qara damdı, ağ damdı.
Yar yoluna baxmaxdan
Gözlərimə qan damdı.

165. Bağında şirin nə var?
Yeməyə şirin nə var?
Cahanı gəşt eləsən,
Baladan şirin nə var?

166. Aman, məni dərd əydi,
Nomart güldü, mərd əydi.
Konlumun şüşəsinə
Çarx hərrəndi, pər dəydi.

167. Qəm konlum, qəhər konlum,
Yediyi zəhər konlum.
Vırıflar şüşəsi sınıf,
Vırana şəhər konlum.

168. Mən aşıq gül məkanda,
Gül bitər gül məkanda.
Düşməni gördüm, güldüm
Mən handa, gülmək handa?

169. Mən aşığam ha səni,
Hax saxlasın ha səni.
Xəsdə konlu nar isdər,
Mənim konlum ha səni.

170. Qardaş mənim məliyim,
Cibimdə iynəliyim.
Köçəndə köçüm qardaş,
Düşəndə kölgəliyim.

171. Əyilsin başın, dağlar,
Tökülsün daşın, dağlar.
Sənin də mənim kimi,
Ölsün qardaşın, dağlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

172. Dəryada sijim gördüm,
Sijimin ujun gördüm.
Fələyə bel bağlama,
Fələyin güjün gördüm.

173. Qardaşım birdi mənim,
Gözümə nurdu mənim.
Ölləm, üsdümə gəlmir,
Ovqatım kürdü mənim.

174. Qızıl gül bağam* oldu,
Dərdmədim, vağam** oldu.
Fələh bir iş işdədi,
Nökərim ağam oldu.

175. Bu yerlər gəyən*** yerlər,
Gül boynun əyən yerlər.
Əyilsin, anan öpsün,
Ayağın dəyən yerlər.

176. Mən aşığam kür kəlam,
Səni kəssin kür kəlam.
Nə soruğa**** tabım var,
Nə pulum var kürk alam.

177. Bir yol gördüm karvansız,
Dəvə gördüm sarbansız.
Aləmə dərman paylıyan canım,
Özüm öldüm dərmansız.

* bağam – yetişdi, pardaxlandı
** vağam – soldu, viran oldu
*** gəyən – geniş düzənlik
**** soruğ – iri sırıxlı, içi pambıqlı geyim

178. Dərya bılandı genə,
Daşdı, bılandı genə.
Vətən yadıma düşdü,
Halım dolandı genə.

179. Gün getdi dağ başına.
Örtmüsən ağ başına.
Könlü şamama isdiyən
Dolanar tağ başına.

180. Çıxdım qaya başına,
Baxdım tayın-tuşuna.
O qızı maa versələr,
Sallam üzük qaşına.

181. Narıncı qoydum başa,
Qaynadı döndü daşa.
Yurdda qalan dəyildim,
Töhməti qoydum başa.

182. Asmalı ağır gərək,
İçində bağır gərək.
Eldən elə gedənin
Sanbalı ağır gərək.

183. Ay kəhlik, asta kəhlik,
Quyruğu dəsdə kəhlik.
Tutam qəfəsə salam,
Yolluyam dosda, kəhlik.

184. Əzizim, dağda qanı,
Qan gördüm dağdağanı.
Ovçu balasın vırdı,
Göl oldu dağda qanı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

185. Aşiqəm, od adamı,
Cənnətin od adamı.
Yandırsa, yar yandırar,
Yandırmaz od adamı.

186. Ox-yayım təzə yaydı,
Kamandı, təzə yaydı.
Yarım daldan çıxanda
Deyillər təzə Aydı.

187. Aşiqəm mən, ay dursun.
Ülkər dursun, Ay dursun.
Öləndə qəbrim üsdə
O zülflərin yay dursun.

188. Dərd belə canda olur.
Cəsəddə, canda olur.
Yar gəlif, seyr etməyə
Açmışam canda yolu.

189. Aşiqəm, hər günahı,
İşləmə hər günahı.
Üzüm haxda, dil duada,
Çəkərəm hər gün ahı.

190. Əzizim, üzdə danar,
Əllidə, yüzdə danar.
Məhəbbət gözdə olar,
Görməsə, üz də danar.
= Aşiqəm, yüzdə dönər.
Əllidə, yüzdə dönər.
Məhəbbət gözdə olar,
Yar baxar, göz də dönər.

191. Aşiqəm, mənəm sənsiz.
Şad oluf gülmərəm sənsiz.
Dağda ceyran mələsə,
Yəqin bil, mənəm sənsiz.

192. Əzizim, tikan gülə,
Sarmaşır tikan gülə.
Heş kəs gözün dikməsin,
Mən gözüm dikən gülə.

193. Aşiqəm, mən ac arı,
Yuyulmamış acarı.
Hər kim yara pis desə,
Dilin vursun ac arı.

194. Aşiqəm, yüz gün ağlar,
Qaş-gözü süzgün ağlar.
Yarınnan ayrı düşən
Bir gün yox, yüz gün ağlar.

195. Aşiqəm, çimən* yerdə,
Gül bitər çimən yerdə.
Yara köynək oleydım,
Soyunuf çimən yerdə.

196. Aşiqəm, qara gözdər,
Qara qaş, qara gözdər.
Yıxıfdı dədəm evin,
Səndəki qara gözdər.

197. Aşiqəm, qara dağı,
Gəncənin qara dağı.
Sinəmin üsdə çəkdir
Əlif tək qara dağı.

* çimən – çəmən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

198. Mən aşiq, təzə nəm var.
Təşnəm var, təzə nəm var.
Öpülüfsənmi, a sevgilim?
Üzündə təzə nəm var.

199. Aşiqəm, belə qandır,
Didəm bax, belə qandır.
Baş yasdıxda, göz yolda,
Get yara belə qandır.

200. Aşiqəm, nərdivana,
Ayax bas nərdivana.
Səən dərdin mən billəm,
Nə bilir hər divana?

201. Aşiqəm, ağ daşı,
Ağ düyüsü, ağ daşı.
Namərd öldü, iş oldu,
Təki desinnər ağ daşı.

202. Aşiqəm, o diyarə,
Yol gedir o diyarə.
Zülfünü kəmənd elə,
Məni çək o diyarə.

203. Aşiqəm, bir damara,
Nəştər vur bir damara.
Məni zülfün vurufdu,
Sən vurma bir də yara.

204. Aşiqəm, yara məndə,
Dərd məndə, yara məndə.
Cəfa çəkif yetmədim,
Sevgili yara mən də.

205. Aşiqəm, dərdi yara,
Xəsdənin dərdi yara.
Billah, cana doymuşam,
Demərəm dərdi yara.

206. Aşiqəm mən, qara yaz,
Bülbül oxur, qara yaz.
Əlinə al qələmi,
Ağ üsdünə qara yaz.

207. Mən aşiqəm, bir az gül,
Bir az nərgiz, bir az gül.
Gül ki, sən çox gülmüsən,
Xətrim üçün bir az gül.

208. Ağlıyan yaş ağlıyar.
Gözüynən qaş ağlıyar.
Dərddi dərdıı duysa,
Cigəri daş ağlıyar.

209. Dağlar qar qucar yatar.
Sonanı sar qucar yatar.
Cəfanı bülbül çəkər,
Gülü xar qucar yatar.

210. Çəpərlər aşaram,
Qızıl gülə dolaşaram.
Sevdiyim o gözəl qızı,
Ordan götürüf qaçaram.

211. Aşiqəm, gül əsəndə,
Danışıf gülən də.
Bülbülün bağrı çatdar,
Yel dəyib gül əsəndə.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

212. Mən aşiqəm, bir yerdə,
Bir göydədi, bir yerdə.
Hax yaratdı, görmədi,
Mən görmüşəm bir yerdə.

213. Ağlaram, bilən olmaz,
Göz yaşım silən olmaz.
Ay bəxtsiz, ah çəkmə,
Haraya gələn olmaz.

214. Ağlaram, tellər ağlar,
Yaş töküb sellər ağlar.
Sənin dərdii duysa,
Ölkələr, ellər ağlar.

215. Aşiq deyər, nə qaldı?
Nə qaydadı, nə qaldı?
Mərd igiddən şan-şöhrət,
Bəs namərtdən nə qaldı?

216. Sandığı gül bəzərəm,
Gül qoyub, gül bəzərəm.
Ağır ellər qızıyam,
Qərib-qərib gəzərəm.

217. Əziziyəm, dan üzü,
Bülbül oxur dan üzü.
İsdərəm bir ah çəkəm,
Sənə çata dan üzü.

218. Bu yerdə gülən olsa,
Tərimi silən olsa.
Qardaşdıx yaxşı şeydi,
Qədrini bilən olsa.

219. Aşiq gözə gəlməsin,
Maral düzə gəlməsin.
Göydəki qara bulutdar,
Heş vaxt bizə gəlməsin.

220. Mən aşiq sənə, dağlar,
Sən and ver sənə dağlar.
Can məndə qərar tutmaz,
Göndərim sənə, dağlar.

221. Əziziyəm, gözədə,
Qoyun otdar gözədə*.
Sənə də qurban olum,
Sən gördüyün gözə də.

222. Gəlin, diləkli gəlin,
Ceyran ürəkli gəlin.
Xəmir çoxdu çörəh yap,
Ay şir biləkli gəlin.

223. Dur ayağa, qız gəlin,
Tellərini düz gəlin.
Toyçulara gəl yaxın,
Düş ortaya süz, gəlin.

224. Dərd əlinnən dağ yanar,
Baxça yanar, bağ yanar.
Qardaş girsə qapıdan,
Əvimdə çırax yanar.

225. Qardaşım içimnən gəlir,
Çöldən, biçinnən gəlir.
Əlində bir dəsdə gül,
Bəylər içinnən gəlir.

---

* gözədə – yamacda



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

226. Kəmər bağla belinə,
Şərvət verim əlinə.
Sən gəlinim olanda
Xına qoyum telinə.

227. Aşiqəm, çəkən dərdi,
Çəhdihcə çəkən dərdi.
Yüz dəvə çəkə bilməz
Bir canım çəkən dərdi.

228. Aşiqəm, handa mələr,
Urumda, Şamda mələr.
Yaxasız köynək geyən
Bacasız damda mələr.

229. Səyyat tək duraram mən,
Boynumu buraram mən.
Harda bir tərlan görsəm,
Ona tor quraram mən.

230. Aşiqəm mən, yaman at,
Çəkib oxun yaman at.
İnsanı tez qocaldar
Yaman arvad, yaman at.

231. El köşdü, binə qaldı.
İmana, dinə qaldı.
Mənim sənnən görüşüm
Qiyamət günə qaldı.

232. Aşiqəm, qaranı yaz,
Qələm al, qaranı yaz.
Əzəl dəfdər başına
Mən bəxdi qaranı yaz.

233. Əzizim dağ yeridi,
Sinəmdə dağ yeridi.
Adam var, toz tərpətməz,
Adam var, dağ yeridi.

234. Qapıya huri gəldi,
Gözümün nuru gəldi.
Bu arxı kim artdadı,
Su belə duru gəldi?

235. Mən aşiqəm, yasa bax,
Qara geymiş yasa bax.
Fələk bir can verifdi,
= Fələyə bir can boşduyam,
Ya böyündü, ya sabah.

236. Mən aşiq, çəkər canım,
Gəl qırma bekar canım.
Nə vaxdatək dərdini
İnsafsız, çəkər canım?

237. Kəhliyin alasına,
Dən səpin balasına.
Mən dosduma qurban,
Dosdum da öz balasına.

238. Qoy yağan yağış olsun,
Qar yağsın, yer qış olsun.
Canım qızılca töksün,
Yeri bənəviş olsun.

239. Əzizim, bı damaxda,
Şah qalmaz bı damaxda.
Sarvan lök axdarmaxda,
Lök qanqal bıdamaxda.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

240. O da məni yandıdı,
Bı da məni yandıdı.
Sussadım, su isdədim,
Su da məni yandıdı.

241. Qəbrimi qazdılar qatı,
Üsdündə bəzəllər atı.
Axır məhşər qiyamatı,
Oluncan gözdərəm səni.

242. Dərya bılandı genə,
Daşdı, bılandı genə.
Xiyalımdan nə keşdi?
Halım dolandı genə.

243. Dərə-təpə biləmmi?
Kabab yapa biləmmi?
Axtarıram sorağnan,
Görüm tapa biləmmi?

244. Dağlar başı tütündü,
Kimin bağrı bütündü?
Gedirsən, gəl halallaşax,
Dünya ölüm-itimdi.

245. Bir Ay doğdu mətinnən,
Qorxuram heybətinnən.
Ağzın qurusun qara yer,
Doymaz insan ətinnən.

246. Araz olub bılansam,
Uca dağlar dolansam,
Yarı görəm, taparam,
Sayıl olub dilənsəm?

247. Gedərəm Gilan sana,
Tanıyan, bilən sana.
Qarışqalar yol eylər,
Dolanar ilan sana.

248. Dərvişəm, kəşkülüm var,
Hər güldən beş gülüm var.
Fələk, gəl isbat eylə,
İşimdə müşkülüm var.

249. Gəl məni fağır ağla,
Fağır qoy, fağır ağla.
İşim müşkül olanda,
Adımı çağır, ağla.

250. Aşıx, irza sənindi,
Halım irza sənindi.
Saxlasan, qulun ollam,
Qavsan, irza sənindi.

251. Aşıx, dərdə nə bağlar?
Gümüş gərdənə* bağlar.
Gedəh dərddi yanına,
Görəh dərdə nə bağlar?

252. Ağlar, babacan ağlar,
Yükü qabacan** ağlar.
Eşidər nənəm gələr,
Elcən, obacan ağlar.

253. Ceyrannı çöllərim var,
Ördəkli göllərim var.
Çox da yazığ ağlama,
Bir qamığ*** ellərim var.

---

* gərdənə – belə
** qabacan – çoxlu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

254. Mən də bağa gəlmişəm,
Yağa-yağa gəlmişəm.
Götürmüşəm dərdimi
Ağlamağa gəlmişəm.

255. İtgiliyəm, itgili,
Gözüm yollar tutqulu.
Kim axdarar, kim tapar?
Sənin kimi itgini.

256. Ata kişmiş idi,
Ciblərə düşmüş idi.
Atasız qızdar,
Nəzərdən düşmüş idi.

257. Obada xəsdə mənəm,
Dərdi dərd üsdə mənəm.
Gözdəri yol yorğunu,
Qulağı səsdə mənəm.

258. Bosdan əkdim xiyarsız,
Onu dərmədim sənsiz.
Yatdım yuxuda gördüm,
Oyandım ixtiyarsız.

259. Əzizim, aldandı öldü,
Oddara yandı, öldü.
Ağac əyildi, sındı,
İgid utandı, öldü.

260. Ay doğar, batmaz, gedər,
Dosd dosda atmaz, gedər.
Ana baladan ayrı
Dincəlif yatmaz, gedər.

261. Bı gələn qazdı, bala,
Ördəkdi, qazdı, bala.
Bivədə gələn qonağa
Hələ bı da azdı, bala.

262. Aşiq gedər hər yana,
Sözün deyər mərdana.
İgidə ürək verər
Bəd ayaxda mərd ana.

263. Sular gələr, göl dolar,
Şaxta vurar, gül solar.
Mərd igidin balası
Özü kimi mərd olar.

264. Səyyada bax, səyyada
Torun qurmuş qayada.
Gözdə, könüldə sənsən,
Düşərmi kimsə yada?

265. Çay axdı, ada saldı.
Coşdu sel, səda saldı.
Allah bizi unutdu,
Əzrayıl yada saldı.

266. Papağını yan qoyuf,
İçinə biyan qoyuf.
Suya gedən qızdarın
Ürəyinə qan qoyuf.

267. Əzizim qala yeri,
Yurd yeri, qala yeri.
O günü qiyamət olar
El köçə, qala yeri.

---

*** qamığ – çoxlu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

268. Əynindəki tor kisə,
Məni verdilər pisə.
Qəbul elə, dəli könlüm,
Bir tikə zəhər isə.

269. Dağıstanda dağam mən,
Aranda dustağam mən.
Nə qəm çəkirsən, qardaş,
Ölməmişəm, sağam mən.

270. Əzizim, qazan ağlar.
Od yanar, qazan ağlar.
Qərib yerdə ölənin
Qəbrini qazan ağlar.

271. Bu dünya arsızındı,
İmansız, qırsızındı.
Bir gözəl ceyran gördüm,
O da bir nursuzundu.

272. Məəm yarım naşıdı,
Naşıların başıdı.
Atdananda bəy oğlu,
Düşəndə yüzbaşıdı.

273. Bu gələn sudumu?
Ləki dolu sudumu?
Eytibarrı balanın
Eytibarı budumu?

274. Görükən Savalandı,
Soltandı, Savalandı.
Nə dərdim kimi dərt var,
Nə yaram sağalandı.

275. Mən öldüm çiçəhdən,
Üzümü qoru milçəhdən.
Yad ağlar, yalan ağlar,
O həştat yaşındakı anam ağlar gerçəhdən.

276. Bu dağlar lalalı dağlar,
Güllü-bənövşəli dağlar.
Üsdündə düşman gəzir
A başı balalı, dağlar.

277. Qoyun otdar, düzə gələr,
Otdadıxca düzə gələr.
Yamandı qəriblih, ay balam,
Axırı vətənə, düzə gələr.

278. Səməndin yeri qala,
Alınmaz yeri qala.
Yaxşı gözəl sevmisən,
Gözuu yeri qala.

279. Oğlum gəlir dolaydan,
Donun biçin daraydan.
Köynəyi xas qırmızı,
Qurşağı Kərbalaydan.

280. Oğlum gəlir yoxuşdan,
Zəngiləri gümüşdən.
Ona xonça bəzərəm
İçi dolu xuruşdan.

281. Yük üsdə kilim yandı,
Od aldı, kilim yandı.
= Tayada bəlim yandı,
Əl atdım, əlim yandı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qardaş, qardaş deməkdən
Ağzımda dilim yandı.

282. O tayda mal mələdi,
Dili yox, lal mələdi.
İtirdim vətənimi,
Maa da bir yol mələdi.

283. Qalada fərmanım var,
Qəlbidə xirmənim var.
Gəl aç yaramın üsdün,
Əlində fərmanım var.

284. Maa elli deyillər,
Şana telli deyillər.
İtirdim vətənimi,
Qərib elli deyillər.

285. Maral, dağdan belə gəl,
Dolan, dağdan belə gəl.
Qorxuram ova çıxan
Səni vırar, belə gəl.

286. Ördəyəm, göluuzdan,
Ceyranam, çöluuzdan.
Yaşılbaş sona oluf,
Çıxaram göluuzdan.

287. Ələhdə var barama,
Sim yeridi yarama.
Anam tutsun çırağı,
Yarım baxsın yarama.

288. Bu dərədə ordu var,
Ordu köçuf, yurdu var.
Bu dərədən qorxuram,
Adam yeyən qurdu var.

289. Mən getdim, anam qaldı,
Dərdimə yanan qaldı.
Nə dünyadan tam gördüm,
Nə bir nişanam qaldı.

290. Dağların başı qara,
Dibi göy, başı qara.
Bir qız məni oxladı,
Gözü göy, başı qara.

291. Bir yaralı qoçam mən,
Qavan yoxdu, qaçam mən.
Harda yaralı görsəm,
Orda yaram açam mən.
= Bir yaralı quşam mən,
Qavan yoxdu, qaçam mən.
Sinəm dəfdər-kitabdı,
Oxuyan yox, açam mən.

292. Gedirəm, ölkə, sənnən,
Qorxuram yol kəsənnən.
Bir dil ver halallaşax,
Ayrıldım, bəlkə, sənnən.

293. Ay məni şaxda vırdı,
Şaxda nə vaxda vırdı?
Məni fələk vırmışdı,
Utanmaz xalx da vırdı.

294. Bosdan əkili qaldı,
Əkdim, əkili qaldı.
Fələk bir iş görüfdü,
Əvim tökülü qaldı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

295. Yeri, yeri dur, dağlar.
Olum sənə qul, dağlar.
Yarım səfərə gedif,
Dur yolun gözdə, dağlar.

296. Kasıf, dindiyin qandı.
Dinmə, dindiyin qandı.
Varrı gəlsə, qan bağlar
Kasıf dindiyin qandı.

297. Qərşidəki nə qandı?
Nə qovğadı, nə qandı?
Hamı getdi, qutardı,
Ta yerində nə qaldı?

298. Ana, məni başdan ağla,
Kiprikdən, qaşdan ağla.
Əgər yadaa düşsəm,
Dur məni obaşdan ağla.

299. Fələyi dindireydim,
Dindirib bildireydim.
Mənə qələm çalanın,
Qələmin sındıreydim.

300. Fələk mənnən bad keşdi,
Bad əylədi, bad keşdi.
Gəl aç ürəyimin başın,
Gör xiyalımnan nə keşdi.

301. Dərd kimindi? - Özümün.
Dərdə çoxdu dözümüm.
Əgər dərman desələr,
Qardaş, çıxardaram gözümü.

302. Ələhlər, ha ələhlər,
Çərmənif ağ biləhlər.
Fələh bir iş eyliyif,
Hasil oluf diləhlər.

303. Gedirəm çırağnan,
Gül biçirəm orağnan.
İtirmişəm vətənimi,
İtirmişəm qardaşımı,
Ay ellər, gəzirəm sorağnan.

304. Bir əv tikdim dəyirmi,
Çubuxları iyirmi.
Hara qoyub gedirsən,
Bəyəm, bu əv sənin dəyilmi?

305. Dağlarda qırov qaldı
Qar düşdü, qırov qaldı.
Hamının gedəni gəldi,
Mənimki girov qaldı.
= Qalada bir əv qaldı,
Qar getdi, qırov qaldı.
Ayax tutan qaşdı,
Tutmayan girov qaldı.

306. Dağların qarı mənəm.
Gün vursa, ərimənəm.
Atalar yol kənarına,
Cavanam, çürümənəm.

307. Dağların daşı mənəm,
Dibinin daşı mənəm.
Hər kəs qərib ölsə,
Onun yoldaşı mənəm.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

308. Qaladan yendirdilər,
Zil qara geydirdilər.
Suçum yox, günahım yox,
Zulumnan öldürdülər.

309. Saralan göz, solan göz,
Ağlıyan göz, dolan göz.
Dünyadan əl götürsün,
Əzizinnən olan göz.

310. Qalanın bürcü mənəm,
Dil bilməz gürcü mənəm.
Baş qoyuf dizin üsdə,
Can verəm, inciмənəm.

311. Əzrayıl, sən eşihdə,
Nə durmusan keşihdə?
Balan da mənim təkin
Ağzı qalsın beşihdə.

312. Kəmər belə yaxşıdı,
Burma belə yaxşıdı.
Həlbət mən deyən ola,
Maa belə yaxşıdı.

313. Dağlar, maralın ollam!
Səbri-qərarın ollam!
Sağ böyründə yer elə,
Mən də oralın ollam!

314. Yazığam öz günümə,
Fağıram öz günümə.
Əgər fələk əlimə düşsə,
Salaram öz günümə.

315. Köynəyin ağa dönsün,
Yuduxca ağa dönsün.
Qardaş evdən çıxanda
Bacının ürəyi dağa dönsün.

316. Ağam, gəl ha, ağam, gəl!
Ölməmişəm, sağam, gəl.
Qürbətdə qolu bağlı,
Yolunda dusdağam, gəl.

317. Ay, nəyimə gərəksən?
Gün, nəyimə gərəksən?
Dərdinnən oldum xəsdə,
Tay nəyimə gərəksən?

318. Ölürəm ağlamaxdan,
Dərd-yara bağlamaxdan.
Bağda xəzəl qalmadı,
Yarama bağlamaxdan.

319. Yaralıyam, yazığam,
Aşma yaram, yazığam.
Mən ölsəm, saa qurban,
Sən ölmə, mən yazığam.

320. Quşdar hava bağladı,
Uşdu, hava bağladı.
Mənnən uçan quşdar,
Tamam yuva bağladı.

321. Təpədə dəvə damı,
Tikilif dəvə damı.
Nə çoban oldum hakk aldım,
Nə oldum əv adamı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

322. Dağlar marala qaldı,
Otu sarala qaldı.
Soyux bulax, göy çəmən
Xeyrin görənə qaldı.

323. Əlinə cam götümüş,
Kəm yemiş, kəm götümüş.
Heş gör varmı bizim kimi
Düşmanını kam görmüş?

324. Qurbanam gözdəraa,
Müşdağam sözdəraa.
Yalvarram ilannara,
Dəyməsin gözdəraa.

325. Yaylığın oda yansın,
Od tutub oda yansın.
Gedin düşmana deyin,
Mən yandım, o da yansın.

326. Yaylığın gülü yansın,
Od tutsun, gülü yansın.
Səni mənnən ayıranın
Ağzında dili yansın.

327. Gözdərim ağlağandı,
Yaş verib ağlağandı.
Gəl oturax diz-dizə,
Birin sən de, birin mən,
Görək kim ağlağandı?

328. Gəl gedək daş bulağa,
Suyu sərxoş bulağa.
Birin sən de, birin mən
Qan-yaş tökək bulağa.

329. Qoy məni el götüsün.
El yusun, el götüsün.
Qəbrimi qardaş qazsın,
Çiyninə bel götüsün.

330. Ürəyimdə yara var,
Üsdə xal-xal qara var.
Kəs ürəyim, yar bağrım,
= Gəl aç ürəyim başın,
Gör yanmamış hara var?

331. Sənin dərdin uludu,
Ulu dərtdən uludu.
Dərdıı bilən olsa,
Dərtdi dərdin unudu.

332. Bizim yerdə qış durmaz.
Qış əylənməz, qış durmaz.
Andıra qalmış dilim
Örgənifdi, diş durmaz.

333. Gedeydim yeylaxlara,
Baxeydim oylaxlara.
Zəhrimarı qateydim
Siz yeyən qaymaxlara.

334. Ceyran, çölə gedirsən,
Ördək, gölə gedirsən.
Bizdən də salam-dua,
Bizim elə gedirsən.

335. Ay doğdu, düzə düşdü,
Qıvrım tel üzə düşdü.
Fələh bir iş işdədi,
Ayrılıx bizə düşdü.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

336. Mənim əvəndə[*] başım,
Tanrıya bəndə başım.
O kəndi boş qoyufdu,
Gəlif bu kəndə başım.

337. Köynəyin maf[**] kimidi,
Geymisən, maf kimidi.
Əri ölən arvatdar,
Qalaysız qab kimidi.

338. Bu dərədən köş gedir,
Qaşqa maydan boş gedir.
Səni maa versələr,
Allaha da xoş gedir.

339. Apardılar, qoydular.
Ağladılar, doydular.
Ağca sinəm üsdünə
Bir qara (ağır) daş qoydular.

340. Apardı hallar səni,
Hallar, xiyallar səni.
Öpdü basdı bağrına
Yafşannı yallar səni.

341. Ay ana, məni yaz ağla,
Payız ağla, yaz ağla.
Əyər yadaa düşsəm,
Bir kağıza yaz ağla.

342. Burdan bir qoşun getdi,
Qoşun nə üçün getdi?
Xalxlardan təhcə-təhcə,
Bizdən bir qoşun getdi.

343. Obada xəsdə mənəm,
Dərdi dərd üsdə mənəm.
Gözdəri yol yorğunu,
Qulağı səsdə mənəm.

344. Göydə göyərçin ağlar,
Meşədə laçın ağlar.
Vətən yadıma düşəndə,
Başımda saçım ağlar.

345. Dağlar, maa qar göndər,
Əsirgəmə, var göndər.
Əl dəyməmiş baxçadan
Kəsilməmiş nar göndər.

346. Gejə keşdi qaraldan,
Afçı doymaz maraldan.
Yətalax yatmamışam,
Sənsən məni saraldan.

347. Əlində maşası var,
Tutufdu, maşası var.
Burda bir cavan ölüf,
Əcəb tamaşası var.

348. Mənim adım Yetərdi,
Kol dibində bitərdi.
Urvan mənnən olmasa,
İt qanınnan betərdi.

---

[*] əvəndə – bəlalı
[**] maf – parça növü



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

349. Yeri, çiskinim, yeri,
Duman, çiskinim, yeri.
Yaxşı günüm gedifdi,
Bı da pis günüm, yeri.

350. Bırdan bir Leyli getdi,
Leyli gileyli getdi.
Gəlinə kim nə dedi?
Gəlin gileyli getdi.

351. Dəyirmanın pis günə,
Çax-çakqısı pis günə.
Özün getdin qutardın,
Məni qoydun pis günə.

352. Əzizinəm, qar başdar,
Yağış kəsər, qar başdar.
Ölsə, bajılar ölsün,
Ölməsin heş qardaşdar.

353. Tütünüm qutarıfdı,
Çəhmişəm qutarıfdı.
Nə deyim, nə danışım?
Tay sözüm qutarıfdı.

354. Qəlyanı çəkənə ver,
Doldur, bir çəkənə ver.
Dərdi çəkə bilmirəm,
Dərdi çəkənə ver.

355. Aşıx kamana çalır,
Halın kamana çalır.
Yüz tümənə çalmıyan,
Bir torba samana çalır.

356. Halay, alışannarım!
Halı pərişannarım.
Qəssabın qoyunu kimi
Qırğına düşənnərim.

357. Gülü gülüsdan üsdünə,
Gün doğdu bosdan üsdünə.
Gedin deyin o çakqala,
Gəlməsin asdan üsdünə.

358. Maral, dağdan belə gəl,
Dolan, dağdan belə gəl.
Oğul ölmək göz tökər,
Qardaş ölmək bel əyər.

359. Karvan kəndə düşüfdü,
Aşıf kəndə düşüfdü.
Fələk bir iş işdiyif,
Dilim bəndə düşüfdü.

360. Böyün hava yaxşıdı.
Dərdə dava yaxşıdı.
Əl tutmax Əlidən qalıf,
Hava yetmək* yaxşıdı.

361. Mən səni el bilirdim,
Başıma tel bilirdim.
Qəlbi dağlar başında,
Bılanmaz göl bilirdim.

362. Cidadan yol ayrıldı,
Ağ üzdən tel ayrıldı.
Fələh bir iş işdədi,
Canımnan can ayrıldı.

* hava yetmək – kömək etmək



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

363. Bu dağlar xasa dağlar,
Ot gəlif basa dağlar.
Dibinnən ellər köçüf,
Batıfdı yasa dağlar.

364. Qardaşdarım, qoşa gəl.
Qəlbi dağlar aşa gəl.
Mən yadıza düşsəm,
Bozdaşa-bozdaşa** gəl.

365. Bu dağlar haramı dağlar,
Təbib yaramı bağlar.
İsdərəm duram gələm,
Kəsif aranı dağlar.

366. Arxalıx aldımışam,
Yaxalıx saldımışam.
Nə deyim, nə danışım,
Ta ürəyim aldımışam.

367. Gəl məni sözünnən gör,
Kababı közünnən gör.
Məni öz gözünnən görmə,
Yarımın gözünnən gör.

368. Ay dana-dana dartadı,
Dindirmə, dərdim artadı.
Mən saa dedim dur gedək,
Sən genə dedin ertədi.

369. Mən aşiqəm, ay gəlin,
Ülkər gəlin, ay gəlin.
Qardaşımın toyunda,
Nazik yuxa yay, gəlin.

370. İgid gərək atdana,
Atın minə, atdana.
Mərd odur ki döyüşdə,
Hər yaraya qatdana.

371. Heləmi düşən yeri,
Atdanıf düşən yeri.
Göz yaşım oda dönüf,
Yandırır düşən yeri.

372. Əzizim, qəm oyanı,
El yatar, qəm oyanı.
Dəryalar oya bilməz,
Yoxsulda qəm oyanı.

373. Əldə haçar ağlaram,
Gündü, keçər, ağlaram.
Bu qapını bağlıyan
Bəlkə açar, ağlaram.
Özü açar, ağlaram.

374. Yaylığım yelənnidi,
Ujları qələnnidi.
Şuşa-Şuşa deməhdən
Ürəyim vərəmlidi, ey.

375. Əzizinəm, gülə mən,
Bülbülə mən, gülə mən.
Quran gəti and içim,
Təkcə sənnən gülənəm.

376. Dağların başına bax.
Qar yağıb qaşına bax.
Gej tapdığ, tez ayrıldığ,
Fələyin işinə bax.

---

** bozdaşa-bozdaşa – ağlaşa-ağlaşa



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## XII. LAYLALAR, NAZLAMALAR

1. Layla dedim, su gələ.
Yata, yuxusu gələ.
Uzax-uzax ellərdən
Balamın dayısı gələ.

2. Mən aşiqəm, yatasan,
Qızıl gülə batasan.
Qızıl gül bağın olsun,
Gövdəsində yatasan.

3. Yat, ömrümün çiçəyi.
Gejə keşdi, ay batdı.
Sən hələ də oyaxsan,
Laylam sübhü oyatdı.
Yat, canım, gözüm, layla,
Qurbanım olum, layla.

4. Bağda barın olsun,
Laylay, laylay, laylay
Ağacda narın olsun
Laylay, laylay, laylay
Evində varın olsun
Laylay, laylay, laylay
Qızdar da yarın olsun.
Laylay, laylay, laylay

5. Balama qurban qojalar,
Balam nə vaxt qojalar?
Yüz on yaşında
Saçdarı ağaranda
Sakqalı ağaranda
Dişdəri töküləndə
Dizdəri büküləndə
Laylay, laylay, laylay

6. Balamın al yaylığı,
Örtməyə şal yaylığı.
Hərə bir yol desin
Balama can sağlığı.

7. Balam xandı, xavandı
Baxçada gül qavandı.
Misri qılınc belində
Dayısına pəhlivandı,
Əmisinə pəhlivandı.

8. Aşımızın qarası,
Ürəyimizin parası.
Misrin al-xarası,
Nənəsinin körpə balası.

9. Arpa adın çakqalı,
Gəl balamı hap elə.
Balamın babası evdə olar,
Gələr səni tap edər.

10. Ay mənim balam,
sən qarasan,
Arvadın ölsün, dul qalasan.
Sən pişihlərə yalvarasan,
Pişihdən bir arvad alasan,
“Miyo” deyəndə mat qalasan.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

11. Şeh düşdü çəmənə,
Nərgizə, yasəmənə.
Mən balama qurbanam,
Balam qurban vətənə.

12. Xırdacasan, məzəsən,
Sən hələ güldən təzəsən.
O günə qurban olum,
Tapır-tapır gəzəsən.

13. Bülbüllü bağın olsun,
Dağlar oylağın olsun.
Allahdan arzum budu,
At minən çağın olsun.

14. Balam, balam, bal dadı
Balam adam aldadı.
Şirini elə şirindi,
Acısı elə bal dadı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# XIII. CIRNATMALAR

1. Molla-molla mat olsun.
Qulun doğsun, at olsun.
Qulunun sür-sümüyü
Mollaya xeyrat olsun.

2. Dağdan aran yaxşıdı,
Aran-Turan yaxşıdı.
Vəl ayax, arvana dodax,
Haran mənnən yaxşıdı?

3. Kişi-kişi, dana kişi,
Ağzı batıf qana kişi.
Boğazınnan zəng asılıf,
Oxşuyur həmadana kişi.

4. Getdim gördüm un əliyir,
Dırnaxların xınalıyır.
Ay qara çatmalı gəlin,
Pul verif almalı gəlin.
Yanındakı yoldaşınnan,
Bir öpüş almalı gəlin.

5. Yeri-yeri, yetərsən,
Kol dibində bitərsən.
Urvan mənnən olmasa,
İt qanınnan betərsən.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

# XIV. BAĞLAMALAR

1. Araz qırağı çimdi,
Çim də çimi mindi.
Aşıx mənə de görüm,
Allahın atası kimdi?

Aşıx, Araz qırağı çimdi,
Çim də çimi mindi.
Aşıx, sən nərdivan qoy,
Mən baxım görüm kimdi?

2. Araz qırağı çimdi,
Çim də çimi mindi.
Aşıx, mənə de görüm,
Araz neçə səhəngdi?

Araz qırağı çimdi,
Çim də çimi mindi.
Sən denən, Araz dayansın,
Mən deyim neçə səhəngdi.

3. Mən aşığam, nədəndi?
Mürg ağzında nə dəndi?
Basılmamış maydannan,
Mindiyin day nədəndi?

4. Aşiqəm, yana gördüm,
Qəlyanı yana gördüm.
Səksən oğul, qırx ata,
Yüz əlli ana gördüm.

5. Mən aşiqəm təkhatək,
At oxunu təkhatək.
Qırx atı yeddi mıxa
Bağlaginən təkhatək.

6. Aşiqəm, nə qaraldı?
Nə yandı, nə qaraldı?
Od yandı, su qaraldı
Su yandı, nə qaraldı?



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## XV. DÜZĞÜLƏR

1. Bibili qoz ha, bibili qoz,
Bibim verdi ikicə qoz.
Biri kəhər, biri boz.
Mindim bozun boynuna,
Sürdüm xaxol yoluna.
Xaxol yolu min bazar,
İçində meymun gəzər.
Meymunu vurdum ağlatdım,
Şalvarına qığlatdım,
Həsən bəyə saxlatdım.
Həsən bəyin nəyi var?
Şakqur-şukqur çayı var,
Göyə çıxan atı var,
Göy muncuxlu iti var,
Evində bir qızı var,
Əlli batman g... var.

2. Üşüdüm, a üşüdüm,
Dağdan alma düşüdüm.
Almacığımı yedilər,
Maa curum verdilər.
Mən curumdan bezmişəm.
Dərin quyu qazmışam.
Dərin quyu beş keçi,
Hanı bının erkəci?
Ode, qaya başında.
Heyhaladım gəlmədi,
Çiyid verdim, yemədi.
Çiyid qazanda qaynar,
Qəmbər bujaxda oynar.
Qəmbər getdi oduna,
Qarqu batdı buduna.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qarqu dəyil, qamışdı,
Beş barmağım gümüşdü.
Gümüşü verdim tata,
Tatdan darını aldım.
Darını verdim quşa,
Quşdan qanad aldım.
Qanatdandım uşmağa,
Hakk qapısın aşmağa.
Qapıçı qapı toxur,
İçində bülbül oxur.
Mənnən kiçik qardaşım,
Taarı kəlamın oxur.

3. Əlimi pıçax kəsifdi,
Dəsdə pıçax kəsifdi.
Yağ gətirin, yağlıyax,
Dəsmal gətirin, bağlıyax.
Dəsmal dəvə boynunda,
Dəvə Şirvan yolunda.
Şirvan yolu buz bağlar,
O buzun üsdə gül bağlar.
O gülün birin üzeydim,
Saş bağıma düzeydim.
Xan qardaşımın toyunda,
Bircə daban süzeydim.
Qar topun olsun, qardaş,
Gül topun olsun, qardaş,
Bir toğlun olsun, qardaş,
Qaynənən ölsün, qardaş.
Yük atdan zəli çıxdı,
Zəlinin dili çıxdı.
Bajın ölsün, ay qardaş,
Aldığın dəli çıxdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

4. İki dənə, ha iki dənə,
İki dənə bir quş idi.
Kabıya qonmuş idi.
Xan oğlu durmuş idi.
Xan oğlu kətan köynəh,
Kətan köynəh mil-mili,
Gəl oxu bizim dili.
Bizim dil Urum dili.
Urumdan gələn atdar,
Hey başı çiçəyin otdar.
Heyvanın ağaşdarı,
Bar gətirməz başdarı.
Vırın başı üzülsün,
El yaylağa düzülsün.

5. Balabanı çala-çala girdim bağa,
Əmim qızı Soltan ağa,
Gəl gedəh oynamağa.
Oynamağın vaxdı dəyil,
Qızılgülün taxdı dəyil.
Əl atdım böyüh qıza
Kiçih qız əl elədi anasına.
Anası yaxasın darta-darta
Getdi haca.
Hacı dedi, gəlmə bura.
Qəhbə fələh, od yanar
Ördək üzər, dəmir qızar.
Ördəyi bağlamağa ipəh gərəh
Yarnan oynamağa ürəh gərəh.
Yarım maa alma verdi, almadım,
Sabahatan ağladım.
Atımı bağladım şor dərədə.
Atıma arpa verin, kişnəməsin,
İtimə sümüy atın, dişdəməsin,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Altıma xalı salın, nəm keşməsin,
Üsdümə çadır qurun, gün düşməsin.
Susamışam, sünbül dodağın görüm,
Ajmışam, təhnə tabağın görüm.

6. Əl-əl əlpənək,
Əldən çıxdı kəpənək.
Kəpənəyin yarısı,
Yumurtanın sarısı.
– A dayı hara gedirsən?
– Qaradağa gedirəm.
– Qaradağda nəyin var?
– Bir oğlum, bir qızım
– Oğlun adı nədi?
– Məhərrəm.
– Qatıx verim zəhərrən.
– Qızın adı nədi?
– Fatma.
– Fatma, Fatma, a Fatma,
Yerində şıllağ atma.
Yeddi xoruz, bir fərə,
Fatmanı verdim ərə.
Fatma bir oğul doğdu,
Adını qoydum Süleyman.
Hakk qapın olsun, oğul,
Gül topun olsun, oğul.
Gül ağacının dibində
Yığıncağın olsun, oğul.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## NAĞILLARIN SÜJET GÖSTƏRİCİSİ

Topluda çap olunan nağılların süjet göstəricisi Stis Thompsonun “The types of the fokltale” kataloqu əsasında tərtib olunmuşdur. Həmin kataloqda qarşılığı tapılmayan süjetlər 0 (sıfır) işarəsi ilə veilmişdir. Bir neçə süjetin birləşməsindən təşkil olunan nağıllarda kontaminasiyaları göstərmək üçün + (üstəgəl) işarəsindən istifadə olunmuşdur.

**Qolunda qırx kəlin gücü olan kişi.** 0 (Allah qəhrəmanın istəyi ilə onun qolundakı gücü alır; sonradan gücünü özünə qaytaran qəhrəman yoldaşına sevdiyi qıza qovuşmaqda köməklik edir) + AT 365 (Eyni qəbirdə dəfn olunmuş gənclər).

**Heyvanların dili (I mətn).** AT 207A (Eşşək işləməkdən əldən düşmüş öküzə məsləhət görür ki, özünü xəstəliyə vursun; öküzün yerinə onun özünü cütə qoşurlar) + AT 670 (Qəhrəman heyvanların dilini bilir, amma bu sirri açmamalıdır; arvadının israrı ilə sirri açmaq istəyir, amma xoruzun məsləhəti ilə bu fikirdən daşınır).

**Heyvanların dili (II mətn).** AT 670

**Tülküynən Tozdu bəyin nağılı.** AT 545 B (Tülkü dəyirmançını varlı adam kimi qələmə verib padşahın qızını ona alır).

**Məleykəylə evlənmiş oğlan.** 0 (Qayınanası öləndə gəlin atılıb yükün üstündə oturur, cənazə aparılanda əlini əlinə vurub gülür; etdiyi hərəkətlərin səbəbini izah etdikdən sonra qeybə çəkilir).

**Qaraçuxasını axtaran kasıb.** Nağıl məşhur AT 460 (Bəxtin axtarılması) süjeti əasında qurulsa da, başlanğıcı ənənəvi variantlardan fərqlənir.

**İsgəndər.** AT 981 (Qocaların öldürülməsi) + 0 (İsgəndər dirilik suyu dalınca o dünyaya gedir, amma sudan içmək ona qismət olmur) + AT934 (İsgəndər dəmir yığınının altında dünyasını dəyişir).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Kasıbın qisməti.** AT 737A*

**Naxırçının nağılı.** AT 750 B (Həzrət Əli evinə qonaq olduğu naxırçını sınamaq üçün onun arvadının və qızının canını alır; ailə üzvlərini itirən naxırıçı öz acısını üzə vurmur; səbir etdiyinə görə peyğəmbər onu mükafatlandırır).

**Ölünün şahidliyi.** AT 0 (Peyğəmbər öldürülən şəxsi dirildir və onun sayəsində cinayətin üstü açılır).

**Çobanın Həcc ziyarəti.** 0 (Çoban ac uşaqların qarnını doydurmaq üçün fermadan qoyun oğurlayır. Həcc ziyarəti zamanı bulud onun başı üstündə kölgə salır. Məlum olur ki, çoban həmin əməlinə görə bu savaba layiq görülüb).

**Allah görür.** 0 (Kərbəla sahibi ziyarətə gələn üç gənci sınayır: onların hərəsinə bir toyuq verib tapşırır ki, elə yerdə kəssinlər onları görən olmasın; gənclərdən ikisi toyuğu kəsir, amma üçüncü gənc elə bir yer tapa bilmir; çünki hara gedirsə, Allah onu görür).

**Peyğəmbərin qürrələnməsi.** AT 757 (Allah Məkkəni tikdirdiyinə görə qürrələnən İbrahimxəlil peyğəmbəri səhraya atdırır; aclıq və susuzluqdan əziyyət çəkən peyğəmbər Məkkənin savabını bir bardaq su ilə bir parça çörəyə satmalı olur).

**Süleyman və ahular (I mətn).** 0 (Peyğəmbər susuzluqdan əzab çəkən ahuların şikayətini Allaha çatdırır, lakin ondan müsbət cavab ala bilmir; bu xəbəri sürüyə çatdırmalı olan ahu oynaya-oynaya gedir ki, yoldaşları onun şad xəbərlə qayıtdığını zənn etsin; bu hərəkətinə görə Allah yağış yağdırır).

**Süleyman və ahular (II mətn).** 0 (Bu variantda susuzluqdan əziyyət çəkən keçilərdir).

**Süleymana qalmayan dünya (I mətn).** 0 (Qoca dünya: Gündüz qız, axşam qoca qarı şəklinə düşür; Süleyman peyğəmbər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

onunla əhd-peyman bağlayır, həqiqəti biləndən sonra üzüyünü geri istəyir) + AT 763 ( Üç yoldaş xəzinə yarır; qızıllara sahib olmaq üçün ikisi əlbir olub üçüncünü öldürür, sonradan özləri də onun gətirdiyi aşdan yeyib zəhərlənirlər).

**Süleymana qalmayan dünya (II mətn).** 0 (Qoca dünya) + 0 (Süleyman peyğəmbərin ölümü: peyğəmbər uşaqlarının kiçik olduğunu əsas gətirib Allahdan möhlət istəyir, amma Allah ona möhlət vermir; daşın içində bəslədiyi qurdu göstərib deyir: bu qurdu bəsləyən Allah, sənin də balalarını ac qoymaz).

**Quş sümüyündən ev (I mətn).** AT 983 (Süleyman peyğəmbər quş sümüyündən ev tikdirmək istəyir, bayquş onu bu fikirdən daşındırır).

**Quş sümüyündən ev (II mətn).** AT 983 (Əvvəlki süjetdən fərqli olaraq, burada sual-cavab, Süleyman peyğəmbərin bayquşa gündəlik üç sərçə ruzu təyin etməsi kimi yeni motivlər də iştirak edir).

**Musa Allahı qonaq çağırır.** AT 751A* (Musa peyğəmbər sail sifətində qapısına gələn Allahı ac yola salır, aşpaz isə ona yemək verir; əvəzində Allah aşpazı cənnətlə mükafatlandırır).

**Allahın hörmətli bəndəsi (I mətn).** AT 751 (Çobana gündə üç öynə qızıl padnosda yemək gəlir, yeməyi yedikdən sonra padnosu və qaşıqları qayadan atır) + AT 827 (Çoban namazın surələrini bilmir: ağ qoyun, qara qoyun başımı yerə qoyum deyib namaz qalır; amma sidq ürəkdən qıldığı üçün Allah onu cənnətlə mükafatlandırır).

**Allahın hörmətli bəndəsi (II mətn).** AT 751 (Əvvəlki süjetin variantıdır, sadəcə olaraq burada hadisələr abidlə çobanın oppozisiyası şəklində təqdim olunur).

**Allahın hörmətli bəndəsi (III mətn).** AT 751



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Cənnət xidmətçisi.** 0 (Kişi şirə ərə verdiyi qızına baş çəkməyə gedir; yolda qarğaların leşdən yeyib Quran oxuduqlarını görür; peyğəmbərdən öyrənir ki, bu gələcək zamanın əlamətidir: yəni elə bir zaman gələcək ki, qumarbaz da, nəşəxor da – hər kəs Quran oxuyacaq).

**Borclunu borcdan qurtaran Əli.** SUS 650 (Həzrət Əli kasıbın borcunu qaytarmaq üçün özünün qul kimi bazarda satılmasına razı olur; padşaha nökər olur; meşəni qırıb ağacları vəhşi heyvanlara daşıtdırır, dağı yarıb suyun qabağını açır; padşah qeydi-adi insan olduğunu görüb onu azad edir).

**Əlinin divanı.** AT 926 (İki qadın uşaq üstündə mübahisə edir; Həzrət Əli onlardan hansının uşağın əsl anası olduğunu müəyyən edir).

**Həzrət Əli ilə Cinni Cəfər.** Bu nağıl sehrli nağıllardan bizə məlum olan AT 301 nömrəli süjet əsasında qurulmuşdur. Dini nağıllara transformasiya zamanı həmin süjet bir sıra dəyişikliyə uğramışdır. Əsas iştirakçılar dini şəxsiyyətlərlə əvəzlənmiş, qəhrəmanın apardığı mübarizə isə dini mahiyyət kəsb etmişdir.

**Əzrayılın qardaşlığı (I mətn).** 0 (Kişi qapısındakı heyvanların öləcəyini öyrənib onları satır. Axırda qada-bəla onun özünə gəlir) + AT 332 (Əzrayıl hansı xəstənin başı üstündə durursa, kişi onu sağaldıb haqqını alır) + AT 751C (Kasıb Əzrayılın köməyi ilə varlanır, amma qapısına gələn şəxsi əliboş geri qaytarmamalıdır. Süd üçün qapısına gələn şəxsin dalınca danışdığından Allah onun var-dövlətini əlindən alır).

**Əzrayılın qardaşlığı (II mətn).** AT 1199 (Oğlan canını almaq istəyən Əzrayıla bir yerdə kəsdikləri duz-çörəyə and verir; duz-çörəkdən keçə bilməyən Əzrayıl onun ömrünü uzadır).

**Əzrayılın qardaşlığı (III mətn).** AT 332



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Əzrayılın qardaşlığı (IV mətn).** AT 1199 (Oğlan canını almaq istəyən Əzrayıla duz-çörəyə and verir).

**Nişanlısını itirmiş ilan (I mətn).** 0 (Oğlan kiminlə evlənirsə, ilan nigah gecəsi onu sancıb öldürür).

**Nişanlısını itirmiş ilan (II mətn).** 0 (Əvvəlki süjetdən fərqli olaraq, burada ilan gəlini deyil, oğlanın özünü sancmaq istəyir; dilənçiyə əl tutduğunu görüb onun günahından keçir).

**Şah Abbas və oğrular.** AT 951 (Oğrulardan biri itin dilini bilir, o biri bağlı qıfılı açır, üçüncü isə bir dəfə gördüyü adamın sifətini unutmur; Şah Abbas onlara qoşulub öz xəzinəsinə oğurluğa gedir; daha sonra oğruları sınayır, onların həqiqətən də həmin xüsusiyyətlərə sahib olduğuna əmin olur).

**Şah Abbasla üç bacı.** 0 (Kiçik bacı Şah Abbasın onun paltarını hamama götürməsini arzu edir; qızın bu arzusuna qəzəblənən Şah Abbas onu ölkədən sürgün edir; kiçik bacı axırda öz arzusuna çatır).

**Şah Abbasla pinəçi.** 0 (Ruzunu verən Allahdır: pinəçinin bu sözünə qəzəblənən padşah onu zindana saldırır və tapşırır ki, onu ac saxlasınlar; zindançı başqasına verməli olduğu çörəyi yanlışlıqla pinəçiyə verir, bunun sayəsində pinəçi sağ qalır).

**Şah Abbasla bostançı:** AT 1660A* (Şah Abbasa yemiş-qarpız aparan bostançı yolda onun özü ilə qarşılaşır, Şah hədiyyəsini qəbul etməsə, onları onun gözünə soxacağını deyir. Həmin sözləri şahın hüzurunda da təkrarlayır. Cəsarətinə görə Şah Abbas onu mükafatlandırır).

**Şah Abbasla soyğunçular.** 0 (Aarne-Tompson kataloqunda belə bir süjetə təsadüf olunmur).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Nuşirəvan padşah.** 0 (Aarne-Tompson kataloqunda belə bir süjetə təsadüf olunmur).

**Bir qaz olsa, yolarsanmı?** AT 921 F

**Allahdan istəyən Şah Abbas.** AT 750 B

**Qocaların öldürülməsi.** AT 981

**Hücürəvan padşah.** AT 938 B

**Hər vilayətdə bir ev tik.** 915 A (Kiçik qardaş hər vilayətdə özünə dost qazanmaqla atasının tapşırığını yerinə yetirir).

**Bu günü də belə itirdik.** 0 (Tacir hər günün sonunda tükanı bağlayanda deyir: bu günü də belə itirdik. Tacirin ziyan etdiyini zənn edən padşah şəhərdəki bütün dükanları bağlatdırır və əmr edir ki, hər kəs alveri həmin tacirdən etsin. Tacir günün sonunda yenə də həmin sözü təkrarlayır. Məlum olur ki, o, ziyan etdiyinə görə deyil, hər keçən günün ömründən getdiyi üçün heyfsilənirmiş).

**İnəyin qarnındakı buzov.** 0 (Şah Abbasla naxırçı inəyin qarnındakı buzovun əlamətlərini tapırlar).

**Ağlımı alınca pulumu al:** 0 (Gəlin ağılının əvəzinə var-dövlətinin əlindən alınmasını xahiş edir; Allah onun var-dövlətini daha da artırır)

**Loğman (I mətn).** 0 (Kimin hazırladığı zəhər daha güclü olar? Şəyirdinin daha güclü zəhər hazırladığını zənn edən loğman fikirdən dünyasını dəyişir)

**Loğman (II mətn).** 0 (Loğman təqib etdiyi şəxsin su içdiyini görüb sevinir, elə güman edir, artıq onu tuta biləcək; təqibdən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qaçan şəxs su içdikdən sonra kürəyini qaynar quma sürtür, qum onun canındakı suyu çıxardır; Loğman onu tuta bilmir) + 0 (Kimin hazırladığı zəhər daha güclü olar?)

**Loğman (III mətn).** 0 (Yeddi il su içməmiş ilanın zəhəri, beş il qısır qalmış keçinin südü və qısır buludun yağışı xəstəyə dərman deyilir).

**Loğman (IV mətn).** 0 (Loğman oğlunun xəstəliyinə əlac tapa bilmir, amma şəyirdi qatıq və göy-göyərti ilə müalicə etməklə uşağı sağaldır).

**Loğman (V mətn).** 0 (Loğman ürəyinə tük dolanmış xəstəni sağaldır).

**Quş dindi, nə apardı ki, mən də dinim.** 0 (Dünyaya küskün olan oğlan özünü lallığa vurur).

**Mənə rəhm eliyən, Allah sənə zülm eləsin.** AT 836 F* (Tacir ona yaxşılıq etmiş nökəri öldürür, əvəzində gözləri tutulur).

**Dağyunusun xəzinəsi.** AT 671 (Kişi quş dili bilən oğlunun köməyi ilə qəjirlərdən Dağyunusun xəzinəsinin yerini öyrənir).

**Kor canavarın qisməti.** AT 834 A (Qoyunun öz ayağı ilə kor canavarın yanına gəldiyini görən çoban öz qismətinin də ayağına gətirilməsini istəyir; arvadı meşədən qızıl tapır; qonşu qızılları oğurlayır, küpün ağzını açanda içindən arı çıxır; küpü çobanın evinin bacasından içəri boşaldır, içindən qızıl tökülür).

**Fərasətli qardaşlar.** AT 950 (Padşah xəzinəni yarmış oğruları axtarır; onların atalarını öldürüb darvazadan asdırır, qızıl yüklü dəvəni yiyəsiz çölə buraxır və s. amma yenə də oğruları tuta bilmir).

**Dilimi mehribançılığa öyrədirəm.** 0 (Uşaq yıxılan eşşəyi əzizləyə-əzizləyə ayağa qaldırmağa çalışır; bu hadisənin şahidi olan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

padşah onu mükafatlandırır) + AT 910 K (Qəhrəman hər gün “dilimi mehribançılığa öyrədirəm” kəlməsini padşahın yadına salıb ondan bir onluq qızıl alır).

**İnsan nəslinə çəkər (I mətn).** 0 (Padşah gəlin gətirdiyi qızın əsl-nəcabətini öyrənmək istəyir; etdiyi hərəkətlərinə görə onun qaraçı qızı olduğunu müəyyən edir).

**İnsan nəslinə çəkər (II mətn).** 0 (Bu nağılda Şah Abbas övladlığa götüdüyü uşağın əsl-nəcabətini öyrənmək istəyir).

**Üzlü qonaq.** 0 (Ev sahibi qonağı evdən çıxartmaq üçün ölçü təyin edir ki, qonaq tullananda onu itələyib qapıdan çölə çıxarsın. Ev sahibinin niyyətini anlayan qonaq əks tərəfə tullanır) + 0 (Naşı biçinçi: sünbülü kəməndlə tutub balta ilə dibindən vurur).

**Mollaynan Keçal.** 0 (Mollanın arvadı onu öpməsi üçün keçələ toyuq hinində, yeni tikilmiş evlərində, yükün arxasında görüş təyin edir; hər dəfə də molla onların üstünə çıxır, keçəl ağlı sayəsində vəziyyətdən çıxmağı bacarır).

**Keçalnan Kosa.** AT 1692 (Dava salırlar, ev yiyələrinin başı onları ayırmağa qarışanda isti fətir ilə çolpanı götürüb aradan çıxırlar) + AT 1525N (Keçəlnən Kosa padşahın inəyini oğurlayırlar).

**Şərikli kömbə.** AT 1922*A (Kimin yalanı böyük olar) + AT 1654 (Keçəllə kosa qəbirstanlıqda: quldurları qorxudub onların gətirdiyi qənimətə sahib olurlar).

**Yeddi korun nağılı.** AT 1577 (Korlardan biri qazandığı pulu sırıxlısının içində, o biri qoltuğunu altında, üçüncüsü papağının qırağını qatlayıb içində saxlayır və s.; qəhrəman pulların yerini öyrənib onu oğurlayır) + 0 (Qəhrəmanın kisəsinin daha qiymətli olduğunu zənn edən tacir özünün ləl-cəvahirat dolu kisəsini qoyub onun peyin dolu kisə ilə gizlincə dəyişdirir)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Döyülən axmaq.** AT 1696 (Lazımi ifadəni lazımi yerdə işlətmədiyi üçün hər dəfə döyülür)

**Toyuq oğrusu.** 0 (Uzun müddət oğurluq etmədiyindən sənətini yadırğamış olur; ehtiyac üzündən yenidən oğurluğa gedir, amma ev yiyəsi tərəfindən yaxalanır).

**Naşı oğru.** AT 1527** (Tövlədən qaçış: iki nəfər qoyun oğurluğuna gedir; oğrulardan biri ev yiyəsinin gəldiyini görüb aradan çıxır, o biri tövlədə qalır; ev yiyəsi tövlənin qapısını açanda oğru onu içəri salıb özü aradan çıxır).

**Padşahın baş ağrısı.** 0 (Oğrunun başının dərisindən hazırlanan dəfi padşahın baş ağrısına dərman deyilir; oğru dəyirmançı ilə paltarlarını dəyişir, padşahın adamları dəyirmançını oğru zənn edib tuturlar).

**Qoşunbasan.** AT 1539 (Qəhrəman quyruğu-qulağı kəsik eşşəyi qoşunbasan adıyla padşaha satır).

**Özgəsinə quyu qazan, özü düşər.** 0 (Şeytan arvadını öldürmüş şəxsə məsləhət verir: başqa birisini öldürüb günahı onun üstünə atsın. Kişinin öldürdüyü şəxs şeytanın öz oğlu olur.)

**Axmaq canavarın nağılı:** AT122A (Eşşək, keçi və camışla qarşılaşan canavar onları yemək istəyir. Gözləyir ki, keçi turşu, sarımsağı gətirsin, camış palçığını yusun və s. Heyvanlar onu aldadıb qaçırlar. + AT 122J (At onu yemək istəyən canavardan ayağının altındakı yazını oxumasını xahiş edir. Canavar yazını oxumaq istəyəndə təpiyi ilə vurub onu öldürür).

**Nağılların süjet göstəricisinin tərtibçisi:**
**fil.ü.f.d. İlkin Rüstəmzadə**

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT

Abbasov Kamal Əliş oğlu, təvəllüdü 1926, Ağcabədi rayonunun Hacılar kəndi, təhsili orta-ixtisas. Vaxtilə aqronom, təsərrüfat müdiri vəzifələrində işləyib, hazırda kəndin mollasıdır. Söylədiyi mətnlər: **Miflər, əfsanə və rəvayətlər:** Nəhəng insanlar haqqında; Allahdan küsən çoban; Hər kəsin öz şəxsiyyəti var; Can Qənbər; Kim qüvvətli padşahdı; Həzrət Əlinin Ümbülvəninlə evlənməsi; Seyid Heydər ağa (I-IV mətnlər); İsgəndər (IV mətn); Hacılar kəndi. **Etnoqrafik mətnlər:** 26. **Nağıllar:** Qaraçuxasını axtaran kasıb; Allahdan istəyən Şah Abbas; Özgəsinə quyu qazan, özü düşər; **Lətifələr:** Əmanətə xəyanət; Allah bilmir nə vaxt yağdırmaq lazımdı?; Mayama ziyan eliyir. *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov*

Abbasova Çimnaz Əziz qızı, Naxçıvan şəhəri, təvəllüdü 1949, ali təhsilli. Yazıya aldığı mətnləri Laçın rayonunda yaşadığı zaman eşidib. **Miflər, əfsanə və rəvayətlər:** Sarı Aşıq (I-IV mətnlər); Yonqarına bərəkət; Min şükür; Xeyir əməl; Ağlarsa, anam ağlasın**.** **Lətifələr:** Bir qarıngah oxuyun; Bağırbəyli əhvalatları; Şahım, ayaqyolundakı söz; Aşıq gördüyünü çağırar; Düy şalıma, at dalıma; Karın könlündəki.

Babayeva Səkinə Böyükkişi qızı, Ağdam rayonunun Abdal-Gülablı kəndi, təvəllüdü 1910. Hazırda Ağdaş rayonunun Şəmsabad kəndində məskunlaşıb. Söylədiyi mətnlər: Haramlıq necə yarandı?; Hal (V mətn); Məhəmməd peyğəmbərin Həcc ziyarəti; Məhəmməd peyğəmbərin doğuluşu; Məhəmməd peyğəmbərin ölümü (I mətn); Əli bulağı; *Toplayan: İ.Rüstəmzadə*

Cəfərova Zümrüd İmran qızı, Ağdam rayonunun Şelli kəndi, təvəllüdü 1936. Hazırda Ağdaş rayonunun Hüşün kəndində məskunlaşıb. Söylədiyi mətnlər: **Miflər, əfsanə və rəvayətlər:** Mizan-tərəzi; Hal (I və IV mətnlər); Cin (I, II və III mətnlər); Xıdır Nəbi (II mətn); Ovçu Pirim (III mətn); İçkinin haram buyrulması; Dağyunus (I mətn);



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Nağıllar:** Peyğəmbərin qürrələnməsi; Quş sümüyündən ev (I mətn); Cənnət xidmətçisi; Nişanlısını itirmiş ilan (I mətn). **Lətifələr:** Qurumsaqların yoldaşı; Peyğəmbərin qarğışı. *Toplayan: İ.Rüstəmzadə*

Əhmədov Hüseyn Malik oğlu, Cəbrayıl rayonu, təvəllüdü 1948, orta təhsilli. Hazırda Saatlı rayonunda məskunlaşıb. Söylədiyi mətnlər: Hacı Qaraman (VIII-IX mətnlər); Cəbrayıl ata piri; Şıx ata (II mətn). *Toplayan: Q.Qubadov*

Əhmədov Qasım Əhməd oğlu, Çələbi nəslindəndir, Qazaxıstanda sürgündə doğulub, ali təhsilini Bakıda alıb. Təvəllüdü 1944. Hazırda Sumqayıt şəhərində məskunlaşıb. Söylədiyi mətnlər: Hacı Qaraman (III, IV, V, VI, VII mətnlər); Hacı Qasım Çələbi (III, IV, V, VIII, X, XI, XII mətnlər); Alı Çələbi (I-IV mətnlər); Yasin Çələbi; Mir Həmzə Nigari; Hacı Məcnun. *Toplayan: Z.Fərhadov*

Əliyev Bayram Ağəli oğlu, Ağdam rayonunun Şelli kəndi, təvəllüdü 1922. Hazırda Ağdaş rayonunun Hüşün kəndində məskunlaşıb. Söylədiyi mətnlər**: Miflər, əfsanə və rəvayətlər:** Ovçu Pirim (II mətn); Gavurun peşmançılığı; Ayının qızı oğurlaması; İlan davası (II mətn). **Etnoqrafik mətnlər:** 8, 12, 22, 24. **Nağıllar:** Süleyman və ahular (I mətn); Allahın hörmətli bəndəsi (II mətn). *Toplayan: İ.Rüstəmzadə*

Əliyev Gülalı Babalar oğlu, Beyləqan rayonunun Birinci Şahsevən kəndi, 60 yaşında, orta təhsilli. Söylədiyi mətn: Hal (IX mətn), Cin (VI mətn), Dünya daşqını (III mətn), Süleyman peyğəmbərin ölümü (I mətn), Seyid Həsən ağa (XIV mətn), Seyid Əli; Şah Abbasla bərəçi; Kəbirlilər haqqında lətifələr. *Toplayan: Z.Fərhadov*

Əliyev Rəhim Ağarza oğlu, Cəbrayıl rayon sakini, 71 yaş, təhsilsiz. Hazırda Saatlı rayonunda məskunlaşıb. Söylədiyi mətnlər: İsmayıl peyğəmbər; Şah Abbasla bostançı; Axmaq canavarın nağılı. *Toplayan: Z.Fərhadov*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əsgərov Əzim Mürsəl oğlu, Ağdam rayonunun Abdal-Gülablı kəndi, təvəllüdü 1936. Ağdaş rayonunun Şəmsabad kəndində məskunlaşıb. Söylədiyi mətnlər: Cin (V mətn); Seyid Füqəra (II mətn). *Toplayan: İ.Rüstəmzadə*

Əyyubov Eldar Rüstəm oğlu, Kəlbəcər rayonunun Şortan kəndi, təvəllüdü 1936. Müvəqqəti olaraq Ağdaş rayonunun Yeni-kənd kəndində məskunlaşıb. Söylədiyi mətnlər: Seyid Yəhya (I mətn); Allahın hörmətli bəndəsi (I mətn); Ağlımı alınca, pulumu al; Loğman (I mətn); Arvad feli. *Toplayan: İ.Rüstəmzadə*

İbrahimova Adilə Abutalıb qızı, Şuşa rayonu, təvəllüdü 1936, orta təhsilli. **Etnoqrafik mətnlər:** 2, 3; **İnamlar, yasaqlar:** 25. *Toplayan: İ.Rüstəmzadə*

İbrahimova Zeynəb, Füzuli rayonunun Horadiz qəsəbəsi, təvəllüdü 1934, təhsilsiz. Nizami rayonunda məskunlaşıb. Söylədiyi mətnlər: **Miflər, əfsanə və rəvayətlər:** Kəkliyin ayağı niyə qırmızıdır? (I mətn); Süleyman peyğəmbərin ölümü (II mətn); Tük gətirən adam; Günü günortadan qaytaran (II mətn); Salavat çəkməyin savabı; Gölə qələm sancan; Cənnətin qapısını birinci açan; İsgəndər (III mətn); Şah Abbas (I mətn**); Ovsunlar:** Qurdağzı duası (I mətn). **Etnoqrafik mətnlər:** 10, 11, 15, 16, 18, 19. **Nağıllar:** Məleykə ilə evlənmiş oğlan; Borclunu borcdan qurtaran Əli; Şah Abbasla üç bacı; Quş dindi nə apardı ki, mən də dinim? **Lətifələr:** Arvadı necə ağıllandırmalı?; Arvada sirr verməк olmaz. *Toplayan: Z.Fərhadov*

Fərhadov Fərhad Məhəmməd oğlu, Cəbrayıl rayonunun Xələfli kəndi, təvəllüdü 1941, ali təhsilli. Vaxtilə dəmiryolunda işləyib. Hazırda Sabunçu rayonunun Yeni Ramana qəsəbəsində məskunlaşıb. Söylədiyi mətnlər: **Miflər, əfsanə və rəvayətlər:** Kişilərin sancısı; Taxtım taxt olunca, baxtım baxt olsun; Hacı Qasım Çələbi (I-II mətnlər); Yaxşı qonşu. **İnamlar, yasaqlar:** 16, 17. **Nağıllar:** Bu günü də belə itirdik; Loğman (V mətn). **Lətifələr:** Şığıdığın bəsdi,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bir az da qanad çal; Bu nə qəşəng moskviçdi; Mənimki də noldadır; İstini içəri verir, tüstünü çölə; Qoydum qaçdım; Xəbəri padşaha necə çatdırmalı?; Bizə işdəsin, biz də ondan yeyək; Ay qız, qızı qızdan al, qızı qıza ver; Deyirsən, yəni aşıqlı eliyərdim? **Atalar sözü və məsəllər:** 6, 15, 16, 17, 19, 28, 42, 43, 56, 63, 66, 75, 80, 87, 88, 92, 93, 97, 98, 112, 113, 114, 123, 137, 144, 147, 156, 157, 158, 159, 161, 167, 169, 170, 178, 179, 198, 203, 214, 221, 240, 243, 244, 245, 247, 254, 257, 259, 265, 281, 291, 310. **Deyimlər:** 1, 9, 23, 28. *Toplayan: Z.Fərhadov*

Fərzəliyev Qəzənfər Cabbar oğlu, Ağdam rayonunun Bozpapaxlar kəndi, 1932-ci il təvəllüdlü. Hazırda Ağcabədi rayonunun Rəncbərlər kəndində məskunlaşıb. Söylədiyi mətn: Bir qaz olsa, yolarsanmı? *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov*

Həsənova Sətin Gəray qızı, Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi, təvəllüdü 1934, təhsilsiz. Nizami rayonunda məskunlaşıb. Söylədiyi mətnlər: **Miflər, əfsanə və rəvayətlər:** İsaq-musaq quşu; Üç qardaş; Hal (VI və VIII mətnlər); Seyid Rza ocağı; Lələ ocağı; Çaxırlı ocağı; Ərəstə ocağı; Düldül piri. **Etnoqrafik mətn:** 20. **Atalar sözü və məsəllər:** 9, 10, 11, 12, 21, 32, 39, 40, 60, 67, 72, 85, 121, 128, 131, 133, 135, 141, 148, 150, 155, 175, 176, 184, 185, 186, 194, 195, 197, 202, 211, 227, 229, 235, 241, 242, 251, 252, 255, 274, 283, 288, 303, 305, 311, 312, 319. **Deyimlər:** 5, 7, 10, 12, 13, 15, 16, 17, 18, 19. **Bayatılar:** 330-dan 372-dək. *Toplayan: Z.Fərhadov*

Həşimova Səriyyə Zeyni qızı, Ağcabədi rayonunun Sarıcalı kəndi, təvəllüdlü 1926, təhsili ibtidai. Söylədiyi mətnlər: **İnamlar, yasaqlar:** 29, 30, 31, 32, 33, 34, 35. *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov*

Hüseynov Əbdülxan, Cəbrayıl rayonunun Xələfli kəndi, 66 yaş, təhsilsiz. Hazırda Saatlı rayonunda məskunlaşıb. Söylədiyi mətnlər: **Miflər, əfsanə və rəvayətlər:** İnsanın yaranması (III



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mətn); Hal (VII və X mətnlər); Cin (VIII mətn); Xıdır Nəbi (IV mətn); Süleyman peyğəmbərlə Rüstəm Zal; İnşallahsız iş olmaz; Hacı Qaraman (I mətn); Dağyunus (II mətn). **Nağıllar:** Naxırçının nağılı; Mənə rəhm eliyən, Allah sənə zülm eləsin. **Lətifə:** Onsuz da əlli qəpik verəcəm. **Tapmacalar:** 8, 13, 50, 51, 52, 53, 54, 55, 56, 57, 59. **Düzgülər:** 5. *Toplayan: Z.Fərhadov*

Hüseynov İdris Cəbrayıl oğlu, Kəlbəcər rayonunun Soyuqbulaq kəndi, təvəllüdü 1932. Ağdaş rayonunun Yenikənd kəndində məskunlaşıb. Söylədiyi mətn: Seyid Yəhya (II mətn), Seyid Əmrah. *Toplayan: İ.Rüstəmzadə*

Hüseynov Xudaverdi Həbiş oğlu, Ağcabədi rayonunun Kəbirli kəndi, təvəllüdü 1958. Kəndin mollasıdır. Söylədiyi mətnlər: Yazıya ofsanat; Müsəlmanların Allahı; Boşboğaz insanlar. *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov*

Hüseynova Abizər, Cəbrayıl rayonu, 63 yaşında. Sabirabad rayonunda məskunlaşıb. Söylədiyi mətn: İbrahimxəlil peyğəmbər. *Toplayan: Z.Fərhadov*

Xəlilova Güldəstə Xəlil qızı, Cəbrayıl rayonunun Hasanlı kəndi, təvəllüdü 1949, natamam ali təhsilli. Bakı şəhərində məskunlaşıb. Söylədiyi mətnlər: **Miflər, əfsanə və rəvayətlər:** Hacı Qaraman (II mətn); Hacı Qasım Çələbi (IX mətn); Seyid Həsən ağa (XIII mətn). **İnamlar, yasaqlar:** 1, 2, 3, 4, 5, 6, 7, 8, 9, 10, 11, 12, 13, 14, 15. **Nağıllar:** Süleyman və ahular (II mətn); Hər vilayətdə bir ev tik. **Atalar sözü və məsəllər:** 18, 20, 24, 26, 27, 37, 49, 55, 58, 89, 105, 108, 109, 125, 126, 132, 134, 140, 151, 180, 183, 192, 200, 212, 215, 220, 225, 226, 248, 268, 269, 270, 272, 279, 286, 287, 299, 300, 307, 316, 321, 325. **Deyimlər:** 4, 14. *Toplayan: Z.Fərhadov*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mehdiyeva Adilə Süleyman qızı, Füzuli rayonu, 63 yaşında. Bakıda BDU-nun yataqxanasında məskunlaşıb. Söylədiyi mətnlər: **Miflər, əfsanə və rəvayətlər::** Hal (II-III mətnlər); Cin (IV mətn). **Etnoqrafik mətn:** 5. *Toplayan: İ.Rüstəmzadə*

Məmmədov Hümmət Ələkbər oğlu, Ağdam rayonu, təvəllüdü 1936. Ağdaş rayonunun Xosrov kəndində məskunlaşıb. Söylədiyi mətnlər: İnam; Molla itə dua yazır; Uşağın çörəyini əlindən alırsan. *Toplayan: İ.Rüstəmzadə*

Məmmədov Şərif Gülməmməd oğlu, Ağdam rayonunun Güllücə kəndi, təvəllüdü 1940. Ağdaş rayonunun Qaroğlan kəndində məskunlaşıb. Söylədiyi mətnlər: Qara Pirim; Seyid Füqəra (I mətn). *Toplayan: İ.Rüstəmzadə*

Mircəfərov Əli Həsən oğlu, Zəngilan rayonunun Muğanlı kəndi, təvəllüdü 1941. Ali təhsilli, Rus dili müəllimi. Hazırda Xırdalan rayonunda məskunlaşıb. Söylədiyi mətnlər: Seyid Həsən ağa (I-IV mətnlər). *Toplayan: İ.Rüstəmzadə*

Mustafayeva Nigar Həsən qızı, Füzuli rayonunun Arayatılı kəndi, təvəllüdü 1934, təhsilsiz. Saatlı rayonunda məskunlaşıb. Söylədiyi mətnlər: Gün və Ay (III mətn); Hal (XI-XII mətnlər); Dünya daşqını (IV mətn); Yesən qismətindi, yeməsən yox; Hacı Qasım Çələbi (VI-VII mətnlər); İmam ocağı. **Ovsunlar:** İlan duası; **Nağıl:** Tülküynən Tozdu bəyin nağılı. *Toplayan: Z.Fərhadov*

Nəsibova Xubuş Fərhad qızı, Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi, 76 yaşında, təhsilsiz. Söylədiyi mətnlər: Göz ətinin təmizlənməsi. **Lətifələr:** Daş dillənəndə sən də dillən; Rəiyyət oğluna gedib oynuya-oynuya gəz. **Atalar sözü və məsəllər:** 3, 4, 7, 22, 23, 29, 36, 54, 62, 64, 68, 69, 81, 86, 95, 102, 103, 104, 119, 120, 139, 162, 163, 164, 165, 166, 168, 171, 188, 204, 205, 216, 217, 219, 246, 250, 260, 297, 298, 301, 314, 317, 318. **Deyimlər:**



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

3, 22. **Bayatılar:** 278-dən 329-dək. **Düzgülər:** 1, 2, 6. *Toplayan: Z.Fərhadov*

Nuruşov Aydın Nuruş oğlu, Cəbrayıl rayonunun Qumlaq-Dərzili kəndi, təvəllüdü 1935. Suraxanı rayonunda məskunlaşıb. Söylədiyi mətnlər: Seyid Əbil, Pir dərəsi, Çaylı kəndi, İlan tutan seyidlər (III-IV mətnlər). *Toplayan: Z.Fərhadov*

Qasımov Əziz Mirhadı oğlu, Qubadlı rayonunun Hacılı kəndi, təvəllüdü 1937, ali təhsilli. Söylədiyi mətnlər: Mir Sədi ağa (I-II mətnlər); Mir Məhəmməd ağa. *Toplayan: Z.Fərhadov*

Qurbanova Sənəm Aydın qızı, Ağdam rayonunun Əlağalı kəndi, təvəllüdü 1937. Ağdaş rayonunun Şəmsabad kəndində məskunlaşıb. Söylədiyi mətn: Seyid Füqəra (III mətn). *Toplayan: İ.Rüstəmzadə*

Quliyeva Adilə Fərrux qızı, Laçın rayonunun Seyidlər kəndi, təvəllüdü 1934. Vaxtılə tibb bacısı işləyib. Bakı şəhərində məskunlaşıb. Söylədiyi mətnlər: **Miflər, əfsanə və rəvayətlər:** İnsanlar necə gözüqıpıq oldu?; Məhəmməd peyğəmbərin ölümü (II mətn); Şah Abbas (III-IV mətnlər); Qurdağzı duası (III mətn); **Etnoqrafik mətnlər:** 1, 6; **İnamlar, yasaqlar:** 27; **Lətifələr:** Mollanın tərs oğlu; Korun ürəyindən keçən. *Toplayan: İ.Rüstəmzadə*

Rəhimova Züleyxa Əzim qızı, Şuşa rayonunun Səbxanlar kəndi, təvəllüdü 1932, tibb bacısı işləyib. Söylədiyi bayatılar: 373, 374, 375, 376. *Toplayan: İ.Rüstəmzadə*

Rzaquliyev Əli Qurban oğlu, Zəngilan rayonunun Vejnəli kəndi, təvəllüdü 1966. Ali təhsilli, müxbir işləyib. Müvəqqəti olaraq Xırdalan rayonunda məskunlaşıb. Söylədiyi mətnlər: Seyid Həsən ağa (V-XII mətnlər); Yal piri. *Toplayan: İ.Rüstəmzadə*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Salahov Valeh İdris oğlu, Laçın rayonunun Lolabarı kəndi, təvəllüdü 1932, orta təhsilli. Vaxtilə aqronom işləyib. Söylədiyi mətnlər: **Miflər, əfsanə və rəvayətlər:** Qaraçuxa (I mətn); Ovçu Pirim (I mətn); Qocaya ehtiram; Şıx Əhməd baba; Həmzə bulağı; İsgəndər (II mətn). **Nağıllar:** Musa Allahı qonaq çağırır; Əzrayılın qardaşlığı (IV mətn); İnəyin qarnındakı buzov**. Lətifə:** Şah Abbas və Kəlniyyət. *Toplayan: İ.Rüstəmzadə*

Salmanov Mürşüd Həsən oğlu, Ağcabədi rayonunun Hindarx qəsəbəsi, 1935-ci il təvəllüdlü. Vaxtilə xanəndəlik edib. Söylədiyi mətnlər: **Miflər, əfsanə və rəvayətlər:** İsgəndər (V mətn); Aşıq Ələsgər. **Nağıllar:** Allahın hörmətli bəndəsi (III mətn); Şah Abbasla soyğunçular; Nuşirəvan padşah; **Lətifələr:** Dəryadan çıxan əl; Qiymətli kəllə. *Toplayanlar: İ.Rüstəmzadə, Z.Fərhadov*

Süleymanov Əli Rəmdar oğlu, Ağdam rayonunun Ətyeməzli kəndi, vaxtilə bənna işləyib. Ağdaş rayonunun Qumlaq kəndində məskunlaşıb. Söylədiyi mətnlər: **Miflər, əfsanə və rəvayətlər:** Seyid Füqəra (IV mətn); Ətyeməzli kəndi; Qışın dostluğu; **Nağıllar:** Heyvanların dili (I mətn), Çobanın Həcc ziyarəti; Süleymana qalmayan dünya (I mətn); Kor canavarın qisməti; Fərasətli qardaşlar; Dilimi mehriban-çılığa öyrədirəm; İnsan nəslinə çəkər (I mətn); Üzlü qonaq; Mollay-nan Keçal; Keçalnan Kosa; Şərikli kömbə; Yeddi korun nağılı; Döyülən axmaq; Toyuq oğrusu; Naşı oğru; Padşahın baş ağrısı; Qoşunbasan. **Lətifələr:** Ulaq gəlir, kəs qabağını; Ölü də halva yeyər?; Maa da inəyim qaldı; Onsuz da düşəcəkdim; Abdal Qasımla erməni aşığı; Lahıclıların duz əkməsi; Lahıclıların odun yığması; Başın qoltuq görməyib; Qazının bölgüsü; Molla sənin dayındı; Xərcin-xurcun nə çıxır?; Sən sənsənsə, bəs mən kiməm?; Kişisən, stolun haqqını ver; Qırqovul deyib yeyirəm; Deyingən ər; İki aşığın deyişməsi; Məni suya aparın; Mən çərdəyi çıxardıb atdım; Bu günün qabağında qar durar? Tülkü tülkülüyünü bildirincə. **Tapmaca:** 1. *Toplayan: İ.Rüstəmzadə*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şahmarova Nazxanım Məhəmməd qızı, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi, təvəllüdü 1936, təhsilsiz. Söylədiyi mətnlər: Həzrət Əlinin evlənməsi; Qeyri-müəyyən şəxsli övliyalar (I və II mətnlər); Fala baxma; Həzrət Əli ilə Cinni Cəfər. *Toplayan: Z.Fərhadov*

Şükürov Ramiz Qəhrəman oğlu, Beyləqan rayonunun Birinci Şahsevən kəndi, 55 yaşında. Söylədiyi mətnlər: Şah Abbas (II mətn); Gürcühani; Şah Abbasla pinəçi; İnsan nəslinə çəkər (II mətn); Loğman (III mətn). *Toplayan: Z.Fərhadov*

Təhməzova Gözəl Behbud qızı, Cərbayıl rayonunun Xələfli kəndi, təvəllüdü 1921, təhsilsiz. Söylədiyi mətnlər: **Mif, əfsanə və rəvayətlər:** İnsanın yaranması (II mətn); Gün və Ay (I və II mətnlər); Şeytan; Karvanqıran ulduzu; Ülkər ulduzu; Qadınların şikayəti; Pərvanəyə dönən çoban; Qanlıgöl əfsanəsi; Kəmənd qayası; Dovşan harın-qarının pişiyidir; Xıdır Nəbi (III mətn); Ovçu Pirim (IV mətn); Peyğəmbərin qarğışı və alqışı; Dünya daşqını (I mətn); Davud peyğəmbər; Yusif peyğəmbər; Həreylan; Əlinin andı; Yerin-göyün ağırlığı (II mətn); Həzrət Əliynən gavur; Qılınc kəsməz Əli; Həzrət Əlinin ölümü; Ağ divin barmağını çatan Əli; İnadkar gavur; Qarqışlaq piri; Molla Alı (I və II mətnlər); Gordu baba; Mərmər piri; Şıx ata (I mətn); Pir Avıd; Fatma nənə; İsgəndər (I mətn); İlan davası (I mətn). **Nağıllar:** Qolunda qırx kəlin gücü olan kişi; Heyvanların dili (II mətn); İsgəndər; Kasıbın qisməti; Ölünün şahidliyi; Süleymana qalmayan dünya (II mətn); Quş sümüyündən ev (II mətn); Əlinin divanı; Nişanlısını itirmiş ilan (II mətn); Şah Abbas və oğrular; Qocaların öldürülməsi; Hücürəvan padşah; Loğman (IV mətn); Dağyunusun xəzinəsi. **Atalar sözü və məsəllər**: 13, 14, 25, 33, 34, 35, 45, 46, 65, 71, 76, 90, 94, 111, 117, 129, 130, 152, 153, 154, 173, 189, 190, 191, 213, 228, 232, 236, 237, 238, 239, 263, 273, 280, 290, 292, 293, 306, 326. **Bayatılar:** 1-dən 277-dək. **Bağlamalar:** 1, 2. *Toplayan: Z.Fərhadov*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yunusova Fatma Əhməd qızı, Cəbrayıl rayonu, yeddi illik təhsil, təvəllüdü 1930. Hazırda İmişli rayonundakı qaçqın şəhərciyində məskunlaşıb. Söylədiyi mətnlər: Hacı Qaraman (X-XVII mətnlər); Yəhya Çələbi; Mazan nənə (II mətn). *Toplayanlar: İ.Rüstəmzadə, Q.Qubadov.*

Zülfəliyev Eldəniz, Ağcabədi rayonunun Sarıcalı kəndi, təvəllüdü 1969. Söylədiyi mətnlər: Çörəyin ərşə çəkilməsi (II mətn); Başını alladıb uduram; Deyirsən heç eləmirsən; Heç nə. *Toplayan: Z.Fərhadov*



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## BAŞLIQLAR

**İnstitutdan** ................................................................ **3**
**Tərtibçilərdən** ............................................................ **6**

**I. MİFLƏR, ƏFSANƏ VƏ RƏVAYƏTLƏR**
İnsanın yaranması ........................................ 15
Mizan-tərəzi ................................................ 16
Gün və Ay .................................................. 16
Şeytan ........................................................ 17
Allah bərəkət paylayır ................................. 17
Karvanqıran ulduzu .................................... 17
Ülkər ulduzu ............................................... 17
Qadınların şikayəti ...................................... 18
Çörəyin ərşə çəkilməsi ................................ 19
Nəhəng insanlar haqqında ........................... 20
Kişilərin sancısı ........................................... 20
İnsanlar necə gözüqıpıq oldu? ..................... 21
Haramlıq necə yarandı ................................. 21
Pərvanəyə dönən çoban ............................... 22
Qanlıgöl əfsanəsi ......................................... 22
İsaq-musaq quşu .......................................... 22
Üç qardaş ..................................................... 23
Kəmənd qayası ............................................ 23
Kəkliyin ayağı niyə qırmızıdır? ................... 23
Dovşan harın-qarının pişiyidi ...................... 24
Hal haqqında ................................................ 24
Cin haqqında ............................................... 32
Qaraçuxa ..................................................... 37
Taxtım taxt olunca, baxtım baxt olsun ......... 38
Xıdır Nəbi ................................................... 39
Ovçu Pirim .................................................. 40
**Peyğəmbərlər və dini şəxsiyyətlər haqqında**
Məhəmməd peyğəmbərin Həcc ziyarəti ...... 42



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məhəmməd peyğəmbərin doğuluşu ............................ 43
Gavurun peşmançılığı ................................................ 44
İçkinin haram buyrulması ........................................... 44
Peyğəmbərin qarğışı və alqışı ..................................... 45
Məhəmməd peyğəmbərin ölümü ................................ 45
Yazıya ofsanat ........................................................... 46
Dünya daşqını ............................................................ 47
Nuh peyğəmbərlə ilan ................................................. 49
Davud peyğəmbər ...................................................... 50
Süleyman peyğəmbərlə Rüstəm Zal ........................... 51
Süleyman peyğəmbərin ölümü ................................... 52
İbrahimxəlil peyğəmbər .............................................. 53
İsmayıl peyğəmbər ..................................................... 54
Yusif peyğəmbər ........................................................ 59
Tük gətirən adam ....................................................... 59
Musanın allahlıq istəyı ............................................... 60
Allahdan küsən çoban ................................................. 60
Hər kəsin öz şəxsiyyəti var ........................................ 61
Həreylan .................................................................... 62
Əlinin andı ................................................................. 62
Yerin-göyün ağırlığı ................................................... 62
Həzrət Əliynən gavur ................................................. 63
Qılınc kəsməz Əli ...................................................... 64
Həzrət Əlinin ölümü ................................................... 64
Ağ divin barmağını çatan Əli ..................................... 65
Günü günortadan qaytaran .......................................... 66
İnadkar gavur ............................................................. 67
Həzrət Əlinin evlənməsi ............................................. 68
Can Qənbər ............................................................... 68
Kim qüvvətdi padşahdı? ............................................ 69
Həzrət Əlinin Ümbülvəninlə evlənməsi ...................... 70
Yesən qismətindi, yeməsən yox ................................. 71
Qocaya ehtiram .......................................................... 71
İnşallahsız iş olmaz .................................................... 72



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Pirlər və ocaqlar haqqında**


Hacı Qaraman ........ 72
Hacı Qasım Çələbi ........ 86
Alı Çələbi ........ 96
Yəhya Çələbi ........ 99
Yasin Çələbi ........ 100
Mir Sədi ağa ........ 100
Mir Məhəmməd ağa ........ 101
Mir Həmzə Nigari ........ 102
Seyid Həsən ağa ........ 103
Seyid Füqəra ........ 115
Həmzə bulağı ........ 119
Dağyunus ........ 120
Qara Pirim ........ 122
Seyid Yəhya ........ 123
Seyid Əmrah ........ 125
Şıx Əhməd baba ........ 125
Əli bulağı ........ 126
Mazan nənə ........ 126
Aşıq Qurbani piri ........ 128
Seyid Əli ........ 129
Qarqışlaq piri ........ 130
Molla Alı ........ 131
Gordu baba ........ 131
Seyid Əbil ........ 131
Seyid Rza ocağı ........ 132
Seyid Heydər ağa ........ 132
Lələ ocağı ........ 134
Cəbrayıl ata piri ........ 134
İmam ocağı ........ 135
Hacı Məcnun ........ 135
Kəmər Qoşmar ........ 135
Pir dərəsi ........ 136
Yal piri ........ 136




PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qaradəyə piri ........................................................137
Qırxlar piri ...........................................................138
Dağdağan piri ........................................................138
Mərmər piri............................................................138
Şıx ata ..................................................................138
Pir Avıd..................................................................139
Fatma nənə.............................................................139
Çaxırlı ocağı ..........................................................139
Ərəstə ocağı ...........................................................140
Düldül piri..............................................................140
Qeyri-müəyyən şəxsli övliyalar..............................140
**Tarixi şəxsiyyətlər haqqında**
İsgəndər .................................................................141
Şah Abbas ..............................................................144
**Aşıq rəvayətləri**
Sarı Aşıq ................................................................146
Aşıq Ələsgər ..........................................................148
**Toponomik rəvayətlər**
Gürcühani ..............................................................150
Ətyeməzli kəndi......................................................150
Ana-bala qayası ......................................................150
Çaylı kəndi..............................................................151
Hacılar kəndi...........................................................151
**Müxtəlif mövzulu rəvayətlər**
Qışın dostluğu.........................................................151
İnam.......................................................................151
Yaxşı qonşu ...........................................................152
Salavat çəkməyin savabı..........................................153
Gölə qələm sancan...................................................154
Cənnətin qapısını birinci açan .................................154
Yonqarına bərəkət....................................................155
Min şükür................................................................155
Xeyir əməl ..............................................................156
Ağlarsa, anam ağlasın..............................................157



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ayının qızı oğurlaması ............................................158
İlan davası..............................................................158

**II. VERGİLİ ADAMLAR**

Göz ətinin təmizlənməsi ..........................................160
İlan tutan seyidlər ....................................................160
Fala baxma..............................................................163
Buta vermə..............................................................163

**III. OVSUNLAR**

İlan duası.................................................................164
Qurdağzı duası.........................................................164
Uşağın çilədən çıxarılması.......................................165

**IV. ETNOQRAFİK MƏTNLƏR**...................................166

**V. İNAMLAR, YASAQLAR** .........................................174

**VI. NAĞILLAR** .............................................................179

Qolunda qırx kəlin gücü olan kişi ............................179
Heyvanların dili .......................................................181
Tülküynən Tozdu bəyin nağılı..................................184
Məleykəylə evlənmiş oğlan......................................187
Qaraçuxasını axtaran kasıb......................................188
İsgəndər ..................................................................192
Kasıbın qisməti........................................................194
Naxırçının nağılı ......................................................197
Ölünün şahidliyi .......................................................200
Çobanın Həcc ziyarəti ..............................................201
Allah görür...............................................................202
Peyğəmbərin qürrələnməsi ......................................203
Süleyman və ahular .................................................205
Süleymana qalmayan dünya....................................206
Quş sümüyündən ev.................................................209
Musa Allahı qonaq çağırır........................................212
Allahın hörmətli bəndəsi ..........................................213
Cənnət xidmətçisi ....................................................217
Borclunu borcdan qurtaran Əli.................................219



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Əlinin divanı ..........................................................222
Həzrət Əli ilə Cinni Cəfər.........................................223
Əzrayılın qardaşlığı ..................................................225
Nişanlısını itirmiş ilan ...............................................229
Şah Abbas və oğrular................................................232
Şah Abbasla üç bacı .................................................233
Şah Abbasla pinəçi ...................................................235
Şah Abbasla bostançı................................................236
Şah Abbasla soyğunçular..........................................243
Nuşirəvan padşah......................................................245
Bir qaz olsa, yolarsanmı? ..........................................248
Allahdan istəyən Şah Abbas.....................................251
Qocaların öldürülməsi ..............................................252
Hücürəvan padşah.....................................................254
Hər vilayətdə bir ev tik .............................................258
Bu günü də belə itirdik .............................................258
İnəyin qarnındakı buzov...........................................259
Ağlımı alınca, pulumu al ..........................................260
Loğman.....................................................................261
Quş dindi, nə apardı ki, mən də dinim.......................268
Mənə rəhm eliyən, Allah sənə zülm eləsin................269
Dağyunusun xəzinəsi................................................270
Kor canavarın qisməti...............................................271
Fərasətli qardaşlar.....................................................274
Dilimi mehribançılığa öyrədirəm ..............................282
İnsan nəslinə çəkər....................................................285
Üzlü qonaq................................................................289
Mollaynan Keçal.......................................................293
Keçalnan Kosa..........................................................296
Şərikli kömbə............................................................303
Yeddi korun nağılı....................................................308
Döyülən axmaq.........................................................312
Toyuq oğrusu............................................................314
Naşı oğru...................................................................316



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Padşahın baş ağrısı....................................................319
Qoşunbasan..............................................................320
Özgəsinə quyu qazan özü düşər.................................321
Axmaq canavarın nağılı............................................323
**VII. LƏTİFƏLƏR**
**Molla Nəsrəddin haqqında** ........................................325
Ulaq gəlir, kəs qabağını ...........................................325
Ölü də halva yeyər? .................................................325
Maa da inəyim qaldı .................................................327
Onsuz da düşəcəkdim ...............................................328
Arvad gətirib............................................................329
Mollanın tərs oğlu....................................................329
**Bəhlul Danəndə haqqında**
Arvad feli.................................................................329
Qurumsaqların yoldaşı..............................................331
Başını aldadıb uduram ..............................................332
Arvada sirr vermək olmaz .........................................332
Əmanətə xəyanət ......................................................334
Allah-tala bimir nə vaxt yağdırmaq lazımdı? ...........335
Mayama ziyan eliyir .................................................336
Müsəlmanların Allahı ...............................................336
Dəryadan çıxan əl ....................................................337
Qiymətli kəllə ..........................................................338
**Şah Abbas haqqında**
Şah Abbas və Kəlniyət .............................................399
Şah Abbasla bərəçi ...................................................340
**Abdal Qasım haqqında**
Abdal Qasımla erməni aşığı ......................................342
Bir qarıngah oxuyun .................................................342
**Lahıclılar haqqında**
Lahıclıların duz əkməsi .............................................343
Lahıclıların odun yığması..........................................344
**Siriklilər haqqında**
Şığıdığın bəsdi, bir az da qanad çal ...........................345



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bu nə qəşəng moskviçdi ....................................345
Mənimki də noldadı ....................................346
İstini içəri verir, tüstünü çölə ....................................346
**Kəbirlilər haqqında**
Kəbirlinin çomağını qalaylatması ....................................346
Kəbirlinin ağsaqqalı ....................................348
**Bağırbəyli əhvalatları**
Dağ boyda olardı ....................................348
Elə toxumdu ki... ....................................349
Uşaqları suvarmağa gətirmişəm ....................................349
Əl çəkin yaxamdan ....................................350
Qoyun isinək ....................................351
**Müxtəlif mövzulu lətifələr**
Başın qoltuq görməyib ....................................352
Qazının bölgüsü ....................................354
Molla sənin dayındı ....................................356
Molla itə dua yazır ....................................356
Xərcin-xurcun nə çıxır? ....................................357
Sən sənsənsə, bəs mən kiməm? ....................................357
Kişisən, stolun haqqını ver ....................................358
Qırqovul deyib yeyirəm ....................................359
Deyingən ər ....................................360
İki aşığın deyişməsi ....................................361
Məni suya aparın ....................................364
Mən çərdəyi çıxardıb atdım ....................................365
Bu günün qabağında qar durar? ....................................365
Qoydum, qaçdım ....................................366
Tülkü tülkülüyünü bildirincə ....................................367
Korun ürəyindən keçən ....................................367
Gəlinin abidi yoldan çıxartması ....................................367
Peyğəmbərin qarğışı ....................................368
Uşağın çörəyini əlindən alırsan ....................................369
Məni görəndə lal olursan ....................................369
Daş dillənəndə sən də dillən ....................................369



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Rəiyyət oğluna gedib oynuya-oynuya gəz ................370
Onsuz da əlli qəpik verəcəm......................................370
Xəbəri padşaha necə çatdırmalı? ...............................371
Deyirsən, heç eləmirsən.............................................371
Heç nə .......................................................................371
Arvadı necə ağıllandırmalı? ......................................372
Bizə işdəsin, biz də onnan yeyək...............................374
Ay qız, qızı qızdan al, qızı qıza ver ...........................374
Deyirsən, yəni aşıqlı eliyərdim? ................................374
Boşboğaz insanlar......................................................375
Şahım, ayaqyolundakı söz .........................................376
Aşıq gördüyünü çağırar .............................................376
Düy şalıma, at dalıma ................................................377
Korun könlündəki ......................................................378
**VIII. ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR** .......................379
**IX. DEYİMLƏR**..............................................................393
**X. TAPMACALAR** .........................................................395
**XI. BAYATILAR**..............................................................400
**XII. LAYLALAR, NAZLAMALAR**...............................428
**XIII. CIRNATMALAR**...................................................430
**XIV. BAĞLAMALAR**.....................................................431
**XV. DÜZGÜLƏR**............................................................432
**NAĞILLARIN SÜJET GÖSTƏRİCİSİ** .........................436
**SÖYLƏYİCİLƏR HAQQINDA MƏLUMAT** ................445



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Qarabağ: folklor da bir tarixdir, I kitab**
**(Ağdam, Füzuli, Ağcabədi, Cəbrayıl, Zəngilan,**
**Qubadlı, Laçın və Kəlbəcər rayonlarından**
**toplanmış folklor örnəkləri)**.
Bakı, "Elm və təhsil", 2012.

Nəşriyyat redaktoru:
**Səbinə İsayeva**

Kompyuterdə yığan:
**İlahə Cəlilova**

Korrektor:
**Könül Əliyeva**
**Elnarə Əmirli**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Ruhəngiz Əlihüseynova**

Kağız formatıI: 70/100 1/16
Mətbəə kağızı: №1
Həcmi: 38,75 ç/v
Tirajı: 400

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompyuter Mərkəzində yığılmış, "Elm və təhsil" NPM-də
ofset üsulu ilə çap olunmuşdur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com